ABİD TAHİRLİ

AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATINDA PUBLİSİSTİKA (1921–1991)

Y610
T17

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

ABİD HƏMİD OĞLU TAHİRLİ

239766

Azərbaycan mühacirət mətbuatında publisistika

(1921-1991)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

B A K I - 2005

Bakı Dövlət Universiteti Jurnalistika fakültəsi Elmi Şurasının, mətbuat tarixi və ideoloji iş metodları, jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedralarının 26 aprel 2005-ci il tarixdə keçirilmiş birgə iclasının qərar və tövsiyəsi ilə nəşr olunur.

Elmi redaktor: **Şamil Vəliyev**
filologiya elmləri doktoru

Rəyçilər: **Xeyrulla Məmmədov**
filologiya elmləri doktoru, professor
Bayram Ağayev
filologiya elmləri namizədi

Abid Tahirlinin "Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991)" monoqrafiyası Azərbaycan mətbuat tarixinin və publisistikasının mürəkkəb və hələ araşdırılmamış bir sahəsinin tədqiqinə həsr olunmuşdur. Əsərdə müəllif yüzlərlə mötəbər mənbəyə istinad edərək mühacirət mətbuatının yaranması və inkişaf mərhələləri, mühacirət publisistikasının mövzusu, ideya-siyasi istiqamətləri, sənətkarlıq məsələləri barədə ətraflı məlumat verir. Monoqrafiyada toxunulan problem ciddi təhlil edilir, elmi-nəzəri həllini tapır və müasir tələblər baxımından dəyərləndirilir.

Monoqrafiya mühacirət problemi ilə maraqlananlar və xüsusilə ali məktəblərin jurnalistika fakültələrinin tələbələri üçün nəzərdə tutulmuşdur.

© Abid Tahirli 2005

MÜNDƏRİCAT

F.e.d., prof. Xeyrulla Məmmədov. Sahənin lokomotivi 5-10

I. Giriş 11-24

II. BİRİNCİ FƏSİL
Mühacirət mətbuatının təşəkkülü və inkişaf mərhələləri
1.1. Mühacirət jurnalistikası tarixinə bir nəzər 25-43
1.2. Mühacirət mətbuatının inkişaf mərhələləri
və əsas orqanları 44-122

III. İKİNCİ FƏSİL
Mühacirət publisistikasının mövzusu, ideya-siyasi istiqamətləri
2.1. Rus əsarətinə və bolşevizmizə qarşı
ideoloji mücadilə.....123-137
2.2. İstiqlal və istiqlal qəhrəmanları 138-143
2.3. Mühacirət mətbuatında Qafqaz birliyi ideyası.....144-242

IV. ÜÇÜNCÜ FƏSİL
Mühacirət publisitikasında sənətkarlıq məsələləri
3.1. Publisistika tarixi və elmi-nəzəri irsindən 243-249
3.2. Mühacirət publisistikasının sənətkarlıq məsələləri
və onun özünəməxsüs xüsusiyyətləri..... 250316
V. Nəticə 317-320
VI. Xülasə (rus dilində) 321-322
VII. Xülasə (ingilis dilində) 323-324
VIII. İstifadə olunmuş ədəbiyyat 325-366
IX. Əlavələr
1. Abid Tahirlinin mühacirət problemi ilə bağlı
tədqiqatları haqqında rəylər və ürək sözləri.....367-427
2. Mühacir nəşrlərin faksimelləri 428-516
3. A.Tahirlinin tədqiqatları ilə bağlı mətbuatda
dərc olunmuş bir sıra məqalələrin foto surətləri 517-524

SAHƏNİN LOKOMOTİVİ

Mühacirətə münasibət birmənalı olmamışdır. Bu da həmin problemin mahiyyətindən irəli gəlir: insanların bir qismi tarixən siyasi və iqtisadi münasibətlərin təsiri ilə öz Vətənlərini tərk etmək və başqa ölkələrdə məskunlaşmaq məcburiyyətində qalmışlar. Onların bu addımı tərk etdikləri ölkədə maraq dairəsinə görə dəyərləndirilmişdir. Məsələn, Sovet dövründə rejim və ideologiyanın tərəfdarları mühacirləri "Vətən satqınları", "dönüklər" adlandırmış, onlara qarşı kəskin əks-təbliğat aparmışlar. Bununla kifayətlənməyən qüvvələr xaricdə mühacirləri izləmiş, onları terrora məruz qoymuş, Vətəndə isə mühacirlərin qohumlarını, əqidə, əməl dostlarını təqib, sürgün etmişlər. Mühacirlərin böyük əksəriyyəti amal, məslək iradə baxımından sarsılmaz olduqları üçün onlar xaricdə də fəaliyyətini davam etdirmiş, ideya düşmənlərinə qarşı fasiləsiz mübarizə aparmışlar. Bax, həmin fəaliyyətin nəticəsində böyük irs formalaşmışdır. Və onun araşdırılması, dəyərləndirilməsi maraqlı olduğu qədər də aktual və əhəmiyyətlidir. Bu mənada filologiya elmləri namizədi Abid Tahirlinin ötən əsrin 80-ci illərinin sonundan araşdırmağa başladığı mühacirət problemi və xüsusilə mühacirət mətbuatı ilə bağlı tədqiqatları və nəhayət, "Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991)" adlı monoqrafiyası, sanbalı, konseptuallığı ilə diqqəti çəkir. Elmi - tədqiqat işi uzun və gərgin axtarışlara, yüzlərlə ilkin mötəbər mənbəyə, məxəzə istinad edilərək qələmə alınmışdır. Sahənin yeni olması tədqiqatçını daha da ciddi və məsuliyyətli işləməyə sövq etmişdir. Tədqiqatçının elmi-nəzəri qənaətləri, bir sıra məsələlərdə, xüsusilə mühacirət jurnalistikası və mühacirət mətbuatının tarixi ilə bağ-

lı fikirlərdə prinsipial mövqeyi bu sahədə aparılacaq araşdırmaların daha effektli, obyektiv olmasına zəmin yaradır. Abid Tahirlinin nəzəri, təcrübi professionallığı tədqiqatın səviyyəsinə birbaşa təsir edir."Giriş" və "Mühacirət mətbuatının təşəkkülü və inkişaf mərhələləri", "Mühacirət publisistikasının mövzusu, ideya-siyasi istiqamətləri", "Mühacirət publisistikasında sənətkarlıq məsələləri" adlı fəsillər monoqrafiyanın məzmununu, orada qoyulmuş problemləri tam əhatə edir, elmi, məntiqi ardıcıllıqla bir-birini tamamlayır . "Giriş"də tədqiqatçı mövzunun aktuallığını və əhəmiyyətini tutarlı faktlarla əsaslandırır, tədqiqatın predmetini, məqsəd və vəzifələrini, elmi yeniliyini konkret şəkildə göstərir. "Mühacirət mətbuatının təşəkkülü və inkişaf mərhələləri" adlı birinci fəslin iki paraqrafında tədqiqatçı mühacirət jurnalistikası tarixinə nəzər salır və mühacirət mətbuatının inkişaf mərhələləri və əsas orqanlarından ətraflı bəhs edir. Bu fəsildə müəllif problemlə bağlı ilk dəfə irəli sürdüyü faktlar və elmi nəzəri qənaətləri ilə diqqəti çəkir. Tədqiqatçı ilk dəfə olaraq mühacirət jurnalistikası tarixini xronoloji ardıcıllıqla izləyir, mühacirət publisistikasının ilk nümunələrini yaratmış Cəmaləddin Əfqani, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli, Məhəmməd Hadi, Məmməd Əmin Rəsulzadə kimi amal və kəlam sahiblərinin irsində mühacirət dövrünün yerini və rolunu dəyərləndirir. Dövrün, mövcud ictimai-siyasi mühitin xarakterik cəhətlərini nəzərə almaqla mühacirət mətbuatının inkişaf mərhələlərinin təsnifatını aparan müəllif diqqətçəkən elmi nəticələrə gəlir. O, mühacirət mətbuatını haqlı olaraq aşağıdakı kimi qruplaşdırır:

- Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra yaranan ilk satirik nəşr - "Molla Nəsrəddin" jurnalı (Təbriz, 1921). Jurnal kifayət qədər araşdırıldıqından, tədqiqat işində bu nəşr barədə geniş bəhs edilməsi məqsədəmüvafiq sayılmamışdır.

-Azərbaycan Xalq Cumhuriyyətinin süqutundan sonra ölkəni

tərk etməyə məcbur olan mühacirlərin siyasi nəşrləri - "Yeni Qafqasya" (1923-1927), "Azəri-türk" (1928-1930), "Yaşıl yarpaq" (1928) , "Odlu yurd" (1929-1931), "Bildiriş" (1930-1931). 1923-1931-ci illərdə işıq üzü görən bu orqanları şərti olaraq İstanbul nəşrləri adlandırmaq olar. "Azərbaycan" (Paris,1926).

- Azərbaycan mühacirlərinin elmi-nəzəri-mədəni nəşri "Azərbaycan yurd bilgisi" (1932-1934 və 1954).

- 1930-cu illərin Azərbaycan mühacirət mətbuatı: ("İstiqlal" qəzeti (1932-1934), "Qurtuluş" jurnalı (1934-1939), "Milli Azərbaycan Müsavat Xalq Firqəsi" bülleteni №1, 1936) . Bunlardan başqa, həmin dövrdə 1-2 nömrəsi çapdan çıxan məcmuələr: "Açıq söz" (1936, 2 nömrə), "Kutlu od" (1936-1937, 2 nömrə), "Aydın yol" (1937, 1 nömrə), "Doğru söz" (1937, 2 nömrə), "Vətən diləyi" (1937, 2 nömrə), "Milli atəş" (1938, 1 nömrə), "Millət andı" (1938, 1 nömrə), "Yasamız" (1938, 1 nömrə), " İlham qaynağı" (1938, 1 nömrə) , "Müqəddəs Odlar ölkəsi" (1938, 1 nömrə), "Haqqın səsi" (1938, 1 nömrə), "Dilək" (1939, 4 nömrə), "Haqq" (1939, 1 nömrə), "Həmlə" (1939, 1 nömrə).

- İkinci Dünya müharibəsi dövründə legionerlərin Berlin nəşrləri : "Azərbaycan", "Hücum", "Milli birlik" (1943-1945).

- 1950-80-ci illərin mühacir nəşrləri: "Azərbaycan" (1952, Ankara), "Azərbaycan" (1952, Münhen), "Mücahid" (1955), "Türk yolu" (1951), "Ərqənəqon yolu" (1951), "Türk izi" (1951) və s. - 1980-ci illərin ikinci yarısından nəşrə başlayan mətbuat: "Ana dili" (Bonn), "Odlar ölkəsi" (Edinburq), "Dədə Qorqud" (İspaniya), "Qürbət (Brüssel), "Aydınlıq" (London), "Azərbaycan türkləri", "Xəzər (İstanbul), "Azərbaycan" (Stokholm), "Azərbaycan" (Vaşinqton), "Araz" (Lund, İsveç), "Azər" (Berlin), "Savalan" (Berlin), "Ərk" (Almaniya), "Ziya" (Moskva), "İnam" (Sankt-Peterburq), "Savalan" (Dnepropetrovsk), "Millət" (Simferopol), "Araz" (Kişinyov) və s.

- Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı

dövrdə (1991-ci ildən) nəşr olunan mətbu orqanlar. Bu dövrdə ABŞ, Rusiya Federasiyası, Ukrayna, Almaniyada bir sıra mühacir nəşrlər fəaliyyət qöstərirlər.

Bu təsnifatı əsas götürən müəllif ayrı-ayrı mətbu orqanların nəşr tarixi, proqramı, naşir və redaktorları, mühərrirləri, toxunduğu mövzular barədə qısa məlumat verməklə mühacirət mətbuatının ümumi mənzərəsini yaratmış olur.

Tədqiqatçı dolğun, tutarlı faktlara istinad edərək mühacirət mətbuatının "Yeni Qafqasya" ilə yox, "Molla Nəsrəddin" jurnalının Təbriz nömrələri ilə başladığını qeyd edir. "Mühacirət publisistikasının mövzusu, ideya-siyasi istiqamətləri" adlanan II fəslin iki paraqrafında tədqiqatçı mühacirət publisistikasının toxunduğu mövzuları yüzlərlə mənbəyə istinad edərək qruplaşdırır. Haqlı olaraq bu qənaətə gəlir ki, rus imperiyasına və bolşevizmə qarşı ideoloji mücadilə, istiqlal tarixi və istiqlal qəhrəmanlarının həyat və fəaliyyəti, Qafqaz birliyi ideyası mühacirət publisistikasının aparıcı mövzusu olmuşdur. M.Ə.Rəsulzadənin, Mirzə Bala Məmmədzadənin, Əhməd Cəfəroğlunun, M.Mehdiyevin və başqa qələm sahiblərinin yaradıcılığından gətirdiyi çox sayda nümunələrlə müəllif həmin materialların bu gün də aktual olduğunu qeyd edir. O yazır ki, Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra rejimin və ideologiyanın tələbi ilə tarix də saxtalaşdırılmağa başlandı. Azərbaycan Xalq Cumhuriyyəti xalqa zidd dövlət kimi tənqid atəşinə tutulmuşdur, 1920-ci il aprel inqilabı isə mədh olunurdu. İş o həddə çatmışdı ki, 1918-ci il martın 31-də ermənilərin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlar əksinqilabçı qüvvələrlə mübarizə kimi təqdim edilirdi. Bax, belə bir dövrdə həqiqəti yalnız "Yeni Qafqasya" söyləyirdi. Mart qırğınının dəhşətlərinə, əsl mahiyyətinə, törədilməsi səbəblərinə, şanlı Türk Ordusunun Bakıdakı və Azərbaycanın digər bölgələrindəki erməni-bolşevik quldurlarını darmadağın etməsinə, 28 May – istiqlal gününə, 27 Aprel – işğal və matəm

gününə dair jurnalda dərc edilən yazılar həmin dövrdə ideoloji mübarizəyə, ictimai rəyin düzgün formalaşdırılmasına xidmət edirdisə, bu gün mötəbər mənbə, tarix üçün zəngin xəzinədir.

"Mühacirət publisistikasında sənətkarlıq məsələləri" adlı III fəslin iki paraqrafında tədqiqatçı ən əvvəl Azərbaycan publisistika tarixi və publisistikasının elmi-nəzəri irsinə nəzər salır. M.F.Axundov, H.Zərdabi, N.Vəzirov, M.Sidqi, M.Ə.Talıbov, Z.Marağayi, E.Sultanov, F.Köçərli, M.Şaxtaxtinski, Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, T.Bayrəmlibəyov, S.M.Qənizadə, N.Nərimanov, Ə.Haqverdiyev, R.Əfəndiyev kimi qələm sahiblərinin publisistikanı bir janr kimi yeni məzmun və forma baxımından zənginləşdirdiklərini qeyd edən A.Tahirli mühacirət publisistikasının da Azərbaycan mühacirət tarixində yeri və rolunu təhlil süzgəcindən keçirərək yüksək dəyərləndirir.

Tədqiqatçı Abid Tahirli mühacirət publisistikasının xarakterik və fərqli cəhətlərini məharətlə açıqlayır. O göstərir ki, mühacirət publisistikası bir tərəfdən mövzuya uyğun olaraq alovlu, pafoslu ifadə tərzi ilə fərqlənir, digər tərəfdən kövrək, həzin üslubu ilə seçilir. Əgər söhbət Azərbaycan istiqlalından, bolşevizmə və rus imperializminə qarşı mübarizədən gedirsə, publisistik nümunələr mübariz ruhu, prinsipial mövqeyi, kəskin ifadə və ibarələri ilə diqqəti çəkir: əgər müəllif Vətən həsrətindən, qürbət həyatından bəhs edirsə, mətn üçün obrazlı, ehtiraslı dil səciyyəvidir. Abid Tahirli yazır: "Mühacir mətbuatında publisistika tamamilə yeni keyfiyyət və yeni mahiyyət, məna kəsb edir. Mühacirlərin ideoloji mübarizəsində kəskinliyi, son dərəcə sərtliyi ilə seçilən publisistik nümunələr, həm də mühacirət həyatının salnaməsidir.

Beləliklə, ölkədə yaşayıb-yaradan müəlliflərin publisistikası ilə mühacirətdə yaranan publisistikanı bir-birindən kəskin fərqləndirən bir sıra xüsusiyyətlər ortaya çıxır:

– bütün çətinliklərə rəğmən mühacirət publisistikası ideyanı, fikri ifadə etmək baxımından daha sərbəst və azaddır;

– ölkədəki publisistika sovet dövründə senzuralı, sifarişli partiyalı olduğundan müəyyən çərçivəyə salınır, sovet həyat tərzinin tərənnümçüsü rolunu oynayırdı, mühacirət publisistikası üçün bir tərəfdən döyüşkənlik və üsyankarlıq, digər tərəfdən həsrət, vətən yanğısı çox xarakterikdir: – qürbət həyatının çətinlikləri mühacirət publisistikasında bir sıra dil, üslub problemləri yaratmışdır;

– ötən əsrin 20-30, 50-60-cı illərində buraxılan mühacir nəşrlərdə ərəb, osmanlı, 80-90-cı illərdə mətbu orqanlarında tez-tez təsadüf edilən fars sözləri mətni ağırlaşdırır, ona xələl gətirir;

– mühacirət publisistikasınn oxucu auditoriyası kimi mövzu dairəsində nisbətən məhduddur. Rus imperializminin, bolşevizminin ifşası SSRİ xalqlarının dözülməz, ağır həyatı, istiqlal tarixi və istiqlal uğrunda mücadilə aparan qəhrəmanların həyat və fəaliyyəti, sovet rejiminin təyziq , təqib və işgəncələrinə məruz qalan insanların taleyi, Qafqaz birliyi ideyası, Sovetlərin ədəbi-mədəni və din sahəsindəki siyasətinin tənqidi mühacirət publisistikasının aparıcı mövzuları olmuşdur."

Abid Tahirli mühacir müəlliflərin publisistika irsindən nümunələr verməklə onların sənətkarlıq problemlərini dərindən təhlil edir, dəyərləndirir, müvafiq elmi- nəzəri qənaətlərə gəlir. Tədqiqatçı monoqrafiyanın "Nəticə" hissəsində problemin həlli ilə bağlı araşdırmaları ümumiləşdirir, yekunlaşdırır, sahə tədqiqatçıları qarşısında duran vəzifələrindən bəhs edir, bu gün də aktual və əhəmiyyətli olan mühacirət mətbuatı probleminin, o cümlədən publisistikasının daha geniş şəkildə tədqiqinin vacibliyini göstərir.

Beləliklə, Abid Tahirlinin monoqrafiyası ilə bağlı fikirlərimizi yekunlaşdıraraq, bu qənaətə gəlirik ki, elmi-tədqiqat işini cəsarətlə sahənin lokomotivi adlandırmaq olar.

Xeyrulla MƏMMƏDOV
filologiya elmləri doktoru,
professor

GİRİŞ

Tarixin müəyyən inkişaf mərhələsində ictimai-siyasi həyatın, insanlar və dövlətlər arasındakı münasibətlərin, hərbi-ideoloji münaqişələrin məhsulu kimi ortaya çıxan mühacirət ümumbəşəri bir problemdir. Dilimizdə insanların könüllü, yaxud zorla yerdəyişməsi ilə bağlı çox sayda sözlər var. "Mühacir", "diaspor", "miqrasiya", "didərgin", "qaçqın", "deportasiya", "repartasiya" və s. "Azərbaycan dilinin izahlı lüğəti"ndə "mühacirət" sözü belə açıqlanır: "Mühacirət – siyasi-iqtisadi və ya dini səbəbdən məcburi və ya könüllü olaraq öz Vətənini tərk edib başqa ölkəyə keçmə" (16, 376). Elə həmin mənbədə "mühacir" sözünün izahı isə fikrimizcə, bir qədər mübahisəlidir: "Mühacir. 1. Siyasi-iqtisadi və digər səbəb üzündən Vətəni tərk edib başqa ölkəyə keçən və orada yaşayan adam. 2. Yeni yerə, yeni torpaqlara keçən və ya köçürülən adam (16, 376). Burada xüsusilə, "yeni yerə və yeni torpaqlara köçən və ya köçürülən" ifadəsi dolaşıqlıq yaradır. Vətənin sərhədləri daxilində yeni yerə və yeni torpaqlara köçürülən, yaxud köçən adamı, bizcə, mühacir adlandırmaq olmaz. Çünki "mühacir" sözünün ərəbcə hansı məna çaları və tarixi yük daşıdığından asılı olmayaraq, bu ifadə dilimizdə artıq "vətəni tərk etmiş adam" mənasını verən söz kimi daşlaşmışdır.

Yeri gəlmişkən, "Azərbaycan Sovet Ensiklopediyası"nda "mühacir" sözü ilə bağlı deyilir ki, "mühacir" ərəb sözüdür və başqa yerə keçən, keçmək – tərk etmək mənasını verir. Sonra ASE-də "mühacir" sözünün etimologiyası ilə bağlı yazılır: "Mühacir - 622-ci ildə Məhəmməd peyğəmbərlə birlikdə Məkkədən Mədinəyə köçmüş ilk müsəlmanlara verilən ad" (8, 137). Hə-

min mənbədə "mühacirət" sözü isə belə mənalandırılır: "Mühacirət-adamların ölkədən köçməsi və ya məcburi köçürülməsi. Əsasən iqtisadi (işsizlik), yaxud siyasi (inqilab, müharibə) səbəblərdən irəli gəlir. Ölkədən məcburi sürgünedilmə deportasiya, mühacirlərin vətənə qayıtması isə repartasiya adlanır (8, 137). "Ərəb və fars sözləri lüğəti"ndə mühacir – köçmüş, öz yerini tərk edib başqa yerə köçən adam, mühacirət – öz vətənənini tərk edib başqa bir ölkəyə köçmə kimi izah edilir (56).

Bəzən "əhali miqrasiyası" ilə "mühacirət" məfhumları eyniləşdirilir. Hər iki halda adamlar könüllü, yaxud məcburi öz ocaqlarını tərk edirlər. Lakin əhali miqrasiyası daha geniş məna, məzmun kəsb edir. Digər tərəfdən isə əhalinin miqrasiyası bir ölkə çərçivəsində də mümkündür. Eyni sözləri "didərgin" ifadəsinə də müəyyən dərəcədə şamil etmək olar.

"Əhali miqrasiyası", "didərgin", "qaçqın", "köçkün" ifadələrində bir zorakılıq çaları da var. Beləliklə, "mühacir" sözünün başlıca məziyyəti, məna çaları hər hansı səbəbdən Vətəni tərk etmiş və sərhədin o tayında məskunlaşmış adamdır.

Mühacir, mühacirət mövzusu ilə bağlı ədəbiyyatda tez-tez diaspor və lobbi kəlmələrinə də təsadüf edilir. "Diaspor" sözü ASE-də belə açıqlanır: "Diaspor – xalqın (etnik birliyin) xeyli hissəsinin yaşadığı ölkədən xaricdə olması. Diaspor zorla köçürtmə, genosid təhlükəsi, iqtisadi və coğrafi amillərin təsiri nəticəsində yaranmışdır (8, 437).

İlk baxışda "mühacirət" sözü ilə "diaspor" ifadəsi arasında elə ciddi məna, məzmun fərqi görünmür. Lakin dilimizdə "diaspor" ifadəsi mühacirətin bir növ təşkilatlanmış, daim fəaliyyətdə olan qolu kimi anlaşılmaqda, işlənməkdədir.

Son vaxtlar mühacirət mövzusu ətrafında söhbət gedəndə hökmən lobbidən də bəhs olunur. Bu səbəbsiz deyil. Çünki, xüsusilə Sovet imperiyası dağıldıqdan sonra xalqımız lobbiçiliyin güc və qüdrətini, təsirini, təəssüflə, deyək ki, acı və ağır zərbəsini hiss etdi. Bu fikri inkişaf etdirmədən "lobbi nədir" sualına cavab verməyə çalışaq. Türkiyə xarici siyasət İnstitutu tərəfindən 1985-ci ildə N.Nisa Bayramoğlunun "ABŞ-da lobbi fəaliyyəti" adlı maraqlı kitabı çap olunmuşdur (695). Orada lobbiçilik, onun yaranma səbəbləri, fəaliyyət dairəsi, məqsədi, konkret olaraq yunan və erməni lobbisi, onların ABŞ-ın siyasi həyatındakı rolu ilə bağlı geniş, dolğun məlumat verilmişdir.

Lobbi hərəkatdır. Müəyyən etnik azlıqların, onları müdafiə edənlərin dövlət siyasəti səviyyəsinə yüksələn və ona təsir edən hərəkatıdır. Lobbiçilərin başlıca məqsədi təmsil etdikləri etnik azlığın mənafeyini müdafiə etmək, həmin xalqın mədəniyyətini yaymaq, özləri haqqında müsbət ictimai rəy yaratmaq, Vətənlə yaşadıqları ölkənin münasibətlərinə yaxşı mənada təsir göstərmək, öz mənafelərinə zidd saydıqları məsələni həll etmək və s.-dir. N.Bayramoğlunun fikrincə, lobbi fəaliyyətinin uğurlu olması üçün ən başda gələn faktor birlik və davaya bağlılıqdır.

"Lobbi" sözü daşıdığı "dəhliz" mənasını tədricən yeni çalarlarla zənginləşdirmişdir. Yuxarıda adı çəkilən kitabda göstərilir ki, lobbiçilik Amerika həyatının bir parçasına çevrilmişdir. ABŞ-da ən güclü lobbi yəhudi, yunan, erməni, yapon, tayvan lobbisi sayılır. Həmin lobbilərin fəaliyyətləri ilə bağlı saysız-hesabsız misallar gətirmək olar. Məsələn, ABŞ-ın üç nəhəng televiziya şəbəkəsindən ikisi - En-Bi-Si və Si-Bi-Es, habelə ən nüfuzlu qəzetlərdən olan "Nyu-York tayms", "Vaşinqton Post", "Nyu-York Nyuz" yəhudi lobbisinin nəzarəti altındadır. Erməni lobbiçiləri ABŞ Konqresi qarşısında dəfələrlə 1915-ci il erməni genosidi adı altında məsələ qaldırmışlar. 1989-cu ildə erməni iddialarına tərəfdar çıxaraq senatın xarici işlər komissiyası Dağlıq Qarabağ haqqında bədnam qərar çıxarmışdır. Fəal lobbiçilər təmsil etdikləri millətin nümayəndələri üçün yaşadıqları ölkələrdə məktəblər, kitabxanalar, xəstəxanalar tikdirir, institut və universitetlərdə öz dillərində şöbə, yaxud fakültələr açır, qəzet və jurnallar buraxırlar. Təkcə ABŞ-da ermənilər 30-dan çox qəzet və jurnal, kitablar buraxırlar. ABŞ-dakı erməni lobbisinə rəhbərlik edən

Amerika erməni məclisinin Vaşinqtonda mərkəzi, Los-Ancelosda şöbəsi var. Ona yaxın erməni partiyasının fəaliyyəti lobbiçiliyə bu və ya digər formada xidmət edir. Erməni lobbisinin bilavasitə yardım və təsiri ilə ABŞ, Fransa kimi dövlətlərin, BMT-nin strukturlarında milliyyətcə erməni və yaxud ermənipərəst kadrlar yerləşdirilmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, SSRİ dağıldıqdan sonra lobbiçiliyin - erməni lobbiçiliyinin ən ağır zərbəsi məhz bizim xalqımıza dəyibdir. SSRİ-nin süqutu ilə ermənı lobbisinin Moskvada illər uzunu fəaliyyət göstərən və heç də ABŞ və Fransadakı erməni lobbisindən zəif olmayan bir qüvvənin böyük şəbəkəsi açıq, fəal fəaliyyətə keçdi. Bunun acı nəticəsi göz qabağındadır. Məhz Moskva erməni lobbisinin fəaliyyəti sayəsində Azərbaycan öz haqlı, ədalətli mübarizəsi barədə dünyada vaxtında və düzgün ictimai rəy yarada bilməmişdir. Qanlı 20 Yanvar 1990-cı il qırğınında erməni lobbiçiliyinin barmağı olmadığını söyləmək çətindir. Dağlıq Qarabağ probleminin ortaya atılması, şişirdilməsi, münaqişə və müharibəyə çevrilməsi, erməni mövqeyinin açıq-aşkar müdafiə olunması, məhz erməni lobbisinin cirkin əməlidir.

Azərbaycan mühacirəti ilə bağlı bir sıra elmi məqalələrin müəllifi Ramiz Əsgər "ABŞ-da erməni lobbisi" adlı məqaləsində yazmışdır: "Ermənilərin ABŞ-da yaşayan digər etnik qruplardan əsas fərqi ondadır ki, onlar Ermənistan dövlətinin mənafeyini deyil (çünki belə bir dövlət sadəcə yoxdur), ümumən ermənilərin mənafelərini müdafiə edirlər" (58). SSRİ dövründə deyilmiş bu fikirlə mübahisə də etmək olar, amma əsas odur ki, erməni lobbiçiliyi erməni kilsəsi ilə birgə ümumerməni mənafeyindən çıxış etmiş və etməkdədir. Bəs dünyadakı, o cümlədən Ermənistandakı erməni əhalisinin sayından da çox Azərbaycan mühacirətində də lobbi hərəkatı varmı? Çox təəssüflər ki, yoxdur və belə bir hərəkat yaratmağa təşəbbüslər göstərməkdən irəli addım atılmamışdır. Ən ağırı və dəhşətlisi odur ki, Azərbaycan mühacirətində lobbi hərəkatı nəinki dəstəklənmir,

əksinə, bu fikirə ciddi etiraz edənlər, ona qarşı çıxanlar tapılır. Sənəti və fəaliyyəti ilə az-çox tanınan bir almaniyalı həmvətənimiz bu mövzuda hər hansı söhbəti eşitmək istəmədiyini və lobbini irqçilik, milli ayrı-seçkilik kimi qəbul etdidyini bildirir. Həmvətənlərimizin çox hissəsi isə qəlbən lobbi hərəkatı yaratmaq istəyindədir. Lakin onlar açıq-aşkar bu hərəkata qoşulmağa, Azərbaycan məsələsi uğrunda mübarizə meydanına atılmağa ehtiyat edirlər. Əksəriyyəti Cənubi Azərbaycandan olan həmvətənlərimizin bu hərəkətini başa düşmək çətin deyil. Ümumiyyətlə, lobbi hərəkatı müəyyən tarixi dövrün məhsuludur. Bunun üçün mühacirət özündə müəyyən mənəvi, milli, hətta maddi dəyərlər formalaşdırmalı və öz imkanlarının bir hissəsini bu məqsədə sərf etməyə hazır olmalıdır. Lobbi hərəkatının əmələ gəlməsinə təsir edən başqa bir amil onun respublika hökuməti tərəfindən dəstəklənməsi ola bilər. Bu gün Azərbaycan lobbisini yaratmaq yalnız xoş arzudur. Lakin on-on beş ilə belə bir qüvvətli, qüdrətli lobbinin yaranacağına şübhə yoxdur. Hələlik isə xaricdə həmvətənlərin fəaliyyətini respublikamızda baş verən hadisələrə sönük, passiv reaksiya adlandırmaq olar. Bu fəaliyyət hadisələrdən-hadisələrə, daha dəqiq desək, faciələrdən-faciələrə (məsələn, 1990-cı il 20 Yanvar qırğını, 1992-ci il 26 fevral Xocalı faciəsi, 1993-cü il 3 aprel Kəlbəcərin işğalı və s.) qabarır və sönür. Ardıcıl, sistemli bir və yaxud bir neçə mərkəzdən idarə olunan mühacirət fəaliyyəti barədə danışmaq hələ tezdir. Əlbəttə, bu, ümmuiyyətlə, belədir. Lakin tək-tək həmvətənlərimiz var ki, onlar daim Azərbaycan naminə qızğın fəaliyyət göstərir, bir an da olsa, dayanmırlar.

Sovet rejiminin çökməsindən və kommunist ideologiyasının iflasa uğramasından, 1991-ci il oktyabr ayının 18-də "Azərbaycan Respublikasının istiqlaliyyəti haqqında" Konstitusiya aktının qəbul edilməsindən - yeni dövr milli - azadlıq mübarizəsinin nəticəsi kimi Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra milli-mənəvi irsin yenidən dəyərlərləndirilməsi tarixi zə-

rurət kimi meydana çıxdı və XX əsrin 80-ci illərinin sonundan aktuallaşmış bu iş yeni mərhələyə qədəm qoydu. Sovet dövründə qərəzli münasibətin hədəfinə tuş olmuş mühacirət problemi də obyektiv, ədalətli, elmi, hər cür saxtakarlıqdan uzaq həllini gözləyirdi. Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində ayrı-ayrı tədqiqatçılar bu sahədə ilk addımlar atmağa başlamış, mühacirət irsinin araşdırılması ilə bağlı ilk əsərlər işıq üzü görmüşdür. "Dəmir pərdə"nin götürülməsi, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin genişlənməsi, xarici ölkələrdə və respublikamızda irimiqyaslı tədbirlərin keçirilməsi bir tərəfdən mühacirət problemini daha da aktuallaşdırırdı, digər tərəfdən elmi tədqiqatların sürətinə təkan verirdi. 1988-ci ilin əvvəllərindən "Vətən" Cəmiyyətinin fəaliyyətə başlaması, 1989-cu ildə İstanbulda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi, xarici ölkələrdə bir-birinin ardınca mədəniyyət mərkəzlərinin yaradılması, "31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, "Azərbaycanlıların həmrəyliyi günü haqqında" Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 25 dekabr 1991-ci il tarixli qərarlarının (7, 576, 580) imzalanması, 1993-cü ildə xalqın iradəsi ilə ölkəyə rəhbərliyə gətirilən, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici dövlətlərə, o cümlədən Böyük Britaniya, Almaniya, Fransa, Belçika, Türkiyə, Rusiya, ABŞ, Çin, Polşa, Danimarkaya rəsmi səfərləri zamanı həmvətənlərlə görüşməsi və nəhayət, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının 27 dekabr 2002-ci il tarixli Qanunu, 2001-ci ildə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması mühacirət probleminə həm geniş xalq kütləsi, həm də elmi ictimaiyyət arasında böyük maraq oyadırdı. Prof. Vaqif Arzumanlı haqlı olaraq qeyd edirdi ki, 1993-cü ildə respublikamızın müstəqilliyinin başı üzərini ağır bir təhlükə aldığı bir vaxtda Azərbaycanın rəhbərliyini, son dərəcə çətin bir şəraitdə belə məsuliyyətli vəzifəni öz üzərinə götürən Heydər Əliyev qısa müddət ərzində nəinki ölkəmizi bu böhrandan çıxarmağa nail oldu, həm də xaricdəki soydaşlarımızla əlaqələrin genişlənməsi, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində diasporun qüvvəsindən lazımi səviyyədə istifadə olunması sahəsində böyük uğurlar qazandı (7, 273).

Doğrudan da, Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin mühacirətlə bağlı söylədikləri həm xaricdə yaşayan soydaşlarımız, həm də ölkə vətəndaşları qarşısında bu sahə ilə bağlı aydın və perspektivli proqram idi. O, Dünya Azərbaycanlılarının həmrəyliyi günü münasibətilə müraciətində deyirdi: "Bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycanı özlərinin tarixi Vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə ölkəmizə bağlı olan hər bir şəxsdə, azərbaycanlılıq, vətənpərvərlilik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir. Vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır" (50).

Azərbaycan mühacirəti isə dünyanın əksər ölkələrində məskunlaşmış böyük, güclü qüvvə idi.

Əski Rusiya imperiyası hüdudlarında sovet rejimi bərqərar olduğu ilk illərdə Rusiya Federasiyasından, Ukrayna, Belarus, Azərbaycan, Gürcüstan və digər respublikalardan yüz minlərlə insan didərgin salındı, onlar təqib, terror və edamlardan qurtulmaq üçün vətəni tərk etdilər, xarici ölkələrə üz tutdular. SSRİ ərazisindən çıxan və müxtəlif millətləri təmsil edən mühacirlər əqidələrinə, mübarizə formalarına, sosial tərkibinə, sayına, maliyyə imkanlarına, təşkilatlanma və səfərbər olmaq meylinə, məharətinə görə bir-birindən fərqlənirdilər.

239766
M.F.Axundov adına
Azərbaycan Milli

Azərbaycan mühacirlərinin keçdiyi mübarizə yolu çətin, ağrılı, ziddiyyətlərlə dolu, eyni zamanda şərəfli, faydalı olmuşdur. 1920-ci il 27 apreldən - XI Qızıl Ordu Azərbaycanı işğal edəndən 1991-ci ilədək - Azərbaycan öz müstəqilliyini yenidən elan edənədək mühacirlər vətənin istiqlalı uğrunda fasiləsiz mücadilə etmişlər. Bu yolda onların maddi çətinlikləri, mənəvi sarsıntıları, mübarizə taktikası, təşkilatlanma formaları ilə bağlı bəzən ciddi ixtilafları, qarşılıqlı ittihamları da olmuşdur.

Digər tərəfdən, qürbətin həyat tərzi, bolşevizmə qarşı mübarizə üçün qeyri-stabil şərait, eyni zamanda mühacirlərə sığınacaq vermiş ölkələrə SSRİ-nin diplomatik kanallarla təzyiqi, sovet kəşfiyyat orqanlarının təqibi, terroru onların mücadiləsinə təsir edən amillər idi.

Bütün sadalanan və sadalanmayan problemlər bolşevizmə qarşı axıradək amansız ideoloji mübarizə aparmağa mane ola bilməmişdir. Mühacirlərin bu müqəddəs mücadiləsi indi tarixə çevrilmişdir. Lakin onların fəaliyyəti nəticəsində formalaşan və bu mübarizənin bütün çalarlarını özündə əks etdirən zəngin irsi qalmaqdadır. Bu xəzinə Azərbaycan mühacirlərinin sovet mühacirləri sırasında çəkisini, yerini və rolunu dəyərləndirmək üçün də əvəzsiz mənbədir. Mühacirət problemlərinin sanballı tədqiqatçılarından X.İbrahimli yazır: "Tək praktiki fəaliyyətdə deyil, nəzəri yaradıcılıqda da Azərbaycan mühacirəti öncüllərdən olmuşdu. Öz məzmun və keyfiyyətinə, eyni zamanda yazılan əsərlərin kəmiyyətinə, ümumi həcminə görə Azərbaycan mühacirətinin yaratdığı irsi Rusiya və Ukrayna mühacirətinin yaratdığı irs ilə müqayisə etmək olar" (73, 282). Bu fikirlə əsasən razılaşdığımızı bildirməklə yanaşı, onu da qeyd etməliyik ki, "nə" və "necə" yaradıldığının fərqinə varmasaq, "nə qədər" məsələsində erməni mühacirlərinin də fəallığı faktdır.

Çap məhsulları, xüsusilə mətbu nəşrlər mühacirlərin fəaliyyəti haqqında geniş və aydın təsəvvür yaradır. Bu mənada 20-ci ildən başlayaraq "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd",

"Bildiriş", "Azərbaycan yurd bilgisi", "İstiqlal", "Qurtuluş", "Qafqaz", "Azərbaycan" (Paris), "Azərbaycan" (Ankara), "Azərbaycan" (Münhen), "Mücahid", "Türk izi" və s. kimi qəzet və jurnallar buraxan Azərbaycan mühacirlərinin fədakar mübarizəsinin parlaq mənzərəsi göz önünə gəlir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, uzun müddət YUNESKO-da çalışmış Ramiz Abutalıbov Parisə – Versal Sülh Konfransına yola düşən və məlum səbəblərə görə bir daha geri qayıtmayan Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin Fransadakı fəaliyyəti barədə yazır: "Mən sənədləri nəzərdən keçirərkən, Əlimərdanbəy Topçubaşının rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Versal Sülh Konfransındakı keyfiyyətli işinin şahidi olarkən, heyranlığımı qeyd etməyə bilmərəm. Onlar 1919-cu ilin mayından 1920-ci ilin aprelinə qədər olan dövrdə çox çətin şəraitdə Fransada 3 kitab, 12 bülleten, ölkənin xəritəsini, o cümlədən kütləvi informasiya vasitələrində çoxsaylı məqalələri çap etdirməyə nail olublar. Doğrusu, bu gün heç də hamımız xaricdə belə məhsuldar işimizlə qürrələnə bilmərik.

Onu da qeyd etmək istəyirəm ki, bu nümayəndə heyətinin üzvləri əsl Azərbaycan elitasının nümayəndələri idilər. Onların adlarını qeyd etmək yerinə düşərdi: Əlimərdanbəy Topçubaşı, Əkbərağa Şeyxülislamov, Məmmədhəsən Hacınski, Miryaqub Mirmehdiyev, Ceyhunbəy Hacıbəyli, Məmmədbəy Məhərrəmov və Abbasbəy Atamalıbəyov. Onların bu əməyi öz nəticəsini verdi, 1920-ci ilin yanvarında Azərbaycan Respublikası defakto tanındı" (2). Lakin mühacirlərin nəşrlərlə bağlı fəaliyyəti bununla da kifayətlənmir. Onlar Azərbaycan, türk, fransız, alman, ingilis, polyak və s. dillərdə onlarca broşüra, bülleten, kitab da çap etmişlər. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, təkcə Ankaradakı Azərbaycan Kültür Dərnəyinin xətti ilə 40-dan çox kitab və broşüra nəşr edilmişdir.

Çoxsaylı kitablar, habelə yüzlərlə elmi və publisistik məqalə-

lər mühacirət irsinin nə qədər zəngin, maraqlı olduğunu parlaq əks etdirir. O da xüsusilə vurğulanmalıdır ki, Azərbaycan mühacirləri özlərinin mətbu orqanlarını buraxmaqla yanaşı, sovet mühacirlərinin, xüsusilə digər qafqazlıların və türkdilli xalqların nəşr etdikləri qəzet və jurnallarda fəal çalışır, ifadəni bir qədər də dəqiqləşdirsək, bu işdə bəzən aparıcı rol oynayırdılar.

Mühacirlərin fəaliyyətində baş verən keyfiyyət dəyişiklikləri, onları əhatə edən ictimai-siyasi və tarixi şərait nəzərə alınmaqla mühacirət mətbuatının təsnifatı aparılmışdır.

Azərbaycan tarixinin, mədəniyyətinin tərkib hissəsi olan mühacirət irsinin obyektiv, qərəzsiz tədqiqi, real dəyərləndirilməsi aktual və əhəmiyyətlidir. Məsələ burasındadır ki, sovet rejimi və ideologiyasının tələbi və təzyiqi ilə milli - mənəvi sərvətlərə də münasibət elmi yox, partiyalı və sinfi olmuşdur.

Mühacirət irsinə kəskin düşmənçilik mövqeyindən yanaşılması nəticədə tarixi həqiqətlərin ciddi təhrif olunmasına, saxta, zərərli, yanlış dəyərləndirilməsinə gətirib çıxarmışdır. Bu səbəbdən doğru və obyektiv elmi qənaətlərə gəlmək üçün ümumiyyətlə, bir çox tarixi, ədəbi-mədəni proses və hadisələrin, xüsusilə mühacirətlə bağlı problemlərin yenidən araşdırılması, ölkə daxilində cərəyan etmiş ictimai-siyasi təbəddülatlar kontekstində tədqiqi olduqca vacibdir.

Mühacirlərin fəaliyyət dairəsinə daxil olan bütün sahələri özündə ehtiva edən, yaşadan mötəbər və zəngin mənbə kimi mühacirət mətbuatının öyrənilməsi, xüsusilə əhəmiyyətlidir. Publisistika isə mühacirət mətbuatında daha kəsərli, daha təsirli iz buraxmışdır.

İndiyə kimi mühacirət irsi, o cümlədən mətbuatının araşdırılması ilə bağlı bir sıra dəyərli işlər görülmüşdür. Ümumiyyətlə, yeni olan bu sahədə işlər bir neçə istiqamətdə həyata keçirilir:

- mühacirət irsi xaricdən gətirilərək arxiv və kitabxanalara verilir;
- müxtəlif aspektlərdən (ədəbi, mədəni, mətbu, siyasi və s.)

elmi-nəzəri tədqiqata cəlb edilir;
- nümunələr tərcümə olunaraq, yaxud Azərbaycan türkcəsinə uyğunlaşdırılaraq, ön sözlə, yeni tərtibdə, yaxud ilk dəfə nəşr olunur;
- mühacirlərin həyat və fəaliyyətinə həsr olunmuş elmi, elmi-publisistik əsərlər nəşr olunur;
- problemlə bağlı elmi, elmi-kütləvi tədbirlər, konfrans və simpoziumlar keçirilir;
- mühacirət mətbuatı ali məktəblərin jurnalistika fakültəsində tədris edilir.

Mühacirət, onun yaranması, inkişaf mərhələləri, irsinin araşdırılması yeni və mürəkkəb sahə olduğundan, elmi-nəzəri qənaətlərdə fərqli, mübahisə doğuran, bəzən də ziddiyyətli mövqelərin olması təbiidir. Məsələn, bu sətirlərin müəllifinin çap etdirdiyi "Azərbaycan mühacirəti haqqında düşüncələr" adlı məqaləsində (161, №28, 1992) XX əsr Azərbaycan mühacirətinin yaranması mərhələlərini belə təsnif etmişdir:

1. 1915-20-ci illər;
2. 1937-39-cu illər;
3. 1941-46-cı illər;
4. 1970-80-ci illər.

Azərbaycan mühacirəti haqqında ilk sanballı məqalələrin müəllifi Elçin isə Azərbaycan mühacirətinin yaranmasını tarixi baxımdan belə qruplaşdırırdı:

-birinci nəsil - XIX əsrin sonlarından başlayaraq Azərbaycan Demokratik Respublikası qurulana qədər mühacirət edənlər;

-ikinci nəsil - ADR-in devrilməsi ilə mühacirət edənlər;

-üçüncü nəsil - İkinci Dünya müharibəsi qurtardıqdan sonra Vətənə dönməyənlər;

-dördüncü nəsil - 1978-ci il İran İslam inqilabından sonra Cənubi Azərbaycandan xarici ölkələrə axışanlar (44).

Xaləddin İbrahimli (73), N.Nəsibzadə (103), A.Həşimova (61), V.Sultanlı (112), Ş.Həsənova (59), N.Cabbarlı (40),

A.Rüstəmli (111), N.Yaqublu (271), Z.Əliyev (49), mühacirətdə M.B.Məmmədzadə (528), H.Baykara (312), M.Kəngərli (382-384), Ə.Qaraca (422) kimi müəlliflərin, habelə türkiyəli tədqiqatçılar M.Çulçu (696), S.Şimşir (699), Ə.Uzun (700), Ə.Akpinar (694) və başqaları mühacirət, onunla bağlı problemlərlə əlaqədar bir sıra əsərlər yazmışlar.

Lakin mühacirət problemi ilə bağlı araşdırmalarda pərakəndəliyin, bəzən də məsələyə yanaşma metodu və tərzində qüsurların olduğu da şübhəsizdir. Elə bunun nəticəsidir ki, indiyədək mühacirət irsi, o cümlədən mühacirət problemi və xüsusilə mühacirət mətbuatında publisistika milli sərvət kimi elmi fikirdə öz dolğun dəyərini ala bilməmişdir. Halbuki, həmin publisistikanın tədqiqi, dəyərləndirilməsi son dərəcə əhəmiyyətlidir. Mühacirət tarixini və mühacirlərin ideoloji mücadilə sahəsində fəaliyyətini öyrənmək baxımından da bu çox vacibdir. Mühacirət publisistikası bir tərəfdən, nəhəng sovet təbliğat maşını ilə döyüşən kəsərli vasitə, digər tərəfdən, qürbətin ağır, acı problemləri ilə üzüzə qalan, Vətən həsrəti ilə alışıb-yanan soydaşlarımızın yaralı qəlblərinə bir məlhəm idi. Həmin problemin araşdırılması, ümumiyyətlə, Azərbaycan publisistikasının inkişaf yolunu izləmək və dəyərləndirmək baxımından da əhəmiyyət kəsb edir.

Göründüyü kimi, sahənin araşdırılması, elmi-nəzəri dəyərləndirilməsi, problemə dair sistemli və irihəcmli monoqrafiyanın yazılmasını zərurətə çevirmişdir.

Mühacirət mətbuatı mühacirət irsinin əsasını təşkil edir. "Yeni Qafqasya" (273), "Azəri türk" (34), "Odlu yurd" (105), "Bildiriş", "Azərbaycan Yurd bilgisi" (36), "İstiqlal" (75), "Qurtuluş" (83), "Azərbaycan" (Ankara) (12), "Türk izi" (267), "Türk yolu" (268), "Azərbaycan" (Münhen) (14), "Qafqaz almanaxı" (80), "Mücahid" (Ankara) (101), "Ana dili", "Aydınlıq" (9), "Azər" (11), habelə "Prometey" (711), "Qafqasya" (79), "Birləşik Qafqasya" (39) və s. kimi mətbu orqanlarda müxtəlif mövzularda dərc olunmuş yüzlərlə publisistik materialdan əsərdə istifadə olunmuşdur. Dövlət (17-33) və şəxsi arxivlərdə saxlanılan sənədlər, mühacirət mətbuatı ilə bağlı digər materiallara istinad edilmişdir. Mühacirət irsi, tarixi və mətbuatı ilə bağlı ölkəmizdə və xaricdə nəşr olunan kitablar, dərc edilən məqalələr, xatirələr, resenziyalar, məktublar da tədqiq olunmuşdur.

Əsərdə əsas məqsəd Azərbaycan mühacirət mətbuatının təşəkkülü və inkişaf mərhələlərini, onu şərtləndirən başlıca amilləri, mühacirət publisistikasını, onun mövzusu, ideya istiqamətlərini, publisistikada istiqlal hərəkatının nəzəri və ideoloji problemlərini, ədəbiyyat və mədəniyyət məsələlərini araşdırmaq, onları müasir dəyərlər və tələblər baxımından təhlil etmək, qiymətləndirməkdir. Bu işin həyata keçirilməsi üçün aşağıdakı məsələlərə mühüm yer verilmişdir.

- mühacirət, onun yaranması, keçdiyi tarixi yol və problemlərini müasir tələblər baxımından araşdırmaq, mövcud elmi-nəzəri fikirlərə münasibət bildirmək, onu zənginləşdirmək;
- mühacirət jurnalistikası və mətbuatının yaranmasını və inkişaf mərhələlərini tədqiq etmək;
- mühacirət mətbuatındakı publisistik materialları mövzu, ideya, dil-üslub, sənətkarlıq baxımından təhlil etmək, dəyərləndirmək;
- mühacirət publisistikası nümunələri əsasında ayrı-ayrı müəlliflərin irsini, onların yaradıcılıq yolunu öyrənmək, qiymətləndirmək;
- publisistik materialların aktuallığı və əhəmiyyətini yeni tələblər kontekstində araşdırmaq, açıqlamaq.

Mühacirət mövzusunda ölkə mətbuatında ilk yazılar ötən əsrin 80-ci illərinin sonuna təsadüf edir. Bundan bir neçə il sonra problemin tədqiqi, elmi-nəzəri dəyərləndirilməsi sahəsində ilk addımlar atılmağa başlayır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bu sahədəki araşdırmalar yeni inkişaf mərhələsinə qədəm qoyur və bir sıra müəlliflər mühacirət probleminin ayrı-ayrı məsələləri və daha çox mühacirət tarixi və ədəbiyyatı ilə bağlı araşdırmalar aparırlar.

Bu məqsədlə ilk dəfə olaraq:

- mühacirət publisistikasının mövzusu, ideya istiqamətləri, dil, üslub, sənətkarlıq məsələləri kompleks şəkildə işlənmiş və ümumiləşdirilmişdir;
- Azərbaycan mühacirət jurnalistikası və mətbuatının yaranması, inkişaf mərhələləri elmi-nəzəri cəhətdən dəyərləndirilmişdir;
- mühacirlərin ədəbi-kulturoloji fəaliyyəti "Azərbaycan davası"nın əsas istiqamətlərindən biri kimi araşdırılmışdır;
- mühacirət publisistikasında daha çox nəzərə çarpan istiqlal hərəkatının tarixi və nəzəri-ideoloji problemləri müasir milli - dövlətçilik tələbləri baxımından qiymətləndirilmişdir;
- mühacirət publisistikasında Qafqaz birliyi mövzusu və bu ideyanın tarixi mahiyyəti açıqlanmışdır;
- ayrı-ayrı mühacir nəşrlərin təsnifatı verilmiş, qəzet və jurnallar mövzusuna, ideoloji mücadilədəki metoduna görə qruplaşdırılmış, mühacirət mətbuatının səciyyəvi cəhətləri göstərilmişdir.

Görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin ədəbiyyatşünaslığa, o cümlədən jurnalistika sahəsinə, publisistikaya, ona verilən tələblərə, mühacirət irsi və mətbuatına dair mülahizələri, tədqiqatçıların Azərbaycan mühacirəti problemi, xüsusilə mətbuatı ilə bağlı fikir və mühakimələri əsərdə əsas yeri tutur. Mövzunun təhlil və dəyərləndirilməsində, problemə yanaşmada tarixi müqayisə, təhlil və təsvir üsullarına üstünlük verilir.

Aktual və konkret bir problemə həsr olunmuş monoqrafiya işi mühacirət problemi, o cümlədən mətbuatı və publisistikası sahəsində olan boşluğu dolduracaq, mühacirətlə bağlı mülahizələri yeni fikir və qənaətlərlə zənginləşdirəcəkdir.

Heç şübhəsiz, bu əsər mühacirət probleminin daha dərindən tədqiqi və müvafiq sahənin tədrisi üçün baza olacaqdır. Hazırda respublikanın ali məktəblərində, o cümlədən Bakı Dövlət Universitetində, "Təfəkkür" Universitetində, Azərbaycan Beynəlxalq Universitetində, "Xəzər" Universitetində müəllifin mühacirət mətbuatı ilə bağlı nəşr etdirdiyi kitablardan dərs vəsaiti kimi istifadə olunur. Monoqrafiya gələcəkdə müvafiq sahədə dərsliyin hazırlanması üçün əsas olacaqdır.

I FƏSİL

Mühacirət mətbuatının təşəkkülü və inkişaf mərhələləri

1.1. Mühacirət jurnalistikası tarixinə bir nəzər

Azərbaycan mətbuat tarixinə, onun yaranması və inkişaf mərhələlərinə, ictimai-siyasi həyatda yeri və roluna, ayrı-ayrı nəşrlərin mövzusu, dil, üslub və sənətkarlıq problemlərinə dair ötən əsrin əvvəllərindən indiyədək xeyli əsər nəşr olunmuş, yüzlərcə məqalə çap edilmişdir. Hələ XX yüzilliyin əvvəllərində H.Zərdabi (276), F.Köçərli (69), (705), C.Hacıbəyli (177), Ə.Hüseynzadə (66), M.Ə.Rəsulzadə (109), T.Şahbazi (709), Ə.Abid (1), daha sonralar M.İbrahimov (74), K.Talıbzadə (264), Mir Cəlal (96), Q.Məmmədli (86), (87), (88), N.Axundov (4), (5), Ə.Mirəhmədov (97), (98), (99), F.Qasımzadə (78), A.Zeynalov (274), N.Zeynalov (275), X.Vəzirov (270), X.Məmmədov (89), M.C.Cəfərov (42), C.Xəndan (67), İ.Ağayev (3), Ş.Hüseynov (63, 64), A.Hüseynov (62), M.Qasımlı (77), S.Rüstəmova (107), Ş.Vəliyev (269) və başqaları mətbuat tarixi, ayrı-ayrı qəzet və jurnallar barədə dəyərli tədqiqatlar aparmış, maraqlı, bəzən də mübahisəli mülahizələr irəli sürmüş, bir sözlə, mətbuat tariximizin tədqiqi baxımından faydalı fəaliyyət göstərmişlər.

Lakin sovet dövründə rejimin, ideologiyanın təsiri, tələbi ilə mətbuat tarixinin araşdırılmasında, xüsusilə mətbu orqanın məramı, ideoloji, siyasi, mənəvi yönümü ilə bağlı təhriflərə, qə-

rəzli münasibətə yol verilirdi. Digər tərəfdən isə mətbuat tarixi bilərəkdən yarımçıq tədqiq və tədris edilirdi ki, bunun da nəticəsində Azərbaycan mətbuat tarixinin tərkib hissəsi olan Cənubi Azərbaycan və mühacirət mətbuatı ilə bağlı yazılar yalnız 1980-ci illərin sonundan KİV-də görünməyə başlamışdır.

Həmin materiallar daha çox informativ səciyyə daşıdığından problemin elmi-nəzəri tədqiqi baxımından qənaətbəxş hesab oluna bilməzdi. Yalnız 1990-cı illərin əvvəllərindən - mühacirət mövzusu müstəqil tədqiqat obyektinə çevriləndən sonra mühacirət mətbuatının da araşdırılmasının keyfiyyətcə yeni mərhələsi başlandı.

Azərbaycan mühacirəti, onun tarixi-təşkilatlanması, yaranma səbəbləri və mərhələləri, sosial-siyasi tərkibi, fəaliyyəti, digər problemləri ilə bağlı mətbuatda ilk dəfə dolğun, analitik, bir qədər də dəqiq desək, proqram-məqalə ilə çıxış edən yazıçı-ədəbiyyatşünas Elçin yazırdı: "... eyforiyaya qapılmadan Azərbaycan mühacirətini bir qurum kimi öyrənməli, elmi-nəzəri şəkildə onun demoqrafik, siyasi-ictimai və sosioloji təsnifatını verməliyik. İndiyə qədər məlum səbəblər üzündən bu sahədə, yəni Azərbaycan mühacirətinin öyrənilməsi sahəsində çox az iş görülmüşdür, ciddi, sanballı tədqiqatlar yox dərəcəsindədir, mühacirətə birtərəfli münasibət, bu münasibətdəki bədnam sinfilik prinsipi uzun zaman hakim ideologiyanın tərkib hissəsi olmuşdur" (44).

Diqqətçəkən və təqdirəlayiqdir ki, Azərbaycan mühacirət problemi son vaxtlar qardaş Türkiyə alimlərinin də ciddi maraq göstərdiyi sahəyə çevrilmişdir. Halbuki, on illər boyu Azərbaycan mühacirəti, onun mücadiləsi və problemləri layiq olduğu diqqətdən kənar qalmışdır. Buna işarə vuran Hüseyn Baykara özünün "Azərbaycan istiqlal mücadiləsi tarixi" adlı kitabına yazdığı "Ön söz"də ürək ağrısı ilə qeyd edirdi: "Konu Türkiyə basın dünyasına o qədər yabançı ki..." (səh.312, 13). Lakin son 10-15 ildə Türkiyədə Azərbaycan mövzusunda, eləcə də mühacirət irsi və tarixi ilə bağlı M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, M.Kəngərli, Ə.Qaraca, F.Aküzüm, K.Odər, C.Ünal, Ə.Y.Akpinar, Ə.H.Bayat, M.Saray, T.Akyol, Abdulxaliq Çay, B.Ərcilasun, F.Gülsevən, M.Çulçu, S.Alkın, T.Syvtoxovski, L.P.Hartil və s. kimi müəlliflərin təkrar, yaxud ilk dəfə çap olunan kitabları, qəzet və jurnallarda dərc edilən çox saylı məqalə, xatirələri bu boşluğu doldurmaqdadır.

Azərbaycan mühacirət probleminin, o cümlədən irsinin araşdırılması, elmi-nəzəri tədqiqi və dəyərlindirilməsi sahəsində ilk tədqiqat heç şübhəsiz, Mirzə Bala Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" adlı kitabıdır. Kitabın 1991-ci ildə Ankarada buraxılan ikinci nəşrinin "Ön söz"ündə deyilir ki, bu qiymətli əsər ilk dəfə 1938-ci ildə Almaniyanın paytaxtı Berlində o günün şərtlərinə görə məhdud sayda çap olunmuş və qısa bir zamanda da tükənmişdir (528).

M.B.Məmmədzadə əsərə yazdığı "Başlarkən" adlı girişdə böyük səmimiyyət və təvazökarlıqla mühacirət həyatında, məhdud məxəz və sənədlərə əsaslanaraq meydana gətirilmiş olan bu əsərin qüsurlu olacağını dərk etdiyini, lakin bundan daha mükəmməli, daha əhatəlisi meydana gəlincəyə qədər bu əsərin mövcud boşluğu doldurmağa yarayacağına ümid etdiyini və qüsurlarının bağışlanılmasını dilədiyini yazırdı.

Türkiyədə məskunlaşan və Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan mühacirlərin fəaliyyəti ilə bağlı sonralar da bu qəbildən əsərlər yazmağa təşəbbüs göstərilmişdir. Bu mənada Nağı Şeyxzamanlının "Azərbaycan istiqlal mücadiləsi xatirələri" (612) və Hüseyn Baykaranın "Azərbaycan istiqlal mücadiləsi tarixi" (528) adlı əsərləri diqqəti çəkir. Həmin müəlliflər də "gələcəkdə bu mövzuda daha yaxşı əsərlər" (528, 11) yazılacağına inanmış və "bu sətirlərlə tariximizin istiqlal mücadiləsi dövrünə bir parça işıq tutmağı milli ideala kiçik bir xidmət" (612, 10) hesab etmişlər.

Fikrimizcə, bu təşəbbüslərdən sonra Türkiyədə mühacirət ta-

rixi və irsinin elmi araşdırılmasına həsr olunmuş ilk sanballı tədqiqat işi dr.Səbahəddin Şimşirin "Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991)" adlı əsəridir (699). Tədqiqat işi prof. Dr.İsmayıl Aka, prof. Dr.Əli Heydər Bayat, dos.dr.Əhmət Özgiray, dos.dr.Bayram Bayraqdar və dos.dr.Yavuz Akpinardan ibarət elmi şurada doktorluq dissertasiyası kimi qəbul edilmişdir.

Kitaba "Ön söz" yazmış Azərbaycan Milli Mərkəzinin başqanı dr. Məhəmməd Kəngərli S.Şimşirin tədqiqatını "dəyərli", "son dərəcə yaxşı araşdırma" adlandırır və göstərir ki, əsər eyni zamanda, bu mövzuda tədqiqat və təhlillər aparacaq yazar və araşdırmalar üçün Türkiyə ağırlıqlı, dəyərli bir qaynaqdır. Dr. Məhəmməd Kəngərli yazır: "Dr. Səbahəddin Şimşirin "Azərbaycanlıların Türkiyədə siyasi və kültürəl fəaliyyətləri (1920-1991)" adlı əsəri siyasi mühacirətin Türkiyədəki fəaliyyətinin bilinməyən və ya bilinib yazılmayan xüsusları aydınlatıcı bir dəyərləndirmədir. Bu əsərin dəyəri oxunduqca, ortaya çıxacağından kitabı hər kəsimin oxumasında faydalar mülahizə etmək-dəyəm" (699, 18).

Dr. Səbahəddin Şimşirin əsəri "Giriş"dən və 5 bölmədən ibarətdir. Birnici bölmə "1920-1930-cu illərdəki fəaliyyətlər" adlanır. Müəllif burada Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bundan sonra azərbaycanlıların ölkəni tərk etməsi, M.Ə.Rəsulzadənin Moskva həyatı, Moskvadan qaçışı, İstiqlal uğrunda İstanbulda başlanan ilk fəaliyyəti, Azərbaycan Milli Mərkəzinin, Gənclər Birliyinin yaradılması, Müsavat partiyası mühacirətdə və onun istiqlal davası barədə tarixi sənədlərə, etibarlı mənbələrə istinad edərək elmi-nəzəri qənaətlərə gəlir, maraqlı fikir və mülahizələr irəli sürür. Bu zaman Türkiyədə təşkilatlanmağa, səfərbər olmağa və fəaliyyət göstərməyə başlayan Azərbaycan mühacirlərinin həyatı, mühacirətin müdhiş mənzərəsi bütün "rəngləri" ilə göz önünə gəlir.

Dr.Səbahəddin Şimşir M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" adlı əsərini (Azərbaycan Milli Nəşriyyatının birinci nəşri) Azərbaycan istiqlalı uğrunda ideoloji mübarizə yolunda "ilk milli iş" kimi dəyərləndirir, müəllifin elə həmin il (1923) nəşr etdiyi "Əsrimizin Səyavuşu" kitabının da yazılması tarixçəsi, məzmun və ideyası ilə bağlı fikirlərini bölüşür.

Mühacirlərin fəaliyyəti daha çox qəzet və jurnalların nəşri ilə faydalı və təsirli olurdu. İstiqlal aşiqlərinin bütün həyatı, yaradıcılığı, əməli, arzusu həmin dövrdə (1923-1931) buraxılan "Yeni Qafqasya" (1923-1927), "Azəri-türk" (1928-1930), "Yaşıl yarpaq" (1928), "Odlu yurd" (1929-1931), "Bildiriş" (1930-1931) adlı qəzet və jurnallarda öz əksini tapmışdır. Tədqiqatçı alim S.Şimşir hər bir nəşrin məqsədi, proqramı, siyasəti və onun Azərbaycan istiqlalı davasındakı yeri, rolu, redaktoru, məsul müdiri, yazarları haqqında geniş məlumat verir, söylədiyi fikirləri qəzet və jurnallardan gətirdiyi sitatlarla əsaslandırır.

Əsərin birinci bölməsində Milli Azərbaycan nəşriyyatının çap etdiyi 13 kitabın (M.Ə.Rəsulzadə. "Azərbaycan Cümhuriyyəti". İstanbul, 1341, "Əsrimizin Səyavuşu". İstanbul, 1342, "İstiqlal məfkurəsi və gənclik". İstanbul, 1925, "Rusiyada siyasi vəziyyət". İstanbul, 1925, "İnqilabçı sosializmin iflası və demokratiyanın gələcəyi". İstanbul, 1928, "Millətlər və bolşevizm" məqalələr məcmuəsi. İstanbul, 1928, M.B.Məmmədzadə. "Azərbaycan Misaqi Millisi". İstanbul, 1925, "Ermənilər və İran". İstanbul, 1927, "İstiqlal uğrunda" adlı şeirlər məcmuəsi, İstanbul (1928), Məmməd Şərif. "Azərbaycan və inqilabı". İstanbul, 1921, C.Zeynaloğlu. "Azərbaycan tarixi". İstanbul, 1924, "Azərbaycan Türk Federalist Müsavat Xalq Firqəsinin Proqramı". İstanbul, 1927, Yusif bəy Vəzirov. "Azərbaycan ədəbiyyatına bir nəzər". İstanbul, 1337) hər biri haqqında ətraflı bəhs edən tədqiqatçı kitabların məzmunu, ideya istiqaməti haqqında maraqlı mülahizələr yürüdür.

Tədqiqatın ikinci bölməsində mühacirlərin 1931-1947-ci illərdəki fəaliyyətindən bəhs olunur. Məlum olduğu kimi, SSRİ-

nin təkidli tələbi ilə azərbaycanlı mühacirlər 1932-ci ildə Türkiyədən çıxarılmış və bununla da onların qardaş ölkədə fəaliyyətlərinə müvəqqəti son qoyulmuşdur. Dr.S.Şimşir bu dövrün xarakteristikasını verərkən yazır: "Bu dönəm daha ziyadə Azərbaycan türkləri arasında qavğa-qırğınların ortaya çıxdığı bir dönəm olaraq dəyərləndirilə bilər. Xüsusilə M.Ə.Rəsulzadə, Məmməd Sadıq Aran, Şəfi bəy Rüstəmbəyli başda olmaq üzrə digər irəli gələnlərin bir-birlərinə qarşı dadsız suçlamaları görünməkdədir" (699, 69).

Müəllif haqlı olaraq mühacirlərin İkinci Dünya müharibəsinin başlanmasına, maddi və mənəvi məhrumiyyətlərə baxmayaraq, Türkiyə xaricindəki fəaliyyətlərini də izləyir, Avropanın bir sıra ölkələrində - Polşa, Fransa, Almaniya, Rumıniyada məskunlaşmağa məcbur olan mühacirlərin bolşevizmə və SSRİ-yə qarşı fasiləsiz ideoloji mübarizəsini qismən araşdırır.

Müəllif 1932-1934-cü illər arasında prof.Ə.Cəfəroğlunun redaktorluğu ilə İstanbulda nəşr olunan "Azərbaycan yurd bilgisi" adlı jurnalın, mühacirlərin Berlində buraxdıqları "İstiqlal" qəzetinin (1932-1934) və "Qurtuluş" məcmuəsinin (1934-1939), "Müsavat" bülleteninin (1936) nəşri, 1946-cı ildə M.Kəngərlinin başqanlığı ilə təsis edilən Azərbaycan Demokratlar Birliyinin fəaliyyəti haqqında, eləcə də cəmi 1-lə 4 arasında nömrəsi işıq üzü görmüş "Açıq söz", "Kutlu od", "Aydın yol", "Doğru söz", "Həqiqət", "Vətən səsi", "Vətən diləyi", "Milli atəş", "Millət andı", "Yasamız", "İlham qaynağı", "Müqəddəs Odlar ölkəsi", "Haqqın səsi", "Dilək", "Haqq", "Həmlə" adlı məcmuələr barədə yazır.

Tədqiqatçı M.Ə.Rəsulzadəyə qarşı ciddi ittihamlarla dolu "Biz və onlar" (Nağı Şeyxzamanlı, Milli Məcmuə mətbəəsi, İstanbul, 1934, 46 səh.), "Yıxılan bütlər" (Şəfi bəy Rüstəmbəyli, Milli məcmuə mətbəəsi, İstanbul, 1934), "M.Ə.Rəsulzadənin fəci süqutu" (Şəfi bəy Rüstəmbəyli, Milli məcmuə mətbəəsi, İstanbul, 1935, 126 səh.) kimi kitablar, eləcə də Ş.Rüstəmbəylinin ittihamlarına qarşı M.Ə.Rəsulzadənin 70 səhifədən ibarət "Şəfibəyçilik" (1934) adlı kitabı, intiriqaların əmələ gəlmə səbəbləri haqqında da bəhs edir.

Həmin dövrdə Azərbaycanın istiqlal davasına xidmət etmək məqsədilə nəşr olunmuş kitablar da (K.H.Aran. "1918-ci il 28 May". İstanbul, 1936, F.Daryal. "Kafqaz almanaxı". İstanbul, 1936, M.B.Məmmədzadə. "Milli Azərbaycan hərəkatı". Berlin, 1938, Ə.Cəfəroğlu. "Das problem Azerbaidschan". Berlin, 1938, Ə.Cəfəroğlu. "Azərbaycan". İstanbul, 1940, Sənan Azər. "İran türkləri". Cümhuriyyət mətbəəsi, İstanbul, Azərbaycan tarixindən. Münhen, 1947, Məmməd Sadıq Aran. "Türkün altun kitabı: "Kutadğu Biliğ". İstanbul, 1944) dr.S.Şimşirin tədqiqat obyektinə çevrilmiş və o bu əsərlərin mövzusu, məziyyətləri, ideyası ilə bağlı fikirlərini bildirmişdir.

Türkiyədə məskunlaşan azərbaycanlıların fəaliyyət dairəsi özlərinin nəşr etdikləri mətbu orqanlarla məhdudlaşmır. Onlar ölkənin nüfuzlu kütləvi informasiya vasitələrində müxtəlif mövzularda müntəzəm çıxış edir, daha çox Azərbaycan ədəbiyyat və mədəniyyətinin təbliği istiqamətində çalışırdılar. Dr.S.Şimşir azərbaycanlıların bu sahədəki fəaliyyətlərini də araşdırmışdır. Türkiyə mətbuatı ilə əməkdaşlıq edənlər arasında "diqqət çəkənlərin başında Məmməd Sadıq Aran və Əhməd Cəfər oğlu gəlməkdədir" (699, 93).

Tədqiqatçı həmin müəlliflərin Türkiyənin "Ulus", "Türkçü", "Şərq yolu", "Adsız məcmuə" və s. kimi nəşrlərində Şah İsmayıl Xətai, Hüseyn Cavid, Əhməd Cavad, Almaz İldırım, Xurşidbanu Natəvanla bağlı araşdırmaları və siyasi mövzuda qələmə aldıqları məqalələri təhlil süzgəcindən keçirir.

Əsərin 3-cü bölməsi "1947-1955-ci illər arasındakı fəaliyyətlər" adlanır və müəllif öz araşdırmalarını "Azərbaycan mühacirlərinin təkrar Türkiyəyə gəlmələri", "Azərbaycan Milli Mərkəzinin fəaliyyəti", "Müsavat Partiyasının fəaliyyəti", "Azərbaycanı Müdafiə Hüquq Cəmiyyəti ", "Azərbaycan Kültür Dər-

nəyi", "Dr. Həmid Ataman dönəmindəki fəaliyyətlər", "Azərbaycan" jurnalı, "Azərbaycan istiqlal davası üçün yayınlanan kitablar", "Rəsul Ünsal dönəmindənki fəaliyyət və həmin dönəmdə yayınlanan kitablar", "Azəri Qardaşlar Yardımlaşma Dərnəyi", "Azərbaycan Milliyyətçilər Dərnəyi", "Türk izi" jurnalı və Azərbaycanın istiqlalı davası", "Azərbaycan Kültürünü Tanıtma Dərnəyi", "Azərbaycanın istiqlalı davası üçün Türkiyə mətbuatındakı fəaliyyət", "Azərbaycan istiqlalı davası üçün yayınlanan digər kitablar" adlı sərlövhələrlə təqdim edir.

İkinci Dünya müharibəsindən sonra - 1947-ci ildə təkrar Türkiyəyə dönən mühacirlərin həyatı və fəaliyyətlərinin əvvəlki mərhələdən fərqli xüsusiyyətlərini nəzərə çatdıran dr.S.Şimşirin fikrincə, haqqında bəhs edilən dövrdə mühacirlər ilk zamanlar nisbətən pərakəndə və passiv şəkildə çalışsalar da, sonradan təşkilatlanmağa və daha mütəşəkkil fəaliyyət göstərməyə başlamışlar. Elə bunun nəticəsidir ki, 50-ci illərdən sonra Ankara, İstanbul, İzmir, Qars kimi şəhərlərdə azərbaycanlılar mədəniyyət dərnəkləri ətrafında birləşmiş, jurnallar nəşr etmiş, konfranslar, mədəni-kütləvi tədbirlər keçirmişlər. Mühacirət tarixində məhsuldar və fədakar fəaliyyəti ilə seçilən Azərbaycan Kültür Dərnəyi və onun "Azərbaycan" jurnalı haqqında dr.S.Şimşir daha geniş bəhs etmişdir.

Bu dövrdə M.Ə.Rəsulzadə, Ə.Vahab Yurdsevər, Mirzə Bala, Kərim Odər tərəfindən qələmə alınan 9 kitab nəşr olunmuş, Azərbaycanlı müəlliflər Türkiyə mətbuatı ilə həmişəkindən daha fəal əməkdaşlıq etmişlər. Dr.S.Şimşirin bu əməyi xüsusi təqdir olunmalıdır ki, o M.Ə.Rəsulzadə, Mirzə Bala, Məmməd Sadıq Aran, Əhməd Qaraca, Kərim Yaycılı kimi müəlliflərin Türkiyə mətbuatında nəşr olunan əsərlərinin tədqiqinə də yer ayırmışdır. Tədqiqatçı müəyyənləşdirmişdir ki, həmin dövr ərzində (1947-1955) yalnız Mirzə Bala "Tanin", "Cümhuriyyət" və "Milliyyət" qəzetlərində müxtəlif mövzularda 150-dən (!) yuxarı məqalə dərc etdirmişdir. Mətbu orqanın, məqalələrin adını,

dərc olunduğu tarixi göstərən dr.S.Şimşir yazıların məzmunu, ideyası haqqında da məlumat verir.

Dr. S.Şimşir Azərbaycanın istiqlalı uğrunda mübarizə aparan mühacirlərin görüşlərində, düşüncə tərzlərində, mücadilə metodlarında, siyasi-ideoloji baxışlarında təzahür edən fərqli cəhətlərə də diqqəti çəkir, bütün bunların yaranma səbəblərini izah etməyə cəhd göstərir. Odur ki, tədqiqatçı "Azərbaycan" jurnalı və ətrafında birləşənlərlə yanaşı, onlara qarşı kəskin mövqedə dayanan "Türk izi" kimi jurnalın mövqeyinə də işıq salmağı unutmur.

Tədqiqatın dördüncü bölməsi "1955-1991-ci illər arasındakı fəaliyyətlər" adlanır. Bu dövrdə əvvəllər radikal təsiri bağışlayan müxalifətin tədricən aradan çıxdığını, əksər azərbaycanlıların Ankaradakı "Kültür Dərnəyi çatısı ətrafında toplanmaya başladıqlarını" qeyd edən tədqiqatçı bu qənaətdədir ki, "uzun bir dövr kimi görünən (1955-1991) illərin arasında, haradasa ilk 20 ildə dərgi və gecə tərtibləri dışında, etkili bir fəaliyyət olduğunu söyləmək imkansızdır" (699, 121).

Bununla belə, dr.Həmid Atamanın, Kərim Odərin, Əhməd Yaşatın, Cəlal Odəllinin, dr.Məhəmməd Kəngərlinin, İsgəndər Aküzümün, Feyzi Aküzümün başqanlığı dövründə Azərbaycan Kültür Dərnəyinin, Müsavat Partiyasının, habelə Azərbaycan Milli Qurtuluş Birliyinin, Azərbaycan Gənclik Dərnəyinin, Azərbaycanı Tanıtma Dərnəyinin fəaliyyəti, "Mücahid" jurnalının nəşri haqqında tədqiqatçı kifayət qədər dolğun məlumat verir. Həmin dövrdə Türkiyədəki azərbaycanlılar 40-a yaxın kitab, xeyli risalə və broşüra nəşr etmiş, Türkiyə mətbuatı ilə sıx əlaqə saxlamış, ölkənin qəzet və jurnallarında məqalələrlə çıxış etmişlər.

Kitabın "Azərbaycanın istiqlalı davasına xidmət edən şəxsiyyətlərdən bəzilərinin bioqrafiyaları" adlı beşinci bölməsində 23 nəfərin tərcümeyi - halı barədə qısa, lakin olduqca maraqlı məlumat verilmişdir. Tədqiqatçı M.Ə.Rəsulzadə, M.B.Məmmədza-

də, Məmməd Sadıq Aran, Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşı, dr.Həmid Xəlil Ataman, Əbdülvahab Yurdsevər, Feyzi Aküzüm, Məhəmməd Kəngərli, Əhməd Cəfəroğlu, Əhməd Ağaoğlu, Mustafa Vəkiloğlu, Əziz Alpaut, Almas İldırım, Məmməd Altunbay, Əhməd Qaraca, Hüseyn Cahid Aküzüm, Əbdüləlibəy Əmircan, Kərim Odər, Əli Azərtəkin, Fuad Əmircan, Kərim Yaycılı, Məmməd Əmircan kimi şəxslərin həyat və fəaliyyətlərinin yaddaqalan məqamlarını işıqlandırmışdır.

Tədqiqatın sonuncu - 6-cı bölməsində "Nəticə", "Biblioqrafiya", mühacirlərin nəşr etdikləri bir sıra qəzet və jurnalların ilk səhifəsinin, müxtəlif sənəd və yazışmaların foto-surətləri, "Ad göstəricisi" verilmişdir.

Beləliklə, dr. Səbahəddin Şimşirin Türkiyədəki mühacirlərimizin həyat və fəaliyyəti ilə bağlı araşdırmalarını bir araya gətirən bu tədqiqat işi barədə deyilənləri yekunlaşdırsaq, aşağıdakı nəticəyə gəlmək olar: Tədqiqat işində azərbaycanlıların Türkiyədə, qismən də digər Avropa ölkələrində Azərbaycanın istiqlalı uğrunda apardığı ideoloji mücadilənin, müəllifin təbirincə desək, "siyasi və kültürəl fəaliyyətin"in bütün mənzərəsi işıqlandırılır, bu fəaliyyətin məzmunu, mahiyyəti və istiqamətləri təhlil edilir, elmi-nəzəri baxımdan düzgün dəyərləndirilir. Dr.Səbahəddin Şimşir mülahizələrini müraciət etdiyi yüzlərlə mötəbər məxəzlərlə əsaslandırmağa çalışır. Tədqiqatçının mənbələri, faktları toplamaq baxımından fədakarlığı, cəfakeşliyi xüsusilə təqdir edilməlidir. Bununla yanaşı, tədqiqat işi onun çəkisini azaltmayan, əhəmiyyətinə ciddi xələl gətirməyən bir sıra nöqsanlardan da xali deyildir. Məsələn, tədqiqat işində adından da göründüyü kimi, yalnız Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Türkiyəyə mühacirət edən azərbaycanlıların siyasi və mədəni fəaliyyətindən bəhs olur. Bununla belə, qardaş ölkədə azərbaycanlıların məskunlaşması tarixi və mərhələləri haqqında qısaca da olsa, məlumat verilməsi vacib idi. Əks təqdirdə elə təsəvvür yaranır ki, Türkiyədəki Azərbaycan kolo-

niyası Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra formalaşmışdır. Beləliklə, ötən əsrin əvvəllərində erməni vəhşiliyi nəticəsində tarixi torpaqlarından didərgin düşərək qardaş Türkiyəyə sığınan on minlərlə azərbaycanlının taleyi və fəaliyyəti pərdə arxasında qalır.

Tədqiqat işində eyni fakt və rəqəmlərin dönə-dönə təkrarlanması mətni ağırlaşdırır. Bəzən müəllifin qənaətləri bir-birini təkzib edir. Prometeyçilər hərəkatından bəhs edərkən Sovetlər Birliyinin Birləşmiş Millətlər Cəmiyyətinə daxil olduqdan sonra (18 sentyabr 1934) onların öz fəaliyyətlərini dayandırdıqlarını qeyd edir (699, 76). Elə həmin səhifədəcə göstərir ki, "Prometey" jurnalı 1926-1938-ci illər arasında Parisdə fransız dilində nəşr olunmuşdur. "Azərbaycan əsilli olmasına rəğmən Fuad Daryalın hazırladığı almanaxda ("Qafqaz almanaxı" nəzərdə tutulur - T.A.) göründüyü kimi, Azərbaycanın istiqlalı davasına yönəlik bir fəaliyyət olduğunu ifadə edə bilmərik" (699, 90) qənaəti yanlışdır və heç bir əsası yoxdur.

Türkiyə mətbuatı ilə əməkdaşlıq edən azərbaycanlılar barəsində yazan müəllif Məmməd Sadıq Aran və Əhməd Cəfəroğlunun fəaliyyəti ilə kifayətlənir (699, 93). Halbuki, öz təbiri ilə desək, "Türkiyə mətbuatında yüzlərlə deyil, imzalı-imzasız minlərcə yazısı çıxan" Fuad Daryal haqqında bəhs edilən dövrdə "Zaman", "Son poçta", "Xəbər", "Cümhuriyyət" qəzetləri ilə sıx əməkdaşlıq etmişdir (333).

Sayını artıra biləcəyimiz belə xırda kəm-kəsir və qüsurlar əsərin elmi dəyərini və əhəmiyyətini azaltmır. Bütövlükdə isə, tədqiqat işini Türkiyədəki Azərbaycan mühacirətinin 70 illik dövrü haqqında ensiklopediya adlandırmaq olar.

İndiyədək mühacirət irsinin, o cümlədən mühacirət mətbuatının araşdırılması sahəsində bir sıra təqdirəlayiq işlər görülmüşdür. Bu mənada N.Yaqublu və X.İbrahimlinin araşdırmaları xüsusi qeyd olunmalıdır. Tarix elmləri namizədi N.Yaqublunun 1991-ci ildə nəşr etdirdiyi "Məməd Əmin Rəsulzadə" adlı

kitabda (271) "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd", "İstiqlal", "Qurtuluş" kimi mətbu orqanlar haqqında bəhs edilmişdir. Tarix elmləri doktoru Xaləddin İbrahimlinin "Azərbaycan siyasi mühacirəti" adlı (73) əsərində mətbuata dair ayrıca bölmə verilmişdir.

Bu gün də Azərbaycan mühacirət mətbuatı ilə bağlı tədqiqatlar davam etdirilir, KİV-də ayrı-ayrı müəlliflərin bu mövzuda maraqlı yazıları çap olunur. Fikrimizcə, mühacirət mətbuatının həm tədqiqində, həm də tədrisində iki məsələyə də diqqət yetirilməlidir. Birincisi, bütün müəlliflər istisnasız olaraq 1923-cü ilin sentyabrında İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi və Səid Əfəndinin redaktorluğu ilə çıxan "Yeni Qafqasya"nı ilk mühacir qəzeti hesab edirlər. Və bu zaman bir qayda olaraq böyük qələm sahibi, ömrünün sonunadək Azərbaycanın istiqlalı uğrunda ideoloji mübarizə aparan azadlıq aşiqi Mirzə Bala Məmmədzadənin 1937-ci ildə qələmə aldığı "Milli Azərbaycan hərəkatı" adlı əsərindəki "Yeni Qafqasya" yalnız azərbaycanlıların deyil, rus əsarəti altındakı bütün türklərin xaricdə çıxardıqları ilk məcmuə idi" fikrinə istinad edilir. Lakin qüdrətli ideoloq M.B.Məmmədzadə özü həmin əsərin əvvəlində verilmiş "Başlayarkən" adlı məqaləsində təvazökarlıqla etiraf edərək yazır ki, mühacirət həyatında, məhdud məxəz və sənədlərə əsaslanaraq meydana gətirilmiş olan bu əsərin qüsurlu olacağını dərk edirik. Azərbaycan Milli hərəkatında misilsiz xidmətləri olan M.B.Məmmədzadənin zəngin və sanballı irsinə məhəbbət və hörmətimizi bildirməklə yanaşı, zənnimizcə, mühacirət mətbuatı tarixinin dəqiq və qərəzsiz tədqiqi ilə onun da tövsiyəsinə əməl etmiş olarıq.

Biz Rusiya imperiyası dövründə Simferopol, Batum, İrəvanda çıxan mətbu orqanları, yaxud Tiflisdə nəşr edilən çoxlu sayda qəzet və jurnalları haqlı olaraq mühacir mətbuatı hesab etmirik. Səbəb aydındır: həmin nəşrlər Azərbaycanın da daxil olduğu bir dövlətin – Rusiya imperiyasının ərazisində buraxılırdı.

Yaxud M.Ə.Rəsulzadənin 1908-11-ci illərdə Tehranda fars dilində nəşr etdiyi "İrani nev" qəzeti də İran Demokrat Partiyasına mənsub olduğu üçün mühacir mətbuatı hesab olunmur.

Lakin fikrimizcə, böyük Mirzə Cəlilin 1921-ci ildə qədim Azərbaycan şəhəri Təbrizdə - İranda nəşrini davam etdirdiyi "Molla Nəsrəddin" artıq mühacir nəşri idi. Çünki Mirzə Cəlil bir dövlətdən başqa bir dövlətin ərazisinə keçmişdi ki, bu da mühacirət sayılır.

Xaləddin İbrahimli də bu barədə doğru yazır: "... "mühacirət" anlamının mahiyyətindən aydın olur ki, vətəndən-vətənə mühacirət olur. .... Hər ikisi qeyri-müstəqil olan bir Azərbaycandan o birinə keçid sözün rəsmi mənasında SSRİ-dən İrana mühacirət idi" (73, 10).

Başqa bir mənbədə oxuyuruq: "...fevral və oktyabr inqilabları adı ilə məşhurlaşan hadisələrin imperiya xalqlarına, o cümlədən azərbaycanlılara xoşbəxtlik gətirə bilməyəcəyini dərk edirdi; arvadı Həmidə xanımın malikanə, torpaq, məktəb sahibi olması, "mülkədar - xeyriyyəçi qadın" kimi, qardaşı Ələkbərin isə İran inqilabı fədailərindən və Səttarxanın yaxın silahdaşlarından biri kimi tanınması, erməni-daşnak canilərin Qarabağdakı vəhşilikləri zamanı silah götürüb Xankəndindəki vuruşlarda iştirak etməsi və s. kimi səbəblər ədibin Təbrizə mühacirətini labüd etmişdi" (98, 5).

Beləliklə, hesab edirik ki, mühacirət mətbuatının nəşr tarixi də həmin dövrdən və "Molla Nəsrəddin"lə başlayır. Elə buna görə də, bu sətirlərin müəllifi mühacirət mətbuatı tarixinin məhz "Molla Nəsrəddin"lə başlandığı fikrində israrlıdır. "Molla Nəsrəddin" jurnalı, o cümlədən Təbriz nüsxələri tədqiqatçılar tərəfindən geniş araşdırıldığından, dissertasiyada bu barədə ətraflı bəhs olunması məqsədəmüvafiq hesab edilməmişdir.

Qeyd edəcəyimiz ikinci məsələ Azərbaycan mühacirət mətbuatı tarixi və mühacirət jurnalistikası tarixi anlayışlarına münasibətdir.

Artıq Azərbaycanda mühacir mətbuatı tarixinin ardıcıl elmi tədqiqi və tədrisi həyata keçirilir. Yaranma tarixi, mövzu rəngarəngliyi, milli ideologiyanın təşəkkülü və inkişafı baxımından son dərəcə böyük maraq doğuran mühacirət jurnalistikası tarixi, təəssüf ki, bu gün də müstəqil elmi tədqiqat predmetinə çevrilməmişdir. Doğrudur, ayrı-ayrı müəlliflər bu və ya digər xadimin həyat və fəaliyyətindən bəhs edərkən, pərakəndə halda olsa da, onların xarici ölkələrdəki jurnalistlik fəaliyyətlərini işıqlandırırlar. Lakin bəhs etdiyimiz sahə o qədər əhəmiyyətli və aktual, eyni zamanda zəngindir ki, mövzu mütləq ayrıca tədqiqat predmeti kimi dərindən, ətraflı öyrənilməli və ali məktəblərin müvafiq fakültələrində tədris edilməlidir. Dünya jurnalistikasının öyrənilməsi və öyrədilməsi təqdirəlayiqdir, lakin bu xəzinəyə son dərəcə gözəl töhfələr vermiş Azərbaycan mühacirət jurnalistikası niyə diqqətdən kənarda saxlanılmalıdır?!

Öz mənbəyini "bütün Şərq intibahına təsir dərəcəsi misilsiz" olan, "Şərq və Qərb mədəniyyətinə vaqif zəki bir şəxsiyyət", "ümumi müsəlman aləminin siyasi xadimi, inqilabçı türkçülüyün nəzəriyyəçisi" (M.Ə.Rəsulzadə) Cəmaləddin Əfqanidən (1838-1897), onun 1884-cü ildə Şeyx Məhəmməd Əbdəhlə birlikdə Parisdə ərəb dilində nəşr etdiyi "Urvatül-vüsqa" ("Möhkəm tellər") jurnalındakı, habelə Londonda buraxılmasında fəal iştirak etdiyi ərəb və ingilis dilində nəşr olunan "Ziyaülxariqin" adlı jurnaldakı fəaliyyətindən götürən Azərbaycan mühacir jurnalistikası dünyanın, o cümlədən Şərqin mədəni-mənəvi dünyasına nadir incilər bəxş etmişdir. Bu barədə prof. Şamil Qurbanov "Cəmaləddin Əfqani və türk dünyası" adlı əsərində ətraflı söhbət açmışdır (82).

Hələ sağlığında "bütün türk dünyasının mücahidi" adını qazanmış görkəmli ideoloq, publisist, tənqidçi, şair, nasir, tərcüməçi, filosof Əlibəy Hüseynzadənin (1864-1940) yaradıcılığında mühacirət jurnalistikası nümunələri xüsusi mərhələni təşkil edir. "... tələbə olduğu illərdə, yəni 80-ci illərin axırlarında

Ə.Hüseynzadə "Ə.H" imzası ilə İstanbulda nəşr olunan "Ramazan bağçası" jurnalında Ömər Xəyyamın bir neçə rübaisini və onun haqqında alman alimi F.Bondenştendtin əsərini, "Səlyani" imzası ilə V.Hötenin "Faust"undan bir parçanı, H.Heynenin "Zinət verər asimanə əncüm..." şerini, Qahirədə çıxan "Türk" qəzetində isə XVIII əsr rus şairi Derjavinin bir şerini tərcümə edib, türk dilində çap etdirmişdir" (52).

Bunlarla bərabər Ə.Hüseynzadə jurnalistlik fəaliyyətini də davam etdirir, bir-birindən maraqlı məqalələr yazırdı. Qeyd edək ki, "Hələ 1904-cü ildə Misirdə çıxan "Türk" qəzetində türk birliyi, hətta panturanizm ideyasını ortaya atan Əlibəy" (73, 22). "Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, onun ideoloji kursunun müəyyənləşməsində mühüm rol oynamışdır" (112, 30).

Alnına mühacirət taleyi yazılmış Ə.Hüseynzadə Salyanda dünyaya göz açır, Tiflis, Peterburq və İstanbulda təhsil alır, 1904-cü ildə Sultan Əbdülhəmidin istibdadından qaçaraq Parisə, oradan Bakıya gəlir (burada "Həyat" qəzetini Ə.Ağaoğlu ilə birlikdə) və "Füyuzat" adlı həftəlik ədəbi, elmi, siyasi-ictimai jurnalı buraxır, 1910-cu ildə yenidən və həmişəlik Türkiyəyə köçür. "1911-ci ildə "İttihad və tərəqqi" Cəmiyyətinin Mərkəzi Komitəsinə üzv seçilən Əlibəy daha fəal şəkildə siyasətə qoşularaq, türkçülük görüşlərini təbliğ edir. O, ardıcıl şəkildə olmasa da, "Türk yurdu", "Xalqa doğru", "Məlumat", "Hakimiyyəti - milliyyə", "Tan" və b. qəzet və məcmuələrdə şerləri və məqalələri ilə çıxış edir" (269, 99).

Azərbaycan mühacirət jurnalistikası tarixində böyük şərqşünas-alim, publisist, tənqidçi, ideoloq və görkəmli ictimai xadim Əhməd bəy Ağaoğlunun xüsusi çəkisi və yeri var. Millətinə və dövlətə xidmət göstərmək istəyən hər bir kəs, xüsusilə qələm sahibləri üçün ideal bir nümunə səviyyəsinə yüksələn Ə.Ağaoğlu hələ Fransada təhsil aldığı illərdə (1885-1894) Parisdə çıxan "Nouvel Revyü" kimi tanınmış mətbu orqanda qələmini sınamışdır. Sonralar vətənə dönən Əhməd bəy "Kaspi" ilə sıx

əməkdaşlığa başlayır, bir müddət ona redaktorluq edir (1898).

Ə.Hüseynzadə ilə nəşr etdiyi "Həyat" (1905) qəzetindən sonra o "Tərəqqi", "Proqres", "İrşad" qəzetlərinə redaktorluq edir. Ə.Ağaoğlunun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri 1905-ci ildə onun erməni millətçiliyinə, erməni vəhşiliyinə, üzdəniraq "Daşnaksütun" partiyasına "Dur!" deməyi bacaran "Difai" partiyasını yaratması olmuşdur.

1908-ci ildə ona qarşı Bakı Filarmoniyasında edilən hörmətsizlikdən sonra Ə.Ağaoğlu Türkiyəyə gedir və "Bakıda başladığı jurnalistlik fəaliyyətini İstanbulda daha geniş vüsət və coşqunluqla davam etdirir" (81, 276). Bu dövrdə Ə.Ağaoğlu Azərbaycan mühacirət jurnalistikasının ən parlaq nümunələrini yaradır. "Xalqa doğru", "Sirati-müstəqim", "Türk yurdu" kimi mətbu orqanlarla sıx əməkdaşlıq edir, onun redaktorluğu ilə "Tərcümani-həqiqət", "Gənc türk", daha sonralar "Axın" qəzetləri nəşr olunur.

Bütün həyatı fırtınalar qoynunda keçən Ə.Ağaoğlu 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə yardım üçün Bakıya yollanan Türkiyənin Qafqaz İslam Ordusu tərkibində müşavir kimi vətənə gəlir. Müstəqil dövlət quruculuğunda fəal iştirak edir, Azərbaycan parlamentinə üzv seçilir. 1919-cu ildə Paris Sülh Konfransına yollanan nümayəndə heyətinin tərkibinə daxil olur. Lakin səfər baş tutmur. İşğal altında olan İstanbulda Ə.Ağaoğlunu ingilislər həbs edir və sözdə ermənilərə qarşı soyqırımda təqsirli bilinərək keçmiş "İttihad və tərəqqi" partiyasının liderləri ilə birlikdə Malta adasına sürgünə göndərilir. 1921-ci ilin mayında iki illik sürgün həyatına son qoyulur. Ə.Ağaoğlu Anadoluya - Milli Qurtuluş hərəkatının rəhbəri Mustafa Kamal paşanın yanına gəlir, 1923-cü ildən - Türkiyə Respublikası yaranandan Ə.Ağaoğlunun həyat və yaradıcılığında yeni mərhələ başlanır. Həyatının sonunadək - 1939-cü ilədək Ə.Ağaoğlu əməli, ağlı, zəkası və qələmi ilə həmişə sadiq olduğu məramə xidmət edir.

Azərbaycan mühacirət jurnalistikasının parlaq simalarından biri olan, M.B.Məmmədzadənin təbirincə desək, "Milli Qurtuluş hərəkatının ideoloqu və lideri" M.Ə.Rəsulzadə olmuşdur. Gənc yaşlarından Bakıda siyasi fəaliyyətə başlayan M.Ə.Rəsulzadə 1908-1911-ci illərdə Tehranda, 1911-13-cü illərdə İstanbulda bu sahədə qızğın fəaliyyət göstərir. İranda məşrutənin elanından sonra M.Ə.Rəsulzadə gündəlik qəzet olan "İrani nev"ün ("Yeni İran") nəşrinə başlayır və onun səhifələrində elmi, bədii və publisistik yazılarla çıxış edir. Hüseyn Baykara "İran inqilabı və azadlıq hərəkatları" adlı əsərində yazır ki, qəzetçilik texnikasını çox yaxşı bilən Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə "İrani nev" adlı gündəlik bir qəzet çıxmasına başladı və qəzet inqilaba xəyanət edənlərlə yanaşı, ingilis və rus imperializminin müstəmləkəçilik siyasətini tənqid edir, onların alçaq planlarını ifşa edirdi (311, 81).

İran irticası Məhəmməd Əmin bəyi İstanbula keçməyə vadar edir. O, burada gənc türk millətçilərinin birləşdiyi "İttihad və tərəqqi" təşkilati ilə əlaqə saxlayır, əməkdaşlıq edir. M.Ə.Rəsulzadə "Türk ocağı"na daxil olur və 1911-ci ildən nəşrə başlayan "Türk yurdu" jurnalında məqalələr dərc etdirir. Onun "İran türkləri", "İran tarixçeyi-inqilabi" silsilə məqalələri xüsusilə böyük əks-səda doğurur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan bir müddət sonra İstanbulda məskunlaşan M.Ə.Rəsulzadə əvvəlcə "Yeni Qafqasya", sonra "Azəri türk", "Odlu yurd", "Bildiriş" kimi milli nəşrlərin işıq üzü görməsinə nail olur. Həmin qəzet və jurnallarla yanaşı, M.Ə.Rəsulzadə Türkiyə, Fransa, Almaniyada çıxan digər nəşrlərlə də əlaqə saxlayır, əməkdaşlıq edir.

"... Əbdülsəlimzadə Məhəmməd Hadinin vətən və millət haykıran hürriyyət mənzumələri istiqlal fikrinin təməl daşı hesab oluna bilər". "İstiqlalın ilk şeri" adlı məqaləsindən götürülmüş bu sətirlər Mirzə Bala Məmmədzadəyə məxsusdur (513).

"Azərbaycan istiqlal mücadiləsi tarixi" kitabının müəllifi Hü-

seyn Baykara da yazır ki, istiqlal mücadiləsi tarixində ilk istiqlal şairi Məhəmməd Hadidir (312, 81). O, tez-tez və sevə-sevə M.Hadini "Vətən şairi" adlandırır və onun ilk dövr yaradıcılığından heyranlıqla bəhs edir.

Tədqiqatçı alim Səlim Rəfiq "Türkiyə mətbuatında M.Hadinin şerləri" adlı məqaləsində şairin bir qədər sonrakı həyat və fəaliyyətindən söz açaraq qeyd edir ki, M.Hadi 1910-cu ildə İstanbula gəlir və burada çox sevdiyi mühitə qovuşur. M.Hadi İstanbuldakı qəzet və jurnallara məqalələr yazır, şeirlərini dərc etdirirdi. "Hadi İstanbulda ikən "Şahbal", "Rəbab", "Mehtab" adlı məcmuələrdə iştirak etmişdir" (542). "Mehtab"da qadın azadlığı ilə bağlı dərc olunan məqaləsinə görə M.Hadi həbs olunur və Selanikə sürgün edilir.

M.Hadinin İstanbulda mühacir ikən qələmə aldığı yazılar həm onun yaradıcılığının tədqiqi baxımından, həm də mühacirət jurnalistikasının tam mənzərəsini əks etdirmək nöqteyi-nəzərindən maraq doğurur.

Azərbaycan istiqlalı uğrunda ideoloji mübarizə tarixində böyük rol oynamış istedadlı yazıçı-publisist, tərcüməçi, tədqiqatçı, redaktor Ceyhun Hacıbəyli "bütün gücü ilə kommunizmin iç üzünü dünyaya açıqlamış, güclü qələmi ilə bir çox dillərdə bu müqəddəs davasını duyurmuşdur" (356).

Bu cümlə məsləki, əqidəsi uğrunda həyatı boyu qələmi ilə mübarizə aparmış bir insanı tam xarakterizə etmək üçün kifayətdir. Yalnız onu əlavə etmək olar ki, C.Hacıbəyli sonuncu mühacirətdən əvvəl də Parisdə yaşamışdır və həmin dövrdən Ceyhun öz qələmini yerə qoymamışdır. C.Hacıbəyli tələbə ikən Parisin nüfuzlu qəzetlərinə məqalələr yazır, jurnalist kimi püxtələşirdi. Azərbaycan Xalq Cümhuriyyəti daxili işlər naziri Mustafa Vəkiloğlu C.Hacıbəylinin vəfatı münasibətilə qələmə aldığı "Parisdə daha bir məzar" adlı məqalədə yazır: "40 ildən çoxdur ki, rəhmətlik Ceyhun bəy xaricdəki milli, siyasi işlərimizin içində durmadan çalışıb çabalamaqdaydı. Parisdə yaşadığı müddətdə də "Le Figaro", "La Revue du Monde Musulman", "La Revue des deux Monges", "Le Yournal Asiatic" kimi tanınmış fransız qəzet və jurnallarında mərhumun zaman-zaman yazıları çıxardı". Jurnalın elə həmin nömrəsində Məcid Musazadə qeyd edir ki, C.Hacıbəyli "Le Bulletin du Comite France-Orient", "La Revue Contemporaine", "La Revue Politique et Parlamentaire" ... kimi qəzet və məcmuələrdə yaxından iştirak etmişdir" (366). Müəllif yazır: "O, bununla bərabər bütün dünyaca məşhur olan "La Revue de Doux Mondes" jurnalının uzun illər əməkdaşı olmuşdur" (356).

"Azadlıq" radiosunun (Ceyhun bəy onun yaradıcılarından idi) C.Hacıbəylinin vəfatı ilə əlaqədar verilən xəbərində deyilirdi: "Ceyhun bəy əziz Vətəninin və xalqının qurtuluş mübarizəsinə liderlik edənlərdən biri olmuşdur. Eyni zamanda istedadlı bir publisist olan mərhum istilaya uğrayan vətənin haqq və hüquq davasını bütün dünya ictimaiyyəti qarşısında layiqli müdafiə etmişdir". C.Hacıbəylinin zəngin irsində onun mühacirət jurnalistikasına aid olan materialları mühüm yer tutur.

Beləliklə, mühacirət jurnalistikası ilə əlaqədar deyilənləri yekunlaşdıraraq aşağıdakı tədbirlərin görülməsini məqsədəmüvafiq hesab edirik:

- mühacirət jurnalistikasının ayrıca və küll halında tədqiq olunmasını;
- bu irsə daxil olan materialların toplanması, dillər, yaxud mövzu üzrə qruplaşdırılması, tərcüməsi və nəşr edilməsini;
- ali məktəblərin jurnalistika fakültəsində tədris olunan "Mühacirət mətbuatı" kursunun "Mühacirət jurnalistikası" predmeti ilə əvəz edilməsi, bununla da hər iki sahənin tədrisinin həyata keçirilməsi, yaxud "Dünya jurnalistikası" kursunda Azərbaycan mühacirət jurnalistikasına aid xüsusi bölmənin ayrılmasını.

1.2. Mühacirət mətbuatının inkişaf mərhələləri və əsas orqanları

Mühacirət mətbuatının yaranması və inkişaf mərhələləri mühacirətin formalaşması və fəaliyyəti ilə bilavasitə əlaqədardır. Başqa sözlə desək, mühacirət mətbuatı mühacirət həyatının aynası, göstəricisidir. Mühacirət mətbuatının mövzusu, ideya istiqaməti, onu dil, üslub cəhətdən səciyyələndirən amillər mühacirlərin həyat və düşüncə tərzindən əqidə, məslək və məramından, cəmiyyətdəki mövqeyindən, maddi-maliyyə imkanlarından və nəhayət məskunlaşdığı ölkənin iqtisadi, ictimai-siyasi vəziyyəti ilə şərtlənir. Azərbaycan mühacirəti tarixinə bu aspektdən nəzər salsaq, o zaman mühacirət mətbuatının təsnifatı formalaşar:

-Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra yaranan ilk satirik mühacir nəşr "Molla Nəsrəddin" jurnalı (Təbriz, 1921). Jurnal kifayət qədər araşdırıldığından, tədqiqat işində bu nəşr barədə geniş bəhs edilməsi məqsədəmüvafiq sayılmamışdır.

- Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəni tərk etməyə məcbur olan mühacirlərin siyasi nəşrləri ("Yeni Qafqasya" (1923-1927), "Azəri-türk" (1928-1930), "Yaşıl yarpaq" (1928), "Odlu yurd" (1929-1931), "Bildiriş" (1930-1931). 1923-1931-ci illərdə işıq üzü görən bu orqanları şərti olaraq İstanbul nəşrləri adlandırmaq olar. "Azərbaycan" (Paris, 1926).

- Azərbaycan mühacirlərinin elmi-nəzəri-mədəni nəşri "Azərbaycan yurd bilgisi" (1932-1934 və 1954).

- 1930-cu illərin Azərbaycan mühacirət mətbuatı ("İstiqlal" (1932-1934), "Qurtuluş" (1934-1939), "Milli Azərbaycan Müsavat Xalq Firqəsi" bülleteni (№1, 1936). Bunlardan başqa, həmin dövrdə 1-2 nömrəsi çapdan çıxan məcmuələr: "Açıq söz" (1936, 2 nömrə), "Kutlu od" (1936-1937, 2 nömrə), "Aydın yel" (1937, 1 nömrə), "Doğru söz" (1937, 2 nömrə), "Vətən dilləyi" (1937, 2 nömrə), "Milli atəş" (1938, 1 nömrə), "Millət andı" (1938, 1 nömrə), "Yasamız" (1938, 1 nömrə), "İlham qaynağı" (1938, 1 nömrə), "Müqəddəs odlar ölkəsi" (1938, 1 nömrə), "Haqqın səsi" (1938, 1 nömrə), "Dilək" (1939, 4 nömrə), "Haqq" (1939, 1 nömrə), "Həmlə" (1939, 1 nömrə).

- İkinci Dünya müharibəsi dövründə legionerlərin Berlin nəşrləri "Azərbaycan", "Hücum", "Milli birlik" (1943-1945).

- 1950-80-ci illərin mühacir nəşrləri: "Azərbaycan" (1952, Ankara), "Azərbaycan" (1952, Münhen), "Mücahid" (1955), "Türk yolu" (1951), "Ərgənəqon yolu" (1951), "Türk izi" (1951) və s.

- 1980-ci illərin ikinci yarısından nəşrə başlayan mətbuat: "Ana dili" (Bonn), "Odlar ölkəsi" (Edinburq), "Dədə Qorqud" (İspaniya), "Qürbət" (Brüssel), "Aydınlıq" (London), "Azərbaycan türkləri", "Xəzər" (İstanbul), "Azərbaycan" (Stokholm), "Azərbaycan" (Vaşinqton), "Araz" (Lund, İsveç), "Azər" (Berlin), "Savalan" (Berlin), "Ərk" (Almaniya), "Ziya" (Moskva), "İnam" (Sankt-Peterburq), "Savalan" (Dnepropetrovsk), "Millət" (Simferopol), "Araz" (Kişinyov) və s.

-Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə (1991-ci ildən) nəşr olunan mətbu orqanlar (bu dövrdə ABŞ, Rusiya Federasiyası, Ukrayna, Almaniyada bir sıra mühacir nəşrlər fəaliyyət göstərirlər).

Bu təsnifatı əsas götürərək, ayrı-ayrı mətbu orqanların nəşr tarixi, proqramı, naşir və redaktorları, mühərrirləri, toxunduğu mövzular barədə qısa məlumat verməklə mühacirət mətbuatının ümumi mənzərəsini yaratmış oluruq.

"Yeni Qafqasya" jurnalı. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra xarici ölkələrdə məskunlaşan mühacirlər 1920-ci il 27 apreldə Bakıda baş verən hadisələr, XI Qızıl Ordunun təcavüzü barədə beynəlxalq aləmdə ictimai rəy yaratmaq üçün müəyyən təşəbbüslər etmişlər. Bu səylər təqdirəlayiq olsa da, istənilən nəticəni vermirdi. Başlıca səbəb mühacirlərin təşkilatlan-

maması, vahid, aydın proqramla birgə fəaliyyət göstərməməsi idi. M.B.Məmmədzadənin təbirincə desək, "Mühacirət başsız və intizamsız, pərişan bir mənzərə ərz edirdi" (95, 177).

"Mühacirəti mətbu bir orqan vasitəsilə mənəvi cəhətdən birləşdirmək, onlarla ana Vətən və ana mühit arasında mənəvi əlaqələri davam etdirmək və xüsusilə, gənc nəslin milli ruhda tərbiyəsinə və yad mühitlərdə əriyib getməməsinə qismən də olsa, xidmət etmək" (95, 176) həyati zərurətə çevrilmişdi. Bu tarixi vəzifəni 1922-ci ildən İstanbulda məskunlaşan M.Ə.Rəsulzadə həyata keçirdi.

Vaxtilə "Şərqi-Rus", "Hümmət", "İrşad", "Təkamül", "Yoldaş", "Tərəqqi", "Açıq söz", "İrani-nev" (Tehran) kimi nəşrlərdə yüzlərlə məqaləsi dərc olunan M.Ə.Rəsulzadə böyük mətbuat məktəbi keçmiş, zəngin təcrübə qazanmışdı. O, mətbuatın rolunu həmişə yüksək qiymətləndirmiş, onun təbliğ və səfərbər etmək qüdrətinə, qüvvəsinə inanmışdı. "Yeni Qafqasya"da Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetinin 50-ci ildönümü münasibətilə dərc etdiyi "Azərbaycan mətbuatının şanlı xatirəsi" məqaləsində də böyük qələm sahibi mətbuatın cəmiyyətdə roluna dair yazırdı: "Milli şüur bir milliyyət içərisindən çıxan rəhbər zümrənin digər zümrə və fərdlərlə daimi və üzvi bir münasibət və ixtilat təmin etməsilə doğar. Qəzetlərin bu xüsusdakı rolu aşkardır" (50). Mətbuatın rolunu düzgün dəyərləndirən M.Ə.Rəsulzadə ilk növbədə "Müsavat"ın xarici ölkələrdə bürosunu təşkil etmiş və 1923-cü ilin sentyabrında "Yeni Qafqasya" məcmuəsini təsis etmişdir.

M.Ə.Rəsulzadəni "qələm, kəlam, məfkurə ustadımız" deyə xarakterizə edən M.B.Məmmədzadə də mətbuatın roluna böyük qiymət verirdi. O yazırdı ki, mətbuat yalnız hadisələri bildirən və fikirləri aydınlaşdıran bir vasitə deyildir. Mətbuat aydınlaşdırma ilə birlikdə fikirləri və beyinləri bir ideal ətrafında birləşdirmək, tərbiyə və sövq etmək qüdrətinə də malikdir. Fikir isə hər şeyin anasıdır. Ortada bir fikir və ideal olmadıqdan sonra ortaq bir həmlə və hərəkət də ola bilməz. Mətbuat, eyni zamanda toplayıcı, birləşdirici və qoruyucu amildir.

Doğrudan da, "Yeni Qafqasya"nın nəşri ilə mühacirlər arasında bir canlanma, fəallıq yarandı. İlk nömrəsində dərc olunan proqram məqaləsindən aydın olur ki, "Yeni Qafqasya" bir milli imanla işə başlayaraq Azərbaycan, Qafqaz və əsir türklərin milli istiqlal davasını tanıtmağı" özünün əsas vəzifəsi hesab etmişdir.

"Yeni Qafqasya"nın 30-cu ildönümü münasibətilə "Azərbaycan" (Ankara) jurnalının 1952-ci il tarixli 6-cı nömrəsində dərc olunmuş məqalədə göstərilir ki, "Yeni Qafqasya" 1923-cü il tarixli 1-ci nömrəsində özünü belə xarakterizə etmişdir: 1. "Yeni Qafqasya" millətçi, radikal və demokratdır; 2. "Yeni Qafqasya" türkçüdür. Türklərin kültürəl tanışmalarını, mədəni iztibatlarını, mənəvi vəhdət və istiqlallarını göz önünə alır; 3. "Yeni Qafqasya" türk davasının Azəri cəbhəsini müdafiəyə mükəlləf Azərbaycan istiqlalçılarının fikirlərini yazır; 4. "Yeni Qafqasya" millətlərin Rusiya əsarətindən qurtulmasını və Rusiya istilasına qarşı müvəffəqiyyətlə durmasını təmin üçün Qafqazın konfederasyon şəkildə birləşməsinin tərəfdarıdır; 5. "Yeni Qafqasya" yalnız Azərbaycançılıq, türkçülük və Qafqazçılıqla qalmır, o Şərqdəki Milli İstiqlal hərəkatını da müdafiə edir; 6. "Yeni Qafqasya" xüsusilə Rus imperializminə qarşı mücadilə edir. O, çarizmi olduğu qədər, bolşevizmi də türk dünyası üçün muzır (araqarışdıran, zərərli, ziyanlı - T.A.) və Qafqaza düşmən görür" (12).

Azərbaycan mühacirət mətbuatı tarixində "Yeni Qafqasya"nın xüsusi yeri və rolu vardır. Ankarada çıxan "Azərbaycan" jurnalı "Yeni Qafqasya" adlı məqaləsində yazırdı: "... "Yeni Qafqasya" özündən sonra gələn bütün milli nəşriyyat orqanlarının piridir; dost və düşmən tərəfindən böyük bir ilgi ilə qarşılanmışdır" (12, №6, 1952).

Məqalədə daha sonra məşhur turk ədibi Qaraosmanoğlu Ya-

qub Qədrinin "Türk yurdu" məcmuəsində dərc olunmuş yazısından aşağıdakı cümlələr sitat gətirilir: "Azərbaycanlı irqdaşlarımızdan milliyyətpərvər bir zümrənin İstanbulda nəşr etməkdə olduğu "Yeni Qafqasya" məcmuəsinin hər nömrəsini böyük diqqət və şəfqətlə oxumaqdayız. Çox nəcib və müqəddəs bir məfkurə atəşinin için-için yanan bir köz halına soxduğu bu türk məcmuəsində hər kəlmə, doğrudan-doğruya qəlbə sıçrayan bir qığılcım kimidir" (12, №6, 1952).

Uzun illər boyu Azərbaycan mühacirətinin əsas yayın orqanı və mühacirət mətbuatının lideri olan "Azərbaycan" jurnalı (Ankara) "Yeni Qafqasya"dan öyrəndiyini, onun yolunu davam etdirdiyini fəxrlə, qürurla bildirmişdir.

İstedadlı qələm sahibi Əbdülvahab Yurdsevər "Azərbaycan" 4 yaşında" adlı məqaləsində bu jurnalı 4 yaşlı uşağa bənzədərək yazır ki, bu uşaq indidən yürüməsini, ayaq üstə durmasını, hətta qaçmasını çox gözəl bilir (675). Yolunu da yaxşı müəyyənləşdirmişdir.

Çünki "Yeni Qafqasya", "Odlu yurd", "İstiqlal" və "Qurtuluş" kimi sağlam təmayüllü, təcrübəli və sınanmış ağabəyləri kiçik "Azərbaycan"ın əlindən tutaraq, dərin bir sevgi və etina ilə yol yürüməsini, daşa-divara çırpmamasını, daima basdığı yerə diqqət etməsini öyrətmişlər". Fikrimizcə, "Yeni Qafqasya"nın tarixi xidmətlərini on illər boyu Azərbaycanın istiqlal davasını şərəflə davam etdirən "Azərbaycan" jurnalı çox dəqiq dəyərləndirmişdir.

Ədəbi, ictimai və siyasi məcmuə olan "Yeni Qafqasya"da "sahibi-imtiyaz və müdiri məsul Seyid Tahir" yazılsa da, nəşrə bilavasitə M.Ə.Rəsulzadə rəhbərlik və redaktorluq edirdi. Bu barədə M.Ə.Rəsulzadə irsinin dəyərli araşdırıcılarından olan dr. Yavuz Akpınar "Bayraqlaşan şəxsiyyət; Məmməd Əmin Rəsulzadə" adlı məqaləsində yazır: "1922-ci ilin yazından İstanbulda olan Rəsulzadə "Yeni Qafqasya" (9 səfər 1341/1922) dərgisini çıxarmağa başladı. Noyabr 1927-yə qədər on beş gündən bir çıxarılan bu dərginin cəmi 100 nömrəsi nəşr edilir. Fəqət anlaşıla biləcək bəzi səbəblər üzündən dərginin "sahibi-imtiyaz və müdiri məsulu Seyid Tahirlidir" (525).

Hətta ilk nömrələrində Rəsulzadənin açıq imza ilə yazıları çıxmırdı. "Açıq imzasının ilk göründüyü yazı "Zəruri bir izah" başlığı altında "İdarəyə gəlmiş bir məktub" olaraq 15 oktyabr 1922-ci il tarixli 4-cü nömrəsində yer alır. Əslində bu dərgidə çıxan bir çox yazının Rəsulzadənin qələmindən çıxdığı açıqdır" (525).

Turkiyənin tanınmış qələm sahibi, istedadlı yazıçı Yaqub Qaraosmanoğlu "Yeni Qafqasya"dan, onun yazarlarından bəhs edərkən göstərir ki, bu fədakar zümrənin başında Rəsulzadə Əmin bəy kimi qiymətli türk mütəfəkkirləri və Gültəkin cinsindən olan atəşin türk şairləri vardır (12, 1952, №6, səh.12). "Azərbaycan" adı çəkilən məqalədə özü əlavə edirdi. "Yeni Qafqasya"nın sonrakı illəri Mirzə Balanın çox velud (verimli, məhsuldar - A.T.) qələmindən çıxan canlı məqalələri də özəl bir dəyər qazanmışdır". Mirzə Bala hələ İranda ikən "Yeni Qafqasya"ya çox sayda yazılar göndərirdi.

"Yeni Qafqasya"nın redaksiya heyətinin üzvləri Şəfi bəy Rüstəmbəyli, Əhməd Cəfəroğlu, Xəlil Xasməmmədov, Əmin Abid (Gültəkin) və Buxara Respublikasının sabiq prezidenti Osman Xoca idi. Onlar "Yeni Qafqasya"nın daha maraqlı, məzmunlu çıxması üçün fədakarlıqla çalışır və istəklərinə nail olurdular.

"Yeni Qafqasya" öz ətrafına Azərbaycan istiqlalı məfkurəsinə sadiq mücahidləri toplamışdı. Bura Türkiyənin müxtəlif bölgələrindən, Almaniya və Fransadan məktublar, məqalələr göndərilirdi. Jurnalla Fransadan Mustafa Vəkilli və Şeyxülislamzadə əməkdaşlıq edirdi. Mustafa Vəkillinin "Bugünkü tülkü" (685), Şeyxülislamzadənin "Sovet Rusiyasının mənəvi təcridi" (607), "Hüquq verilmir, alınır" (606) və s. məqalələri maraqlı və ibrətamizdir. Qeyd etdiyimiz kimi, "Yeni Qafqasya" azərbaycanlı mücahidlərlə yanaşı, digər türkdilli və Qafqaz xalqla-

rının da tribunası idi. Əhməd Naimin Türkistanda qəzet işinin tarixinə, prof. Zəki Vəlid Toğanın Azərbaycan etnoqrafiyasına dair seriya məqalələri bu gün də aktual və əhəmiyyətlidir.

"Yeni Qafqasya" bir tərəfdən "qeyri-müsait (qeyri-münasib, əlverişsiz - A.T.) bir şərait altında türklüyün tarixi düşməni ilə mücadilə etmək zəruriyyətində olan Azərbaycan eylədiyi qanlı üsyanlara, göstərdiyi çox ciddi müqavimətlərə, hər gün verdiyi hüdudsuz qurbanlara rəğmən hələ əsarətdən qurtulmamış, 27 aprel faciəsini hələ yaşamaq bədbəxtliyindədir" (273, 27 aprel 1926, №12). "Azərbaycanın matəm günü" məqaləsində olduğu kimi yazaraq, vətənin ağır günlərinə ağı deyirdisə, digər tərəfdən, "28 Mayda elan olunan böyük fikir, keçirdiyi çox kədərli günlərə, yediyi çox ağır zərbələrə, düçar olduğu maddi məhrumiyyətlərə rəğmən yaşadığımız bu 7 il ərzində çox böyük təcrübələr keçirmiş, atəşdən, dəmirdən keçmiş, böyük mənəvi müvəffəqiyyətlər qazanmış, gündən-günə böyümüş, ruhların dərinliklərinə qədər nüfuz etmiş, iliklərə işləmişdir" (273, 28 may 1925, №17). "Kiçik Türkiyənin böyük bir günü" - sərlövhəsi ilə verdiyi məqalədəki kimi yazır, bununla da istiqlal uğrunda mücadilənin bitmədiyini, əksinə, daha amansız xarakter aldığını bəyan edirdi.

Jurnalın aparıcı mövzularından biri də beynəlxalq münasibətlərə aiddir. Bu mövzuda əsasən M.Ə.Rəsulzadə və Mirzə Bala yazır, ölkələrarası münasibətləri ciddi təhlil edir, dünyada, xüsusilə Şərqdə gedən dərin ictimai-siyasi prosesləri dəyərləndirir, müvafiq nəticələr çıxarırdılar. "Neft uğrunda mübarizə" (273, №22, 18 avqust 1927-ci il), "Çin hadisələrinin inkişafı" (273, №14, 16 aprel 1927-ci il), "Rusiya dalanda" (273, №18, 18 iyun 1927-ci il), "Rusiya və Şərq arasında ticarət əlaqələri" (273, №10, 17 fevral 1927-ci il), "İki tarixi hadisə" (273, №5-6, 16 dekabr 1926-ci il) və başqa məqalələr "Yeni Qafqasya"nın beynəlxalq mövzulara necə böyük maraq göstərdiyinə dəlalət edir.

Yuxarıda qeyd etdiyimiz kimi, "Yeni Qafqasya"ya M.Rəsulzadə rəhbərlik edirdi. Lakin bu jurnalın nəşrində əvvəlki illərdə sa-

hibi-imtiyaz və müdiri məsul kimi təqdim olunan Seyid Tahirin, 1926-cı ildən sonra Sultan Əhməd Həqqinin də böyük xidmətləri olmuşdur. Seyid Tahir Əfəndinin vəfatı ilə əlaqədar "Azərbaycan" jurnalı özünün 1954-cü il tarixli 33-cü nömrəsində yazırdı: "Vaxtı ilə Milli Azərbaycan nəşrlərindən "Yeni Qafqasya" dərgisinin imtiyazını və məsul müdirliyini öz üzərinə almış və mühitimizdə bu sifəti ilə hörmət və sevgi qazanmış Seyid Tahir Əfəndi... dekabr ayında cənabı haqqın rəhmətinə qovuşmuşdur" (273, №33).

Məqalədən aydın olur ki, əslən Dağıstandan olan S. Tahir Əfəndi dövrün tanınmış simalarından biri olmuş və "İttihad və Tərəqqi" hökuməti zamanında Türkiyədə yerləşmişdir. Jurnal Seyid Tahir Əfəndini yüksək əxlaq sahibi, elmli və hər kəsin ehtiramını qazanmış şəxsiyyət kimi xarakterizə edir.

"Yeni Qafqasya", onun idealı, məramı – istiqlal davası, bu mücadilənin, ideoloji mübarizənin fədakar daşıyıcıları, şanlı tariximizin şahidləri və salnaməçiləri bu gün özləri tariximizin ədəbi və unudulmaz qəhrəmanına və mövzusuna çevrilmişlər.

"Azəri türk" jurnalı. Azərbaycan mühacirlərinin Türkiyədəki fəaliyyəti, xüsusilə mətbu orqanlar vasitəsilə həyata keçirdikləri missiya-ideoloji mübarizə sovet rəhbərliyini düşündürür və ciddi narahat edirdi. Mühacirlərə, onların nəşrlərinə qarşı həm SSRİ daxilində, həm də kənarda təsirli tədbirlər görülürdü. Sovet diplomatiyası Türkiyə hökumətindən Azərbaycan mühacirlərinin fəaliyyətinə son qoyulmasını tələb edir, daxildə isə mühacir mətbuatına qarşı əks-təbliğat aparılır, onlara maraq, məhəbbət bəsləyənlərə qarşı təzyiq, terror fəaliyyəti gücləndirilirdi. Sovetlərin səyi ilə "Yeni Qafqasya" 1927-ci ildə nəşrini dayandırdı. Türkiyənin bu addımını anlaşıqla qarşılayan mühacirlər onu qardaş hökumətin taktiki gedişi kimi dəyərləndirsələr də, susmadılar. Eyni məramlı, proqramlı jurnalın başqa adlarla çıxarılmasına qərar verdilər. Beləliklə, 1928-ci il fevralın 1-də "Azəri türk" dərgisi nəşrə başladı.

1937-ci ildə M.B.Məmmədzadə bu barədə yazırdı: "...Yeni Qafqasya" öz yerini 1928-ci ildə eyni proqramla və eyni hərarətlə çıxan "Azəri türk"ə vermişdir" (95, 194). Bu mövzuya – Azərbaycan mətbuatı tarixinin tədqiqinə dair dəfələrlə məqalə yazan Mirzə Bala Münhendə nəşr olunan "Birləşik Qafqasya"da (Qafqaz İstiqlal Komitəsinin orqanıdır, hər ay üç dildə – türkcə, ingiliscə və rusca çıxmışdır. Redaktoru A.Qantemir) "Azərbaycan mühacirlik mətbuatının 30 illiyi (1923-1953)" adlı məqaləsində də "Yeni Qafqasya" bağlandıqdan sonra (1927) "Azəri türk"ün onun işini "eyni proqram və kadr daxilində" davam etdirdiyini göstərir. Yeri gəlmişkən qeyd edək ki, məqalənin adına baxmayaraq, burada ümumiyyətlə, Azərbaycan mətbuat tarixi haqqında ətraflı məlumat verilir.

Ayda iki dəfə nəşr olunan "Azəri türk" özünü "elmi, ədəbi, ictimai, siyasi millətpərvər məcmuə" adlandırır və bu mövzularda da materiallar dərc edirdi. Jurnalın məsul müdiri Məmməd Sadıq idi.

Mövzuları, mühərrirləri. Jurnalın 1928-ci il 1 fevral tarixli ilk nömrəsində M.Ə.Rəsulzadənin "Tutduğumuz yol" adlı proqram məqaləsində mühacirlərin və onların nəşrlərinin məqsədi, məramı göstərilir, qarşıda duran vəzifələr qeyd olunur. "Azəri türk" əslində "Yeni Qafqasya"nın varisi idi və eyni ideyaya, məsləkə xidmət edirdi. Mövzular kimi, mühərrirlər də eyni idi. "Azəri türk" nəşrinin ikinci ili münasibətilə də oxucularını bir daha öz proqramı ilə və həm də geniş şəkildə tanış etmişdir. "İkinci il başında" adlı məqalədə deyilir: "İntişar etdiyi gündən bəri qüdsi bir həyəcanla millətpərvər Azərbaycan istiqlalçılarının yüksək hədəflərinə xidmət etməyə çalışmışdır. Bundan sonra da eyni proqramı təqib edəcəyik.

Çətin mücadilələrlə yerinə yetirdiyi bu ağır vəzifədə nöqsan və qeyri-kafi nöqtələr tapmaq mümkündür, lakin möhtərəm oxucuların rəğbətləri sayəsində nöqsanların aradan qaldırılacağı qənaətindəyik.

Təqib edəcəyi proqramın xülasəsi belədir:

1. "Azəri türk" Azərbaycan istiqlalı davasını müdafiə etmək vəzifəsini yerinə yetirən millətpərvərlərin orqanıdır.

2. Əsarətdə olan türk ölkələrinin qurtuluş və istiqlallarını digər məsələlərdən üstün tutur.

3. "Azəri türk" xüsusilə ruslaşdırma ilə mücadilə edir.

4. Qafqaz millətlərinin Rusiya əsarətindən qurtuluşuna və Rusiyanın istilasına qarşı birləşmələrinə tərəfdardır" (34, 16 fevral 1929, №1 (23)).

Təqdim olunan bu 4 bənddə "Azəri türk" həm özünün, həm də özündən əvvəlki və sonrakı mühacir nəşrlərin vəzifəsini də ümumiləşdirmişdir.

"Azəri türk" 1928-ci ilin sonunadək ərəb əlifbası ilə (cəmi 20 nömrə), 1929-cu ildən isə latın qrafikalı yeni əlifba ilə nəşr olunmuşdur. Təsadüfi deyil ki, bu məsələ ilə bağlı jurnalda materiallar dərc olunur, Türkiyədəki əlifba islahatı təqdir edilirdi. M.Ə.Rəsulzadənin "Hərf inqilabı cəbhəsində" (551), M.B.Məmmədzadənin "Yeni türk əlifbası münasibətilə" (457) yazıları bu qəbildəndir.

Yuxarıda da qeyd etdiyimiz kimi, "Azəri türk" "Yeni Qafqasya"nın başqa adla davamı idi. Lakin mövcud mübarizə şəraiti dəyişdiyindən, fikrimizcə, "Azəri türk" daha ehtiyatlı mövqe tuturdu. Odur ki, "Yeni Qafqasya"dakı kəskin, sərt, amansız mübarizə üsulu burada bir qədər yumşaldılır.

"Azəri türk"ün yazı heyətində də ciddi dəyişiklik olmamışdır. Bu nəşrin də əsas ağırlığı, məsuliyyəti M.Ə.Rəsulzadənin və Mirzə Bala Məmmədzadənin üzərinə düşürdü. Onların imzasına demək olar ki, jurnalın bütün nömrələrində təsadüf edilir. Bundan başqa, "Azəri türk"də Kamal, M.Y.Mehdiyev, S.Rüstəmbəyli, M.Vəkiloğlu, Məmməd Sadıq, Ə.Cəfəroğlu kimi müəlliflərin imzasına da tez-tez təsadüf edilir. Kamalın "Həyatın qüvvəti" (367), "28 Mayın müqəddəs xatirəsinə" (369), "15 Sentyabr" (370), Mir Yaqub Mehdiyevin "Beynəlmiləl si-

yasətdə petrol" (433), "Milli mücadiləmizin qüvvəti" (432) adlı yazıları maraqla oxunur.

"Azəri türk" dünyada və xüsusilə Azərbaycanda, Türkiyədə, İranda, Rusiyada, Əfqanıstanda baş verən ictimai-siyasi, iqtisadi hadisələri təhlil edir, münasibət bildirir, yeni proseslərlə bağlı mühacirlərin qarşısında duran vəzifələri müəyyənləşdirirdi. Jurnalın 1929-cu il nömrələrində verilmiş "Azərbaycanın iqtisadi vəziyyəti" (34, №1), "Əfqanıstan və Rusiya" (34, №2), "Rusiyada vəziyyət" (34, №4), "Rusiyada milli məsələ", "Avropa nəzərində Rusiya", "Dünya petrol məsələsində Azərbaycanın rolu" (34, №14), "Sovet petrolunu boykot" (34, №18), "Əfqanıstanda islahat" (34, №16, 1928), "Avropa və Sovetlər" (34, №1 (23) kimi məqalələr fikrimizi təsdiqləyir.

Azərbaycan ədəbiyyatı, maddi-mədəniyyət abidələri haqqında materiallar "Azəri türk"də xeyli yer tutur. Azərbaycan ədəbiyyatı ilə bağlı məqalələri mövzusuna görə iki qrupa bölmək olar: Azərbaycan xalqının mənafeyinə, tərəqqisinə, istiqlalına xidmət edən ədəbi nümunələrin təqdimi, təhlili və sovet rejiminin quluna çevrilmiş yazarların əsərlərinə münasibət bildirən materiallar. "Milli dastanlarımıza dair" (34, 15 aprel 1928, №6, 27 aprel 1928, №7), "Azəri xalq ədəbiyyatında "Qaçaq Nəbi" dastanı" (34, 1 avqust 1928, №13) və sairdə xalq ədəbi nümunələri məhəbbətlə araşdırılırsa, "Azərbaycanda ədəbiyyat məsələsi" (34, iyul 1928, №12), "Azərbaycanda ədəbi həyat" (34, 15 oktyabr 1928, №18) kimi yazılarda sovet dövrü ədəbiyyatının tənqidi əsas məqsəddir. Bundan əlavə, "Azəri türk"də vətən, istiqlal, qürbət mövzusunda yazılmış çoxsaylı ədəbi nümunələr də dərc edilmişdir: "Salam, sənə yurdum Bakı!" (34, 15 sentyabr 1928, №16), "Azəri gəncinə" (34, 15 avqust 1928, №14), "Dönməyəcəyəm" (34, 1929, №22), "Zəfər yolunda" (34, 1929, №22), "Kəndimdə qalana", "Haqqın səsi" (34, 1930, №30), "Solğun çiçək" (34, 1929, №23) və s. kimi nümunələr məhz bu qəbildəndir. "Azəri türk"ün tez-tez verilən "Kitabiyyat" hissəsində oxu-

cular yeni nəşrlərlə, "Türkiyə həyat və mətbuatında" adlı rubrikada isə qardaş ölkədəki yeniliklərlə tanış edilir.

Beynəlxalq iqtisadi, siyasi, münasibət və vəziyyətin təhlili, demokratiyanın inkişafı ilə bağlı nəzəri mülahizələr – "Demokratiyanın gələcəyi" (34, 1928, №1, №2, №3, №4), "Velikoruslarda əndişə" (34, 1928, №4), "Avropa nəzərində Rusiya" (34, 1928, №6), "Avropa və Sovetlər" (34, 1929, №23) və s. məqalələr bu gün də böyük maraq doğurur.

"Azəri türk"ün Azərbaycan mühacirət mətbuatı tarixində xüsusi yeri və rolu vardır. Bu nəşr Türkiyədəki Azərbaycan mühacirlərinin ən tələtümlü, həyəcanlı, qeyri-sabit mübarizə şəraiti dövrünə təsadüf edir. "Azəri türk" bağlandıqdan (1931) az sonra mühacir nəşrlərin İstanbul dövrü başa çatır.

"Azərbaycan" məcmuəsi (Paris). "Yeni Qafqasya"dan sonra Azərbaycan mühacirlərinin növbəti mətbu orqanı fransız dilində buraxılan "Azərbaycan" məcmuəsidir (13). Onun ilk nömrəsi 1926-cı ilin oktyabrında Parisdə nəşr edilmişdir. Azərbaycan-türk federalist, demokratik "Müsavat" partiyasının orqanı olan bu məcmuə, "Məqsədimiz" adlı baş məqaləsini belə başlayır: "İlk dəfə işıq üzü görən "Azərbaycan", necə deyərlər, mübarizə aparan Azərbaycanın əks-sədasıdır. Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika olması ilə fəxr edir" (28). Məqalədə daha sonra Azərbaycanın 1918-ci ildə müstəqillik elan etdiyi, sözün tam mənasında Şərqdə ilk müasir hökumət yaratdığı, bununla da demokratiyanın müqəddəs prinsiplərinə sadiq qaldığı qeyd olunur.

Böyük çətinliklərə baxmayaraq, Azərbaycan qısa zamanda öz ordusunu, dövlət orqanizmini, sivil təşkilatları yaratmağa müvəffəq olmuşdur. Azərbaycan, hətta digər dövlətlər tərəfindən tanınmasını təmin etmişdir. Məqalədə deyilir: "Altıq altı ildir ki, bu kiçik, lakin cəsur xalq qəsbkarların vəhşiliyi ilə tarixdə analoqu olmayan istilaçıların əsarətindədir.

Altı ildir ki, Azərbaycan xalqı bütün gücü ilə işğalçılara qar-

şı amansız mübarizədən yorulmur, geri çəkilmir. Bu mübarizənin gərginliyi haqqında təsəvvür əldə etmək üçün rəsmi bolşevik statistikasına nəzər salmaq kifayətdir: 1918-ci ildən 1924-cü ilədək 56 üsyan yatırılmışdır ki, onların sırasında Gəncə üsyanı xüsusilə məşhurdur. Həmin üsyan zamanı 10 min qurban verilmişdir" (yenə orada). Məqalədə azadlıq düşmənlərinə xəbərdarlıq edilir, qoy onlar düşünməsinlər ki, gec-tez azərbaycanlılar vəziyyətlə barışacaqlar. Müstəqilliyə məhəbbət, hər bir gəncin qəlbində alovlanan azadlıq hissi onu yeni qəhrəmanlıq addımları atmağa sövq edir. Bu gün Çeka türmələri boşalmır, Sibir sürgünləri azalmır. Hər gün güllələnən günahsız insanlarm siyahısı qəlbi sızladır. Bütün bu cəzalar, edamlar adamları qorxutmur, əksinə, onların mübarizə əzmini artırır.

Digər mədəni xalqlar kimi azərbaycanlılar da əmindilər ki, onların yeganə nicatı azadlıqdır. Məqalədə daha sonra bu məfkurə uğrunda mühacirətin də ciddi ideoloji mübarizə apardığı vurğulanır. "Yeni Qafqasya"nın bu sahədəki fəaliyyəti misal kimi göstərilir. Məqalədə deyilir: "Azərbaycan xalqının ali mənafeyi tələb edir ki, Vətənə uzaq-yaxınlığından asılı olmayaraq, hər kəs bolşevik zülmünə qarşı aparılan mübarizəni mədəni dünyaya çatdırmağa borcludur. Bax, bu niyyətlə də "Azərbaycan"nın ilk nömrəsi çıxmışdır" (28). "Azərbaycan" öz məqsədini belə açıqlayır: mədəni dünyanı mübarizə aparan xalqın səsini eşitməyə məcbur etmək.

"Azərbaycan" birinci nömrəsində "Müsavat" partiyasının Proqramından bəzi parçaları, partiyanın yaranması tarixini, fəaliyyəti və məqsədi ilə bağlı yazıları oxuculara təqdim edir.

"Konstantinopoldakı Azərbaycan milli nəşrləri" adlı məqalədə Türkiyədəki mühacirlərin mətbu fəaliyyəti də öz əksini tapmışdır. Məqalədə göstərilir ki, türk və müsəlman dünyasında rus imperializminə qarşı mübarizə aparan yeganə mətbu orqan "Yeni Qafqasya"dır və jurnal əsasən Azərbaycanın azadlığı uğrunda mübarizə aparır, bununla belə, adından da göründüyü kimi, o, Qafqazla bağlı bütün məsələlərə toxunur. Bununla da kifayətlənmir: Kazandan, Türküstandan, Krımdan da yazır. Nəhayət, "Yeni Qafqasya" Türkiyə həyatından və İrandan bəhs edir.

"Yeni Qafqasya" özünün sanballı, kəskin yazıları ilə bolşevik mətbuatını, hətta "Pravda"nı qıcıqlandırır, komissarlar Orcenikidze, Çiçerin kimi Sovet rəsmilərini hiddətləndirir, sonuncunu dəfələrlə etiraz notaları ilə Türkiyə hökumətinə müraciətə məcbur edir.

"Azərbaycan" yazır ki, bəzi texniki səbəblərə görə, "Yeni Qafqasya" öz nəşrini müvəqqəti dayandıranda, bolşeviklər bundan istifadə edərək sevincək şayiə yaymışdılar ki, jurnal bağlanmış, naşir həbs olunmuşdur. Kommunist qəzetləri bu hadisəyə redaksiya məqaləsi həsr edir, oxuculara gözaydınlığı verir və bildirirlər ki, müsavat intriqalarının sonu belə nəticələnməli idi. Çox çəkmir ki, "Yeni Qafqasya" nəşrini davam etdirməyə başlayır. Məqalə belə qurtarır: "Bədbəxt bolşevik polemikaçılar".

Jurnalın "Müsavatçıların izlənməsi" məqaləsində 1920-ci ildən, xüsusilə Gəncə üsyanından sonra başlanan həbslərdən, təqiblərdən, sürgünlərdən bəhs olunur. Jurnal sonda xəbər verir ki, gələcək nömrələrdə iqtisadi məsələlərə, Azərbaycanın maraqlarına xidmət edən digər mövzulara dair geniş materiallar dərc ediləcəkdir (28).

"Yeni Qafqasya" "Azərbaycan"nın nəşri xəbərini sevinclə qarşılamış, məcmuəni təbrik etmiş, onun fəaliyyətini daim izləmişdir. Jurnalın 16 dekabr 1926-cı il tarixli 5-6-cı nömrəsində xəbər verilir ki, redaksiyaya Parisdə fransız dilində nəşr olunan "Azərbaycan" adlı məcmuə daxil olmuşdur. "Yeni Qafqasya" "Azərbaycan"ın ilk nömrəsinin icmalını verir, məcmuənin qarşısına qoyduğu vəzifələr barədə öz oxucularını ətraflı məlumatlandırır. Sonra "Yeni Qafqasya" Azərbaycan müstəqilliyinin bayraqdarı – milli partiyanın yeni orqanını ürəkdən alqışlayır, ona uğurlar arzulayır (yenə orada).

"Yeni Qafqasya"nın 18 iyun 1927-ci il tarixli 18-ci nömrəsin-

də dərc olunan "Konstantinopolda, "Yeni Qafqasya"nın redaksiyasında" adlı məqalədə göstərilir ki, qəzetin müxtəlif şəkillərlə, Türkiyə və Azərbaycan Respublikasının bayraqları ilə bəzədilmiş böyük zalında 28 May İstiqlal gününə həsr olunmuş təntənəli yığıncaq keçirilir. Diqqəti müxtəlif vaxtlarda və yerlərdə nəşr olunmuş milli nəşrlərdən ibarət sərgi-guşə cəlb edir. Onların sırasında Parisdə fransız dilində nəşr edilən "Azərbaycan" məcmuəsinin may nömrəsinin olduğu da göstərilir (yenə orada).

"Yeni Qafqasya"nın 1 oktyabr 1927-ci il tarixli 1-ci nömrəsində verilmiş "5-ci ildönümün başlanğıcı" adlı baş məqalədə "Yeni Qafqasya"nın 4 illik fəaliyyəti dəyərləndirilir, tarixi xidmətləri qeyd olunur və nəşrinin 5-ci ilində də ənənələrinə, tutduğu yola sadiq olacağı qeyd edilir. Məqalə belə başlayır: "Rusiyanın əsarəti altında olan türk və Qafqaz xalqlarının 4 il əvvəl yeganə orqanı "Yeni Qafqasya"nın indi onun yolu ilə gedən silahdaşları var. Müsavatın Parisdə fransız dilində nəşr etdiyi "Azərbaycan", gürcülərin "Purdzola" və "Müstəqil Gürcüstan", ukraynalıların "Trezub", qafqazlıların, ukraynalıların və türküstanlıların ümumi orqanı fransız dilində "Prometey", Praqada şimali qafqazlıların "Azad dağlılar", Konstantinopolda türküstanlıların "Yeni Türküstan" nəşrləri bu qəbildəndir" (yenə orada).

Göründüyü kimi, "Azərbaycan" məcmuəsi həmişə "Yeni Qafqasya"nın diqqət mərkəzində olmuşdur. "Azərbaycan" məcmuəsi xaricdə əcnəbi dildə buraxılan ilk mətbu orqan kimi böyük tarixi əhəmiyyət kəsb edir. Bu nəşrin fransızlar arasında Azərbaycan həqiqətlərinin təbliğ edilməsində faydalı rolu olmuşdur.

"Odlu yurd" jurnalı. "Odlu yurd" – milli Azərbaycan fikrinin daşıyıcısı olaraq intişar edir. Bu intişarla o özündən əvvəl "Yeni Qafqasya" ilə "Azəri Türk" məcmuələri tərəfindən gedilmiş ideal yolunu davam etmək əzmindədir" (105, №1, 1929). Bu sözlər "Odlu yurd" jurnalının "Çöhrəmiz'" adlı baş məqaləsindən götürülmüşdür. Məqalədə milli məfkurənin, milli idealın, milli bayrağın, hürriyyət və istiqlalın "Azərbaycan milliyyətçilərini məşğul edən ən aktual bir məsələ" olduğu qeyd edilir: "Sözün demokratik mənasında istiqlal milli hakimiyyət xaricində var deyildir. Milli hakimiyyət isə yalnız xalq adına və xalq vasitəsilə icra olunur. Bunu təmin edən sistem də hürriyyət əsasları üzərində qurulan demokratik sistemdir. Bu mənada müstəqil millət demək – xalq hakimiyyətinə dayanan milli dövlət deməkdir" (yenə orada.)

Yazıda yalnız "Odlu yurd" jurnalının deyil, ümumiyyətlə, bütün istiqlal aşiqlərinin, mücahidlərin proqramı, məramı və məqsədi açıqlanır və bu, onların çöhrəsi, siması, mübarizələrinin mahiyyəti, məğzi kimi səciyyələndirilir: "Budur, ana xətləri ilə çöhrəmiz: milli hakimiyyət uğrunda çarpışan, çalınmış istiqlalını geriyə almaq üçün çarpışan bir millətin çöhrəsi!". Müəllif daha obrazlı, daha təsirli bir ifadə ilə bu simanı xarakterizə edir: "Milli Azərbaycan bayrağı - bax, bizim çöhrəmiz!" (Yenə orada).

Baş məqalədən də göründüyü kimi, bütün təzyiqlərə baxmayaraq, mücahidlər öz mücadilələrini qətiyyətlə, sonadək davam etdirmək əzmindədilər. Yeri gəlmişkən qeyd edək ki, sovetlərin tələbi ilə Türkiyə hökuməti "Yeni Qafqasya"nın nəşrini dayandırsa da, müsavatçıların fəaliyyətinə xitam vermək bir müddət qeyri-mümkün olmuşdur. Əvvəla bu, Türkiyənin də mənafeyinə uyğun deyildir. Digər tərəfdən, qardaş xalq, ictimaiyyət də bu addımı birmənalı qarşılamayacaqdı. Dövrünün nüfuzlu nəşrlərindən sayılan "Tan" özünün "Türkiyə və siyasi millətçilər" adlı məqaləsində Qafqaz və Türküstan mühacirlərinin fəaliyyətindən, daha çox "Yeni Qafqasya", "Azərbaycan" (Paris) jurnallarının yayılmasından, mühacirlərin sovetlərə qarşı amansız ideoloji mübarizəsindən, Sovetlər Birliyinin Türkiyə hökumətindən onları susdurmaq tələbindən yazır və qeyd edir ki, Türkiyə bu cənablara (mühacirlərə - A.T.) qarşı repressiya tədbirləri görə bilməz və bu addımı atmamalıdır.

Türkiyə tarix boyu öz qoynunda çoxlarına sığınacaq vermişdir, digər tərəfdən isə, bu mühacirlər bizim irqdaşlarımızdır (56). Bu səbəblərdən Türkiyə hökuməti nəşrlərin fəaliyyətini məhdudlaşdırmaq üçün müəyyən addımlar atsa da, qəti tədbirlər görməyə tələsmirdi. Təbii ki, mövcud tarixi, ictimai-siyasi vəziyyəti düzgün dəyərləndirən Azərbaycan mühacirləri Türkiyə hökumətinin məcburən qəbul etdiyi qərarları anlayışla və taktiki gediş kimi qarşılayıb, eyni zamanda fəaliyyətlərinə də fasilə vermirdilər. "Odlu yurd" da belə fəaliyyətin məhsulu kimi intişar etmişdi. Əslində dəyişən yalnız forma idi. Məzmun, ideya, proqram "Yeni Qafqasya"dan, "Azəri türk"dən fərqlənmirdi.

"Odlu yurd"da verilən "Odlu yurd" idarəsindən" adlı proqram-məqalə əvvəlki nəşrlərdəkindən demək olar ki, fərqlənmirdi. Proqram-məqalədə deyilir: "Milli Azərbaycan fikrini tervic etmək (bütün digər məsələlərdən üstün tutmaq - T.A.) üzrə təsis olunan "Odlu yurd" məcmuəsi aşağıdakı fikirlərə xidmət edir:

- "Odlu yurd" milliyyətçi, xalqçı, cümhüriyyətçi və istiqlalçı bir məcmuədir;
- "Odlu yurd" müstəqil Azərbaycan Xalq Cümhuriyyəti məfkurəsini tervic və müdafiə edir;
- "Odlu yurd" türk xalqlarını bir-birinə tanıdır və xüsusilə türk dünyasının yeganə müstəqil cümhuriyyət Türkiyəsinə aid oxuculara məlumat verir;
- "Odlu yurd" Qafqazın istiqlal və xilasını gözdə tutur və bunun reallaşması üçün qafqazlıları ümumi düşmənə qarşı ittifaqa çağırır;
- "Odlu yurd" Şərqin, xüsusən məzlum və məhkum türk xalqlarının istiqlal davasını teyit (doğrultmaq – T.A.) və milliyyət mücadiləsini tebcil (ucaltmaq - A.T.) edir" (105, 1929, №1).

"Odlu yurd"un nəşrində aşağıdakı mühərrirlər iştirak edir: M.Ə.Rəsulzadə, M.Vəkilli, M.B.Məmmədzadə, M.Ağaoğlu, Mir Yaqub, Azəri, Daşdəmir, Şəfi, Ə.Cəfəroğlu, Y. Əli, Kamal,

Dəmirçioğlu, N.Camal, C.Sadıq, A.Mir Qasım, A.Battal, Odlu türk və b." (Yenə orada). Buradaca qeyd olunur ki, məcmuənin Avropa və İranda xüsusi müxbirləri olduğu kimi, Azərbaycanın daxilindən xəbərlər və məktublar almaq imkanı da var. Bütün sonrakı nömrələrdə məcmuənin proqramı və mühərrirlərin siyahısı eynilə çap olunur.

Jurnal M.Ə.Rəsulzadənin baş mühərrirliyi (redaktorluğu) ilə nəşr edilmişdir. "Odlu yurd"un imtiyaz sahibi A.Kazımzadə, məsul müdiri Kamal, sonralar B.Süleyman olmuşdur. Son bir neçə nömrədə isə oxuyuruq: "Ümumi nəşriyyat və yazı işləri müdiri: Mirzə Bala".

"Odlu yurd"un nəşri Türkiyədə yeni əlifbaya keçid dövrünə təsadüf edir. Odur ki, jurnal birinci nömrəsindən başlayaraq, sentyabr 1930-cu il tarixli 20-ci nömrəsinədək hər nömrənin üz qabığının içəri səhifəsində "Yeni türkcə əlifbanı öyrənin!" adı ilə "ərəbcə", "sovetcə" qarşılığı olan yeni türk əlifbasını vermişdir.

Jurnalın üz qabığında "Odlu yurd" sözlərindən sonra "Milli Azərbaycan fikriyyatını tervic edən (digər bütün məsələlərdən üstün tutan - A.T.) aylıq məcmuə" sözləri yazılmışdır.

1991-ci ilədək - Azərbaycan öz müstəqilliyini yenidən elan edənədək bütün mühacir mətbuatın aparıcı mövzusu Azərbaycanın istiqlalı uğrunda ideoloji mübarizə olmuşdur. Bu mücadilə öz başlanğıcını İstanbul nəşrlərindən - "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd" və "Bildiriş" kimi mətbu orqanlardan götürmüşdür.

"Odlu yurd" dərc etdiyi məqalələri mövzularına görə aşağıdakı kimi qruplaşdırır:

- siyasət qismi;
- istila xatirələri;
- istila qurbanları;
- havadis qismi;
- elm və ədəbiyyat qismi;
- Türkiyə həyatı;

- mətbuat və kitabiyyat.

Əlbəttə, bu bölgü şərti xarakter daşıyırdı.

"Siyasət", "İstila qurbanları", "İstila xatirələri", "Mətbuat və kitabiyyat" bölmələrinin əsas yazarları M.Ə.Rəsulzadə, Mirzə Bala, Mustafa Vəkilli, Hilal Münşi, A.Battal, A.Mir Qasım idisə, elm və ədəbiyyat qismində dr. Əhməd Cəfəroğlu, M.Ağaoğlu xüsusilə fərqlənirdi.

"Odlu yurd" Azərbaycan mühacir mətbuatı tarixində parlaq iz qoymuşdur: o özündən əvvəlki nəşrlərin ənənələrini uğurla davam etdirmiş və zənginləşdirmiş, özündən sonrakılara örnək, nümunə olmuşdur.

"Azərbaycan yurd bilgisi" jurnalı. XX əsrin 20-ci və 30-cu illərinin əvvəllərində Türkiyədə məskunlaşan Azərbaycan mühacirlərinin siyasi fəaliyyəti, xüsusilə Sovet İttifaqı üçün ciddi problemlər, həmin dövrün ən fəal mücahidlərindən biri olan Mirzə Bala Məmmədzadənin təbirincə desək, "təlaş və qorxu" yaratmışdı. Mühacirlər bütün vasitələrlə, xüsusilə nəşr etdikləri mətbu orqanlarla "Şərq-islam millətlərinin gözünü açır və indiyədək demək olar ki, bolşevizm haqqında heç bir məlumatı olmayan bu dünyada bolşevizmin əsl simasını ifşa edirdi". Bu mənada 1922-ci ildən İstanbulda nəşr olunan "Yeni Qafqasya"nın, sonrakı illər onun işini davam etdirən "Azəri-türk", "Odlu yurd", "Bildiriş" kimi nəşrlərin fəal ideoloji mübarizəsi diqqəti cəlb edir. Təsadüfi deyildir ki, "buna görə də lap ilk gündən etibarən bolşeviklər xaricdəki milli fəaliyyət və nəşriyyat əleyhinə əsaslı tədbirlər görməyə girişmişdilər" (95, 185). Nəhayət, sovetlərin təkidli tələbindən sonra - 1932-ci ildən Azərbaycan mühacirləri, onların nəşrləri Türkiyədə fəaliyyətlərini dayandırdılar. Həmvətənlərimizin əksəriyyəti Avropanın müxtəlif ölkələrinə - xüsusilə Almaniya və Polşaya üz tutdular.

Belə bir dövrdə sonradan "Azərbaycan folklorşünaslığının, ədəbiyyatşünaslığının, ümumi filoloji fikrinin bütün dünya miqyasında təmsilçilərindən birinə çevriləcək Əhməd Cəfəroğlu"

(112, 57-68) və onun nəşr etdiyi "Azərbaycan yurd bilgisi" jurnalı meydana çıxır. Əhməd Cəfəroğlu (1899 Gəncə, 1975 İstanbul) Qafqaz İslam Ordusu tərkibində 1918-ci il sentyabrın 15-də Bakının bolşevik-erməni quldurlarından azad olunmasında topçu kimi iştirak etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra Ə.Cəfəroğlu Bakı universitetində təhsilini yarımçıq qoyur və Türkiyəyə mühacirət edir. O, İstanbul, Berlin və Breslau Universitetlərində filoloji təhsil alır, 1929-cu ildə Almaniyada "Gəncə dialektində 75 Azərbaycan bayatı türküsü: Bir dil araşdırması ilə" mövzusunda doktorluq dissertasiyası müdafiə edir.

Əhməd Cəfəroğlunun bütün sonrakı həyatı İstanbul Universiteti ilə bağlıdır. O, əvvəlcə universitetin türk dili kafedrasında dosent, 1938-ci ildən professor kimi çalışır, 1946-cı ildən ömrünün sonunadək həmin kafedranın müdiri kimi fəaliyyət göstərir.

Onun 1985-ci ildə Ankarada nəşr olunan "Türk qövmləri" adlı əsərinə ön söz yazmış professor Məhərrəm Ergin Əhməd Cəfəroğlunu "yalnız Türkiyə türkologiyasının deyil, bütün dünya türkologiyasının gəlib-keçmiş ən böyük simalarından biri" adlandırır. Onun yetirmələri və irsinin araşdırıcılarından dr. Osman Fikri Sərtqaya, prof.dr. Zeynəb Qorxmaz, prof.dr. Əhməd Bilgə Ərcilasun, habelə tanınmış macar türkoloqu Yanoş Eskman, görkəmli alim Omeljan Pritçak, prof. Vilayət Quliyev, şair Abbas Abdulla, prof. Qasım Qasımzadə, prof. Əzizə xanım Cəfərzadə, prof. Vaqif Sultanlı, f.e.n. Elşən Əbülhəsənli və digərləri dünya şöhrətli alim Əhməd Cəfəroğlunun Azərbaycan ədəbi-nəzəri fikri tarixindəki xidmətlərini, Türkiyədə filoloji fikrin inkişafına verdiyi töhfələri, çoxşaxəli elmi araşdırmalarını, səmərəli pedaqoji fəaliyyətini yüksək dəyərləndirmişlər. Filologiya elmləri doktoru M.Qasımlı, f.e.n. N.Cabbarlının "Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi" monoqrafiyasına yazdığı ön sözdə göstərir ki, Ə.Cəfəroğlunun elmi, pedaqoji və siyasi fəaliyyəti geniş anlamda türklük mücadiləsinə, o cümlədən də Azərbaycan istiqlalına xidmət etməyə yönəlmişdir" (40, 3). Sərrast seçilmiş ifa-

dələrdir və Ə.Cəfəroğlunun bütün həyat və fəaliyyətinin mənasını, məzmununu dəqiq, düzgün əks etdirir.

Əhməd Cəfəroğlunun elmi irsi onun bir türkoloq kimi adını ədəbiləşdirir. Lakin bu böyük qələm sahibini Azərbaycan tarixində yaşadacaq daha bir şah əsəri var: "Azərbaycan yurd bilgisi" (bundan sonra - "AYB") jurnalı (36). Jurnalın məhz 30-cu illərin əvvəllərində nəşrə başlaması onun tarixi əhəmiyyətini qat-qat artırır. Qeyd edildiyi kimi, həmin dövrdə Azərbaycan mühacirlərinin Türkiyədə ideoloji-siyasi fəaliyyəti qadağan olunmuşdu və mühacirətin liderləri ölkəni tərk etmişdilər. "AYB" bir tərəfdən az-çox bu boşluğu doldururdusa, digər bir tərəfdən isə Azərbaycan mədəniyyətini, ədəbiyyatını fəal tədqiq və təbliğ tribunası kimi yeni bir istiqamətin, fəaliyyət sahəsinin bünövrəsini, təməlini qoyurdu. Əvvəlki cümlədə "az-çox boşluğu doldururdusa" ifadəsi təsadüfi işlənilməyib. Məsələ burasındadır ki, bir qisim araşdırıcılar "AYB"-ni siyasi fəaliyyətdən uzaq, sırf ədəbi-nəzəri-elmi nəşr hesab edirlər. Yanılırlar. Jurnalın materialları ilə dərindən tanış olduqda, onun çoxsahəli missiyanı yerinə yetirdiyinin, o cümlədən ideoloji-siyasi mücadilə də apardığının şahidi olursan. Elə jurnalın redaktoru prof. Əhməd Cəfəroğlunun birinci nömrədə dıərc etdiyi "Bir neçə söz" adlı proqram- məqaləsində göstərildiyi kimi, "Azərbaycan yurd bilgisi"nin məqsədi və qayəsi yalnız mədəni sahədə tədqiqatlar aparmaqdan ibarət olmayıb, eyni zamanda Azərbaycansevərlərə bu Vətəni tanıtmaqdır".

"27 Aprel 1920-ci il tarixində böyük türk dünyasının köksündə hürriyyət bayrağını dikən bir türk ölkəsinin ocağı sönmüş, Azərbaycan - Odlar yurdu qızıl ruslar tərəfindən işğal edilmişdir" (36, aprel 1933, №16) - kimi kədərlə yazan "Azərbaycan yurd bilgisi" digər tərəfdən, istila ilə barışmadığını da bəyan edirdi: "Türkün yurdu türk tarixində bir çox 27 Aprel fəlakətləri keçirmiş, fəqət heç bir vaxt idealını qeyb etməmiş, istiqlaliyyətini unutmamışdır. 27 Aprelin qara günlərinə Sibirdəkilər aclıqla, daxildəkilər milli qiyamlarla, xaricdəkilər birlikləri ilə müqavimət göstərdilər" (36, aprel 1937, №28). Göründyü kimi, "Azərbaycan yurd bilgisi" vətənin istiqlalı və istilası mövzusu üzərindən sükutla keçməmişdir. Əksinə, yeri düşdükcə, azadlığa inam dolu materiallar da dərc edirdi: "Bu gün özünə "Azərbaycanlıyam" deyən hər bir türk, Azəri türk izzəti nəfsinə endirilən vicdansız acını bir daha görməkdə, milli Azərbaycan məfkurəsinin nə olduğunu bir daha təqdir edir və istiqlal işığının artıq dan yerindən sökülməyə başladığını sezir" (yenə orada).

Nəşr tarixi haqqında. "AYB"-nin 1-ci nömrəsi 1932-ci ilin yanvar ayında işıq üzü görmüşdür. Jurnal dr. Ə.Cəfəroğlunun müdirliyi və prof. dr. Köprülüzadə M.Fuad, prof. Ə.Z.Vəlidi, dr. Hacızadə Mirzə, dr. Ağaoğlu Məhəmməd, asis. Əbülqədir bəylərin iştirakı ilə ayda bir dəfə İstanbuldakı Bürhanəddin mətbəəsində çap edilmişdir.

İlk nömrələrdə jurnalın adından sonra "müdir dr. Cəfəroğlu Əhməd - Ədəbiyyat fakültəsində müdir müavini", "müdir dr. Cəfəroğlu Əhməd - universitetdə türk dili tarixi dosenti", sonralar "müdir dr. Cəfəroğlu Əhməd, daha sonralar isə "sahibi və müdiri Cəfəroğlu" yazılmışdır (36, 1932, №1).

1932-1934-cü illərdə jurnalın hər ay bir nömrəsi olmaqla cəmi 36 nömrəsi çap olunmuşdur. Jurnalın bəzən iki nömrəsi birləşdirilmişdir. "AYB" 20 illik fasilədən sonra - 1954-cü ilin fevral ayında Azərbaycan Kültürünü Tanıtma Dərnəyinin yayın orqanı kimi nəşrə başlayır. Bu, onun 37-ci və həm də son nömrəsi idi.

Jurnalın 37-ci nömrəsinin buraxılışı münasibəti ilə "Azərbaycan" jurnalı (Ankara) "Azərbaycan yurd bilgisi" sərlövhəsi ilə çap etdiyi məqalədə bu nəşri "kültür davamızda əski və əməkli bir dərgi", "Azərbaycan kültürünü tanıtma baxımından yüksək dəyər daşıyan elmi dərgi" (36, mart 1954, №12) adlandırır.

Yeri gəlmişkən qeyd edək ki, 1984-cü ildə jurnalın Fotofaksimilesi 3 cilddə Istanbulda nəşr olunmuşdur.

Jurnalın mövzuları və yazarları. "AYB"-nin mövzuları müxtəlif və rəngarəngdir. Burada Azərbaycan xalqının tarixi, dili,

ədəbiyyatı, mədəniyyəti, incəsənəti, coğrafiyası, hətta iqtisadiyyatı ilə bağlı çox sanballı materiallar, bir sıra türkdilli xalqların tarixi, ədəbiyyatı, görkəmli xadimləri və qəhrəmanlarından bəhs edən yazılar çap olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti, onun süqutu və tarixi əhəmiyyəti, Qafqazda rus siyasəti, onun ifşası ilə bağlı məqalələr, habelə Türkiyədə və xaricdə nəşr olunan kitab və digər nəşrlərin icmalı diqqəti cəlb edir. "AYB"-də dərc olunmuş elmi-nəzəri əsərlər Azərbaycan ədəbiyyatşünaslığının və türkologiyanın inkişafında xüsusi mərhələdir və həmin irs mötəbər mənbə kimi bu gün də əhəmiyyətini itirməmişdir.

Prof. Əhməd Cəfəroğlunun jurnalın çap olunmuş müxtəlif nömrələrində "Azərbaycan tarixinə ümumi bir baxış", "Böyük azəri alimi Mirzə Kazım bəy", "Azəri ədəbiyyatında istiqlal mücadiləsi izləri", "Şərqdə və Qərbdə azəri ləhcəsi tədqiqatları", Azəri xalq ədəbiyyatında "Aşıq Qərib" dastanı, "Avropa səyyahlarına görə XVII əsr Azərbaycanı", "Mirzə Fətəli Axundzadə", "XVI əsr Azəri saz şairlərindən Tufarqanlı Abbas", "İsmayıl bəy Qasprinski" və s. kimi əsərləri ona dünya şöhrəti gətirmişdir. Prof. Ə.Cəfəroğlunun Azərbaycan dili, şifahı və yazılı ədəbiyyatı, tarixi ilə bağlı tədqiqatları, həm də "Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə bağlı bir sıra sovet və xarici ölkə alimlərinin qeyri-obyektiv, yanlış mülahizələrini təkzib etməyə, təhrifləri aradan qaldırmağa" xidmət etmişdir (N.Cabbarlı adı çəkilən əsərində bu qənaətə gəlmişdir).

"AYB"-nin fəal yazarlarından biri də dünya şöhrətli türkoloq prof. Fuad Köprülüzadədir. Onun jurnalda "Dədə Qorqud" kitabına aid notlar" (386), "Füzulinin yeni əsərləri" (387), "İsmayıl bəy Qaspirinski" (388), "Nami" (389), "Sam Mirzə Səfəvi və əsəri" (390) kimi məşhur tədqiqatları çap olunmuşdur.

Görkəmli alimin "Dədə Qorqud" dastanları ilə bağlı araşdırmaları yazıldığı dövrdə olduğu kimi, bu gün də aktualdır, böyük elmi əhəmiyyət kəsb edir. Dastanlarda təsadüf edilən qədim adət-ənənələrin, adların izahı, bəzi qədim türk söz və ifadələrinin

müxtəlif, mötəbər mənbələrə əsaslanaraq elmi şərhi qorqudşünaslığın inkişafına güclü təsir etmişdir. "Füzulinin yeni əsərləri" adlı məqaləsindən bəlli olur ki, müəllif hələ 1924-cü ildə Füzulinin 15 əsəri haqqında bir monoqrafiya yazmış və çap etdirmişdir. Lakin həmin monoqrafiyada adı çəkilən bir neçə əsərin əldə olmadığını qeyd etmişdir. F.Köprülüzadə yazır ki, gənc və qiymətli rus tədqiqatçılarından Ü.E.Bertels həmin əsərlər haqqında SSRİ Elmlər Akademiyasının bülletenində məqalə dərc etmişdir. F.Köprülüzadə daha sonra sovet aliminin uğurunu alqışlayır və tədqiqatçıların əlaqə və əməkdaşlığının vacibliyini vurğulayır.

Prof. F.Köprülüzadənin "İsmayıl bəy Qaspirinski" adlı məqaləsi kiçik həcmli olsa da, diqqətçəkəndir və qaspıralışünaslığa böyük töhfədir. Alim məqalədə İsmayıl bəy Qaspıralının həyat və fəaliyyəti haqqında məlumat verir və sonda inamla bildirir ki, bütün həyatını türklüyün yüksəlməsinə sərf edən bu böyük adam türk xalqının əbədi şükranlarına layiqdir. Prof. Köprülüzadənin "Nami", "Sam Mirzə Səfəvi və əsəri" adlı məqalələri də ədəbiyyat tarixi üçün qiymətli məxəzlərdir.

"AYB"-nin müəllifləri arasında Həsən Abdullahoğlu daha çox türk tarixi, dili və etnoqrafiyası, türk qövmləri haqqında yazıları ilə yadda qalır. Onun, "İkinci Məhəmməd Giray xan", "Qaqauzlar", "Hoton türkləri", "Krım-Qafqaz münasibətinə bir yarlıq", "Krımın süqutunun 150 illiyi", "Vyana önündə Krım süvariləri", "İsmayıl bəy Qaspirinski", "Krım türklərinə qarşı rus siyasəti" və s. kimi jurnalın müxtəlif nömrələrində çap olunmuş elmi-nəzəri və publisistik əsərləri türkdilli xalqlar, onların zəngin mədəniyyəti, adət-ənənələri, böyük tarixi şəxsiyyətləri barədə dolğun məlumat verir.

Konya litseyi ədəbiyyat müəllimi Əbdülbakinin "Füzulidə Qərbliyə meyl və çap olunmamış əsərləri" (336), "Qasımi" (337), "Bir azəri bəktaşı şairi" (338) adlı əsərləri özünəməxsus mühakimələri, orijinal mülahizələri ilə yadda qalır.

Kazanlı Abdullah Battalın "Kitab əl-idrak li-lisan əl-ətrak"

(310) məqaləsi dilçilik və lügətçilik baxımından maraq doğurur.

İstanbul Universiteti Türkiyyat İnstitutunun asistenti Əbdulqadir Süleymanın "Türk qövmlərinin xalq ədəbiyyatında rus istilasının inikası" (602), "Türkistanın milli qəhrəmanları" (603) və digər əsərləri türkologiyaya və türk tarixinə gözəl töhfələr hesab oluna bilər.

Prof. Əhməd Zəki Validinin jurnalda dərc olunmuş əsərləri Azərbaycanın tarixi coğrafiyasına (683) və Azərbaycan türk etnoqrafiyasına (684) həsr olunmuşdur və müəllifin toxunduğu məsələlər bu gün də öz aktuallığını itirməmişdir.

Babazadə Sadığın "Azərbaycanın sənət həyatı" (297), M.Şakirin "Aşıq Qurbaninin üç mənzuməsi" (604), "Füzuli haqqında bəzi yeni məlumat" (605), Köşəmihalzadə Mahmud Ragibin "Azərbaycanın son musiqi hərəkatları" (233), "Azərbaycan musiqisi" (395), Sadıq Sənanın "Azərbaycanın saz şairləri" (598), Səlim Rəfiqin "Son dövr Azərbaycan ədəbiyyatı" (541), "Türkiyə mətbuatında Məhəmməd Hadinin şerləri" (542), "Azərbaycan xalq ədəbiyyatında "Aşıq Alı dastanı" (543) və s. kimi materiallar bu gün də Azərbaycan ədəbiyyatşünaslığı üçün diqqətçəkəndir və maraqlıdır. Yaradıcılığı hələ də layiq olduğu qədər dəyərləndirilməyən və araşdırılmayan "ilk istiqlal şairi" (Mirzə Bala Məmmədzadə) Məhəmməd Hadinin həyatı və fəaliyyəti mühacir nəşrlərin diqqət mərkəzində olmuşdur. Bu mənada Səlim Rəfiqin "Türkiyə mətbuatında Məhəmməd Hadinin şerləri" adlı məqaləsi maraq doğurur. Müəllif burada M.Hadinin daha çox Türkiyədəki fəaliyyətindən - İstanbulda ikən "Şahbal", "Rebab", "Mehtab" kimi məcmuələrdə iştirakından bəhs edir (sonuncuya redaktorluq etmişdir - A.T.). Məqalənin sonunda M.Hadinin "Şehbal", "Rebab" mənzumələrində çıxmış 4 əsəri çap olunmuşdur. Yuxarıda adları sadalanan müəlliflərin məqalələrində də maraqlı və yeni məqamlar çoxdur.

"AYB"-də daha çox siyasi fəaliyyəti ilə tanınan mühacirlərin imzasına da təsadüf edilir. Mustafa Vəkilli "Şanlı bayram" (686),

"Çin səddi" (687), Məmməd Əli Rəsulzadə "Qətran haqqında notlar" (544), "S.Ə.Şirvaninin çap olunmamış bir şeri haqqında" (545), Nağı Şeyxzamanlı "27 Aprel münasibətilə" (610), "28 May münasibətilə" (611), Şəfi Rüstəmbəyli "27 Aprel 1920-ci il xatiratı" (597), Məmməd Əmin Rəsulzadə "Milli Azərbaycan hərəkatının xarakteri" (583), "Şirvanlı Xaqani" (596) və digər mühacir siyasi xadimlərin yazıları bu fikrimizi təsdiq edir.

"AYB" haqqında danışanda bir məqamı xüsusi vurğulamaq çox vacibdir: bu jurnal həm də digər türkdilli xalqların nümayəndələrinin tribunası idi. Burada müxtəlif türk qövmlərinin tarixi, ədəbiyyatı, mədəniyyəti və s. haqqında xeyli material dərc olunmuşdur.

Jurnal demək olar ki, bütün nömrələrində "Təhlil və tənqidlər" bölməsində yeni nəşr olunan əsərlər barədə resenziyalar, rəylər, icmallar dərc etmişdir.

Azərbaycan mühacirət mətbuatı tarixində "AYB"nin xüsusi yeri və çəkisi vardır. Bu nəşr, onun materialları və müəllifləri haqqında daha geniş tədqiqatlar aparmadan, onun tarixi xidmətlərini dəyərləndirmədən mühacirət, onun tarixi və irsi barədə tam təsəvvür yaratmaq mümkün deyildir.

"İstiqlal" qəzeti. Azərbaycan mühacirlərinin Berlində nəşr etdikləri "İstiqlal" qəzetinin azadlıq uğrundakı ideoloji mücadilə tarixində yerini və rolunu xarakterizə etmək, dəyərləndirmək baxımından qəzetin nəşri münasibətilə M.Ə.Rəsulzadənin yazdığı məqalədəki "boğulmayan bir səs" sözlərindən daha uğurlu, daha dəqiq və münasib ifadə tapmaq mümkün deyildir. Bu qəzetə qədərki bütün mətbu orqanların - "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd", "Bildiriş" və digərlərinin iş təcrübəsi və ənənələrindən bəhrələnən "İstiqlal" bolşevizmi daha kəskin ifşa edir, sovetlərə qarşı ciddi ideoloji mübarizəni davam etdirirdi.

Təsadüfi deyil ki, M.B.Məmmədzadə 1937-ci ildə qələmə aldığı və 1938-ci ildə Berlində "Qurtuluş" jurnalının mətbəəsində çap etdirdiyi "Milli Azərbaycan hərəkatı" adlı kitabında yazmış-

dır: "...1932-ci ildə Berlində "Yeni Qafqasya", "Azəri türk", "Odlu yurd" və "Bildiriş" redaksiyalarının iştirakıyla və eyni proqramla "Istiqlal" qəzeti nəşrə başlamışdır. Sovet hökuməti artıq dəli olmaq dərəcəsinə gəlirdi. O bütün fitnə və fəsad aparatı ilə birgə diplomatik gücünü də hərəkətə gətirmiş və "Istiqlal"ın ...Türkiyəyə girməsinin yasaq edilməsinə müvəffəq olmuşdur" (95, 195).

"İstiqlal" özünü "Milli Azərbaycan istiqlal davasını tervic edən (digər bütün məsələlərdən üstün tutan-A.T.) siyasi qəzet" adlandırır və təbii ki, əksər materiallar da bu ruhda olurdu. Bununla belə, qəzetdə ədəbi-mədəni, iqtisadi və s. mövzularda da yazılar verilirdi. Vaqif Sultanlı "Azərbaycan mühacirət ədəbiyyatı" kitabında haqlı olaraq yazır: "Türkiyəni tərk edərək, Polşada sığınmağa məcbur olan Azərbaycan mühacirəti Berlində 1932-1934-cü illərdə nəşr etdikləri "İstiqlal" qəzeti və 1934-1939-cu illərdə çıxan "Qurtuluş" jurnalı səhifələrində ara-sıra mühacirət ədəbiyyatı nümunələrinə yer ayırmışlar" (110, 13).

"İstiqlal"ın birinci nömrəsi 1932-ci ilin yanvarında işıq üzü görmüşdür. Qəzet 10 gündən bir çıxdığını yazmış və bu minvalla 1934-cü ilin sonlarına kimi nəşrini davam etdirmişdir. İkinci nömrədən başlayaraq "Istiqlal" "İnsanlara hürriyyət, millətlərə istiqlal" şüarı ilə çıxmışdır.

"Xeyr, ola bilməz! Mümkün deyil!" söyləyəcəklərini bilir. Müəllif də onlara haqq qazandırır: "Psixoloji və məntiqi bir inkar! Fəqət, təəssüf! Həqiqət bütün çılpaqlığı ilə meydanda! Acı həqiqət! Bizi heyrətlər içində boğan həqiqətə indi düşmən sevinir". Bütün bunlarla bərabər, böyük siyasi mübarizə məktəbi keçmiş M.Ə.Rəsulzadə Türkiyə hökumətinin bu qərarını anlayışla, təmkinlə qarşılayır və Sovet hökumətinin təkidli tələbləri və ciddi təzyiqləri ilə verilən bu qərarı Türkiyə hökumətinin taktiki gedişi adlandırır.

Müəllif qibtəediləcək uzaqgörənliklə yazır ki, Türkiyədə tətbiq olunan bu ifrat taktikanın ömrü uzun olmayacaq və haqq yerini tutucaqdır. Yeri gəlmişkən qeyd edək ki, doğrudan da, müharibə bitdikdən bir müddət sonra - 1949-cu ildə Azərbaycan mühacirləri yenidən Türkiyəyə döndü.

Məqalədə müəllif sovet rejiminin məhvə məhkum olduğunu özünəməxsus ifadələrlə, canlı və inandırıcı sözlərlə oxucuya çatdırır: "Bəli, əsası zülm, cəbr və istismar üzərində qurulan bu əsarət binası qəbul deyil, çökəcəkdir." Qeyd etmək vacibdir ki, Sovet hakimiyyətinin bütün illərində - kollektivləşmə, sənayeləşdirmə, mədəni inqilab mərhələsində, repressiyanın tüğyan etdiyi zamanlarda, müharibə və bərpa dövrlərində, hətta sovetin, belə demək mümkünsə, çiçəkləndiyi, "leninizmin bütün planetdə iri addımlarla irəlilədiyi" 70-ci illərdə Azərbaycan mühacirətini xarakterizə edən başlıca cəhəti bir kəlmə ilə ifadə etmək mümkündür: İnam! Sovet imperiyasının çökəcəyinə, Azərbaycanın yenidən istiqlala qövuşacağına inam! Mühacirətin bütün irsində - istər bədii əsərlərdə, istər publisistikada bu ruh hakimdir. İnam Azərbaycan mühacirətinin qida, ilham mənbəyi, dayaq nöqtəsi olmuşdur. Sovet İttifaqının əks kəşfiyyat xidmətlərinin terrorları, digər tədbirləri, nəhəng sovet təbliğat maşını bu inamı sındıra bilməmişdir. M.Ə.Rəsulzadənin əsərlərində SSRİ-nin çökəcəyinə, Azərbaycanın müstəqil dövlət olacağına inam sanki hər sətirdə, hər sözdə hiss olunur. Haqqında bəhs etdiyimiz məqalənin sonu da belə bir əqidənin, inamın təzahürü kimi səslənir: "Berlində çıxan bu qəzet İstanbulda bağlanan qəzetlərin gördüyü işi davam etdirməyə mükəlləfdir. Onun nə kimi məqsəd və proqram təqib edəcəyini ifadə üçün bir cümlə kafidir: "Böğulmayan bir səs!..."

"Istiqlal"ın Berlin nəşrini belə obrazlı ifadə ilə izhar edən M.Ə.Rəsulzadənin qəzetdəki çoxsaylı yazılarını mövzusuna görə təxminən belə qruplaşdırmaq olar:

- Azərbaycan istiqlalı, xalqımızın tarixində və taleyində onun rolu, yeri;

Azərbaycan uğrunda mucadilə, bu sahədə muhacirlərin qarşısında duran vəzifələr;

- sovet rejimi və ideologiyasının tənqidi;

- dövlətlərarası münasibətlər və beynəlxalq siyasət;
- antisovet mühacir təşkilatlar, onların fəaliyyətlərinin əlaqələndirilməsi;
- müxtəlif nəşrlərə, onların müəlliflərinin mövqeyinə münasibət;
- ayrı-ayrı ictimai-siyasi, xadimlərin həyatı və fəaliyyəti.

M.Ə.Rəsulzadədən sonra "Istiqlal"da ikinci simanın Mirzə Bala Məmmədzadə olduğu şübhəsizdir. O, öz yazılarını "M.B.Məmmədzadə", "Mirzə Bala", "M.B.", "V.Nuhoğlu", "M...də" və s. kimi imzalarla dərc etdirmişdir.

M.B.Məmmədzadə nəinki "İstiqlal"ın, ümumiyyətlə, Azərbaycan mühacirət mətbuatının ən fəal mühərriri olmuşdur - desək, yəqin ki, yanılmarıq. Ümumiyyətlə, mühacirət irsini M.B.Məmmədzadənin yaradıcılığı olmadan təsəvvür etmək çətindir. "İstiqlal"ın da nəşrində onun əvəzedilməz xidməti vardır. Qəzetin hər nömrəsində onun bir, yaxud bir neçə iri həcmli yazısı çap olunmuşdur. M.B.Məmmədzadənin "İstiqlal"dakı yaradıcılıq dairəsi, mövzusu çox genişdir. Qısaca onu söyləmək mümkündür ki, Azərbaycanla bağlı təsəvvürlərə gələn bütün mövzularda M.B.Məmmədzadə qələmini sınamışdır. Onun sovet həyat tərzinin, Lenin milli, iqtisadi siyasətinin tənqidi ("On beş dilli bir ölkə" (486), "Kolxoz "NEP"-inin mənası" (489), "Moskvanın kürd siyasəti" (490), "Azərbaycan necə parçalanır" (491), milli ideologiya "Türkçülük və musavatizm" (488), "Dildə birlik" (492), "Nəşrimiz və bolşeviklər" (495), dünya və Azərbaycan ədəbiyyatı "Molla Pənah Vaqif" (497), "Firdovsi" (498), erməni vəhşiliyi "Bir qırğının 15 illiyi" (500), "31 Mart" (501), milli istiqlal və sovet istilası "Rus istilası" (487), "Matəmimiz" (502) və s. kimi mövzularda onlarca məqaləsi "İstiqlal"ın simasını müəyyənləşdirməkdə, onun nüfuzunun artmasında mühüm rol oynamışdır.

"İstiqlal" qəzetində mühacir nəşrlər, onların tarixi, mühərrirləri ilə bağlı ara-sıra materiallar dərc edilmişdir. Bu mənada "Istiqlal nəşrlərinin Istanbul dövrü" (75, 1932, №1) adlı məqalə diqqəti çəkir. Yazıda göstərilir ki, "Yeni Qafqasya" 1922-ci ilin sentyabrında nəşrə başlamışdır. Hər 15 gündən bir çıxan məcmuənin cəmi 100 nömrəsi işıq üzü görmüşdür. Nəşrinin beşinci ilində hökumət tərəfindən bağlanmışdır.

Sonra eyni proqramla "Azəri-türk" (cəmi 20 nömrəsi çap olunmuşdur) və "Odlu Yurd" məcmuələri (cəmi 32 nömrəsi) çıxmağa başlamışdır. Məqalədə göstərilir ki, eyni zamanda "Bildiriş" qəzeti təsis edilmişdir ki, onun da cəmi 58 nömrəsi çıxmışdır.

"İstiqlal" özünün 49-cu nömrəsində (1934) İstanbulda dr. Ə.Cəfəroğlunun redaktorluğu ilə nəşrə başlayan "Azərbaycan Yurd Bilgisi" jurnalını alqışlayır, bu addımı təqdir edir və nəşrə uğurlar arzulayır.

"İstiqlal" qəzetinin özü də bir sıra ölkələrin, xüsusilə Almaniya və Türkiyənin kütləvi informasiya vasitələrinin diqqətini çəkirdi. Həmin nəşrlər "İstiqlal"da verilən materiallara istinad edir, mötəbər mənbə kimi ondan bəhrələnirdilər. "Alman mətbuatında "İstiqlal" (75, 1932, №7) və bu qəbildən olan bir sıra yazılar fikrimizi təsdiqləyir.

"İstiqlal"ın özünün istifadə etdiyi informasiya mənbələri də maraq doğuran mövzulardandır. Qəzet adları yuxarıda çəkilən fədakar mühərrirlərin sayəsində öz simasını formalaşdırmışdı.

Azərbaycan, İran, Türkiyə, Fransa və bəzi digər ölkələrdən redaksiyaya məktublar, məlumatlar, qəzet və jurnal nümunələri daxil olurdu ki, həmin mənbələrdən də qəzetin materiallarının hazırlanmasında istifadə edilirdi. Xüsusilə Bakıda və Moskvada nəşr edilən "Zarya Vostoka", "Kommunist", "Bakinski raboçiy", "İnqilab və Mədəniyyət", "Pravda" və s. kimi qəzet və jurnallarda dərc olunan materiallardan "Istiqlal" əks-təbliğat üçün məharətlə istifadə edirdi.

"Istiqlal"ın səhifələrində dövlətlərarası münasibətlər və beynəlxalq siyasət məsələləri daha çox M.Ə.Rəsulzadənin məqalələrində özünü büruzə verir. Bu mövzuda o, bir-birindən kəskin

və sanballı yazılar çap etdirmişdir ki, onları siyasi publisistikanın parlaq nümunələri hesab etmək olar. Qəzetin 2 nömrəsində verilmiş "Açıq diplomatiya" adlı yazı maraqlı mülahizə ilə başlayır: "Müharibələri imperiyalar və imperialistlər törətmişlər, gizli diplomatiya onların silahı idi. Sülhü isə millətlər və demokratlar təmin edəcəklər - açıq diplomatiya onların silahıdır". Müəllif göstərir ki, son dövr diplomatiyasında da müəyyən dəyişikliklər, təbəddülatlar olmuşdur. Beynəlxalq münasibətlərdəki gərginlik və böhran bölşevikləri sülhsevər siyasətçi oyunu oynamağa vadar etmişdir. M.Ə.Rəsulzadə bolşeviklərin siyasətini obrazlı ifadə ilə belə xarakterizə edirdi: "Rus imperatorları gizli diplomatiyaları ilə açıq məqsədlər güdürdülər. Sovet diktatorları isə açıq diplomatiya ilə gizli məqsədlər güdürlər". Başqa sözlə, bolşeviklər açıq sülh diplomatiyası ilə gizli niyyətlərini - zəifliklərini pərdələmək istəyirlər.

M.Ə.Rəsulzadənin bu mövzudakı publisistik yazıları, İkinci Dünya müharibəsi ərəfəsindəki mövcud mənzərəni göz önünə gətirmək baxımından dəyərli mənbələrdir. Onun "Dünyanın iztirabı" (565), "Türkiyə və Avropa" (568), "Fransa və Rusiya" (572), "Uzaq Şərqdə" (580) və s. yazıları bu qəbildəndir.

"Istiqlal" 1928-ci ilin sonunda Türkiyədə qəbul olunmuş latın əlifbası ilə çıxırdı. Yeri gəlmişkən qeyd edək ki, Türkiyə latın əlifbasına keçdikdə, Azərbaycan mühacirətinin liderləri xaricdəki bütün soydaşlarımıza latını qəbul etməyi tövsiyə etmiş və artıq 1929-cu ilin əvvəlində nəşrə başlayan "Odlu yurd" latın əlifbası ilə çıxmağa başlamışdır (75, 1932, №19).

"İstiqlal"ın dili sadə, anlaşıqlı və zəngindir. Doğrudur, qəzetdə bəzən qəliz, çətin anlaşılan ərəb, fars mənşəli sözlərə təsadüf edilir. Amma bu, məqalələrin qavranılmasına, doğru-düzgün əxz edilməsinə ciddi maneçilik törətmir. Qəzetdə verilən materiallar mövzu və janrından asılı olmayaraq, o vaxt olduğu kimi, bu gün də oxucu üçün problem yaratmır.

"İstiqlal"ın ömrü qısa oldu: cəmi 2 il. Lakin bu qəzet 1918-ci

ildə qazanılmış istiqlalı, o müqəddəs məfkurəni, idealı qəlblərdə yaşatdı, hafızələrdən silinməyə qoymadı və gələcək istiqlalın qazanılması üçün faydalı ideoloji, tarixi mübarizə apardı.

"Azərbaycan" jurnalı. 1994-cü ildə "Azərbaycan" jurnalının 300-cü nömrəsi capdan çıxmışdır. Bu münasibətlə nəşrin yaradıcılarından biri, son vaxtlar isə baş redaktoru Əhməd Qaraca yazırdı ki, tədqiqatçılar bu fikirdə yekdildirlər ki, mühacirlərin mücadilə silahı olan "Azərbaycan"ın bütün nömrələri bir yerdə Azərbaycan haqqında bir ensiklopediyadır (423). Müəllif vaxtilə "Azərbaycan"ın baş redaktoru işləmiş mərhum Ə.V.Yurdsevərin bu qənaətini də oxucuların diqqətinə çatdırır ki, jurnal Azərbaycan milli hərəkatının bütün çalarlarını özündə əks etdirir və gələcək nəsillərin baş vuracaqları ən böyük bilgi qaynağıdır.

Əhməd Qaraca yazır: "Təməli M.Ə.Rəsulzadə kimi bir mütəfəkkir, bir dava xadimi, bir öndər, Azərbaycanın böyük bir övladı tərəfindən atılan "Azərbaycan" türk kültür dərgisi mütləq milli davamıza xidmət etdiyinə görə bir abidə olaraq əbədiyyən yaşayacaqdır" (yenə orada). "Azərbaycan" jurnalının istiqlal mücadiləsi tarixindəki çətin və şanlı mübarizə yolu, fəaliyyəti müəllifin fikirlərinə haqq qazandırır.

"Azərbaycan"ın necə, hansı şəraitdə nəşrə başladığını, dövrün ictimai-siyasi mənzərəsini göz önünə almadan bu jurnalın həqiqi dəyərini vermək çətindir. "Azərbaycan" jurnalı 2 fevral 1949-cu ildə Ankarada əsası qoyulan Azərbaycan Kültür Dərnəyinin orqanıdır. M.Ə.Rəsulzadənin və silahdaşlarının qərarına əsasən dr. Həmid Ataman, dr. Əziz Alpaut və Məmməd Altunbayın iştirakıyla həmin tarixdə Azərbaycan Mədəniyyət Mərkəzi təsis edilmişdir. Dr. Həmid Ataman 10 ilə yaxın bir dövrdə dərnəyə rəhbərlik etmişdir.

Azərbaycan mühacirlərinin müharibədən sonrakı təşkilatlanması dərnəyin fəaliyyətə başlaması ilə birbaşa əlaqədardır. İkinci Dünya müharibəsinin qurtarmasından sonra azərbaycanlıların dünyanın müxtəlif ölkələrindən Türkiyəyə - ikinci vətənə axını

başlayır. Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən bəri xaricə üz tutan "siyasi, əsgəri və intellektual mühacirət"ə (423) daha bir böyük mühacirət seli qoşulmuşdu. Bu, II Dünya müharibəsindən sonra SSRİ sərhədlərinin o tayında qalmağa məcbur olan on minlərlə azərbaycanlı idi. Onları birləşdirmək, təşkilatlandırmaq, müqəddəs bir ideal, məfkurə-istiqlal mücadiləsi işinə cəlb etmək zamanın tələbinə çevrilmişdi.

Lakin məlum səbəblərdən bu vəzifəni açıq-aydın həyata keçirmək çətin idi və çoxlu problemlər yaradırdı. Odur ki, ilk dövrdə mədəniyyət dərnəyi daha çox Azərbaycanın mədəniyyətini, tarixini, ədəbiyyatını, incəsənətini, folklorunu, milli və tarixi günləri tanıtmaq istiqamətində konfranslar, gecələr, digər mədəni-kütləvi tədbirlər keçirirdi.

Dərnəyin fəaliyyətində onun qurucusu dr. Həmid Atamanın xüsusi xidmətləri olmuşdur. Həmid Ataman 2 fevral 1900-cü ildə çar Rusiyasının işğalı altında olan Qarsda anadan olmuş, ilk təhsilini də orada almışdır. H.Ataman kiçik yaşlarından atasını itirmişdir. Böyük qardaşı Temimdar bəy rus işğalçılarına qarşı mübarizə apardığı üçün ailəni Bessarabiyanın cənubunda yerləşən Bolqrad şəhərinə sürgün etmişlər. H.Ataman orta təhsilinə orada başlamış, Tiflisdə və Bakıda davam etmişdir. Romanovlar sülaləsinin 300 illiyi münasibətilə əfv olunmuş Həmid Ataman və ailəsi Bakı şəhərində yerləşmişlər. Bu mühit Atamana böyük təsir göstərirdi. O, fəal siyasi hərəkata qoşulur, tezliklə Müsavat Partiyasının gənc üzvü kimi istiqlal və hürriyyət mücadiləsinin ön sıralarında yer alır. H.Ataman öz silahdaşları ilə birlikdə 1918-ci ildə Bakını xilas etməyə gələn türk ordusu sıralarına qoşulur, rus-erməni birliklərinə qarşı amansız döyüşlərdə iştirak edir.

Azərbaycan Xalq Cümhuriyyətinin qələbəsindən sonra Avropaya ali təhsil üçün göndərilən 100 nəfər tələbənin sırasında Həmid Ataman da vardı. O, Berlin Universitetinin tibb fakultəsində təhsil alarkən 27 aprel 1920-ci ildə Bakıda baş verən hadisələrdən xəbər tutur və sarsılır. Qardası Temimdar bəyin maddi və

mənəvi dəstəyi ilə təhsilini başa vurmağa müvəffəq olur, bir müddət Berlində cərrah kimi çalışır, sonra Türkiyəyə dönür və 30-cu illərin sonundan Ankarada doktor kimi işə başlayır, eyni zamanda Müsavat Partiyasının fəaliyyətində yaxından iştirak edir.

İkinci Dünya müharibəsindən sonra Türkiyəyə köçmək məcburiyyətində qalan həmvətənlərinin burada yerləşməsinə yardım edən dr. H.Ataman, həm də onların Milli istiqlal və hürriyyət mücadiləsinə cəlb olunmasında fəallıq göstərirdi. Dr. Həmid Ataman haqqında "Azərbaycan" jurnalı ətraflı bəhs etmişdir (12, №311, 1996). Onun rəhbərliyi ilə Ankarada təsis olunan Azərbaycan Mədəniyyət Dərnəyi bu tarixi vəzifəni vahid proqramla, təşkilatlanmış şəkildə həyata keçirdi. Dərnəyin geniş, məhsuldar fəaliyyəti artıq onun mətbu orqanının yaradılmasını zəruri edirdi, beləliklə, "Azərbaycan" jurnalının nəşrinə qərar verildi.

"Azərbaycan"ın ilk nömrəsi 1 aprel 1952-ci ildə "Türkləşmək, müasirləşmək, islamlaşmaq" şüarı ilə işıq üzü gördü. Jurnalın üz qabığında "Aylıq kültür dərgisi", sonra "Birlik- dirilikdir" sözləri, daha sonra "Sahibi: Azərbaycan Kültür Dərnəyi, məsul müdir: dr. Əhməd Yaşat" sözləri yazılmışdı. Üz qabığında Azərbaycan Cümhuriyyətinin xəritəsi verilmişdi. Jurnalın 1-ci nömrəsi 16 səhifə idi. "Nəşrə başlarkən" adlı proqram - məqaləsində deyilir: "Azərbaycan Kültür Dərnəyinin 4-cü konfransının üzvlərinin arzusuna əsasən bu kiçik və mütəvazi jurnalın nəşri ilə yayın proqramını daha da genişləndiririk".

Yeri gəlmişkən qeyd edək ki, Kültür Dərnəyi artıq xeyli kitab, məcmuə və s. nəşr etmişdir. Bunların sırasında M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gələnəkləri", "Çağdaş Azərbaycan tarixi", "Çağdaş Azərbaycan ədəbiyyatı", Ə.V.Yurdsevərin "M.F.Axundzadənin həyatı və əsərləri", "Azərbaycan dram ədəbiyyatı", "Sabirin Azərbaycan ədəbiyyatında yeri", Mirzə Balanın "Azərbaycan tarixində türk Albaniya", Kərim Odərin "Azərbaycan iqtisadiyyatı" kimi əsərləri var. Proqram məqaləsində deyilir: "İndiyə qədər elmi, ədəbi və tarixi konfransların

nəşri ilə kifayətlənən dərnəyimiz Ankarada və Taşradakı üzvləri ilə mədəni əlaqələrini daha çox sağlamlaşdırmaq qayəsilə bu səfər bu dərginin nəşrinə ehtiyac duymuşdur. Hələlik ayda bir dəfə nəşr ediləcək bu dərgi vasitəsilə dərnəyin 3 ili aşan çalışmaları haqqında müfəssəl bilgi verəcəyimiz kimi, Anadolu türklərinə bunca mənən və maddətən yaxın və qonşu olan Azərbaycan türklərinin tarixi, ədəbiyyatı, sənəti, teatr həyatı xüsuslarında yurddaşlara mümkün mərtəbə, geniş bilgilər verməyə çalışacağıq. Elə hesab edirik ki, hər bir türk irqinin və qanının icabı olaraq yaxın və uzaq qardaşlarını heç olmazsa, kültür baxımından tanımaq, öyrənmək, tanıtmaq və öyrətməklə mükəlləfdir. Türklüyün şanlı keçmişi kimi parlaq gələcəyi də bu tanıma və tanıtmağa bağlıdır".

Göründüyü kimi, "Azərbaycan" jurnalı Kültür Dərnəyinin orqanı kimi daha çox mədəni, ədəbi, tarixi mövzulara üstünlük verəcəyini proqram məqaləsində dönə-dönə qeyd etmişdir. Amma bütün həyatını siyasi fəaliyyətə, istiqlal mücadiləsinə həsr etmiş mühacirlərin gec-tez bu çərçivələri dağıdacağı təbiidir və jurnalın sonrakı illərdəki fəaliyyəti də bunu təsdiq etdi.

Maraqlı və diqqətçəkən faktdır ki, 20 və 30-cu illər Azərbaycan mühacirlərinin İstanbul və Berlin siyasi nəşrləri, hətta "Azərbaycan yurd bilgisi" kimi elmi-tədqiqat jurnalı ən azı 28 May istiqlal, 27 Aprel işğal günü ilə bağlı kəskin materiallar dərc edir, bu tarixi günlərə münasibət bildirilirdi. "Azərbaycan" isə apreldə buraxılan ilk nömrəsində bu mövzuda susurdu. Yalnız M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti haqqında ümumi məlumat" adlı və "Ayın təqvimi" sərlövhəli yazılarda bir cümlə verilmişdir: "27 aprel 1920-ci ildə Azərbaycan XI Qızıl Rus ordusu tərəfindən işğal edilir". Bunu zamanın tələbinə uyğun taktiki gedişlə izah etmək mümkündür.

Lakin bunu mücahidlərin geri çəkilməsi kimi anlamaq yanlış olardı. İkinci Dünya müharibəsi zamanı almanlar yaratdığı Azərbaycanın Rabitə heyətinə, sonralar ABŞ-ın maliyyələşdirdiyi

"Azadlıq" radiosunun Azərbaycan bölməsinə rəhbərlik edən mayor Ə.F.Düdənginskinin 22 noyabr 1954-cü ildə Münhendə qətlə yetirilməsi ilə bağlı 19 dekabr 1954-cü ildə Ankarada Azərbaycan Kültür Dərnəyinin keçirdiyi mərasimdə M.Ə.Rəsulzadə demişdir: "Onların (sovetlər nəzərdə tutulur - A.T.) vəhşi təcavüzlərinə qurban gedənlərin sayı sayılmaqla bitməz. Fəqət əbəsdir!.. Milli hərəkat bu kimi tədbirlərlə susdurula bilməz. İstiqlal və hürriyyət yolunun qəhrəmanları, hər cür təhlükəni göz önünə alaraq, mücadilələrinə davam edəcək, özlərinə ilham mənbəyi olan böyük bir ideal tam zəfərə çatmayınca, müqəddəs savaşdan əsla vaz keçməyəcəklərdir" (12, 1954, №9).

İstanbulda keçirilən mərasimdə prof. dr. Əhməd Cəfəroğlu demişdir ki, müstəqil Azərbaycanın süqutundan bu yana azad dünya ölkələrinə sığınmış istiqlalçı vətənpərvərlərə qarşı qızıl terrorlar-siyasi cinayətlər çox olmuşdur.

Azərbaycan kültürünü tanıtma dərnəyinin həmsədri Süleyman Təkinər öz çıxışında göstərmişdir ki, "belə cinayətlər qızıl Rusiyanın məhkum millətlərin mübarizə əzmi qarşısında nə qədər aciz olduğuna dəlalət edir" (yenə orada).

Göründüyü kimi, istiqlal aşiqləri bütün təzyiq, təqib və terrorlara baxmayaraq, ideallarının gerçəkləşdirilməsi üçün mücadilədən əl çəkməyəcəklərində həmişəki kimi yenə israrlıdırlar.

"Azərbaycan" jurnalının mühərrirləri böyük mətbuat, yaradıcılıq və siyasi-ideoloji mübarizə yolu keçmişdir. Elə ilk nömrədə M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu, Ə.V.Yurdsevər, M.H.Türkəqul kimi tanınmış qələm sahiblərinin jurnalla əməkdaşlıq edəcəyi xəbər verilirdi. Onların zəngin təcrübəsi "Azərbaycan"ı sənətkarlıq və mövzu baxımından nömrədən-nömrəyə maraqlı edirdi.

"Çalışmamıza hakim olan ruh" adlı məqalədə də (12, 1952, №4) göstərildiyi kimi, mühacirlərin fəaliyyətinə geniş ictimaiyyət böyük maraq göstərir, Türkiyənin hər tərəfindən xalqdan və xüsusilə ziyalı zümrədən təqdir və təbrik məktubları daxil olur.

Jurnalın ilk nəşr ilində ayda biri olmaqla 9 nömrəsi işıq üzü görmüşdür. Həmin nömrələrdə klassik Azərbaycan ədəbiyyatının Vaqif və Vidadi (12, 1952, №1), Nizami (12, 1952, №2,3), Natəvan (12, 1952, №2,3), C.Cabbarlı (12, 1952, №4, 5, 6), N.Vəzirli (12, 1952, №4), Aşıq Ələsgər (12, 1952, №7), M.Hadi (12, 1952, №8, 9) kimi nümayəndələrinin həyat və yaradıcılığından, Dədə Qorqud dastanlarından (12, 1952, №6), Azərbaycan musiqisindən (12, 1952, №4,5,6,7,8,9), mətbuat tarixindən (12, 1952, №4,6) bəhs edən maraqlı, dəyərli məqalələr dərc olunmuşdur. Jurnal Almaz İldırım, Əhməd Cavad, Hüseyn Cavid, Həmid Dönməz, M.Hadi, Kərim Yayçılı, Gültəkin (Əmin Abid), Əhməd Qaraca kimi milli şairlərin irsindən müntəzəm nümunələr verirdi.,

İllər ötdükcə, "Azərbaycan" bir mədəniyyət jurnalından mədəni-ədəbi, siyasi orqana çevrilirdi. "Azərbaycan" birinci nömrəsindən fərqli olaraq artıq 4 il sonra yazacaqdır ki, jurnal eyni zamanda Azərbaycanın, bütün məhkum türk dünyasının qurtuluş davasına da əlindən gəldiyi qədər yardımçı bulunmaqdadır (12, 1956, №1). "Azərbaycan" məqsədini, məramını açıq-aydın bəyan edirdi: "Hər dərginin dəyəri onun təqib etdiyi qayə və məfkurə ilə ölçülür. Qayə və idealı olmayan bir dərgi ucuz qiymətli metala bənzəyir. Bizim dərgimiz başda Azərbaycan olmaq üzrə rus məhkumu bütün türklərin qurtuluş davasıdır. İdealımız məhkum türklərin xilas və səadətidir. Bunu biz milli istiqlal ülgüsünün gerçəkləşdirilməsində görürük.

Dərgimizin hansı səhifəsini çevirsəniz, əsir türklərin dərdləri və davasıyla qarşılaşarsınız. Bu tam 45 illik bir mübarızədir. Biz bu qənaətdəyik ki, bir millətin əsarət və istibdaddan qurtuluşu yalnız onun müsbət vəzifələrinin və dəyərlərinin tanıdılmasıyla mümkün ola bilər. Bir millət hürriyyət və istiqlala layiq olduğunu mədəni dünyanın ümumi əfkarına isbat etməyə müvəffəq olarsa, onun gec-tez qurtuluşuna nail olacağı mütləqdir" ("Azərbaycan 11 yaşında" məqaləsi. 12, 1963. №4-5-6 (136-137-138).

"Azərbaycan" jurnalı həm tərtibat, forma, həm də məzmun baxımından böyük inkişaf yolu keçmişdir. Maliyyə imkanları, maddi-texniki bazası məhdud olan jurnalın ilk vaxtlar 16 səhifədən ibarət nəşr edilirdi ".... Bəzi illər dörd dəfə, səkkiz dəfə və son altı ildən bəri də iki ayda bir dəfə çap olunurdu" (422). 80-ci illərin ikinci yarısından jurnal bəzən 300 səhifədən də artıq həcmdə buraxılırdı. 90-cı illərdə "Azərbaycan"ın məzmunu ilə bərabər, tərtibatı da xeyli dəyişilmiş, nəfis forma almışdır.

Jurnalın bütün fəaliyyət dövrünü izləsək, məzmununa, mövzusuna, mübarizə əzminə görə onu şərti olaraq 4 mərhələyə bölmək olar:

I mərhələ - 1952-1956-cı illlər. Bü dövrdə, xüsusilə ilk iki ildə jurnalın materialları daha çox mədəni, ədəbi, tədqiqat və təbliğat xarakteri daşıyırdı.

II mərhələ - 1956-1986-cı illər. Bu dövrdə jurnalın ideoloji-siyasi mübarizəsində 20-30-cu illər nəşrlərinin çılğınlığı, kəskinliyi, emosionallığı olmasa da, sovet rejimi və ideologiyasına, bolşevizmə qarşı barışmazlıq, Azərbaycan istiqlalına inam ruhu qalırdı və mövzulara analitik-tarixi yanaşma tərzi üstünlük təşkil edirdi.

III mərhələ - 1986-1991-ci illər. "Azərbaycan" sanki Azərbaycanla birlikdə imperiyaya qarşı son və amansız mübarizə meydanına atılmışdır.

Xalq hərəkatı dəstəklənir, bölgədə rus siyasəti, erməni vəhşilikləri ifşa olunur, Azərbaycan həqiqəti haqqında düzgün ictimai rəy yaradılmasına xidmət edən materiallar verilirdi.

IV mərhələ - 1991-ci ildən Azərbaycan müstəqillik əldə etdikdən sonrakı illər.

Göründüyü kimi, jurnalın fəaliyyəti dünyada, Türkiyədə, SSRİ-də və Azərbaycandakı mövcud ictimai-siyasi durumla şərtlənmişdir.

"Azərbaycan"da dərc olunan materiallara həmişə böyük maraq göstərən Türkiyə mətbuatı jurnalın bu sahədəki fəaliyyətini təqdir edir və dəyərləndirirdi. Eskişəhərin "İstiqbal", Sivasın

"Həqiqət", "Ölkə", Qarsın "Əkinçi", Ankaranın "Millət", "Demokrat Ankara", İstanbulun "Qafqaz", Vanın "Van səsi" və b. mətbuat orqanları müntəzəm şəkildə "Azərbaycan"ın materialları ilə bağlı icmal, rəy, xülasə dərc edir, yaxud məqaləni eyni ilə verirdilər.

"Demokrat Ankara" özünün 11 sentyabr və 1 oktyabr 1952-ci il tarixli nömrələrində Əli Rza Özərin və Murad Erginin jurnal haqqında məqalələrini dərc etmişdir. Burada "Azərbaycan"da verilən materiallar təhlil edilir, yüksək qiymətləndirilir. "İstiqbal" 2 iyun 1953-cü il tarixli nömrəsində "Azərbaycan"ı ağır başlı dərgi" adlandırır və onun faydasından ətraflı bəhs edir.

Yeri gəlmişkən qeyd edək ki, "Azərbaycan" jurnalı da öz növbəsində Türkiyədə çıxan mətbuatı izləyir, Azərbaycanla bağlı materiallara münasibətini açıqlayır, ehtiyac olduqda ciddi etirazını bildirirdi. "Qafqaz" jurnalı (İstanbul, redaktoru İsmayıl Ziya Bərsis) özünün 1953-cü il mart nömrəsində "Böyük Qafqaz" adlı baş məqalə dərc etmişdir. "Azərbaycan" jurnalı "...təəssüflə bunu qeyd etmək istəyirik ki, "Böyük Qafqaz" adlı baş yazıda Qafqazda yerləşən ən kiçicik qəbilələrdən belə bəhs edilərkən, Qafqazın dörd böyük məmləkətlərindən birini təşkil edən Azərbaycanın və Azəri türklərinin adı belə anılmamaqdadır" (12, aprel 1953, №13). Məqalədə daha sonra "Qafqaz" jurnalının dərc etdiyi materialda yol verilən digər qüsurlara ciddi irad tutulur, belə nöqsanların təshih edilməsi və bir daha təkrar olunmaması rica edilir.

"Azərbaycan" jurnalı ilə bağlı Türkiyə ilə bərabər başqa ölkələrin mətbu orqanları da maraqlı materiallar dərc edirdi. ABŞ, Almaniya, Kanada, Argentina, İngiltərə, İtaliya, Misir və b. ölkələrdə yayılan "Azərbaycan"a nəinki həmvətənlər, yerli xalqların nümayəndələri də böyük maraq göstərirdi. Türk dili mütəxəssisi prof. A.V.Çabaininin Almaniyadan jurnalın ünvanına göndərdiyi məktubda deyilir ki, "jurnalınızı dərin maraqla oxuyuram. Onun vasitəsilə Azərbaycan ruhunun özəlliyi və kültür tarixi haqqında bilgilər əldə edirəm" (12, 1952, №9). Münhen Üniversiteti Türkoloji İnstitutunun direktoru prof. F.Babinger, prof. B.Spuler də jurnalın materiallarından elmi araşdırmalarda faydalandıqlarını məmnunluqla qeyd edirlər (yenə orada).

Jurnalın birinci nömrəsində "Azərbaycan haqqında ümumi məlumat" (M.Ə.Rəsulzadə), "Ergenəqon bayramı..." (Ə.V.Yurdsevər), "Mərhum şairimiz Almaz Yıldırım", "Vidadi və Vaqif haqda konfrans" kimi məqalələr, "Buludlar" (Ə.Qaraca), "Gözəlim Gəncə" (Kərim Yaycılı), "Dağlar" (Almaz İldırım), habelə "Qurtuluş"dan "Ayrılıq acısı" kimi şeirlər dərc edilmişdir. "Azərbaycan"ın mayda buraxılan 2-ci nömrəsi "Birlik-dirilik"dir manjeti ilə işıq üzü görür. Bu nömrə "Dərnəyimiz haqqında...." məqaləsi ilə açılır. Birinci cümlədə oxuyuruq: "Jurnalımızın keçən nömrəsində də bildirdiyimiz kimi, dərnəyimizin başlıca qayəsi Azərbaycan kültürünü Anadolu türklərinə tanıtmaq və böyük türk milli topluluğunun bu iki qolu arasındakı ədəbi və kültürəl bağları daha çox qüvvətləndirmək və sağlamlaşdırmaqdır" (12, may 1952, №2). Müharibədən sonrakı beynəlxalq vəziyyət, mövcud ictimai-siyasi şərait Azərbaycan mühacirlərinin fəaliyyət dairəsini bir qədər məhdudlaşdırmışdır. Görünür, dərnəyin və jurnalın qayəsinin təkrar-təkrar dilə gətirilməsi də bu səbəbdəndir. Lakin M.Ə.Rəsulzadənin "Nizamidə türklük", Ə.V.Yurdsevərin "Xurşidbanu Natəvan" kimi ədəbiyyat tarixi ilə bağlı yazıları ilə yanaşı, ikinci nömrədə verilən "Bayraqlaşan bir şuar" (Mirzə Bala), "Əhməd bəy Ağaoğlu (ölümünün 13-cü ildönümü münasibətilə)", "Azərbaycanda fikir hərəkatları" adlı məqalələr, 28 May münasibətilə Əhməd Cavadın "Nədən yarandın" şeri "Azərbaycan"ın tədricən ideoloji-siyasi mövzulara üstünlük verəcəyinə bir işarə idi.

"Bayraqlaşan bir şüar" adlı məqaləsində Mirzə Bala yazır: "Ortasında ay-ulduz işarəsi olmaq üzrə mavi, qırmızı və yaşıl kimi üç rəngdən ibarət milli Azərbaycan bayrağının "Türkləşmək, islamlaşmaq və müasirləşmək" mənasını ifadə edən bir

şüar üzərində qurulmuş olduğu məlumdur. Üç ictimai cərəyanın bir sintezi olmaq üzrə Azərbaycanın və bütün türklüyün böyük mütəfəkkiri prof. Hüseynzadə Əli bəyin 1905-ci ildə Bakıda formula etmiş olduğu bu şüara Akçura oğlu Yusif bəy "Məsud ümdə" adını vermiş idi. Bu rənglərdən mavi - türklüyü (Qərb türklüyünü), qırmızı hürriyyət və mədəniyyəti, yaşıl isə islamiyyəti təmiz edir".

Müəllif daha sonra "ümmətdən millətə" keçid tarixinə nəzər salır, türk millətçiliyinin üstünlüklərindən bəhs edir, göstərir ki, bu milliyyətçilik Qərbi Avropa mədəniyyətini almaqla bərabər, sırf əxlaqi-fəlsəfi mənada islamiyyəti də bir din kimi qəbul edir. Mirzə Bala yazır ki, türklüyün mütəfəkkiri Hüseynzadə Əli bəy 1905-ci ildə Bakıda çıxan "Həyat" qəzetində dərc etdiyi məqalələri ilə irq və dil etibarilə türk olduğumuzu və Avropa mədəniyyətinə yiyələnməyin vacibliyini qeyd edirdi. Halbuki, 1875-ci ildən intişar edən "Əkinçi"dən 1915-ci ildə çıxan "Açıq söz"ə qədər bütün qəzet və jurnalların başlığı altında "müsəlman qəzeti", "müsəlman cəridəsi", "müsəlman məcmuəsi" ibarələrinə rast gəlinir. "Müsəlman cəmiyyəti -xeyriyyəsi", "müsəlman məktəbi", "müsəlman teatrı", "Qafqaz müsəlmanları" və bunlara bənzər daha bir çox misallar "Ümmət" dövrünün bir ifadəsi idi. Axundzadə əsərlərini türkcə, türklər üçün və türk olduğunu dərk edərək yazdığı halda, Azəri türklərinə "Qafqaz müsəlmanları" adını verirdi.

Ə.Hüseynzadənin "türkləşmək, islamlaşmaq və avropalaşmaq" kimi üçlü düsturunun "türk qanlı, islam imanlı, Qərb qiyafəli" kimi bir şəkli də vardı. Mirzə Bala Ə.Hüseynzadənin üç cərəyanın sintezindən yaratdığı bu şüarın tarixi əhəmiyyətini qeyd etmək üçün Y.Akçuraoğlunun 1928-ci ildə "Türk izi" jurnalında dərc etdiyi məqaləsindən sitat gətirir. Y.Akçuraoğlu həmin yazısında göstərir ki, Ə.Hüseynzadənin bu üçlü düstürü türk aləminin hər tərəfinə yayılmışdır. Ziya Göyalp bu mövzuda çoxlu yazılar qələmə almışdır. Mirzə Balanın bu yazısı da Azər-

baycan mühacirlərinin təkrar fəal ideoloji mübarizə meydanına atıldıqlarına, yalnız mədəniyyətin təbliği ilə kifayətlənməyəcəklərinə dəlalət edir.

Jurnalın 2-ci nömrəsində "Əhməd bəy Ağaoğlunun vəfatının 13-cü ildönümü münasibətilə" dərc olunmuş məqalə (səh. 11-13) diqqəti çəkir. Burada türk dünyasının parlaq siması Əhməd bəy Ağaoğlunun həyat və fəaliyyətinə nəzər salınır, onun tarixi xidmətləri dəyərləndirilir. 1869-cu ildə Şuşada doğulan Əhməd ilk və orta təhsilini bu şəhərdə alır. 1888-ci ildə Peterburqdakı Politexnik İnstitutuna daxil olur. 1889-cu ilə Sorbonna (Fransa) Universitetində hüquq fakultəsində təhsilini davam etdirir. Hələ tələbə ikən Parisdəki fransızdilli mətbuatla, Tiflisdə çıxan, "Kafqaz" qəzeti ilə əməkdaşlıq edir. Ərəb, rus, fars, fransız dillərini mükəmməl bilən Əhməd bəy 1892-ci ildə "Şiə məzhəbinin mənbələri" adlı tədqiqatı ilə Londonda keçirilən beynəlxalq konfransda iştirak edir və bundan sonra həmin araşdırma Kembric Universiteti tərəfindən nəşr olunur.

1894-cü ildə Paris təhsilini başa vuran Əhməd bəy Ağaoğlu Fransadan İstanbula gəlir, orada 4 ay qaldıqdan sonra Tiflisə, Bakıya və Şuşaya qayıdır, müəllimliklə məşğul olur. Bir müddət sonra Bakıya dönən Ə. Ağaoğlu "Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşı, Əli bəy Hüseynzadə, Şaxtaxtlı Məhəmməd Ağa və başqaları ilə birlikdə Milli oyanış hərəkatı"na qatılır.

Böyük qələm sahibi 1905-ci ildə Əli bəy Hüseynzadə ilə "Həyat" qəzetinə, bir müddət sonra - elə həmin ildən "Irşad" qəzetinə, 1908-ci ildən "Tərəqqi" qəzetinə redaktorluq etmişdir. Ə.Ağaoğlu Difai Partiyasının yaradıcısı olmuşdur. 1909-cu ildə Ə.Ağaoğlu artıq Türkiyədə fəalıyyət göstərirdi. İstanbul Universitetində müəllim işləyən Əhməd bəy 1912-ci ildə İttihad və Tərəqqi Partiyasının liderlərindən birinə çevrilir. Karsdan millət vəkili seçilir. Əhməd bəy Ağaoğlu Qafqaz İslam Ordusu tərkibində Azərbaycana gəlir, Xalq Cumhuriyyətinin yaranmasında fəal iştirak edir. Versala göndərilən nümayəndə heyətinin

tərkibində Fransaya yola düşən Ə.Ağaoğlu İstanbulda ingilislər tərəfindən həbs edilir və 1919-1921-ci illərdə Maltada sürgündə olur. Ə.Ağaoğlunun sonrakı illərdə fəaliyyəti Türkiyə Respublikasının dövlət quruculuğu, 1931-ci ildən isə İstanbul Universiteti ilə bağlı olmuşdur. 19 may 1939-cu ildə - 70 yaşında vəfat edən Ə.Ağaoğlunun ölüm xəbərini türk mətbuatı, ictimaiyyəti böyük təəssüflə qarşıladı. Məqalədə böyük Ə.Ağaoğlunun vəfatı ilə bağlı Ankara və İstanbulda çıxan qəzetlərdə dərc olunan məqalələrdən parçalar verilir. "Haqq", "Oluş", "Cümhuriyyət", "Ulus", "Türklük" kimi qəzetlərdən gətirilən sitatlar Ə.Ağaoğlunun türk ictimai-siyasi, ideoloji fikir tarixində oynadığı əvəzsiz rolu göstərir.

M.Ə.Rəsulzadə Ə.Ağaoğlunu "türk təfəkkür və tarixinin çox canlı və həyəcanlı bir siması", Mirzə Bala "böyük şəxsiyyətlərimizdən biri", Əhməd Cəfəroğlu "Parisdə, yaxud Londonda doğulmuş ən böyük fikir adamı qədər zəka çevikliyinə sahib, Ərzurum və ya Konyada doğulmuş ən milliyyətçi türk qədər də türkdür" deyə xarakterizə etmişlər. Məqalədə Ə.Ağaoğlunun çap olunmuş 18 əsərinin siyahısı verilir. Yazının sonunda oxuyuruq: "Həyatını bütün Türkiyəyə həsr etmiş Ə.Ağaoğlu qədər mətbuat həyatında çox yazı yazmış, müxtəlif qəzet və məcmuələrə onun qədər məqalə vermiş bir mühərrir nadir tapılar".

"Azərbaycan" jurnalı (Münhen). 50-ci illərdə Azərbaycan mühacirətinin son dərəcə ziddiyyətli, eyni zamanda gərgin və maraqlı fəaliyyətində Qafqaz birliyi mövzusu daim diqqət mərkəzində idi və təbii olaraq mətbu orqanlarda öz əksini tapırdı. Milli Birlik Məclisinin təsis etdiyi "Azərbaycan" jurnalı da mühacirəti maraqlandıran, düşündürən, narahat edən, bir qədər obrazlı desək, parçalayan problemə - Qafqaz birliyi ideyasına ilk nömrələrindən münasibət bildirmişdir.

Bəzi məqamları mübahisə doğursa da, tarixi hadisələri dəyərləndirmək baxımından faydalı mənbə sayıla biləcək Ə.Şeyxülislamın "Tariximizi bilək" rubrikası ilə verilmiş "Azərbaycan

necə quruldu" (608) adlı məqaləsində müəllif Azərbaycanın istiqlalının elan edilməsi ərəfəsində Qafqazdakı vəziyyəti belə işıqlandırır: "Qafqaz birliyinin gəmisi siyasi tufanın dalğaları içərisində çarpışır. ... Batmaq üzrə olan gəmini ancaq bir kapitan qurtarmağa müvəffəq ola bilər ki, o da Qafqaz millətlərinin birliyidir. Bu birliyə inanan daha yoxdur. Xarici qüvvələrdən başqa, içəridə də bu batan gəmini dələnlər getdikcə artır. Qafqaz millətləri arasında birlik yaratmaq getdikcə çətinləşir. SOS siqnalı verməyə belə vaxt qalmır. Qayıqlar dənizə endirilir, ayrılmalar başlayır. İlk qrup gürcülər, sonra ermənilər və daha sonra da azərbaycanlılar bu batan Qafqaz birliyi gəmisini tərk edirlər". Ə.Şeyxülislamın obrazlı təsviri uğurludur, mövcud mənzərəni tam əks etdirir.

Müəllif Seymin parçalanması ərəfəsində Azərbaycan Milli Şurasında təmsil olunan siyasi qüvvələrin - Müsavat Partiyası, Bitərəf qrup, Əhrar, İttihad, Sosialist-inqilabçı və Sosial-demokrat partiyalarının Qafqaz birliyi ideyasına münasibətinə də toxunur. O, özünün də daxil olduğu sosialist fırqələrinin Qafqaz birliyi ilə bağlı vəzifələrini belə təqdim edir:

"1. Qafqaz birliyini qorumaq.

2. Ümumi Qafqaz idarəsi Azərbaycan üçün daha əlverişlidir. Azərbaycandakı dərəbəyliyə, anarxiyaya daha tez son qoyulur, həyat daha doğru bir demokratik şəkil alır.

3. Qafqaz Seymində əksəriyyət müsəlmanlarda olacaq, çünki Şimali Qafqaz Seymə girmək üzrədir... Biz sosialistlər yalnız bir Qafqaz tərəfdarı olub, ayrıca bir Azərbaycan əleyhində idik. Hətta mənim İsveçrə tipli kantonal olaraq, ümumi bir Qafqaz proyektini Seym qəbul etmişdi.

4. Madam ki, ... Qafqaz birliyi yoxdur, Azərbaycan da istiqlalını elan edib, qonşularının yolu ilə getsin. Onun üçün sosialistlər müstəqil Azərbaycanın əleyhdarlığını buraxıb, birinci planda istiqlaliyyətçi oldular."

Məqalənin açıq-aşkar Müsavat Partiyasına, onun rəhbərləri-

nə qarşı yönəldiyi qeyd olunmasa da, üslubu və dilindən müəllifin niyyəti məlum olur. Ə.Şeyxülislam müsavatçıların Qafqaz birliyi ideyasına zərbə vurduğunu xüsusilə vurğulayır.

Ümumiyyətlə, yuxarıda da qeyd etdiyimiz kimi, bir çox məsələlərdə, Milli Birliklə AMM-in (Azərbaycan Milli Mərkəzinin) və Müsavat Partiyasının mövqeləri toqquşurdu. Azərbaycan mühacirətinin Avropa qanadının - Azərbaycan Milli Birlik Məclisinin əvvəlcə Rusiya Millətlərini Qurtarma Şurası (RMQŞ), sonra Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi (AMKM) ilə əməkdaşlıq etməsi AMM-in qəti etirazına səbəb olmuşdu və onlar opponentlərini məğlub etmək üçün təbliğat xarakterli ciddi tədbirlər həyata keçirirdilər.

Milli Birlik müdafiə olunur, onun üzvləri öz hərəkətlərinə haqq və bəraət qazandırmağa çalışırdı. C.Kazımbəyin "Bir daha Visbaden konfransı" (378), bir çoxlarının imzaladığı "Acı həqiqətlər" və "Protestolara cavab" (514, 1952, №2), Rıza Takının "Protesto fabrikaçıları" (449), dr.Əziz Alpautun "Milli Birlik" (288), İsmayıl Əkbərin "Buna nə ad qoyaq?" (343) və "Məcburi bir izahat" (344), C.Hacıbəylinin "Visbadendən – Ştanbergə" (359), "Koordinasiya Mərkəzi" (360), Ə.A.Şeyxülislamın "Visbaden konfransı" (609) və s. kimi məqalələri bu qəbildəndir. Həmin yazılarda müəlliflər öz mövqelərini əsaslandırmağa çalışır, Azərbaycanın istiqlalı uğrunda mübarizə işinə xəyanət etmədiklərini bildirirlər.

"Bir daha Visbaden konfransı" adlı məqalədə müəllif Visbaden konfransının materiallarına işarə vuraraq yazır ki, bu sənədlər "Qafqaz millətlərinin müqəddəratları və istiqlallarına bir zərər vurmur". Məqalədə deyilir: "Visbaden konfransında iştirak etmiş vətənsevər zevatın niyyətləri, yurdlarını və millətlərini düşmənlərdən qurtarmaqdır". Bolşevizmi dünyanı təhdid edən ən müdhiş, ən təhlükəli qüvvə sayan C.Kazımbəyin fikrincə, bü təhlükəyə qarşı millətlər birləşib bir ümumi cəbhə yaratmalıdır. Müəllifin qənaətinə görə, Amerikanın təşəbbüsü ilə qurulmaqda olan "ümumi antibolşevik cəbhəsindən rus millətini xaric etmək imkansız olmaqla bərabər, məntiqsiz bir iddiadır". Müəllifin fikrincə, ruslara qarşı belə münasibət "gələcəkdə ruslarla yaxşı və normal qonşuluq şərtlərinə zərər vermiş olar". Digər tərəfdən isə, müəllif onu da əlavə etməyi lazım bilir ki, istər ruslar və istərsə məhkum millətlər arasında şovinist hisslər müşahidə edilərsə, bolşevizmə qarşı ümumi mübarizəni idarə etmək asan olmayacaqdır.

Milli Birliyin liderlərindən olan C.Kazımbəy məqaləsində təmsil etdiyi təşkilatın tutduğu yolun düzgünlüyünə ürəkdən inanır. O yazır: "Gördüyü acı təcrübədən sonra rus milləti imperializmdən əl çəkib öz etnik hüdudları daxilində digər millətlərlə yaxşı qonşuluq münasibətləri qurmağa məcbur olacağı bu gün bir çox siyasi mehafil üçün ehtimal deyil, bəlkə bir itminandır" (güvənmə, inanma - A.T.). Bu cümləyə redaksiya tərəfindən verilmiş əlavədə Visbaden konfransında iştirak edən rus qruplarından "Liqa"nın rəhbəri B.Nikolayevskinin çıxışından bir cümlə sitat gətirilir: "Bolşeviksiz bir Rusiyanı, kiçik də olsa, bolşevikli böyük Rusiyadan tercih edirik" (üstünlük veririk – A.T.). Redaksiya hesab edir ki, Milli Birlik Visbaden konfransına qatılmasa idi, ruslarla açıq müzakirəyə girişilməsəydi, heç bir rus qrupu bu sözləri söyləməzdi. Əlbəttə, istər müəllif, istərsə də redaksiya sadəlövhcəsinə "Liqa"nın səmimiyyətinə inanırdılar. Tarix rusların mövqeyinin nə qədər saxta olduğunu SSRİ parçalandıqdan sonra bir daha göstərdi. Rusiya Federasiyasının Qafqaz siyasəti, müxtəlif siyasi cərəyan, partiya və ictimai hərəkatların təmsil olunduğu Dövlət Dumasında hökm sürən mühit heç də onların "kiçik də olsa, bolşeviksiz Rusiyanı, bolşevikli Rusiyadan" üstün tutduqlarından xəbər vermir."

Qeyd olunmalıdır ki, Visbaden konfransı ilə bağlı Milli Birlik nəinki öz mövqeyini əsaslandırmağa, AMM-in, Müsavat rəhbərliyinin sərt tənqidindən müdafiə olunmağa çalışır, eyni zamanda onları tənqid edən qüvvələrə, xüsusilə M.Ə.Rəsulzadə-

yə qarşı kəskin hücumlar edir. Bu mənada, Gəncə üsyanı ümumi cəbhə komandanı Cahangir Kazımbəyin, "Azərbaycan" qəzetinin redaktoru Şəfi Aranın (Rüstəmbəyli) və digərlərinin imzası ilə çap olunmuş "Acı həqiqətlər" adlı kollektiv bəyənnamə xüsusilə diqqəti çəkir.

Milli Birliyin rus dilində nəşr olunan "Azərbaycan" jurnalını Azərbaycan dilində buraxılan "Azərbaycan" jurnalının dublikatı hesab etmək olmaz. Buradakı bir sıra materiallar "Azərbaycan"dan tərcümə edilərək verilsə də, digər materiallar da çap olunurdu. Həmin məqalələr sırasında Qafqazla bağlıları da var. Ə.Fətəlibəylinin "Qafqaz" (349), "SSRİ-yə qarşı psixoloji müharibə haqqında" (14, 1952, №3, 4), C.Kazımbəyin "Qafqaz imperializm qarşısında" (379) və s. məqalələri zəngin qaynaqları və diqqətçəkən mühakimələri ilə maraq doğurur.

"Qafqaz" adlı məqalədə Ə.Fətəlibəyli göstərir ki, Qafqazı əldə saxlamaq istəyən böyük dövlətlərin bu regiondakı siyasətinin əsasında yerli xalqlar arasında nifaq, düşmənçilik toxumu səpmək olmuşdur. Qafqaz xalqlarının ayrı-ayrı xadimlərinin rus imperializminin "parçala və hökm sür" siyasəti qarşısında birləşmək təşəbbüsləri isə nəticəsiz qalmışdır.

Ruslar Qafqaza ayaq basanadək azərbaycanlılar və ermənilər arasında heç bir düşmənçilik olmamışdır. Qafqaz sovetləşdikdən sonra çarın dövründə təməli qoyulmuş "parçala və hökm sür" siyasətində yalnız forma dəyişikliyi edildi. Qafqazın bir hissəsi avtonom respublikalara bölündü, süni şəkildə Rusiya Federasiyası tərkibinə daxil olundu, Azərbaycan, Gürcüstan, Ermənistan Zaqafqaziya Federasiyasında birləşdirildi.

Müəllif Qafqaz birliyi ideyasına zərbə vuran pantürkizm, panturanizm və panislamizm ideyasının siyasi dəllallar və təxribatçılar tərəfindən tez-tez dilə gətirildiyini qeyd edərək, yazır ki, biz Qafqazın bərabərhüquqlu, düzgün və birdəfəlik birliyi uğrunda mübarizə aparırıq, biz qafqazlılar Qafqazın müstəqilliyi ilə yanaşı bütün dünyada sülh uğrunda mübarizə aparırıq, biz

Qafqazı sülh, azadlıq və ədalət məkanına çevirəcəyik.

C.Kazımbəyin "Qafqaz imperializm qarşısında" adlı məqaləsi belə başlayır: "Yaşadığımız hadisələr göstərir ki, kommunist imperiyasının süqutu yaxınlaşır. Bununla əlaqədar ortaya sual çıxır: Qafqaz mühacirəti onun qarşısına qoyulmuş tarixi vəzifəni – azadlıq missiyasını yerinə yetirməyə hazırdırmı və bunun üçün hansı tədbirlər həyata keçirilir?"

Müəllif mühacirətin, onun tərkibində formalaşmış müxtəlif qrupların fəaliyyətini, o cümlədən fikir ayrılıqlarını, hətta ixtilafları təhlil edərək, bu qənaətə gəlir ki, bütün qrupların son məqsədi vətənin azadlığıdır. Odur ki, qarşılıqlı güzəştlər edilməli, kompromislər əsasında tanınmış ictimai-siyasi xadimlərdən ibarət koordinasiya mərkəzinin bazası yaradılmalıdır. Hansısa partiyanın, yaxud qrupun başqa qruplarla razılaşdırılmadan, yaxud onların mənəvi dəstəyini almadan bütün mühacirət adından demaqoqcasına çıxış etməsi zərərlidir, hədəfə çata bilməz və mühacirətin parçalanmasına xidmət edər. Müəllifin fikrincə, 32 il mühacirət həyatı sürmüş Müsavat nəinki birliyə nail olmadı, əksinə, Azərbaycan mühacirətini parçaladı, sonda özü də dağıldı. C.Kazımbəy yazır: "Partiya, yaxud qrup marağını vətənin maraqlarından üstün tutmaq cinayət olardı. Yalnız birləşmək və bütün Qafqaz xalqlarının daxil olduğu Ümumqafqaz mərkəzi yaratmaqla məhsuldar iş aparmaq və Qafqazın azadlığı və müstəqilliyi keşiyində durmaq olar. Birləşmiş Qafqaz öz coğrafi vəziyyətinə, iqtisadi gücünə görə bütün hücumları dəf edəcək qüdrətindədir. Qafqaz xalqlarının ayrılığı və təklikdə mübarizəsi lap əvvəldən məhvə məhkumdur. 1920-1921-ci illər aydın göstərdi ki, Qafqaz xalqlarının birgə müdafiəsi olmadığından, sovet ordusu çox asanlıqla bütün regionu işğal etdi".

Müəllif rus mühacirlərinin bəzi mətbu orqanlarını və Visbaden konfransını müşahidə edərək, bu nəticəyə gəldiyini göstərir ki, rus liderlərinin bir qismi hələ də Qafqaz xalqlarının öz müqəddəratlarını təyin etməsini Rusiyanın parçalanması kimi

anlayırlar. Onlar Qafqazın Rusiyaya dəxli olmadığı fikrini eşitmək belə istəmirlər. Onlar Şeyx Şamilin və Cavad xanın şanlı mübarizəsini unutmuş və tarixdən ibrət dərsi almamışlar. Rus liderlər yenə "Vahid və bölünməz Rusiya" şüarına üstünlük verir və zamanın tələbləri ilə razılaşmaq istəmirlər. Müəllif daha sonra 1918-ci ildə Qafqaz respublikalarının müstəqillik əldə etdiklərini, milli, demokratik dövlətlərini yaratdıqlarını və bu cür də tarixə düşdüklərini xatırladır. C.Kazımbəy yenə Qafqaz xalqlarının azadlıq mübarizəsinə qalxacaqlarını yazır və qeyd edir ki, biz heç bir xalqa, o cümlədən ruslara qarşı nifrət hissi bəsləmirik. Biz azadlığa və müstəqilliyə qəsd edən bolşevizmə və işğalçılara nifrət edirik.

Qafqaz birliyi ilə bağlı "Azərbaycan" jurnalının dərc etdiyi materiallar Azərbaycan Milli Birliyinin bu məsələ ilə bağlı mövqeyini tam əks etdirir.

Biz "Azərbaycan"ın Qafqaz birliyi mövzusu ətrafında materiallarına geniş yer verdik. Bu təsadüfi deyil, çünki bu məsələyə münasibətlə istiqlal uğrunda mübarizə aparan mühacirlərin mücadilə taktikası, ictimai-siyasi proseslərə münasibəti və mövqeyi üzə çıxır. O ki, qaldı "Azərbaycan"ın toxunduğu mövzulara - demək olar ki, jurnal Azərbaycana, beynəlxalq həyata aid ən müxtəlif sahələrə materiallar həsr etmişdir.

İlk iki nömrəsi Şeyxülislamın vəsaiti ilə Parisdə büraxılan "Azərbaycan" 3-cü nömrədən nəşrini Münhendə davam etmişdir.

Rus və Azərbaycan dillərində buraxılan jurnalın titul vərəqində "müdir: yazı kurulu" yazılsa da, əslində, nəşrə redaktorluğu Ceyhun Hacıbəyli edirdi. Jurnalın fəal əməkdaşları C.Hacıbəyli, Şeyxülislam, C.Kazımbəy, dr.Əziz Alpaut, Məcid Musazadə, Riza Takı, Heydər Novruzxan, Qədir Şamil Atabəy, M.Ceyrankeçməz, M.Qarabağlı, N.Zülqədər-Sisani, Osman Cəfəroğlu ən müxtəlif mövzularda maraqlı materiallarla çıxış etmişlər.

"Aydınlıq" məcmuəsi (London). XX əsrin 80-ci illərindən sonra fəaliyyətə başlayan Azərbaycan mühacirət mətbuatı nü-

munələrindən 1988-ci ilin iyul ayından Londonda nəşr edilən "Aydınlıq" məcmuəsi diqqəti çəkir. Azərbaycan və fars dillərində buraxılan jurnalın ilk nömrəsi 12 səhifə olmuş, sonralar onun həcmi artırılaraq, 36 səhifəyə çatdırılmışdır. Londonda fəaliyyət göstərən Azərbaycanlılar Komitəsinin orqanı öz proqramının (9, iyul 1988, №1) ilk cümləsini "Aydınlıq- mədəniyyət yoludur" kimi yazaraq fəaliyyətə başlamışdır. Qəzetin proqramında daha sonra deyilir: "Aydınlıq" Azərbaycan mədəniyyətini genişləndirməyə və onun İran xalqları mədəniyyətində haqqı olduğunu yazmağa çalışır... "Aydınlıq" İranın müxtəlif millətlərinin arasında ana dilinin öyrənmə azadlığına təhmil olan (burda yük olan, mane olan mənasında - A.T.) dil zəncirlərinin qırılmasına təkid edir və bu yolda çalışmağı rövşən fikirlər (ziyalılar) üçün böyük bir vəzifə bilir və buna etiqadı var. Bütün İran xalqları bu yolca öz ictimai hüquqlarına çata bilər. "Aydınlıq" ayrı dil, mədəniyyət və incəsənət istiqlalına çatan azərbaycanlılardan köməklik istəyir".

Jurnal orqanı olduğu Azərbaycanlılar Komitəsinin və özünün proqramı barədə növbəti nömrədə də (9, avqust-sentyabr 1988, №2) bəhs etmiş, qarşıda duran vəzifələr haqqında daha geniş məlumat vermişdir, "Azərbaycanlılar Komitəsinin hədəfləri" adlı yazıda göstərilir ki, 1988-ci ilin mayında təsis edilən "Azərbaycanlılar Komitəsi"nin həmin ilin 17 iyulunda keçirilən növbəti yığıncağında "Aydınlıq" adlı nəşrin fəaliyyətə başlaması qərara alınmışdır. "Azərbaycanlılar Komitəsinin hədəfləri"ndə göstərilir ki, İran hökuməti illər boyu bu ölkədə məskunlaşan müxtəlif millətlərin varlığını danmışdır. Xalqlar illər boyu zülm və boğuntu altında sıxılıblar. Məqalədə deyilir: "Millətlərin yurdunu qondarma əyalətlərə bölüb parçalamaq, ona dillərini qadağan etmək, milli fərhənglərini (mədəniyyətlərini) darda qoymaq, iqtisadlarını dalı (geri) saxlamaq İran xalqlarına olunan zülmlərin aydın nümunələridirlər. Hökumət başçıları xalqların varlığını danmaq üçün onların ana yurdlarının adlarını

dəyişib, qondarma əyalətlərə bölməkdən əlavə, onları sürgün edib, yad ellərdə məskunlaşmağa məcbur ediblər". Məqalədə göstərilir ki, ana dilinin qadağan olunması həm millətlərin inkişafının qarşısında böyük bir maneə yaradır, onların mədəni tərəqqisini buxovlayır, həm də insanları azadlıq və demokratiya yolunda keçdiyi mübarizələrdən xəbərsiz saxlayır. Jurnal təəssüflə bildirir ki, elə bu səbəbdən də "İranın qeyri-fars millətlərinin içindən qalxan şair və yazıçılar öz ana dillərində yazmağı başarmayıblar (bacarmayıblar)". Məqalədə "zülm altında qalan millətlərinin" ziyalı və qabaqcıl dəstələrinin vəzifəsi"nin rejimə qarşı mübarizə aparmaq olduğu xüsusi vurğulanır.

Məqalədə oxuyuruq: "Azərbaycanlılar Komitəsinin etiqadı bunadır ki, insani hüquqları ələ çatdırmaq üçün birinci vəzifə demokratiya yolunda mübarizə etməkdir... İnamımız bunadır ki, əlbir olub xalqlar arasında fikir paylaşması ilə müxtəlif millətlərin fərhəng və hünərlərinin çiçəklənməsində əsər qoyub və zəhmətkeşlərin ayağından cəhalət zəncirlərinin qırılması yolunda çalışıb və müvəffəq ola bilərik".

Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti ilə bağlı materiallara jurnalda tez-tez təsadüf edilir. Bu da təbiidir. Bir tərəfdən, milli irsin və sərvətin vətənin bir hissəsində - Cənubunda, əvvəllər İranın şahlıq üsul-idarəsi, sonralar molla rejimi tərəfindən məhv edilməsi, saxtalaşdırılaraq farslaşdırılması prosesi gedirsə, digər tərəfdən, qürbətdə yaşayan həmvətənlərin milli dəyərləri itirmək, ondan uzaqlaşmaq təhlükəsi artır. "Ana dili", "Mirzə Əli Şəbüstəri və ondan bir əsər" (9, iyul 1988, №1), "Nizami və Azərbaycan dili", M.H.Şəhriyarın "Türkün dili" (9, avqust, sentyabr 1988, №2-3), "Şəhriyarı xatırlayarkən", "Azərbaycan miladdan əvvəl" (9, oktyabr, noyabr 1988, №4-5), "Qulamhüseyn Saidini xatırlayaq", "Dildə təkamül prosesinin üç cəhəti" (9, yanvar, fevral, 1988, №6-7), "Mirzə Fətəli Axundzadənin çap olunmamış məktubu" (9, mart, aprel 1989, №8-9), "Parisdə Möcüz gecəsi" (9, may-iyun 1989, №10-11), "Kəskin

qələm tükənməz", "Şəhriyarın vəfatının ildönümü", "Şeyx Məhəmməd Xiyabani" (9, 1989, №12) və s. kimi çoxsaylı materiallarda Azərbaycanın ümummilli mənəvi, mədəni, tarixi, ədəbi sərvətləri təbliğ və tədqiq edilir.

"Ana dili" adlı məqalədə Azərbaycan dilinin tarixi, inkişaf yolu, bu dildə qələmə alınmış nadir sənət nümunələri haqqında ətraflı bəhs olunur. Məqalədə klassik Azərbaycan yazıçı və şairlərinin "öz əsərlərində Azərbaycan dilinin qüdrətini, kamilliyini, gözəlliyini nümayiş etdirdikləri", illər ötdükcə "bu dilin ədəbi üslubuna cila verdikləri" qeyd edilir, XV əsrdə Şah İsmayıl Xətainin hakimiyyəti dövründə Azərbaycan dilinin rəsmi dövlət dili statusu aldığı, hakim dil olduğu göstərilir. Yazıda oxuyuruq: "Sonrakı dövrlərdə dilimizin nüfuz dairəsi daha da genişləndirilmişdir. Təsadüfi deyil ki, XIX əsrin ortalarında məşhur rus şairi Lermontov Azərbaycan dilinin təsir və nüfuz dərəcəsini Avropada fransız dili ilə müqayisə etmişdir".

"Mirzə Əli Möcüz" adlı məqalədə böyük Azərbaycan şairinin həyat və yaradıcılıq yolundan bəhs edilsə də, burada da Azərbaycan dilinə məhəbbət, sevgi ön plana çəkilir. Məqalədə deyilir: "Möcüz öz Azərbaycanına, elinə, adətinə, dilinə sadiq qalaraq, şeir və yaradıcılığında ana dilini hər şeydən əziz tutmuşdur. Möcüz şeirlərini ana dilində yazdığı üçün, qadınlar və kişilər onu həvəslə oxuyur, düşünürdülər. Buna görə də Möcüzü çox sevirdilər".

"Kəskin qələm tükənməz" adlı yazıda "tanınmış, mübariz satirik qələm sahibi" Mənuçehr Məhcubinin irsi yüksək dəyərləndirilir, ibrətamiz faktlarla onun Azərbaycan dilinin müdafiəçisi, təəssübkeşi olduğu qeyd edilir. Məqalə müəllifi Mənuçehrin bir məclisdə Fransada təhsil almış fars şairlərindən biri ilə olan mübahisəsini xatırladır. Fars şairi Mənuçehri tatar-monqolları müdafiə etdiyi üçün qınayır və deyir ki, onlar bizim yurdumuzu talan ediblər, bizə ağalıq ediblər. M.Məhcubi təmkinini pozmadan deyir: "Bəs siz də demokratiyanı elə bu tatarlardan öy-

rənmisiniz, onlar illər boyu İrana hökumət etdilər, amma heç zaman öz dillərini farslara təhmil (yükləmək - A.T.) etmədilər, fars ədəbiyyatının inkişafı yolunda heç nəyi əsirgəmədilər".

Azərbaycanın ədəbi xəzinəsini ümummilli mənəvi sərvət kimi təqdim və təbliğ edən "Aydınlıq" sərhəd tanımır. O taylı-bu taylı Azərbaycanın şair və yazıçılarının əsərlərini, şifahi xalq yaradıcılığı nümunələrini dərc edən "Aydınlıq" bu yolla da vətənin problemləri, ağrı-acıları ilə oxucalarını tanış edir. Səməd Behrənginin "Arazın qırağı" şeri (9, 1988, №1) təsirli və mübariz ruhludur:

Arazın qırağı tarladır, bağdır,
Bir yanı tikanlıq, bir yanı dağdır.
Səmədi öldürən cəllada deyin,
Səmədlər bəsləyən analar sağdır.
Arazın suları coşar, bulanar,
Səməd el içində gəzər, dolanar.
İstibdadın, irticanın sarayı,
Axır bir gün xalq əlilə talanar.

Ümumiyyətlə, "Aydınlıq"da verilən bütün ədəbi nümunələrdə vətənə məhəbbət hissi, onun tarixinə, mədəniyyətinə sevgi duyğuları, azadlıq uğrunda mübarizə əzmi hakimdir.

"Aydınlıq" bir tərəfdən, Cənubi Azərbaycanın azadlıq hərəkatı tarixinə nəzər salır, Səttarxan, Xiyabani, Pişəvəri kimi istiqlal, azadlıq aşiqlərinin həyatından, fəaliyyətindən yazır, digər tərəfdən, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Şimali Azərbaycanda kükrəyən azadlıq hərəkatını geniş işıqlandırır, burada cərəyan edən ictimai-siyasi prosesləri, xüsusilə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələri həssaslıqla izləyir, ermənilərin torpaq iddiasına kəskin etiraz edir, onların azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri, cinayətləri göstərir. Bu mənada "Dağlıq Qarabağ barəsində ermənilərin iddiası" (9, oktyabr-noyabr 1988, №4-5), "Redaksiyaya məktub" (9, yanvar-fevral 1989, №6-

7), "Sabir aramızdadır" (9, may-iyun 1989, №10-11), "Azərbaycan ayağa qalxıb" (9, 1989, №12) və s. kimi yazılar diqqəti çəkir.

"Ermənilərin Dağlıq Qarabağ barəsində iddiası" adlı məqalədə akademik A.Aqanbekyanın SSRİ-də başlanan yenidənqurma, demokratiya siyasəti ilə maskalanaraq, Parisdə bir tədbirdə təhrikçi çıxışının - Dağlıq Qarabağın Ermənistana verilməsi haqqında təklifinin əsassız olduğu tutarlı, təkzibedilməz faktlarla göstərilir. Aqanbekyanın çıxışını "fitnəkar bəyanat" adlandıran müəllif yazır ki, tarix elmləri doktoru S.Mikoyan da "Literaturnaya qazeti"nın səhifələrində Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə çıxış etmişdir. "Aydınlıq" yazır: "Aqanbekyan, Mikoyan və başqalarının əqidəsi, planları izahat tələb edir, Birincisi, Qarabağın Ermənistana "iqtisadi bağlılığı" barədə "gülməli" dəlili bir kənara qoyaq (Sovet Azərbaycanının Qərb məntəqələri Gürcüstanla, Şimal məntəqələri isə Dağıstanla iqtisadi əlaqələr saxlayır, lakin onların bölünməsi üçün bunun nə əhəmiyyəti ola bilər?!), "yerli olmayan" millətləri müttəfiq respublikaların tabeliyindən çıxarıb ərazi cəhətdən başqa respublikalarla birləşdirmək təklif olunur ki, həmin respublikalarda onlar "yerli millət" olsunlar... İkincisi, Sovet hakimiyyətinin ilk çağlarında milli məsələdə buraxılmış "səhvlərə" istinad etmək qərəzli məqsəd güdür". "Aydınlıq" Sovet hakimiyyətinin ilk illərində bolşeviklərin milli siyasət sahəsində həyata keçirdiyi tədbirləri xatırladır və ermənilərin Azərbaycana qarşı torpaq iddiasının əsassız, ədalətsiz olduğunu vurğulayır.

P.Mənijə adlı bir oxucunun jurnalın 1989-cu il tarixli 6-7-ci nömrəsinə ünvanladığı məktub maraqlı və təsirlidir. O, YUNESKO-nun xətti ilə Azərbaycana, qədim Gəncəyə getdiyini, yol boyu ermənilər tərəfindən doğma ocağından qovulan, min bir zülmə, əzab-əziyyətə məruz qalan azərbaycanlıları gördüyünü və bu səhnələrdən dəhşətə gəldiyini yazır. Sonra təəssüflə qeyd edir ki, bütün bunlar barədə İngiltərə kütləvi informasiya vasitələri susur, həqiqəti geniş ictimaiyyətə çatdırmırlar. "Azərbaycan

ayağa qalxıb" adlı yazı siyasi publisistikanın parlaq nümunələrindəndir. Məqalədə 1989-cu ilin payızında Bakıda, onun baş meydanında fasiləsiz davam edən möhtəşəm mitinqlərdən, onun iştirakçılarının tələblərindən ətraflı bəhs olunur.

Erməni vəhşiliyindən hiddətlənmiş yüz minlərlə insanın toplaşdığı mitinqdə Vaqif Səmədoğlunun, Yusif Səmədoğlunun, Bəxtiyar Vahabzadənin, digər natiqlərin alovlu çıxışlarından parçalar verilir, mitinqin Moskvaya ünvanladığı qətnamənin - tələblərin məzmunu ilə oxucular tanış edilir. Vaqif Səmədoğlunun söylədiyi "burda bir oyun gedir, bu gün Qarabağı tələb edirlər, sabah növbə Naxçıvana, Bakıya və Təbrizə gələcəkdir. Onların hər birinə ermənicə də bir ad uydurmuşlar" fikrini oxucuya olduğu kimi çatdıran "Aydınlıq" yazır: "... həqiqətən faşist daşnak firqəsinin nümayəndələri İranda mürtəce islam hökuməti ilə yaxından həmkarlıq edir, Avropa və Amerikada azərbaycanlıların hər bir milli hərəkətinə müsəlman fanatizmi adı qoyub, özlərini məzlum tanıtdırıb, həmdin qardaşlarının himayəsini cəlb etmək istəyirlər. Şəhərlərin adını dəyişməyə gəldikdə, gülməli olsa da, elə Təbrizin özünü də qondarma tarix kitablarında "Tuvriz" adlandırıb, onu tarixi Ermənistanın qədim şəhərlərindən birisi sayırlar. Bugünkü şəraitdə aydın oldu ki, Şimali Azərbaycanın müqəddəratı əslində Bakıda yox, Moskvada təyin olunur".

Göründüyü kimi, "Aydınlıq" baş verən hadisələri qeyd etməklə kifayətlənmir, təhlil edir, müqayisələr aparır, nəticələr çıxarır.

"Aydınlıq" jurnalı, onun nəşri, toxunduğu mövzular barədə bəhs etdikdə, ilk baxışda elə təsir yarana bilər ki, Avropada - azad və demokratik dünyada bu mətbu orqanın buraxılmasında heç bir problem yoxdur. Əslində, bu belə deyildir və mövcud problemlər yalnız "Aydınlıq"la məhdudlaşmır. 80-ci illərin əvvəllərindən İran azərbaycanlılarının xaricdə nəşr etdikləri mətbu orqanlar həmvətənlərimizin gərgin səyi, sözün həqiqi mə-

nasında fədakar fəaliyyəti sayəsində mövcud olmuşdur.

Ən əvvəl, İranın özündə olduğu kimi, xarici dövlətlərdə də fars şovinistləri Azərbaycan milli hərəkatına hər fürsətdən zərbə vurmağa səy göstərirlər. İkincisi, nəşrlər ciddi maliyyə problemi ilə üz-üzə qalır. Üçüncüsü, həqiqətə uyğun, obyektiv materialların toplanmasında, üzərində işlənilməsində ciddi çətinliklər yaranır.

Elə bunun nəticəsidir ki, "Aydınlıq" və ümumiyyətlə, mühacir mətbuatında dil və üslub xətalarına tez-tez təsadüf edilir.

Bütün problemlərə və onların nəticəsində mühacir mətbu orqanların tərtibatında, dil və üslubunda yaranan qüsurlara baxmayaraq, xaricdə buraxılan qəzet və jurnallar Azərbaycan mədəni irsinin tanıdılmasında, təbliğ olunmasında, soydaşlarımızda vətənə sevgi hissinin artırılmasında müstəsna əhəmiyyət kəsb edir.

"Ana dili" qəzeti. Azərbaycan mühacirət mətbuatının ötən əsrin 80-ci illərdən sonrakı dövrünün nümunələrindən Bonnda buraxılan "Ana dili" qəzetinin nəşrlər sırasında xüsusi yeri və çəkisi var.

Əgər 1979-cu il İran İslam inqilabından və 1985-ci ildən SSRİ-də başlanan yenidənqurma və aşkarlıq siyasətindən sonra mühacirətdəki mətbu orqanların fəaliyyətini izləsək, heç şübhəsiz, Azərbaycan istiqlalı uğrunda və bolşevizmə qarşı uzun illər ideoloji mübarizə aparmış, bu sahədə zəngin təcrübə qazanmış "Azərbaycan" (Ankara) jurnalında yeni mücadilə mərhələsinin başlandığının və "Ana dili"nin "Yaşasın Azərbaycan" və "Azadlıq" deyərək, meydana atıldığının şahidi olarıq. Təqdirəlayiqdir ki, "Ana dili" artıq 20 ilə yaxındır susmur.

Xomeyni rejiminin ilk illərindən İrandan mühacirət etməyə məcbur olmuş yüz minlərlə həmvətənimiz dünyanın bir çox ölkəsində məskunlaşmağa, öz əqidə, amal və məsləkləri uğrunda coşqun, fəal mübarizə aparmağa başladılar. Onlar Azərbaycan mədəniyyət dərnəkləri təsis edir, qəzet və jurnallar buraxır, bir tərəfdən, molla rejiminin əsl mahiyyətini dünya ictimaiyyətinə

çatdırır, digər tərəfdən, Azərbaycan dili, tarixini öyrənir, ədəbi-mədəni irsini təbliğ edirdilər.

Mühacirlər və onların nəşrləri eyni zamanda yenidənqurma dövründə SSRİ-də gedən ictimai-siyasi prosesləri, 1991-ci ildən - Şimali Azərbaycan müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikasında cərəyan edən hadisələri, xüsusilə Ermənistanın Azərbaycana təcavüzünü, bununla bağlı Dağlıq Qarabağda və onun ətrafında baş verən olayları diqqətlə izləyir, ona münasibət bildirir, Azərbaycanın haqq səsini dünyaya yaymağa çalışırdılar.

"Bakı" qəzetinin 1989-cu il 31 dekabr tarixli nömrəsindəki müsahibəsində "Vətən" Cəmiyyəti Rəyasət Heyətinin sədri, xalq yazıçısı Elçin deyirdi: "Qurbətdəki azərbaycanlılar da xalqımızın haqq səsinə qoşulub, erməni millətçilərinin torpaq iddiasına düşdüklərindən hiddətlənirlər. Bonnda azərbaycanca çıxan "Ana dili", Londonda buraxılan "Aydınlıq" qəzetləri bu barədə dəfələrlə materiallar dərc etmişdir. Həmvətənlərimiz kütləvi informasiya vasitələrinə verdikləri müsahibələrdə bu məsələyə öz münasibətlərini bildirmiş, qəti sözlərini demişlər".

Lakin təəssüflər ki, illər ötdükcə bir sıra obyektiv və subyektiv səbəblərə görə, mühacirlərin fəaliyyət dairəsi məhdudlaşır, bəzi mədəniyyət dərnəkləri dağılır, bir sıra qəzet və jurnallar öz fəaliyyətlərinə xitam verirlər.

Onlardan fərqli olaraq "Ana dili" öz mövqeyini daha da möhkəmləndirir, bu gün daha mübariz, daha kəsərli materiallarla nəşrini davam etdirir.

Qəzetin redaktoru Nurəddin Qərəvi 1945-ci ildə Təbrizdə anadan olmuş, orta təhsilə orada, ali təhsilə İstanbulda yiyələnmişdir. Diş həkimidir. 1977-ci ildə vətəni tərk etmiş, Almaniyada məskunlaşmışdır. Qürbətdə Azərbaycanı tanıtmaq, onu təbliğ etmək niyyətilə 1984-cü ildən ərəb əlifbası ilə Azərbaycan dilində "Ana dili" qəzetinin nəşrinə başlamışdır. Nəşrin proqramını Nurəddin Qərəvi belə şərh etmişdir: "Qəzet heç bir

siyasi partiya və hizbin görüşünü ifadə etmir, o, müstəqildir. Əsas məqsədim həmvətənlərimiz arasında milli şüurun oyanmasına çalışmaq, onları ana dilimizlə, folklorumuzla, tariximizlə tanış etməkdir. Mən qəzetin həm naşiri, həm redaktoru, həm məsul katibi, həm müxbiri, həm də makinaçısıyam. Neyləmək olar, təxminən 110 il sonra Həsən bəy Zərdabinin və "Əkinçi"nin yolunu getməyə məcbur olmuşuq" (57). Yeri gəlmişkən qeyd edək ki, doktor N.Qərəvi yaşadığı alman şəhərində tədrisi Azərbaycan dilində olan birsinifli məktəb açmış, "Ana dilimizi öyrənək" adlı dərslik yazmış və nəşr etdirmişdir. Onun fikrincə, o taylı-bu taylı Azərbaycanın mənəvi birliyinə ən böyük zərbəni əlifba ayrılığı vurur. Təsadüfi deyil ki, "Ana dili"nin tez-tez toxunduğu mövzulardan biri də əlifba problemidir.

"Ana dili" mühacirlər və respublika ziyalıları arasında maraqla qarşılanan nüfuzlu mətbu orqanıdır. "Qəzetin üstün və fərqli cəhətlərindən biri də odur ki, "Ana dili" almanca xüsusi nömrələr də nəşr edir. Bu, respublikaya qarşı böyük, həm də çirkin erməni təbliğat maşınının yorulmadan işlədiyi bir zamanda ikiqat faydalıdır".

"Ana dili" ötən əsrin 80-ci illərinin sonundan Şimali Azərbaycana öz səhifələrində daha geniş yer ayırmağa başlamışdır. Həmin dövrdə ölkəmizdə baş verən mühüm ictimai-siyasi, ədəbi-mədəni hadisələr "Ana dili"ndə müntəzəm işıqlandırılmışdır. Məsələn, 1990-cı ildə Sovet qoşunlarının Bakıya təcavüzü və Qanlı Yanvarla bağlı "Ana dili" müntəzəm materiallar vermişdir. Hadisənin ildönümü də qəzetdə ətraflı işıqlandırılmışdır. Tarixi faciənin ildönümü ərəfəsində qəzetin naşiri və redaktoru Nurəddin Qərəvi "Odlar yurdu"nun 1991-ci il yanvar nömrəsində verdiyi müsahibədə demişdir: "Ana dili"nin yanvar nömrəsini bütünlüklə şəhidlərə həsr edəcəyik. Həmin nömrədə eyni zamanda sərhədin dağıdılmasına dair məqalələr də verəcəyik. Arzumuz budur ki, şəhidlərimizin qanı yerdə qalmasın. Onlar bəlli bir hədəf üzərinə getdilər, o da Azərbaycanın müstə-

qilliyi idi. İstəyirik şəhidlərin arzusu yerinə gəlsin. Şəhidlərin ailələrinə, bütün xalqıma bir daha başsağlığı verirəm. 20 yanvar matəm günü olsa da, bu gün Azərbaycan xalqı öz iradəsini, varlığını bir daha təsdiq etmiş və demişdir: ölməmişəm, varam!".

"Ana dili" işıq üzü görməyə başlayandan Şimali Azərbaycanla bağlı yazılar versə də, SSRİ dağıldıqdan, Azərbaycan yenidən öz müstəqilliyini elan etdikdən sonra qəzet müstəqil respublika ilə bağlı materiallara daha geniş yer verməyə başlamışdır. Azərbaycanın dövlət quruculuğu, iqtisadi, mədəni, ədəbi proseslərdən bəhs edən müxtəlif yönümlü yazılar böyük maraq doğurur.

Şimali Azərbaycanın mədəni həyatı "Ana dili"nin əsas mövzularındandır. SSRİ xalq artisti Lütfiyar İmanovun Fransada və AFR-in Bilefeld və Köln şəhərlərində verdiyi konsertlər barədəki hesabatda (fevral 1988) göstərilir ki, müğənninin ifa etdiyi Azərbaycan xalq mahnıları dinləyicilər tərəfindən sonsuz maraq və məhəbbətlə qarşılanmışdır. Qəzetin 5 iyun 1988-ci il tarixli nömrəsində xalq şairi Bəxtiyar Vahabzadənin ana dili ilə bağlı və Şəhriyara yazdığı şeri, şairlə görüşü barədə "Bir görüşün izləri" adlı irihəcmli yazısı verilmişdir. Burada Bəxtiyar Vahabzadə oxucuya alovlu vətənpərvər, istedadlı şair, xalqının dərdini ürəkdən duyan, qonaqpərvər və mehriban bir insan kimi təqdim edilir. Qulam Məmmədli (6, mart 1988, №45), Hökumə Billuri (6, 4 fevral 1989), Xəlil Rza (6, 6 dekabr 1990), Elçin (6, 5 iyun 1991), Abbas Zamanov (6, may 1992) və digər tanınmış xadimlərlə bağlı yazılarda Azərbaycanın ədəbi-mədəni həyatı, problemləri barədə ətraflı söhbət açılır.

Qəzetdə ünlü sənətçi Zeynəb Xanlarovanın həyatı və onun Danimarkada verdiyi uğurlu konsertlərdən ətraflı bəhs olunur (6, 6 noyabr 1988, №53). Göstərilir ki, bir həftə Danimarkada qalan Z.Xanlarova bu müddət ərzində 3 konsert vermişdir. Qəzet konsertlərə Danimarkanın, İsveçin, Norveçin və Almaniyanın müxtəlif şəhərlərindən azərbaycanlıların təşrif gətirdiyini

qeyd edir və yazır: "Böyük alqışlar, sevinc və həyəcanlarla dolu bir gecə idi" (yenə orada). Qəzet Zeynəb xanımın və ansamblının tamaşaçılar tərəfindən hərarətlə, alqışlarla, gül-çiçək dəstələri ilə qarşılandığını yazır. Məqalədə təəssüflə bildirilir ki, konsertdən iki gün sonra ustad Şəhriyarın ölüm xəbəri hamını qüssələndirdi. 21 sentyabr 1988-ci il tarixdə Kopenhagendə keçirilən Şəhriyarı anma gecəsində Z.Xanlarova və ansamblı da iştirak etdi. Zeynəb xanım Azərbaycan xalqının böyük övladı haqqında sevgi və məhəbbətlə danışdı, məclis iştirakçıları şairin xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Şimali Azərbaycanın mədəni həyatı ilə yanaşı, siyasi həyatı da "Ana dili"nin tez-tez toxunduğu mövzulardandır. "Torpaqdan pay olmaz" (6, iyun 1988, №5) adlı məqalə Dağlıq Qarabağ separatçılarının ifşasına həsr olunmuşdur. Yazıda Qarabağın əbədi və əzəli Azərbaycan torpağı olduğu vurğulanır və ermənilərin bu regionda məskunlaşması tarixinə nəzər salınır. Məqalə belə qurtarır: "Bunu ermənilər yaxşı bilirlər ki, Dağlıq Qarabağ adından da məlum olduğu kimi, bütün tarix boyu Azərbaycan torpaqlarından olmuşdur. Bunu da yaxşı bilirlər ki, burada yaşayan ermənilər çar hökuməti tərəfindən Azərbaycanın faciəli şəkildə bölünməsindən sonra çarlıq mənafeyini bu məntəqədə qorumaq üçün buraya yerləşdirilmişlər". "Ana dili"nin 1988-ci il avqust nömrəsində Qərbi Almaniyada yaşayan azərbaycanlı həkimlərin M.Qorbaçova teleqramı dərc edilmişdir. Burada həkimlər narahat olduqlarını, Şimali Azərbaycanın haqq səsini müdafiə etdiklərini, Qarabağın tarixi Azərbaycan torpağı olduğunu və buna uyğun qərar veriləcəyini gözlədiklərini bildirirlər. "Ermənistandan qaçan azərbaycanlılar" (6, 5 yanvar 1989, №55) adlı məqalə ilə birlikdə Bakının Azadlıq meydanında möhtəşəm xalq hərəkatını əks etdirən foto da verilmişdir. Yazıda deyilir: "Bu son ay içində Quzey Sosialist Azərbaycanın paytaxtı Bakıdan bir çox xəbərlər gəlməkdədir. Bakı şəhərində bir aydan bəri yürüşlər, mitinqlər, göstərilər davam etməkdədir". Qəzet ay-

rı-ayrı natiqlərin çıxışlarından parçalar versə də, aşkarlıq siyasəti olduğuna baxmayaraq, təəssüf və təəccüblə yerli mətbuatda xalq etirazının tam əks etdirilmədiyini göstərir və yazır ki, biz hələlik ağır şəraiti nəzərə alaraq, bu barədə ətraflı məlumat vermək istəmirik. "Nəyi dəyişək" adlı məqalə (6, 6 dekabr 1990, №70) maraqlı və mübahisəli məqamlarla zəngindir. Müəllif - qəzetin naşiri və redaktoru Nurəddin Qərəvi Quzey Azərbaycanda müstəqillik fikirlərinin gücləndiyini və bunu alqışladığını yazır. Sonra əlifbanın dəyişdirilməsi, "Azərbaycanı təmsil edən bayraq, parlament, buna bənzər müəssisələr və simvollar" barədə irəli sürülən fikirlərə münasibətini bildirir. O yazır: "Ümumiyyətlə, demokratik ölkələrdə belə dəyişikliklər ümumxalq sorğusu (referendum) yolu ilə icra edilir və beləliklə, bəyənilən fikir ümumxalq malı olur. Xalq onu özünün malı bildiyi üçün onun qorunmasına da çalışır. Bizim quzeyli bacı - qardaşlarımızın bu barədə necə və nə şəkildə qərar qəbul etmələrini bilmirik. Lakin arzumuz budur ki, bu adları dəyişdirmək təkcə zahirdə olmasın, mahiyyət baxımından da dəyişikliklərə səbəb olsun". Müəllif dəyişikliklər zamanı Azərbaycanın butövlüyünün unudulmamasını xüsusi şərt kimi vurğulayır. Müəllif əlifba məsələsi ilə bağlı "Ana dili"nin öz mövqeyini bir dəfə bəyan etdiyini bildirir və yazır ki, Azərbaycanın birliyi bugünkü şəraitdə ancaq və ancaq min ildən çox yazdığımız ərəb əlifbası ilə mümkündür. N.Qərəvi latın əlifbasının Cənubla Şimal arasında yeni bir divar yaradacağından ehtiyatlanır. "Ana dili" Ali Sovetin adının dəyişdirilməsini alqışlayır. Müəllif parlamentin adında və Azərbaycan xalqının varlıq simvolu olan bayrağında da "od" və "ocaq" simvollarının əks edilməsinin vacibliyini yazır. O, parlamentin adının "El ocağı" kimi işlənməsini və Azərbaycan bayrağında ay, ulduz yerinə od simvolunun göstərilməsini məqsədəuyğun hesab edir. O, "deputat" sözü əvəzinə, "millət vəkili", "şəhər soveti" əvəzinə, "şəhər idarə məclisi" işlənməsini məqbul hesab edir. "Azərbaycan Sovet Sosialist

Cümhuriyyəti" adı əvəzinə "Azərbaycan Cümhuriyyəti" ifadəsinin əsl reallığı əks etdirdiyini bildirən müəllif ad məsələsində də vətənin o biri parçasının yaddan çıxarılmamasının vacibliyini göstərir. O yazır: "Təzə qoyulacaq adın açıqca bunu göstərməsi lazımdır. Çünki Arazın yuxarısında qalan bölüm Azərbaycan torpaqlarının bir parçasıdır. Azərbaycanın mənafeyini nəzərə alaraq, "Azərbaycan Respublikası" ifadəsinin əvvəlinə "Şimal" sözünü əlavə etməyi təmənna edirik". Göründüyü kimi, müəllifin əlifba ilə bağlı ciddi mübahisə doğuracaq təklifləri ilə yanaşı, reallığı əks etdirən faydalı təklifləri də var.

"Tanıyırlar!" (6, 5 fevral 1992, №85) adlı məqalə nəşəli notlarla başlayır: "Nəhayət, tanıyırlar. Əziz oxucularımız, tanıyırlar! Hələ bir neçə ay bundan qabaq "Azərbaycan" sözünü zorla tələffüz edən əcnəbi dövlətlər də Azərbaycanın müstəqilliyini tanıyırlar. Tanıyanların sayı 80-ə çatmışdır. Hətta dünya xəritəsindən silinməkdə olan Yuqoslaviya Federativ Respublikası belə Azərbaycanın müstəqilliyini tanıyır. Türkiyə isə Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olmaqla yanaşı, Azərbaycanla səfirlik səviyyəsində əlaqələr yaradan birinci ölkə olmuşdur". Müəllif Mirzə Xəzər 70 il qeybdən sonra Azərbaycanın yenidən beynəlxalq səhnəyə çıxmasını, xarici dövlətlər tərəfindən tanınmasını böyük tarixi hadisə adlandırır və "bəs, növbəti addım nə olmalıdır?" "Respublikanın müstəqilliyini rəsmən tanıyan dövlətlərlə ikitərəfli siyasi, iqtisadi, mədəni əlaqələr necə qurulmalıdır?" kimi suallara cavab verməyə çalışır.

Müəllifin fikrincə, müstəqil Azərbaycanın vətəndaşlığını bildirən sənəd-pasport, pul vahidi, səfirliklərin olması xarici dövlətlərlə əlaqələrin qurulmasına təsir edən amillərdir. Mirzə Xəzər bu islahatların həyata keçirilməsini əngəlləyən səbəbləri də araşdırır və ilk növbədə sovet sistemindən qalan mirası göstərir. O, yazır: "Başqa sözlə, 70 il sovet imperiyasında yaşayan Azərbaycan xalqına şeir yazmaq, imperiyanı, partiyanı, "xoşbəxt həyatı" vəsf edən kitablar buraxmaq, fəlsəfədən ta fizikaya qə-

dər elmin bütün sahələrində kadrlar yetişdirmək imkanı verilmişdir. Lakin siyasət, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, beynəlxalq bank sistemi, beynəlxalq ticarət əlaqələri və s. sahələrdə bacarıqlı kadrlar yetişdirmək fürsəti verilməmişdir". Müəllif belə bir şəraitdə əlini qoynuna qoyub oturmamağı, əksinə, konkret addımlar atmağı lazım bilir. Rusiya özünü SSRİ-nin hüquqi varisi hesab edərək, SSRİ-nin xarici ölkələrdəki sərvətlərinə sahib çıxır, onlara yiyələnir. Mirzə Xəzər haqlı sual verir ki, bu varidatın yaradılmasında iştirak edən Azərbaycana pay düşməməlidirmi?

Qəzetin həmin nömrəsində dərc olunan "Qarabağda döyüşlər" adlı yazı həyəcanlı xəbərlərlə doludur: Qarabağdan on minlərlə azərbaycanlı doğma ev-eşiyindən didərgin salınmışdır, Şuşa mühasirəyə alınmışdır".

"Prezident seçkiləri" (6, may 1992) adlı məqalədə Azərbaycandakı ictimai-siyasi, iqtisadi durum dərindən təhlil edilir, göstərilir ki, seçkiqabağı kompaniya siyasi qüvvələr və qruplar arasında mübarizəni gücləndirmişdir. Müharibə vəziyyətində olan bir ölkədə belə vəziyyət milli birliyə zərbəyə çevrilir. Siyasi böhran iqtisadi tənəzzüllə müşayiət edilir. Xarici sərmayədarlar investisiya qoymağa qorxurlar.

Qəzetin mövzu dairəsi geniş və rəngarəngdir. Nədən, necə yazmasından asılı olmayaraq, bütün materiallarda Azərbaycan sevgisi, Azərbaycana bağlılıq hakimdir. Azərbaycanın qədim və zəngin tarixinin, nadir ədəbi-mədəni irsinin təbliği "Ana dili"nin əsas məramlarındandır. Təbii ki, mühacir qəzeti kimi mənsub olduğu vətənin ictimai-siyasi həyatı da "Ana dili"ni düşündürən, narahat edən mövzulardandır. Bu mənada qəzetin üzərinə daha məsul missiya düşdüyünü desək, yanılmarıq. "Ana dili" bir tərəfdən, Şimali Azərbaycanın təəssübünü çəkir, onu təbliğ edirsə, digər tərəfdən, İran Azərbaycanında soydaşlarımızın fars şovinizmindən, molla rejimindən əzab-əziyyət çəkdiyini, Azərbaycanın dərdini, səsini oxucularına çatdırır.

Cənubi Azərbaycan fars şovinizmindən həmişə əziyyət çəksə də, tarixin və taleyin bu acı sitəmi ilə barışmamışdır. Cənubi Azərbaycanın qanla dolu şanlı tarixi söylənilən fikrə sübutdur. "Ana dili" Cənubi Azərbaycan tarixinin müxtəlif mərhələlərindən müntəzəm materiallar dərc edir. "Ana dili"nin redaktoru müsahibələrinin birində demişdir: "Ağ dəvə tale, qismət, bəxt və dövran deməkdir. Xalqımızın taleyindəki tarixi ədalətsizlik üzündən ağ dəvə artıq 175 ildir ki, düzdə, yarı yolda qalıb, ikiyə parçalanmış vətənimizin o tayından bu tayına gələ bilmir.

...XX əsrdə Güneydə üç dəfə inqilab baş verib. Səttarxan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin başçılığı altında xalq hərəkatı kükrəyib. Lakin hər dəfə toyumuz yasa dönüb" (57). Redaktorun düşündükləri və mövqeyi "Ana dili"nin yazılarında da öz əksini tapmışdır. "Ana dili"nin 1988-ci il tarixli yanvar nömrəsi əsasən 21 Azər nehzətinə həsr olunmuşdur. Birinci səhifədə bu hərəkatın 42-ci ildönümü münasibətilə Köln şəhərində keçirilmiş tədbirdən bəhs olunur. Materialdan məlum olur ki, Azərbaycan tarixinin bu şanlı səhifəsinin ildönümünə həsr edilən tədbir "Ana dili"nin təşəbbüsü ilə həyata keçirilmişdir. Tədbirə aid yazıda deyilir: "21 Azər nehzətinin rəhbəri Seyid Cəfər Pişəvərinin yağlı boya ilə çəkilmiş və gözəl bir çərçivəyə çalınmış portreti... səhnəyə ayrı bir zinət vermiş idi. Səhnənin sağ tərəfinə Azərbaycan bayrağı çəkilərək "Yaşasın 21 Azər nehzətinin 42-ci ildönümü" və "İstiqlaliyyət Azərbaycanın vazkeçilməz haqqıdır" şüarları asılmışdı. Səhnənin sol tərəfində və salonun müxtəlif qismətlərində Səttarxan, Bağırxan, Heydər Əmioğlu, Səməd Behrənginin portretləri ilə birlikdə ... şüarlar asılmışdı" (6, yanvar 1988). Məqalədə göstərilir ki, AFR-in müxtəlif şəhərlərindən tədbirə təşrif gətirən qonaqların iştirak etdiyi məclis Azərbaycanın milli himni ilə açılmışdır.

Məqalədən aydın olur ki, milli-azadlıq hərəkatının ildönümü münasibətilə Nurəddin Qərəvi tədbirdə məruzə etmiş, 21 Azə-

rin Azərbaycan tarixində və taleyindəki rolundan danışmışdır. Qəzet 21 Azər münasibətilə redaksiyaya ünvanlanan təbrikləri də dərc etmişdir.

Çeşmi Azərin məqaləsi 21 Azər hərəkatının başlanğıcı olan 12 şəhrivər müraciətnaməsinə həsr olunmuşdur. 1945-ci ilin 12 şəhrivər günü 77 nəfərin imzaladığı müraciətlə Azərbaycan Demokrat Firqəsinin yarandığı bəyan edilmişdir. Qəzetin 1988-ci il may nömrəsində də mövzuya qayıdılmış və Əli Tudənin "Təbriz filarmoniyası" adlı məqaləsində milli hökumətin mədəniyyət sahəsində həyata keçirdiyi islahatlardan bəhs olunmuşdur.

Ümumiyyətlə, "Ana dili" öz səhifələrində "Azərbaycan xalqının böyük övladı" və Azərbaycan milli-azadlıq hərəkatının rəhbəri Seyid Cəfər Pişəvərinin həyat və fəaliyyəti ilə bağlı çox sayda material dərc etmişdir. Qəzetin iyul və avqust 1988-ci il nömrələrində S.C.Pişəvərinin vəfatının ildönümü ilə bağlı dərc olunmuş məqalədə də bu mövzuya tez-tez toxunulduğu qeyd edilir. Yazıda isə Əli Tudənin S.C.Pişəvəri haqqında "Ədəbiyyat və incəsənət" qəzetində verilmiş məqaləsinə də münasibət bildirilir, xüsusilə S.C.Pişəvərinin vəfatı ilə bağlı söylənilənlər ətrafında geniş fikir mübadiləsi edilir.

İrandakı mövcud rejimin və İran-İraq müharibəsinin tənqidi "Ana dili"nin başlıca mövzularındandır və demək olar ki, qəzetin əksər nömrələrində bu barədə bəhs edilir. "İki yolun ayrıcında" (6, noyabr 1988), "Edamlardan məqsəd" (6, yanvar 1989), "Molla rejiminin məqsədi" (6, may 1989), "Özlərini aldadanlar" (6, fevral 1989), "22 bəhmən inqilabının ildönümü" (6, fevral 1992) adlı məqalələrdə bir tərəfdən, rejimin milli siyasəti və İran-İraq müharibəsinin əsl mahiyyəti açıqlanır, tənqid olunur, digər tərəfdən, fars şovinist siyasətinə qarşı mübarizəyə çağırılır. "İki yolun ayrıcında" adlı məqalə analitik xarakteri, kəsərliliyi, İranın daxili və xarici siyasətini dəyərləndirmək baxımından diqqəti çəkir. Müəllif rejimin yanlış iqtisadi

siyasəti ucbatından ölkənin "dərin bir siyasi böhrana düçar" olduğunu, nəticədə "rejimin öz içində ixtilafların" yarandığını göstərir. Ziddiyyətlərin aradan qaldırılması üçün müəyyən tədbirlər görülsə də, onlar nəticəsiz qalır, "çünki rejimin varlığı bu ixtilafların qaynağıdır". Məqalədə qeyd olunur ki, İran xalqlarının inqilab etməkdə məqsədi "diktator şah rejimini" islam rejimi ilə əvəz etmək yox, "azad mühitdə müxtəlif partiyaların, qrup və şəxslərin azad fəaliyyətini təmin etmək və hər kəsin öz görüşlərini qorxusuz və açıq bəyan edə bilməsini saxlamaq idi". İllər ötdükcə, İran xalqları "inqilaba və tökülən qanlara xəyanət edib, qondarma bir islami rejim" yaradıldığı qənaətinə gəlir və "bütün acıları dərk edirlər". Məqalədə deyilir: "Elə xalq içində olan narazılıqlar da bunun nişanəsidir. Həmin bu xalq şahı tarixin küllüyünə atdığı kimi, bu rejimi də gec-tez onun yanına göndərəcəkdir".

"Molla rejiminin məqsədi" adlı yazıda rejimin daxilindəki ictimai-siyasi və iqtisadi böhranlardan bəhs edilir. Orada oxuyuruq: "Faşist irtica rejiminin İranın içərisində və eşiyində biabırçılıqla rüsvay olması, Xomeyni və onun oyuncaqlarını bərk qorxuya salmışdır". Elə bunun nəticəsidir ki, ölkədə terror artmaqdadır. Lakin bu "basqın və terrorlar rejimin müxalifətini qorxutmur, əksinə, müxalifət cəbhəsinin daha da şiddətlənməsinə və rejimin həqiqi simasının zahirə çıxmasına səbəb olur".

1989-cu il iyul nömrəsində dərc olunan "Öz gələcəyini təyin etmək haqqı" adlı məqalədə söhbət Sovet İttifaqı Kommunist Partiyasının baş katibi M.Qorbaçovun Almaniyaya səfərindən getsə də, müəllif mövzunu məharətlə Azərbaycanla bağlayır. O yazır: "Əlbəttə, alman xalqının, siyasətçilərinin, qəzetçilərinin bu səfərə böyük əhəmiyyət vermələri, öz xalqlarının talelərini düşünmələri istər-istəməz zorla ikiyə parçalanmış Azərbaycan xalqının acı taleyini yada salır.

Təəssüf ki, bizim ziyalılar, hər iki ölkədəki azərbaycanlı məsullar, siyasətçilər bu barədə danışmaqdan qorxurlar. Və ya öz-

gələrin əli ilə vətənin parçalanmasını təbii bir hadisə kimi qəbul edirlər. Bu, bizim xalq üçün bir faciədir. Amma arzumuz budur ki, heç olmazsa, Qorbaçovun Qərbi Almaniyada rəsmən dediyi və imzaladığı xalqların gələcəyini özü istədiyi şəkildə təyin etmə haqqı mollanın dediyi kimi olmasın. Yəni onu biz özümüz üçün deyirik, özgələri üçün demirik".

"Özlərini aldadanlar" (6, fevral 1989) adlı yazı "islam köynəyi geyinmiş" rejimin siyasətini ifşa etmək baxımından əhəmiyyətlidir: "Rejim başçıları bir tərəfdən, özlərinin orta əsrlərə aid fikirlərinə itaət etməyənləri dəstə-dəstə edam edir, digər tərəfdən, də ölkədə fikir və düşüncə azadlığından danışırlar". Müəllif Xomeyni rejimi ilə İranın şah rejimini müqayisə edir, yalnız formanın dəyişdiyini, məzmunun, mahiyyətin eynilə qaldığını göstərir. İran və dünya xalqlarını sözlə aldatmaq istəyən molla rejiminin məsullarını müəllif "cahil və küt" adlandırır və qətiyyətlə bildirir ki, gec-tez tarix bu cahil insanların dərsini verəcəkdir.

"Mən parçalanmış, xırdalanmış, tikə-tikə olmuş, döyülmüş, söyülmüş və şəxsiyyəti tapdalanmış, təhqir olunmuş bir xalqın övladıyam" (6, may 1992). Bu, "Ana dili"nə ünvanlanmış oxucu məktubundan bir cümlədir. Qəzet bu məktubu dərc etməklə, bir tərəfdən, o taylı-bu taylı Azərbaycanın problemlərinə bir daha diqqəti çəkir, İrandakı "tülküsifət fars şovinizmi"nin mahiyyətini, onun fəsadlarını, Azərbaycan xalqına gətirdiyi bəlaları, fiziki və mənəvi zərbələri açıb göstərirsə, digər tərəfdən də "Ana dili"nin oxucu auditoriyasının fikir və düşüncələri barədə müəyyən rəy formalaşdırır: oxucu İran rejiminə qarşı vulkan kimi püskürür, o hiddətlidir, qəzəblidir, mübarizdir. Digərlərini də "öz xalqımızın çıxar və mənfəətləri və azadlığı uğrunda çalışmağa" səsləyir. O yazır: "Mənə belə gəlir ki, bu gün əkmək zamanıdır, biçmək zamanı deyil ... Əgər bu günə qədər Azərbaycan xalqının öz müstəqil və vahid bir dövləti yoxsa, biz özümüzdən küsməliyik və bunun səbəblərini də hər şeydən qabaq

öz içimizdə aramalıyıq".

Qəzetin "Varlıqsız varlıqlar varlıq sayılarmı?" (6, 5 iyun 1991) adlı məqaləsində yenə mövzu Azərbaycandır. Burada maddi və mənəvi sərvəti hərraca qoyulan o taylı-bu taylı Azərbaycanın problemlərindən ürək ağrısı ilə söz açılır. Müəllif yazır ki, varlıqsız bir adam, ya da bir xalq necə ola bilər, sualını düşündükdə insanın beyninə yersiz, yurdsuz, vətənsiz, dilsiz bir mövcudiyyət, ya bir xalq təcəssüm olur. Müstəmləkəçilər öz ağalıqlarını qorumaq üçün özgə xalqların dilini, tarixini, musiqisini, ənənələrini əlindən alıb, onlara zorla öz dillərini, tarixini, düşüncələrini, dinlərini qəbul etdirirlər. Müəllif yazır: "Hətta o xalqların başçılarını və ziyalılarını elə şəxsiyyətsiz hala gətirirlər ki, onlar hətta özünü düşünməkdən nifrət edirlər, hətta öz şəxsiyyətlərini belə danırlar. Əlbəttə, belə xalqları görmək üçün Afrikaya getmək lazım deyil, elə Azərbaycan xalqı da təəssüflər olsun ki, bu hala salınmaq istənən xalqlardandır". Müəllifin fikrincə, xalqın Quzeydə "internasionalist maskası" ilə varlığına qəsd edilmişdir, Güneydə də bir xalqın varlığını göstərən ana dili, ana torpağı, ənənələri əlindən alınmışdır.

Quzeydə sözdə ziyalıların bir qismi təkrar Moskvanın qucağına atılmaq istəyir, bir dəstə isə təzə ağa axtarmaq həvəsindədir. Güneydə isə quldur Rza xan tərəfindən ana dilinə qoyulan yasaq davam etməkdədir. Məqalədə deyilir: "Məktəblərimizdə uşaqlarımız öz doğma dilində oxuyub həqiqi varlıqlarını tapmaq əvəzinə, özgə bir dildə oxuyub, ayrı bir şəkildə şəxsiyyət qazanıb yetişməyə məcbur edilmişlər. İslam hökuməti həm dil məsələsində, həm də vətənimizin tikə - parça edilməsi siyasətində qabaqkı rejimin yerini tutmuşdur. Əlbəttə, bizim onlardan ummağımız qələt bir şeydir. Çünki müstəmləkəçidən ummaq imamzadədən möcüzə gözləmək deməkdir. Bizim özümüzdən, özümüzkülərdən ummağımız lazımdır". Məqalədə son 70-80 ilin tarixinə nəzər salınır. "Xalqımıza hökmranlıq etmək istəyən qüvvələrə bilərəkdən, yaxud bilməyərəkdən xidmət edən ziya-

ıları "qondarma ziyalı", "qələm tacirləri" adlandıran müəllif qəzəblə soruşur: "Axı hansı xalqın ziyalısı öz xalqına sözünü müstəmləkəçinin, istismarçı şovinistlərin dilində yazıb deyər?! Hansı alman, fransız, ingilis ... şair və yazıçı əsərlərini öz xalqına özgə bir dildə yazar?! Bütün bunlardan sonra müəllifin qənaəti təsirli və düşündürücüdür: "Belə bir şeyi ancaq və ancaq müstəmləkə halına düşən, düşürülən və düşürülmək istənilən xalqların içində görmək mümkündür". Müəllif bu cür ziyalıları "canlı ölülər" adlandırır və yazır ki, "onların yazdıqları bizim üçün meyar, ölçü ola bilməz, onların adları, ünvanları bizi aldatmamalıdır". Şübhəsiz, məqalənin kəskin, emosional dili, üslubu dövrün tictimai-siyasi mahiyyətini, mövcud şəraitin ağırlığını açmağa, oxucuda problemlə bağlı rəy formalaşdırmağa xidmət edir.

İranla, o cümlədən Cənubi Azərbaycanla bağlı siyasi məzmunlu yazılarla yanaşı, "Ana dili"nin səhifələrində dil, tarix, mədəniyyət, incəsənət və etnoqrafiya ilə əlaqədar materiallar, bir sözlə, Azərbaycan varlığını dolğun şəkildə əks etdirən məqalələr oxucular tərəfindən böyük maraqla qarşılanır.

Təbii ki, İran rejimini nişana alan "Ana dili"nin də problemləri var. "Molla rejimi azərbaycanlıların milli dəyərlərinin, dil, ədəbiyyat, musiqi, tarix kimi sərvətlərinin məhv edilməsi və saxtalaşdırılması işinə ciddi fikir verir. Bu proses bir neçə istiqamətdə aparılır və istər-istəməz Azərbaycan diasporunun məfkurə istqamətlərinə, mütəşəkkilliyinə müəyyən qədər təsir göstərir" (49).

Müəllif bu fikrində haqlıdır və onun "İranın xarici siyasətində Azərbaycan diasporuna qarşı mübarizədə bir sıra prioritet istiqamətləri var" qənaəti də həqiqətdir. Molla rejiminin böyük, eyni zamanda çirkin təbliğat maşını ilə mübarizə aparan mütərəqqi milli mühacir mətbuatının, o cümlədən "Ana dili"nin ən etibarlı dayağı, müttəfiqi haqq və ədalətdir.

"Azər" məcmuəsi, 1921-ci ildən Təbrizdə nəşrini davam et-

dirən, "Molla Nəsrəddin"lə əsası qoyulan və 1923-cü ildə İstanbulda "Yeni Qafqasya" ilə yeni məzmun və keyfiyyət kəsb etməklə növbəti inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan mühacirət mətbuatı son dərəcə mürəkkəb, çətin, lakin şərəfli inkişaf yolu keçmişdir. Əski mühacirlərin buraxdıqları mətbu orqanların mövzu dairəsi geniş və rəngarəng, nəşr olunduğu coğrafi məkan müxtəlif, mücadilə taktikası fərqli olsa da, bütün qəzet və jurnalları birləşdirən vahid məramı xarakterizə etmək üçün bir cümlə kifayətdir: Vətənin istiqlalı uğrunda bolşevizmə, sovet rejimi və ideologiyasına qarşı barışmaz mübarizə və Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, bir sözlə, mənəvi sərvətlərinin xaricdə təbliği və tədqiqi.

Sovet dövrünün 70 ilə yaxın tarixi ərzində xaricdə formalaşmış mühacirət irsinin dərindən tədqiqi bütövlükdə Azərbaycan tarixi və mədəniyyətinin öyrənilməsi baxımından aktual və əhəmiyyətlidir.

Ötən əsrin 80-ci illərinin əvvəllərinədək fəaliyyət göstərən mühacirət mətbuatını izlərkən, özünəməxsus mövzusu, ideya istiqaməti, dili, üslubu, sənətkarlıq xüsusiyyətləri ilə seçilən qəzet və jurnallarda nəzərə çarpan son dərəcə maraqlı bir məqam da diqqəti çəkir: həmin mətbu orqanlarda Cənubi Azərbaycan mövzusuna, demək olar ki, təsadüf edilmir. Bu amili mücahidlərin Cənubi Azərbaycanla təmaslarının zəifliyi, yaxud onların bu mövzuya biganəliyi kimi izah etmək doğru deyil. Hələ 20-ci illər və 30-cu illərin əvvəlləri İstanbul nəşrlərinin ("Yeni Qafqasya", "Azəri-türk", "Odlu yurd", "Bildiriş") materiallarından məlum olur ki, mücahidlər İranla əlaqə saxlayırlar, bu ölkədən ötürməklə SSRİ-yə öz nəşrlərini göndərirlər, SSRİ-dən qaçan azərbaycanlıların əksəriyyəti İrandan keçərək, Türkiyədə, Avropanın digər ölkələrində məskunlaşırdılar. 30-cu illər Berlin nəşrlərindən də ("İstiqlal", "Qurtuluş") aydın olur ki, mücahidlərin İranla müəyyən əlaqələri davam etməkdədir. Həmin nəşrlərin az qala hər nömrəsində İran vasitəsilə SSRİ-ni tərk

edən azərbaycanlılardan ibarət "mühacir seli" haqqında yazılır. Mühacirlər İran, o cümlədən Cənubi Azərbaycan mövzusuna mətbu orqanlardan fərqli olaraq digər nəşrlərdə tez-tez müraciət etmişlər (ətraflı bax: Mirzə Bala Məmmədzadə. Ermənilər və İran, 1927, İstanbul, Nəcmi-İstiqlal mətbəəsi, Ankara Universitetinin nəşri, 1994 və s.).

Mücahidlərin Rza şah istibdadından ehtiyat edərək, Cənubi Azərbaycan mövzusuna toxunmadıqlarını da söyləmək sadəlövhlük olardı: onlar SSRİ kimi nəhəng imperiyaya meydan sulayırdılar. O zaman bu qənaətə gəlmək olar ki, mücahidlər aşağıdakı səbəblərdən Cənubi Azərbaycan mövzusuna toxunmamışlar:

-siyasi mühacirət bütün qüvvəsini işğalçı Rusiyanın, bolşevizmin ifşasına, xarici dövlətlərin diqqətini yenicə süquta uğramış Azərbaycan Xalq Cümhuriyyətinin taleyinə yönəltməyə səfərbər etməyə çalışmışdır;

-həmin şəraitdə Cənubi Azərbaycan mövzusunu qabartmaq diqqəti əsas və aktual problemdən - Azərbaycanın itirilmiş istiqlalından və bolşevizmin işğalçı mahiyyətindən yayındıra bilərdi.

Ötən əsrin 80-ci illərinin əvvəllərindən mühacirət mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoyur. İstər İran İslam inqilabı nəticəsində vətəni tərk edən soydaşlarımızın, istərsə də, SSRİdə başlanan aşkarlıq və yenidənqurma siyasətindən sonra xeyli fəallaşan əski mühacirlərin nəşrlərində Azərbaycan mövzusu tamamilə yeni məzmunda və ampluada özünü göstərir.

Cənubi Azərbaycan mühacirləri öz nəşrlərində bir tərəfdən, İrandakı molla rejimini tənqid edir, Cənubi Azərbaycanın fars şovinizminin məngənəsindən xilası uğrunda ideoloji mübarizə aparır, digər tərəfdən, Şimali Azərbaycandakı prosesləri də diqqətlə izləyir, ona münasibət bildirir və Şimali Azərbaycanın müstəqillik uğrundakı mübarizəsini dəstəkləyirlər.

Bu mənada 1990-cı ilin sentyabr ayında Berlində nəşrə başlayan "Azər" jurnalı diqqəti çəkir. Xaricdə Azərbaycan Milli Demokratik nehzətinin (hərəkatının) orqanı "Azər"in ilk nömrəsi 14 səhifə, sonralar 19, 24, bəzən də 28 səhifə həcmində və əsasən ərəb əlifbası ilə Azərbaycan və fars dillərində buraxılmışdır. Yeri gəlmişkən qeyd edək ki, jurnal oxucularının xahişi ilə 5-ci nömrəsindən etibarən ara-sıra latın əlifbası ilə də materiallar dərc etmişdir. Bu ondan irəli gəlirdi ki, "Azər"ə təkcə Almaniyada məskunlaşan Cənublu azərbaycanlılar yox, Şimaldan olan həmvətənlərimiz, digər türklər də böyük maraq göstərirdilər. Bir neçə oxucunun redaksiyaya ünvanladığı məktub deyilən fikri təsdiq edir. Berlindən ünvanlanan məktubda oxuyuruq: "Azər" jurnalının redaksiya heyətinə. Biz burada 5 min Azəri türkü olaraq yaşamaqdayıq. Könlümüz istəyir ki, "Azər" jurnalı bizim Türkiyə əlifbası (latın əlifbası nəzərdə tutulur - A.T.) ilə də buraxılsın ki, biz də bu gözəl jurnaldan istifadə edə bilək" (11, 1991, №5).

"... Avropada yaşayan minlərcə Azəri türkü latın əlifbasında oxuya bilir. Hazırda ərəb əlifbası ilə buraxdığınız jurnalı biz oxuya bilmirik. Jurnalın latın əlifbası ilə nəşrinin böyük faydası vardır. Unutmayın ki, 230 min türk Berlində yaşayır, unutmayın ki, Şimali Azərbaycan da latın əlifbasına keçməkdədir".

Oxucu məktubu ilə əlaqədar redaksiyadan bildirilir: "Sizin haqlı istək və arzularınızı yerinə yetirmək üçün biz "Azər"in gələn nömrəsindən başlayaraq, ixtiyarımızda olan latın əlifbasında yazılmış məqalələri çap edəcəyik".

Sərhədlə ayrılan Azərbaycan, obrazlı ifadə ilə desək, "Azər"in səhifələrində birləşmişdir. Jurnalda Azərbaycanla bağlı mövzu məhdudiyyəti yoxdur. İstər Şimali, istər Cənubi Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, vətəndə baş verən ictimai-siyasi hadisələr "Azər"də geniş işıqlandırılır. Bütün materiallar Azərbaycana məhəbbət ruhundadır, siyasi mövzularda isə bu sevgidə mübarizə əzmi, Azərbaycanın düşmənlərinə isə nifrət hissi açıq-aşkar görünür. Bu mənada jurnal orqanı olduğu

Azərbaycan Milli Demokratik hərəkatının tərəfdarlarının ideoloji-siyasi təbliğat proqramını uğurla həyata keçirən vasitədir.

Hərəkatın müvəqqəti Proqramında (11, avqust-sentyabr 1990, №1) bəşər tarixinin inkişaf yoluna qısaca nəzər salınır, ölkələr, millətlər və ictimai təbəqələr arasında formalaşan yeni münasibətlər dəyərləndirilir. Sənəddə zamanın sürətlə irəlilədiyini, geridə qalan qüvvələrin isə bü sürətlə üz-üzə qaldığı və irtica mahiyyəti kəsb etdiyi göstərilir. Onların məqsədi yeniliklə mübarizə, necə olursa-olsun, milli-demokratik qüvvələrin məhv olmasına çalışmaqdır.

Proqramda milli-azadlıq hərəkatı "zəmanəmizin ən gözə çarpan əlamətlərindən biri" kimi dəyərləndirilir və qeyd olunur ki, ibtidai hüquqlarını əldə etmək üçün ayağa qalxan xalqın mübarizəsi təbiidir: "Əgər bir xalqın dili, tarixi, musiqisi, ədəbiyyatı və nəhayət, xalqın mövcudiyyəti inkar olunursa, bu həmin xalqa qarşı törədilmiş ən böyük cinayətdir. Əgər təbiətin gözəlliyi bitkilərlə, ağaclarla, güllərlə, müxtəlif canlılarla bağlıdırsa, insanların da gözəlliyi onların adət-ənənələrində, ədəbiyyat və incəsənətində, dil və müsiqisindədir". Sənəddə hər bir kəsin öz fikrini ifadə edə bilməsi "demokratiyanın ən sadə təzahürlərindən biri" adlandırılır və təəssüflə bildirilir ki, Azərbaycan xalqı ən itbidai demokratik hüququndan - öz dilində danışmaqdan məhrumdur. Orada göstərilir ki, İranda Azərbaycan xalqının mövcudiyyəti inkar edilir, dili qadağan olunur, milli hüquqları tapdanır. Azərbaycanın mübarizələrlə dolu şanlı tarixi xatırlanır, onun yetişdirdiyi dühaların bəşərin mədəniyyət xəzinəsinə bəxş etdiyi sərvətlər sadalanır. Sənəddə deyilir ki, bu xalq müxtəlif dövrlərdə çoxlu qurbanlar versə də, əzab-əziyyətlərə düçar olsa da, təhqir edilsə də, ikiyə bölünsə də, heç vaxt azadlıq uğrunda mübarizəsini dayandırmamışdır, heç bir zaman gələcəyə ümidini itirməmişdir. Proqramda Gülüstan müqaviləsi ilə ikiyə bölünən Azərbaycanın inkişaf tarixi paralel izlənir, o taylı - bu taylı Azərbaycanın azadlıq hərəkatları dəyərləndirilir.

Cənubi Azərbaycanın əhalisi, tarixi və mədəniyyət mərkəzləri, təbii sərvətləri barədə bəhs olunan sənəddə oxuyuruq: "Azərbaycanın zəngin və böyük ərazini təşkil etməsinə baxmayaraq, şəhər və kəndlərdə əhali fəqir və yoxsulluqla həyat keçirir. Əhalinin 75 faizi savadsızdır. Həkimlər, xəstəxanalar və uşaq evləri çox azdır. İşsizlik və bahalıq insanları boğaza yığmışdır. Söz, mətbuat azadlığı yoxdur". Rza şah dövründə olduğu kimi, molla rejimi zamanı da şovinist siyasətin yeridildiyi, azərbaycanlıların hüquqlarının tapdandığı, onlara zülm edildiyi göstərilir: "Məktəblərdə dərslər fars dilində keçirilir. Uşaqlara türk adı qoymaq qadağandır. Azəri türkcəsində yazmaq və oxumağa icazə verilmir. Uşaq anasının qucağında 7 yaşınadək gözəl və şirin Azərbaycan laylasını və bayatılarını eşidir, məktəbə gedəndə yad bir dildə danışmaq məcburiyyətində qalır. Cənubi Azərbaycanda nümunə üçün ana dilində bir məktəb belə yoxdur". Sənəddə ana dilinin təhlükə qarşısında olduğu xüsusi vurğulanır, Azərbaycan dilində radio, televiziya verilişləri az miqdarda verilir, bədii filmlər isə yalnız fars dilində nümayiş etdirilir. Sənəddə deyilir: "Yurdumuzun taleyi Tehranda həll olunur". Proqramda Azərbaycan milli-demokratik hərəkatının yaxın gələcək üçün vəzifələri göstərilir, bütün həmvətənlər fars şovinizminə qarşı, Azərbaycanın azadlığı uğrunda mübarizəyə dəvət olunur.

Jurnalda Azərbaycan Milli Demokratik hərəkatının müvəqqəti proqramının şərhinə də geniş yer verilmişdir. "Fars şovinizmi və milli məsələ" adlı irihəcmli məqalə 6 hissədən ibarətdir: "İranda fars şovinizminin tarixi və zəmini", "Fars şovinizmi bir dövlət doktrinası kimi", "Fars şovinizmi nökər sifət şovinizmdir", "Fars şovinizmi İran xalqlarının gündəlik həyatında", "Dil, meydan və şovinizmin təzyiq mərkəzləri", "Zülm altında yaşayan xalqların şovinizmə qarşı reaksiyası". Məqalə elmi-nəzəri xarakter daşısa da, canlı, obrazlı dili, zəngin bədii təsvir vasitələrindən istifadə ilə də diqqəti çəkir, maraqla oxunur, yadda qalır.

"Azər" jurnalı orqanı olduğu təşkilatın proqramına uyğun öz səhifələrində mütəmadi şəkildə fars şovinizminin, molla rejiminin əsl mahiyyətinin açılmasına, ifşa edilməsinə dair zəngin, maraqlı materiallar verir. Bəhram Azərnigəhin "Fars şovinizmi və milli məsələ" (293), "Şəhərin ehtiyacı" (294), X.Yıxılmazın "İranda irqçilik və şəxsiyyətpərəstlik" (656), habelə "Azərbaycan xalqının danışdığı dilin adı nədir", "Mahiyyəti itirənlər, mahiyyəti itmişlər" (11, 1991, №6), "İranda irqçilik", "İranın bişirdiyi aş" (11, 1992, №7) və s. kimi çoxsaylı yazılarda İranda Azərbaycan xalqının adi insan haqlarından məhrum edildiyi, əzildiyi, mənəvi, fiziki işgəncələrə məruz qaldığı, tarixinin, mədəniyyətinin saxtalaşdırıldığı, əlindən alındığı, məhv olunduğu təsirli dillə, tutarlı faktlarla qələmə alınmışdır.

Jurnalda fars şovinizminin mahiyyəti, ictimai-siyasi təbiəti, təzahürləri və fəsadları geniş işıqlandırılır. Eyni zamanda bü bəlaya rəvac verənlərin, onu qidalandıranların, obrazlı ifadə ilə desək, "sapı özündən olan baltalar"ın ifşasına da geniş yer ayrılır. Qılıncxanın "Fars şovinizminin vazeleni" (428), Durna Tərbiyətin "Qul olmuş ruhlar" (625) adlı məqalələrində son 40 ildə Cənubi Azərbaycan ziyalılarının "tarixi rolu"ndan bəhs edilir.

"Azər"də verilən bir xəbərdə göstərilir ki, Təbriz valisi şəhər büdcəsinin bir hissəsini Tehrana geri qaytarıb və deyib: "Bu qədər pula şəhərin ehtiyacı yoxdur". Xəbərdə deyilir: "Halbuki Təbrizin nə bir kanalizasiyası, nə bir müasir xəstəxanası var. Nə bir abad küçəsi, nə yoxsullar evi. Əhalisi 1 milyondan çox olan Təbriz şəhərinin yalnız bir idman stadionu var" (11, 1990, №5).

Bəhram Azərnigəhin "Azərbaycan xalqının danışdığı dilin adı nədir?" adlı publisistik yazısı məzmun və mahiyyətinə görə böyük Mirzə Cəlilinin "Molla Nəsrəddin"də dərc olunan "Sizi deyib gəlmişəm" (90), "Bizim "obrazovannılar" (91), "Ana dili" (92, 93, 94) və s. kimi çoxsaylı felyetonlarını xatırladır. Bəhram Azərnigəh göstərir ki, bütün mötəbər mənbələrdə dilimiz Azərbaycan türkcəsi adlansa da, bəziləri dilimizə Azərbaycan,

yaxud azəri dili deyirlər. Müəllif dilin bilərəkdən uydurma ad altında təqdim edilməsində çirkin niyyəti şərh edir. Həmin şəxslər dilimizin türk dili olduğunu inkar edən, bu əraziyə türk dilinin sonralar gətirildiyini iddia edən Kəsrəvi və onun nəzəriyyəsini yayan şovinistlərdir.

B.Azərnigəh tutarlı və təkzibedilməz faktlarla belə uydurmaların əsası olmadığını, tarixin qəsdən saxtalaşdırıldığını göstərir. Yazır ki, televizor, radio, mətbuat və məktəb olmayan bir dövrdə monqollar yerli əhalinin dilini necə dəyişə bilərdilər ki, bu gün gen-bol imkanları olan hakim fars şovinizminin bütün cəhdlərinə baxmayaraq, şəhərdə və kənddə türk dili öz gözəlliyi və təravətini qorumaqdadır. Məqalədə deyilir: "Pəhləvi şahları 50 il ərzində milli zülmlə, bütün neft pulları və imkanları ilə bir kiçik qəsəbəni də farslaşdıra bilməmişlər. Monqollar bu işi necə gördülər ki, bu gün böyük bir məntəqədə yaşayan, 40 milyonluq bir millət hamısı bir dildə - Azərbaycan türkcəsində danışırlar?!" Müəllif nüfuzlu mənbələrə istinad edərək, dilimizlə bağlı bütün qondarma və saxta mülahizələri alt-üst edir.

"Azər" sərhəd tanımır. O, eyni həvəs və məsuliyyət, eyni məhəbbət və istəklə Şimali Azərbaycandan da yazır. "Qorxulu vəziyyət", "Qarabağ və ermənilər", "Yenidənqurma və Azərbaycan", "Şimali Azərbaycanda ümumi tətillər", "Azərbaycan xalqının igid qızı, "Azərbaycan gəncləri" qəzetinin müxbiri Salatın Əsgərova erməni fitnəkarları tərəfindən qətlə yetirildi" (11, 1991, №5), "Parisdə bir müsahibə" (11, 1991, №6), "Unudulmaz cinayət (Xocalı faciəsi)", "Biz ittiham edirik", "Bütöv təqsir ruslardadır", "Qarabağ münaqişəsinin səbəbləri", "Müstəqillikdən gözlənilən ümidlər" (11, 1992, №7) və s. kimi çoxsaylı yazılarda Şimali Azərbaycanda XX əsrin 90-cı illərinin əvvəllərində baş verən ictimai-siyasi proseslər, xüsusilə, Dağlıq Qarabağ ermənilərinin və onları maddi və mənəvi cəhətdən dəstəkləyən Ermənistanın torpaq iddiası, ermənilərin azərbaycanlılara qarşı törətdiyi terror aktları, vəhşilikləri barədə ətraflı

bəhs olunur. Şimali Azərbaycanda azadlıq hərəkatı müdafiə olunur, ermənilərin cinayətləri lənətlənir, bir sözlə, Şimali Azərbaycanla həmrəylik nümayiş etdirilir.

"Qorxulu vəziyyət" adlı məqalədə deyilir ki, ermənilərin hərbi dəstələr və təşkilatlar yaratması, müharibəyə hazırlığı mühacirətdəki bütün vətənpərvər azərbaycanlılarda dərin nigaranlıq hissi yaratmışdır. "Unudulmaz cinayət" adlı məqalədə ermənı qaniçənlərinin Xocalıda törətdiyi cinayətdən bəhs olunur. Yazıda "erməni qatillərin südəmər uşaqların gözlərini sərnizə (süngü) ilə çıxardıqları, kişiləri tikə-tikə doğradıqları, qız-gəlinlərə təcavüz etdikləri, onların qulaq və burunlarını kəsdikləri" qəzəb və nifrətlə qeyd edilir. Məqalə müəllifi Xocalı qurbanlarına yas tutduqlarını, bu cinayətin cəzasız qalmayacağını yazır.

"Qarabağ münaqişəsinin səbəbləri" adlı məqalə analitik xarakterlidir. Burada müəllif Azərbaycan tarixinin son 200 illik dövrünə nəzər salır, Rusiya-İran müdaxiləsi nəticəsində ikiyə bölünmüş o taylı-bu taylı Azərbaycanın ağır, acı taleyi haqqında ürək ağrısı ilə yazır. Ermənilərin qədim Azərbaycan torpağında yerləşdirilməsi səbəbləri izah edilir, onların Qafqazda Rusiyanın əlaltısı olduğu qeyd edilir. "Müstəqillikdən gözlənilən ümidlər" adlı yazıda Şimali Azərbaycanın 70 il keçdikdən sonra yenidən azad olduğu, dünyanın əksər ölkələri tərəfindən tanındığı, ölkədə milli dövlət quruculuğu sahəsində islahatlar keçirildiyi bildirilir. Bununla belə, qeyd olunur ki, Azərbaycanın müstəqillik yolunda atdığı kövrək addımlara qısqanclıqla yanaşan qüvvələr də az deyil. Odur ki, müəllifi bir çox suallar düşündürür: "Görəsən, 70 il siyasi mütləqiyyət sistemi altında boğulan, söz, mətbuat azadlığı görməyən Azərbaycanda siyasi demokratiyanın şansı nə qədər olacaq? Görəsən, 70 il öz şəxsi milli iradəsini bildirməkdən tam təcrid olunmuş Azərbaycanda əhalinin siyasi iradəsini ifadə etməyə imkan verən şərtlər yaranacaqmı? Görəsən, yenidən qurulan milli ordu ölkəsinin sərhədlərini qorumaqla kifayətlənəcəkmi? Görəsən, yeni don geyinmiş

köhnə qüvvələr öz imtiyaz və mənafelərini müdafiə etmək üçün Azərbaycan xalqının əleyhinə pərdə dalında alver və fitnəkarlıqdan əl çəkəcəkmi? Görəsən, iqtisadiyyatın inkişafı geniş kütlənin rifahına səbəb olacaqmı? Yoxsa, bu və ya digər növ "müstəqil" avtoritar rejim iş üstünə gəlib silahlı qüvvələrin yardımı ilə özünə qeyri-qanuni imtiyazlar cürləyib xalqa qəyyumluq edəcək?" Məqalə müəllifinin nigarançılığı əbəs deyil.

O, özünün yazdığı kimi, müstəqilliyə nail olmuş Komboca və İran xalqının başına gətirilən müsibətlərdən xəbərdardır. 70-ci illərdə müstəqillik əldə olunduqdan sonra Polpot rejimi - milli hökumət Kombocada bəlkə də dünya tarixində misli görünməmiş cinayət həyata keçirdi. İl ərzində milyondan artıq insan qətlə yetirildi. Söz, mətbuat, partiyalar azadlığı qadağan edildi. Silahlı cinayətkarlar ziyalıların canına salındı. Xalq bir rəngdə, bir formada olan paltarlar geyməyə məcbur edildi. Musiqi qadağan olundu, saçlar kəsdirildi, dırnaqlardan və dodaqlardan boyalar sildirildi. Müəllif təbii ki, Azərbaycana belə milli hökumət arzulamır.

"Azər" publisistik materiallarla yanaşı, bədii əsərlərlə də öz sözünü deyir, o taylı-bu taylı şair və yazıçıların əsərlərini dərc edir. Bu zaman elə nümunələr seçilir ki, həmin əsərlərdə Azərbaycan xalqının problemləri, onu düşündürən, narahat edən məsələlər daha qabarıq ifadə olunur. Durna İlqarın "İlk dərs" şerində (11, 1990, №1) oxuyuruq:

Ulduz yeddi yaşında,
Qara çarşab başında.
Qoşularaq Kövkəbə,
Yola düşdü məktəbə.
Müəllim ilk dərsinə,
İqdam etdi tərsinə.
Ana dilin boşladı,
Fars dilində başladı.

Kövkəb sevincə doldu,
Ulduzun rəngi soldu.

Göründüyü kimi, şeirdə Ulduzun timsalında Azərbaycan dilinə edilən həqarət və onun nəticələri oxucuya çatdırılır. Şeir bədii cəhətdən zəif olsa da, məzmun etibarilə aktual və təsirlidir. Süleymanoğlu imzası ilə verilən "Mənim dilimlə" (11, 1992, №7) adlı şeir şairin fəryadıdır. Burada - onun vətənində günəş də, dalğalı su da, qızılqulaq balıqlar da onun dilində danışsa da, o öz doğma dilindən məhrumdur.

"Azər" qürbətdə vətənin azadlığı, müstəqilliyi uğrunda fəal, inadkar mübarizə aparan mətbu orqanlardandır. "Dərinliklərdən gələn səda" (11, 1990, №1) adlı məqalədə xaricdə yaranmış və yaranmaqda olan demokratik hərəkat həm Şimali, həm Cənubi Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin axarında "dərinliklərdən gələn səda" adlandırılır.

"Azər" dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərinin İstanbulda keçirilmiş birinci qurultayını (noyabr 1991) geniş işıqlandırmış, qurultay iştirakçılarının dünya azərbaycanlılarına müraciətini dərc etmişdir (11, dekabr 1991, №5).

"Azər" öz səhifələrində mühacirətdəki həmvətənlərin səfərbər olması, təşkilatlanması, birgə hərəkət etməsi üçün güclü təbliğat aparır.

II FƏSİL

Mühacirət publisistikasının mövzusu, ideya-siyasi istiqamətləri

2.1. Rus əsarətinə və bolşevizmə qarşı ideoloji mücadilə

Sovet rejiminin çürüklüyünü, qəddarlığını, amansızlığını, günahsız adamları müxtəlif bəhanələrlə təqib, terror və sürgün etməsini göstərən müxtəlif yazılar da "Yeni Qafqasya"nın ənənəvi mövzularındandır. Jurnalın demək olar ki, hər nömrəsində Azərbaycanda "əksinqilabçı", "millətçi", "müsavatçı" damğası ilə həbs olunan, cəzalandırılan günahsız insanlar haqqında, eyni zamanda dəhşətlərdən boğaza yığılan, edamlardan, sürgünlərdən təngə gələn insanların etirazından, üsyanlarından yazılır. "Sürgün edilmiş millətçilər" (54), "Lənkərandakı üsyana dair" (53), "Azərbaycanlı mühacirlər İranda", "Azərbaycanda üsyanlar", "Azərbaycanda vəziyyət", "Sürülən millətçilər", "Azərbaycanda təqiblər", "Həbslər, sürgünlər", "Azərbaycanda vəziyyət", "Həbslər, sürgünlər, edamlar" (56) və çox sayda başqa məqalələr rejimin Azərbaycanda törətdiyi əməllərdən bəhs edir. "Nargin adaları" adlı yazı bu qəbildəndir (273, №24 (93), 15 sentyabr 1927-ci il). Məqalədə oxuyuruq: "Bakı ilə üzbəüz məşhur Nargin adası var. Birinci Dünya müharibəsi zamanı türk əsirləri orada saxlanılırdı. Burada aclıqdan, soyuqdan çoxlu türk əsgəri həlak olmuşdu. Qızıl Ordunun istilasından sonra bu ada Azərbaycan vətəndaşlarının sürgün yerinə çevrildi. Burada Azərbaycan istiqlalı uğrunda mübarizə aparan minlərlə insanın

qəbri qazılmışdır. Son xəbərlərə görə, yenə Nargin Azərbaycan milliyyətsevərlərinin sürgün yerinə çevrilmişdir. Buranı hətta "ölüm adası" da adlandırırlar" (56).

"Yeni Qafqasya" "Azərbaycanın böyük matəmi" adlı məqalədə yazırdı ki, Rusiya bolşevizmi təbdili (dəyişmək, başqa bir şəklə salmaq - A.T.) hökumət pərdəsi altında Azərbaycan Türk Cümhuriyyətini sözün bütün mənası ilə istila etdi. Türk dostluğu və istiqlal şüarının arxasında hər növ hüquq və insaniyyət qanunlarını kirli əməlləri altında çeynəyən bu müstəqil qüvvət məmləkətdə nə milli, nə idari, nə də siyasi heç bir istiqlal buraxmadı. Belə cabbar və zalım müdaxiləyə qarşı olan üsyanlar qəddarcasına yatırıldı. Azərbaycan, sözün tam mənasında kişilərin, ziyalıların, müəllimlərin, zabitlərin, fəhlə və kəndlilərin, milli və dini adət-ənənəsinə sadiq olan hər kəsin al qanına boyandı (273, 27 aprel 1924, №15).

Bütün bunlara baxmayaraq, isiqlal aşiqləri "Azərbaycanın böyük günü" adlı məqaləsində deyildiyi kimi əmindirlər: "... nə Qızıl Ordunun Gəncə, Qarabağ və məmləkətin başqa yerlərində üsyan edən xalqı məsum qanlara qərq etməsi, nə alimlərin, gənclərin gülləbaran edilməsi, nə fədakar gənclərə qaranlıq zindanlarda, sulu kameralarda işgəncələr verilməsi, nə də min bir hiylə ilə əli silah, dili söz tutan insanların sürgün edilməsi bu idealı söndürə bilməz! Hər şeydən uca olan ideal bütün təzyiqlərə rəğmən böyüyəcək, parlayacaq, yüksələcək" (273, 28 may 1924, №17).

"Yalnız azərbaycanlıların deyil, rus əsarəti altındakı bütün türklərin" (95, 185) məcmuəsi "Yeni Qafqasya" Proqram məqaləsində qarşısına qoyduğu tarixi vəzifələri yerinə yetirmək üçün ciddi ideoloji mübarizəyə başladı. Bu nəşrin fəaliyyəti nəinki Bakıda, Daşkənddə, Kazanda çıxan "Pravda", "Bakinskiy raboçi", "Kommunist", "Qızıl Özbəkistan", "Noviy Vostok", "Qızıl Orenburq" və s. kimi qəzet və jurnalların, hətta ali sovet orqanlarının ciddi narahatlığına səbəb olurdu.

M.B.Məmmədzadə yazır: "Yeni Qafqasya"nın Moskva, Qafqaz, Türkistan və İdil-Uralda bu dərəcədə dərin əks-səda oyatması təsadüfi deyildi. "Yeni Qafqasya" Anadolunun dörd bir tərəfinə, İranın, Misirin, Hindistanın, Əfqanıstanın və digər Şərq ölkələrinin mərkəzlərinə yayılaraq bolşevizm zülmü altında inləyən Türk və islam millətlərinin uğradıqları qəzavü-qədər və zülm haqqında həzin və oyandırıcı xəbərlər aparırdı" (95, 192).

"Yeni Qafqasya"nın tutarlı, əsaslı və tarixi faktlara söykənən məqalələri sovet rejiminin, ideologiyasının maskasını yırtır və onun əsl simasını ifşa edirdi. Buna isə rəsmi Moskva dözmürdü. Nəşrin və ümumiyyətlə, Azərbaycan mühacirətinin Türkiyədə fəaliyyətinin dayandırılması üçün "dəfələrlə rəsmi diplomatik təşəbbüslər" (95, 189) göstərilmişdir. M.B.Məmmədzadə adı çəkilən əsərində yazır ki, SSRİ-nin Xarici İşlər üzrə Komissarı Çiçerin bir çıxışında qeyd etmişdir ki, "biz dəfələrlə Türkiyə hökumətinə müraciət edərək Sovet hökuməti əleyhinə yürüdülən bu dözülməsi mümkün olmayan intriqaları etirazda bulunduq və buna nəhayət və xitam verilməsini tələb etdik" (95, 189).

Başda "Yeni Qafqasya" olmaqla əsir türk və Qafqaz millətlərinin nəşrləri Sovet partiya və hökumət orqanlarını ciddi narahat edir, qıcıqlandırır, bu çap məhsullarının ölkəyə gətirilməsinin qarşısının alınması üçün kəskin tədbirlər həyata keçirirdilər. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, SSRİ və Azərbaycan SSR-in ali partiya və dövlət orqanlarına soxulmuş ermənilər bu sahədə xüsusi canfəşanlıq göstərirdilər.

SSRİ Xalq Komissarları Soveti yanında Dövlət Birləşmiş Siyasi İdarəsi rəisinin köməkçisi Petrosyan türk və tatar mühacirlərinin nəşrlərini, o cümlədən və ilk növbədə "Yeni Qafqasya"nın demək olar ki, hər nömrəsini oxuyur, müvafiq tədbir görülməsi üçün əyalət təşkilatlarına göstərişlər verirdi. Onun Ufaya-Siyasi İdarənin Başqırdıstan şöbəsinin rəisi Muzıkanta göndərdiyi 8 iyun 1927-ci il tarixli 156162s130 nömrəli məktubunda deyilir ki, türk-tatar mühacirlərinin nəşrlərinin icmalını sizə

göndərərək qeyd edirik ki, onların antisovet təbliğatı, ilk növbədə Sovet Şərqində yayılması nəzərdə tutulan çap məhsullarının nəşri sahəsində fəallığı artmışdır. Son aylar milliyyətçi qruplara ünvanlanmış 3 puda qədər çap məhsulu müsadirə edilmişdir. Antisovet türk ədəbiyyatının gətirilməsində canlanma bizim orqanlar qarşısında belə məhsulların ölkəyə daxil olmasının qarşısını qətiyyətlə almaq vəzifəsini qoyur (56).

"Yeni Qafqasya"nın türkçülük, millətçilik ruhundan təşvişə düşən bədnam Petrosyan bəzən bir gündə bu məzmunda bir neçə məktub imzalayırdı. O, həmin tarixli 156161130 nömrəli məktubunda həmkarı Muzıkanta yazırdı: "Jurnalın məzmunu göz qabağındadır. Heç bir şərhə ehtiyac yoxdur. Amma qeyd olunmalıdır ki, Türkiyə hökuməti bizim təqdimata əsasən mühacirlərin fəaliyyətinin məhdudlaşdırılması üçün bir sıra tədbirlər görmüşdür" (56).

Petrosyan Muzıkanta göndərdiyi 20 dekabr 1927-ci il tarixli 157774s30 nömrəli məktubunda sevincək xəbər verirdi ki, müxtəlif mənbələrin təsdiq etdiyinə görə, Türkiyə hökumətinin sərəncamı ilə Konstantinopolda "Yeni Qafqasya"nın nəşri dayandırıb. Lakin Müsavat rəhbərliyi başqa adlarla Parisdə, ya da Berlində nəşrin fəaliyyətini təmin etməyə çalışır. SSRİ-nin israrlı, təkidli tələblərindən, təzyiqlərindən sonra 1927-ci ilin sonlarında "Yeni Qafqasya" öz nəşrini dayandırmalı oldu.

"Yeni Qafqasya"nın sələfi "Azəri türk" də sovet rejimi və ideologiyasının, həyat tərzinin tənqidinə xüsusi fikir verir, millətlər həbsxanasının çürüklüyünü ifşa edir, rejimin perspektivsizliyini faktlarla faş edirdi. Bu mövzu ilə bağlı jurnalda "Rusiya əhvalı", "Azərbaycan əhvalı", "Qafqaz xəbərləri", "Dağıstanda vəziyyət" və s. kimi rubrikalarda xəbərlər, digər materiallar dərc olunurdu.

"Böyük yalan" (34, aprel 1928, №7) adlı məqalə obrazlı, canlı, oynaq dili və eyni zamanda ifadə tərzi ilə diqqəti çəkir: "Böyük yalan deyirik, çünki istilanı istiqlal deyə təqdim etməkdən

daha böyük bir yalan təsəvvür edilə bilməz! Dünyada cənnət vəd edən bolşevizmin müsəllət olduğu məmləkətlərdə, vücuda gətirdiyi cəhənnəm misalında isbat olunan tarixi yalanın ən böyük nümunəsini, şübhəsiz, 27 Aprel yalanı təşkil edir".

"Azəri türk" sələfi "Yeni Qfaqasya" kimi sovet rejimini, onun qəddarlığını, çürüklüyünü göstərməklə kifayətlənmir və həm də istilaya məruz qalanların məhrumiyyətlərini, işgəncə və əzablara tuş gəldiyini, bunun isə gec-tez istiqlal uğrunda mücadiləni alovlandıracağını yazır: "M.Ə.Rəsulzadə məcmuədə dərc etdirdiyi "Tutduğumuz yol" (384) adlı məqalədə göstərirdi: "... biz yalançı 27 Aprel pərdəsinin Azərbaycan üzərindən gec-tez çəkiləcəyi qənaətindəyik. Bu işi istiqlalçı Azərbaycan nəsli görəcəkdir. O nəsil ki, yabançı istila gücünə qarşı qüvvəsi ilə mücadilə edərək qeyri-bərabər mücadilədə çox böyük qurbanlar verməklə bərabər, əzmindən dönmür, xalqın gözünü açmaq, ruhunu yüksəltmək və xilas gününü gözləyən ümidini qüvvətləndirmək üçün bütün mövcudiyyətini fəda edir. ... Bunun üçündür ki, düşmən bütün hiddətini, bütün şiddətini və bütün nifrətini bu zümrəyə, bu orduya yönəltmişdir".

"Qafqaz xəbərləri"ndə (34, №22, 1929, səh.6) göstərilir ki, Borçalıda əhali üsyan etmiş, qəzadan bütün məmurları qovmuşlar (34, 1929, №22). Üsyanı yatırmaq üçün Tiflisdən göndərilən qoşun hissələri üsyanı böyük qan hesabına yatırmışdır. Üsyançıların bir qismi İrana keçmişdir. Ermənistanla bağlı xəbərdə göstərilir ki, dünyanın hər tərəfindən bura axışıb gələn erməni mühacirlərini sovet hökuməti məhəbbətlə qarşılayır və əsasən Türkiyə sərhədləri boyu yerləşdirir. Jurnalın həmin nömrəsində verilən "Azərbaycan xəbərləri" də diqqətçəkəndir. Bu rubrika ilə verilən bir xəbərdə göstərilir ki, Bakıda çörək, süd, qənd tapılmadığı kimi, dünyanın ən zəngin petrol mənbələrinə malik şəhərdə qaz da çatışmır. Moskvada daha ucuz və rahatlıqla qaz almaq mümkündür. Bakıda süd üçün növbə tutulduğu kimi, qaz almaq üçün də uzun növbədə gözləmək lazımdır.

Başqa bir xəbərdə Rusiyadan axıb gələn sahibsiz rus uşaqlarının Bakının küçələrində oğurluqla məşğul olduğu qeyd edilir. Jurnalın "Azərbaycan xəbərləri"də sovet həyat tərzi və rejimi üçün xarakterikdir. Gəncədən verilən xəbərdə deyilir ki, şəhər ətrafı kəndlərdə vergi o həddə çatıb ki, adamlar ağacları kökündən kəsir, məhv edir, mal-qaranı öldürür. Təqib olunanlar İrana üz tutur. Digər xəbərdə kəndlilərin qolçomaq adı ilə sürüldüyü göstərilir (34, 16 fevral 1929, №1 (23)). "Solovkidəki sürgünlərimiz haqqında" (34, iyul 1928, №12), "Azərbaycan məzlumları" (34, 1 avqust 1928, №13), "Milli mədəniyyətə qarşı bolşevik yürüşü" (34, 1928, №2), "Kommunist rejiminin böhranı" (34, 16 fevral 1929, №1(23)) və s. kimi məqalələrdə sovet reallığı, mövcud mənzərə təsvir və kəskin tənqid edilir.

Hələ 20-ci illərin əvvəllərində M.Ə.Rəsulzadə publisistikasında sovet rejiminin tənqidi xüsusi yer tuturdu. "İstiqlal"da bu mövzu mühərririn yaradıcılığında özünü xüsusilə qabarıq göstərir. "Yeni vəhşiliklər qarşısında" (576), "Fitnədən qorunmalı" (566), "Bir pərdə daha" (569), "Bir rejimin ildönümü" (571), "Demokratiya və Sovetlər" (575), "Qanlı vəhşətlər" (578), "Sovetlərdə vəziyyət" (584) və s. kimi yazılarda SSRİ-nin daxili siyasəti, insanlara qarşı törədilən kütləvi vəhşiliklər, repressiyalar, sürgünlər kəskin tənqid hədəfinə çevrilir və bu kimi təzahürlərin mövcud rejimin təbiətindən, onun saxta ideologiyasından irəli gəldiyi vurğulanırdı. Müəllif sovetlərin yalnız öz sərhədləri daxilində deyil, xaricdə də mahiyyət etibarilə eyni siyasəti təqib etdiyini, ona əks ideoloji mübarizə aparanlara - xüsusilə mühacirlərə qarşı amansız mövqe tutduğunu yazır.

"Fitnədən qorunmalı" adlı yazıda M.Ə.Rəsulzadə qeyd edir: "Mühacirəti dağıtmaq - bolşeviklərin həyata keçirmək istədikləri aktual məsələlərdən biri budur". Müəllif göstərir ki, bu niyyəti reallaşdırmaq üçün onlar ən çirkin yollardan istifadə etməyə hazırdırlar. Odur ki, hər cür fitnəyə qarşı əks tədbir görmək, onu vaxtında duymaq və zərərsizləşdirmək lazımdır.

Sovet İttifaqından çıxan mühacirlər arasında azərbaycanlılar böyük nüfuza malik idilər. Onlar bolşevizmə qarşı daha amansız mövqe tutur, bütün təzyiq və təqiblərə rəğmən fasiləsiz fəaliyyət göstərir, eyni zamanda digər xalqların mühacir nümayəndələrinin işinin əlaqələndirilməsi, birgə hərəkəti üçün fəallıq göstərirdilər. Təsadüfi deyil ki, antisovet mühacir təşkilatlar, onların fəaliyyətlərinin əlaqələndirilməsi "İstiqlal"ın aparıcı mövzularından idi və M.Ə.Rəsulzadə də qələmə aldığı "Vahid istiqlalçılar cəbhəsi" (577), "Müştərək Qafqaz cəbhəsi" (567), "Ukrayna məsələsi" (581), "Tarixi bir akt" (586) və s. kimi məqalələrində məsələnin əhəmiyyətindən və aktuallığından ətraflı bəhs etmişdir.

"Istiqlal" Berlində çıxır, lakin Azərbaycanla nəfəs alır, qidalanır. Ölkədə baş verən hadisələr, rejimə qarşı üsyanlar, xalqın ağır həyat tərzi, sovetin cəza tədbirləri, təqiblər, sürgünlər qəzetin aparıcı mövzuları idi. 30-cu illərdə də davam edən mühacirət axınına ("Bir aqronomun anlatdıqları" (75, 1932, №6), "Azərbaycan mühacirləri" (75, 1932, №12), "Yeni mühacirlərimiz" (75, 1933, №13), mövcud quruluşa qarşı etirazlar və iştirakçılara tutulan divanlara "Azərbaycanda qanlı vəhşətlər", "Təmizlik əməliyyatı" (75, 1932, №1), "Azərbaycanda edamlar", "Azərbaycanda kəndli terroru" (75, 1932, №2), "Azərbaycanda partizan hərəkatı" (75, 1932, №3), "Azərbaycanda qızıl terror" (75, 1932, №9), "Sürgündəki azərilər" (75, 1933, №40), "Məhbus azəriləri" (75, 1932, №4) həsr olunmuş onlarca yazı bolşevizm və onun Azərbaycandakı fəsadları haqqında əsl həqiqəti söyləyirdi.

"Odlu yurd"un və ümumiyyətlə, mühacir nəşrlərin, ən məhsuldar mühərriri, heç şübhəsiz, Mirzə Baladır. Bu jurnalda o, müxtəlif imzalarla ("Mirzə Bala", "M-də", "M.B.Məmmədzadə", "M.B.", "Məmmədzadə", "M" və s.) 60-dan yuxarı məqalə dərc etdirmişdir. Cəmi 32 nömrəsi çapdan çıxan "Odlu yurd"da Mirzə Balanın bir nömrədə iki-üç, bəzən 4 məqaləsi dərc olunurdu. Bir sözlə, jurnalda aparıcı mühərrir Mirzə Bala idi.

Onun Azərbaycanla bağlı çoxşaxəli, rəngarəng yaradıcılığını, mövzusuna görə, təxminən aşağıdakı kimi qruplaşdırmaq olar:

- bolşevik mətbuatının tənqidi ("Yeni türk əlifbası və bolşevik mətbuatı" (458), "Müsavatçılar və kommunistlər" (462), "Azərbaycanın həyat və mətbuatından" (461), "Onuncu ildə" (466), "İflas nədən oldu?" (468);
- mühacir nəşrləri haqqında ("Vaxtında bir əsər" (459);
- 31 Mart qırğınları ("Bolşeviklər və daşnaklar" (465), "31 Mart" (460);
- istiqlal tarixi ("İstiqlal mücadiləsi" (463), "İstiqlalımızın iqtisadi təməli" (464), "Azərbaycan parlamenti" (475);
- Azərbaycan tarixi ("Azərbaycan qalaları" (467), "Azərbaycan tarixinə aid notlar" (476), "Azərbaycan və bolşeviklər" (483);
- sovet ideologiyası və rejiminin ifşası ("Solovkidən gələn səslər" (469), "Başdöndürücü müvəffəqiyyətlər" (473), "Kəndlini əzmək siyasəti" (472), "Kəndin gücü" (471), "On illik istismar" (470), "Şübhə altında" (474), "Beşillik plan haqqında" (477), "Kəndli və inqilab" (480), "Kommunistlər və istila" (484), "Zəncirbənd elm" (485);
- ədəbiyyat, sənət məsələləri ("Proletar ədəbiyyatı, milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında" (317), "Ədəbiyyatda hakimiyyət qovğası" (479), "Sovetlərin aqibəti" (478) və s.).

"Ədəbiyyatda hakimiyyət qovğası" adlı yazısında Mirzə Bala ədəbiyyat tarixinə nəzər salır, mənəvi xəzinəmizin zənginliklərindən bəhs edir, bolşevik istilasından sonra ədəbi mühitdə baş verən hadisələrə münasibətini bildirir. O, Teymur Hüseynovun fevral 1929-cu ildə "Kommunist" qəzetində dərc olunan məqaləsindəki, Mustafa Quliyevin yazıçıların qurultayındakı nitqindəki ədəbi görüşlərini təhlil və tənqid edir: "M.Quliyev proletar ədəbiyyatını çox diqqətlə təqib etdiyini, fəqət bu əsərlərdə bircə dənə də olsun fabrik və əmələ tipi görmədiyini söyləyir, ona görə proletar yazıçılarını sifarişlə çalışdırmaq lazım gəldiyini əlavə edir. O deyir ki, ədəbiyyat hər zaman cəmiyyətin ictimai və siyasi quruluşundan asılı olmuşdur.

Nəşriyyat idarələri hökumətə, özlərinə faydalı olmayan kitabların çox çap edilməsinə heç bir zaman çalışmazlar. Biz nəinki yeni gənclərə, hətta əski yazıçılara da sifariş verməliyik".

Mirzə Bala M.Quliyevin bu mövqeyini kəskin tənqid edir, cəmiyyətdə ədəbiyyatın yeri və rolu barədə mövcud rejimin təbiətindən və tələbindən irəli gələn fikirləri alt-üst edir. Mustafa Quliyevin "Azərbaycan proletar ədəbiyyatının inkişafını təmin edən yol Oktyabr inqilabının yaratdığı rus ədəbiyyatı qapılarıdır" qənaətini kəskin qınayan Mirzə Bala "Moskva uşağı"nın "Moskvaya getmək, Moskvada oxumaq, ...rusca düşünmək və ruslar kimi yazmaq" ideyasını məzəmmət edir.

"Proletar ədəbiyyatı" adlı yazısı özünəməxsus dili, üslubu və sənətkarlığı ilə yadda qalır. Məqalə belə başlayır: "Ə.Cavadın vaxtilə müəllim işlədiyi məktəbin bir şagirdinin dəftərinə 7-lik vəzn üçün misal yazdığı

"Çoxdandır ayrı düşdüm,
Üç boyalı bayraqdan.
Ay dostlar, mən yoruldum,
Bu gizli ağlamaqdan"

misraları ilə başlayır. Mirzə Bala yazır: "Gənclər də onu (bu misraları - A.T.) dəftərdən-dəftərə yazmış, gənc kommunist şairlər ona bənzətmələr yaratmışlar, bu surətlə Ə.Cavad bəy "sosializmin bütün uğurlarına rəğmən – kommunist gəncləri müsavatizmlə zəhərləməyə müvəffəq olmuşdur".

Mirzə Bala S.Rüstəmin "Ələmdən nəşəyə" şerindəki gülüşləri "saxta", müəllifin "mən ağlamıram, mən gülürəm", "mən xalqımın dili ilə danışıram" ifadələrini "yalan" adlandırır, Azərbaycanda dağların, daşların da mərsiyə söylədiyi bir zamanda "qızıl cəlladlara mədhiyyə yazmaq yolunu" tutduğunu acı təəssüflə qeyd edir.

M.Quliyevin, Ə.Nazimin, Sanılının bolşevik mətbuatında, xü-

susilə "Kommunist" qəzetində dərc olunan məqalələrindəki görüşlərini kəskin tənqid atəşinə tutan Mirzə Bala ədəbi mühitdəki mövcud şəraiti "ciddi faciəli bir vəziyyət" adlandırır. Bu mövzuya yenidən qayıdan Mirzə Bala yazır ki, "Odlu yurd"un əvvəlki nömrələrində dərc edilən materiallar "Azərbaycan proletar yazıçılarını ciddi əsəbiləşdirmişdir". Onlar "Daxildə və xaricdə düşmən ölməmiş hələ, Bizə hər addımda qurmaq istəyir tələ" - deyə fəryad qoparırlar. Bir sıra Azərbaycan sovet şair, yazıçı və tənqidçilərinin məqalə və çıxışlarına istinad edərək onların təhdidedici, xalqa və ədəbiyyata xidmət etməyən mövqelərini pisləyən Mirzə Bala Ə.Cavad, A.İldırım, C.Cabbarlı yaradıcılığını yüksək dəyərləndirir.

"1920-ci ildən 1930-cu ilin aprelinədək Azərbaycan minlərlə qurban vermişdir. Rusiyanın buzlu cəhənnəmlərinə hər il qiymətli övladlarını qurban göndərərək Azərbaycan bu on il müddətində rus xəzinəsinə milyardlarla sərvət vermişdir" kimi cümlələrlə başlanan "On illik istismar" (470) adlı yazıda Mirzə Bala Moskvanın Azərbaycan iqtisadiyyatını sümürdüyünü, talançılığını konkret faktlarla sübut edir.

Onun "Kəndlini əzmək siyasəti" (472), "Kəndli və inqilab" (480) məqalələri də rejimin ifşasına, "Başdöndürücü müvəffəqiyyətlər" (473), "Beşillik plan haqqında" (477) yazıları sovet iqtisadiyyatının çürüklüyünə, perspektivsizliyinə həsr olunmuşdur.

Mirzə Balanın bütün irsində bolşevik mətbuatının tənqidi, bu nəşrlərin partiya-sovet aparatının tərkib hissəsi kimi rejimin və onun ideologiyasının köləsi olduğunun faş edilməsi mühüm yer tutur. Bu cür məqalələrində müəllif bolşevik mətbuatının özünə istinad edərək, ondan faktlar və misallar gətirərək, dərin, dolğun təhlillər aparır, haqlı olduğunu sübut edir, oxucunu inandırır. "Yeni türk əlifbası və bolşevik mətbuatı" (458) adlı yazısında Mirzə Bala göstərir ki, 6 il bundan əvvəl Azərbaycanda latın əlifbasının qəbulu müzakirə edilərkən, milliyyətçilərin nə üçün müxalifətdə olduqlarını "Azəri-türk" məcmuəsinin 18-ci nömrəsində yazmışdıq. O, zaman bu fikirdə idik ki, Azərbaycanın təkbaşına yeni əlifbaya keçməsi "milliyyətpərvər Türkiyədən ilham alan azərbaycanlı milliyyətpərvərlərin onlardan uzaqlaşmasına" səbəb olacaqdır. Lakin hazırda - Türkiyənin yeni latın əlifbasına keçdiyi vaxt biz də Azərbaycanda bu əlifbanın tətbiqini alqışlayırıq. Bolşevik mətbuatı isə Türkiyənin yeni əlifbaya keçməsini qısqanclıq və kinlə qarşılamışdır. "Bakinski raboçi" bu münasibətini gizlədə bilməmiş və 1929-cu ildə yazmışdır ki, Türkiyə də 1928-ci il yanvarın birindən etibarən latın əlifbasına keçmişdir. Qəzetə görə, onlar bunu zorla tətbiq etmişlər: "Avqustda danışdılar, sentyabrda qərar verdilər, yanvarda da bütün qəzetlər latın əlifbası ilə çıxmağa başladı". Bolşevik mətbuatının bu qərəzli münasibətini tənqid edən Mirzə Bala onların dəlillərini alt-üst edir, Türkiyənin bu addımını alqışlayır, bildirir ki, Azərbaycan istiqlalının bayraqdarı - Müsavat özünün bütün üzvlərinə "Türkiyədə qəbul olunan əlifbanı müştərək türk əlifbası kimi öyrənməyə məcbur olduqlarını" bəyan etmişdir.

Mirzə Bala Azərbaycanın ictimai, mədəni, iqtisadi, siyasi həyatında silinməz iz buraxmış müsavatçılığın "... bu gün də cəmiyyətin təbii və həyati ehtiyaclarını, istək və dileklərini ifadə və təmsil edən hakim qüvvət olduğunu, hətta bolşeviklərin də dəfələrlə "bu firqənin qüvvət və əhəmiyyətini elan və etiraf etməsini" göstərir, bununla bağlı bolşevik mətbuatında verilən materialları təhlil edir, ona münasibətini bildirir ("Müsavatçılar və kommunistlər" (462). Məqalədə əvvəlcə Müsavatın tarixinə, mübarizə yoluna nəzər salan müəllif bu partiyanın ideyasını, proqram və məramını dəyərləndirmək üçün M.Ə.Rəsulzadənin 1919-cu ildə yazdığı "Azərbaycanın təşəkküründə Müsavat" adlı əsərindən asağıdakı sitatı gətirir: "Bundan sonra Azərbaycana hakim olacaq qüvvət Müsavat olmaya bilir, fəqət müsavatçı olması zəruri və məcburidir". Mirzə Bala sonra 1920-ci ildən bəri bolşeviklərin dəfələrlə müsavatizmin öldüyünü, iflas etdiyini, az keçməmiş bu ideyanın hələ də qaldığını etiraf etdiklə-

rini sovet mətbuatına istinadən bildirir. "Kommunist", "Bakinski raboçi", "Zarya Vostoka" kimi qəzetlərin Müsavata hücum edən məqalələrinə münasibət bildirən Mirzə Bala yazır ki, kommunistlərin ən irəli gələnlərinin - Əliheydər Qarayev, Mustafa Quliyev, Sultan Məcid Əfəndiyev, Əli Kərimov, Zakirov, Əli Yaqubov, Əhməd Bedi və digərlərinin yazıları onların bu ideyadan nə qədər qorxduqlarına dəlalət edir.

Mirzə Balanın bolşevik mətbuatının tənqidinə həsr etdiyi çoxsaylı məqalələrində sovet seçki sistemi, fəhlə və kəndlilərin işgəncələrlə dolu həyatı, ədəbi, mədəni sahələrin bərbad vəziyyəti Azərbaycanda və Moskvada nəşr olunan qəzetlərdən alınan faktlar əsasında təhlil və tənqid olunur. Bu yazılar həmin vaxt ideoloji mübarizə və əks təbliğat üçün yaxşı material idisə, bu gün həm mücadilə yolunu, həm də Azərbaycan tarixinin həmin dövrünü öyrənmək baxımından faydalıdır. Böyük qələm sahibinin xalqın taleyində ağır, kədərli iz buraxmış 1918-ci il 31 Mart hadisələrinə, ümumiyyətlə, Azərbaycan tarixinə, xüsusilə istiqlal tarixinə dair yazdığı sanballı məqalələr də bu gün aktual və əhəmiyyətlidir:

"On iki il əvvəl Azərbaycan xalqının rəy və istəklərinə tərcüman olaraq elan edilmiş olan Azərbaycan istiqlal və cümhuriyyəti bu gün on minlərlə qurbanlara, əzmindən dönməyən atəşin mübarizlərə, əlindən silahı buraxmayan mücahidlərə, məzlumlara, şəhidlərə ..., qəhrəmanlara, bir sözlə, istiqlalını almaya əzm etmiş ölən, qurbanlar verən, qanlar axıdan bir millətə malikdir... Əgər Azərbaycan istiqlal fikri xalqdan doğmuş, xalqın harsi (mədəni - A.T.) həyat və xüsusiyyətinin təbii və zəruri bir tələbi isə, əgər xalq bunun xaricində heç bir həyat, heç bir səadət təsəvvür etmirsə, əgər Azərbaycan xalqı yeganə həyat və səadəti istiqlal və onun üç rəngli bayrağının altında düşünürsə, o zaman xalqın ölüm-dirim məsələsi qədər mühüm olan bu istiqlal fikri üzərində israr etməsi, inad göstərməsi, ölməsi, fəqət əzmindən dönməməsi lazım gəlir" (105, №16, 26 may 1930. "28 May").

"İstiqlal"ın bir sıra yazılarında ("Mücadilənin taktikası" (75, 1932, №3), "Yenilməyən bir qüvvət" (75, 1932, №5), "İntiqam günü" (75, 1932, №8), "İman günü" (75, 1932, №10), "Münəvvər mühacirin borcu" (75, 1932, №15), "Rədd olsun, işğal" (75, 1933, №33), "Milli bir gün" (75, 1934, №47) və s.) 28 may - Azərbaycanın istiqlal günü, şanlı bir tarix, 27 Aprel isə kədərli bir gün-milli matəm kimi xatırlanır, doğma yurdun yenidən istiqlala qovuşması üçün hər bir mühacirin vətən borcu yada salınır, onun ideoloji mübarizədə fəal iştirakının zəruriliyi göstərilir.

"Mücadilənin taktikası" məqaləsində müəllif yazır ki, Azərbaycan başda olmaqla Qafqazın hər tərəfindən gələn xəbərlər olduqca həyəcanlı və əndişəlidir. Qanlı istila rejimi xalqı cana gətirmiş, hər tərəfdə müqavimət və üsyanlar davam edir. Kəndlilər bir tərəfdən hökumətə ərzaq vermir, digər tərəfdən, fürsət düşdükcə, hökumət və fırqə məmurlarına hücum edirlər. M.Ə.Rəsulzadənin fikrincə, belə bir şəraitdə mücadilə taktikası dəyişdirilməli, ən əvvəl bütün Qafqaz millətləri ümumi düşmənə - bolşevizmə qarşı müştərək hərəkət etməlidir. Digər tərəfdən isə "müsəlləh müqavimət və mücadilə həmlələri üçün münasib şərait seçilməlidir".

"İntiqam günü" adlı məqalə əvəzsiz nemət olan istiqlal fikri, ideyası, məfkurəsi ilə təmiz, ülvi, müqəddəs hisslərin vəhdətindən doğan bir yazıdır: "27 Aprel. Qara gün. Dərs verən bir fəlakət. Milli matəm. Düşmənin günü. Qırmızı yalan. Unudulmayan bir zərbə. Sızlayan bir yara" - deyə sonsuz kədərlə yazan müəllif göz yaşları içərisində itib-batmır, bu ələmin nəşəyə çevriləcəyi günə inanır və onun uğrunda mübarizə aparır.

"Münəvvər mühacirin borcu" adlı məqaləni ziyalı mücahidin yaddaş kitabı, iş fəaliyyət proqramı hesab etmək olar. M.Ə.Rəsulzadənin fikrincə, mühacir eyni zamanda vətənçi bir mühəndis, milliyyətçi hüquqşünas, istiqlalçı bir iqtisadçı və s. olmaq vəzifəsinə mükəlləfdir. 30-cü illərdə qələmə aldığı bu yazı ilə müəllif sanki sonrakı prosesləri duyur, görür və xəbərdarlıq edir-

di: "Münəvvər mühacir gənclərimiz hər şeydən əvvəl vətənpərvərlik dərsini öyrənməli, vətən və milli hissini özündə tərbiyə etməli və tarixi dəqiqəsi gəldiyi zamanda bilikli bir mücadiləçi və yaradıcı ideyası ola bilsin". Müəllif yazır ki, münəvvər mühacirlər vətən borcunu öz əsərləri, əməlləri ilə meydana qoymalıdır. Bu zaman isə onlar istiqlal yolunu bizdən əvvəl keçmiş millətlərin mühacirlərinin təcrübəsindən faydalanmalıdır.

Mühacirlər yaşadıqları və digər xarici ölkələrdə, habelə Sovet İttifaqında, o cümlədən Azərbaycanda ölkəmizlə bağlı məqalələri, nəşrləri diqqətlə, maraqla izləmiş, ona dərhal münasibət bildirmişlər. Mühacirət mətbuatı tarixində belə faktlar çox olmuşdur.

"İstiqlal" qəzeti sovet, əcnəbi və həmçinin mühacir müəlliflərin Azərbaycanla əlaqədar digər nəşrlərdə çap olunan yazılarına bir qayda olaraq münasibət bildirmişdir, demək olar ki, hər nömrəsində bu qəbildən yazılar dərc etmişdir. M.Ə.Rəsulzadənin "Görmədikləri fil" (570), "Köhnə nəqarat" (573), "Haqq da, ümid də bizdə'' (574) və başqa məqalələri bu mövzudadır.

M.Ə.Rəsulzadə yaradıcılığında müxtəlif xadimlərin həyat və fəaliyyətlərinə, xatirəsinə həsr edilən xeyli miqdarda yazılar vardır. O, bu qəbildən olan bir neçə yazısını, o cümlədən türk dünyasının iki böyük siması I.Qaspiralı və H.Zərdabiyə həsr etdiyi "Ortaqlı bir ildönümü" (579), həmçinin mühacir həmvətənimiz Ş.Rüstəmbəylinin fəaliyyətilə bağlı "Şəfibəyçilik" (585) adlı məqalələrini "İstiqlal"da dərc etdirmişdir.

"Ortaqlı bir ildönümü" adlı məqalədə türk xalqlarının taleyində parlaq iz qoymuş iki qüdrətli qələm sahibinin, naşirin, tərəqqi, mədəniyyət və maarif carçısının əvəzsiz tarixi xidmətlərindən bəhs olunur.

"Şəfibəyçilik" isə ağrılı bir problemə - hələ 20-ci illərin sonlarından Azərbaycan mühacirləri arasında yaranmış ixtilafa, onun səbəb və mahiyyətinə, ondan xilas olmanın yollarına həsr edilmişdir.

Xüsusilə "İstiqlal" qəzeti ilə sıx əməkdaşlıq edən Mir Yaqub Mehdiyev məqalələrini bir qayda olaraq "dr. Mir Yaqub", yaxud "Mir" imzası ilə dərc etdirmişdir. Mir Yaqub Mehdiyev "İstiqlal"da "Sovet maliyyəsinin tənəzzülü" (436), "Sovetlər və Uzaq Şərq məsələsi" (437), "Qafqazın faciəsi" (438), "Sovet bəyannamələri" (446), "Hərb təhlükəsi" (450) kimi müxtəlif mövzularda maraqlı yazılar dərc etdirmişdir. Bu məqalələr daha çox dərin təhlili, inandırıcı mühakimələri ilə yadda qalır.

Fikrimizcə, dr. Mir Yaqubun qələmə aldığı "Milli hərəkat və milliyyət məsələsi" (434) əsəri nəinki onun, eləcə də bütövlükdə mühacirət irsinin ən diqqətçəkən nümunələrindəndir. Bu məqalə "İstiqlal"ın bir neçə nömrəsində çap olunmuşdur.

Yazıda milli hərəkat tarixinə nəzər salınır, Fransa, Almaniya, Ingiltərə və b. Avropa ölkələrində milli hərəkatın meydana gəlməsindən, inkişafı və nəticələrindən, Qafqazda, o cümlədən Azərbaycanda mədəni oyanışdan, istiqlal uğrunda mübarizə tarixindən ətraflı bəhs olunur. Hesab edirik ki, bu silsilə məqalələri toplamaq, ayrıca kitab şəklində nəşr etmək faydalı olardı.

Miralay İsrafil və Hilal Münşi də "Istiqlal"ın fəal yazarlarından olmuşdur. Birinci daha çox Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu, onun uğurları, problemləri, zabitləri haqqında "Azərbaycan ordusu haqqında xatirələr" (365), "Pilsutskidən bir dərs" (366) yazırdı, ikincidə mövzu çoxşaxəli və rəngarəngdir. Hilal Münşi gah beynəlxalq həyatdan "Almaniya böhranı" (533), "Iran və sovetlər" (535), "Ingiltərə və sovetlər" (536), "Almaniya və sovetlər" (538), dərin analitik siyasi məqalələr yazır, gah sovetlərin Azərbaycandakı siyasətini tənqid edir "Bolşeviklərin Azərbaycan təbliğatı və D.Bünyadzadənin "elmi kəşfləri" (532), "Azərbaycan neft sənayesi" (537), gah da istiqlal tarixi ilə bağlı materiallar çap etdirir. "28 May" (531), "Millət yoludur, haqq yoludur" (534). Mövzu müxtəlifliyinə baxmayaraq, digər müəlliflər kimi Hilal Münşinin yazılarını da bir ideya, amal birləşdirir: istiqlal.

2.2. İstiqlal və istiqlal qəhrəmanları

Mühacir nəşrlərin "Yeni Qafqasya"nın vaxtilə toxunduğu mövzular bu gün də aktualdır və böyük elmi-tarixi əhəmiyyət kəsb edir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra rejimin və ideologiyanın tələbi ilə tarix də saxtalaşdırılmağa başlandı. Azərbaycan Xalq Cümhuriyyəti xalqa zidd dövlət kimi tənqid atəşinə tutulur, 1920-ci il aprel inqilabı isə mədh olunurdu. İş o həddə çatmışdı ki, 1918-ci il martın 31-də ermənilərin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlar əksinqilabçı qüvvələrlə mübarizə kimi təqdim edilirdi. Bax, belə bir dövrdə həqiqəti yalnız "Yeni Qafqasya" söyləyirdi. Mart qırğınının dəhşətlərinə, əsl mahiyyətinə, törədilməsi səbəblərinə, şanlı türk ordusunun Bakıdakı və Azərbaycanın digər bölgələrindəki erməni-bolşevik quldurlarını darmadağın etməsinə, 28 Maya - istiqlal gününə, 27 Aprelə - işğal və matəm gününə dair jurnalda dərc edilən yazılar həmin dövrdə ideoloji mübarizəyə, ictimai rəyin düzgün formalaşdırılmasına xidmət edirdisə, bu gün mötəbər mənbə, tarix üçün zəngin xəzinədir.

1918-ci ilin 15 sentyabrında Qafqaz İslam Ordusunun Bakını düşmənlərdən azad etməsi "Yeni Qafqasya"dan başlayaraq, bütün mühacirət mətbuatının tez-tez müraciət etdiyi, xatırladığı mövzulardandır. "Yeni Qafqasya"nın bir nömrəsində bəzən bir neçə material şanlı 15 sentyabr gününə həsr olunurdu. Jurnalın 1927-ci il 15 sentyabr tarixli 24-cü (93) nömrəsindəki "15 sentyabr" adlı məqalə belə başlayır. "Türkiyə bir neçə gün əvvəl 9 sentyabrı bayram etdi. Bu tarixi gün qardaş ölkənin həyatında nə qədər əlamətdardırsa, 15 sentyabr da kiçik Türkiyənin (Azərbaycan nəzərdə tutulur - T.A.) tarixində o qədər əhəmiyyətlidir" (53). Məqalədə daha sonra türklərin milli-azadlıq hərəkatı tarixinə nəzər salınır, paralellər aparılır. Müəllif yazır: "9 sentyabr tarixi bizi yalnız sevindirirsə, 15 sentyabrda biz həm sevinir, həm də kədərlənirik. Ona görə sevinirik ki, iki qardaş

türk xalqının birləşmiş düşmənə qarşı zəfərli döyüşü göz önünə gəlir. Ona görə kədərlənirik ki, Azərbaycan öz müstəqilliyini itirdi. Çəmbərəkənddəki şəhid məzarlığı taleyin ixtiyarına, düşmənin tapdağına buraxıldı. Bakı yenidən düşmən əlinə keçdi" (53).

M.B.Məmmədzadə jurnalın həmin nömrəsində dərc etdirdiyi "Bakının azad olunması uğrunda döyüş - 15 Sentyabr qələbəsi" adlı yazısını öz publisistikasına xas obrazlı, təsirli, düşündürücü cümlə ilə başlayır: "15 sentyabr 28 May qədər tarixi və müqəddəs bir gündür". Müəllif daha sonra Bakıda və Azərbaycanın bütün bölgələrində ermənilərin törətdikləri vəhşilikləri yazır, şanlı türk süngüsünün qüdrətini tərənnüm edir.

Jurnalın həmin nömrəsində 15 sentyabrla bağlı Türkiyə mətbuatında verilən nümunələr diqqəti çəkir, "Tərcüman-həqiqət", "Tanin", "Vaxit", "İqdam", "Əqdam" qəzetlərində dərc olunmuş materiallar göstərir ki, Türkiyə ictimaiyyəti də bu tarixi, şanlı günə əhəmiyyət verir.

İstiqlal və istiqlal qəhrəmanları "Azəritürk"ün aparıcı mövzularındandır. Bu mövzudakı yazılarda bir tərəfdən istiqlal dövrü, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi yazılır, həyata keçirilən islahatlardan, uğurlardan bəhs olunur, 28 Mayın və 15 Sentyabrın Azərbaycan xalqının tarixində və taleyində oynadığı əvəzsiz roldan danışılır, digər tərəfdən, ayrı-ayrı görkəmli xadimlərin xatirəsi yad edilir, xidmətləri dəyərləndirilir.

"10 illik əzm və cihad", "Şamxor: 10 ilə aid xatirə", "Azərbaycan ordusu haqqında", "İstiqlal dövri xatirələri: 1920-ci ildə Qarabağda niyə azəri qanı töküldü?" (34, 28 may 1928, №9), "Azərbaycanın istiqlal gününün qeyd olunması" (34, 1928 №10), "Milli zəfərimizin 10-cu ildönümü", "15 Sentyabr münasibətilə" (34, 1928, №16), "Milli mücadiləmizin qüvvəsi" (34, 1928, №14), "İstiqlal davası və gənclik" (34, 1930, №1 (30) və s. kimi məqalələr bu gün də maraqla oxunur və böyük əhəmiyyət kəsb edir. Sonuncu yazı həm mövzusu, həm də məsələyə

yanaşma tərzi və təhlili ilə diqqəti cəlb edir.

M.Ə.Rəsulzadənin "15 illik əzm və cihad" adlı yazısında deyilir: "1918-ci il 28 May, 1928-ci il 28 May. On illik bir dövr Milli Azərbaycan tarixinin ən zəngin və ən rəngin bir dövrüdür. Qanlı, fəqət şanlı bir dövr. Bir dövr ki, bir tərəfdən zəfərlər və səadətlər, digər tərəfdən də hezimətlər (məğlubiyyətlər - A.T.) və fəlakətlərlə doludur. Fəqət, zəfərlərində, səadətlərində olduğu kimi, fəlakətlərində də müştərək bir cəhət vardır. Mücadilə, istiqlal mücadiləsi. Məfkurə və məfkurəçiləri, mübariz və şəhidləri mövcud bir mücadilə (548).

M.Ə.Rəsulzadənin qələminin gücü ilə son dərəcə ciddi, problematik mövzu oxucuya təsirli, poetik bir tərzdə təqdim olunur: "Bəli, 28 May, Azərbaycan xalqının milliyyət dövründən millət dövrünə keçdiyini təsbit edən bir tarixdir. Bu tarixdən etibarən Azəri türk xalqı ötədən bəri bəslədiyi milli məfkurəni, tamamilə təbəllür (təzahür, reallaşdırma mənasında - A.T.) etdirmiş, hər nəyin bahasına olursa da, öz həyatını yaşamağa və yalnız özünə tabe olmağa əzm etmişdir. Milli həyatla yaşamaq, milli hakimiyyətə tabe olmaq, istiqlal, bax budur! İstiqlal qaranlıq səmamızda parlayan bir ulduz. Elə bir ulduz ki, çarizmin milliyyətimizi təhqir ilə bəşəri hüqugumuzu rədd edən qaranlıq idarəsini, vətəni haqlarımızı inkar ilə insani duyğularımızı alçaldan mənfur rejimini arxada buraxaraq, gözlərimizi doğan hürriyyət günəşinin zərrin şölələrinə, milli həyatın işıqlı günlərinə doğru tevcih edir" (yönəldir - A.T.) (yenə orada).

M.Sisyanlı imzası ilə təqdim olunan məqalədə milli Azərbaycan hökuməti süqut etdikdən sonra ölkədəki gənclərin və xaricdəki mühacirlərin vəziyyəti və vəzifələri işıqlandırılır. Müəllif kədərlə bildirir ki, "daxildə olanları susdurmaq üçün başlarının üzərində qanlı bir satır (bıçaq - A.T.) asılmışdır". "Lakin vətəncüda düşüb xaricdə, istər istiqbala hazırlaşmaq üçün sadəcə təhsillə məşğul olanlar və istərsə də, sırf milli qurtuluş üçün çalışanlar olsun, bunların qarşılaşdıqları müşkilat o birilərinkindən aşağı deyildir". Müəllif 1925-ci ildən İstanbulda fəaliyyətə başlayan "Azəri türk Gənclər Birliyi"nin fəaliyyətinə toxunur, onun qarşısında duran konkret vəzifələri göstərir. Bir rus mühacirinin sözlərini xatırladaraq yazır ki, tarix bizdən mühacirət dövründə nə etdiyimizi soranda cavabda acizlik göstərməmək üçün bu gün heç olmazsa, gənclərin tərbiyəsi ilə məşğul olmalıyıq. Müəllif bununla bir tərəfdən mühacirləri fəallığa, digər tərəfdən, öz aralarındakı ixtilaflara son qoymağa səsləyirdi. M.Sisyanlı sonda arzusunu, istəyini belə ifadə edir: "Təmənni edəlim ki, artıq bütün qəzəb, kin, hiddət və şiddət düşmən cəbhəsinə tuşlansın".

Bu arzu, məram təsadüfi deyil. Axı Azərbaycan mücahidlərinin qarşısında müqəddəs, şərəfli və çətin vəzifələr durur. Onlar əmindirlər ki, bolşevizmə qarşı amansız mücadilə Azərbaycanı yenidən istiqlala qovuşduracaqdır: "Azərbaycan 28 Mayda doğuldu, fəqət 27 Apreldə ölmədi. İyirmi yeddi aprel ölümün başlanğıcı deyil, böyük imtahan dövrünün açılışıdır. Bu dövrə uzandıqca, Azərbaycan böyüyür, qüvvətlənir, istiqbala daha mükəmməl şəkildə hazırlanır" (368).

"Yeni Qafqasya"da olduğu kimi, "Azəri türk" məcmuəsindəki publisistik yazılarda da analitik təhlil, mövzuya dərindən nüfuz etmək məharəti nə qədər güclüdürsə, sabaha - millətin istiqlala qovuşacağı günə inam da o qədər qüvvətlidir: "Hər azəri tərbiyəsini, bədii zövqünü içində yaşadığı cəmiyyətin vicdanından alır. Ruhunu pozmaq istəyən zəhərli fikirlərə qarşı milli ruhunda mündemiq (olan-A.T.) panzəhiri (zəhəri zərərsizləşdirən kütlə - A.T.) ilə mukabelə edir (qarşılayır - A.T.). Onun yeganə həsrət və iştiyakı (güclü istək, arzu - A.T.) 11 il əvvəl 28 May 1918-ci ildə elan etdiyi haqqına malik olmaqdır" (34, 1929, №25). Başqa bir nümunədə də həmin inam öz parlaq əksini tapmışdır: "Rusiyanı yıxacağıq. Bu düşmən gücü istər ağ, istərsə qırmızı olsun, hüdudlarımızdan kənara qovacağıq. Bu davamızın birinci dəlili tarix, ikinci dəlili təkrar edən iyirmi yed-

di aprellərə rəğmən yaşayışımız və zində (diri, sağ - A.T.) qalmağımız, üçüncü dəlil isə acı təcrübələrdən təmin etdiyimiz, istifadə ilə çoxalan müqavimətimiz və parlayan həyati qabiliyyətimizdir" (368) 1928, №7).

İstiqlal dövrünə, Xalq Cümhuriyyətinin islahatlarına, Azərbaycana aid yazılar yaxın tariximizin obyektiv, qərəzsiz qələmə alınması üçün dəyərli mənbələrdir.

Həmin dövrün fədailəri, görkəmli ictimai-siyasi, dövlət xadimləri haqqındakı publisistik yazılar bir tərəfdən xalqın tarixində və taleyində böyük rol oynamış şəxsiyyətləri dəyərləndirmək, digər tərəfdən, gənclərin vətən və millətpərvərlik tərbiyəsinə güclü təsir etmək baxımından faydalıdır. Azərbaycan tarixinə şanlı səhifələr yazmış və özünün fədakar fəaliyyəti ilə istiqlal tariximizdə əbədiləşmiş Nəsib bəy Yusifbəylinin Xalq Cümhuriyyəti dövründəki "Azərbaycan vətəndaşlarına" adlı xitabı jurnalda çap olunmuşdur (34, 28 may 1928, №9). Miralay İsrafil bəyin Azərbaycan ordusu haqqındakı xatirələri də təsirli və maraqlıdır (365).

Mirzə Balanın "Fətəli xan Xoyski" (34, №10, 15 iyun, 1928), "Doktor Həsən bəy" adlı publisistik materialları son dərəcə dəyərlidir. Peşəkar qələm sahibi tərəfindən yazılmış bu məqalələrdə oxucu ömrünü xalqına həsr etmiş istiqlal aşiqlərinin canlı portreti ilə tanış olur. Yeri gəlmişkən qeyd edək ki, müstəqil Azərbaycanda, Şərqdə ilk dünyəvi, demokratik dövləti - Azərbaycan Xalq Cümhuriyyətini quranların adlarının əbədiləşdirilməsi üçün müəyyən tədbirlər görülmüşdür.

Həyata keçirilən işlər təqdirəlayiq olsa da, qənaətbəxş deyildir. Fətəli Xan Xoyskinin anadan olmasının 120 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması üçün respublika prezidenti 1995-ci ilin dekabrında müvafiq fərman imzalamışdır. Tədqiqatçı f.e.n. Asif Rüstəmli haqlı olaraq yazır: "Azərbaycanın tarixində, taleyində, dövlətçiliyində əvəzsiz xidmətlər göstərmiş şəxsiyyətlərin yubiley və xatirə günlərinin qədirbilən

xalqımız tərəfindən unudulması mümkünsüzdür" (111). Görünür, elə bu səbəbdəndir ki, 74 il bundan əvvəl böyük qələm sahibi Mirzə Bala mühacirətdə ikən Fətəli Xan Xoyski haqqında ürək dolu və məhəbbətlə yazmışdır. Məqalədə deyilir: "Vətənimizin qızıl rus imperializmi tərəfindən istilası üzərinə Azərbaycanı tərk edərək, Tiflisdə istiqlal davasını idamə (davam - A.T.) etdirməkdə ikən, mövcudiyyətinə, zəka və istedadına bu qədər möhtac olduğumuz bir zəmanədə vətən və millətimizin qaniçici tarixi düşmənləri tərəfindən meydandan qaldırılan, həyatından uzaqlaşdırılan, siyasət və milli mücadilə səhnəsindən "Botanik bağ"ın qabağında yatmağa məcbur edilən Fətəli Xan nə üçün şəhid edildi? Hürriyyət və istiqlalımızın, hakimiyyət və milli dövlət həyatımızın amansız düşmənləri bununla nə qazanmaq istəmişlərdi?" Müəllif bu həyəcanlı suallara sabahkı müstəqil Azərbaycanın qurucularının cavab axtaracaqlarını təxmin edib özü cavab verir. Göstərir ki, millətçiliyimizin əsasını təşkil edən milli Azərbaycan mədəniyyətinin təsisi, təşəkkülü və təkamülü tarixində M.F.Axundovların, Həsən bəy Zərdabilərin, Nəcəf bəy və sairlərinin, milli inkişaf və təkamülün məntiqi bir nəticəsi olan 28 May istiqlalının elan edilməsində M.Ə.Rəsulzadənin, Nəsib bəy Yusifbəylinin, Həsən bəy Ağayevin rolları nə idisə, bir dövlət təşkilatı, bir dövlət mənzuməsi halında təşəkkül edən millətimizin, istiqlal dövründə Fətəli Xanın da rolu elədir.

Mirzə Bala yazır: "O, ilk dövlət təşkilatımızı quran, ilk hökumətimizi təşkil edən, ən böhranlı və təhlükəli zamanlarda dövlət gəmisini uğurla hədəfə doğru sövq edən ilk dövlət adamı, ilk dövlətçilik müəllimi, ilk dövlətçilik rəhbəridir".

Müəllif daha sonra Fətəli Xan Xoyskinin həyat yoluna nəzər salaraq yazır ki, heç bir partiya mənsubiyyəti olmayan Fətəli Xan "bütün siyasi təşkilatların sevimli və möhtərəm siması olaraq qalmışdır". Mirzə Bala Məmmədzadə Fətəli xanı "demokratik dövlət təşkilatının ilk nümunəsini vücudə gətirən, mənafe

və siyasi qayələri müxtəlif olan siyasi firqələri milli və vətəni mənafe ətrafında birləşdirərək necə qurula biləcəyini bizə müqəddəs bir xatirə olaraq buraxan", "Azərbaycan istiqlalına, xalq hakimiyyətinə, cümhuriyyət və demokratiya prinsipinə sadiq bir demokrat", "dövlət həyatının banisi, demokratik dövlət quruluşunun rəhbəri, Azərbaycanın ilk diplomatı, istiqlalın sarsılmaz müdafiəçisi, sülhün üzüdönməz aşiqi" deyə xarakterizə və təqdim edir.

Azərbaycanın ictimai-siyasi və mətbu həyatında parlaq iz qoymuş doktor Həsən bəy Ağayev haqqında da Mirzə Bala Məmmədzadənin qələmə aldıqları böyük maraq doğurur. Gəncədə doğulan, ilk təhsilini şəhər gimnaziyasında alan H.Ağayev 1901-ci ildə Moskva Universitetinin tibb fakültəsini bitirir. Gənc ikən siyasi fəaliyyətə başlayan H.Ağayev XX əsrin əvvəllərində Bakıda və Gəncədə çıxan dövri mətbuatda da fəal çıxış edir.

Böyük Nəsib bəy Yusifbəylinin (1881-1920) Gəncədə əsasını qoyduğu "Türk-ədəmi-mərkəziyyət partiyası"nın yaradılmasında H.Ağayevin xüsusi rolu olmuşdur. Həsən bəy 1917-ci ilin dekabrında təşkil edilmiş Zaqafqaziya Seyminin üzvü idi. Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra H.Ağayevin fəaliyyətində yeni mərhələ başlayır. O, 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinin sədr müavini seçilmişdir. 1920-ci il iyulun 19-da muzdlu qatilin gülləsi Tiflisdə H.Ağayevin həyatına son qoymuşdur.

Məqalədə Mirzə Bala Məmmədzadə H.Ağayevin istiqlal qəhrəmanı və qurbanı kimi parlaq obrazını yaratmışdır.

2.3. Mühacirət mətbuatında Qafqaz birliyi ideyası

Mühacir beynəlxalq birliklərin yaradılmasında və fəaliyyətində, həmin təşkilatların mətbu orqanlarında da Azərbaycan mühacirlərinin rolu və xidməti əvəzsiz olmuşdur.

Bir-birinə zidd mövqedə dayanmasına baxmayaraq, Azərbaycan mühacirlərinin beynəlxalq mühacir birliklərindəki fəaliyyəti iki istiqamətdə həyata keçirilirdi: onlar bir tərəfdən SSRİ-dən olan digər millətlərin mühacir təşkilatlarında (məs: Ukrayna, Belarus, Şimali Qafqaz, Gürcüstan, Türküstan, Moldova, İdil-Ural, Krım, Kareliya, İnqeriya, İnquşetiya, Komi, Kubanın da təmsil olunduğu "Prometey" (1926-1939) Birliyi, Rusiya Millətlərini Qurtarma Şurası (1951), Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi (1952-1953), Rusiya Məhkumu Millətlərin Qurtuluş Birliyi və s.), digər tərəfdən, Qafqaz xalqlarının birliklərində (Qafqaz İstiqlal Komitəsi (1927), Qafqaz Konfederasiyası Şurası (1935), "Azərbaycan-Dağlılar Birliyi və s.) sovetlərə, bolşevizmə qarşı ciddi ideoloji mübarizə, istiqlal uğrunda mücadilə aparırdılar. Bu gün Qafqaz birliyi ideyası daha aktual olduğundan və həm də vaxtilə daha çox mübahisə doğurduğundan, bu problem üzərində bir qədər geniş dayanmaq məqsədəuyğundur.

Hələ XX əsrin əvvəllərində - xüsusilə I Dünya müharibəsi zamanı mühacir azərbaycanlılar Qafqazın rus əsarətindən xilası uğrunda Rusiyanın digər türkdilli xalqları və digər Qafqaz millətləri ilə iş birliyi qurmuşdu: 1915-ci ildə Türkiyədə Şimali Qafqaz, Azərbaycan, Gürcüstan mühacirləri "Qafqaz Komitəsi", Yusif Akçuranın rəhbərliyi ilə "Rusiya məhkumu müsəlman türk-tatarlarının haqqını müdafiə Komitəsi" yaratmışdılar.

Adı çəkilən mühacir birliklər, habelə bir sıra mühacirlər, xüsusilə Ə.Ağaoğlu və Ə.Hüseynzadə Qafqazın rus istilasından xilası uğrunda gərgin iş aparır, müxtəlif ölkələrdə, beynəlxalq tədbirlərdə çar Rusiyasından ayrılmaq, Qafqaz Federasiyası qur-

maq niyyətində olduqlarını bəyan edirdilər.

Gürcüstan, Ermənistan və Azərbaycan öz istiqlallarını elan etdikdən sonra sanki bu ideya arxa plana keçdi, unuduldu. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin mühacirətdə olan bəzi liderləri sonralar opponentlər tərəfindən məhz bu ideyanı 1918-1920-ci illərdə gerçəkləşdirmədiklərinə görə də kəskin tənqidlərə məruz qalmışdılar.

Mühacirətdəki müxtəlif peşə sahiblərinin - müəllim, mühəndis, tacir, zabit və başqalarının "Azərbaycan" (Münhen) jurnalına ünvanladığı "Açıq məktub"da deyilirdi: "... azəri türkləri istiqlal savaşına girərək mübarək qanları bahasına 28 May 1918-ci ildə müstəqil Azərbaycan dövlətini qurdular və bu dövləti azad millətlərə də tanıtmağa müvəffəq oldular. Təəssüf ki, bu bağımsız məsum həyat yalnız iki il sürdü. Zamanın iqtidar partiyası "Müsavat" Qızıllarla çarpışan şimali qafqazlı qardaşlarımıza əsgəri yardım etmədi, sonra isə Vətənimizi - Azərbaycanımızı savaşsız bir ovuc bolşevik quldurlarına, parlamentdə səs çoxluğu ilə hədiyyə etdi. Müsavatçıların bu qorxaqlığı müstəqillik uğrunda axıdılan bütün qanları, çəkilən bütün zəhmətləri heçə çıxardı, bütün Qafqazın qapılarını Moskvaya açdı..." (14, oktyabr-dekabr 1953, №6-7, səh.42). Son dərəcə ağır, sərt ittihamlar olsa da, Qafqaz həmrəyliyinin əhəmiyyətini qabarıq əks etdirən sitatdır.

C.Hacıbəyli də yazırdı ki, vaxtilə Azərbaycan və Şimali Qafqazın birləşməsinə mane olanlar ... öz istiqlaliyyətlərinin düşmənlərinə çevrildilər. O "ümumi Qafqazın şimali qafqazlılar qarşısında tarixi bir borcları vardır" - deyə yazanda da, məhz haqqında bəhs edilən dövrü və hadisələri nəzərdə tuturdu.

Əvvəl də qeyd etdiyimiz kimi, azərbaycanlıların fəal iştirakı ilə mühacirətdə yaranan antisovet birliklər zahirən yeni təşkilat təsiri bağışlasa da, mahiyyət, məzmun, hətta forma baxımından çar Rusiyası dövründəki xaricdəki mühacir birliklərini xatırladır. Buna görə də mühacirətdəki antisovet birliklərinin müəyyən ta-

rixi kökü və təcrübəsi olduğunu desək, yanılmarıq. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, çar Rusiyasına qarşı birgə mübarizə fikri, Qafqaz xalqlarının birliyi ideyası XIX əsrin 30-cu illərində xeyli aktuallaşmış və xüsusi əhəmiyyət kəsb etməyə başlamışdı. Rusiyadakı və onunla bağlı regionlardakı ictimai-siyasi hadisələr, təbəddülatlar bu ideyanı bəzən qabartmış, alovlandırmış, bəzən də arxa plana keçirmiş, zəiflətmişdir. Şimali Qafqaz Milli Komitəsinin sədri, prof. Əhməd Nəbi Mağomaya görə, qafqazlıların nəinki ruslara, eləcə də digər yadelli düşmənlərə qarşı birgə mübarizəsinin tarixi daha dərindir. O yazır: "Qafqaz keçmişdə müxtəlif xanlıqlara, krallıqlara bölünmüşdü, fəqət xarici təhlükə qarşısında bunlar dərhal böyük ittifaqlar təşkil edir və düşməni müştərək qüvvələrlə qovurdular. Miladdan bir əsr əvvəl Pompeylə, IV əsrdə yunanlarla, VI əsrdə xəzərlərlə, XIII əsrdə monqollarla döyüşlərdə qafqazlılar birgə hərəkət etmişlər" (429). Göründüyü kimi, tarixi kökləri dərinə gedən Qafqaz birliyi ideyasının real gücə çevrildiyi və özünü doğrultduğu vaxtlar da olmuşdur. Sonralar - gürcülərin və ermənilərin xristianlığı, azərbaycanlıların və şimali qafqazlıların islamı qəbul etməsi ilə və xüsusilə daha sonralar Rusiyanın Qafqazı əsarət altına alması, regionda "parçala, hökm sür" şüarının həyata keçirilməsi ilə Qafqaz birliyi ideyası xoş bir arzuya dönməyə başladı. Sovet rejimi bu yaranı daha da dərinləşdirdi: saxta şüarlarla, sovet xalqı adı altında ruslar daha dərinə nüfuz etdilər, xalqlar arasında ayrı-seçkilik, nifaq mənbələri yaratdılar. Prof. Ə.Mağoma adı çəkilən məqaləsində yazır: "1921-ci ilin may ayının sonlarında bütün Qafqazın işğalı başa çatdı. Qırmızılar Qafqaz respublikalarının adlarını şəklən mühafizə etdilər. Yalnız Şimali Qafqaz bundan istisna edildi. Köhnə dövrlərin "parçala və hökm et" prinsipinə uyğun olaraq bu respublika bir neçə muxtar respublikaya, əyalətə bölündü və bütün iqtidar fe-lən Moskva tərəfindən təyin edilən müstəbidlərin əllərində toplandı" (yenə orada, səh.9).

Tarixi şərait Qafqaz mühacirlərini bir cəbhədə birləşməyə, bolşevizmə qarşı müştərək mübarizə aparmağa sövq edirdi: ilk addım 1921-ci ildə atıldı: Parisdə Azərbaycan, Gürcüstan, Ermənistan, Şimali Qafqaz mühacirləri birgə sənəd imzaladılar. 1928-ci ildə onlar Qafqaz İstiqlal Komitəsi (QİK) yaratdılar. 1934-cü ilin 14 iyulunda isə QİK-in Brüssel Konfransında iştirakçılar Qafqaz Konfederasiyası Paktını imzaladılar. Paktda nəzərdə tutulan məqsədə müvafiq olaraq, 1935-ci ildə fevralın 14-dən 25-dək davam edən konfransda Qafqaz Konfederasiyası Şurası yaradıldı. Şura Qafqazın gələcək taleyi ilə bağlı vəzifələri müəyyənləşdirdi. Şura Azərbaycan, Gürcüstan və Şimali Qafqazın Milli təşkilatlarının nümayəndələrini təmsil edirdi. Ermənistan mühacirləri növbəti dəfə Qafqaz birliyi ideyasına xəyanət etdilər və şuraya qoşulmadılar. Yeri gəlmişkən, bu barədə bir qədər ətraflı bəhs edək.

Qafqaz birliyi bu diyarda yaşayan bütün xalqların həyati mənafeyinə uyğundur. Lakin ermənilər Rusiyanın və bölgədə öz nüfuzunu saxlamaq istəyən digər dövlətlərin yardımına, vədlərinə uyaraq, bu birliyə aparan körpülərin demək olar ki, hamısını yandırmışlar: regiondakı digər xalqlara, xüsusilə azərbaycanlılara qarşı münasibətlərində düşmən mövqedən çıxış edən ermənilər qədim Azərbaycan torpaqları hesabına yaratdıqları Ermənistan Respublikasının sərhədlərini genişləndirmək yolunda ən çirkin vasitələrdən istifadə etmişlər, bu gün də edirlər. Bu mənada XX əsr Azərbaycan xalqının tarixində və taleyində daha ağır iz buraxmışdır: 1905 və 1918-ci illərdə ermənilər Bakı və Azərbaycanın digər bölgələrində dəhşətli qırğınlar törətmişlər. Ermənilərin həyata keçirdiyi qətliam nəticəsində on minlərlə dinc azərbaycanlı qanına qəltan edilmişdir.

Çar Rusiyasının, 1920-ci ildən isə Sovet hökumətinin şirniklərdirdiyi, himayədarlıq etdiyi Ermənistan Azərbaycan Respublikasının tarixi torpaqları hesabına öz ərazisini böyüdür və azərbaycanlıları ata-baba yurdlarından qovurlar. 1940-cı illərin sonu

50-ci illərin əvvəllərində, 80-ci illərin sonlarında Ermənistan SSR ərazisindən 100 minlərlə azərbaycanlı Moskvanın "xeyir - duası" ilə qədim məskənlərindən deportasiya olundu. Bu tarixi cinayətlər saysız-hesabsız dinc əhalinin qırğını, ağlasığmaz işgəncələri ilə müşayiət edilirdi. Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr də XIX əsrdə ingilis və rusların təlimatı və maddi yardımı ilə təsis olunmuş "Hınçak" və "Daşnaksütun" partiyalarının proqramlarının davamı və tərkib hissəsi idi. "Böyük Ermənistan" yaratmaq xülyası ilə məst olan ermənilər bu yolda bəşər övladının ağlına gəlməyən vəhşiliklər törətməkdən belə çəkinməmişlər. Azərbaycan ərazisində yüzlərlə günahsız insanın - körpənin, qocanın, qadının qətlinə səbəb olan terror aktları, XX əsrin ləkəsi - Xocalı faciəsi göstərir ki, illər, on illər ötsə də, ermənilərin düşüncə tərzi, insan qanı içmək hərisliyi eynilə qalır. Onlar əsrin əvvəllərində də azərbaycanlı qanı içirdilər, əsrin sonlarında da. Burada "içirlər" ifadəsini biləəkdən dırnağa almırıq. Çünki bu ifadə müstəqim mənada işlənmişdir. Bu barədə kifayət qədər tarixi faktlar, sənədlər, o cümlədən audio-video materiallar, fotoşəkillər və sair olsa da, yalnız bir mənbədən sitat gətirməklə kifayətlənəcəyik.

1922-ci ildən 1924-cü ilədək Qafqazda çalışmış amerikalı ingilis Leonard Ramsden Hartillin "Bir erməninin anılarında (xatirələrində-A.T.) Azərbaycan olayları: 1918-1922" adlı əsərində (697) müəllif erməni Ohanes Apresyanın söylədiklərini olduğu kimi qələmə alır: "Türkü süngüləyən erməni türkün vücudundan süngüsünü çəkib çıxardı. Süngünü dodaqlarına çəkdi. Türkün isti qanını yalayıb rusca "sladkiy, sladkiy" (dadlı, dadlı) deyə hayqırdı" (yenə orada, səh.188).

Kitabın "Giriş" hissəsində dr.Sipahi Çataltəpə yazır ki, Qafqazda yaşayan xalqların ortaq mənfəətləri naminə düşmənlik və dargınlıqları buraxaraq, mehriban qonşuluq əlaqələri və ortaq mənfəətlər hesabına sosial, siyasi və iqtisadi müstəqilliyə qovuşmaları ən başlıca diləyimizdir. Doğrudan da, tarix boyu er-

mənilərə himayədarlıq edən, ona dayaq, arxa olan türklər - azərbaycanlılar mənfur qonşularının bütün çirkin niyyət və əməllərinə rəğmən, yenə öz sülhsevərliyindən, xoş məramından əl çəkmir.

Ermənilər isə, hətta sovet rejimi və ideologiyasının hakim olduğu dövrlərdə də iki xalq arasında nifaq, düşmənçilik toxumu səpməkdən yorulmur, türklərə-azərbaycanlılara qarşı kin, küdurət, nifrət hislərini gizlətmir, məkrli niyyətlərini açıq-aşkar təbliğ etməkdən çəkinmirdilər. Con Kirakosyanın "Mladoturki pered sudom istorii" (707, 180) erməni xislətinin, xasiyyətinin məhsuludur. Ermənilər burada "əzabkeş", "məzlum" türklər isə "zalım", "zülm edən", "qəddar" kimi təqdim edilir. Digər tərəfdən isə müəllif erməni xalqına tarixi unutmamağı, qisas hissi ilə yaşamağı tövsiyə edir. Ümumiyyətlə, erməni təbliğat maşınının əsas məqsədi türkdən tarixi düşmən obrazı yaratmaqdır.

İnsan qanına susamış Andranik və onun xələflərinin "Daşnaksütun marşı"nda deyildiyi kimi: "Hərb istəyir, baharı gözləyir, nərə çəkərək hərb istəyir". "Hınçak marşı", "İstiqlala dəvət", "Ermənistanın fəğanı" və bu kimi yüzlərlə əsərdə də "ermənilər silah başına" və qisasa çağırılır (698).

Qafqazın birləşməsini ürəkdən arzulayan amerikalı musiqiçi Cefri Verbax bu yolda çalışmaqdansa, bu gözəl diyarı qan çanağına çevirən ermənilər öz özlərinin də düşməni adlandırır: "Qafqaz gözəl olacaq, vallah buraların tayı bərabəri olmazdı, əgər... (bu yerdə Cefri emosiyasını cilovlaya bilmir) - tfu onlara!" (100) C.Verbaxın ən böyük arzusu Qafqazın birləşməsidir, erməni təxəyyülünün xəstəliyi indi buna imkan vermir.

İkinci Dünya müharibəsi bitdikdən bir müddət sonra - soyuq müharibə dövründə - 1952-ci ilin dekabrında Münhendə Azərbaycan, Gürcüstan, Şimali Qafqaz nümayəndələri Qafqaz İstiqlal Komitəsini təsis etdilər. Təsis konfransında qəbul edilən bəyannaməni Azərbaycan tərəfindən Azərbaycan Milli Mərkəzinin sədri M.Ə.Rəsulzadə imzalamışdır.

Ümumiyyətlə, Qafqaz Konfederasiyası ilə bağlı M.Ə.Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Milli Mərkəzinin və Müsavat Partiyasının əvvəldən sonadək mövqeyi açıq, qəti və birmənalı olmuşdur. Onlar Qafqaz birliyi ideyasının qızğın tərəfdarı, təbliğatçısı rolunda çıxış etmişlər. Bu birliklərin qurultay, konfrans və digər toplantılarında, habelə mətbu orqanlarda Azərbaycan mühacirləri Qafqaz birliyinin mahiyyəti, tarixi əhəmiyyəti, perspektivi barədə çıxış edir, mübahisələrə qoşulur, öz mövqelərini əsaslandırırdılar.

Qafqaz birliyi ideyasını Azərbaycanın istiqlalı uğrunda ideoloji mübarizənin tərkib hissəsi hesab edən Azərbaycan mühacirləri birgə, təşkilatlanmış fəaliyyətlərinin ilk dövründən bu ideyanın alovlu təbliğatçısı olmuşlar. 1923-cü ildən nəşrə başlayan "Yeni Qafqasya" öz proqramında bəyan edirdi ki, o "... millətlərin Rusiya əsarətindən qurtulmasını və Rusiya istilasına qarşı müvəffəqiyyətlə durmasını təmin üçün Qafqazın konfederasiya şəklində birləşməsinin tərəfdarıdır". "Yeni Qafqasya"nın işini davam etdirən "Azəri türk" də öz proqramında "Qafqaz millətlərinin Rusiya əsarətindən qurtuluşuna və Rusiyanın istilasına qarşı birləşmələrinə" tərəfdar olduğunu yazırdı.

Müsavat Partiyası Mərkəzi Komitəsinin Xarici Ölkələr Bürosu 8 aprel 1927-ci ildə yazdığı bəyanatla "bütün qafqazlıları birlik və mücadiləyə" çağırırdı (102, 1962, №4, səh.32). Müsavat Partiyasının 1936-cı ilin avqustunda keçirilən konfransında müsavatçılığın ana əsasları və taktiki məsələlərə dair Proqram qəbul edilmişdir. Proqramda "Qafqaz konfederasiyaçılığının canlandırılması" tələb olunur (yenə orada, səh.33). Həmin sənədin "Xarici fəaliyyət sahəsindəki taktika" bölməsinin 3-cü maddəsində deyilir:

"Davamızın müvəffəqiyyət qazanması üçün görüləcək bütün beynəlmiləl təmas və təbliğatlarımızda siyasi Qafqaz birliyindən gələrək, Qafqaz Konfederasiyası baxımından hərəkət edilməli və əlaqədar mahfillərdə (toplantılarda - A.T.) qafqazlıların

ciddi bir birlik ehtiyacını haqqı ilə dərk etmiş olduqlarına dair bir fikir və qənaət doğurdulmasına səy etməlidir" (102, 1962, №4, səh.34). Kərim Odər "Müsavat ideologiyasında solidarizm" adlı elmi-nəzəri məqaləsində (yenə orada, səh.37-45) göstərir ki, "müasir dövrdə Avropa Birliyinin realizasiyonuna çalışılması və bu çalışmalarda ən ziyadə "müqəddərat birliyi" üzərində durulması Qafqaz Konfederasiyası ideyasına qüvvət verəcək bir örnək təşkil edir". Müəllif keçmişin acı təcrübələrindən nəticə çıxarmağın, utopik təmayüllərdənsə, realist hərəkətə üstünlük verərək Qafqaz Birliyinin gerçəkləşdirilməsinin zəruriliyini xüsusi vurğulayır. Müsavat Partiyasının 50 illiyi münasibətilə buraxılan bülletenin "Müsavat Partiyası və türkçülük məfkurəsi" (yenə orada, səh.58-59) adlı yazıda müəllif (Tahir Cağatay - Türkistan Milli Birliyinin başqanı) Qafqaz Konfederasiyası ideyası ilə türkçülük məfkurəsini üz-üzə qoyanlara bir növ cavab verir və yazır ki, Müsavat Partiyası bir tərəfdən, Qafqaz Konfederasiyası Konsepsiyasını, digər tərəfdən, türk cəbhəsi birliyi əsasındakı çalışmaları canlı bir şəkildə yürütməklə həyat qabiliyyətini bir kərə daha isbat etmişdir.

M.Ə.Rəsulzadə Parisdə 1930-cu ilin martında prometeyçilərin (burada rus və ermənilərdən başqa SSRİ-dən olan bütün mühacir təşkilatları təmsil olunurdu) qarşısında etdiyi məruzədə göstərirdi ki, Azərbaycanın siyasi xadimləri, o cümlədən Müsavat Partiyasının xadimləri heç bir real zəmin olmayan utopiya kimi romantik panturanizmə qarşı müxalifətdə durmuşdular. M.Ə.Rəsulzadə öz silahdaşlarına işarə vuraraq "Panturanizm və Qafqaz problemi" adlı məqalədə deyirdi: "Onların fikrincə, Qafqaz xalqlarının konfederasiyası şüarı Azərbaycanın və bütün türk dünyasının real həyati mənafelərinə daha uyğun gəlirdi" (108).

Maraqlı və diqqətçəkəndir ki, Qafqaz birliyi ideyası Azərbaycan siyasi mühacirətinin M.Ə.Rəsulzadənin lider olduğu qanadı tərəfindən birmənalı şəkildə dəstəkləndiyi, təbliğ olundu-

ğu halda, ən müxtəlif ideya və təşkilatları təmsil edən bir sıra şəxs və qruplar tərəfindən qətiyyətlə rədd olunurdu. Radikal millətçi, pantürkist və panislamist mövqedə duran qüvvələr Qafqaz Konfederasiyası ideyasını "türk siyasətinin ali mənafelərinə qarşı yönəldilmiş düşmənçilik aktı kimi" dəyərləndirir və bu ideyanın daşıyıcılarını "türk birliyinin düşmənləri sırasına" daxil edirdilər (108, 7). Məsələ burasındadır ki, bu qüvvələr "türk xalqlarının qan qohumluğunu, onların dillərinin müəyyən ümumiliyini, habelə onların yekcinsliyini əlverişli siyasi kombinasiya şəraitində vahid türk dövləti yaratmaq üçün kifayət hesab edirdilər" (yenə orada). "Tarix bizə, panislamizm və ya panturanizm siyasi sistemlərini müvəffəqiyyətlə tətbiq edilməsini göstərən bircə dənə də fakt və hadisə vermir" - deyə göstərən M.Ə.Rəsulzadə təkcə irqi birliyin vahid dövlətin yaranması üçün kifayət olmadığı qənaətinə gəlir və qeyd edir ki, dünyanın bütün türklərini əhatə etməli olan vahid dövlətin yaradılması ideyası da həmçinin həyata keçməz arzudur. M.Ə.Rəsulzadəyə görə, türk ideyalarından xalq kütlələrini inqilabiləşdirən və onları milli müəyyənlik və öz istiqlaliyyətini təsbit etmək uğrunda fəal mübarizə səhnəsinə çağıran ideologiya kimi panturanizm obyektiv olaraq mütərəqqi, öz növbəsində iti ucu ilə rus imperializminə və bədnam "vahid və bölünməz Rusiya" ideyasına qarşı yönəlmiş ideyadır.

İş burasındadır ki, türk düşmənləri pantürkizmi olduğundan daha qüdrətli, qüvvətli, təsvir və təqdim edir, onu şişirdir və Rusiya üçün real təhlükə hesab edirlər. "Turan dövləti"nin yaradılması ilə bağlı sovet publisistləri tərəfindən Moskvada inkişaf etdirilən nəzəriyyənin Parisdə "kerenskiçilər" tərəfindən dostcasına müdafiə edildiyinə işarə vuran M.Ə.Rəsulzadə göstərir ki, rus siyasətçiləri və publisistləri "panturanizm" və onun Rusiyaya qarşı "təcavüzkar planlarından" danışarkən güddükləri əsas məqsədlə yanaşı, digər vəzifənin yerinə yetirilməsinə də səy edirlər. M.Ə.Rəsulzadəyə görə, onlar sübut etməyə çalışır-

lar ki, ümumiyyətlə, Rusiyanın türk xalqları, qismən də azərbaycanlılar, istiqlaliyyətə nail olmağa çalışarkən, Rusiyadan ayrılaraq, bunun ardınca Türkiyəyə birləşməyi nəzərdə tuturlar. M.Ə.Rəsulzadə göstərir: "Əlbəttə ki, demaqoqlar bununla vahid Qafqaz Konfederasiyası yaradılmasının zəruriliyini başa düşmüş Qafqaz xalqlarının beyinlərinə müəyyən şübhə yeritmək və psixoloji cəhətdən onların ayrılmasına zəmin yaratmaq istəyirlər. "Panturanizm" haqqında bütün hay-küy, əslində iki şüardan ibarət idi:

1. Rus xalqı, özünə gəl, səni monqol hücumu hədələyir!

2. Qafqaz xalqları, özünüzü gözləyin, Rusiyadan ayrılsanız, siz Türkiyənin hakimiyyəti altına düşəcəksiniz!" (108, 2).

M.Ə.Rəsulzadə bu fikirlərlə aranı qarışdıran, beyinləri zəhərləyən "Dni" adlı rus mühacir qəzetinin əməkdaşı Xondkaryanın, "Türkiyə və panturanizm" adlı kitabın müəllifi Zarevandın, onun əsərinə rəy vermiş Mandelştamın və əlbəttə ki, Kerenskinin mövqeyini tutarlı, əsaslı fakt və dəlillərlə alt-üst edir. Bədnam Zarevandın, qərəz və saxtakarlıqla dolu "Türkiyə və panturanizm" adlı əsəri üzərində xüsusilə ətraflı dayanan M.Ə.Rəsulzadə göstərir ki, əsərdə müəllif əvvəlcə müəyyən qədər obyektiv fikirlərlə oxucunu ələ alır, irəli getdikcə qərəzkar ədəbiyyatın heyrətamiz nümunəsi yaradılır, qərəzkarlıq, faktların saxtalaşdırılması və müddəaların sübutsuzluğu daha çox nəzərə çarpır.

M.Ə.Rəsulzadə kitabda istinad olunan mənbələri, uydurulmuş hadisələri bir-bir təkzib edir, əsl fakt və tarixi hadisələri açıb göstərir. Mərhum Ziya Göyalpın məşhur "Türkçülüyün əsasları" adlı kitabına Zarevandın qərəzli münasibətini ifşa edərkən M.Ə.Rəsulzadə həm Zarevandın təhriflərlə təqdim etdiyi variantı, həm də Ziya Göyalpın əsərindəki cümlələri hərfbəhərf sitat gətirir. Sonda oxucu mətnin necə və nə qədər saxtalaşdırıldığının şahidi olur. Məsələn, əgər Ziya Göyalp "Bu gün ancaq bircə oğuz türkmənlərinin mədəni birliyinə yol vermək olar" yazır-

sa, Zarevand onun bu fikrini oxucuya belə çatdırır: "Oğuzstan yaxın gələcəyin böyük Türkiyəsidir" (yenə orada).

Bütün bunlardan sonra təəssüflə "faktlarla bax, belə davranırlar" - söyləyən M.Ə.Rəsulzadə haqlı sual verir: "Cənab Zarevand görəsən, Ziya bəyin sonralar həmin "Turan" barədə dedikləri haqda niyə susur? Ziya bəy deyirdi: "Leninin kommunizmi, Məhəmmədin cənnəti kimi, "panturanizm" də utopiyadır. O ideal kimi yalnız onunla qiymətlidir ki, kütlələrin ilhamlanması və inqilabiləşməsinin romantik mənbəyi rolunu oynayır".

Nə qədər qəribə olsa da, panturanizm və panislamizmlə toqquşan Qafqaz Konfederasiyası ideyasının da opponentlər tərəfindən tənqid və şiddətlə rədd edildiyini yazan M.Ə.Rəsulzadə "Qafqaz respublikalarının azad Qafqaz Konfederasiyası İttifaqında birləşməsini arzu olunan sayan və bütün Qafqaz demokratiyasını, habelə qonşu respublikaların hökumətlərini bu ideyanın həyata keçirilməsinə çağıran" Müsavat Partiyasının 1919-cu ildə Bakıda keçirilən ikinci qurultayının qətnaməsini xatırlayır və göstərir ki, ermənilər bu təklifi rədd etsələr də, ideya "1920-ci ildə Gürcüstan və Azərbaycan arasında hərbi-müdafiə ittifaqının bağlanılması şəklində qismən həyata keçdi". M.Ə.Rəsulzadənin qənaətinə görə, "bu diyarın birgə həyatı və iztirablarının son dövrü əyani sübut etdi ki, ayrı-ayrı Qafqaz xalqlarının separatçı hərəkat tərzi təkcə həmin xalqın özünə deyil, həm də Qafqaz xalqlarının hamısına bədbəxtçilik gətirmişdir" (108, 2). Tarixin və taleyin eyniliyi, daha doğrusu, əzabların eyniliyi bütün Qafqaz xalqlarında, az və ya çox oxşar olan psixologiya yaratmışdır.

Qafqazın müstəqilliyini təkcə onun xalqlarının firavanlığının yox, həm də beynəlxalq sülhün mühüm amili, rəhni hesab edən M.Ə.Rəsulzadə göstərir ki, əbədi olaraq, Şimal təhlükəsinin qorxusu altında olan bizim Cənub qonşularımız yalnız bufer dövləti kimi azad Qafqaz Konfederasiyasının mövcudluğu şəraitində öz taleləri üçün arxayın ola bilərdilər. M.Ə.Rəsulzadəyə

görə, azərbaycanlılar müstəqil Qafqaz Konfederasiyasından kənarda onlara qurtuluş olmadığını anlamış və öz milli mövcudiyyətini bu ideyanı həyata keçirməklə mümkün olduğu qərarına gəlmişlər (yenə orada).

"Prometey" jurnalında və "Qafqaz almanaxı"nda Qafqaz birliyi ideyası. İstər sırf Azərbaycan mühacirlərinin nəşr etdiyi, istərsə də, SSRİ-dən olan digər mühacirlərlə birlikdə buraxılan nəşrlərdə Qafqaz birliyi ideyası Azərbaycan istiqlalçılarının müraciət etdiyi başlıca mövzulardan olmuşdur.

Qafqaz xalqlarının və Ukraynanın Milli Müdafiə orqanı "Prometey" jurnalının (Prometey - qədim yunan mifologiyasının qəhrəmanı. Bəşər övladına xidmət etmək istəyi, niyyəti ilə allahlardan oğurladığı odu insanlara gətirir. Onun bu əməli Zevs tərəfindən cəzalandırılır: Prometey Qafqaz dağlarına zəncirlənir -A.T.) aparıcı mövzularından biri Qafqaz birliyi ideyası olmuşdur. Parisdə 1926-cı ildən fransız dilində M.Georgi Qvazavanın redaktorluğu ilə buraxılan "Prometey"in yazarları arasında M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Mir Yaqub Mehdiyev, Seyid Əhməd kimi Azərbaycanın görkəmli qələm sahiblərinin müxtəlif mövzulardakı (Qardaş. "Azərbaycanda terror rejimi" (427), M.Ə.Rəsulzadə. "Bizim yolumuz" (549), "Azərbaycan Respublikası" (550), "Bolşeviklərin Şərq siyasəti" (552), "Bir tarixin mənası" (582), dr.Mir Yaqub Mehdiyev. "Azərbaycan ədəbiyyatında siyasi radikallıq" (435), "Türkiyə və Avropa" (439), "Şimali Qafqazda milli hərəkat" (440), "Neft şirkətləri və Sovetlər" (444), "Mahiyyətin aşkarlanması" (447), "Erməni məsələsi" (451), Arif Kərim "Nekroloq" (452), M.B.Məmmədzadə. "Azərbaycanda" (499), "10 il sonra" (503) yazıları kimi Qafqaz Konfederasiyası ilə bağlı materialları da (Mir Yaqub Mehdiyev. "Qafqaz Konfederasiyası" (441), "Qafqaz Dövlətlərinin Konfederativ paktının proyekti barədə mülahizə" (442), "Qafqaz problemi, Qafqaz Konfederasiyası dövlətlərinin suverenliyi" (443), "Qafqaz respublikalarının müstəqilliyinin tanınması", "Qafqaz Konfederasiyasında federal hakimiyyətin hüquqi strukturu" (445), "Səlahiyyətlərin bölüşdürülməsi" (448), "Qafqaz Konfederasiyası üzvlərinin ayrılma və ləğv olunma hüquqları" (449), D.Seyid Əhməd. "Qafqaz Konfederasiyası və məzlum xalqların birliyi" (341) problemə yanaşma tərzi, onun mahiyyəti, əhəmiyyəti və aktuallığının aydın, inandırıcı şəkildə oxucuya çatdırması ilə diqqəti çəkir.

"Prometey"çilərə qarşı kəskin müxalifət cəbhəsində birləşən "Qafqaz" qrupu (Şimali Qafqaz mühacirlərindən Heydər Bammat, Əlixan Qantəmir, Gürcüstan mühacirlərindən Q.Kvinitadze, Zurab Avamişvili, Lado Əhməteli, Azərbaycan mühacirlərindən Xəlil Xasməmmədov, Şəfi Rüstəmbəyli, Nağı Şeyxzamanlı, Fuad Əmircan və başqaları) 30-cu illərin ikinci yarısından ideoloji-siyasi fəaliyyəti gücləndirir, "...dini, irqi ayrılıqları unudaraq, sırf milli bir qayə ilə gözəl məmləkətimizi xilasa və qayəyə irişdikdən sonra da bir Konfederasiya şəklində yeni və asri (modern, müasir - A.T.) bir dövlət qurmaq" (80, 5) arzusu ilə çalışırdılar. Almanax bir müddət əvvəl 1935-ci ildə türk, rus, ingilis və fransız, 1937-ci ildən isə alman dillərində Parisdə nəşr olunan "Qafqaz" adlı jurnalın materialları əsasında tərtib edilmişdir.

Almanaxı devşirən (tərtib edən, toplayan - A.T.) Fuad Əmircan (Daryal) nəşrə yazdığı "Ön söz"də göstərir ki, bu kitab bundan əvvəl çıxan "Qafqaz almanax"ı və "Qafqaz" jurnalının sütunlarında təbarüz etdirilən (öz əksini tapan mənasında - T.A.) proqramını, yeganə çarə görülərək "Qafqaz Konfederasiyasına bir xidmət məqsədilə" nəşr edilir. Müəllif bu yüksək qayəyə çatmağın rahat olmayacağını, bəlkə də yeni və qanlı savaşlar başlayacağını yaxşı bildiyini, bununla belə, sonda istiqbala böyük ümüdlə baxdığını yazır.

Almanaxda H.Bammatın "Hədəfimiz" (300), "Polşa və Qafqaz" (301), "Qafqaz Konfederasiyası və ermənilər" (302), "Erməni-gürcü ittihadı" (303), "Türkiyə və Qafqaz" (304), "Məc-

buri bir cavab" (305), "Yolumuz" (306), "Erməni-gürcü ittihadının zevali" (307), C.Hacıbəylinin "Şimali Qafqaz və Azərbaycan" (357), "Mənəvi pakt" (358), F.Daryalın "Yanlış yol" (330), "İftira və həqiqət" (331), Ə.Qantəmirin "Qafqaz və Rusiya" (411), T.Marqvelişilinin "Qafqaz milliyyətçiliyi" (431), G.Kvinitadzenin "Qüvvət birlikdədir" (402), S.Kedianın "Müştərək Qafqaz cəbhəsi" (380), Ş.Karumidzenin "Şimal və Cənub" (372), E.İnsabatonun "Türkiyə, İtaliya və Qafqaz" (364), Z.Avamişvilinin "Yaxın Şərqdə təəssübün zevali" (292), S.Amirecibinin "Qafqaz məsələsi" (289), "Erməni-gürcü ittihadı münasibətilə" (290) adlı məqalələrində Qafqaz birliyi və istiqlalı problemi, regionun digər dövlətlərlə, xüsusilə Rusiya, Türkiyə, İran, İtaliya ilə münasibətləri ətraflı araşdırılır, müvafiq nəticələr çıxarılır.

H.Bammat "Yolumuz" adlı məqaləsində göstərir ki, Qafqazda "... torpaq və xalq vəhdəti vücuda gətirilmədikcə xarici qüvvələrə qarşı heç bir zaman dayanmazlar". O yazır: "Qafqaz millətlərinin hansı olursa-olsun, digərləri üzərində hegemonluq etməsi mümkün deyil. Hər birisində Axilles əfsanəsinin ayaqda olan zəif nöqtəsi mövcuddur". H.Bammat qeyd edir ki, Qafqaz millətinin birisinin hər hansı əcnəbi qüvvəyə müraciəti, digərinin də öz mənafeyinə uyğun başqa bir əcnəbi qüvvəyə müraciət etməsinə səbəb olacaqdır. 1918-1920-ci illərdə "Cənubi Qafqaz millətləri məhəlli milliyyətçiliklə sərxoş olmuş", "əcnəbi qüvvələrə istinad ilə lüzumsuz qardaş qovğaları törətmişlər".

Tarixin acı dərslərindən ibrət almağın, düzgün nəticə çıxarmağın vacib olduğunu qeyd edən H.Bammat yazırdı: "Unutmamalıyıq ki, daxili və xarici zərbələrdən Sovet Rusiyası yıxıldığı zaman vəziyyət necə olursa-olsun, bizim üçün Qafqazın öz istiqlalını qazanması və mühafizəsi yalnız hər türlü bərabər şəraiti haiz (olan-A.T.) bir hökumət və bir tək böyləcə vətənimizin geopolitik reallığa uyğun bir şəklə girməsinə təmin ola bilər..." Müəllifin fikrincə, bu qayənin həyata keçməsi üçün iki

şərtə əməl olunması vacibdir: "1. Daxili, milli torpaq qovğalarını əbədi bir şəkildə həll edərək, heç bir daxili hüdud buraxmamaq üçün iradə, ağıl və qüvvəyə sahib olmaq... 2. ... Qafqazın ümumi xəritə üzərində - Asiya və Avropa arasında yerləşməsi və qafqazlıların, yəni azərbaycanlı, erməni, gürcü və şimali qafqazlıların Şərq millətlərinə minlərcə il davam edən mədəni, psixoloji, ənənəvi rabitələrlə bağlı olmasını göz önündə tutmaq və digər tərəfdən, Şərq millətlərini təhdid edən və Qafqazda həyatını və varlığını tamamilə yer üzündən silməsindən əndişə edilən Rusiyanın imperialist vəziyyətinə qarşı alınacaq bir xətti - hərəkətin təyini lazımdır". H.Bammat Rusiyaya münasibətin geniş izaha ehtiyacın olmadığını qeyd edir və yazır ki, şəxsən bir rusa qarşı nifrətimiz yoxdur. Rusiya ilə Qafqaz arasında Çin səddi də tikməyəcəyik.

H.Bammat Rusiya ilə əlaqələrə münasibət bildirdikdən sonra Qafqazın cənub qonşuları - Türkiyə və İrana olan baxışlarını da oxucularla bölüşür və bu barədə "Qafqaz" jurnalının 1935-ci il tarixli 4-cü nömrəsində ətraflı bəhs etdiyini xatırladır. Müəllif orada yazırdı: "Qafqaz millətlərinin məqsədi bir ağanı digər ağa ilə dəyişdirmək deyildir. Qafqaz millətlərinin qəti qərarlarından biri yox edilməsi mümkün olmayan, canlı, müstəqil Qafqaz dövlətinin qurulmasıdır. Və bu qərarı ilk əvvəl cənub qonşularımızın anlaması arzumuzdur. Siyasi imanımızın əsası olan bu deklarasyona heç bir şey əlavə edəcək deyilik. Bizim bu haqlı düşüncəmiz üzündən bəzi erməni və gürcü müxaliflərin bizi türkofilliklə ittiham etmələrinə gülməklə bərabər bunu deyirik: bizə tevcih edilən (yönəldilən - A.T.) bu vəsfi qəbul ilə bərabər və buna gürcü və ermənilər də iştiraka dəvət edirik. Çünki bundan başqa bir çarə yoxdur. Zira (çünki - A.T.) Qafqazın real siyasi vəziyyətində türkofillik xaricində yalnız digər tək bir çıxış yolu vardır ki, rusofillikdir, bu da Qafqazın işinə qətiyyən gəlməz".

H.Bammat rusofilliklə türkofilliyin arasındakı fərqdən bəhs

edərkən göstərir ki, rusofil olan gürcü marksistlərinin və ermənі daşnaklarının bir qisminin məqsədi Qafqazın əbədiyyən Rusiyanın boyunduruğu altına salınmasıdır. Müəllif yazır: "Bizim türkofilliyimiz isə Qafqazın istiqlalını və vəhdətini təminat altına almaq deməkdir".

Qafqaz, ya Türkiyəyə istinad edərək, müstəqil bir dövlət olur, ya da bir rus vilayəti olaraq qalır. Üçüncü yol yoxdur. Sağlam əsaslarla yaradılan Qafqaz Konfederasiya dövlətinin "Türkiyə içində gözlənilən və arzu edilən şey" adlandıran müəllif onlara siyasi müxalifətin Türkiyə ilə yaxşı münasibəti olmayan Avropa dövlətlərini regiona dəvət etmək təşəbbüsünü dəlilik adlandırır.

Heydər Bammatın "Erməni-gürcü ittihadının zevali" (iflası, puç olması, pozulması - A.T.) adlı məqaləsi Qafqazın taleyi ilə məşğul olan hərəkat və cərəyanların proqramının, niyyətinin öyrənilməsi, Qafqazda marağı olan dövlətlərin siyasətinin dəyərləndirilməsi, Qafqaz birliyinə qarşı çıxan separatçı qüvvələrin ifşa olunması baxımından aktual və əhəmiyyətlidir. Yuxarıda bir qrup erməni və gürcü mühacirinin birləşərək "Erməni-gürcü ittihadı" ilə bağlı bəyanatla çıxış etdiklərini qeyd etmişdik. Həmin sənədə işarə vuraraq, H.Bammat haqqında söhbət açdığımız məqaləsini aşağıdakı cümlə ilə başlayır: "Mahu (məlum-A.T.) "İttihad" açılmadan solan çiçəklərin aqibətinə uğradı". Müəllif vaxtilə "Qafqaz" məcmuəsində erməni-gürcü ittihadının birinci bülleteninin və erməni mətbuatında çıxan yazıların iç üzünün açıldığını yazır və məmnuniyyətlə qeyd edir ki, istiqlal və konfederasiya uğrunda çalışan mühacirlərin arasındakı mənəvi birliyi təhdid edən, onun qüvvətlənməsinə mane olmaq istəyən amillər aradan qalxmışdır.

Müəllif xüsusilə erməni-gürcü ittihadını vücuda gətirmək üçün erməni-daşnaklarla bir araya gələn gürcü sosial demokratlarının geri çəkildiyini, öz fikirlərini dəyişdiyini yüksək qiymətləndirir və bunu erməni ictimai fikrinə və daşnak partiyasına

"çox böyük ibrət dərsi" kimi dəyərləndirir.

Bu dərsdən nəticə çıxarmaq üçün həqiqəti anlamaq lazımdır. H.Bammata görə isə həqiqəti anlamaq üçün bunları bilmək lazımdır: "1. Qafqazın coğrafi, iqtisadi və siyasi birliyinin lüzumunu idrak etmək; 2. Qafqaz millətlərinin biri-biri arasında digərlərinin mənfəətinə zərərverici xüsusi anlaşmalara yol verməmək; 3. Qafqaz istiqlalı uğrunda Moskva istilaçıları ilə çarpışan Qafqaz millətçilərinin tanımadıqları tək bir düşmən vardır. O da Şimaldadır. Cənubda isə əski dost və müstəqil müttəfiqlərdən başqası yoxdur".

Məqalə müəllifinə görə, erməni ictimai fikri keçmişin acı xatirələrinə rəğmən bu üç əsası qəbul edərsə və siyasəti buna istinadən qurarsa, o zaman biz erməni və gürcülər arasındakı qarşılıqlı torpaq iddialarının anlaşmasına yönələn birləşməni təqdir edəcəyik.

H.Bammat gürcü menşeviklərini qayğılandıran başqa bir məsələyə toxunmağı da vacib sayır. Menşevik qəzeti "Brzolis Nıta" narahatlıqla yazır ki, Azərbaycan və Şimali Qafqaz öz aralarında idari birliyə üstünlük verirlər. Heydər Bammat "Qafqaz" məcmuəsində, "Qafqaz almanaxı"nda Qafqaz Konfederasiyası xaricində Azərbaycan Şimali Qafqaz bloku təşkilinə dair yazı, fikir olmadığını bildirir və yazır: "Azərbaycanlılar və şimali qafqazlılar heç bir zaman istiqlallarını gürcü və ermənilərdən ayrı bir dövlət şəklində qurmağı təsəvvür etmirlər".

Şimali qafqazlılarla azərbaycanlıların əsas məqsədinin Qafqaz Konfederasiyası yaratmaq olduğunu göstərən H.Bammat onların arasında idari birlik mövzusunda cərəyan edən fikir mübadiləsinin də həmin mərama xidmət etdiyini yazır.

Şalva Karumidzenin vaxtilə "Qafqaz" jurnalında (H3, 5, 6 1936-cı il) verilən və almanaxda (372) təkrar çap olunan "Şimal" və "Cənub" ("Erməni - gürcü ittihadı" münasibətilə) adlı məqaləsi də bu mövzuda son dərəcə faydalı materiallardandır. "Erməni və gürcülərin girişdiyi bu təşəbbüs hər iki milləti

yaxınlaşdırmaq və tanıtmaq hüdudu daxilində qalmış olsaydı, tərəfimizdən daima olduğu kimi, yaxşı qarşılanardı. Fəqət, "İttihad"ın məqsədi, Qafqaz millətlərini bir-birinə bağlamaq çərçivəsini aşaraq, nə mazimizə (keçmişimizə - A.T.) nə də bugünkü vəziyyətimizə uymayan bir mahiyyət almışdır". Bu cümlələrlə başlayan məqalədə müəllif "İttihad"ın tarixin qaranlıq xatirələrinə söykənərək, irəliləmək istəyini "çox təhlükəli və çıxılmaz yol" adlandırır. "Şimal"ın hədəfinin tarixən Qafqazı "çeynəyib keçərək, "cənub"a - isti dənizlərə enmək və yayılmaq, "Cənub"un məqsədinin isə "Şimal"ın bu durmaz axınına qarşı bir müdafiə xətti cızmaq" olduğunu yazan Şalva Karumidze "bizim məqsəd və hədəfimizdə Qafqazın milli varlığının coğrafi və etnoqrafik hüdudları daxilində mühafizəsidir" - söyləyir.

Çar Rusiyasının "istibdad boyunduruğu altında inləyən" millətlərin sovet dövründə də imha siyasəti davam etdirilir. Osmanlı imperatorluğundan sonra isə qurulan yeni Türkiyə "qüdrətli və dəyərli bir varlıq olmuşdur". Bu müqayisədən sonra müəllif yazır ki, "Şimal" Qafqaza qarşı olan hərəkətlərində heç bir zaman səmimi və loyal olmamışdır. Yeni Türkiyənin isə istiqlal bayrağını əlinə aldığı sıralarda Qafqazın Avropa imperializmindən xilasına yönələn təklifləri olmuşdur. Gürcü mühacir yazır: "Bax, ən böyük qəbahətimiz türk millətinin o zaman Anadoluda başlamış olan əmsalsız (bənzərsiz - A.T.) və yaradıcı milli hərəkatını anlamamış olmağımızdır".

Ş.Karumidze qafqazlıların arasında ən zəif nöqtənin öz aralarında "birlik vücuda gətirməyə müvəffəq olmayaraq, ayrı-ayrı hərəkətlərə" qoşulması və "bu hərəkətlərin bir qisminin də "Şimal" lehinə" həyata keçirilməsinin olduğunu etiraf edir. Müəllif tarixə nəzər salır və göstərir ki, gürcü menşeviklərinin də daxil olduğu Rus Sosial-Demokrat Partiyası erməni zənginlərinin yardımı ilə çar Dumasına Qafqaz tərəfindən həmişə ruslaşdırmaq qayəsini güdən deputat seçilməsinə nail olurdu. Qafqaz

cümhuriyyətlərinin mövcud olduğu müddətdə islam və xristian ruhani xadimləri Qafqaz birliyi yranmasına mane olmamışlar. Ş.Karumidze bu faktı xatırlayaraq, təbii sual verir: O halda "Erməni-gürcü ittihadı"nın Qafqazı iki dini zümrəyə ayırmasının səbəbi nədir?

Gürcü mühacir Qafqaz birliyinin müvəffəqiyyətsizliyə uğramasının səbəbi kimi ermənilərin pozucu mövqeyini göstərir və bu qənaətə gəlir ki, bu "İttihad" təşəbbüsü Qafqaz məsələsinə böyük bir darbe (zərbə - A.T.) təşkil etməkdədir. Ş.Karumidze yazır: "Dinimizin təsiri nə qədər qüvvətli olursa-olsun, bizim əsas dinimiz onun fövqündə olan milli dövlət qayəsidir".

Müəllif məqalənin sonunda qeyd edir ki, tarixin acı xatirələri altında qalan bəzi mühacir ermənilər "Cənub"u "Şimal"dan daha təhlükəli görmək qəflətində olsalar da, erməni millətinin "Şimal"a qarşı olan mücadiləsində onların Qafqaz xalqları ilə eyni sırada və eyni əhval-ruhiyyədə olduğunu söyləsək, həqiqətdən uzaqlaşmış olmarıq. Təəssüf ki, Ş.Karumidzenin ehtiyat və ümidlə söylədiyi bu fikri tarix təsdiqləmədi. Ermənilər müstəqillikdənsə, rusların qucağına atılmağa üstünlük verdilər.

Azərbaycan istiqlal mücadiləsi və mühacirət tarixində parlaq iz qoymuş Fuad Daryal (1911-1995) maraqlı, şərəfli, həm də ziddiyyətli baxışlarla zəngin həyat yolu keçmişdir. Əslən Şəkidən olan atası Əbdüləli bəy Əmircanov Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra - 1920-ci ildə Türkiyəyə mühacirət etmişdir. Bir qədər sonra ailənin digər üzvləri ilə birlikdə İstanbula gələn F.Daryal burada ilk təhsil alır. Sonra Fransa və Almaniyada təhsilini davam etdirir.

Türkiyənin nüfuzlu "Zaman", "Cümhuriyyət", "Son poçta", "Xəbər", "Təsviri-əfkar" qəzetlərində, sonralar Türkiyə təmsilçisi kimi Avropa Şurası Parlamentində, Türkiyə səfirliyinin (Almaniya) mətbuat attaşesi, Türkiyə Mətbuat İşləri Komitəsində direktor müavini işləyən F.Daryal harada çalışmasından asılı olmayaraq, həmişə Azərbaycan istiqlalı uğrunda ideoloji mücadi-

lənin ön sıralarında olmuşdur. "Qafqaz almanaxı"nı tərtib edən F.Daryal məlum "Prometey"ə kəskin müxalifətdə olan "Qafqaz" qrupunun fəallarından və M.Ə.Rəsulzadənin sərt tənqidçilərindən idi. Almanaxda dərc olunan və daha çox "Erməni-gürcü ittifaqı"nın ifşasına yönələn "Yanlış yol" (330), "İftira və həqiqət" (331) adlı məqalələr bu qəbildəndir.

F.Daryal M.Ə.Rəsulzadəni "əski turançı və irançı" adlandırır, onu əsl həqiqəti gizlətməkdə qınayır və göstərir ki, "o da gürcü menşevikləri kimi yaxın zamanlara qədər" Qafqaz Konfederasiyası fikrini qəbul etməmişdilər.

O yazır: "Əgər Konfederasiya fikri vaxtilə bunlar tərəfindən qəbul edilmiş olsaydı, Qafqaz bu elim (acınacaqlı - A.T.) aqibətə uğramayacağı kimi, Məmməd Əmin və menşevik dostları da qürbətin bu acı iztirabları ilə qarşılaşmamış olacaqlardı". F.Daryala görə, Qafqaz Konfederasiyası fikrini ilk dəfə şimali qafqazlılar Trabzon Konfransında 1918-ci ildə ortaya atmışlar. F.Daryal Brüsseldə imzalanmış "Qafqaz Konfederasiyası paktı"na işarə vuraraq, M.Ə.Rəsulzadəni "vaxtilə Denikin ordusunda xidmət edənlərlə, sonda Vrangel ordusu ilə xaricə can atanlarla", "Qafqaz cümhuriyyətləri əleyhinə silah işlətmiş düşmənlərlə" iş birliyinə görə (həmin paktı Şimali Qafqaz Cümhuriyyəti adından çar generalı Biçeraxov imzalamışdı) amansız tənqid edir: "Belə ustalıq və kurnazlıqla (hiyləgərliklə - A.T.) uca Qafqaz birliyi qayəsini öz əsəri kimi mənimsəmək və bu qüdsi qayəyə həqiqətən xidmət etmiş olanları da bir tərəfə atmaq istəmək, günəşi palçıqla süvamaq demək olar".

F.Daryal "kilsədə yapılan ayinlərin - "Erməni-gürcü ittifaqı"nın hazırlanmasında, dini əqidələrlə rabitəsini inkar edən gürcü menşeviklərinin də rolu olduğunu, lakin sonra da geri çəkildiklərini məmnuniyyətlə vurğulayır, erməni daşnaklarının da "menşevik dindaşlarının bu hərəkətlərindən bir ibrət dərsi" alacaqlarını arzulayır. Və dərhal da M.Ə.Rəsulzadəni sancmağa başlayır, onu erməni və gürcü ittihadını Azərbaycan və Şimali

Qafqaz birliyi ilə müqayisə etdiyinə görə qınayır və onun "istər-istəməz müsəlman qarşılığına dayanaraq, sonda xaricdəki islam dövlətlərinin Qafqaz işlərinə müdaxiləsini mucip (səbəb - A.T.) olur" qənaətinə etiraz edir. F.Daryal "xaricdəki islam dövləti" ifadəsinin Türkiyəyə işarə olduğunu və yeni Türkiyənin imperialist "Şimal"la əsla müqayisəedilməz olduğunu yazır və bu zaman M.Ə.Rəsulzadəyə "bir müddət Türkiyədə əkmək yemiş" olduğunu xatırladır və onu "dənizdə puslasız (kompassız - A.T.) gəmiyə" bənzədir. Menşevikləri "bolşevizmin kiçik budağı" adlandıran F.Daryal "M.Ə.Rəsulzadə də siyasi qənaətlərində bunlardan uzaq deyildir" yazır və M.Ə.Rəsulzadənin də ilk siyasi fəaliyyət dövründən bəhs edir.

F.Daryalın M.Ə.Rəsulzadənin fəaliyyətinə qərəzli və kəskin müxalif münasibəti bütün bunlarla bitmir, onun ünvanına "gürcü menşeviklərinin quyruğu" kimi təhqiramiz ifadələr belə işlətməkdən çəkinmir.

Lakin illər ötdükdən, "onların (M.Ə.Rəsulzadə və onun silahdaşları nəzərdə tutulur - A.T.) nizamlı, davamlı və fəal surətdə özlərini tamamilə bu işə (istiqlal işinə -A.T.) verdiklərini müşahidə etdikdən, milli yolda sapsağlam durduqlarını, heç kimi partiyalarına girməyə məcbur etmədiklərini gördükdən sonra" (333) F.Daryalın görüşlərində kəskin dəyişikliklər baş verir, o nəinki M.Ə.Rəsulzadəni tənqid etmir, əksinə, onun ən fəal müdafiəçilərindən, təbliğatçılarından birinə çevrilir.

Soyuq müharibə dövrü və Qafqaz birliyi ideyası. Əvvəldə qeyd etdiyimiz kimi, əski Azərbaycan mühacirətinin Avropa qanadı və İkinci Dünya müharibəsindən sonra istiqlal uğrunda ideoloji mübarizəyə qoşulan legionerlərin bir qismi Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyası ilə kəskin ixtilaflar şəraitində fəaliyyət göstərirdi. Bu mənada, Amerika Komitəsinin dəstəklədiyi və 12-19 sentyabr 1952-ci il tarixdə Ştanberq (Almaniya) konfransında təsis olunmuş Azərbaycan Milli Birliyi xüsusilə diqqəti çəkir.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə mühacirətin ümumi vəziyyətini, mövcud problemlərini araşdırmadan, dəyərləndirmədən Qafqaz birliyi ideyasının yeni mərhələdəki taleyi haqqında söz açmaq düzgün olmazdı. Odur ki, 50-ci illər Azərbaycan mühacirətinin ümumi mənzərəsi barədə bir qədər ətraflı bəhs etmək məqsədəmüvafiqdir. Mühacirlər arasında qruplaşmalar, münaqişələr həmin dövr mühacirətinə xas cəhətlər idi.

Yeri gəlmişkən qeyd edək ki, həmin dövrdə parçalanmalar, fikir ayrılıqları, qarşılıqlı ittihamlar yalnız Azərbaycan mühacirlərinin yox, Sovetlər Birliyindən çıxan digər xalqların mühacir qruplarının da xarakterik cəhətlərindən idi. Bu mənada F.Engelsin mühacirlərlə bağlı fikirləri ilə qismən razılaşmaq da olar.

F.Engels "Kommunanın Blankist mühacirlərin proqramı" adlı əsərində yazırdı: "Mühacirətdə müxtəlif yönümlü partiyalar yaranır ki, onlar da atları bataqlığa saldığı üçün bir-birini qınayır, xəyanətdə, müxtəlif günahlarda qarşı tərəfi ittiham edirlər. Bu zaman konspirativ iş aparır, vərəqələr, qəzetlər çap edir, and içirlər ki, 24 saat sonra onların dövranı başlanacaq, qələbə təmin olunmuşdur, buna görə də dövlət postları bölüşdürülür. Aydındır ki, məyusluq dalınca məyusluq gəlir, bu isə qaçılmaz tarixi şəraitlə əlaqələndirilir, həqiqəti heç başa da düşmək istəmirlər. Əksinə, ayrı-ayrı adamların təsadüfi səhvi kimi qələmə verir, ya da qarşılıqlı ittihamlar səslənir. İş ümumi dedi-qodu ilə bitir. Bütün mühacirətin tarixi belə olmuşdur: 1792-ci il royalist mühacirlərdən bu günədək ağlını və düşüncəsini saxlaya bilən mühacirlər ilk fürsətdən hər cür mənasız dedi-qodudan uzaqlaşmağa, faydalı iş görməyə başlayırlar" (703).

Xaricdəki bir neçə rus, belarus, ukrayna, tatar, erməni, gürcü, Şimali Qafqaz xalqlarının mühacir təşkilatlarının əsas məqsədi, məramı bolşevizmə qarşı mübarizə və öz xalqlarının istiqlalı olsa da, onların öz aralarında da fikir ayrılığı, ixtilaflar səngimirdi. Zənnimizcə, İkinci Dünya müharibəsindən sonra mühacirlər arasında münasibətlərin bu cür formalaşmasını təkcə

amal, əqidə, problemlərə yanaşma tərzi, bolşevizmə qarşı mübarizə taktikasında fərqli baxışlarla izah etmək yanlış olardı.

Sovet şinelini dəyişmiş legionerlərin əski həyat və düşüncə tərzi, təhsili, sosial mənsubiyyəti öz sözünü deyirdi. Eyni zamanda, mühacirləri maliyyələşdirən ölkə və təşkilatların marağı, siyasi niyyəti də müxtəlif qrupların yaranmasını şərtləndirən ciddi amillərdən idi. O ki, qaldı Azərbaycan mühacirləri arasında çəkişmələrə, tarixi 20-ci illərin əvvəllərinə təsadüf edən belə münasibətin 50-ci illərdə yeni forma və keyfiyyət kəsb etməsi təbii idi.

Azərbaycan Milli Mərkəzinin və Müsavat Partiyasının lideri M.Ə.Rəsulzadəyə Şəfi Rüstəmbəyli, Xəlil Xasməmmədov, Mir Yaqub Mehdiyev, Nağı Şeyxzamanlı, Fuad Daryal və başqaları tərəfindən ünvanlanan ittihamlar səngisə də, 1919-cu ildə Azərbaycan parlamentinin Parisə göndərdiyi nümayəndə heyətinin bəzi üzvlərinin, xüsusilə Ceyhun Hacıbəyli və Əkbərağa Şeyxülislamın münasibəti soyuq idi və müxalifət vəziyyətində qalırdı. İkinci Dünya müharibəsindən sonra Azərbaycan legionerlərini təmsil edən qüvvələrin, xüsusilə onların lideri Əbdürrəhman Fətəlibəylinin siyasi fəallığı, coşqun antisovet fəaliyyəti Avropada Azərbaycan mühacirəti hərəkatına yeni və güclü təkan verdi, bununla da onlarla Türkiyədəki Azərbaycan mühacirləri arasındakı münaqişə yeni mərhələyə qədəm qoydu.

ABŞ-ın maliyyələşdirdiyi "Amerika Komitəsi" vahid antibolşevik cəbhə yaratmaq və SSRİ-yə qarşı güclü ideoloji-təbliğat müharibəsi aparmaq niyyəti ilə əski Rusiya Müvəqqəti hökumətinin başçısı A.Kerenski ilə həyata keçirdiyi iş birliyi ilə kifayətlənməyərək, digər SSRİ xalqlarını təmsil edən mühacirlərdən də yararlanmağı məqsədəmüvafiq hesab etdi. Nəticədə 1951-ci il noyabrın 2-də beş rus, beş qeyri-rus mühacir təşkilatının iştirakı ilə Visbadendə konfrans keçirildi. Konfransda Azərbaycanı Milli Birlik Məclisinin rəhbərləri təmsil edirdi. Rus mühacir təşkilatları konfransda 1917-ci il fevral inqilabın-

dan sonra Rusiya ərazisində yaradılan heç bir milli dövlət tanımadıqlarını, Fevral inqilabına qədərki sərhədlərin bolşevizm devrildikdən sonra da dəyişməyəcəyi fikrini gizlətmirdilər. Qeyri-rus mühacir təşkilatlar bu mövqeyə etiraz etsələr də, Visbaden konfransında müştərək deklorasiya qəbul olundu və "Rusiya Millətlərini Qurtarma Şurası"nı genişləndirmək, "Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi" yaratmaq qərara alındı.

Ə.Fətəlibəylinin rəhbərlik etdiyi Azərbaycan Milli Birlik Məclisinin bu addımı, eyni zamanda Visbaden konfransının qəbul etdiyi deklorasiyaya imza atan C.Hacıbəyli, Ə.A.Şeyxülislam və İ.Əkbərin hərəkəti Azərbaycan mühacirlərinin, xüsusilə Türkiyədəki əski mühacirlərin kəskin etirazına səbəb oldu. Onlar yığıncaqlar keçirərək Visbaden konfransının sənədlərini tənqid edir, Azərbaycan Mili Birlik Məclisinin istiqlal savaşına xəyanət etdiyini bildirir və digər qeyri-rus mühacir təşkilatları ilə birlikdə Visbaden konfransını boykota çağırırdılar. 1951-ci il 30 noyabrda Münhendə Qərbi Avropa, Qafqaz, Türküstan mühacirlərinin iştirakı ilə konfrans keçirildi və tədbirdə Visbaden deklorasiyasını rədd edən qərar qəbul olundu. Həmin sənədə Azərbaycan Milli Mərkəzi adından dr. Məhəmməd Kəngərli imza atmışdır.

Münhen konfransı "Amerika Komitəsi"nə, antibolşevik mübarizədə onun daha çox istinad etdiyi və "vahid, bölünməz Rusiya" prinsipindən ikiəlli yapışan A.Kerenskiyə, Visbaden konfransında iştirak edən 5 qeyri-rus mühacir təşkilatına, o cümlədən Azərbaycan Milli Birlik Mərkəzinə tarixi dərs oldu. Bununla yanaşı, Azərbaycan Milli Birliyinin rəhbərliyi öz fəaliyyətlərinə bəraət qazandıraraq, Azərbaycanın maraqlarına xəyanət etmədiklərini, istiqlal uğrunda mübarizəyə sadiq qaldıqlarını bildirir və Visbaden konfransında qərarlaşdırıldığı kimi, antibolşevik cəbhənin genişləndirilməsi ilə bağlı hazırlıq işlərini görürdü. 1952-ci il oktyabrın 19-da 4 rus, 5 qeyri-rus mühacir təşkilatı, o cümlədən Azərbaycan Milli Birlik Məclisinin də iş-

tirak etdiyi Münhen konfransı öz işinə başladı və "Rusiya Millətlərinin Qurtarma Şurası" əvəzində "Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi"nin yaradıldığını elan etdi. Visbaden konfransı kimi Münhen toplantısı, onun sənədləri də konfransa qatılmayan digər qeyri-rus mühacir təşkilatlarını, o cümlədən Ankaradakı Azərbaycan Milli Mərkəzini hiddətləndirmişdi. Münhen konfransının Sovetlər Birliyini yıxdıqdan sonra yerində demokratik bir rejim qurmaq, bununla yanaşı, millətlər məsələsini sonrakı mərhələdə, ya ümumi referendum, ya Məhəlli Qurucular Məclisinin, ya da Rusiya Qurucular Məclisinin qərarları ilə həll etmək, millətlər məsələsinə dair əvvəlcədən heç bir şərt irəli sürməmək, qərar verməmək, özbaşına istiqlal elan etməmək və s. kimi müddəaları, xüsusilə tənqidə məruz qalırdı. Bu müddəalar əslində 1917-ci il Fevral inqilabından sonra keçmiş Rusiya imperiyası ərazisində müstəqillik əldə etmiş milli dövlətlərin SSRİ çökdükdən sonra öz istiqlallarını dərhal elan etməsini yasaqlayır. Odur ki, Münhen Konfransının yekun sənədləri mühacirətin M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi qanadı tərəfindən qətiyyətlə rədd edilirdi.

Digər tərəfdən isə, C.Hacıbəyli, Ə.Fətəlibəyli, Ə.Şeyxülislam, İ.Əkbər və Azərbaycan Milli Birlik Məclisinin digər üzvləri də Azərbaycan mühacirlərinin Türkiyə qanadının iddia etdiyi kimi, milli davaya xəyanət etmədiklərini əməlləri, çıxışları, şərh və izahları ilə ortaya qoyurdular. Onlar Kerenski və "Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi"nin sədri Melqunovu kəskin tənqid edir, onların Koordinasiya Mərkəzindəki fəaliyyətlərinin "bolşevizmə qarşı mübarizədən daha çox antibolşeviklərə qarşı" çevrilən mübarizə xarakteri daşıdığını yazırdılar. Koordinasiya Mərkəzində güclənən ixtilaflar onu iflasa aparırdı.

Leonid Konstantinoviç Şkarenkovun "Ağ mühacirətin can verməsi" (708) adlı əsəri sovet rejimi və ideologiyasının təsiri və tələbi ilə yazıldığından, kitabda tarixi hadisə və faktlara qə-

rəzli, saxta münasibət dərhal diqqəti çəkir. Bununla belə, kitab Rusiyada vətəndaş müharibəsindən sonra Ağ mühacirətin formalaşması, xaricdə Ağ Ordunun saxlanılması üçün edilən cəhdlər, mühacirətin yaşamaq uğrunda mübarizəsi, İkinci Dünya müharibəsi dövründə əsaslı dönüşün yaranması və mühacirət, eyni zamanda xaricdə rus mədəniyyəti və elmi barədə zəngin faktları, müəllifin maraqlı mülahizələri ilə yadda qalır. L.K.Şkarenkov əksinqilabçı qüvvələrin birləşmək cəhdlərinin iflasa uğramasını Ağ mühacirlərin antisovet ideologiyasının həyatla toqquşmada özünü saxlaya bilməməsi ilə izah etdikdə (708, 208) haqlıdır. Müəllif bəlkə də bilərəkdən burada "sovet ideologiyası ilə" yox, məhz "həyatla" ifadəsindən istifadə edir. Tarix göstərdi ki, şovinist, çürük əsaslara söykənən Ağ mühacirlərin ideologiyası kimi, sovet ideologiyası da məhvə məhkumdur.

Koordinasiya Mərkəzinə qatılmayan qeyri-rus mühacir təşkilatlar öz fəaliyyətlərini gücləndirməyi, əlaqələndirməyi qərara aldılar. 1952-ci ilin dekabrın 11-dən 16-dək Münhendə Ümumqafqaz Konfransı keçirildi, tədbirdə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz mühacir təşkilatları iştirak edirdilər. Azərbaycan Milli Mərkəzinin təmsil olunduğu (sədr M.Ə.Rəsulzadə) həmin konfransda Qafqaz İstiqlal Komitəsi təsis olundu. Mühacirətdə də rusların komandası ilə hərəkət edən, idarə olunan erməni mühacirlər mənfur ənənələrinə sadiq qalaraq, növbəti dəfə tədbirdə iştirakdan imtina etdilər.

Halbuki, Qafqaz birliyi ermənilərin də milli maraqlarına uyğun gəlir. Tarix dəfələrlə sübut etmişdir ki, ermənilər güclü qonşularının iradəsi ilə idarə olunmuş, onlardan müxtəlif planların həyata keçirilməsi üçün bir vasitə kimi istifadə edilmişdir. Belə olduğu təqdirdə, İ.K.Kanadtsevin ilk dəfə 1902-ci ildə Sankt-Peterburqda buraxılmış "Zaqafqaziya həyatının oçerkləri" əsərində (704) yazdığı "maraqları tələb etdikdə, onlar enerjili və bacarıqlı şəkildə təbliğat işi aparırlar, bunun üçün hər cür

münasib şəraitdən məharətlə istifadə edirlər" fikri qeyri-ciddi təsir bağışlayır və səmimiyyətdən çox, ifrat təəssübkeşliyin təzahürü kimi görünür...

Konfrans Koordinasiya Mərkəzi ilə əməkdaşlığın qeyrimümkünlüyünü bəyan etdi və Qafqaz xalqlarının iradəsi əleyhinə əvvəlcə Rusiya Millətlərini Qurtarma Şurası (RMQŞ), sonra Antibolşevik Mücadilə Koordinasiya Mərkəzi (AMKM) xətti ilə Visbaden və Münhen razılaşmalarına imza atan mühacir təşkilatlarının hərəkətini pislədi.

Qafqaz İstiqlal Komitəsinin AMKM-yə qarşı sərt münasibəti, AMKM-nin rəhbərliyinin pərdələmək belə istəmədikləri şovinist mövqeyi onun süqutunu zəruri edirdi. "Amerika Komitəsi" də Mərkəzdəki parçalanmanı, onun iflasını görür və maliyyə dəstəyini tədricən azaldırdı. Sonda AMKM iki qanada parçalandı, bir müddət sonra hər ikisi öz fəaliyyətini dayandırmalı oldu. Azərbaycan Milli Birlik Məclisinin də daxil olduğu İkinci Koordinasiya Mərkəzi (buraya rusların bir mühacir təşkilatı, Gürcüstan Milli Şurası, Şimali Qafqaz Milli Birliyi daxil idi) dağıldıqdan sonra Azərbaycan Milli Birlik Mərkəzinin fəaliyyəti zəiflədi, onun rəhbəri Ə.Fətəlibəylinin qətlindən sonra (1954-cü il) isə təşkilat öz işinə xitam verdi.

"Qafqasya" jurnalında Qafqaz məsələsi. 1951-ci ilin avqustundan Münhendə nəşrə başlayan "Qafqasya" jurnalı "Dava və qayəmiz" adlı baş məqalədə (79, Münhen, №1, avqust 1951-ci il) İkinci Dünya müharibəsindən sonrakı beynəlxalq vəziyyəti xarakterizə edərək yazırdı: "Müztərib (iztirablı, əzabkeş-A.T.) vətənimizin qurtuluşu ümidi ilə yaşayan biz qafqazlılar üçün yalnız müstəqil və birləşik Qafqaz fikrinə sədaqətimizi yenidən bəyan etməklə qalmayıb, bu həddə hansı yollarla çatmaq istədiyimizi, hansı millətlərarası qüvvələrə istinad etməyi düşündüyümüzü, Qafqazın öz istiqlalını istirdad etməsi (geri alması, qaytarması - A.T.) və xüsusilə onu mühafizə edə bilməsi üçün özünə hansı dostları və müttəfiqləri tapa biləcəyini də ortaya

qoymaq zamanı gəlmişdir". Məqalədə bir növ əski "Prometey"çilər və onların tərəfdarları M.Ə.Rəsulzadə, Noy Jordaniya, Əli xan Qantəmir, Əhməd Nəbi Mağomanın birləşdiyi "Rusiya Məhkumu Millətlərin Qurtuluş Birliyi"nin platforması, məramı öz əksini tapmışdı.

Elə "Qafqasya"nı nəşr etməkdə də məqsəd, məqalədə deyildiyi kimi, "mənəvi və siyasi cəbhəmizi dürüst və açıq bir şəkildə göstərmək və coğrafi vəziyyətimizlə tarixi və mədəni mazimizin (keçmişimizin - A.T.) dəyişməz məlumlarından məntiqi nəticələr çıxarmaqdan" ibarətdir. Orada deyilir: "Müştərək fikri əcdadımız, müştərək mənəvi dəyərlərimiz var... Fərdin müqəddəs haqlarının masuniyyəti (qorunması, saxlanılması - A.T.) və onun dini, fikri, ictimai və iqtisadi hürriyyəti, siyasi əqidəmizin əsas prinsipləridir. Qafqaz xalqları arasındakı qarşılıqlı münasibətin mütləq bir müsavata, mütəqabil etimada və anlayış zehniyyətinə istinad etməsinin vacibliyi qənaətindəyik". Məqalədə qonşularla, xüsusilə Rusiya, Türkiyə, İran, Türküstan, habelə Ərəb dövlətləri ilə münasibətlərə və onlarla əlaqə və əməkdaşlıq prinsiplərinə toxunulur. Rusiya ilə münasibətlərə dair fikir birmənalı və kəskindir: "Rusiya ilə münasibətimizi milli qayələrimiz təyin edir. İstiqlal tələbimizi biz açıq və dürüst şəkildə ortaya qoyuruq. Rus xalqı ilə aramızda qan, dil və kültür etibarı ilə müştərək heç bir şeyimiz yoxdur... Bəzi rus mühitlərində milli tələblərimizə qarşı səmimi bir anlayış zehniyyəti görə bilsək, özümüzü bəxtiyar addedərik" (sanarıq- A.T.).

"Qafqasya" Qafqaz birliyi ideyasının gerçəkləşməsinin regionun müstəqilliyini şərtləndirən başlıca amil olduğuna, bu faktorun real əsaslara söykəndiyinə, ərazidə yaşayan xalqların adət-ənənə, həyat, düşüncə tərzinin, mədəni irsinin yaxınlığına, tale və tarix birliyinə, istiqlal uğrunda mübarizəyə, habelə çar Rusiyası və sovet rejiminin Qafqazdakı mənfur siyasətinə dair sanballı, elmi-publisistik materiallar dərc edir, opponentlərə ca-

vab verir, bolşevizmə qarşı ideoloji mücadilə aparırdı.

Əli xan Qantəmirin "Qafqaz" (412), Ə.Mağomanın "Qafqazın istiqlal mücadiləsi" (429), V.G.Cabaginin "Şimali Qafqaz istiqlalının ildönümü" (317), Prenses Baqrationun "Tarixdə Qafqaz və Rusiya" (299), M.B.Məmmədzadənin "Azərbaycanda ruslaşdırma siyasəti" (508) və digər çoxsaylı məqalələrdə Qafqazın tarixi, coğrafiyası, əhalisi, orada məskunlaşan xalqların adət-ənənəsi, məşğuliyyəti, yadellilərə qarşı birgə mübarizə yolu barədə geniş söhbət açılır.

Sovet rejimi və ideologiyasının, bolşevizmin xalqlara gətirdiyi bəlaların tənqidi, Sovet İttifaqı xalqlarının ağır, acı taleyi, sürgünlər, edamlar "Qafqasya"nın tez-tez müraciət etdiyi mövzulardandır: A.Bahadur. "Quzey Qafqazda xalqın topdan imhası" (298), A.Tembot. "Stalinin "yeniçeriləri"" (hərbi sistemi - A.T.) (614), M.Arslanbek. "Şimali Qafqazda Qaraçaylıların imhası" (291), Ç.Tokuayev. "Kremlin diktatorları" (633), H.Abaza. "Sovetlər Birliyində nələr olur?" (277) R.Traho. "Qafqaz qətliamının 8-ci ildönümü" (634), M.Ə.Rəsulzadə. "Azərbaycanda "Aprel inqilabı" (592), Nurəddin Kolbaç. "Xalqlar zindanı imha edilməli" (385), R.Traho. "Şimali Qafqazda kollektivləşdirmə" (635), Sozati Kansau. "Sovetlər Birliyindəki qeyri-rus məmləkətlərinin vəziyyəti" (371), M.H.Türkəqul. "Qızıl Rus imperiyası qan üzərində qurulmuşdur" (639).

Qeyd etdiyimiz kimi, Qafqaz birliyi ideyası jurnalın əsas və başlıca mövzularındandır. Ayda bir dəfə türk, ingilis və rus dilində çıxan jurnalda Azərbaycan istiqlalçıları xüsusilə fəallıq göstərir və onlar jurnalın bütün nömrələrində maraqlı materiallarla çıxış edirdilər. M.Ə.Rəsulzadənin "Qafqaz Konfederasiyası hərəkatı" (587) və "Qafqaz məsələsi" (589) adlı məqalələrini, mübaliğəsiz, Qafqaz birliyi ideyasının leytmotivi, məğzi və proqramı adlandırmaq olar. Bu yazılarda birlik ideyasının tarixinə nəzər salınır, onun əhəmiyyəti və həyata keçirilməsi zərurəti əsaslandırılır, problemlər və onların həlli yolları göstərilir.

"Bolşevizm çarlığın bir davamıdır. Sovetlər Birliyi bu varlığın varisidir" ("Qafqaz Konfederasiya Hərəkatı") - yazan M.Ə.Rəsulzadə Qafqazın rus istilası tarixi ilə oxucunu tanış edir. Onun fikrincə, qafqazlılar "başlarına gələn fəlakətin birlik yoxluğundan irəli gəldiyi qənaətindədirlər". Müəllif yazır: "Bizi bir-birimizdən ayıracaq umdelərdən (prinsiplərdən - A.T.) birləşdirəcək umdelərə tevessül etmək (başlamaq, girişmək - A.T.) zərurətindəyik. Yeganə düşmənimiz müstevli (işğalçı - A.T.) rus ordusu, Rusiya bolşevizmidir. Kommunizmə və kommunistlərə aramızda yer yoxdur. Bunun xaricində isə Qafqaz istiqlalını səmimi olaraq dəstəkləyən və Konfederasiya idealına candan bağlı olan hər erməni, hər gürcü, hər dağlı və hər azərbaycanlı bizim sıramızda yer ala bilər və almalıdır. Demokratik sistemi və onun ideologiyasını qəbul edən bütün cərəyanlarla yoldaş ola bilərik. Rədd etdiyimiz yeganə doktrin rus bolşevizmində təzahür edən kommunizmdir". M.Ə.Rəsulzadə və onun silahdaşları "milli hüdudları daxilində qalıb üzərimizdə hər hansı bir haqq iddiasında olmayan rus milləti ilə dost kimi keçinmək" istədiklərini də dəfələrlə bəyan etmişlər.

"Qafqaz məsələsi" adlı irihəcmli məqalə problemə fundamental baxışdır. Burada Qafqaz birliyi ideyasının tarixi kökləri, onun meydana gəlməsini şərtləndirən amillər, bu ideyanın gerçəkləşdirilməsinə əngəl törədən Qafqazdaxili və xarici səbəblər, birliyin mahiyyəti, əhəmiyyəti, aktuallığı, həyata keçirilməsi forması və s. haqqında əsaslandırılmış, tutarlı elmi-nəzəri fikirlər öz əksini tapmışdır. Yazının "Məsələnin genəl tablosu" adlı hissəsində "Qafqazın tarixi topoqrafiyası ilə onun təbiəti tam bir ahəng təşkil etməkdədir. Keçidin siyasi müqəddəratı sahillərini yuyan dənizlər qədər dalğalıdır. Burada yaşayan millətlərin keçirdikləri qəza-qədər böyük dağlarla kölgəli dərələrin cizgiləri enişli və yoxuşludur" - deyə yazan müəllif Qafqazın coğrafi mövqeyini və təbii zənginliyini onun tarixi və taleyi ilə müqayisəli şəkildə təsirli, obrazlı ifadələrlə oxucuya təqdim

edir. Sonra Qafqazın tarixinə ətraflı nəzər salır.

Bölgənin yüz illər boyu qanlı döyüşlərə meydan olduğunu yazan M.Ə.Rəsulzadə göstərir ki, qədim dünyanın böyük sərkərdələri Qafqazda üz-üzə gəlirdi. "Qərblə Şərqin müxtəlif mədəniyyətləri arasındakı rəqabət və qarşılıqlı tartışmalar Qafqazda baş verirdi. Qədim Roma ilə qədim İran arasındakı ölüm-dirim savaşı burada cərəyan edirdi. Xristianlıq ilə atəşpərəstlik burada boy ölçüşürdü. İslamiyyət ilə xristianlıq da burada toqquşurdu. İran hakimiyyətini ərəb fütuhatı təqib etdi: bu da yerini türk irqinin fatihlərinə buraxdı". Təbii, coğrafi mənzərə kimi tarixi də böyük tablo kimi özünəməxsus publisistik məharətlə canlandıran M.Ə.Rəsulzadə oxucunun fikrinə və hissinə hakimlik edir, mövzuya marağı artırır. Məqalə sanballı tarixçi ilə istedadlı publisist qələminin məhsulu təsiri bağışlayır. Tarixi fakt və rəqəmlər statistik göstəricilər kimi sadalanmır, onlar obrazlı, oynaq dil və ifadə vasitələri ilə canlandırılır, Qafqazda baş verən bütün təbəddülat və tarixi hadisələrin yerli xalqların mədəni və mənəvi həyatında əsaslı dəyişikliklər yaratdığını yazan müəllifin fikrincə, "bu dəyişikliklər bütün qafqazlılara xas hürriyyət üçün mücadilə əzmi ilə öz mənliyini qoruma xarakterini dəyişmədi".

M.Ə.Rəsulzadə Qafqazın orta əsrlər dövrünün mədəni həyatına qısaca nəzər saldıqdan sonra monqol, səlcuq, teymurluların region üzərinə hücumu ilə Qafqazın yeni qanlı döyüşlər səhnəsinə çevrildiyini, XVI-XVII əsrlərdə isə İran və Türkiyənin Qafqaz uğrunda mübarizə apardığını, XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Rusiyanın bölgəyə geniş hərbi müdaxiləyə başladığını yazır. Müəllif Qafqaza qarşı çar Rusiyasının 50 ildən çox davam edən mübarizəsinin əsasən müsəlman Qafqazına yönəldiyini göstərir və Şeyx Şamilin, Gəncə xanı Cavad xanın ruslara qarşı şərəfli müqavimətini xatırladır. Rusiyanın Qafqaza yerləşməsi ilə buradakı dinlər və xalqlararası parçalanma gücləndi. Lakin bu xalqları birləşdirən mədəni, tarixi faktorlar

çarın "parçala və hökm sür" siyasətini üstələyirdi.

M.Ə.Rəsulzadə "çarlığın yıxıntıları üzərində" qurulan Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz cümhuriyyətlərinin hər birinin əhalisi, ərazisi, iqtisadiyyatı, tarixi, mədəniyyəti və istiqlal uğrunda mücadiləsi haqqında ayrıca bəhs edir.

Məqalənin "Bolşevik istilası altında Qafqaz" adlı hissəsi Qafqazın sovetləşdirildiyi dövrü, xüsusilə 20-30-cu illəri araşdırmaq, dəyərləndirmək baxımından maraqlıdır. Sovet tarixçiləri həmin illəri bütün sahələrdə sürətli inkişaf, misilsiz nailiyyətlər dövrü kimi təqdim edirlər. Halbuki, M.Ə.Rəsulzadənin təbirincə desək, "bu müddət ərzində məmləkət nələr görmədi, nə kimi sıxıntı və imtahanlara qatlanmadı". Sovetləşmənin ilk illərində Qafqazın hər tərəfini qanlı hadisələrin bürüdüyünü göstərən müəllif təkcə Gəncə üsyanında 10.000 nəfər dinc əhalinin öldürüldüyünü, Qarabağ, Zaqatala, Lənkəranın od-atəş içində boğulduğunu yazır.

Müəllifə görə, eyni hadisələr Gürcüstan, Ermənistan və Şimali Qafqazda da baş verirdi. "Üsyan və partizan hərəkatı bir protesto metodu idi" yazan müəllif bütün Qafqaz xalqlarının din və milliyyət fərqinə varmadan, Sovet hakimiyyəti əleyhinə birləşdiklərini göstərir. "Qurşuna düzülənlər", "həbsxanalara doldurulanlar", "sürülənlər", "təqibə məruz qalanlar" təkcə "millətçilər, burjua, qolçomaq tör-töküntüləri" deyildi, onların sırasında "yerli kommunistlərin bir çox ünlü şəxsləri" də var idi. Həmin adamlar "milli sapıntıçılıqla", "burjua nasionalizmi bulaşığına tutulduqlarına" görə ittiham edilirdilər.

M.Ə.Rəsulzadə sovet ideologiyası və tərbiyə sisteminin çürüklüyünü tutarlı və maraqlı faktlarla ifşa edir. O, göstərir ki, "Rus nasionalizmindən" fərqli olmayan "sovet patriotizmi" şüarı adı altında "Qafqaz istiqlalı və milli kültür dəyərlərinin tarixi şəxsiyyətlərinə" qarşı hücumlar edilir, gözdən salınır. Müəllif yazır: "Böyük qardaşın - rus millətinin birinciliyi fikrini sovetlərə daxil bütün millətlərə təlqin etmək sovet tərbiyə sistemi-

minin ana prinsipidir. Bu prinsipə uyaraq, dünən milli bir qəhrəman ikən, məşhur Şeyx Şamil bu gün ingilis kapitalının və Türkiyə sultanının zavallı bir uşağından başqa bir şey deyildir - deyə təşhir olunur (göstərilir, dilə gətirilir - A.T.). Bunun kimi Azərbaycan eposunun şah əsəri, almanların Nibelungeninə bənzədilən Dədə Qorqud hekayəsi dünən təqdir edilmiş bir əsər ikən, bu gün müsəlman saftaları (bir inanca kor-koranə bağlanan şəxs, kütbeyin - A.T.) ilə ərəb imperialistlərinin fikriyyatını yayan bir dərəbəyi menkıbesi (tanınmış din xadimi haqqında hekayət - A.T.) - deyə rədd və tezyif olunur" (dəyərsizləşdirilir, əhəmiyyəti azaldılır - A.T.).

Məqalənin "Qafqaz birliyi fikri mühacirətdə" adlı hissəsində M.Ə.Rəsulzadə əvvəlcə Cənubi Qafqaz Seymi dövründə və seymin dağılması nəticəsində yaranan müstəqil Qafqaz respublikaları zamanı Qafqaz birliyi ideyasına münasibətdən yazır. Onun qənaətinə görə, "Birləşik Qafqaz cümhuriyyətləri fikri, sonralar, istər iqtidar partiyaların, istərsə milli hökumətlərin və Qafqaz respublikaları parlamentarlarının müxtəlif zamanlarda aldıqları qərar, etdikləri təklif və yapdıqları göstəricilərdə özünü qüvvətli büruzə vermişdir". Müəllif bu mülahizəsini faktlarla əsaslandırır. Göstərir ki, "Şimali Qafqaz Cümhuriyyəti mümessillərinin (təmsilçilərinin - A.T.) vaxtı ilə Tiflisdə özlərinin də Cənubi Qafqaz Federasiyasına qəbul olunmaları haqqında təklifləri seymin Cənubi Qafqazın Rusiyadan ayrılması haqqında qərarı zamanı (13 aprel 1918) azərbaycanlı mümessilin (bu sətirləri yazan-A.T.) Şimali Qafqazla da birləşmə lüzumundan bəhsi, Gürcüstanın Cənubi Qafqazdan ayrıldığı sırada Gürcüstan dövlət başqanı N.Jordaniyanın "Ölən dövlətlə (Cənubi Qafqaz) doğulan dövlət (Gürcüstan) arasında mənfəət təzadları olmadığından günün birində müstəqil Qafqaz cümhuriyyətlərinin konfederə bir dövlət halında təkrar birləşəcəklərini" ifadə etməsi, daha sonra Gürcüstan Cümhuriyyəti ilə Azərbaycan Cümhuriyyəti arasında bağlanan əsgəri müdafiə ittifaq muahədəsi

(16.04.1919) və bu muahədədə Ermənistan Cümhuriyyəti üçün də yer buraxılması, Müsavat Partiyasının konqresində (Bakı, 1919) Qafqaz Konfederasiyası haqqında alınan qərar, Bakıda keçirilən erməni - Azərbaycan Konfransında (1920) Azərbaycan hökumətinin bu mövzuya aid təklifi, həmin təklifin Tiflisdə üç Cənubi Qafqaz dövləti müməssilləri konfransında təkrarı Şimali Qafqazın təhlükəsizliyinə dair əsgəri və maddi yardım ilə, sonra Denikinin taarruzu (təcavüzü, hücumu - A.T.) qarşısında Azərbaycan Parlamentinin bütün dünyaya müraciəti kimi Qafqaz mərkəzlərində görülən təsanüd (əməkdaşlıq-A.T.) təzahürləri bu birlik həsrətinin ifadələridir".

Müəllif müstəqillik günlərində dərk olunan, lakin gerçəkləşdirilə bilməyən bu fikrin istilanın verdiyi acı təcrübələrdən dərs almaqla mühacirətdə günün məqbul şüarına çevrildiyini yazır. Qafqaz mühacirətinə mənsub müxtəlif qrup və cərəyanlar arasında "münaqişə və mübahisə doğuran ana məsələlərin başında gələn bu fikir" Qafqaz cümhuriyyətlərini təmsil edən rəsmi simaları, siyasi və ictimai təşəkkülləri daim məşğul etmişdir.

Qafqaz cümhuriyyətlərinin Parisə - Versal Sülh Konfransına göndərilən nümayəndə heyətləri "təmsil etdikləri millət və dövlətlərin yüksək mənfəət və istiqlal haqlarını müdafiə etməklə bərabər, müştərək Qafqaz məsələlərinə də önəm verir, aradasırada, müəyyən mövzularla bağlı müştərək təmaslarda olurdular". Cümhuriyyətlər süqut etdikdən sonra onlar Qafqaz birliyi fikrinə daha çox meyl etməyə başlayır, nəticədə onları birləşdirən daimi bir Qafqaz Konseyi yaranır. Mühacirətdə Qafqaz millətlərinin təmsil olunduğu digər milli və siyasi təşəkküllər, müxtəlif qrup və partiyalar arasında da birlik ideyası möhkəmlənirdi. Nəticədə 1926-cı ildə Qafqaz İstiqlal Komitəsi (QİK) yarandı. Elə həmin il QİK-nın təşəbbüsü ilə fransız dilində "Prometey" adlı jurnal nəşrə başladı. M.Ə.Rəsulzadə yazır ki, bu dərgi Qafqaz Konfederasiyası fikrini metodik bir şəkildə müdafiə etmiş, mədəni dünya ictimai fikrini qafqazlıların istiqlal

uğrunda yürütdükləri müştərək mücadiləyə cəlb etmişdir. İkinci Dünya müharibəsi ərəfəsində jurnalın nömrələri 10 cilddə toplanaraq nəşr olunmuş və Avropa, Amerika kitabxanalarına verilmişdir. Qafqaz birliyi ideyasını Milli Azərbaycan hərəkatının "Yeni Qafqasya", "Odlu yurd", "Azəri türk", "İstiqlal", "Qurtuluş", şimali qafqazlıların rusca və türkcə "Hür Qafqaz", Gürcü Milli Hərəkatının "Pzdzola Tshma", "Prometey"çilərdən fərqli taktika güdən "Qafqasya" (müxtəlif dillərdə H.Bammatın rəhbərliyi ilə) nəşrləri yayırdılar.

Məqalədə 1934-cü il iyulun 14-də QİK-nın təşəbbüsü ilə Azərbaycan, Gürcüstan və Şimali Qafqaz respublikalarının Brüsseldə imzaladıqları Qafqaz Konfederasiyası Misakının mətni verilmişdir. 1935-ci ilin fevralında həmin misakı imzalayan tərəflərin iştirakı ilə Qafqaz Konfederasiya Şurası (QKŞ) yaradılır. 1940-cı ildə erməni təmsilçilər də həmin şuraya qoşulurlar.

M.Ə.Rəsulzadə yazır ki, İkinci Dünya müharibəsinin başlaması ilə Qafqaz hərəkatı müşkül duruma düşdü. Müharibə ərəfəsində Sovet İttifaqı ilə əməkdaşlıq siyasəti yeridən nasist Almaniya nüfuzunda olan bütün yerlərdə sovet əleyhinə fəaliyyəti, o cümlədən nəşrlərin buraxılmasını qadağan etdi. 1941-ci ildə SSRİ ilə müharibəyə başlayandan sonra da qadağa götürülmədi. Hitlerin ildırım sürətli hücum və işğal planı puça çıxdıqdan sonra - müharibənin sonuna yaxın Qraf Von Schulenburqun təşəbbüsü ilə Qafqaz mühacirətinin siyasi simalarından bir qismi Berlinə dəvət edildilər. Onların Qafqazla bağlı fikirləri istənildi. Azərbaycan, Ermənistan, Gürcüstan, Şimali Qafqaz cümhuriyyətlərinin nümayəndələri "təmsil etdikləri təşkilat və çevrələrin düşüncə və qənaətlərini verdikləri muhtıralarda (diplomatik nota - A.T.) bildirdilər". Bu sənədlərdə milli istiqlal tezisi israrla bəyan olunurdu. Qafqaz Cümhuriyyətlərinin ayrı-ayrılıqda verdikləri bilgi 22 avqust 1944-cü ildə müştərək halda bir daha Almaniya Xarici İşlər Nazirliyinə verildi. Həmin sə-

nəddə Qafqaz millətlərinin istiqlal uğrunda çarizmlə olduğu kimi, bolşevizmə qarşı da mübarizə apardıqları, dörd Qafqaz cümhuriyyətinin konfederasiya şəklində birləşmək niyyəti bildirilirdi.

Qafqaz təmsilçilərinin tələb və arzuları fürer qərargahı tərəfindən rədd edildi və legionerlərlə Vermaxt arasında əlaqə yaratmaq məqsədilə "milli istiqlal və demokratiya fikrindən azad" Rabitə Xidməti yaradıldı.

M.Ə.Rəsulzadənin fikrincə, fürer qərargahı burada da yanılmışdı. "Legionerlər hər fürsət gəldikcə, milli istiqlal ilə Qafqaz birliyini nümayiş etdirməkdən geri qalmadılar". Hətta Vermaxtın icazəsi ilə Qafqaz dillərində buraxılan legioner qəzetlərində belə istiqlal və Qafqaz birliyi fikri təzahür edirdi.

Müharibə bitdikdən sonra Qafqaz birliyi ideyasının yenidən canlandığını qeyd edən müəllif vaxtilə bir yazısındakı fikri vurğulayır: "... artıq qafqazlılar arasında konfederasiyaçı olub-olmamaq deyil, kimin daha səmimi və sadiq bir konfederasiyaçı olması söhbət mövzusudur. Qafqaz birliyi fikri bir ideya fors (güclü ideya - A.T.) halına gəlmişdir".

Məqalənin sonuncu - "Qafqaz Konfederasiyası" adlı hissəsi müəllifin də yazdığı kimi, deyilənlərin ümumiləşdirilmiş xülasəsidir. Qafqazın Rusiya tərəfindən çox uzaq olmayan bir zamanda zəbt olunduğunu göstərən M.Ə.Rəsulzadə özünün "Qafqazın nə qövm, nə kültür, nə də irq baxımından Rusiya ilə heç bir əlaqəsi yoxdur" fikrini bir daha xatırladır və iqtisadi, strateji baxımdan Qafqazın "müstəqil vahid", "bir bütün" olduğunu qeyd edir. Müəllifə görə, Qafqaz millətləri ortaq bir ruh və xarakterə malikdirlər və bunun nəticəsi kimi "Qafqazlı" deyilən psixoloji bir tip yaranmışdır.

Maraqlı və təqdirəlayiqdir ki, M.Ə.Rəsulzadə Qafqaz birliyi ideyasının üstün cəhətləri ilə yanaşı, onun reallaşdırılmasına mane olan səbəblər barədə də fikirlər irəli sürür. "Qafqaz məsələsinin zəif tərəfi Qafqazda yaşayan millətlərdəki siyasi orientasiyalı təzadlardır" - yazan müəllifə görə, regionun xristian qismi Rusiyaya, müsəlman qismi də güneydəki müsəlman məmləkətlərinə meylli idi. Bu mülahizə hazırkı şəraitdə xeyli mübahisəli görünür. Elə müəllifin bundan sonrakı "ruslaşdırma siyasətinə qarşı mücadilədə bütün Qafqaz millətləri birləşdilər" qənaəti də reallığı olduğu kimi əks etdirmir. Ümumiyyətlə, yeri gəlmişkən qeyd olunmalıdır ki, müəllif Qafqaz birliyi ideyasından bəhs edərkən, Qafqazın yarısı ermənilərin mövqeyinə qarşı sərt, kəskin münasibət bildirməyi lazım bilmir. Təbii ki, bu taktiki gedişdir və ermənilər hürkütməmək, soyutmamaq, əksinə, onları da bu ideyaya cəlb etmək niyyəti, sırf ideoloji təbliğat məqsədi güdür. "Geopolitik bir vəhdət təşkil edən Qafqaz daxilində yaşayan millətlərin eyni müqəddərata malik olduqları aşkar oldu" tezisini də təftiş etmək və nəinki Qafqazdakı millətlərin, bütün sovet xalqlarının taleyinin rejim içərisində eyni olduğunu söyləmək olar. Lakin birinci fikrin ikincini rədd etmədiyini nəzərə alsaq, o zaman təftişə ehtiyac olmadığı üzə çıxar.

M.Ə.Rəsulzadənin fikrincə, Qafqazın müsəlman qisminin Türkiyəyə qovuşmaq istəyi normal görünsə də, gürcü və ermənilər əndişələndirəcəkdir, nəticədə Rusiya Qafqazın xristian qisminin rusofilliyinə arxalanaraq, regionda daha da möhkəmlənəcəkdir. Müəllifə görə, çıxış yolu cənubda Türkiyə və İran kimi müsəlman dövlətləri ilə şimalda xristian Rusiya arasında "Eta tampon" (hail) (əngəl - A.T.) hökumət halında qurulacaq Qafqaz Konfederasiyasıdır. M.Ə.Rəsulzadə yazır: "Gürcülərlə ermənilər türk-müsəlman dünyasında boğulmaq təhlükəsindən özlərini masun (qorunan - A.T.) görür, azərbaycanlılarla Şimali Qafqaz müsəlmanları da Quzeydən gələcək təhlükəyə qarşı öz qonşuları ilə bağladıqları ittifaq sayəsində təmin etmiş olurlar".

Konfederasiyanın türkdilli xalqların regiondakı yerinə və roluna təsiri də maraqlı məsələdir. Və təsadüfi deyil ki, mübahisələr yaradan bu mövzuya da M.Ə.Rəsulzadə münasibət bildir-

mişdir. O, bu zaman bir azərbaycanlı mütəfəkkirin aşağıdakı sözlərini sitat gətirir: "İqtisadi cəhətdən qüvvətli, mədəni baxımdan qüdrətli olan Azərbaycan belə bir kombinezonda öz önəmini itirmək riskinə heç bir zaman məruz deyildir".

Məqalədə M.Ə.Rəsulzadə sovet milli və xarici siyasətinin mahiyyətini açmaq üçün maraqlı müqayisə aparır. Göstərir ki, sovet Rusiyasının siyasəti çar Rusiyasında olduğu kimi, imperialist ruslaşdırma üzərində qurulmuşdur. Türkiyə Respublikasında bu sahədə Osmanlı imperatorluğu dövründəkindən fərqli siyasət yürüdülür. "... Kamal Atatürk panislamizm və pantürkizm görüşlərindəki imperialist planları kökündən rədd etdi". Əgər Osmanlı dönəmində xristian Qafqazı Rusiyaya sığınmağa, onun vasitəsilə Avropaya açılmağa üstünlük verirdisə, bu gün mənzərə dəyişmişdir. Kamalist Türkiyə bolşevik Rusiyadan fərqli olaraq, Avropa dəyərlərini mənimsəmiş, onun qabaqcıl təcrübəsini özündə tətbiq etmişdir. Bütün bunları diqqətə çatdıran müəllif təbii və məntiqi nəticəyə gəlir: "... Qafqaz üçün Qərbi Avropa, başqa təbirlə, çağdaş mədəniyyət ilə təmas etmənin ən təbii yolu indi doğrudan-doğruya Türkiyə Cümhuriyyətindən keçir".

M.Ə.Rəsulzadə Qafqaz Konfederasiyasının Türkiyədə və Azərbaycandakı əleyhdarlarının adını və ünvanını demədən onlara "türk millətçiliyi ilə Qafqaz Konfederasiyası fikri arasında qətiyyən bir təzad yoxdur" - deyə cavab verir və Ə.Ağaoğlunun 1918-ci ildə "Azərbaycan" (№31, rus dilində) qəzetinə verdiyi müsahibədən sitat gətirməklə Qafqaz Konfederasiyasının regionun taleyi üçün yeganə çıxış yolu olduğunu bir daha vurğulayır... Ə.Ağaoğlu deyirdi ki, "Konfederasiya yaratmadan Qafqaz millətlərinin gərək ıç həyatda, gərəksə dış aləmə qarşı özbaşlarına münferit (ayrı, tək - A.T.), bir otonomi (avtonomiya, muxtariyyət - A.T.) halında necə yaşaya biləcəklərini, fikirdə belə təsəvvür edə bilmirəm".

Qafqaz Konfederasiyası ideyasının 1918-ci ildə nə qədər ak-

tual idisə, bu gün də o qədər aktual və önəmli olduğunu qeyd edən M.Ə.Rəsulzadə göstərir ki, 32 ildən bəri davam edən müştərək fəlakət 32 il əvvəl duyulan bu zərurətin qüvvəsini xeyli artırmışdır.

Tarixi inkişafın gedişatını və sonrakı mərhələlərini dahiyanə dəyərləndirən M.Ə.Rəsulzadə böyük uzaqgörənliklə Sovet İttifaqı dağıldıqdan sonra "Qafqazın alacağı siyasi idarə şəkli haqqında indidən bir qərara gəlmənin həyatı bir önəmə malik məsələ" olduğunu yazırdı. Əks təqdirdə, regiondakı millətlər "yeni bir savaş təhlükəsi ilə" üz-üzə qalacaqlar. "Gələcək Qafqaz rejimi haqqında indidən sarih (açıq, aydın - A.T.) bir fikir və qənaət birliyi təmin edilməlidir. Bu təmin edilmədən Qafqaz millətlərinin ən az qüvvə və fədakarlıq sərfi ilə ən çox hürriyyət və istiqlal imkanlarına qovuşması imkansızdır". Tarix M.Ə.Rəsulzadənin dediklərini təsdiq etdi. Qafqazın taleyi ilə bağlı müştərək fikir və iş birliyi olmadığı üçün Rusiyanın əlaltısı rolunda çıxış edən Ermənistan və digər separatçı qüvvələr regionu savaş meydanına çevirə bildilər.

Müəllif məqalədə Qafqazın gələcək taleyi haqqında regiondakı millətlərlə bərabər "Qafqaz millətlərini dəstəkləyən qüvvələrin" də "müştərək bir təsəvvürlərinin gərəkliyi"ni xüsusi vurğulayır və yazır ki, yoxsa Qafqaz bir-birinə zidd müxtəlif təsəvvür və planların qarşılıqlı mücadiləsinə səhnə olacaqdır. Böyük ideoloq M.Ə.Rəsulzadə məqaləni tarixi bir xəbərdarlıqla bitirir: "...Qafqaz Konfederasiyası ideyası bütün əlaqədarlarca indidən ciddiyyət və önəmlə ələ alınmalıdır!"

Yuxarıda qeyd etdiyimiz kimi, "Qafqasya" jurnalı regionun tarixi, ərazisi, əhalisi, mədəniyyəti, burada məskunlaşan xalqların adət-ənənəsi, həyat tərzi, yadelli işğalçılara qarşı birgə mübarizəsi, istiqlal uğrunda mücadiləsi, sovet rejimi və ideologiyası, onun mahiyyəti, perspektivsizliyi, bolşevizmin xalqlara gətirdiyi bəlalar, sürgünlər, edamlar, habelə beynəlxalq həyat və münasibətlər, Qafqaz birliyi ideyasının kökləri, inkişafı, aktual-

lığı, əhəmiyyəti barədə materiallar dərc edirdi. Bununla yanaşı, jurnal Qafqazın taleyinin birbaşa bağlı olduğu digər problemlərin işıqlandırılmasına da geniş yer verirdi. Rus mühacirlərinin Qafqazla bağlı mövqeyi, bolşevizmə qarşı mübarizədə onların yeritdikləri siyasət, bir qrup Azərbaycan mühacirinin rus mühacirləri ilə əməkdaşlığı və həmrəyliyi "Qafqasya"nın aparıcı mövzularındadır. "Qafqasya" xaricdəki rus mühacir təşkilatlarının "vahid və bölünməz Rusiya" mövqeyinə, belə qüvvələrlə birləşib bolşevizmə qarşı mübarizə aparmağa razılıq verən bir neçə qeyri-rus mühacir təşəkküllərinə, o cümlədən Almaniyadakı Azərbaycan Milli Birliyinə, hətta bu hərəkata himayədarlıq edən, onu maliyyələşdirən, istiqamətləndirən "Amerika Komitəsi"nə qarşı sərt, kəskin etirazını bildirirdi.

Jurnalda verilən (79, avqust 1951, №1) "Rusiya Millətlərini Qurtarma Şurası" haqqında tasarlanan (planlaşdırılan - A.T.) layihə münasibətilə "Müsavat Xalq Partiyasının açıqlaması", "Gürcü Mərkəzinin bəyannaməsi" adlı yazılar, Ş.Turqanın "Rus mühacirləri və Sovetlər Birliyində milliyyət məsələsi" (637), F.Daryalın "Məcburi bir izah" (332), "Bir məktuba cavab" (333), habelə "Rusiya Xalqlarının Qurtuluş Şurası", "Kerenskinin intriqaları", "Yalan və iftira", "Azərbaycanlıların protestosu", "Gürcülərin protestosu", "Türküstanlıların protestosu" (79, №4-5, noyabr-dekabr, 1951), Data Vacnadzenin "Birimiz hamımız, hamımız birimiz üçün" (680), Nağı Keykurun "Rus və qeyri-rus mühacirəti" (381), H.Kazbekin "Ruslarla əlaqəmiz" (373), "Rusların admiral Kerk ilə mülakatı (dialoqu, söhbəti - A.T.) (377), "Ştanberq konfransı" (375), "İkiüzlülərin qeyrəti" (376), "Milliyyətlər məsələsi və milli məfkurə dönmələri" (374), Mirzə Balanın "Rusiya parçalansınmı, parçalanmasınmı?" (509), Tarion Tulabekin "Kerenskilər də mütləq itaət edirlər" (636), Süleyman Təkinərin "Hadisələr qarşısında" (615), M.H.Türkəqulun "Rus imperializmi və sülh" (640) adlı və başqa çoxsaylı materiallarda beş rus mühacir təşkilatının Düssen

(16 yanvar 1951) və Ştutqart (19 avqust 1951) toplantılarının qərarına əsasən onların və 5 qeyri-rus mühacir təşkilatlarının iştirakı ilə Visbaden (7 noyabr 1951), Ştanberq (1952) və Münhendə (16 oktyabr 1952) keçirilən konfranslarının sənədləri kəskin tənqid olunur, rus mühacir təşkilatları imperialist niyyətlərinə, qeyri-rus mühacir təşkilatlar isə milli mənafeyə xəyanət etdiklərinə görə hədəfə alınır. "Rus mühacirləri və Sovetlər Birliyində milliyyət məsələsi", "Rusiya Xalqlarının Qurtuluş Şurası" və b. yazılarda 50-ci illərin əvvəllərində Sovetlər Birliyinə qarşı güclənən ideoloji mübarizənin nəticəsi kimi "bir xeyli canlanan rus mühacirəti", onun proqramı, mübarizə yolları, xüsusilə "milliyyət məsələsi haqqında nə düşündükləri" barədə ətraflı bəhs olunur.

Birinci məqalənin sərlövhəsi altında rus mühacirlərinin ünvanına yazılmış "Onlar heç bir şey öyrənmədilər və heç bir şey unutmadılar" cümləsi əslində əvvəlcədən müəllifin rus mühacirlərinə münasibətinə aydınlıq gətirir. O, haqlı olaraq qeyd edir ki, milli istiqlalları üçün mücadilə edən qafqazlılar rus çevrələrinin milliyyət məsələsi haqqındakı nöqteyi-nəzərini bilmək zorundadır. Müəllif yazır: "Rus monarxist cərəyanlarla, xüsusilə "Nabat" (Almaniya), "Znamya Rossiyi" (Amerika) və "Naşa strana" (Argentina) kimi qəzetləri olan təşəkküllərlə iştiqal (məşğul olmaq - A.T.) etməyəcəyik. Onların nəzərində yalnız bir böyük rus milləti mövcuddur və ortodoks rus çarının hökmranlığı altında bir tək böyük və bölünməz Rusiya mövcud olmalıdır. "Separatislərə gəlincə, bir kolordu (əsgəri birlik - A.T.) buraya, bir kolordu oraya göndərər, bəzilərini ipə çəkər, digərlərini Sibirə sürər və bölünməz, böyük Rusiya sütliman (gurultusuz, sakit - A.T.) olar!" deyirlər.

Müəllif rus mühacir təşəkküllərinin hər birinin rəhbərlik iddiasında olduğunu qeyd edir və onların proqramlarına nəzər salır. "Rusiyanın hürriyyəti üçün mücadilə birliyi" (Melqunov), ""Milli Əmək Birliyi", yaxud "Solidarnost" (Baydalakov), "Xal-

qın Hürriyyəti Uğrunda Mücadilə Cəmiyyəti" (Kerenski), "Rusiya Xalqlarının Qurtuluşu üçün Mücadilə Birliyi" (Yakovlev) kimi rus mühacir təşəkküllərinin bolşevizmə qarşı mübarizə taktikasında müəyyən fərqlərin olduğunu yazan müəllif, bu təşkilatların "millətlərin təyini müqəddərat haqlarını və hər hansı bir millətin Rusiyadan ayrılmasını qəti rədd etməkdədirlər" fikrini xüsusi vurğulayır.

Melqunovun rəhbərlik etdiyi birlik öz proqramında rəsmən "hər cür seperatizmi", bu ifadə altında milli hürriyyətləri tanımadıqlarını bəyan edir və Rusiyanın müstəqil dövlət quruluşu üçün "ərazi prinsipi" adı altında "bölgə federasiyası" fikrini ortaya atır. "Mühacirətdə 30 illik rahat bir təfəkkürdən sonra B.Melqunov başqa bir şey tapmadı və tapmasına da imkan yoxdur" - deyə yazan müəllif bunun səbəbini belə izah edir: "Çünki onunla həmfikirləri üçün mühüm olan cəhət haqq, hürriyyət və ədalətin təcəllisi deyil, vahid və böyük Rusiyanın mühafizəsidir".

Kommunizmdən qurtulacaq Rusiyada milli istiqlalı daha kəskin rədd edən "Solidarnost" xarici təzyiqlərin təsiri altında milli müqəddəratın təyini üçün xalqa müraciət oluna biləcəyini istisna etmir.

"Xalqın Hürriyyəti üçün Mücadilə Cəmiyyəti" üzdə SSRİ xalqlarının öz müqəddəratlarını təyin etmək hüququnu tanısa da, "Böyük Rusiyanın vəhdəti" prinsipindən vaz keçmir. Onların fikrincə, bu hüquq Rusiya Federasiyası çərçivəsində həyata keçirilməlidir: "Öz müqəddəratınızı təyin edə bilərsiniz, ey millətlər, fəqət Rusiyadan ayrıla bilməzsiniz!".

"Rusiya Xalqlarının Qurtuluşu üçün Mücadilə Birliyi" "Vlasov manifesti"nin əsaslarına bağlı bir təşəkküldür" yazan müəllif qeyd edir ki, SSRİ xalqlarının nümayəndələri hələ müharibə zamanı yəqin etmişlər ki, üzdə xalqların öz müqəddəratını təyin hüququnu qəbul edən Vlasovun mövqeyi əslində milli cümhuriyyətlərin istiqlal məsələsində "Denikin siyasətinin bir bənzəri"dir.

Beləliklə, müəllif Ş.Turqan rus mühacir təşkilatlarının bir qisminin bolşevizmin iflasından sonra SSRİ-də məskunlaşan xalqların taleyi ilə bağlı fikirlərini, milliyyət məsələsi ilə əlaqədar mövqelərini araşdırır, münasibət bildirir və sonda rus alimi Fyodrovun "Rus ədəbiyyatı dünyanın vicdanı, rus siyasəti isə xalqlar üçün korkuluqdur" (burada "qəfəs" mənasında - A.T.) sözlərini unutmadıqlarını xatırladır və "təmənni edək ki, rus siyasətinə bir miqdar vicdan da nüfuz etsin" yazır.

Rus mühacir təşkilatları milli məsələ ilə bağlı mövqelərini izhar etdikcə, "qeyri-rus təmsilçilər də öz tələblərini sarih (açıq-A.T.) və qəti olaraq bildirirlər". "Rusiya Xalqlarının Qurtuluş Şurası" adlı məqalədə belə deyilir və qeyd olunur ki, Amerika Komitəsinin himayəsində olan rus mühacir təşəkküllər komitənin təzyiqi ilə öz mövqelərini bir qədər yumşaldır, bu barədə bəyanatlar verir və qeyri-rus mühacir təşkilatlarla əlaqə və əməkdaşlığa razı olduqlarını elan edirlər. "Qafqasya" bu bəyanatları "dumanlı, qeyri-qəti" adlandırır və yazır ki, Amerika Komitəsinin təqib etdiyi qayə sadəcə, "Rusiya xalqlarının qurtuluşu deyildir". "Qafqasya" bu cəsarətli mövqeyini onunla əsaslandırır ki, Amerika Komitəsi "sovet diktatorluğuna qarşı amansız mücadilə etməyə hazır olan bütün rus siyasi cərəyanlarına deyil, yalnız seçdiyi bəzilərinə yardım edir".

Amerika Komitəsinin maliyyələşdirdiyi, təlimatlandırdığı 5 rus mühacir təşkilat - "Rusiyanın Hürriyyəti üçün Mücadilə Birliyi", "Milli Əmək Birliyi", "Rus Xalq Hərəkatı", "Xalqın Hürriyyəti üçün Mücadilə Cəmiyyəti", "Rusiya Xalqlarının Qurtuluşu üçün Mücadilə Birliyi" Komitənin təzyiqi ilə Sovetlər Birliyindən olan qeyri-rus mühacirlərlə əməkdaşlığa razılıq verərək, SSRİ-yə qarşı mücadiləni idarə etmək üçün qurulması nəzərdə tutulan Mərkəzə onların da cəlb olunmasını mümkün hesab etdi. Mərkəzə "Rusiya Xalqlarının Qurtuluş Şurası" (RXQŞ) adı verildi.

Məqalədə göstərilir ki, RXQŞ-nın Füssen (yanvar 1951), Ştutqart (avqust 1951) və Visbaden (noyabr 1951) konfransla-

rından sonuncuya "mövcud olmayan və uydurulan sözdə milli təşkilatların təmsilçiləri" də cəlb edildi (belarusiyalı, qafqazlı, türküstanlı, Ukrayna təmsilçisi uydurmaq mümkün olmadı).

Məqalə müəllifi daha sonra RXQŞ-nın "hərəkətlərini soyuqqanlılıqla təhlil etməyə" çalışır. RXQŞ öz qarşısında duran ilk vəzifənin "Kreml diktatorluğunun devrilməsi" olduğunu elan edir. Yalnız bundan sonra milliyyətlər məsələsi ilə məşğul olmaq olar. Müəllif yazır ki, fərz edək Sovetlər Birliyi çökdü, kim zəmanət verə bilər ki, iqtidarı ələ keçirəcək yeni rus hökuməti sözün tam mənasında demokratik olacaq? Amerika Komitəsi rus mühacirətinin monarxist və sağ cərəyanlardan olan qrupları öz fəaliyyətinə cəlb edə bilmir. Onlar millətlərin öz müqəddəratını təyin etmək fikrini eşitmək belə istəmirlər. Bu qüvvələri görməyən və görmək istəməyənləri müəllif "siyasət dəvəquşları" adlandırır. Yazır ki, sovet rejimi daxili bir ixtilaf nəticəsində çökərsə, çomağı qapan çoban olacaq və çomağı onun əlindən almaq asan olmayacaqdır.

Rus mühacirləri tez-tez xatırladırlar ki, ağların məğlubiyyətində, Rusiyada bolşevizmin qələbəsində qeyri-rusların böyük rolu olmuşdur. Lakin bunun niyə belə olduğunu aydınlaşdırmaq istəmirlər.

Müəllif mühacirətdəki ruslarla qafqazlılar arasında işbirliyi məsələsinə toxunarkən ilk şərt kimi, 1918-ci ildə Qafqaz cümhuriyyətlərinin Rusiyadan ayrılması faktının ruslar tərəfindən qeyd-şərtsiz qəbul edilməsini irəli sürür. Ruslar xalqlara qarşı törədilən cinayətləri etiraf etməlidir. Ruslarla iş birliyi yalnız bu əsaslar üzərində həyata keçirilə bilər. Qafqaz xalqlarının istiqlal tələblərini və haqlarını bu və ya digər bəhanələrlə şübhə altına ala biləcək ikiüzlü təşəbbüsün Rusiya ilə Qafqaz arasında etimadsızlığın daha da dərinləşməsinə səbəb olacağını yazan müəllif göstərir ki, tək bir şərtlə - istiqlalımızın və hökmranlığımızın tanınması və ona hörmət edilməsi şərti ilə rus siyasi qrupları ilə görüşə bilərik.

"Qafqasya"nın bu qənaəti 30 ildən də yuxarı xaricdə Azərbaycanın istiqlalı uğrunda ideoloji mübarizə aparan siyasi mühacirətin aparıcı qüvvəsinin - Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyasının mövqeyinə tam uyğun idi.

Onlara müxalifətdə olan mühacirlər isə müstəqil və fərqli hərəkət edirdilər. Mühacirlər arasında ixtilafların kökü 20-30-cu illərə gedib çıxsa da, 50-ci illərin əvvəllərində bu münasibət, münaqişə təzələnməyə, daha kəskin, barışmaz forma almağa başlayırdı. 20-30-cu illərdə Türkiyədəki mühacirlərin kiçik bir qrupu (Ş.Rüstəmbəyli, N.Şeyxzamanlı, M.Vəkilov və s.) M.Ə.Rəsulzadəyə qarşı yönəldilmiş ittihamlarla çıxış edir və mübahisələr əsasən partiyadaxili münaqişə xarakteri daşıyırdı.

Mühacirətin Türkiyədən sonra güclü qanadı sayılan Paris qrupu İstanbulda baş verən hadisələrə laqeyd qalmırdısa da, öz mövqeyini şəfibəyçiliyə səthi simpatiya ilə məhdudlaşdırırdı. Lakin İkinci Dünya müharibəsindən sonra legionerlərin mühacirət səhnəsinə çıxması ilə mənzərə bir qədər dəyişdi. Doğrudur, 20-30-cu illərdə M.Ə.Rəsulzadəyə qarşı kəskin əks mövqedə duranlardan bəziləri yanlış yolda olduqlarını etiraf edərək, əsassız ittihamlardan əl çəkdilər. Əvəzində Avropadakı əski mühacirlərdən C.Hacıbəyli, Ə.Şeyxülislam və legionerlərin rəhbəri Ə.F.Düdənginski, habelə Ankara və İstanbuldakı bəzi mühacirlər, onları birləşdirən dərnəklər və orqanları ("Türk izi", "Türk yolu", "Mücahid" jurnalları) M.Ə.Rəsulzadə və onun ətrafındakılara qarşı münasibəti sərtləşdirməyə başladılar. Bütün mübahisələr, qarşılıqlı ittihamlar "Azərbaycan" (Münhen), "Türk izi", "Türk yolu", "Mücahid" kimi nəşrlərdə olduğu kimi, "Qafqasya"da da öz əksini tapırdı. Burada mübahisə predmeti əsasən rus mühacir təşəkkülləri ilə əməkdaşlıq məsələsi və Qafqaz Konfederasiyasına münasibət idi.

Münhendəki Azərbaycan Milli Birliyinin RMQŞ ilə əməkdaşlığı AMM və Müsavat Partiyasının üzvlərini hiddətləndirmişdi. Hələ Almaniyanın Ştutqart şəhərində A.Kerenskinin rəh-

bərliyi ilə 5 rus mühacir təşkilatının keçirdiyi RMQŞ-nın təsis konfransına (28.08.1951) sərt reaksiya verən qeyri-rus mühacir təşkilatlarının, o cümlədən Müsavat Partiyasının, Gürcü Mərkəzinin bəyanatları (79, №2-3, sentyabr-oktyabr 1951) RMQŞ ilə əməkdaşlığın qeyri-mümkünlüyünə işarə idi. Amerika Komitəsinin təsiri ilə RMQŞ-ni yaradan rusların sonradan Visbaden (7 noyabr 1951) konfransına qatılmaqla bəzi qeyri-rus mühacir qrupları ilə əməkdaşlığı təbii ki, Azərbaycanı uzun illər boyu xaricdə təmsil edən mühacirləri ciddi narahat etməyə başladı. "Qeyri-rus məsul bəzi əşxasın (şəxslərin - A.T.), qeyri-rus millətlərin "müməssilləri" sifətilə rus siyasi təşkilatlarının Visbadendə tərtiblədikləri "müştərək müzakirələrdə" iştirak etmələri və bu surətlə rusların oyunlarına qatılaraq Rusiya məhkumu millətlərinin milli davalarını Rusiyanın daxili məsələsi halında təşhir etmələri (göstərmələri, bildirmələri - A.T.) gözlənildiyi kimi, qeyri-rus siyasi mühacirətində dərin bir infial (qəzəb - A.T.) oyandırdı" ("Visbaden toplantısı münasibətilə" (13, №4-5, noyabr-dekabr 1951). Məqalədə göstərilir ki, rus olmayan millətlərdən Ukrayna bu toplantıya qatılmamışdır. Ermənilərin, gürcülərin, şimali qafqazlıların və türküstanlıların "bəlli-başlı tanınmış heç bir şəxsiyyətinin isimləri də" burada iştirak etməmişdir. Azərbaycan Milli Birliyi adında təşəkküldən isə Ceyhun Hacıbəyli, Əkbər Ağa Şeyxülislamov, İsmayıl Əkbər adında üç nəfər azərbaycanlı toplantıya cəlb olunmuşdur.

Məqalədə göstərilir ki, Ankara və İstanbulda mühacirlər yığıncaqlar keçirərək, Azərbaycan Milli Birliyinin bu addımını, "məsuliyyət hissindən məhrum xəyanət əsəri", "ruslara alət olmaq surətilə milli davaya xəyanət" kimi dəyərləndirir, onların mövqeyinə ciddi etiraz edirdilər. Jurnalın həmin nömrəsində gürcü, Şimali Qafqaz və Türküstan mühacirlərinin də öz həmvətənlərinin mövqeyinə sərt münasibəti əksini tapmışdır.

Fuad Daryalın "Bir məktuba cavab"ında (332) əsas mövzu və məqsəd Ə.F.Düdənginski tərəfindən ona ünvanlanmış məktuba

münasibət bildirmək olsa da, "Visbaden macərasının azərbaycanlılara aid qismini pərdə arxasında tərtibləyən Fətəlibəylinin" görüşlərinin tənqidinə geniş yer verilir. Visbaden konfransının sənədlərinin mahiyyətini açan və onu istiqlal davasına zərbə hesab edən F.Daryal Ə.F.Düdənginskini də məlum toplantı ilə əlaqədar günahlandırır: "Mən ittihamlarımın məsuliyyətini bilən insanam: əgər Fətəlibəyli Visbaden konfransında iştirak etmək üçün azərbaycanlını təşviq (həvəsləndirmək, məcbur etmək - A.T.) etməmişsə və tasvip etmirsə (özünün düşüncə və davranışının doğru olduğuna əmindirsə - A.T.), bunu heç bir dolambaclı yola sapmadan, açıqca söyləsin və Azərbaycan mühacirətinin yekvücud olaraq yapdığı protestoda iştirak etdiyini bildirsin. O zaman mən əfkari - ümumiyyə qarşısında ondan üzr istəməyə hazıram".

F.Daryal yazısında Ə.F.Düdənginskiyə münasibətində bəzən hisslərini cilovlaya bilmir, ifrata varır. Bununla belə, bu mənbə Visbaden konfransına mühacirətin reaksiyasını öyrənmək baxımından diqqəti çəkir.

Fuad Daryalın "Məcburi bir izah.... daha" (333) adlı məqaləsi eyni mövzuya həsr olunsa da, həm sənətkarlığı, həm də əhatəliliyi ilə yadda qalır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, uzun illər Türkiyə mətbuatı ilə sıx əməkdaşlıq etmiş, jurnalistika sahəsində zəngin təcrübə qazanmış, öz təbiri ilə desək, "mühacir mətbuatında çıxan məhdud miqdarda yazıdan başqa, Türkiyə mətbuatında yüzlərcə deyil, imzalı, imzasız minlərcə yazısı çıxan" F.Daryalın məqalələri professionallığı, kəsərliliyi, sənətkarlığı baxımından fərqlənir. Haqqında bəhs etdiyimiz məqalə də istisna təşkil etmir. Müəllif məqalənin əvvəlində mövzuya ikinci dəfə müraciət etməsinin səbəbini açıqlayır və yazısının sərlövhəsini toreadorların istifadə etdikləri qırmızı qumaşa bənzədir. Qumaş öküzün diqqətini cəlb etdiyindən, "o zaman buynuzlarından yaxalayıb, qulaqlarını kəsmək asan olur". Əlbəttə, F.Daryal əvvəlki yazısında olduğu kimi, burada da Azər-

baycan mühacirləri arasında böyük nüfuza malik şəxslərə münasibətdə ifrata varır. Müəllif Visbaden konfransına qatılan Azərbaycan Milli Birliyinin rəhbərliyini "ruslarla eyni masaya oturub milli Azərbaycan davasını Rusiyanın iç məsələsi halında müzakirə etdiklərinə, eyni zamanda mətbu orqanlarında öz mövqelərinə hər vəchlə bəraət qazandırdıqlarına" görə bağışlaya bilmir. O yazır: "Əvvəla, bu mahut (haqqında bəhs olunan, adı keçən - A.T.) "Visbaden konfransı" çibanını deşək, heç bir tevil (söz və ya davranışa başqa məna vermək - A.T.), heç bir izah və heç bir "taktiki mülahizə" bu həqiqəti gizləyə bilməz ki, Azərbaycan adı altında bu konfransda iştirak edənlər, Azərbaycan milli davasının Rusiyanın iç məsələsi olaraq tetkikinə (incələmə-A.T.) razı olmuşlar. Bunu bilərək etmişlərsə, xəyanət etmişlər. Şüursuzca və bilməyərək bu oyuna qatılmışlarsa, o zaman da bu işlərdən çəkinməli və artıq Azərbaycan adından danışmaq iddiasından vaz keçməlidirlər". Göründüyü kimi, F.Daryalın mövqeyi qəti və sərtdir. Səbəb məlumdur. Onun fikrincə, Visbadendə imzalanan əsaslar daxilində "bolşevizmə qarşı müştərək cəbhə" açmaq Azərbaycanda Qızıl rusların yerinə, Bəyaz rusların gətirilməsini asanlaşdırmaq deməkdir.

F.Daryalın qələmi kimi, məntiqi də güclüdür. O, bolşevizmə qarşı müştərək cəbhəyə "dəmir pərdə" arxasındakı məhkum millətlərinin hamısının cəlb olunmadığını qeyd edir və opponentlərindən soruşur: "Nə üçün Litva, Latviya və Estoniya təmsilçiləri toplantıda iştirak etməmişdir?" O zaman rus mühacirlər "biz bu üç Baltik məmləkətinin istiqlalını tanıyırıq" - deyə cavab verirlər. Demıəli, onlar Visbaden konfransında iştirak edən qeyri-rus mühacir təşəkküllərinin təmsil etdikləri ölkələrin, o cümlədən Azərbaycanın istiqlalını qəbul etmirlər.

F.Daryal Ə.Şeyxülislamın, Ə.F.Düdənginskinin özlərinə bəraət qazandırmaq məqsədilə "Azərbaycan" (Münhen) jurnalında dərc etdirdikləri məqalələrə işarə vuraraq "kimə qarşı mücadilə etdiyinizi lütfən, izah edərsinizmi?" deyə sual verir.

Müəllif daha sonra M.Ə.Rəsulzadə ilə vaxtilə olan soyuq münasibətinə də açıqlıq gətirir, Ə.Düdənginskinin müharibə dövrü fəaliyyətinə nəzər salır, onu tənqid atəşinə tutur.

Əgər F.Daryalın məqaləsi rus mühacirləri ilə iş birliyinə qatılan bir qrup azərbaycanlı mühacirin mövqeyinin tənqididirsə, N.Kazbekin "Ruslarla əlaqəmiz" (373) adlı məqaləsini ümumiyyətlə, qeyri-rus mühacirlərinin bu mövzuya münasibəti adlandırmaq olar.

Məqalədə kerenskilərin, baydalakovların, melqunovların timsalında rus mühacirlərinə açıq-aşkar bəyan edilir ki, ".... bizlər üçün bəhs konusu olan məsələ sadəcə, bolşevizmlə mücadilə deyil, sadəcə, bir rejimin yerinə digərinin gətirilməsi deyil, milli mövcudiyyət və xalqlarımızın ölüm-dirim məsələsidir". Müəllif rus mühacirlərinin siyasətini "mütənəvvi (iyrənc-A.T.) və istikrarsız (qərarlı olmayan, müvazinətsiz-A.T.), bəzi istisnalarla ideoloji baxımdan mürtəce və imperialist, metod baxımından sərgüzəştçi və şüursuz" adlandırır. O, rusların Qafqazla bağlı qanla yoğrulmuş tarixinə nəzər salır, rus mühacirlərini Qafqazın maddi və mənəvi sərvətlərini, qafqazlıları məhv edən rennenkamflardan, sisyanovlardan, paskeviçlərdən və serovlardan ciddi fərqi olmadığına işarə vurur və soruşur "... əgər həqiqətən dostlarımızsınızsa, niyə siz - rus mühacirəti qeyri-rus mühacirlərinin iştirak etdikləri Qafqaz faciəsinin 8-ci ildönümünə (Şimali Qafqaz xalqlarının kütləvi sürgün olunmasının 8-ci ildönümü tədbirləri nəzərdə tutulur - A.T.) biganə qaldınız?" Bu qisim mühacirlərlə və onlara bənzərlərlə "bizim dil tapmağımız imkansızdır" yazan müəllif göstərir ki, belələri sələflərinin yolu ilə gedirlər, biz isə vətənimizin, ulularımızın vəsiyyətlərinə uyğun hərəkət edirik.

Məqalə müəllifi özlərini demokratik adlandıran rus mühacirlərinə çıxış yolu da göstərir: "Həqiqi rus demokratlarına isə - əgər belələri mövcuddursa, biz bunu söyləyirik: imperialist zehniyyətdən və zümrələrdən vaz keçin. Bəyaz irticadan ayrılmaq

cəsarətini tapın, hürriyyət və istiqlalımızı qeyd-şərtsiz tanıyın - o zaman bərabər şərtlərlə dialoqa hazırıq".

Jurnalın həmin nömrəsində Nağı Keykurunun (Şeyxzamanlı - A.T.) "Rus və qeyri-rus mühacirəti" adlı yazısında (381) rus mühacirlərinin fəaliyyəti təkzibolunmaz faktlarla dəyərləndirilir və kəskin tənqid edilir. Bəyaz rusların düşməni "qızıllaşmış Moskva olduğu halda, onlar nə üçün Qafqazın üzərinə yeriyirdilər" sualını verən N.Keykurun belə qənaətə gəlir ki, bəyazların düşüncəsində heç nə dəyişməmişdir: onların "... bütün əməlləri və qayələri Rus çarlığını bərpa etməkdir". Müəllif yazır: "Dünənki Ağ Rusiya nə idisə, bugünkü Qızıl Rusiya nədirsə, sabahkı Ağ Rusiya da bəşəriyyət və mədəniyyət üçün o olacaqdır". N.Keykurun bu nəticəyə təsadüfən gəlmir, o, Ağ və Qırmızı rusların proqramını, fəaliyyətlərini dərindən araşdırır. Yazır ki, bəyazlar 20 il əvvəl Parisdə keçirdikləri bir toplantıda rus olmayan millətlər üzərində rus hökmranlığını olduğu kimi saxlamağa qərar vermişdilər. Bu gün Amerika Komitəsinin təzyiqi ilə onlar millətlərin öz müqəddəratını təyin etmək hüququndan bəhs edirlər. Lakin dərhal da məsələnin reallaşması barədə "yalnız Rusiyanın qurtuluşundan sonra" müzakirə ediləcəyini vurğulayırlar. Müəllif Visbaden toplantısının iflasını təbii hesab edir və yazır: "Bütün qəlbimiz və imanımızla inandığımız və ümid etdiyimiz budur: yaxınlarda, həm də çox yaxınlarda Qızıl vəhşət rejimi çökəcək, onun enkazı (xarabalıqları - A.T.) üzərində yeni bir zindan deyil də, hürriyyət və mədəniyyət beşiyi milli dövlətlər qurulacaqdır".

Mirzə Balanın "Milli istiqlal davamızın bugünkü səhifəsi" adlı yazısı (348) bir tərəfdən, "qayəsi bu və ya digər surətlə, bu və ya digər ünvan altında və nəyin bahasına olursa - olsun, "vahid və bölünməz Rusiya qurmaqdan" ibarət olan rusların niyyətlərini, iç üzünü ifşa edirsə, digər tərəfdən, "milli istiqlal davamızı ruslarla bir bazarlıq mövzusu halına" gətirən, Visbaden Konfransına qatılan qeyri-rus, o cümlədən Azərbaycan mühacirlərinin yanlış mövqelərini tənqid edir. Rus mühacirləri Sovetlər Birliyinin yerində qurulacaq yeganə dövlət kimi Rusiyanı görürlər. Onların arasındakı demokrat və liberalların bu məsələyə münasibətində prinsipial fərq də yoxdur. Demokratlar Rusiyanın Federativ bir dövlət olmasını istəsələr də, onların nəzərində federasiyanın "tərifi və təsviri indi (özünəməxsus-A.T.) və sakatdır (yanlış, yarımçıq-A.T.).

Rus mühacirləri heç vaxt qeyri-ruslarla əməkdaşlıq etməmişlər. Onlar nə "Prometey" birliyində, nə də "Ukrayna, Qafqaz, Türküstan Komitəsi"ndə olmuşlar. Amerika Komitəsinin təzyiqi ilə rus mühacirlərinin qeyri-ruslarla əməkdaşlıq istəyi məcburi addımdır və ruslar qeyri-rusların milli müqəddəratlarını təyinetmə hüquqlarına yalnız Rusiya Federasiyası daxilində baxılacağını da gizlətmirlər. Odur ki, Mirzə Balanın "Milli istiqlal davamızı ruslarla bir bazarlıq mövzusu halına gətirmək rus imperialistlərinin qayə və əməllərini asanlaşdırmağa yarayır" qənaəti təbii və haqlıdır.

Rus mühacirlərinin bolşevizmə qarşı mücadilə ilə paralel əski Rusiya hüdudları çərçivəsində yeni imperiya yaratmaq istəyini, məhkum millətlərin istiqlalını qəbul etmədiklərini, bir sıra qeyri-rus mühacir təşkilatların, o cümlədən Azərbaycan Milli Birliyinin (Münhen) də ruslarla əməkdaşlıq cəhdlərini kəskin ittiham edən "Qafqasya" bununla kifayətlənmir: həmin qüvvələri maliyyələşdirən, təlimatlandıran Amerika Komitəsini də cəsarətlə tənqid edirdi. "Qafqasya" Amerika Komitəsini qeyri-rus mühacir təşkilatlara qarşı "diqqətsizlik və əlaqəsizliyini" müxtəlif səbəblərlə izah etsə də, başlıca səbəb kimi ictimai rəyi aldadan rus mühacirətinin təbliğatının mühüm rolunu xüsusi qeyd edir. Diqqəti bu cəhətə cəlb edən "Qafqasya" bir tərəfdən rus mühacirlərinin əsl simasını açır, digər tərəfdən, qeyri-rus mühacir təşkilatlarını ayıq-sayıq və daha fəal olmağa dəvət edir" (79, №14, sentyabr 1952).

"Hər şeydən öncə-milli istiqlal" (349) adlı yazı Amerika Ko-

mitəsini tənqid etmək baxımından daha ciddi və kəskindir. Müəllif bürada Amerika Komitəsinin sədri admiral Kerki "Sovetlərdəki millətlərin istiqlal haqqını şübhə altına aldığına" görə qınayır və yazır: "Bizim üçün hər şeydən öncə milli istiqlalımız bəhs mövzusu olduğu halda və müqəddəs haqqımızın qeyd və şərtsiz tanınmasını tələb etdiyimiz halda, Visbaden anlaşmasına girənləri mənən və maddətən dəstəkləyən Amerika Komitəsinin siyasətinə tərcüman olan admiral Kerk bunun tam əksini iddia edir; hətta daha irəli gedərək, "bir çox millətin qaynayıb-qarışıb tək bir millət" ola biləcəyini mümkün görür. Mirzə Bala Kerkin belə yanlış fikrinin formalaşmasında rus mühacirlərinin təbliğatının ciddi rol oynadığını qeyd edir. Bu təbliğatın təsiri ilə Amerika Komitəsinin rəhbəri "millətlərin istiqlal hərəkatının bir müəmma" olduğu qənaətinə gəlir və sovetlər parçalandıqdan sonra onun ərazisində "milli dövlətlərin qurulmasını dünya üçün bir fəlakət, mədəniyyət üçün afət telakki edən (çox pis, fəlakət gətirən amil kimi anlayan, qəbul edən - A.T.) rus tezisini" dəstəkləyir.

Müəllif Kerkin Sovetlər Birliyində məskunlaşan millətlərin hüquqi cəhətdən müstəqil olduqlarını və bu millətlərin öz qərarlarını çoxdan verdiklərini, "ümumi və sərbəst demokratik seçimlərlə təşəkkül və milli ifadə təmsil edən millət məclisləri tərəfindən elan edilən bir istiqlal hadisəsi" olduğunu, "istiqlal elanını bəyan edən müstəqil bir dövlət həyatı yaşanmış" olduğunu, "bu dövlətlərin dünya tərəfindən tanındığını" unutduğunu acı təəssüflə bildirir və yazır ki, Sovetlər Birliyindəki millətlərin durumu Estoniya, Litva, Latviyanın, habelə Polşa, Çexoslavakiya, Rumıniya və digərlərinin durumundan fərqsizdir.

"Amerika Komitəsi müqəddəratın təyin edilməsi haqqının öncədən qərara çevrilməməsində israr edir" - Kerkdən gətirdiyi sitatdan Mirzə Bala belə nəticə çıxarır: "Amerika Komitəsi istiqlalımızı tanımamaqdadır", "Amerika Komitəsi yanlış yoldadır". Odur ki, müəllif xəbərdarlıq edir: "Hər şeydən öncə istiqlal haqqının tanınmasını tələb edən millətlər yenidən böyük bir Rusiyanın təşəkkülünü, ümumi barış, ümumi güvən, dünya mədəniyyəti və hürriyyət prinsipləri üçün böyük bir təhlükə hesab edirlər".

Məqalədə Visbaden Konfransına qatılan qeyri-rus mühacir təşkilatların, o cümlədən Azərbaycan Milli Birliyinin ünvanına da kəskin iradlar söylənilir. "Qeyd və şərtsiz" istiqlaldan dəm vuran (Visbaden anlaşmasına imza edən azərbaycanlıların özlərinə haqq qazandırmaq üçün mətbuatdakı çıxışlarına işarədir - A.T.) visbadençilərə dərin-dərin düşünməyi" tövsiyə edən Mirzə Bala yazır ki, "hər şeydən öncə - milli istiqlal" tezisi üzərində israr edən həqiqi istiqlalçıların nə qədər haqlı olduğunu hadisələr hər gün bir az daha çox isbat etməkdədir".

Tarix "Qafqasya"nın tutduğu yolun doğru olduğunu 40 il sonra təsdiqlədi: Sovetlər Birliyi çökdü və imperiyanın xarabalıqları üstündə milli müstəqil dövlətlər yarandı.

"Birləşik Qafqasya" - Qafqaz birliyi ideyasının tribunası. Əli xan Qantəmirin redaktorluğu ilə "Milli istiqlal məfkurəsini yayan aylıq məcmuə" "Qafqasya"dan (cəmi 17 nömrəsi çıxmışdır) sonra yenə onun rəhbərliyi ilə Qafqaz İstiqlal Komitəsinin orqanı "Birləşik Qafqasya" nəşrə başladı. Əslində bu ad altında "Qafqasya" öz nəşrini davam etdirdi - desək, yanılmarıq. Çünki proqram, məram, mövzu, problem və yazarlar baxımından "Birləşik Qafqasya" öz sələfindən fərqlənmirdi. Təsadüfi deyil ki, "Birləşik Qafqasya"nın "Yeni ilə qədəm qoyarkən" adlı baş məqaləsində belə yazılmışdır: "18 ay əvvəl təşəbbüs qrupunun nəşrə başladığı "Qafqasya" jurnalı konfrans tərəfindən tam bəyənildi. Qafqaz İstiqlal Komitəsini (QİK) təsis edən konfrans "Qafqasya" jurnalının adının dəyişdirilməsi və onun QİK-in orqanı kimi "Birləşik Qafqasya" adı ilə buraxılması haqda qərar vermişdir" (79, №1 (18-19), yanvar-fevral 1953). Baş məqalədə deyilir ki, yeni qüvvə və enerji ilə öz işimizi davam etdirərkən, Qafqazın azadlığı və müstəqilliyi ideyasını doğma hesab edən

həmvətənlərimizin və oxucularımızın bizi başa düşəcəklərinə ümid edirik.

"Qafqasya" kimi ayda bir dəfə üç dildə (türk, ingilis və rus) çıxan "Birləşik Qafqasya" öz proqramını belə bəyan edirdi:

- Qafqaz xalqlarının bolşevik tiranlığından azadlığı və Azərbaycan, Ermənistan, Gürcüstan, Şimali Qafqazdan ibarət müstəqil Qafqaz Konfederasiyası uğrunda mübarizə aparır;

- ümumi orqan kimi vətənimizin bütün milli və vətənpərvər qüvvələrini birləşdirməyə çalışır və bu vəzifəni yerinə yetirməyə bütün Qafqaz mühacirətini dəvət edir;

- azadlıq uğrunda mübarizədə SSRİ-dəki bütün məhkum millətlərin əməkdaşlığına və onlarla bu işdə vahid cəbhə yaratmağa tərəfdardır;

- xaricin milli problemlərimizlə tanışlığı məqsədilə mühacirətdəki və vətəndəki qafqazlıların həyatı ilə bağlı geniş informasiya verəcək.

Qafqaz konfederasiyası ideyasının yarandığı vaxtdan ona soyuq münasibət bəsləyən erməni mühacirətinin təmsilçiləri əvvəlki nəşrlər kimi "Birləşik Qafqasya"nın da fəaliyyətində nəzərə çarpmırlar. Əsasən Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələrinin tribunasına çevrilən "Birləşik Qafqasya" öz işini bir neçə istiqamətdə qururdu:

- "Vahid və bölünməz Rusiya" şüarını özlərinə fəaliyyət proqramı kimi qəbul edən və SSRİ-dəki qeyri-rusların istiqlal haqqını tanımaq istəməyən rus mühacirlərinin tənqidi; (Mirzə Bala. "Bizdə və onlarda tarixi haqq anlayışı" (512), "Sovetlər Birliyində əhali və rus olmayan millətlər məsələsi" (514), "Rus imperializmi və onun alətləri" (516). "Bolşevik Əleyhdarları Mücadilə Koordinasiya Mərkəzi" (520). T.Kulik. "Belə bir Rusiyanı sevmək qəbulmu?" (396),

- Qafqaz Konfederasiyası ideyasının tarixi, əhəmiyyəti və aktuallığının təbliği (D.Vaçnadze. "Tarixi hədəfimiz" (681), "Xaricdə Qafqaz birliyi hərəkatı tarixi" (682) mart-aprel, №6

(23), iyul 1953);

- rus mühacirləri ilə əməkdaşlıq edən qeyri-rus mühacir birliklərinin və onların liderlərinin tənqidi; ("Bəzi nəşriyyat münasibətilə" (39, №5 (22) may 1953), İbrahim Ulubaş. "Oxucu məktubu" (653);

- Amerika Komitəsinin fəaliyyəti ilə bağlı materiallar; (M.Zurabişvili. "Amerikanın millətlər məsələsi politikasında dəyişiklik" (692), "Amerika Komitəsi və biz" (693);

- Qafqaz xalqlarının istiqlal uğrunda mübarizə tarixi və yolunun işıqlandırılması (Ə.Mağoma. "Matəm günü" (269), S.Təkinər. "Azərbaycanda fikir hərəkatları" (616), M.Ə.Rəsulzadə. "Azərbaycanın qara günü" (593), "Azərbaycan istiqlalının elanı" (594), E.Kırımal. "Şimali Qafqaz istiqlalının 1918-ci ildə türk və alman mətbuatında işıqlandırılması" (401), Mirzə Bala. "Müstəqil Azərbaycan" (517), M.H.Türkəqul. "Azərbaycan türklərinin istiqlal günü" (644), "Qafqaz cümhuriyyətlərinin 35-ci istiqlal ildönümləri" (645), M.Məmmədzadə. "Yeni tariximizin mühüm günlərindən" (521), "Azərbaycanın milli zəfər günü" (524), M.Ə.Rəsulzadə. "Türk ellərinin davası" (595);

- Qafqazın istiqlalı uğrunda mücahidlərin həyatı və fəaliyyəti ilə bağlı materiallar (Ə.Qantəmir. "Noy Jordaniya" (413), S.Təkinər. "Mətbuat həyatında 50 il" (618);

- sovet rejimi və kommunist ideologiyasının, sovet həyat tərzinin tənqidi; (Bulaq-Başı. "Sovet teatrı dinsizlərin mücadilə vasitəsidir" (314), V.Banks. "Sovetlərdə mədəni müxtariyyət iddiası" (308), V.Zagidze. "Tiflisin NKVD zindanlarında" (690), S.Təkinər. "Tarix boyunca kommunistvari fikir və hərəkatlar" (619), M.Dövlətbəy. "Milli bölgələrdə kolxozların quruluşu" (334), "Sovetlərdə araba nəqliyyatı" (335), M.B.Məmmədzadə. "Bağırovun təmizlənməsi" (522), V.Nuhoğlu. "Qafqazda kolxozlar necə qurulmuşdu" (525), M.Novruz. "Sovetlər Birliyində ÇEKA məmurlarının yetişdirilməsi" (539), M.H.Türkəqul. "Rus boyunduruğunda yaşayan türklər" (651);

- beynəlxalq münasibətlər və SSRİ-nin xarici siyasəti ilə bağlı materiallar (M.H.Türkəqul. "Sovetlərlə yeni soyuq hərb taktikaları" (642), "Stalinin ölümü və Malekovun direktivləri" (643), "İngilis kraliçası II Elizabetin tacqoyma törəni" (39, iyun 1953, №6 (23), "Berlin hadisələri və Sovet böhranı" (646), "Malenkov təhdid edir" (647), "Adenauerin zəfəri və sovet politikasının iflası" (648), "Sovetlər Almaniyada" (650), G.Tokayev. "Kremlin diktatorları" (633);

- ədəbi, mədəni həyatla bağlı materiallar (Mirzə Bala. "Mirzə Fətəli və əlifba inqilabı" (515), "Mirzə Fətəli və Puşkin" (518), "Azərbaycan teatrının 80 illiyi" (523).

"Rusiya Xalqlarını Qurtarma Amerika Komitəsi" mövcud vəziyyəti nəzərə alaraq, yarandığı vaxtdan bir müddət sonra adını dəyişdi və "SSRİ Xalqlarını Qurtarma Amerika Komitəsi" adı altında fəaliyyət göstərməyə başladı.

Təbii ki, bu prosesdə ruslarla əməkdaşlıq etməyən və Amerika Komitəsini də tənqid hədəfinə alan və "hər şeydən öncə istiqlal" - deyən qeyri-rusların qızğın təbliğatı əhəmiyyətli rol oynamışdı. "Qafqasya" kimi "Birləşik Qafqasya" da bu ideoloji mübarizənin önündə gedirdi. Rus mühacirlərinin liderlərindən, ideoloqlarından biri S.Melqunov özünün şovinist fikirlərini, "bütöv və bölünməz Rusiya" tərəfdarı olduğunu gizlətmirdi. O, nə Rusiyanın tarixini bilir, nə bu günü duyur, nə də sabahı görürdü. S.Melqunov mühacir "Rossiyskiy demokrat" jurnalının 1951-ci il tarixli 2-ci nömrəsində yazırdı: "Mənim nəzərimdə Rusiya - tarixən təşəkkül etmiş yekparə bir üzviyyətdir. Bu üzviyyəti, bu və ya başqa təsadüfi ehtimallar, nə qədər realitə təşkil edərlərsə- etsinlər, qətiyyən poza bilməzlər. Bu səbəblə, dövlət şüuru, məncə, millətlərin istiqlal haqqından daha çox yüksəkdir". "Rusiya tarixi mazisi (keçmişi-A.T.), bolşevizm dövründəki tragik halı və istiqbalı ilə bir bütündür". "Rusiyanın tarixən təşəkkül etmiş bütünlüyünü, həssasiyyətlə və xarakterlə müdafiə etmək vəzifəsi bizə tərəttüb (vəzifə, borc-A.T.) edər".

"Rusiya millətləri, müsavi haqlara malik olmaqla bərabər, tarixən təşəkkül etmiş yekparə bir üzviyyət olan Rusiya vəhdəti içində parçalanmaz bir küll təşkil edərlər". "Biz bolşevizmlə mücadilə bəhanəsilə Rusiyanın parçalanmasına müsaidə edə bilmərik".

Azərbaycan mühacirlərinin liderlərindən biri, böyük qələm sahibi M.B.Məmmədzadə S.Melqunovun və onun kimilərinin əsası olmayan belə tezislərini tutarlı tarixi faktlarla alt-üst edir və haqlı sual verir: "Bu nə biçim tarixi haqdır ki, müdhiş İvanın, Dəli Pyotrun, çılğın Katerinanın qanlı fütuhatını haqlı, ona qarşı mövcudiyyətlərini mühafizəyə müvəffəq olan millətləri haqsız sayır? Qılınc, qan və atəş gücü ilə, vəhşət və barbarlıqla "tarixən təşəkkül etmiş Rusiya" varsa, o "millətlər zindanı"nda, o təhcir, imha, mühacirət və ruslaşdırma cəhənnəmində, milli mövcudiyyətlərini qoruya biləcək qədər mədəni və insani qüdrət göstərmiş olan millətlər də vardır... Rusiyanın özünə "tarixi bir haqq" təmin edən Qafqaz müharibələri bütün dünyanın nifrətini qazandığı halda, qafqazlıların qəhrəmancasına müqavimətləri, mədəni insanlığın vicdanını teshir (özünə bağlamaq - A.T.) etmişdir" (512). Mirzə Bala "böyük rusiyaçı, antibolşeviklərin lideri S.Melqunov"a Rusiyanın 1917-ci ildə necə param-parça olduğunu xatırladır və yazır ki, əgər çarlığın istila və fütuhatları bir haqq sənədi olaraq qəbul edildikdən sonra eyni metodla "tarixdən təşəkkül etmiş Sovetlər Birliyi" deyilən "millətlər zindanına" qarşı niyə mücadilə edirik?!

Böyük ideoloq M.B.Məmmədzadə məqalənin sonunda maraqlı nəticəyə gəlir: "Onların "tarixi haqqı", bizzat (şəxsən-A.T.) haqqın özünü və ədalət məfhumunu inkar edən rus imperializmindən ibarətdir. Biz yüzdə yüz haqlı, onlar yüzdə yüz haqsızdırlar".

Mirzə Bala qeyri-rus mühacirlərini düşündürən, narahat edən bu problemə dəfələrlə müraciət etmiş, onu müxtəlif rakurslardan işıqlandırmışdır. "Böyük, bütün və bölünməz rusiyaçılar,

rus olmayan millətlərin istiqlal haqlarını inkar edərkən, irəli sürdükləri "mucib səbəblərdən" (gərəkli, vacib-A.T.) biri də Sovetlər Birliyində cərəyan edən nüfus (əhali - A.T.) hərəkatları nəticəsində rus olmayan millətlərin ruslarla qaynayıb qarışdıqları və mütəcanis (harmonik-A.T.) bir rus kütləsi halına gəldikləri iddiasıdır" - cümləsi ilə başlayan "Sovetlər Birliyində nüfus hərəkatı və rus olmayan millətlər məsələsi" (514) adlı məqaləsində Mirzə Bala "Bolşevik Əleyhdarları Mücadilə Koordinasiya Mərkəzi"nin rəisi S.Melqunovun yaxın silahdaşı V.A.Nikitinin timsalında "böyük, bütün və bölünməz rusiyaçı antibolşeviklərin" bütün arqumentlərini tarixi faktlarla tərksilah edir və heyrətamiz uzaqgörənliklə yazır ki, Sovetlər Birliyi çökdüyü zaman rus olmayan millətlər daha sağlam, daha diri, daha mükəmməl birər topluluq olaraq tarix səhnəsində doğacaq, millətlərin ölmədiyini, ölməyəcəyini və ədəbiyyən yaşayacaqlarını bütün dünyaya elan edəcəklər.

"Bolşevik Əleyhdarları Mücadilə Koordinasiya Mərkəzi" (520) adlı məqaləni eyni zamanda üç qüvvənin - rus mühacirlərinin, onlarla əməkdaşlıq edən qeyri-rus mühacirlərinin və onları maddi və mənəvi cəhətdən dəstəkləyən Amerika Komitəsinin proqramının tənqidi adlandırmaq olar. "... başda Kerenski və Melqunov olmaqla, bütün rus mətbuatı, bütün rus partiyaları və şəxsiyyətləri "Rusiyanı parçalamaq kimi xəyali planlar quran" millətçiləri aforoz edərək (adını belə eşitmək istəməyərək - A.T.), milli məfkurəyə qarşı mübarizə aparırlar. Ukrayna və Belarus mühacirlərindən heç bir təşəkkül onlara qoşulmasa da, bəzi qeyri-rus mühacir təşkilatlar "milli davaya xəyanət edərək" ruslarla əməkdaşlığa razılıq vermişlər. "Millətlər haqqında fikir birliyi olmayan" Amerika Komitəsinin fəaliyyəti isə "hər şeydən öncə - istiqlal" şüarını rəhbər tutan mühacirləri qane etmirdi. Bununla belə, adını tez-tez dəyişən Amerika Komitəsinin əməlində də tərəqqi hiss olunurdu.

Məqalədə deyilir: "Visbaden-Münhen əsəri (Bolşevik

Əleyhdarı Mücadilə Koordinasiya Mərkəzi nəzərdə tutulur - A.T.) raxit xəstəliyinə tutuldu. Ölüm döşəyində yatan bu xəstənin başı üstündə çoxdan başlayan münaqişələr bu günə qədər davam etməkdə və işin içindən çıxmaq üçün sağlam bir hal çarəsi bulunacağı çox şübhəli görünməkdədir".

Yazıda Koordinasiya Mərkəzinin iflasa uğrayacağının, onun müvəffəqiyyətsizliyə məhkum olacağının qaçılmaz olduğu qeyd edilir. Çünki "mücadilədə hər əsgərə və hər vətəndaşa həyəcan verən yeganə təbii qaynaq milli idealdır. Bu təhrikedici və ilhamverici qüvvət olmadan, heç bir zaman canlı bir icraat yapılamayacağının artıq anlaşılması gərəkdir". Tarix istiqlalçıların inamını təsdiq etdi, bir müddət sonra - 1953-cü ilin iyulunda mərkəz iki yerə parçalandı. Amerika Komitəsi hər iki qrupa maliyyə yardımını dayandırdı, nəticədə hər iki qrup fəaliyyətsiz vəziyyətə düşdü.

"Qafqasya" kimi onun işini davam etdirən "Birləşik Qafqasya" da Kerenski və Melqunovla əməkdaşlığa gedən qeyri-rus mühacirlərini istiqlal mücadiləsinə xəyanətdə günahlandırır, əksər materiallarda bu mövzuya toxunmaqla yanaşı, məsələyə ayrıca məqalə də həsr edilirdi. "Qırmızı və Ağ rus imperialistlərinin ideyalarının heyrət ediləcək dərəcədə bir-birilərinə bənzədiklərini müşahidə edirik" sözləri ilə başlayan İbrahim Ulubaşın yazısında istər Moskvadakı, istərsə mühacirətdəki ruslar tərəfindən milli qurtuluş savaşı tarixinə qarşı amansız ideoloji mücadilə açıldığı göstərilir. Müəllif Moskvada ulu Şeyx Şamilin "ingilis və türk agenti" elan olunduğunu, eyni vaxtda Münhendə istiqlalçıların rus mühacirlər tərəfindən "çağdaş Şamillər", "yeni imamlar", "qazavatçılar" adlandırıldıqlarına diqqəti çəkir və "rus qanadı altına" girən, onlarla "anlaşma imzalayan" qeyri-rus təşəkküllərinə və "böyük rusiyaçılara" xəbərdarlıq edir: "Bəyaz və Qırmızı Rusiyanın əsarət zəncirlərini heç vaxt ayaqlarımıza taxmağa müvəffəq olmayacaqsınız".

Qafqazın tarixi və coğrafi mövqeyi regionun bir hissəsinin

ayrılıqda azadlığını mümkün etmir. Başqa sözlə, Qafqaz bütünlükdə azad olmalıdır. Bunun isə bir yolu var: Qafqaz Konfederasiyası "Bizim tarixi hədəfimiz Qafqazın siyasi vəhdətini qurmaq və millətlərin milli dinamizminə istinad edərək, ondan qüvvətli bir millətlərarası faktor vücuda gətirməkdir" yazan D.Vaçnadze (Tarixi hədəfimiz: (681) regionun siyasi, hərbi-strateji və beynəlxalq rolunu dəyərləndirmək üçün məşhur ingilis qafqazşünası D.Allenin fikirlərinə istinad edir. D.Allenə görə, Qafqazın əhəmiyyətini orada yaşayan əhalinin sayına görə qiymətləndirmək olmaz. 5 milyon əhalisi olan Qafqaz 40 milyonluq Ukraynadan strateji cəhətdən daha böyük əhəmiyyət kəsb edir. Müəllif bu mülahizəni tarixi fakt və tutarlı dəlillərlə əsaslandırdıqdan sonra göstərir ki, yalnız regiondakı xalqların birliyi yaxın zamanda Vətənin azadlığını təmin edə bilər.

Müəllifin eyni mövzuya dair "Xaricdə Qafqaz birliyi hərəkatı tarixi" (682) adlı məqaləsi 1921-1952-ci illərdə nəşr edilən sənəd və materiallar əsasında qələmə alınmışdır. D.Vaçnadze yazır ki, 1918-ci ilin əvvəllərində Cənubi Qafqaz cümhuriyyətlərinin - Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqazın Cənubi Qafqaz Seymində birləşmə və qüvvətlənmə təşəbbüsləri xarici qüvvələrin təzyiqi ilə iflasa uğradı. Cənubi Qafqaz məmləkətlərinin birliyi planı suya düşdü. Bu zaman Şimali Qafqaz cümhuriyyətinin ərazisi dalğa halında gələn Ağ və Qırmızı rus orduları ilə dolmağa başlayırdı. Bolşeviklər Denikin ordusunu məğlub etdikdən sonra, birgə müdafiə üçün tədbir görməyən Cənubi Qafqazın gənc respublikalarını da istilaya məruz qoydular. Azərbaycan, Gürcüstan və Ermənistanın böyük dövlətlər tərəfindən tanınmasına baxmayaraq, bütün Qafqaz daxil olmaqla onlar da sovetləşdirildi.

Müəllif qeyd edir ki, Qafqaz cümhuriyyətlərinin süqutu onların liderlərinin bir qisminin Avropaya mühacirətinə səbəb oldu. Həmin vaxtdan Qafqaz dövlətlərinin məsul siyasi adamları regionu müştərək siyasi əsaslarla qurmaq uğrunda ideoloji mü-

cadiləyə başladı. Müəllifə görə, xaricdə ilk siyasi akt Gürcüstan Cümhuriyyətinin süqutu ilə bağlı 4 Qafqaz dövlətinin rəsmi nümayəndələrinin 10 iyul 1921-ci ildə Parisdə verdikləri bəyanatdır. Əlimərdan bəy Topçubaşının (Azərbaycan), A.Aqoryanın (Ermənistan), A.Şengelinin (Gürcüstan), A.Çermoyevin (Şimali Qafqaz) imzaladıqları sənəddə Qafqaz cümhuriyyətlərinin tam istiqlalının yalnız onların arasında olacaq birlik ilə mümkünlüyü qənaətinə gəldikləri vurğulanır.

3 il sonra - 1924-cü il 23 sentyabrda Gürcüstandakı üsyan münasibətilə 4 Qafqaz Cümhuriyyətinin milli hökumətlərinin təmsilçilərinin - Ə.Topçubaşi (Azərbaycan), A.Hatisyan, V.Papazyan (Ermənistan), A.Şengeli, R.Ramişvili (Gürcüstan), A.M.Çermoy, Heydəroğlunun (Şimali Qafqaz) imzaladıqları bəyanatda deyilirdi ki, bu hadisələr millətlərimizin ruznaməsinə onların kültür və ekonomik rifahlarının yeganə qarantisi olan 4 Qafqaz Cümhuriyyətinin politik və ekonomik vəhdətini qurmaq məsələsini qoymaqdadır.

Qafqaz cümhuriyyətləri milli hökumətlərinin Paris təmsilçilərinin bəyanatları ilə eyni vaxtda İstanbulda Qafqaz Qurtuluş Komitəsi yaradılır. Komitə öz proqramında başlıca məqsədini belə açıqlayır: "Komitənin əsas vəzifə və məqsədini Qafqazın qurtuluşu və Konfederasiya əsasları üzərində istiqlalının qurulması təşkil etməkdədir". V.G.Cabaği, Ə.Qantəmir, A.Namitok (Şimali Qafqaz), M.Tsereteli, A.Assatiyani, D.Vaçnadze (Gürcüstan), Xosrov Sultanzadə, Əbdüləli Əmircan və Ə.Şeyxülislamzadənin (Azərbaycan) 1924-cü ilin noyabrında imzaladıqları bu sənədə əsasən 1925-ci ildən fəaliyyətə başlayan komitə, "1926-cı ildə yeni vəziyyətlər dolayısı ilə fəaliyyətini və fikirlərinin propaqandasını, Qafqazın siyasi mühacirətinin əsas kütləsinin yerləşdiyi Parisdə öz işini davam etdirir".

1929-cü ilin avqustundan Parisdə konfederalistlərin orqanı "Müstəqil Qafqaz" məcmuəsi nəşrə başlayır. D.Vaqnadze yazır ki, "bu məcmuənin ideyası və proqramı qafqazlıların xaricdəki

mətbuatı tərəfindən böyük rəğbətlə qarşılanır. "Azəri türk" (Azərbaycan), "Qafqaz dağlıları" (Şimali Qafqaz), "Samşiblo" (Gürcüstan) öz səhifələrində "Müstəqil Qafqaz"ı təbrik edir, ona uğurlar arzulayır. "Azəri türk" bu ideyanın (Qafqaz birliyi - nəzərdə tutulur - A.T.) qüvvətlənəcəyinə ümid etdiyini yazır (№6-7, 1929), "Qafqaz dağlıları" "Müstəqil Qafqaz"ı "həyati və gözəl bir ideyaya xidmət" etdiyi üçün salamlayır (H8-9, 1929).

"Samşiblo" özünün ilk nömrəsində yazırdı: "Qafqaz millətlərinin birliyi fikri keçən əsrin 60-cı illərində, milli təkamül dövründə gürcü siyasət adamlarını əsaslı şəkildə məşğul edirdi. Onlar o zaman federasiya və konfederasiya prinsiplərini ortaya atmışlardı. Fəqət, bu dava nə hürriyyət dövrümizdə, nə də hürriyyəti qeyb etdikdən sonra tərəqqi etmədi. Ancaq Gürcüstandakı 1924-cü il avqust üsyanından sonra gürcü nasional-demokratları bu davanı canlandırmaq və praktik siyasi fəaliyyət səhnəsinə çıxarmaq təşəbbüsünü üzərlərinə alırlar. 1925-ci ildən bəri xaricdə qruplar təşəkkül etməkdə və konfederasiya əsasında Qafqaz millətlərinin siyasi birliyi propaqandasının hədəfi güdülməkdədir".

Qafqaz birliyi hərəkatı nəticəsində 1930-cu ilin əvvəlində Parisdə Qafqazı Tədqiq Cəmiyyəti təsis edilir. D.Vaçnadzenin yazdığına görə, 17 yanvar 1933-cü ildə Parisdə toplanan bir yığıncaqda erməni mühacirlərinin liderlərindən A.Hatisyan və A.Camalyan da Qafqaz Konfederasiyası ideyasına tərəfdar çıxdıqlarını bəyan etmişlər. Lakin maraqlıdır ki, 1928-ci ildə Parisdə təsis edilən Qafqaz İstiqlal Komitəsinin təşəbbüsü ilə 14 iyun 1934-cü ildə Brüsseldə qəbul edilən Qafqaz Konfederasiyası haqqında bəyanatı yalnız Azərbaycan, Gürcüstan və Şimali Qafqaz təmsilçiləri imzalamışlar.

Bəyanatda Ermənistan Respublikası üçün açıq yer buraxılmışdır. Misaq ictimaiyyət arasında geniş əks-səda doğurmuşdu: kimi onu təqdir, kimi tənqid edirdi. Erməni qəzeti "Haratch" 19 iyun 1934-cü il tarixli nömrəsində yazırdı ki, erməni məsələsi

hüquq nöqteyi - nəzərindən Qafqaz hüdudlarına sığmır".

D.Vaçnadze Qafqaz birliyi ideyasının qızğın tərəfdarı və təbliğatçısı Gürcüstan cümhurbaşqanı Noy Jordaniyanın "Müstəqil Gürcüstan" jurnalının iyun 1934-cü il tarixli 103-cü nömrəsində və "Prometey" jurnalının 92-ci nömrəsində "gürcücə, ingiliscə, almanca və fransızca intişar edən məqaləsini" bütünlüklə oxuculara çatdırır. Noy Jordaniya məqaləni belə başlayırdı: "Dərgimizin bu nömrəsində üç Qafqaz millətinin təmsilçiləri tərəfindən imzalanan Qafqaz Konfederasiyası misaqı dərc edilir. Bu misaq xaricdə uydurulmuş və ya icad edilmiş deyildir. Bu misaq Qafqazdan, həyati mənfəətləri və tələbləri icabı (zərurət, lüzum - A.T.) olaraq orada yaşayan millətlərdən gəlməkdədir".

N.Jordaniya hələ Cənubi Qafqaz Seyminin dağıldığı və Gürcüstan Respublikasının qurulduğu gün "müştərək Qafqaz ümidi" haqqında fikrinin ortaya atıldığını xatırladır və yazır ki, bu ümidi vətəndə həyata keçirə bilmədik. O yazır: "Fəqət, bu ümid Qafqaz millətlərinin qəlbində sönməyən bir işıq kimi qalmaqda və gələcəkdə həyata keçməyini gözləməkdədir". "Qafqaz məsələsi dünya məsələsidir" yazan N.Jordaniya bu məsələnin həllinin tək bir yolu olduğunu da göstərir: Qafqaz Konfederasiyası. N.Jordaniyanın məqaləsini D.Vaçnadze Gürcüstan cümhurbaşqanının və Gürcü Sosial-Demokrat Partiyasının liderinin siyasi vəsiyyətnaməsi adlandırır.

Soyuq müharibənin kəskinləşməsi, beynəlxalq aləmdə getdikcə ABŞ-ın nüfuzunun artması vətənin istiqlalı uğrunda ideoloji mübarizə aparan mücahidləri də ruhlandırmışdı. Eyni zamanda ABŞ-ın sovetoloq və siyasətçiləri də SSRİ-dən olan qeyri-rus mühacirlərindən də bolşevizmə qarşı mübarizədə fəal istifadə etmək qərarına gəlirdi. Amerikanın tanınmış hərbi eksperti Valase Sarrol israrla tələb edirdi ki, SSRİ-nin qeyri - rus millətlərinin böyük potensial qüvvəsindən istifadə etməyin vaxtıdır. O deyirdi ki, bu qüvvə atom bombasından da güclüdür və Hitlerin məğlubiyyət səbəblərindən biri də qeyri-ruslarla si-

yasətin yanlış qurulması idi (528). Qeyri-ruslara münasibətdə ABŞ siyasətində dəyişiklik açıq hiss olunurdu. Təsadüfi deyil ki, SSRİ ərazisindəki məhkum millətlərin milli hisslərinin sönməməsi üçün "Amerikanın səsi" radiosu gürcü, erməni, Azərbaycan, Ukrayna və b. dillərdə verilişlərinə başlamışdı. Eçison, Eyzenhauer, Con Foster Dalles, Ceyms Bernxem kimi siyasət və diplomatiya xadimləri "Sovetlər Birliyindəki əsir millətlərin məsələsində Amerikanın tətbiq etməsi lazım gələn real politikanın əsaslarını" bəyan edirdilər (yenə orada).

Bununla belə, qeyd olunmalıdır ki, Amerika Komitəsinin fəaliyyəti qüsurlu idi və bu cəhətdən istiqlalçıların tənqidinə məruz qalırdı. "Təcrübədən göründüyü kimi, Amerika Komitəsinin təşkilat məsələsi böyük zorluqlarla qarşılanmış və arzu edilən nəticə əldə edilməmişdir. Ən böyük əngəl isə - işə başlamazdan əvvəl qəti dərəcədə nəzərə alınmamış millətlər məsələsidir, yəni Sovetlər Birliyi çökdükdən sonra əsir xalqların müstəkbəl (gözlənən, gələcək - A.T.) quruluşu kimi ən mühüm bir məsələ nəzərə alınmamışdır" yazan "Birləşik Qafqasya" göstərirdi ki, Amerika Komitəsi fəaliyyəti başlanğıcda Amerikada yerləşən yalnız rus mühacirləri ilə əlaqə saxlamış və bu səbəbdən də onlarda Sovetlər Birliyi haqqında "vahid və bölünməz Rusiya" kimi yanlış və xətalı bir görüş formalaşmışdır (529). Bir müddət keçdikdən sonra Amerika Komitəsi növbəti uğursuz cəhd edir: Ukrayna və belarusların qatılmadığı, digər qeyri-ruslardan isə "uydurma və qiymətsiz təmsilçilərin" və "bütün və bölünməz Rusiya" şüarını özünə fəaliyyət proqramı seçən 4 rus təşəkküllünün iştirakı ilə Visbaden, sonra Münhen konfranslarını keçirir və həmin tədbirlərdə əsir millətlərin mənafeyinə zidd sənədlər qəbul edilir. Nəticədə istiqlalçı qeyri-rusların kəskin etirazı ilə üzləşir. "... yavaş-yavaş təcrübə yolu ilə, həqiqəti anlayan Amerika Komitəsi" ən əvvəl adını heç bir mübahisə doğurmayan adla dəyişdi. Sonra "Paris bloku" adı altında birləşmiş bəzi mühacir təşəkküllərini də öz tədbirlərinə dəvət etdi.

Amerika Komitəsi iki illik fəaliyyəti haqqında və daha çox mühacir tənqidlərinə cavab olaraq, "Medalın iki üzü" adlı broşüra buraxır. Müəlliflər mühacirətin bir qisminin "Amerikalıların velikorus imperialistlər" olduqlarını, digər qisminin də "Amerikalıların Rusiyanı parçalamaq" istədiklərini iddia etdiklərini yazırdılar. "Birləşik Qafqasya" "tarixi hadisələri təhrif edərək, Amerika Komitəsini aldadan rus imperialistlərinin" əsl simasını açır və ümid edir ki, Amerika Komitəsinin topladığı təcrübə gələcək fəaliyyət üçün "çox faydalı təməl təşkil edəcəkdir". Jurnal yazır: "Amerika Komitəsi Sovetlər Birliyindəki gerçəklik haqqında daha çox məlumat topladıqca, Sovet boyunduruğunda inləyən xalqların tarixində fəaliyyəti və rolu daha səmərəli olacaqdır".

"Birləşik Qafqasya" istiqlalçıların orqanı idi. Mütəhərrik və mürəkkəb tarixi şərait, ictimai-siyasi mühit onların mübarizə üsulu və taktikasına müəyyən dəyişikliklər etsə də, əsas prinsip, amal və proqramdan döndərə bilməmiş, sonadək "hər şeydən öncə - istiqlal" demişlər. Təbii ki, Qafqaz birliyi şüarı ilə tarix səhnəsinə çıxan "Birləşik Qafqasya"nın başlıca mövzularından biri də istiqlal uğrunda mübarizə tarixi və onun qəhrəmanları olmuşdur. Bu mövzudakı yazılarda üç cəhət daha qabarıq diqqəti çəkir:

- istiqlalın dəyərləndirilməsi; "dünyanın gələcəyi insanın haqq və hürriyyətini inkar edən totalitar rejimlərdə deyil, bayraqlarında insanlara hürriyyət, millətlərə istiqlal şüarını yazan demokratlardır" (593). "İstiqlal millətin ən böyük sərvətidir". (yenə orada);
- istilanın izi; Qafqaz cümhuriyyətlərinin bolşevik istilasına məruz qaldığı gün "heç zaman unudulmayacaq milli matəm, milli fəlakət" (430) günüdür;
- istiqlala inam; "Qalibiyyət günəşi qızıl istibdad zülmü altında inləyən əziz vətənimizdə 1918-ci ilin mayında olduğu kimi yenidən doğacaqdır. Buna qətiyyən şübhə etmirik" (M.Ə.Rəsul-

zadə. "Azərbaycan istiqlalının elanı" (595). "Azərbaycan türklərinin 1918-ci ildə bir dəfə imtahanını verdikləri və hər baxımdan layiq olduqlarını isbat etdikləri ən təbii haqları olan istiqlallarına təkrar qovuşacaqları gün uzaq deyildir" (M.H.Türkəqul, "Azərbaycan türklərinin istiqlal günü" (644). Azərbaycan istiqlalçılarının "Birləşik Qafqasya"da bu qəbildən olan yazıları göstərir ki, sovet rejiminin "şiddət və təzyiq politikasına rəğmən, ruslar Azərbaycanı yalnız maddətən istila etməyə müvəffəq olmuş, vətən mənən fəth edilməmişdir" (yenə orada).

İstiladan dərhal sonra başlanan üsyanlar, davam etməkdə olan etiraz aksiyaları sovet ideologiyasının ruhən Qafqaza yad olduğunu təsdiq edir. Mühacirlərin sovetə qarşı ideoloji mücadiləsində "bütün ilahi və bəşəri qanunları çeynəyən Sovet hökumətinin cinayəti haqqında" Birləşmiş Millətlər Təşkilatına, azad dünya dövlətlərinə müraciətləri mühüm yer tutur. "Birləşmiş Millətlər Təşkilatının heç bir orqanı bütün Qafqaz millətlərinin varlıqlarını təhdid edən sovet diktatorluğunun həyata keçirdiyi bu qorxunc qətliama lazımi əhəmiyyət verməsə də", Qafqazın mühacir təşəkkülləri ruhdan düşmür, vətənlərinin inandıqları günə - istiqlala qovuşacaqlarına tam əminliklə mübarizəni davam etdirirdilər.

"Birləşik Qafqasya" qeyri-rus mühacirlərinin, o cümlədən Azərbaycan istiqlalçılarının həyatında və mətbuat tarixində parlaq iz qoymuşdur. Jurnal soyuq müharibənin qızğın vaxtında üzərinə ağır və məsuliyyətli missiya götürdü: "Rədd olsun "bölünməz və bütöv Rusiya, yaşasın Qafqaz Konfederasiyası, yaşasın millətlərin istiqlal haqqı!". "Birləşik Qafqasya" bu tarixi vəzifənin öhdəsindən şərəflə çıxdı, ruslarla və onlarla əməkdaşlığa üstünlük verən qüvvələrlə ideoloji mücadilədə qalib gəldi. SSRİ-dəki məhkum millətlərin istiqlal problemini bolşevizmə qarşı mübarizə proqramının tərkib hissəsinə çevrilməsinə öz töhfəsini verdi, Qafqaz Konfederasiyası ideyasının yenidən gündəmə gətirilməsində, onun yayılmasında, kütləviləşməsində bö-

yük rol oynadı. İstiqlal mücadiləsi tarixinin bütün dövrlərində Qafqaz birliyi ideyası "Azərbaycan" (Ankara) jurnalının da diqqət mərkəzində olmuşdur.

"Azərbaycan" (Ankara) özünün fevral 1953-cü il tarixli 11-ci nömrəsində dərc etdiyi "Qafqaz İstiqlal Komitəsi" (12, 14) adlı məqaləsində yazır ki, Türkiyənin bütün qəzetləri, xəbər agentlikləri Münhendə Qafqaz Konfransının toplandığı barədə informasiyalar yaymışdır.

Jurnal öz oxucularının marağını nəzərə alaraq, bu konfransın materiallarını çap edir. Sənəddə göstərilir ki, 1920-21-ci illərdə Sovetlər tərəfindən istilaya uğrayan Qafqaz cümhuriyyətlərinin - Azərbaycan, Gürcüstan və Şimali Qafqazın məsul siyasi təşəkküllərinin səlahiyyətli nümayəndələri 11-16 dekabr 1952-ci ildə Münhendə bir konfrans keçirərək, "Qafqaz İstiqlal Komitəsi" adı ilə Ümumi Qafqaz Təşkilatı təsisinə qərar vermişdir. Təşkilat Qafqaz cümhuriyyətlərinin istiqlalını geri almaq, Sovet istibdadını devirmək, dünyanı təhdid edən bolşevizmə qarşı bütün təşəkküllərlə iş birliyi qurmaq istəyini bəyan etmişdir.

Konfrans 1944-cü ildə Şimali Qafqaz xalqlarının - çeçen, inquş, balkar-qaraçaylıların Sovet hökuməti tərəfindən məruz qaldığı qətliam hadisəsini hiddət və nifrətlə qınamış, sovetlər tərəfindən Qafqazda hələ də davam edən cinayətkar siyasətə son qoyulması üçün Birləşmiş Millətlər Təşkilatına müraciət etmişdir.

Konfransın qəbul etdiyi sənəddə 16 oktyabr 1952-ci il tarixdə Münhendə yaradılan Antibolşevik Mücadilə Koordinasiya Mərkəzinə də münasibət bildirilir: Qafqazlıların - Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz cümhuriyyətlərinin istiqlallarını qeyd-şərtsiz geri almaq xüsusundakı haqlarını rədd edən bu təşkilatla Qafqaz İstiqlal Komitəsi əməkdaşlıq etməyəcək!

Özünü kültür dərgisi elan etməsinə rəğmən, yarandığı vaxtdan bolşevizmlə ideoloji mücadilə meydanına atılan "Azər-

baycan" jurnalı Qafqaz mövzusunu daim diqqət mərkəzində saxlamışdır.

Qafqaz xalqlarının tarixi, adət-ənənələri, ədəbi-mədəni sərvətləri, istiqlal uğrunda mübarizə aparmış qəhrəmanları, Qafqaz cümhuriyyətlərinin taleyi mövzusunda jurnalın çap etdiyi yazılar bu gün də maraqla oxunur, aktual və əhəmiyyətlidir. Bu mənada "... məhkum türk ellərinin müştərək və ümumi bir yazarı, səlahiyyətli və qüdrətli sözçüsü" (Krım türkləri liderlərindən Müstəcib Ülküsal, M.Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Ankara 1991-ci il. Əhməd Qaracanın kitaba yazdığı "Mirzə Bala Məmmədzadənin Azərbaycan milli istiqlal və hürriyyət davasındakı yeri" (95, 142) adlı məqaləsindən, "... bir yazar, bir fikir adamı, bir ideoloq olaraq bizlərə işıq tutmuş" (95, 44), Mirzə Bala Məmmədzadənin "Qafqaz ölkələri istiqlal elanının 40-cı ildönümü münasibətilə" (527) adlı son dərəcə faydalı və sanballı məqaləsi diqqəti çəkir. İrihəcmli məqalə "Giriş"dən, "Fevral 1917-ci il inqilabından sonra Qafqaz", "Müvəqqəti Güney Qafqaz hökuməti", "Sülh uğrunda mübarizə", "Qafqazı sovetləşdirmə təşəbbüsləri", "Maverayi Qafqaz Seymi", "Qafqaz istiqlalının elan edilməsi", "Qanlı bir qətliamdan sonra Bakıda qurulan Sovet hökuməti", "Azərbaycan hesabına bolşevik - alman anlaşması" adlı hissələrdən ibarətdir. Burada müəllif mötəbər mənbələrə istinad edərək, Qafqazın tarixinə nəzər salır, oradakı mürəkkəb prosesləri təhlil edir, nəticələr çıxarır. Mirzə Bala haqlı olaraq yazır ki, bolşevizmin bir dövlət sistemi halında təşəkküründən ibarət sovet rejimi Qafqaza Qızıl Ordunun süngüləri üstündə gətirilmiş və bu istila qüvvətinə istinadən dayana bilməkdədir.

Regionun qədim tarixinə ötəri nəzər salan müəllif "Qafqazın böyük və qəhrəman mücahidi imam Şamilin", Qərbi Qafqaz çərkəzlərinin, Azərbaycan xanlarının, xüsusilə Cavad xanın ruslara qarşı illər boyu sürən mübarizə tarixinə qısaca toxunur və 1917-ci il fevral inqilabından sonra Qafqazdakı durumun təhlilinə keçir. İnqilabın səbəbləri, mahiyyəti haqqında yazan Mirzə Bala bu təbəddülatın nəticəsində Qafqazın cənubunda yaranmış Müvəqqəti hökumət, onun dağılması, Qafqazda istiqlalın elan olunması kimi tarixi hadisələrdən ətraflı bəhs edir.

Mirzə Bala yeni qurulmuş Sovet hökumətinin Qafqazdakı siyasəti, S.Şaumyanın rəhbərliyi, bolşeviklərin yardımı ilə Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən qırğınlar haqqında, habelə Qafqaz İslam Ordusunun daşnak-bolşevik birləşmələri üzərində 1918-ci il 15 sentyabr tarixli zəfəri barədə təfərrüatı ilə bəhs edir. M.B.Məmmədzadənin adı çəkilən əsəri Qafqaz problemini, beynəlxalq həyatda bu regionun yerini və rolunu düzgün araşdırmaq, dəyərləndirmək baxımından aktual və əhəmiyyətlidir.

Jurnalın həmin nömrəsində dərc olunmuş "Münhendə Qafqaz məmləkətləri istiqlalının 40-cı ildönümünün qeyd olunması" adlı yazı da (39, 49) diqqəti çəkir.

Burada göstərilir ki, Qafqaz ölkələri, Türk cəbhəsi, Paris Bloku, Qərbi Avropadakı mühacir təşəkkülləri və digər təşkilatların nümayəndələri və mətbuat mənsublarının iştirak etdiyi tədbirdə Azərbaycan adından dr. Həsən Oroys çıxış etmişdir. O göstərmişdir ki, Rusiyada iqtidarı ələ keçirən bolşeviklər Ümumrusiya Qurucular Məclisini dağıtmışdır. Bundan sonra Məclisin Qafqazdan olan nümayəndələri 1917-ci il noyabrın 11-də Tiflisdə toplanaraq Cənubi Qafqaz Komissarlığını - Qafqaz Konfederasiyasını yaratmışlar. Çox keçmədən bu qurum dağılmış və 1918-ci il mayın 11-də Şimali Qafqaz, mayın 26-da Gürcüstan, mayın 28-də Azərbaycan öz istiqlallarını elan etmişlər. Azərbaycan Xalq Cümhuriyyətinin Qafqaz birliyinə nə qədər böyük əhəmiyyət verdiyini nəzərə çatdırmaq üçün dr. Həsən Oroys M.Ə. Rəsulzadənin "Hökumətin xarici siyasətindəki ikinci məsələ Qafqaz birliyini yaratmaqdan ibarət olmalıdır" fikrini xatırladır.

Tədbirdə Şimali Qafqaz adından çıxış edən Əhməd Nəbi Mağoma çar, sonralar Sovet Rusiyasının bu regionda həyata keçir-

diyi mənfur siyasət barədə ətraflı bəhs edir. Natiq Şimali Qafqaz Cümhuriyyətinin yaranması, süqutu və tarixi əhəmiyyətindən danışır, nitqini belə bitirir: "Biz bu günə qədər olduğu kimi, bundan sonra da bizim və sizin hürriyyət və istiqlalımız uğrunda bərabərcə çalışacaq, bütün məhkum millətlərlə sıx iş birliyi şəraitində mübarizə aparacağıq".

"Azərbaycan" jurnalı sonrakı illərdə də bu mövzunu diqqət mərkəzində saxlamış, mühacirlərin Qafqaz problemi ilə bağlı fikirlərini öz səhifələrində işıqlandırmışdır. Jurnalın 1962-ci il aprel nömrəsində istiqlal uğrunda alovlu mübariz Eldeniz Qurtulanın "Azərbaycanlılar və çevrədəki siyasi gəlişim" adlı məqaləsində deyildiyi kimi, "Qafqaz Konfederasiyası tarix boyunca iç-içə yaşamış, ortaq düşmənə qarşı dəfələrlə savaşmış Qafqaz uluslarının alın yazısıdır".

Elə buna görədir ki, "Azərbaycan" jurnalı adını daşıdığı ölkə ilə bərabər, digər Qafqaz cümhuriyyətlərinə, onların istiqlalı uğrunda mübarizə həyatına aid müntəzəm material vermişdir. Gənc yaşlarından çar Rusiyasına qarşı vətəndə milli mücadilə aparan Əhməd Nəbi Mağoma mühacirətdə də öz idealı -Vətənin istiqlalı amalından əl çəkməmiş və bu əqidəsinə sonadək sadiq qalmışdır. Avropada fəaliyyət göstərən Şimali Qafqaz Milli Komitəsinin başqanı prof.Ə.H.Mağoma "söz və yazı ilə gecə-gündüz demədən qurtuluş davasını savunmuşdu". İstiqlal aşiqi Münhendə vəfat etmiş, orada dəfn olunmuşdur.

Vassengerey Cebaği isə Şimali Qafqaz Cümhuriyyətinin ilk parlament rəisi idi. "Gərək vətəndə və gərəksə vətən xaricində daşıdığı böyük ruha, sahib olduğu milli məfkurə və tarixi şəxsiyyətə uyğun bir şəkildə olanca qeyrətini sərf etmiş, mücadilədən bir an geri qalmamışdı". Vassengerey Cebagi İstanbulda vəfat etmişdir.

Şimali Qafqaz Cümhuriyyətinin sabiq dövlət başqanı Pişmaho Kosok 1906-cı ildə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olur. Ali təhsilə yiyələndikdən sonra Şimali Qafqaza

göndərilir. Bütün bunlar barədə yazan Əhməd Avar Pişmaho Kosoku vaxtilə Londonda hüquq təhsilinə yiyələnən, sonra doğma Hindistana göndərilən və vətəndə istiqlal atəşini alovlandıran Mahatma Qandi ilə müqayisə edir (12, aprel 1962). 1917-ci il fevral inqilabı Şimali Qafqazı da silkələdi: 1918-ci il mayın 11-də İslam aləmində ilk müstəqil Şimali Qafqaz Cümhuriyyətinin yarandığı elan olundu. Pişmaho Kosok bəy ilk baş nazir olaraq hökumət təşkil edir, Abdulməcid Çermoyun Parisə səfəri ilə əlaqədar Dövlət Başkanlığı vəzifəsini də öz üzərinə götürür. Şimali Qafqaz bolşeviklərin istilasına məruz qaldıqdan sonra Türkiyəyə mühacirət edən Pişmaho Kosok bəy xaricdə sovet rejiminə qarşı ideoloji mübarizəsini davam etdirir, mətbuatda Şimali Qafqazın qurtuluş davasını işıqlandıran yazılar çap etdirir. 1960-cı ildə Şimali Qafqaz Türk Kültür və Yardım Dərnəyinin çap etdiyi "Şimali Qafqaz hürriyyət və istiqlal savaşı tarixindən yarpaqlar" adlı əsəri böyük əhəmiyyət kəsb edir.

Qafqaz xalqlarının istiqlalı uğrunda mübarizə tarixində Almaniyadakı Şimali Qafqaz Komitəsinin başkanı Əli xan Qantəmir parlaq iz qoymuşdur. Təsadüfi deyil ki, böyük mücahidin vəfatı ilə bağlı "Azərbaycan" jurnalında dərc olunmuş materiallarda dr. M.Oroys "1963-cü il aprelin 16-da vəfat etmiş Şimali Qafqaz Milli Komitəsi başkanı Əli Xan Qantəmirin əziz xatirəsinə" (12, 23), Mustafa Zihni Hizal "Mərhum Əli xan Qəntəmir bəy" (12, 27), V.Y.(Əbdulvahab Yurdsevər-A.T.) "Əli xan Qantəmir" (12, 31), "Süleyman Təkinərin Əli xan Qantəmirin cənazə törəninde çıxışı"nda (12, 32), Əli xan Qantəmir böyük ideal, məslək, sarsılmaz əzm və iradə, qüdrətli qələm sahibi, müdrik, nəcib bir insan kimi təqdim və təqdir edilir (12, 1963, №1-2-3 (133-134-135)). Dr. M.Oroys yazır: "O, həyatının son nəfəsinə qədər bu davanın Qafqaz millətləri və onlarla birlikdə boyunduruq altında əzilən əski Rusiyanın və indiki Sovetlər Birliyinin digər xalqları yararına hüquq əsasları daxilində və adilanə bir tərzdə həlli uğruna sərf etmişdir" (səh.23). Əli xan Qantə-

mirin bütün həyatı Qafqaz xalqlarının istiqlalı uğrunda mübarizədə keçmişdir. Qafqazın milli hökumətində məsul mövqe tutan Ə.Qantəmir Azərbaycana səfir göndərilmişdi. Şimali Qafqaz Respublikası süquta uğradıqdan sonra mühacirət edən Əli xan əvvəlcə Türkiyədə, sonra Polşada bolşevik rejiminə qarşı ideoloji mübarizə aparır, "Prometey" jurnalı ilə fəal əməkdaşlıq edir. 1950-ci illərdə prof. Ə.Mağoma və başqa silahdaşları ilə birlikdə Anti-bolşevik Mücadilə Koordinasiya Mərkəzinə əks mövqedə dayanan Qafqaz Millətləri Birliyi təşkilatını yaradır. İllər boyu birliyin orqanı "Birləşik Qafqasya" jurnalına redaktorluq edir. Qüdrətli qələm ustası həm də "Dərgi" və "Paris bloku"nun "The Problems..." jurnallarının fəal yazarlarından idi.

Əli xan Qantəmirin müqəddəs mücadilə yolunu dəyərləndirmək üçün Ə.Yurdsevərin cümləsi yerində və çox sərrastdır: "Əgər tarix bir gün Məmməd Əmin Rəsulzadə, Mirzə Bala, Əli xan və Əhməd Nəbi Mağoma kimi fədakar, idealist və yüksək səviyyəli mücahidlərin vətən və istiqlal uğrunda nə kimi sıxıntılara, təqiblərə və çəkilməz dərdlərə qatlandıqlarını səhifə-səhifə tədqiq və təsbit edəcək olursa, o zaman bütün dünya bunu qəbul və etiraf edəcəkdir ki, Qafqaz qurtuluş davası sağlam və yenilməz əsaslar üzərində dayanan bir təməl üstündə qurulmuşdur" (səh.32).

"Azərbaycan" jurnalı Qafqazın bütün ellərindən, onların istiqlal qəhrəmanlarından yazırdı. Biz daha çox Şimali Qafqazdan bəhs etdik və bu, təsadüfi deyil. Qafqazın cənubundakı üç respublika bu gün müstəqildir (Ermənistanın müstəqilliyi simvolik xarakter daşısa da), onların istiqlalı uğrunda mücadilə edənlər bu gün vətəndə ehtiramla yad olunur. Lakin Şimali Qafqaz savaşçılarının narahat ruhları bu gün də istiqlal həsrətindədirlər...

Qeyd etdiyimiz kimi, "Azərbaycan" jurnalı Qafqaza, onun istiqlalı probleminə bütövlükdə regionun azadlığı kimi nəzər salmışdır. Yəni Qafqazın 4 respublikası öz müstəqilliyini tam əldə etməyincə, regionda sülhdən, sabitlikdən söhbət gedə bilməz.

Qafqazın cənub respublikaları bolşevizmdən, sovet istilasından azad oldu, lakin Şimali Qafqaz hələ də əsarət altındadır və şübhəsiz bu faktor Qafqazın cənubundakı gərginliyin əsas mənbələrindəndir. İllərcə Azərbaycan istiqlalı, bütövlükdə Qafqazın azadlığı uğrunda ideoloji mübarizə aparan Əhməd Qaraca 1995-ci ilin 25-29 oktyabrında Qarsda keçirilən "Birinci Qafqaz simpoziumu"nda söylədiyi çıxışını "Azərbaycan" jurnalına belə bir sərlövhə ilə təqdim etmişdir: "Qafqaz Konfederasiyası Qafqaz cümhuriyyətlərinin təhlükəsizlik qalxanı ola bilərmi?" (425). Burada natiq Qafqazın qədim tarixinə, Rusiyanın Qafqazı işğal etməsinə, 1917-ci il Fevral inqilabına və onun təsiri ilə regionda baş verən dəyişikliklərə və Qafqazın sonrakı taleyinə dair zəngin, sanballı faktlardan istifadə edərək maraqlı mülahizələr irəli sürür, nəticələr çıxarır. Əhməd Qaraca Qafqaz Konfederasiyası, bu ideyanın yaranma səbəbləri, tarixi, aktuallığı, əhəmiyyəti, zəruriliyi haqda da diqqətçəkən məqamlara toxunur. O yazır ki, Qafqaz millətləri bir araya gəlmədiklərindən bu yerlərin zəngin yeraltı və yerüstü sərvətləri hər zaman istilaçıların iştahalarını artırmış, onların çirkin niyyətlərinin həyata keçirilməsinə yardım etmişdir. Təsadüfi deyil ki, regionun qabaqcıl ziyalıları tarix boyu Qafqaz millətləri arasında həmrəylik, birlik, sülh və əməkdaşlığın bərqərar olmasına çalışmışlar.

Əhməd Qaraca Qafqaz Konfederasiyası ideyasının gerçəklənməsi üçün atılan ilk addımlardan da söz açır. 1934-cü ilin 14 iyulunda Belçikanın paytaxtı Brüsseldə Azərbaycan, Gürcüstan və Şimali Qafqazın mühacirətdəki təmsilçiləri bir araya gələrək, Qafqaz Konfederasiyası bəyannaməsini imzaladılar. Sənədi Azərbaycan adından Azərbaycan Milli Şurası əski başkanı, Müsavat Partiyası və Azərbaycan Milli Mərkəzinin lideri M.Ə.Rəsulzadə, Azərbaycan parlamentinin əski başkanı və Azərbaycan Cümhuriyyəti mürəxxəs heyəti rəisi Əli Mərdan bəy Topçubaşı, Gürcüstan adından Noy Jordaniya - Gürcüstan Cümhuriyyətinin əski cümhurbaşkanı və Gürcüstan Milli Mərkəzinin rəisi,

A.Çenkeli - Gürcüstan Cümhuriyyətinin Paris əski müməssili, Şimali Qafqaz adından Şimali Qafqaz Cümhuriyyəti əski dövlət adamları - Məmməd Girey Sinq, İbrahim Çulik və Tausultan Şahman imzalamışlar. Bəyannamə imzalandığı zaman olduğu kimi bu gün də əhəmiyyətli və aktualdır. Bu cəhəti nəzərə alaraq, sənədə diqqət yetirək. Orada yazılmışdır:

"Azərbaycan, Gürcüstan, Şimali Qafqaz Milli Mərkəzləri

-bir millətin tam inkişafının ancaq tam bir istiqlal şərti ilə mümkün ola biləcəyini nəzərə alaraq;

-təkmil Qafqaz qüvvətlərinin tək və müştərək bir hüdud daxilində birləşmədən bir qayəyə varmanın son dərəcə müşkül olacağı qənaətinə gələrək;

-Qafqaz millətlərinin həyati mənfəətlərinin mühafizəsini təmin üçün bunların xarici siyasət və milli müdafiələrinin müştərək bir tərzdə idarə edilməsinin zəruri olduğuna əmin olaraq;

-Qafqaz millətlərinin hər birinin öz fikri və maddi qüvvələrinin tam inkişafı üçün əlzəm olan tamamiyyəti mülkiyyəsinin həqiqi zimanını ancaq belə bir birlik yolu ilə nail olacağına ümid edərək;

-Qafqaz cümhuriyyətləri ittihad əsasını qəbul etməklə bütün vətəndaşların arxalandıqlarına güvənərək;

-Qafqaz Cümhuriyyətləri Konfederasiyasının məmləkətin siyasi və iqtisadi vəhdətindən irəli gələn bir şəkil olduğunu təsdiq xüsusunda həmrəy olaraq Qafqaz Konfederasiyasının əsaslarının bunlar olduğunu elan edir:

1. Qafqaz Konfederasiyası daxilində bir cümhuriyyətin xarakter və tamamiyyəti mülkiyyəsini təmin edərək, xaricdə bütün cümhuriyyətlər namına yüksək dərəcəli beynəlmiləl bir vəhdət kimi hərəkət edəcəkdir. Konfederasiyanın müştərək bir siyasi və gömrük hüdudu olacaqdır.

2. Konfederasiyaya daxil cümhuriyyətlərin xarici siyasəti konfederasiyanın səlahiyyətdar nümayəndələri tərəfindən idarə ediləcəkdir.

3. Konfederasiya hüdudlarının mühafizəsi konfederasiyaya daxil cümhuriyyətlərin ordularından ibarət qüvvətlər konfederasiya ordusuna veriləcək və bu ordu konfederasiyanın rəhbər nümayəndələrinə tabe tək bir komanda altında olacaqdır.

4. Konfederasiyaya daxil cümhuriyyətlər arasında çıxa biləcək və bilavasitə müzakirə ilə həll edilməyəcək bir türlü ixtilaflar icbari arbitə və yaxud Konfederasiya Yüksək Məhkəməsinə verilərək həll ediləcəkdir. Konfederasiyaya daxil cümhuriyyətlər bunların bütün qərarlarını tamamən qəbul və icra etməyə məcburdurlar.

5. Ekspertlər Komissiyası, yuxarıda sadalananlar əsasında bu yaxında Qafqaz Konfederasiyası Konstitusiyasını hazırlamaqla məşğul olacaqdır.

6. Qafqaz Konfederasiyası Bəyannaməsində imza üçün Ermənistan Cümhuriyyəti üçün də yer buraxılmışdır".

Qafqaz İstiqlal Komitəsinin həyata keçirmək istədiyi Qafqaz Konfederasiyası Bəyannaməsi, müəllifin fikrincə, Qafqaz siyasi mühacirətini və onların milli quruluşlarını tək hədəfdə birləşdirmişdir. Bu, Qafqaz millətlərinin həyati arzu və ehtiyaclarından doğmuş, istiqlal və hürriyyətə, müstəqil dövlət həyatına aparan yoldur. Ə.Qaraca yazır ki, Qafqaz Konfederasiyası Qafqaz gerçəkliyindən qaynaqlanır və bu ölkələr üzərinə gələn istila qüvvətlərinə qarşı bir qalxan rolu oynaya bilər.

Müəllif müasir dövrdə - "Sovetlər Birliyinin yıxılmış olmasına rəğmən, xortlayan Rusiya imperializmi" təhlükəsinin meydana çıxdığı zaman da Qafqaz Konfederasiyası ideyasının aktuallığını qeyd edərək yazır: "Rusiya Federasiyası Sovet rus imperatorluğunun hüdudlarına yenidən sahib olmaq məqsədilə açıq-aşkar müdaxiləyə girişməkdə və Qafqaz xalqlarını bir-birinə qarşı qoymaqdadır". Qafqazda yaranan qanlı mənzərə Ə.Qaracanın fikirlərini təsdiq edir. Tarix boyu rusların əlaltısı, nökəri rolunda çıxış edən ermənilər Azərbaycana qarşı torpaq iddiasından əl çəkmir, bu ölkənin böyük bir ərazisini Rusiyanın yar-

dımı ilə işğal altında saxlayır. Rusiya Gürcüstanın da ərazi bütövlüyü problemini gündəlikdə saxlayır, çeçen xalqının azadlıq hərəkatını qanda boğur, Dağıstanı daim hədə və təzyiqdə saxlayır və s. Sonda Ə.Qaraca ümid edir ki, ermənilər xam xəyallardan, terrorizmdən əl çəkəcək və Qafqaz sülhə qovuşacaqdır. Təəssüf ki, bu müqəddəs arzuların gerçəkləşməməsi üçün Rusiya, onun əlaltısı Ermənistan bu gün də çirkin niyyətlərindən əl çəkmir.

Dəfələrlə bu mövzuya müraciət edən Ə.Qaraca haqqında bəhs etdiyimiz çıxışından xeyli əvvəl - 1991-ci ildə yazdığı "Azərbaycan mühacirəti siyasi misyonunun (misyon- dini, elmi və ya diplomatik vəzifə daşıyan şəxslərin təşkilatı - A.T.) Qafqaz millətlərinə baxışı" adlı sanballı elmi-publisistik məqaləsində Qafqaz Konfederasiyası, onun tarixi, 1934-cü il Qafqaz Konfederasiyası bəyannaməsi, müxtəlif təşkilatların, o cümlədən Gürcüstan, Şimali Qafqaz, Ukrayna və s. mühacir qurumların bu tarixi sənədə münasibəti və Qafqaz birliyinin gerçəkləşdirilməsinin zərurəti, qarşıda duran vəzifələr barədə əsaslı, etibarlı mənbələrə söykənən mülahizə və fikirlərini qələmə almışdır (422, 7-13). Mühacirət həyatında M.Ə.Rəsulzadənin üç mühüm vəzifənin reallaşdırılması üçün ciddi fəaliyyət göstərdiyini yazan Ə.Qaraca həmin vəzifələrin təsnifatını belə təqdim edir:

-İdil-Ural, Türküstan, Krım, Şimali Qafqaz türklərinin birliyi;

-Sovetlər Birliyindəki qeyri-rus millətlərin mücadilə birliyi;

-Qafqaz millətlərinin birliyi.

Müəllif M.Ə.Rəsulzadənin, onun rəhbərlik etdiyi Müsavat Partiyası və Milli Mərkəzin hər üç istiqamətdə faydalı, fədakar fəaliyyətini qeyd etməklə yanaşı, mücahidlərin Qafqaz Konfederasiyası ideyası uğrundakı mübarizəsi üzərində ətraflı dayanır.

"Niyə Qafqaz Konfederasiyası" sualına müəllif cavab verir ki, Qafqaz millətlərinin siyasi, iqtisadi, ictimai, mədəni, psixoloji birliyi onların istiqlalı üçün son dərəcə vacib faktordur. Ə.Qaraca müxtəlif vaxtlarda ingilis, fransız, alman, amerikan və

rusların fitvasına uyaraq və "xam xəyallarının gerçəkləşəcəyi inancı" ilə ermənilərin Qafqaz Konfederasiyası ideyasına qarşı çıxdığını, regionda sülh və sabitliyə təhlükə yaratdığını, terror aktlarını həyata keçirdiyini, qırğınlar törətdiyini acı təəssüflə yazır.

Təbii ki, Qafqazda on illər boyu "parçala və hökm sür" prinsipi ilə işləyən Rusiya Azərbaycan mühacirlərinin tənqid, etiraz hədəfinə çevrilmişdi. Qafqazı, orada cərəyan edən hadisələri həmişə diqqətdə saxlayan mühacirlər olaylara dərhal münasibət bildirir, Ümumqafqaz mənafeyi baxımından çıxış edirdilər.

"Azərbaycan" jurnalında dərc olunmuş "Azərbaycan milli quruluşları rusların Çeçenistanı işğal etməsini şiddətlə protesto etdilər və Şimali Qafqazın işğalçılara məzar olacağını söylədilər" (12, noyabr-dekabr 1994, №300, səh. 63.) adlı yazıda göstərilir ki, rusların Çeçenistana hücumu ilə bağlı Azərbaycan Milli Mərkəzi və Azərbaycan Kültür Dərnəyi bəyanat yaymışlar. Bəyanatda deyilir: "Qəhrəman, böyük mücahid Şeyx Şamilin nəvələri - Şimali Qafqaz xalqları çeçenlər, avarlar, balkarlar, inquşlar, ləzgilər, osetinlər, qaraçaylılar, çərkəzlər vətənlərinə qarşı qaldırılan bu rus ordusu işğalına seyrçi qalmayacaqdır. Heç şübhəsiz, bu alçaqca işğalçı hərəkət Rusiya Federasiyası ordusuna məzar olacaq, rus anaları ağlar qalacaqdır".

Yazıda daha sonra Şimali Qafqazın son 100 illik tarixinə qısa nəzər salınır, Rusiyanın Qafqazdakı işğalçı siyasəti ifşa olunur. Bəyanatın müəllifləri bu cinayəti sadəcə, müşahidə etməklə kifayətlənən Avropaya müraciət edirlər: "... insan haqları qəhrəmanları, haradasınız? Səsiniz, sorağınız kəsildi". Sənəddə göstərilir ki, Şimali Qafqazın və bütünlüklə Qafqazın Rusiya tərəfindən işğala uğraması ilə başlanan milli mücadilə 200 ilə yaxınlaşmaqdadır. Bu mücadiləni aparanlar "... vətənləri, millətləri, müqəddəsləri üçün ölümü heçə sayan gerçək qəhrəman xalqlardır" (yenə orada. səh.64).

Yazıya Azərbaycanın istedadlı mücahid şairi Kərim Yaycılı-

nın Şimali Qafqaz qəhrəmanlarına ithaf etdiyi "Hürriyyət yolçuları" şeri də əlavə olunmuşdur:

Çıxsınlar birlikdə, həm də qol-qola,
Günəşlə parlayan şərəfli yola,
Qurtulsun xalqımız artıq bu yoldan,
Arslanlar kükrəsin şanlı Qafqazdan.

At nallarından fırlayan qığılcımlar
hədəfləri izlədi:

Yenə bir səhər vaxtı,
Sisli təpələrdən alaylar axdı,
Bunlar Şamilin alayları idi:
Baxmadan arxalarına,
Üfüqlər qədər geniş məzarlarına,
Rüzgardan bir ətir gözləmədən getdilər.
Onlar getdi, onların balaları da gedəcək,
Və bu gediş belə davam edəcək.

"Azərbaycan" 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikanın ziyalıları, elm, mədəniyyət, ədəbiyyat xadimləri də jurnalla əlaqə saxlamağa, əməkdaşlıq etməyə başladılar. Onlar ölkənin aktual problemlərindən, respublikadakı mövcud ictimai-siyasi vəziyyətdən və qarşıda duran vəzifələrdən yazır, xaricdəki həmvətənləri düşündürən məsələlərə toxunurdular. Qafqaz mövzusu, onun tarixi və taleyi də diqqət mərkəzində idi. Bu mənada tarix elmləri doktoru, prof. Cəmil Həsənlinin "Rusiya Federasiyası Şimali Qafqaz cümhuriyyətləri və Dağlıq Qarabağ məsələsində çıxılmaz vəziyyətdədir" adlı yazısını problemə peşəkar və əsaslı baxış adlandırmaq olar. İstedadlı alim zəngin və mötəbər elmi mənbələrə istinad edərək, regionun keçmişinə nəzər salır, müasir mənzərəni işıqlandırır, dərindən təhlillər aparır, müvafiq nəticələr çıxarır, reallığa əsas-

lanan proqnozlar irəli sürür (60).

Professorun fikrincə, Rusiyanın Azərbaycana fəal bir şəkildə göz dikməsi 18-ci əsrin əvvəllərinə təsadüf etsə də, o, çirkin niyyətinə yalnız XIX əsrin əvvəllərində nail ola bildi. 1801-ci ildə Gürcüstanı işğal edən Rusiya artıq regionda nüfuzu möhkəmləndirmək üçün qəti və sərt addımlar atmağa başladı. Azərbaycan xanlıqları işğala məruz qaldı: 1804-cü ildə Gəncə qanlar içində boğuldu, 1819-cu ildə Şəki xanlığı ləğv edildi, 1822-ci ildə Qarabağ xanlığı Rusiyanın bir vilayəti elan olundu, 1828-ci ildə İrəvan xanlığında - əhalisinin 70-75 faizini Azərbaycan türkləri təşkil edən bu ərazidə "erməni muxtariyyəti" yaradıldı, bundan sonra ruslar ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi siyasətini fəal şəkildə həyata keçirməyə başladı. Tədqiqatçı daha sonra ruslar tərəfindən "nizamlanan" erməni-müsəlman münasibətləri və bundan məharətlə bəhrələnən Rusiyanın bölgədəki siyasəti üzərində ətraflı dayanır, Qafqazın sovetləşməsi səbəblərini şərh edir və regionun müasir durumunu dəyərləndirir. O, yazır: "Bu gün Rusiya Ermənistanı "Cənubu Qafqazdakı jandarma" kimi fərqləndirmişdir". Fikrimizcə, prof. C.Həsənlinin obrazlı ifadə ilə gəldiyi qənaət yerində və düzgündür: "Belə bir faciəli dövrdə Qarabağ problemi həm Ermənistanın, həm də Azərbaycanın, hətta bəlkə də bütün Qafqazın müstəqilliyini sınaqdan çıxaran məhək daşına çevrilir".

Azərbaycan mühacirlərinin müxtəlif tədbirlərdə - simpozium və toplantılarda, konfrans və görüşlərdə toxunduqları əsas mövzulardan biri də Qafqaz problemidir. Bu cəhətdən 1997-ci ilin may ayında Ankarada Azərbaycan Kültür Dərnəyinin 28 May münasibətilə keçirdiyi simpozium da istisna deyil. Tədbirdə Azərbaycanla Qafqazın eyni taleyi yaşamağa məhkum olduqları dəfələrlə vurğulanmışdır. Prof. dr. Əhəd Andicanın "Güclü bir Azərbaycan türk cümhuriyyətləri və Qafqaz üçün şərtdir" adlı çıxışı da adından göründüyü kimi, bu ruhdadır. İstanbul millət vəkili Bülənt Akarcalının "Qafqazın kilidi, türk dünyası-

nın açarı: Azərbaycan" adlı çıxışında natiq Azərbaycanın regi-ondakı rolunu və yerini belə dəyərləndirir: "...Azərbaycan olmadan Türkiyə Cümhuriyyətinin türk dünyası ilə bütünləşməsi kəsinliklə mümkün deyil, felən imkansızdır" (279).

Prof. Əbdulxaliq Çayın "Qafqazdakı vəziyyət və Türkiyə" adlı çıxışında regionun son yüzillik tarixi işıqlandırılır, dəyərləndirilir. O, haqlı olaraq göstərir ki, bu gün Azərbaycan türkləri İranın, xristian dünyasının, o cümlədən Rusiyanın, onun vasitəsilə Ermənistanın təhdidləri, təzyiqləri ilə üz-üzə qalmışdır. Professorun fikrincə, Azərbaycanın dünya dövlətləri sırasında şərəfli yerini tutması üçün onun Türkiyə tərəfindən dəstəklənməsi zəruridir (327).

Beləliklə, "Azərbaycan" jurnalının, onun timsalında mühacirlərimizin Qafqaz mövzusuna, probleminə nə qədər diqqətlə, həssaslıqla yanaşdıqlarının şahidi olduq. Bu da təbiidir. Çünki Azərbaycan istiqlalı Qafqazın taleyindən, Qafqazın istiqlalı Azərbaycanın taleyindən asılıdır.

Azərbaycan Milli Mərkəzinin, Müsavat Partiyasının Qafqaz Konfederasiyasına, Qafqaz Birliyi ideyasına münasibəti bütün mühacirlər tərəfindən birmənalı qarşılanmamışdır. Hələ 20-30-cu illərdən başlayaraq M.Ə.Rəsulzadə və tərəfdarlarının bu istiqamətdəki fəaliyyəti onunla müxalifətdə olan qrup üzvlərinin kəskin müqavimətinə rast gəlirdi.

Xəlil bəy Xasməmmədov, Şəfi bəy Rüstəmbəyli, Nağı Şeyxzamanlı, Fuad Əmircanın (Daryal) da daxil olduğu qrup əvvəlcə M.Ə.Rəsulzadənin təşəbbüsü ilə yaradılan "Prometey"ə, sonra Qafqaz İstiqlal Komitəsinə, Qafqaz Konfederasiyası Şurasına qarşı əks mövqedə durdular, digər Qafqaz mühacirləri ilə öz birliklərini yaratdılar. Doğrudur, Nağı Şeyxzamanlı, Fuad Daryal sonralar mövqelərini dəyişdilər. Lakin İkinci Dünya müharibəsindən sonra siyasi fəaliyyətini xeyli artıran əski mühacirlərdən Ceyhun Hacıbəylinin, Əkbərağa Şeyxülislamın, Cahangir Kazımbəyin, dr. Əziz Alpautun, habelə legionerlərin lideri Əb-

dürrəhman Fətəlibəyli Düdənginskinin və başqalarının hesabına müxalif qrup xeyli güclü idi. Onlar Amerika Komitəsi ilə danışıqlara girir, Kerenskinin rəhbərlik etdiyi antibolşevik birliklə, sonralar mərkəzlə əməkdaşlıq edir, özlərinin mətbu orqanlarını buraxırdılar. Azərbaycan mühacirlərindən ibarət hər iki qrupun məqsədi, məramı aydın, təmiz və müqəddəsdir: Azərbaycanın istiqlalı! Lakin mübarizə üsulu, taktikası, habelə yaxın tarixdəki, xüsusilə 1920-ci il aprelin 27-də Azərbaycanda baş verən hadisələrə fərqli baxış və münasibət onları ayırır.

Diqqətçəkən başqa mövqe də var. Bu mənada Azərbaycan Milliyyətçilər Dərnəyinin (Ankara) və onun orqanı "Türk izi"nin mövqeyi maraqlıdır və bu barədə bir qədər ətraflı bəhs etməklə Azərbaycanın istiqlalı uğrunda mücadilə tarixinin şərəfli olduğu qədər, mürəkkəb, ziddiyyətli məqamlarla da zəngin olduğunu bir daha vurğulamaq istərdik.

Qeyd etdiyimiz kimi, Qafqazla bağlı problemlərə, xüsusilə Qafqaz Konfederasiyasına münasibət mühacirlər arasında birmənalı deyildi və bu fikir ayrılığı təbii ki, onların mətbuatında da öz əksini tapırdı. 1952-ci ildə Ankarada təsis edilən Azərbaycan Milliyyətçilər Dərnəyinin "Türk izi" adlı orqanının fərqli mövqeyi daha kəskin və qabarıq görünür. Dərnəyin qurucular heyətinin təsis bəyannaməsində Qafqaz Konfederasiyası ifadəsi işlənməsə də, sənədin ruhu bu məsələyə də münasibəti açıq-aşkar ortaya qoyur.

Bəyannamədə deyilir: "Hansı məqsəd və mülahizələrlə olursa-olsun, Azərbaycanın həyat və müqəddəratını türklüyün əzəli və əbədi düşmənləriylə işbirliyində arayan və ya milliyyətçilik kisvəsi (burada "pərdəsi" mənasında - A.T.) altında, milli mənfəətlərimizlə təlifi qəbul olmayan (uzlaşmayan - A.T.), çeşidli siyasi tərtiblərdə iştirak edən, zümrə və təşəkküllərlə heç bir ilgimiz olmadığını bəyan edirik" (267, 1952, №1, səh.2). Burada "türklüyün əzəli və əbədi düşmənləri" ifadəsi şübhəsiz ki, Rusiyaya və onun Qafqazdakı əlaltılarına aiddir. Onlarla işbirliyi

şəraitində fəaliyyət isə visbadençilərin mövqeyinə və Qafqaz Konfederasiyası ideyası tərəfdarlarına işarədir. "Türk izi" "Nəşr həyatına başlarkən" adlı proqram məqaləsində dərnəyin bu mövqeyini bir qədər aydınlaşdıraraq, onu daha da kəskinləşdirmişdir. "Axıdılan qanlara, çəkilən əmək lərə rəğmən, təəssüf ki, bu gün bir çox türk ölkələri ən əziz varlıqları olan istiqlallarını qeyb etmişlər. Bəzi təşəkkül, zümrə və şəxslərin, heç bir səlahiyyətləri olmadığı halda, özlərində məmləkətimizi təmsil etmək haqq və yetkisini bularaq, milli davamızı inhisarları altında bir meta telakki etdiklərini (mal, sərmayə etdiklərini - A.T.) ... böyük bir üzüntü ilə qeyd edirik" (267, 1952, №1, səh.4). Jurnal proqram məqaləsində "Azərbaycan davasını şəxsi mənfəətlərinə alət edən professional siyasət cambazları (burada kinayə ilə "usta" mənasında-A.T.) və onlara kor-koranə itaət edən "qapı qulları" ilə heç bir münasibətdə olmadığını xüsusi vurğulayır.

Demək olar ki, əksər materiallarında Qafqazın problemlərinə toxunan "Türk izi"nin bu mövzuya xüsusi münasibəti jurnalın elə ilk nömrəsindən bəlli olur. Jurnal birinci nömrəsində Hizaloğlu Mustafa Zihninin "Qardaş Şimali Qafqaz Cümhuriyyətinin istiqlalı" adlı yazısını dərc edir (362). Müəllif 1918-ci il may ayının 11-də qurulan Şimali Qafqaz Cümhuriyyətinin, ümumiyyətlə, Şimali Qafqazın tarixinə, istiqlal uğrunda mücadilə yoluna qısaca nəzər salır, "vəhşi Moskvaya qarşı dünyanı heyrətə salan bir qəhrəmanlıqla savaşan" Şimali Qafqaz xalqlarının hürriyyətpərvərliyindən söz açır və sonda yazır: "... imam mansurların və nəhayət, böyük mücahid şeyx şamillərin ölkəsi, şəhidlər vətəni Qafqaz! Sənin istiqlal və hürriyyət davan bir tək qafqazlı qalsa da, onun da son nəfəsinədək davam edəcəkdir".

"Rus imperializminin ehtirasları" (burada güclü istəkləri mənasında - A.T.) adlı məqalədə Hidayət Turanlı milli istiqlal, onun tarixi və problemləri, mühacirətdə Azərbaycan istiqlalı uğrunda mübarizə yolları və metodları barədə yazır, bütün bu mə-

sələlərə münasibətini bildirir. O, çarın imperiya siyasəti ilə "rus imperializminin mənfur və sakim (yanlış, səhv - A.T.) zehniyyətini daşıyan və türk ölkələri üzərində hələ də bir haqq iddia edən Kerenski"nin niyyətləri arasında nəticə etibarilə heç bir fərq olmadığını qeyd edir. Müəllif bununla da istər 1951-ci ildə Visbaden Konfransında 5 rus mühacir təşkilatı ilə bir araya gələn və Rusiya Millətlərini Qurtarma Şurasına daxil olan Azərbaycan Milli Birliyi rəhbərlərinin, istərsə də "Rusiya ilə bir Federasiya ilə bağlanmaq fikrinin prinsip kimi rədd edilməzliyini" elan edən müsavatçı mühacirlərin mövqeyinin yanlış olduğunu qətiyyətlə bildirir və tənqid edir.

"Türk izi" sonrakı nömrələrində də Qafqaz problemi ilə bağlı mövqeyini bəyan edir və Qafqaz Konfederasiyası ideyasının əleyhinə münasibətini kəskinləşdirir.

Safvet Zərdabinin "Azərbaycan istiqlalına gedən yollar" adlı məqaləsi (691, 4) bu mənada daha sərt və diqqətçəkəndir. "Azərbaycan bolşeviklər tərəfindən istila ediləndən sonra xarici məmləkətlərə mühacirət edən azəri türklərinin - hamımızın fikri Vətənimizin istiqlalı olduğu halda, bəzilərinin bu istiqlala gedən yollara tariximizə zidd istiqamət vermələri, təəssüf ki, aramızda birliyin yaranmasına imkan vermədi" - cümləsi ilə başlanan məqalədə müəllif türklərin təbiətən istiqlalsevər olduğunu, elə ona görə də "bəyaz ilə qırmızı rus dövləti içində" yaşamalarına baxmayaraq, nə rusluğu, nə də kommunizmi qəbul etmədiyini göstərir. O yazır: "İstiqlal hər millət üçün müqəddəsdir, fəqət bir türk üçün hürriyyət müqəddəs olmaqla bərabər, milli bir xarakter şəklini də ifadə edir".

S.Zərdabi türkləri "ruhən hürr" bir millət adlandırır və qeyd edir ki, bunun nəticəsidir ki, tarix boyunca heç bir türk kölə olmamışdır, yabançılar tərəfindən dəstəklənərək yaşamaq istəməmişdir. Sonra müəllif "yaradılışımız belə ikən, bəzi azəri mühacir zümrələrin istiqlalımıza gedən yollara milli xarakterimizə uymayan istiqamət vermələri"ndən narahatlıq və acı təəssüflə

söz açır. Onun fikrincə, mühacirlərin bir qismi istiqlalımızın yalnız əski rus imperatorluğu çərçivəsinə girən millətlərin də birləşməsiylə, digəri isə Qafqaz Konfederasiyası yolu ilə mümkün ola biləcəyini iddia edir. S.Zərdabi hər iki ideyanın tərəfdarlarını kinayə ilə "yolçu" adlandırır və təəccüblə yazır ki, opponentlərin fikrincə, Azərbaycan istiqlal mücadiləsində yabançılar tərəfindən dəstəklənmədən uğur qazana, öz qüdrətiylə ayaqda dura bilməz. Müəllif bu fikirlərlə qətiyyən razılaşmadığını, hər iki ideyanın perspektivsiz, ziyanlı olduğunu sübuta çalışır. O, əvvəlcə əski rus imperatorluğu hüdudları daxilində federasiya şəklindəki birliyin və ya ayrı bir təşəkkül olaraq Gürcüstanla Ermənistanın Azərbaycana necə bir "dəstək" ola biləcəyini araşdırmağa səy göstərir. Yazır ki, əski rus imperatorluğu hüdudları daxilində yaşayan millətlərin federasiya tezisini müdafiə edənlərdən bəziləri o qədər irəli getmişlər ki, istiqlal yolumuzun "Moskvadan keçdiyini" iddia etməkdən belə çəkinmirlər. Müəllif bu ideyanın tərəfdarlarını tənqid edərək qəzəblə soruşur: "Qızıl SSRİ imperiyası zatən federasiya deyilmi? Yalnız rəngini dəyişdirsək, istiqlalımıza qovuşacağıqmı? Bizim üçün qızıl ilə bəyazın nə fərqi var ki? Biri yalnız türkün, digəri yenə türkün və həm də bütün dünyanın düşməni deyilmi? Türkü və türklüyü Bəyazlar tədricən, Qızıllar isə kütlə halında imha etmək (məhv etmək - A.T.) istəmirlərmi?" (yenə orada). Suallar emosional, sərt və həm də düşündürücüdür. S.Zərdabi bu "əcaib federasiya" ideyası tərəfdarlarının özlərində cəsarət tapıb türk millətinin bir parçası olan Azərbaycanı hansı haqq və səlahiyyətlə təmsil etdiklərini də soruşur.

Müəllif daha sonra Qafqaz Konfederasiyası yolunu tutanların mövqeyinə nəzər salır. O yazır: "Bir federasiya və yaxud konfederasiya təşkil edə bilmək üçün ən əvvəl bu nəsnənin hüdudlarını təsbit etmək məcburiyyəti vardır. Yəni qonşu məmləkətlərlə xarici hüdudlarını və konfederasiya quran məmləkətlərin öz aralarındakı iç hüdudlarını" (yenə orada). S.Zərdabi "Qafqaz

Konfederasiyası" hüdudlarını öyrənmək məqsədilə bir məcmuənin üz qabığında xəritəni gözdən keçirdiyini və orada Şimali Qafqaz xalqları ilə birgə kazakların da adına rast gəldiyini görür və heyrətlə yazır: "...kazak milləti kimdir? Xəritədə bu millətə ayrılan yer... şimali qafqazlılara aid deyilmi?" Müəllif konfederasiyanın güney hüdudlarının da anlaşılmaz olduğunu, etnoqrafik, geoqrafik, geopolitik əsaslara uyğun gəlmədiyini qeyd edir.

S.Zərdabi xəritədə konfederasiyanın daxili hüdudlarının isə heç göstərilmədiyini və kinayə ilə "məlum olmayan bir şeyə nə "yaxşı", nə də "fəna" deyərsən" yazır. Bununla belə, münasibətini bildirməkdən də qalmır: "... bu konfederasiya yolçuları "əski ahbap" (kinayə ilə "sevilib-seçilən şəxs" mənasında - A.T.) olduqları üçün bunların bu "mızıkçılığı" (cığallığı-A.T.) fayda verməz, çünki bu hüdudlar, ya istiqlal günlərimizdə və ya hansı səlahiyyətlə bilməm, mühacirətdə - Varşavada tasarlanan (düşünülən, planlaşdırılan - A.T.) hüdudlardır". S.Zərdabi konfederasiyanın daxili sərhədləri barədə yazanda müəyyən ictimai-siyasi, tarixi şəraitdən istifadə edərək, Azərbaycanın əbədi, əzəli torpaqlarını qəsb edən Gürcüstan və Ermənistanla hansı hüdudlar barədə danışmaq olar? - sualını verir (yenə orada). "Yoxsa, erməni Mikoyanla, gürcü Cuqoşvili (Stalin) tərəfindən təsbit edilən bugünkü hüdudlar utanmadan qəbul olundu? "Bunların heç biri qəbul edilmədi" - belə deyirsinizmi? Elə isə düşündüyünüz konfederasiyanın nə xarici, nə də daxili hüdudları təsbit edilməmişdir, o halda nə qurmaq istədiyinizi soruşa bilərikmi?!" (yenə orada).

Müəllif tarixi unutmamağı, ondan ibrət dərsi almağı tövsiyə edir, istiqlal illərində yol verilən nöqsanları yada salır, "atəş belə açmadan bolşevikləri vətənimizə soxan zamanın iqtidar partiyası"nı ittiham edir, "əllərini sallaya-sallaya məmləkətimi işğal edən 11-ci rus ordusuna qarşı hücuma keçmək istərkən bizi arxadan vuran"ların kimlər olduğunu xatırladır, təəccüb və hid-

dətlə soruşur: "İndi bu qonşularlamı konfederasiya yolu ilə istiqlalımıza qovuşacağıq?" (yenə orada).

Məqalə problemə müxtəlif prizmalardan yanaşmaq cəhdi ilə də yadda qalır. Belə ki, müəllif qonşularla konfederasiya qurmağın bəlkə iqtisadi cəhətdən faydalı və lazımlı olacağı barədə də fikirlərini bölüşür. Onun araşdırmalarından məlum olur ki, bu birlik Azərbaycana iqtisadi cəhətdən də faydalı deyildir. Safvet Zərdabi istiqlal yolunda qonşulardan "dəstək" umanları qınayır: "Yalnız parantez (dırnaq işarəsi-A.T.) içində bunu da sormaqdan özümü saxlaya bilmirəm. Vətən və millətinin bir qədər fəqir və "dəstəyə" möhtac olduğunu düşünənlər, yaradılışımıza tamamən yabançı olan "dəstəklərə" ehtiyac görürlər, burunlarının dibində yaşayan, dünyaca hörmət görən və üstəlik də öz qardaşı olan bir dövlət xalqını nədən əcaba "dəstək" deyə intihab (seçim, seçmə - A.T.) etməyi ağıllarına da gətirmirlər?" (yenə orada).

Beləliklə, S.Zərdabinin məqaləsindən aşağıdakı qənaətə gəlmək olar:

-İkinci Dünya müharibəsindən sonra soyuq müharibənin başlaması, beynəlxalq aləmdə bolşevizmə qarşı ideoloji mübarizənin kəskinləşməsi Azərbaycan mühacirlərini də ruhlandırmış, Azərbaycanın istiqlalı uğrunda ideoloji mücadilə yeni mərhələyə qədəm qoymuşdur;

-Azərbaycan mühacirlərinin fəallığı Qafqaz problemini, Qafqaz birliyi ideyasını yenidən aktuallaşdırmışdır;

-Qafqaz birliyi ideyası fərqli baxışların ortaya çıxması ilə bərabər Azərbaycan istiqlal tarixi ilə bağlı bir sıra problemləri də yenidən müzakirə obyektinə çıxarmışdır. Xüsusilə müqavimət göstərilməyən XI Qızıl Ordunun ölkəyə daxil olması, Azərbaycanı işğal etməsi kimi məsələlər təkrar-təkrar ortaya qoyulur və opponentlər qarşılıqlı ittihamları kəskinləşdirirlər;

-Qafqaz birliyi ideyasına münasibətdə müxtəlif fikirlər toqquşur: hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründən bu ideyanı dəstəkləyən, 20-30-cu illərdə onu fəal müdafiə və təbliğ edən Müsavat Partiyası başda M.Ə.Rəsulzadə olmaqla Federasiya tərəfdarı kimi çıxış edir, mühacirətin belə demək mümkünsə, Avropa qanadı isə bolşevizmə qarşı mübarizədə Kerenski ilə ittifaqdan belə çəkinmir, nəhayət, hər iki fikri qəbul etməyən, onun müəlliflərini kəskin tənqid edən mühacirlər. S.Zərdabinin məqaləsi məhz sonuncuların mövqeyini əks etdirir. Onlar Azərbaycanın istiqlalının konfederasiyasız və həm də Türkiyəyə arxalanaraq, onun mümkünlüyü fikrinə üstünlük verirlər.

"Türk izi" jurnalı Qafqaz Konfederasiyası ideyası ilə bağlı mövqeyini əsaslandırmaq üçün müxtəlif mənbələrə, tarixi sənədlərə müraciət edir. Niyazi Kürdəmirin "Erməni - gürcü birliyi" adlı yazısı (400) bu qəbildəndir. Müəllif ermənilərin - daşnak, gürcülərin menşevik partiyaları arasında bağlanmış Paris bəyannaməsini oxucuların diqqətinə təqdim edir və yazır ki, bu sənədi nəşr etməkdə məqsəd Qafqaz Konfederasiyası təməllərinin hansı əsaslara söykəndiyini bir daha geniş ictimaiyyətin diqqətinə çatdırmaqdır. Məlum olduğu kimi, bədnam bəyannamədə mühacirətdəki və vətəndəki erməni və gürcülər, bütün maddi və mənəvi varlıqlarını toplayaraq, "bir tək erməni - gürcü qalasını vücuda gətirməyə" hərarətlə dəvət olunur. Yeri gəlmişkən qeyd edək ki, həmin sənəd vaxtilə M.Ə.Rəsulzadə və silahdaşlarının kəskin etirazı ilə qarşılanmışdır.

Niyazi Kürdəmir bu birliyin kimə qarşı yönəldiyinin müəyyənləşdirilməsini oxucunun ixtiyarına buraxır, özü isə Qafqaz Konfederasiyası fikrinin çürük təməllərə əsaslandığını izah edir. Tarixə üz tutur: 1788-ci ildə gürcü kralı II İraklinin arzusu ilə Gürcüstanın Rusiyaya birləşdirilməsinə, 1918-ci ildə gürcü menşeviklərin tələb və təşəbbüsü ilə seymin dağılmasına, ermənilərin 1918-ci ilin mart-aprel aylarında Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi qırğınlara, ermənilərin saysız-hesabsız terror aktlarına diqqəti çəkir və "sıraladığımız tarixi həqiqət və yazıları göz önündə canlandıraraq, öz-özümüzə belə

bir sual verə bilərik" - deyə yazır: "Əcaba, bu əhval və şərait içində Qafqaz Konfederasiyası fikrini kuvvədən (düşüncədən, niyyətdən - A.T.) fiilə (işə-A.T.) çevirmək mümkündürmü?" Sonda müəllif bu fikrin mühacirətdəki tərəfdarları və müxtəlif təşəkküllərinin 30 ildən də çox bir müddətdə müdafiə və təbliğ etdiklərinə baxmayaraq, "bu mövzudakı tərəqqiləri bir arpa boyu qədər irəliləyəməmiş və daim köstəklənmişdir" (zəncirlənmişdir - A.T.) - deyə ideyanın perspektivsiz və "çökməyə məhkum" olduğunu yazır.

"Türk izi" "Dürüstlük və itidal (ölçü, həd - A.T.) istəyirik" (361) adlı yazısınadək istər Qafqaz Federasiyası, istər Azərbaycan istiqlalı ilə bağlı digər yazılarında opponentlərinin adını çəkmədən onların mövqeyini kəskin tənqid, bəzən də ittiham edirdi. Söhbətin isə Müsavat Partiyasından və onun rəhbərliyindən getdiyi sahəyə az-çox bələd olanlar üçün sirr deyil. Lakin Hidayət Turanlının yuxarıda adını çəkdiyimiz və Çingiz Göygölün "Türk izi"nin elə həmin nömrəsində verilmiş "Milli dava" adlı məqaləsində opponentlər - Müsavat Partiyası, onun liderləri açıq-aşkar və sərt tənqid hədəfinə alınır. "Türk izi"nin bu mövqeyi hələ 20-30-cu illərdə M.Ə.Rəsulzadə və onun tərəfdarlarının Ş.Rüstəmbəyli, X.Xasməmmədov, M.Mehdiyev, N.Şeyxzamanlı, Fuad Daryal və başqaları tərəfindən tənqidini xatırladır. İrad və ittihamların məğzi, məzmunu dəyişməmiş, bir qədər dərinləşmişdir. "... mühacirət həyatının çətinliklərinə dözməyən və tereddiyə (burada ilkin məramından, kökündən uzaqlaşan, tənəzzül edən mənasında-A.T.) məruz qalaraq, dağılan Müsavat Partiyasının bakiyələrindən (artıqlarından, tör-töküntülərindən-A.T.) olub sabiq başqanlarının ətrafına üşüşərək (toplanaraq - A.T.) təriqətçilərə xas bir fanatizmlə ətəyinə sımsıkı sarılmış bir ovuc insanın da bu işdə böyük bir məsuliyyət payı olduğunu təslim etmək lazımdır" (yenə orada) - yazan Hidayət Turanlı bu zümrənin milli Azərbaycan davasını böyük bir qısqanclıqla inhisara aldığını, özlərindən başqa kimsənin bu iş-

lərlə məşğul olmağa səlahiyyəti çatmadığını bildirdiklərini qeyd edir. Müəllif göstərir ki, müsavatçılar bir tərəfdən, Visbaden konfransında iştirak edən Avropadakı mühacirləri vətən xaini adlandırırlar, digər tərəfdən isə, özləri ruslarla "bazarlıq imkanlarını" ölçüb-biçir, Rusiya ilə bir federasiyaya daxil olmağı "prinsip olaraq qəbul etdiklərini" bəyan edirlər. H.Turanlı "milli davada kimsəyə kəlam haqqı tanımayan məlum zümrənin həqiqi vəçhisini (yön, burada sima mənasında - A.T.) aydınlatmaq" üçün M.S.Aranın "27 aprel 1920-ci il" məqaləsindən sitat gətirir. Orada Müsavat Partiyasının M.Ə.Rəsulzadənin rəhbərliyi ilə keçirilən yığıncağında "Azərbaycan istiqlalının qorunması şərti ilə təslim olmağa qərar verildiyi", "mücadiləyə atılmadan", "sadəcə kağız üzərində "istiqlal təminatı" istənilərək, istiqlaliyyətin düşmənlərə təslim edildiyi göstərilir. H.Turanlı tənqid etdiyi zümrəni "şəxsi mənfəət və ehtirasların zəbunu" (gücsüz, zəif, aciz, burada əsiri mənasında - A.T.), "siyasət cambazları", "çeşidli şarlatanlıqlarla, keçici olsa da, özlərinə bir avantaj saxlamaya (üstünlüyü təmin etməyə - A.T.) müvəffəq olanlar" adlandırır və onlardan "lağlağı və intiriqalarla məşğul olaraq şəxsi mənfəət və istəklərinin arxasınca qaçmamağı" tələb edir.

Azərbaycan variantının şanlı 28 May, qanlı 27 Aprel günləri "Türk izi"nin tez-tez müraciət etdiyi mövzulardır. Həmin tarixlərlə bağlı yazan müəlliflər oxucunun qəlbinə yol tapır, onu həyəcanlandırır, düşündürür və istiqlal uğrunda mübarizəyə sövq edir: "Azərbaycan 28 May 1918-ci ildə ilk türk Cümhuriyyəti olaraq istiqlalını elan etdi. Bu gün türk dünyasının yüz ilə yaxın bir zamandan bəri gözlədyi ən böyük bir gün idi. Bu gün Azərbaycan türklərinin yüz ildən bəri axan qanlı göz yaşlarının dayandığı gündür. Bu gün Azərbaycan tarixinin ən şanlı və müqəddəs günüdür. Bu gün Azərbaycanın üçrəngli ay-ulduzlu bayrağının göylərə yüksəldiyi gündür. Bu gün beş min Anadolu igidinin, Azərbaycan istiqlalı igidinin Azərbaycan istiqlalı uğrunda

sevə-sevə qanını axıtdığı və şəhid olduğu gündür. Bəli, o heç bir zaman unudulmayacaq böyük və müqəddəs bir gündür" (287). "Türk izi" 28 Mayı sevinclə xatırladığı kimi, 27 Apreli kədərlə yad edir, tarixin bu acı günündən dərs almağa səsləyir: "Azərbaycan türklərinin milli haqlarının bolşeviklər tərəfindən qəsb edildiyi bir gün olan 28 aprel milliyyətçi mücahidlərin üzərində durduqları və durmaları vacib olan mühüm bir hadisədir. İnsanlıq və mədəniyyət düşməni olan kommunizmin qurmuş olduğu bu müdhiş idarənin xüsusilə Azərbaycandakı zərəri hər bir millətdən çox olmuşdur. ... Azərbaycan xalqı məşum 27 Aprel fəlakəti ilə bu gün ac və səfil bir həyat sürməkdədir" (354).

"Türk izi" mühacirətdəki nəşrlər sırasında radikallığı ilə fərqlənir. İstər Qafqaz birliyi ideyasına və istərsə də ümumiyyətlə, Azərbaycan Milli Mərkəzi və Müsavat Partiyasına "Türk izi"nin və deməli, jurnalı nəşr edən Azərbaycan Milliyyətçilər Dərnəyinin (Ankara) münasibəti sərt və barışmazdır. "Qızıl istibdadın tahakkümündən (təzyiqindən, basqısından - A.T.) qurtulmaq və hürriyyətə qovuşmaq əzmilə məmləkətin içində və xaricdə, siyasi həyatda və savaş meydanlarında canlarını və mallarını əsirgəməyən fədakar və cəngavər Azərbaycan türklərinin şahlanmış (şahə qalxmış) ruhlarını köhnə və çürük bir müsavatçı dizginiylə ("qamçı" mənasında - A.T.) zəbt və dirijorluq edə biləcəyini ummaq siyasi cəhalət və bəsirətsizlikdir" (267, 1953, №8-9).

"Türk izi" Azərbaycan Milli Mərkəzinin, Müsavatın liderlərini "müqəddəs prinsipləri tərəddüd etmədən ayaqlar altına atdıqlarına" (267, 1954, №1-2), "bolşevik ideologiyasının arxasınca qaçdıqlarına" (267, 1954, №3-4) görə kəskin ittiham edir. Heç şübhəsiz, "Türk izi" bu mövqeyində ədalətsizdir və tarixi hadisələri, cəmiyyətin mövcud ictimai-siyasi durumunu və inkişaf qanunlarını nəzərə almadan, dəyərləndirmədən keçilmiş yola qərəzli münasibət nümayiş etdirir.

"Dərdləşmə" adlı satirik yazıda (267, 1954, №5-6) A.Çəmbərəkəndli adlı müəllif əndazəni aşır, öz qəhrəmanlarının dili ilə Müsavatın vaxtilə intihar etdiyini, onun liderinin isə "millətin qanı ilə meydana gələn Azərbaycanı yeddi maddə ilə (1920-ci ilin 27 aprelində bolşeviklərlə imzalanmış müqaviləyə işarədir - A.T.) can-ciyər qardaşı Stalinə təslim etdiyini", onun "milli davamız və birliyimiz üçün çox zərərli bir insan" olduğunu bildirir. Həmin nömrədəki "İki igid var, can qardaş, birisi bizim əmioğlu, o birisini söyləməm" adlı yazı da eyni mövzuda və eyni ruhdadır.

"Türk izi" nəşrə başladığı müddətdən az sonra fəaliyyətini dayandırmışdır. Jurnalın cəmi bir neçə nömrəsi işıq üzü görmüşdür. Bununla belə, istiqlal uğrunda mücadilədəki özünəməxsus mövqeyi, xüsusilə Qafqaz ideyasına münasibəti ilə mətbuat tarixində müəyyən iz qoymuşdur.

"Sarsılma qaranlıq yollarda yolçu!
Qaç, qaç, görünür yolunun ucu ..." və
"Millət yoludur, haqq yoludur tutduğumuz yol,
Ey haqq, yaşa, ey sevgili millət, yaşa - var ol!"

- misralarını özünə şüar seçən aylıq siyasi, ictimai, ədəbi jurnal "Türk yolu" da "Türk izi" kimi M.Ə.Rəsulzadə və onun silahdaşlarının, Azərbaycan Milli Mərkəzinin, Azərbaycan Kültür Dərnəyinin (Ankara) və Müsavat Partiyasının nəinki Qafqaz Birliyi ilə bağlı mövqelərini, ümumiyyətlə, istiqlal uğrundakı mücadilə taktikasını tənqid edir və onlara qarşı kəskin müxalifətdə dururdu. "Türk yolu"nun 31 avqust 1953-cü il tarixli 4-cü nömrəsində jurnalın sahibi və yazı işləri müdiri, Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin üzvü Məmməd Sadıq Aranın "Açıq söz" rubrikası altında dərc etdirdiyi: "Bəy Rəsulzadə Məmməd Əminə, yaxud bir həqiqət qalmasın aləmdə, Allahım, gizli..." adlı məqaləsi (293) bu mənada xarakterikdir və yazı müəllifinin, onun tərəfdarlarının mövqeyinin araşdırılması baxı-

mından əhəmiyyətlidir. M.S.Aran məqaləsinə M.Ə.Rəsulzadəyə müraciətlə başlayır: "Siz, illərin acı təcrübələrinə və iztirablı dərslərinə rəğmən, hələ uçurumu görmürsünüz. Bu qəflətinizdə israr etdiyiniz müddətdə özünüzü aləmə gülünc etdiyiniz kimi, milli davanı da əskisi kimi uçuruma sürükləməkdən qalmayacaqsınız ki, bizim də qorxduğumuz əsl faciə budur. Ucu milli davaya toxunan zərərli hərəkətlərinizə qarşı seyrçi qalmağa əsla haqqımız yoxdur. Siyasi və mənəvi məsuliyyəti hamımıza tərəttib edən (aid olan -A.T.) işlərdə yıxıcı və keyfi (həqiqətə, ağla uymayan - A.T.) hərəkətlərə fren (şlaqbaum - A.T.) qoymaq xüsusunda tərəddüd göstərə bilmərik". Sonra müəllif mühacirətin ilk illərini - İstanbul dövründəki fəaliyyəti xatırlayır: "Bütün qüsurlarınızı bildiyimiz halda, birləşmiş mücadilə cəbhəsi qurmaq məqsədilə milli bayraq ətrafında toplandıq. Siz bunu yanlış anladınız". M.S.Aran məqaləsində M.Ə.Rəsulzadənin ünvanına "şöhrət düşkünü", "məfkurə yolunun məna və məqsədlərini tam qeyb etmiş", "milliyyətçilik ideyasından uzaqlaşmış" kimi ifadə və ibarələr işlətməkdən çəkinmir. M.S.Aran M.Ə.Rəsulzadəni mühacirəti bir neçə yerə parçalamaqda ittiham edir və onun "yaratmaq deyil, dağıtmaq və parçalamaq üçün girişdiyi yıxıcı hərəkətləri" sadalayır. Onun fikrincə, milli Azərbaycan hökuməti və parlamentinin Avropa dövlətləri tərəfindən tanınan yeganə hüquqi təmsilçisi Versal Sülh Konfransına göndərilən Azərbaycan heyətini M.Ə.Rəsulzadə parçalamış və "qüvvətli bir diplomatın - Əli Mərdan Topçubaşının" "sağlığında məhvinə çalışmış, ölüsünü "təqdir" etmiş və cənazəsi başında mərsiyə oxumuşdur". M.S.Aran M.Ə.Rəsulzadəyə "Azərbaycan parlamentinin sadəcə bir üyəsindən başqa bir kəs deyildiniz" - söyləyir və "parlamentin səlahiyyətli qıldığı bir heyəti siz təkbaşınıza hansı hüquqi və rəsmi səlahiyyətlə parçaladınız?" - deyə soruşur.

Müəllif M.Ə.Rəsulzadəni Azərbaycan İstiqlal Komitəsi Xarici Mərkəz bürosunu, Azəri Türk Gənclər Birliyini (bu təşkilatı

M.S.Aran yaratmışdır-A.T.) parçaladığını bu işdə hətta yabançılardan istifadə etdiyini və "para verərək Cəfər oğlu Əhmədin əli ilə Azərbaycanlı Tələbələr Birliyi adı ilə oyuncaq bir təşkilat qurduğu"nu yazır və onu qınayır. O göstərir ki, M.Ə.Rəsulzadə İstanbulda olduğu kimi, Münhendə də mühacirləri qruplara parçalamaqla məşğul olmuşdur. Və nəhayət, M.S.Aranın fikrincə, M.Ə.Rəsulzadə iki partiyanın - Türk Federalist və Müsavatın birləşməsindən təşəkkül edən birləşmiş partiyanı mühacirətdə parçalamışdır. Müəllif sonda mühacirətin birgə fəaliyyət göstərməsi, parçalanmaması üçün mühacirətin ilk illərindən çalışdığını vurğulayır və "bu münasibətlə vaxtı ilə "Azəri türk"ün 32-ci nömrəsində dərc etdirdiyi "Siyasətdə vəhdət və əxlaq: xarakter və səmimiyyət istəyirik" adlı məqaləsini oxucularının diqqətinə təqdim edir.

Jurnalın növbəti 5-ci nömrəsində bu mövzuya qayıdan M.S.Aran M.Ə.Rəsulzadənin Azərbaycanın Cumhur rəisi, baş naziri, parlament rəisi olmadığını söyləyir. Və belə əsaslandırır: Azərbaycanda Cumhur rəisi seçilməmişdi. Parlamentin 1-ci rəisi Ə.Topçubaşı, 2-ci rəisi dr. Həsən Ağaoğlu (Gəncəli), ilk baş nazir Fətəli xan Xoyski, ikinci Nəsib bəy Yusifbəyli olmuşdur.

M.Sadıq Aran Cənubi Qafqaz Seyminin dağıldığı zaman, azərbaycanlı təmsilçilərin elan etdikləri İstiqlal bəyannaməsində də M.Ə.Rəsulzadənin imzası olmadığını xatırladır və M.Ə.Rəsulzadəyə xitabla yazır: "İstiqlal elanı fikri əsla sizin deyildir. Bu fikir mərhum Nəsib bəyindir (Nəsib bəy Yusifbəyli nəzərdə tutulur - A.T.).

Əlbəttə, M.Sadıq Aranın subyektiv mülahizələri, mübahisəli mühakimələri, qərəzli münasibəti barədə geniş bəhs etmək olar. Lakin bizcə, buna ehtiyac yoxdur. Ən azı ona görə ki, müəllifin fikirləri daban-dabana ziddir və biri digərini təkzib edir. O, bir tərəfdən, M.Ə.Rəsulzadənin heç bir səlahiyyəti olmadığını söyləyir, digər tərəfdən isə, "Türk yolu"nun 1953-cü il tarixli 4-cü nömrəsində dərc etdirdiyi "27 Aprel faciəsi" adlı məqalə-

də onun Azərbaycan istiqlalını kağız üzərində ruslara təslim etdiyini iddia edir (268, 1953, №4).

"Türk birliyi", "Qafqaz birliyi", "Qafqaz Konfederasiyası", "əsir, yaxud məhkum millətlərin birliyi" kimi ifadələr mühacirət mətbuatı üçün xarakterikdir və bu da təbiidir. Bolşevizmə, sovet rejimi və ideologiyasına qarşı mübarizə, imperiya hüdudlarında yaşayan xalqların istiqlal mücadiləsi birgə hərəkatla daha mütəşəkkil xarakter daşıyır və təsirli olur. SSRİ xalqlarını təmsil edən mühacir təşkilatlarının çoxsaylı birlikləri yaranmışdır. Onların bir qismi separatçı, məhdud, mənfur və perspektivsiz maraqlar güddüyündən, iflasa uğramış (məs., "Erməni-gürcü ittifaqı" və s.), bir qismi isə uzun müddət və faydalı fəaliyyət göstərmişlər (məs., "Prometey" və s.).

Azərbaycan mühacirlərinin belə birliklərə münasibəti birmənalı olmamışdır. O ki qaldı, "Qafqaz birliyi" və "Qafqaz Konfederasiyası" anlayışlarına - həmin ifadələr işləndiyi məqam və mətnlərdən asılı olaraq bəzən fərqli mənalar kəsb edir. "Qafqaz Konfederasiyası" tərəfdarları elə "Qafqaz birliyi" ifadəsini də konfederativ dövlət anlamında qəbul edirlər. Bir sıra mühacir nəşrlərdə isə "Qafqaz birliyi" ifadəsi yalnız həmin regionda yaşayan xalqların və xüsusilə türkdilli xalqların mədəni birliyi, başqa sözlə desək, simvolik birliyi mənasında işlənir, yəni həmin ifadə altında "konfederativ birlik - dövlət birliyi" nəzərdə tutulmur.

"Türk birliyi" anlayışı mühacir mətbuatında yalnız dünya türklərinin mədəni birliyi mənasında işlənir. Doğrudur, "türk birliyi" dedikdə, bəzən Qafqazda, yaxud bütünlüklə SSRİ-də yaşayan türklərin, bəzən isə, ümumən dünya türklərinin birliyindən söhbət gedir. Məsələn, prof. Əhməd Cəfəroğlunun sahibi və müdiri olduğu "Türk amacı" jurnalında "türk birliyi" ifadəsi altında istisnasız olaraq, dünya türklərinin mədəni birliyi nəzərdə tutulur. "Türk amacı"nın "Bir neçə söz" adlı proqram məqaləsində deyilir:

"Hər bir millətin ən qiymətli mənliyi və varlığı, bilavasitə kültüründə olduğundan, nəşrinə başladığımız "Türk amacı" da doğrudan-doğruya türk kültür birliyinin mürəvvici (yayıcısı, təbliğatçısı - A.T.) və qaynağı olaraq türklüyə xidmət edəcəkdir.

Dilvaki (həqiqətən, gerçəkdən - A.T.) türk dünyası ilə bərabər türk kültürü də çox geniş bir sahəyə yayılmış və bu üzdən bir çox türk ulus və elləri arasında müxtəlif şivələr törənmiş və hər bir türk eli üçün ayrı tarixlər belə yazılmışsa da, bu ayrılıqlar yalnız coğrafi durum baxımından diqqət nəzərinə alına bilinər" (266, 1942, №1).

Gerçəkdə isə milli məfkurə, ədəbiyyat, sənət, dil və sairə kimi mənəvi varlıqlar baxımından, milli türk fikir həyatı hər zaman daim bir küll olmuş və bundan doğan türk kültür birliyi, varlığı da bu günə qədər özünü tamamilə mühafizə etmişdir".

Göründüyü kimi, jurnalın məqsədi türk kültür birliyinin yaranmasına xidmət etməkdir. Bəzən bilərəkdən türk birliyini, Qafqaz birliyinə, yaxud Qafqaz Konfederasiyasına qarşı qoyurlar. Maraqlıdır ki, iki bir-birinə zidd qüvvələr - həm pantürkistlər, həm də onun, ümumiyyətlə, türkçülüyün qatı düşmənləri bu mövqedə birləşirlər.

"Türk amacı" sırf kültür dərgisi olduğundan "türk varlığının ən əski mazisini (tarixini-A.T.) boylamaq və bir-birindən ayrı yaşayan türk uluslarının, ayrı-ayrı kültürə malik olmayıb, bilavasitə, müştərək bir türk birliyi məhsulunun parçalarından başqa bir şey olmadıqlarını isbat etməyi" qarşısına əsas vəzifə qoymuşdur.

Qafqaz birliyinə (Konfederasiyasına) biganə qalsa da, "Türk amacı" bu regiondakı türkdilli xalqların mədəni birliyinin alovlu təbliğatçısı olmuşdur. Jurnalda Şimali Qafqaz və Azərbaycan türklərinin ədəbi-mədəni sərvətləri, adət-ənənələri ilə bağlı maraqlı yazılar çap olunmuşdur.

Prof. dr. M.F.Köprülünün "Azəri aşıqlarından Tufarqanlı Abbas" (391), "Abakan türkləri" (392), "Abbasqulu ağa Bakı-

xanlı" (393), prof.dr. Ə.Cəfəroğlunun "Türk kültür birliyi xadimlərindən Mir Əlişir Nəvai" (324), "Azəri tarixçisi Mirzə Camal Qalabəyi" (325), Əli Gəncəlinin "Təbrizli Saib" (350), "Şirvanlı Sabir Tahirzadə" (351), "Azərbaycanda mizah (satira-A.T.) ədəbiyyatı örnəklərindən "Səmaveriyyə" (352), Qədircan Qaflının "Dağların hürriyyət şairi Kosta" (403), "Şimali Qafqaz ədəbiyyatının başlıca xarakteri və folklor" (404), "Dağıstan həyatında Hağurun nağılı" (405), "Şimali Qafqazda xalq şərqçiləri, qazavat marşı" (406), "Şimali Qafqaz ədəbiyyatından üç xalq şərqisi" (407), dr.A.Z.Soysalın "Krım xanlığında əsilzadələr" (599), "Canbəy Giray xanın bir yarlığı münasibətilə" (600), "Hacı Giray xan" (601), M.F.Toğayın "Sevit Bikə" (626), "İdil-Ural, yəni Şimal türklərinin melodiyaları" (627), "Tarix baxımından Ağyar (Sevastopol)" (628), "Şamil" (631), "Kazan türklərinin melodiyaları" (632), "Qəyyum Naşiri" (629), "Şərqi Türküstan" (630), Fəxrəddin Çelikin "Türklərdə dörd yönün dörd rənglə adlandırılması" (328), dr. Sadəddin Buluçun "Şamanizm" (315), "Altayca bir Bahadur əfsanəsi" (316), C.Brockelmannın "Divani Lüğət-it-türk"ün tərcüməsi haqqında" (313), prof. Dirr-T.Alanqunun "Dağıstanlı Aşıq Söyün" (286), S.Cəfəroğlunun "XIX əsr Azəri şairlərindən Sədi Qarabağı" (326) və s. kimi məqalələr bu gün Azərbaycan, Şimali Qafqaz və ümumən türk dünyasının tarixi, ədəbiyyat və mədəniyyətinə dair maraqlı, faydalı mənbələr hesab oluna bilər.

Azərbaycan mühacirət mətbuatı tarixində müəyyən iz qoymuş "Mücahid" jurnalı da Qafqaz mövzusuna öz səhifələrində geniş yer vermişdir. Lakin burada məsələyə başqa aspektdən yanaşılır: jurnal Qafqaz birliyindən daha çox Qafqazdakı və ümumən SSRİ-dəki məhkum türklərin birliyindən, bu birliyin zərurətindən bəhs edirdi. 1955-ci ilin iyulundan nəşrə başlayan "Mücahid" ilk nömrəsindəki proqram məqaləsində yazırdı ki, "Mücahid" bütün gücünü məhkum türk ellərinin qurtuluş davasına və kommunizm ilə mücadiləyə yönəldəcəkdir. Jurnal "Üçüncü cildə başlayarkən" adlı məqaləsində yazmışdır: "Bütün məhkum türk elləri mənsublarının öz aralarında birlik və dayanışma halında hərəkət etməsindən başqa, Türküstan, İdil-Ural, Şimali Qafqaz, Azərbaycan və Krım mücahidlərinin də müştərək bir türk cəbhəsi halında çalışmaları lüzumuna da inanırıq. Bundan sonra bu alanda da çalışmaqdan geri durmayacağımızı açıqlarkən böyük rahatlıq duyuruq" (14, yanvar-fevral 1960, №25-26). Redaksiya heyəti tərəfindən təqdim olunan bu baş məqalə "Mücahid"in məramını tam əks etdirir. Qafqaz birliyi ideyasına və bu fikrin daşıyıcılarına kəskin müxalifətdə duran "Türk izi" öz nəşrini dayandırdıqdan sonra nəşrə başlayan "Mücahid" öz sələfinin mövqeyini bir qədər yumşaltsa da, o, yalnız türk birliyini qəbul etdiyini gizlətmirdi. Başqa sözlə desək, "Mücahid" "Türk izi" kimi Qafqaz birliyi ideyasına açıq-aşkar hücum etmirdi, lakin məhkum türk ellərinin birliyinin yeganə çıxış yolu olduğunu yazırdı. Çingiz Göygöl (yeri gəlmişkən qeyd edək ki, "Türk izi"ndən sonra, o "Mücahid"ə redaktorluq edirdi) "Məhkum türk elləri" adlı məqaləsində yazırdı: "Biz məhkum türk ellərinin bütün istiqlalçı qruplarının işbirliyi halında birləşmələrini görməklə zövq duyarıq. Bu birləşmə və qaynaşmaların tək şərti də həsud (xəbis-A.T.) və yıxıcı fikirlərdən əl çəkərək, ümumi birlik naminə çalışmaqdır" (101, yanvar-fevral 1960, №25-26). Göründüyü kimi, müəllif Qafqaz mövzusu ətrafında fikir ayrılıqlarına sətiraltı da olsa, toxunur, öz mövqeyini isə birbaşa bəyan edir: yalnız türk xalqlarının və onların istiqlalı uğrunda mücadilə edən qrupların iş birliyindən söhbət gedə bilər! Bununla bərabər "Mücahid" Şimali Qafqazla Azərbaycan arasında dostluq və işbirliyi tərəfdarı və təbliğatçısıdır: "Quzey Qafqaz və Azərbaycan arasında tarix bənzərliyi və tale birliyi xüsusilə son 200 ildə özünü göstərmişdir" - yazan "Mücahid" ("Şimali Qafqaz və Azərbaycan qardaşlığı" (101, may-iyun 1962, №49-50) məqaləsi) qeyd edir ki, Quzey Qafqazla Azərbaycan arasında mənəvi sahədəki yaxınlaşma o dərəcə irəliləmişdir ki, quzey qafqazlılar 1917-ci

ildə Rusiyada çar rejimi devrildikdən sonra müstəqillik elan edərək, qurduqları cümhuriyyətin dövlət dili kimi Azərbaycan türkcəsini qəbul etmiş və orta, ali məktəblərdə təhsilin türkcə tədrisinə qərar vermişlər (səh.10). Ümumiyyətlə, "Mücahid" Qafqaz mövzusunda yazarkən problemə məhz Azərbaycan-Şimali Qafqaz birliyi və ümumiyyətlə, SSRİ-dəki məhkum türk elləri birliyi nöqteyi-nəzərindən yanaşırdı. SSRİ-nin, xüsusilə Qafqazın türkdilli xalqlarının birliyinə üstünlük verən "Mücahid" türkdilli xalqların tarixi, ədəbiyyatı, adət-ənənəsi, tanınmış liderləri haqqında materiallar çap edir, türkçülük ideyasına öz töfhəsini verirdi. Qədircan Qaflının "Milliyyətçi gənclər" (408), "Ömər Seyfəddin günü" (409), "Cəfər Seyid Əhməd Kırımərı qeyb etdik", "Gələcək illərə ümidlə baxırıq" (410), Cəfər Seyid Əhmədin "Qaspiralı İsmayıl bəy. "Dünya siyasəti və ana yurd" (101, yanvar-fevral 1962, №45-46) adlı məqalələrində türk birliyinin zəruriliyi xüsusi vurğulanır.

Məhkum millətləri iki hissəyə bölən müəllif onların birinin Kommunist Rusiya tərəfindən millət olaraq varlıqlarına davam etmələri qəbul edilənlər, digərini millət olaraq varlıqları yox edilmək istənilənlər adlandırır. Rusiyaya münasibətə görə millətləri belə qruplaşdırır: Ruslar tərəfindən millət kimi yaşamaları qəbul edilənlərin sırasında həm Rusiyadan ayrılaraq öz istiqlallarına qovuşmaq istəyən Ukrayna və Baltik dövlətləri, həm də rejimi nə olursa-olsun, Rusiya ilə birgə yaşamaq istəyən Gürcüstan və Ermənistan da var. Lakin Rusiya tərəfindən varlığı məhv edilmək istənilən rus boyunduruğundan xilas olmaq istənilən türklərdir. Odur ki, müəllif türk birliyi ideyasının aktuallığı və zəruriliyinə işarə vuraraq yazır: "Ana yurdu yalnız orada məskun türklərlə xaricdə yaşayan türklərin birlikdə çalışmaları qurtara bilər".

III FƏSİL

Mühacirət publisistikasında sənətkarlıq məsələləri

3.1. Publisistika tarixi və elmi-nəzəri irsindən

Publisistikanın nəzəri məsələləri, onun mövzusu, mahiyyəti, predmeti, digər yaradıcılıq növləri ilə fərqli və ümumi cəhətləri haqqında xeyli tədqiqat əsərləri yazılmışdır. Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində publisistikanın funksiyası, daşıdığı vəzifə və ona uyğun forması da dəyişdiyindən, onun nəzəri problemləri ilə bağlı irəli sürülən mülahizə və mühakimələrin yeniləşməsi, zənginləşməsi də tamamilə təbiidir.

İstər rus, istər Azərbaycan alimləri sovet dövründə publisistikaya yaradıcılıq sahəsindən daha çox, partiya orqanlarının direktiv göstərişlərinin həyata keçirilməsi vasitəsi kimi baxmışlar. Publisistikanın sənətkarlıq ölçüləri də məhz mövcud rejimin və ideologiyanın tələblərini ödəmək baxımından dəyərləndirilmişdir.

Bununla belə, sovet dövründə publisistikanın nəzəri problemləri, xüsusilə tarixi ilə bağlı yazılmış əsərlər diqqəti çəkir və əhəmiyyətlidir. Təsadüfi deyil ki, publisistikanın V.A.Aqranovski, L.E.Varustin, V.V.Voroşilov, A.A.Qrabelnikov, S.Q.Korkonosenko, Q.V.Lazutina, E.İ.Proxorov, V.V.Uçyonova kimi tədqiqatçıları son illər sovet dövründəki araşdırmalarına əl gəzdirərək təkrar nəşr etmişlər. Məsələn, V.Voroşilov "Jurnalistika" adlı kitabını 5-ci dəfə buraxdırmışdır (711).

Publisistikanın mahir tədqiqatçısı Famil Mehdinin hələ 1982-ci ildə nəşr etdirdiyi "Bədii publisistika" əsəri bu gün də öz çə-

kisini, sanbalını itirməyib. Əsərin ideoloji libasını çıxarıb yenidən nəşri məqsədəuyğun və faydalı olardı. Müəllif burada konkret nümunələr əsasında, mötəbər mənbələrə istinad edərək publisistikanın bir yaradıcılıq sahəsi kimi, obrazlı desək, anatomiyasını təqdim etmişdir. Publisistikanın funksiya və predmeti, başlıca xüsusiyyətləri, janrları, süjet və kompozisiyası, dil-üslub problemləri, habelə publisistikada ənənələr və müasirlik kimi məsələlər əsərdə kifayət qədər əhatəli və dolğun işlənmişdir.

Azərbaycan publisistikası, onun yaranma tarixi, inkişaf mərhələləri, elmi-nəzəri əsasları, ədəbi-ictimai-siyasi fikrin formalaşması uğrunda mübarizədə rolu və yeri barədə müxtəlif müəlliflər ayrı-ayrı vaxtlarda müəyyən araşdırmalar aparsa da, Cahangir Məmmədlinin təbirincə desək, "intellektual yaradıcılığın mürəkkəb bir sahəsi kimi hələ daha dərindən və hərtərəfli tədqiqat tələb edir" (Cahangir Məmmədli. Jurnalistikaya giriş. 85, 210). Əgər XIX əsrin ortalarındakı ətalət, cəhalət, mövhumatın hakim kəsildiyi Azərbaycan cəmiyyətini münbit, bərəkətli torpağın üstünə çəkilmiş qara asfalta bənzətsək, o zaman heç şübhəsiz ki, Rusiya və Qərbi Avropadan qidalanan Azərbaycan maarifçilərinin publisistikasını o maneni dəf edərək, onu dağıdaraq, deşərək üzə çıxan bitkiyə bənzətmək olar.

Mübariz ruhlu, müasir anlamda qeyd etdiyimiz publisistikanın rüşeymlərini Q.Zakir, S.Ə.Şirvani və hətta Füzuli yaradıcılığında axtaran bəzi müəlliflərə etiraz etmədən, çağdaş publisistikanın əgər belə demək mümkünsə, beşiyi başında böyük mütəfəkkir, yazıçı M.F.Axundovun durduğunu söyləməklə məlum faktı bir daha təsdiqləmiş olarıq.

Məmməd Arif M.F.Axundovu "feodalizmin vəhşi nəticəsindən xilas olmağa can atan bütün Azərbaycan və bəlkə də bütün Şərq gənclərinin müəllimi və ilhamçısı" adlandırır və göstərirdi ki, Azərbaycan ədəbiyyatı bədii nəsr və dramaturgiyada öz böyük sənətkarını M.F.Axundovun simasında qazandı. İstedadlı tədqiqatçı M.Arif M.F.Axundovun 1962-ci ildə buraxılan məqa-

lələr toplusunun ön sözündə yazırdı: "Öz dövründəki ictimai-mədəni həyatın elə bir sahəsi tapılmaz ki, oraya böyük mübariz yazıçı nəzər salmamış və orada öz qəti, hərarətli sözünü söyləməmiş olsun. Ədəbiyyat, sənət, fəlsəfə, din, siyasət-bütün bu mühüm sahələrdə M.F.Axundov yorulmadan mübarizə aparmış və... köhnə ideyaları alt-üst etmişdir". Bu fikirlər M.F.Axundovun bütün irsinin, komediyalarının, o cümlədən publisistikasının ideya-istiqamətini, müəllifin əqidə və məsləkini çox dəqiq xarakterizə edir. Bu mənada misilsiz ədəbi, tənqidi, tarixi, fəlsəfi əhəmiyyət kəsb edən Axundov publisistikası, o cümlədən məktubları XIX əsr Azərbaycan ictimai-fəlsəfi fikrinin tədqiqi, təhlili üçün maraqlı mənbədir, məxəzdir. Maraqlı və düşündürücüdür ki, bunu hamıdan əvvəl məhz M.F.Axundov özü gözəl bilirdi. Təsadüfi deyil ki, bütün məktublarının üzünü səliqə ilə toplayıb saxlayır, dostlarına da onları qoruyub saxlamağı tövsiyə edirdi ki, mənim sizə göndərdiyim məktubları əvvəldən axıra qədər xüsusi bir dəftərə köçürüb saxlayın. Bu məktublar, biz öləndən sonra, gələcək nəsil üçün tarixi və əntiqə sənədlər olacaqdır. Bu sözləri humanist yazıçı vəfatından bir neçə ay əvvəl Mirzə Melkum xana yazmışdır.

Bir nasir və dramaturq kimi M.F.Axundov bədii irsində öz fikir və ideyalarını obrazlarla ifadə edir, oxucuya çatdırırdısa, məktub və məqalələrində - publisistik əsərlərində sözünü birbaşa, konkret adamlara və ünvanlara, fakt və sənədlərə əsaslanaraq deyir. Bədii sözün təsir gücünə şübhə etmədən, publisistik əsərin daha operativ şəkildə ağıla və hisslərə nüfuz etdiyi fikri ilə barışsaq, o zaman elmə, mədəniyyətə, tərəqiyyə düşmən kəsilən mövcud cəmiyyətdə M.F.Axundov publisistikasının əhəmiyyəti daha qabarıq görünər.

M.F.Axundov öz təşəbbüs və səylərinin dirəndiyini ağır kədər hissi ilə duyur, görür və acı təəssüflə dostu Mirzə Melkum xana yazırdı ki, bununla belə, yenə də öz fikrimdən əl çəkə bilmirəm. O dostuna müraciətlə söyləyirdi ki, mən və siz belə bir

təbiətdə yaranmışıq. Biz gərək ömrümüzün sonuna qədər bu yolla gedək".

Mirzə Fətəli eyni zamanda "İranın maarif nazirinə göndərdiyi məktublarının birində illərdən bəri səpdiyi maarif toxumlarının bir gün səmərə verəcəyini dərin inamla söyləyir: "Ola bilsin ki, deyəcəksiniz: Mirzə Fətəli, bütün bunlar soyuq dəmiri döymək kimi bir işdir. Bəli, bunu mən özüm də başa düşürəm. Lakin yenə də yazıram və nə qədər ki, sağam, yazmaqda davam edəcəyəm...".

M.F.Axundovun "bizim əzizimiz və gözümüzün işığı" deyə müraciət etdiyi mahir publisist H.B.Zərdabi də öz silahdaşı kimi israrlı və inadlı idi: "Hər kəsi çağırıram gəlmir, göstərirəm görmür, deyirəm qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa ayrı əlac yoxdur. Ola bilməz ki, mənim sözümü eşidənlərdən heç biri qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoyasan, bir neçə ildən sonra o su tökülməkdən o bərk daşı yavaş-yavaş əridib deşilir. Habelə, söz də, ələlxüsus doğru söz, zaman-zaman qanmazın başını deşib, onun beyninə təsir edər" (276). İstedadlı tədqiqatçı, H.Zərdabi irsinin vurğunu Əziz Mirəhmədov haqlı olaraq "Əkinçi" publisistikanın əsas ideya məzmununun cəmiyyət həyatının bütün sahələrində fəal, realist və mübariz olmağa çağırış kimi səciyyələndirir (99). Mirzə Fətəli Axundov və H.Zərdabinin ideya estafetini qəbul edən maarifpərvər və demokratik ziyalıların yeni dəstəsi - H.Vəzirov, Ə.Görani, M.Sidqi. M.Ə.Talıbov, Z.Marağayi, E.Sultanov, F.Köçərli, S.Mehmandarov, M.Şahtaxtinski, T.Bayrəməlibəyov, S.M.Qənizadə, N.Nərimanov, Ə.Haqverdiyev, R.Əfəndiyev kimi qələm sahibləri bir janr kimi publisistikanı yeni məzmun və forma ilə zənginləşdirmişlər. Həmin dövrdə - XIX əsrin sonlarında (1888-1894) Fransada ali təhsil alan Əhməd bəy Ağayev Parisin nüfuzlu mətbu orqanlarında publisist yazılarla məhsuldar çıxış edirdi.

Ümumiyyətlə, publisistika Əhməd bəy Ağayev və onun silahdaşı Əli bəy Hüseynzadənin simasında tamamilə yeni keyfiyyətdə və yeni təyinatda üzə çıxır. İctimai-əxlaqi və siyasi baxış və təlimlərin, milli-mənəvi dəyərlərin, mütərəqqi ideyaların işlənməsi və kütləviləşməsində publisistika janrının imkanları çox genişdir. Tədqiqatçı Şahnəzər Hüseynovun "Əhməd bəy Ağaoğlunun dünyagörüşü" adlı əsərində Ə.Ağaoğlunun ədəbiyyata münasibəti ilə bağlı çıxardığı bu qənaətlə razılaşmamaq olmur ki, ədəbiyyat onun üçün ictimai təbəddülatlar, fırtınalar, hərəkatlar hazırlayan məfkurəvi məzmunlarla dolu həyat vasitəsi və amildir. Lakin bu yerdə əlavə etmək yerinə düşərdi ki, alovlu publisist, naşir, redaktor Ə.Ağaoğlu heç şübhəsiz, ədəbiyyat dedikdə, belletristika ilə publisistikanı ayırmırdı.

Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə, Haşım bəy Vəzirov və həmin nəslə və məktəbə mənsub digər qələm sahiblərinin yaradıcılığı ilə publisistika yeni məzmun, mahiyyət kəsb etdi, yeni funksiyalar daşımağa başladı, forma etibarı ilə də dəyişdi.

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətindəki dirçəliş, milli şüurun oyanması ideyalar mübarizəsini zəruri edirdi. Çar hökumətinə qarşı iqtisadi tələblərlə başlayan etiraz dalğaları tezliklə milli-siyasi, ideoloji çalarlar kəsb etdi. Bu prosesin daşıyıcısının publisistika olduğunu söyləsək, yəqin ki, yanılmarıq. Təsadüfi deyil ki, əsrin əvvəllərində nəşr olunan "Şərqi rus", "Həyat", "Füyuzat", "Şəlalə", "İrşad ", "İqbal", "İqdam", "Molla Nəsrəddin" Azərbaycan xalqının tarixində və taleyində silinməz iz buraxmış qələm sahiblərinin tribunasına çevrilmişdi. Əziz Mirəhmədov göstərir ki, Cəlil Məmmədquluzadə "...ədəbi və publisistik yaradıcılığı "əsrin aynası", demokratiya uğrunda mübarizədə kəskin silah, kütlələr arasında təbliğatın qüdrətli vasitəsi hesab edir, jurnalını məhz belə bir aynaya, belə bir silaha, belə bir vasitəyə çevirmək üçün var qüvvəsini əsirgəmirdi". Bu fikri tərəddüd etmədən həmin dövrdə yaşayıb-yaratmış

demokratik ruhlu hər bir millətpərvər qələm sahibinə şamil etmək olar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə publisistika mübariz, döyüşkən janr, azadlıq carçısı kimi özünü göstərir. Azərbaycan istiqlalı, milli dövlət quruculuğu, müxtəlif sahələrdə aparılan islahatlar publisistikanın başlıca mövzularına çevrilir. Ermənibolşevik məkrli birliyi, vəhşiliyi publisistik əsərlər vasitəsilə ifşa edilir, adamlar ayıqlığa, mübarizliyə çağırılırdı. Yeri gəlmişkən, qeyd olunmalıdır ki, Azərbaycan mətbuat tarixinin həmin dövrü məlum səbəblərə görə sovet hakimiyyəti illərində qərəzsiz və obyektiv tədqiqatdan kənar saxlanılmışdır. Bu gün də Xalq Cümhuriyyətinin mətbu orqanları və publisistikasının araşdırılması ilə bağlı bütün işlərin görüldüyünü söyləmək olmur.

Azərbaycan publisistikasının sovet dövrü mövcud rejim və ideologiyanın yeddəyində getsə də, zəngin, maraqlı və ziddiyyətli tarixə malikdir. 70 illik sovet tarixini birmənalı xarakterizə etmək, dəyərləndirmək olmadığı kimi, publisistika ilə bağlı da eyni qənaət məqbuldur.

Sovet həyat və düşüncə tərzi XX əsrin 20-30, 40-50, 70-80-ci illəri də bir-birindən nə qədər fərqli və təzadlı idisə, publisistika da ona uyğun tale yaşayırdı. 20-30-cu illərdə NEP-in, mədəni inqilabının, sənaye və kolxoz quruculuğunun publisistikası təbii ki, 40-cı illər müharibə dövrünün publisistikasından mövzu, sənətkarlıq, hətta dil və üslub cəhətdən kəskin fərqlənirdi.

M.S.Ordubadi, Seyid Hüseyn, Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rüstəm, Səməd Vurğun, Süleyman Rəhimov, Əli Vəliyev, Rəsul Rza, Qulam Məmmədli, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə, Sabit Rəhman, Mir Cəlal, Əbülhəsən, Osman Sarıvəlli kimi qələm sahibləri Azərbaycan sovet publisistikasının yaradıcıları və yaşadıcıları olmuşdur. Süleyman Vəliyev, Yusif Şirvan, Əvəz Sadıq, Əbil Yusifovun publisistik fəaliyyəti məhsuldarlıq və sənətkarlıq baxımından diqqət çəkir. Əlbəttə, bu gün Sovet publisistikası haqqında, onun mövzusu və sənət-

karlıq məziyyətləri ilə bağlı kifayət qədər fikir söyləmək, mübahisə etmək olar. Həmin dövr publisistikasının bəzi nümunələrinin sifarişilə yazıldığı, ideologiyaya xidmət etdiyi, sənət və faktların saxtalaşdırıldığı, real həyatı əks etdirmədiyi üçün tənqid və hətta təftiş etmək mümkündür. Bir sıra publisistik əsərlərin də böyük sənətkarlıqla yazıldığını, qəlbin hökmü ilə qələmə alındığını da etiraf etmək lazımdır. Bütün hallarda həmin irs tariximizin bir parçasıdır və fikrimizcə, ona münasibətdə ehtiyatla və ehtiramla davranmaq lazımdır.

Bu gün Azərbaycan müstəqildir. Xalq öz ən böyük milli-mənəvi, ideoloji-siyasi sərvətinə-istiqlalına qovuşmuşdur. Dövlət quruculuğu sahəsində islahatlar həyata keçirilir. Problemlər də az deyil. Dövlətimiz və xalqımız üçün ən böyük bəlanı isə müstəqilliyimizlə barışa bilməyən qüvvələr mənfur qonşuların-ermənilərin vasitəsilə törətmişlər. Ölkənin ərazi bütövlüyü pozulmuş, torpaqlarımızın 20 faizi işğal edilmişdir. Bazar iqtisadiyyatının törətdiyi bir sıra problemlər də var. Bax, publisistika burada öz sözünü deməlidir. Hərbi-vətənpərvərliklə, milli dövlət quruculuğu, iqtisadi, elmi, sosial tərəqqi, təhsillə bağlı publisistik yazılar indi həmişəkindən daha vacib və aktualdır. Lakin media-məkanın mövcud mənzərəsi acı təəssüf doğurur. Reket jurnalistikası KİV-də bütün sərhədləri, ölçüləri dağıdır. Mətbuatda tərbiyə edən, səfərbərliyə səsləyən, dövlətə, millətə, onun dəyərlərinə xidmətə çağıran sanballı publisist sözünə az-az təsadüf edilir. Bu vəziyyətdən çıxış yollarından biri də, fikrimizcə, sələflərin keçirdiyi həyat və yaradıcılıq yoluna nəzər salmaq, ənənələrdən bəhrələnmək, M.F.Axundov, Zərdabi, Ə.Ağayev Ə.Hüseynzadə, Ə.Topçubaşı, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Cəlil Məmmədquluzadə, Ü.Hacıbəyov, Ö.F.Nemanzadə, Ə.Müznib kimi böyük sənətkarların, habelə sovet dövründə rejimin və ideologiyanın bütün təzyiqlərinə baxmayaraq, mövzu və sənətkarlıq baxımından bu gün üçün də aktual və əhəmiyyətli əsərlər yaratmış qələm ustalarının irsinə müraciət etməkdir.

3.2. Mühacirət publisistikasının sənətkarlıq məsələləri və onun özünəməxsüs xüsusiyyətləri

Məlum həqiqətdir ki, ideyanın auditoriyaya çatdırılması, onun ətrafında müəyyən ictimai rəy yaradılması, auditoriyanın qəlbinə və beyninə nüfuz edilməsi, onun səfərbər olunması fikrin müvafiq formaya salınmasından, dilin lüğət fondundan məharətlə istifadədən çox asılıdır. Bütün bunlar ədəbi sənətkarlığın tərkib hissəsidir. Mühacir mətbuatının yaradıcılarının həyat və fəaliyyət yolunu izlədikdə, həmin xadimlərin zəngin qələm və ideoloji mübarizə təcrübəsinə malik olduqlarının şahidlərinə çevrilirik. Təsadüfi deyil ki, mühacirət mətbuatında publisistika nümunələri təsirliliyi, kəsərliliyi ilə fərqlənir. Bununla belə, qürbət həyatı, doğma, milli mühitdən təcrid olunmaq müəyyən çətinliklər də yaratmışdır ki, mühacir mətbuatın materiallarında, o cümlədən publisistikada da həmin problemlər özünü göstərir.

Mühacir mətbuatının nəşri, çap olunması, istər-istəməz bir sıra problemlərlə, o cümlədən maliyyə çətinlikləri ilə müşayiət olunur. Əgər mətbu orqanlar XX əsrin 20-ci illərinin əvvəllərində ərəb əlifbası ilə buraxılırdısa, 20-ci illərin sonuna doğru onlar latın qrafikası ilə çap edilməyə başladı. Bu zaman latın əlifbasının Türkiyədə qəbul olunan variantından istifadə edildi ki, bu da müəyyən sözlərin yazılmasında, tələffüzündə bir sıra çətinliklər törətdi. Digər tərəfdən Türkiyədə həmin dövrlərdə daha çox ərəb-fars mənşəli sözlərdən istifadə edildiyindən mətnin dili ağırlaşır, çətin anlaşılırdı. Türkiyədə əlifba və dil sahəsində islahatlar aparıldıqca, mühacir mətbuatı da müvafiq dəyişikliklərə məruz qalırdı.

Mühacirət publisistikası bir tərəfdən mövzuya uyğun olaraq alovlu, pafoslu ifadə tərzi ilə fərqlənir, digər tərəfdən kövrək, həzin üslubu ilə seçilir. Əgər söhbət Azərbaycan istiqlalından, bolşevizmə və rus imperializminə qarşı mübarizədən gedirsə, publisistik nümunələr mübariz ruhu, prinsipial mövqeyi, kəskin

ifadə və ibarələri ilə diqqəti çəkir, əgər müəllif Vətən həsrətindən, qürbət həyatından bəhs edirsə, mətn üçün obrazlı, ehtiraslı dil səciyyəvidir.

Mühacir mətbuatında dil, üslub və ümumiyyətlə, sənətkarlıq problemlərinə mətbu orqanların nəşr dövrünü nəzərə almadan münasibət bildirmək yanlış qənaətlərə gətirib çıxarırdı. Fikrimizcə, mühacirət mətbuatının XX əsrin 50-60-cı illər dövrünün nümunələri dil-üslub və sənətkarlıq baxımından 20-30-cu illər dövründən xeyli fərqlənir.

Mühacir mətbuatında publisistika tamamilə yeni keyfiyyət və yeni mahiyyət, məna kəsb edir. Mühacirlərin ideoloji mübarizəsində kəskinliyi, son dərəcə sərtliyi ilə seçilən publisistik nümunələr, həm də mühacirət həyatının salnaməsidir.

Beləliklə, ölkədə yaşayıb-yaradan müəlliflərin publisistikası ilə mühacirətdə yaranan publisistikanı bir-birindən kəskin fərqləndirən bir sıra xüsusiyyətlər ortaya çıxır:

- bütün çətinliklərə rəğmən mühacirət publisistikası ideyanı, fikri ifadə etmək baxımından daha sərbəst və azaddır;
- ölkədəki publisistika senzuralı, sifarişli, partiyalı olduğundan, müəyyən çərçivəyə salınır, sovet həyat tərzinin tərənnümçüsü rolunu oynayırdı, mühacirət publisistikası üçün bir tərəfdən döyüşkənlik və üsyankarlıq, digər tərəfdən həsrət, vətən yanğısı çox xarakterikdir;
- qürbət həyatının çətinlikləri mühacirət publisistikasında bir sıra dil, üslub problemləri yaratmışdır.
- ötən əsrin 20-30, 50-60-cı illərində buraxılan mühacir nəşrlərdə ərəb, osmanlı, 80-90-cı illərdəki mətbu orqanlarda tez-tez təsadüf edilən fars sözləri mətni ağırlaşdırır, ona xələl gətirir;
- mühacirət publisistikasının oxucu auditoriyası kimi mövzu dairəsi də nisbətən məhduddur. Rus imperializminin, bolşevizmin ifşası SSRİ xalqlarının dözülməz, ağır həyatı, istiqlal tarixi və istiqlal uğrunda mücadilə aparan qəhrəmanların həyat və fə-

aliyyəti, sovet rejiminin təzyiq, təqib və işgəncələrinə məruz qalan insanların taleyi, Qafqaz birliyi ideyası sovet, ədəbi-mədəni və din sahəsindəki siyasətin tənqidi mühacirət publisistikasının aparıcı mövzuları olmuşdur.

Hələ proqramını elan edərkən "Prometeyi didən xunxar (qaniçən - A.T.) quş qartal idi. Bir əsrdən bəri Qafqazın köksünü dələn və ciyərini parçalayan Rusiya imperializminin tuğrası (gerbi - T.A.) da bir qartal deyildimi?!" (23, №1, 26 sentyabr 1923) yazan və "bugünkü Qafqaz "Qartal" Rusiyasının deyilsə də, "Oraq" rusiyalınındır, fəqət qafqazlıların deyildir" (273, 26 sentyabr, 1923) kimi davam edən "Yeni Qafqasya" bir tərəfdən imperiyanın yeni şəkli sovetlərə qarşı amansız ideoloji mübarizə aparır, rejimin xalqa qarşı törətdiyi terroru, cinayəti ifşa edirdisə, digər tərəfdən, Azərbaycan Xalq Cümhuriyyətinin, istiqlal dövrünün tarixini yazırdı.

Maraqlı və diqqətçəkəndir ki, "Yeni Qafqasya" və onun sələlərinin səhifələrindəki publisistika nümunələrində faktlara münasibətdə üç amil üzvi şəkildə bir-birini tamamlayır:

-ciddilik;

-emosionallıq;

-dərin təhlil.

Bu üslub mövzudan, onun mahiyyətindən qaynaqlansa da, publisistlərin sənətkarlıq məharəti və təcrübəsi ilə daha təsirli, özünəməxsus olurdu. Prof. Şirməmməd Hüseyov bu qəbildən olan materialları "ürək qanı, ülvi vətən məhəbbəti, əbədi kin və nifrət, həm də gələcəyə çox böyük inam hissi və müqəddəs ümidlə yazılmış yazılar" kimi xarakterizə etmişdir (64).

M.Ə.Rəsulzadənin "Böyük faciə" adlı məqaləsi fakta münasibətlə bağlı yuxarıda söylədiyimiz fikri təsdiq etməklə yanaşı, həm də tarixi öyrənmək və dəyərləndirmək baxımından böyük əhəmiyyət kəsb edir. O, Azərbaycan Xalq Cümhuriyyətini cahan tarixində "milli Şərq demokratiyası cərəyanının bəlli-başlı bir hadisəsi" hesab edir və onun süqutunu "böyük faciə" adlandırır, AXC-nin tarix səhnəsinə çıxmasının Türkiyəyə də təsir etdiyini vurğulayır. Müəllif Türkiyə respublikasının qurulması münasibətilə yazır: "Çökən Osmanlı səltənəi yanında yüksələn bu xalq hakimiyyəti türk xalqının tarixi həyatiyyətə malik olduğuna bir işarətdi. Nitəkim öylə də oldu. Səltənətin batırdığı Türkiyəni cümhuriyyət fikri və sistemi qurtardı. Saray batdı, xalq yüksəldi!" (64).

27 Aprelin Azərbaycan xalqını düz qəlbindən vurduğunu, onu "dağdar" etdiyini yazan müəllif göstərir ki, bu faciə insanları iki qismə bölmüşdür. M.Ə.Rəsulzadəyə görə, onların bir qismi duyduqları acının təsiri ilə özlərini göz yaşlarına və kədərə təslim etmiş, millətin təbii həyatını qurtarmaq fəlsəfəsinə üstünlük vermişlər. Müəllif bu düşüncəni "əsirlərin fəlsəfəsi" adlandırır, digərləri haqqında isə yazır: "İkinci qisim isə təbii həyatla qalmaz, şərəfli həyat istər və bunun üçün də uyuşmağı deyil, vuruşmağı düşünür" (yenə orada).

İkincilərin tərəfində və önündə olan M.Ə.Rəsulzadənin qələmi bu yolun nə qədər ağır, acı, lakin şərəfli olduğunu oxucuya təsirli dillə nəql edir: "Solovki sürgünləri, "Çeka" bordrumları, Xəzərin qanlı dalğaları, Bayıl həbsxanasında yüksək divara dayanaraq soldat qurşunlarına açılan qəhrəman kökslər, südəmər cocuğundan ayrılaraq öldürülən analar, yanıq izləri ilə damğalanmış qanlı köynəklər - xülasə, böyük intiqamı hazırlayan ilahi mətanətlər və qəhrəmanca müqavimətlər - budur, şərəfli həyat üçün vuruşmağı üstün tutan nəslin keçdiyi qorxunc mücadilə yolları" (yenə orada).

Böyük M.Ə.Rəsulzadənin istiqlal mövzusunda qələmə aldıqları onun irsinin əsasını təşkil edir desək, yanılmarıq. İstedadlı qələm, sarsılmaz məfkurə sahibi M.Ə.Rəsulzadənin "Odlu yurd"da dərc etdirdiyi "Milliyyət məsələsi təzahürlərindən" (554), "Öyrədən bir müsibət" (555), "Bugünün ilhamı" (556), "İyul hadisəsi münasibətilə" (557), "Rusiya köləliyində" (559), "Qafqaz birliyinin şüarı altında" (560), "Tarixçiyə qarşı siyasi"

(561), "Bugünkü matəmin acısı" (562), "May günləri" (563) və bəzi yazıları milli istiqlala, onun tarixinə, tərənnümünə, eyni zamanda sovet istilasının, rejiminin və ideologiyasının tənqidinə, ifşasına həsr edilmişdir. Bütün ömrünü, fəaliyyətini Azərbaycan istiqlalı uğrunda mübarizəyə həsr etmiş M.Ə.Rəsulzadə yaradıcılığının ana xəttini, qayəsini, cövhərini istiqlalçılıq, millətçilik, vətənçilik təşkil edir. O, Əfqanıstandan yazanda da ("Əfqanıstan faciəsi" (553), "Nadir xanın zəfəri" (558)), Balkanlardakı mürəkkəb durumu qiymətləndirəndə də ("Milliyyət məsələsi təzahürlərindən" (554)) problemlərə "milli dava üzərində israr edən bizim üçün bu hadisələri tədqiq faydasız deyildir" prinsipi ilə yanaşır.

M.Ə.Rəsulzadə istiqlal mövzusunda məhəbbətlə yazır, düşündürür, fikirlərini əsaslandırır, tutarlı, dolğun faktlardan, mənbələrdən məharətlə istifadə edir. "Rusiya köləliyində" adlı yazı belə başlayır: "Qafqaz müxbirlərindən biri rus imperializmini qəbul edən erməni siyasilərinə çox yerində bir isim vermişdir - rus imperializminin könüllüləri. Belələrinə bizcə, eyni haqq və eyni müvəffəqiyyətlə "Rusiyanın kölələri" demək də caizdir. Bu köləliyin parlaq bir misalını erməni mühərrirlərindən biri A.Hondkaryan vermişdir. Ukraynalı rəfiqimizin təbirincə, "həqiqi rus" olan bu erməni sabiq Rusiya hökumət rəisi Kerenski tərəfindən nəşr olunan "Dni" qəzetində "Türkiyə xidmətində" adı altında bir məqalə yazmışdır" (559). Müəllif mövzuya bu uğurlu girişdən sonra əsl mətləbə keçir. Heç demə, erməni müxbir canfəşanlıqla "isbata çalışır ki, "Prometey" ətrafında birləşən separatistlərin kökünü təşkil edən türk-tatar milliyyətçilərinin istədikləri istiqlal deyil, sadəcə, Rusiyadan ayrılmaq və ondan sonra Türkiyəyə qovuşmaqdır". Hondkaryanın "köləcə yapdığı bu təhdid qarşısında" M.Ə.Rəsulzadə onu "papadan ziyadə katolik" adlandırır və istiqlala belə münasibətilə müxbirin "əsrin ən məqbul və ən yüksək məfhumuna qarşı çıxmış" olduğunu söyləyir. Erməni müxbir xain, məkrli təbiətindən irəli gə-

lən murdarlıqla istiqlal aşiqlərini pantürkizmdə günahlandırır. M.Ə.Rəsulzadə Hondkaryanı "Rusiya düşgünü və Türkiyə düşməni", "rusofil" adlandırır və haqlı olaraq daşnakların ortaya atdıqları "panaryanizm"ə (nəcib farslar, cəngavər kürdlər, cəsur beluclar, cəngəlli kiləklər və açıqgöz ermənilər ittifaqı) münasibət bildirməməkdə ittiham edir və yazır: "Daşnakların da, hondkaryanların da mübtəla olduqları bir xəstəlik vardır ki, o da təqib etdikləri yanlış yol nəticəsində üzərində inad etdikləri türk düşmənçiliyi və qonşu bədxahlığından ibarətdir". M.Ə.Rəsulzadə fakt və hadisələri məharətlə müqayisə və təhlil edir, nəticələr çıxarır. Bu yazıda da müəllif sonda "həqiqi ruslara"-erməni kölələrə üzünü tutur və deyir ki, bərabər yaşamaq məcburiyyətində olduqları qonşularına - türklərə qarşı tutduqları çirkin yoldan çəkinsələr, "çox ağıllı və çox qiymətli bir hərəkət etmiş olarlar".

M.Ə.Rəsulzadə publisistikasının səciyyəvi, daha qabarıq nəzərə çarpan, sabit, dəyişməz cəhətini üç sözlə xarakterizə etmək olar: inam, cəsarət və qətiyyət. Bəli, Azərbaycan istiqlalına inam, sovet rejimi və ideologiyasına qarşı cəsarətli və qətiyyətli mübarizə M.Ə.Rəsulzadə yaradıcılığının əsas qayəsini təşkil edir. Ən çətin şəraitdə, ən ağır dəqiqələrdə M.Ə.Rəsulzadə Azərbaycanın istiqlala qovuşacağına, imperiyanın çökəcəyinə inanmışdır. Nəinki inanmışdır, ətrafındakıları da inandırmışdır, ruhlandırmışdır. Yuxarıda adını çəkdiyimiz yazısında M.Ə.Rəsulzadə elə bil ki, sonrakı on illər üçün proqramını, məramını gur səslə elan edirdi: "....istismar və istila əməlində bulunan hər hansı rus imperializminə düşmənik. Bunu biz bu imperializmin keçmişinə, indisinə olduğu kimi, gələcəyinə də təşmil etməkdən zərrə qədər çəkinməyirik! Və əminik ki, ...tarix bizi ittiham etməyəcək!".

M.Ə.Rəsulzadənin fəaliyyətində və yaradıcılığında onun Qafqaz Birliyi, Qafqaz Konfederasiyası yaratmaq uğrunda mübarizəsi xüsusi yer tutur. O, rus imperializmini Qafqazda yaşa-

yan bütün xalqların ümumi düşməni hesab edir və ona qarşı birgə mübarizəni həyati zərurət sayır.

"Qafqaz birliyinin şüarı altında" (560) adlı məqaləsində M.Ə.Rəsulzadə yazır: "Qafqaz birliyi! - Hal-hazırda bütün Qafqaz millətlərini ruhlandıran bir şüar bax, budur!" İdeoloji rəhbər bu şüarın "bütün ağıllara yerləşdirilməsini" və bunun üçün "məmləkətdə propaqanda işinin artırılmasını" ümumi fəaliyyətin əsas istiqamətlərindən biri adlandırır və Milli Azərbaycan Mərkəzinin, Müsavat Partiyasının belə bir mövqeyini bəyan edir ki, Azərbaycan istiqlalından Müstəqil Qafqaz Konfederasiyası ilə bərabər bəhs edilməlidir. "Çünki Azərbaycanın xilası bütün Qafqazın xilası ilə birlikdə təsəvvür oluna bilər". M.Ə.Rəsulzadə təkcə azərbaycanlılara yox, bütün qafqazlılara müraciət edir: "Qafqaz millətləri birləşin! Birləşin, sıralarınızı möhkəmləndirin, milli bayraqlarınızla bərabər Qafqaz birliyinin bayrağını da yüksəldin! Bir daha təkrar edirəm, xilasımız bundadır!". M.Ə.Rəsulzadənin bu çağırışını xain, xəbis və dardüşüncə ermənilər, qısqanclıq və müqavimətlə qarşıladılar. Tarix və Qafqazdakı bugünkü durum böyük M.Ə.Rəsulzadənin söylədiklərinin nə qədər doğru olduğunu göstərir.

M.Ə.Rəsulzadə "Odlu yurd"da olduğu kimi, sonrakı mühacirət nəşrlərində də bu mövqeyinə axıradək sadiq qalmış və "tarixən ən haqlı davasını" aparan Azərbaycanın da, bütövlükdə Qafqazın da xilasını müştərək müqavimətdə, mübarizədə görmüşdür. "Bugünkü matəmin acısı" adlı yazıda (562) M.Ə.Rəsulzadənin əsas məqsədi 27 aprel istila gününün kədərini, qüssəsini bölüşmək, eyni zamanda tarixin bu sınağından səfərbər olmağa, axıradək mübarizə aparmağa çağırış olsa da, günün aktual probleminə - Qafqaz konfederasiyası məsələsinə də toxunur. Müəllif bolşevizmə qarşı on bir il əvvəl və bu gün aparılan mübarizəni müqayisə edir: "Bundan on bir il əvvəl cərəyan edən Gəncə, Qarabağ, Quba, Zaqatala, Lənkəran, Kürdəmir və s. üsyanlar ilə indiki Şəki, Zaqatala, Qarabağ, Gəncə, Naxçıvan, Ağdaş, Samux, Masallı və s. hadisələri arasında nə fərq vardır?!

-Heç!..

O zaman da, indi də xalq öz mövcudiyyəti, öz hürriyyəti, öz mülkiyyəti və öz milliyyəti - bir sözlə, öz milli istiqlalı üçün hərb edir! On bir illik əvvəlki mücadilə ilə indiki mücadilə arasında fərqi ararkən "heç!" dedik. Fəqət bu cavab formaya aiddir.

Mənaya gəlincə, cavab başqadır: "Fərq çoxdur!" Hadisələri dərindən müşahidə, məharətlə təhlil etmək bacarığı olan M.Ə.Rəsulzadə yazır ki, on bir il əvvəl Şimaldan gələn təhlükənin qarşısının alınması üçün bütün Azərbaycanın və bütün Qafqazın təcavüz qarşısında birləşmək və müştərək müqavimət göstərmək duyğusu kafi deyildi. İndi isə mücadilə və fəlakət illəri bu duyğunu, bu idealı bütün Qafqazda tərbiyələndirmiş və sabit fikir halına gətirmişdir. M.Ə.Rəsulzadə qətiyyətlə bildirir ki, günün şüarı Azərbaycan Respublikası və digər milli cümhuriyyətlər deyil, Azərbaycan ilə bərabər bütün Qafqaz və Qafqaz Konfederasiyasıdır!

Məqalədə müəllif tarixin dərslərindən ibrət götürməyi, 27 Aprelin "machuhu (düzəltməsi - A.T.) qəbul olmayan əziz bir üfülün (batan ulduzun - A.T.) illər keçdikcə, quru bir adət hökmünə girən matəm", yox, "çalınan hürriyyətin geri alınacağı ümüdini həyəcana" gətirəcəyinə əmindir (yenə orada). Bu mövzuya istilaya - 27 Aprelə həsr etdiyi məqalədə olduğu kimi, istiqlala - 28 May münasibətilə qələmə aldığı "May günləri" (563) adlı yazısında da toxunan M.Ə.Rəsulzadə Qafqaz Konfederasiyasını "doğru yol", Qafqazdakı milli hərəkatlar haqqında mənfi rəy bəsləyənləri "bədbinlər" adlandırır və qeyd edir ki, milli, dini və s. fərqlərə rəğmən, qafqazlıların yaşadıqları tarixi müqəddaratlardakı eynilik o dərəcədədir ki, onlarda vahid siyasi bir iradənin yaranması zəruri olur.

M.Ə.Rəsulzadə publisistikasının gücü, qüdrəti onun faktlara əsaslanması, oxucunu təkzibolunmaz dəlillərə inandırmasındadır. O, tarixi fakt və hadisələrdən yerli-yerində məharətlə isti-

fadə edir. "İslam dünyasında ilk dəfə olaraq təəssüs edən türk cümhuriyyətinin" (556) tarixi dəyəri haqqında bəhs edərkən yazır: "Bu bəyanat (misaqi-milli nəzərdə tutulur - A.T.) böyük fransız inqilabı, böyük Amerika istiqlal hərbi, böyük Almaniya istixlası, böyük italyan ittihadı kimi hürriyyət və milliyyət hərəkətlərində əsas təşkil edən və nəhayət, Vilsonun 14-cü maddəsində yer alan və Millətlər Cəmiyyətinin əsasını təşkil edən böyük fikir muktaziyyatının (təxminən lazım olan bütün fikrin hamısını - A.T.) Azərbaycan xüsusiyyəti ilə imtizaq (üst-üstə düşən, uyğunlaşan - A.T.) etdiyini bildirən bir vəsiqədir". M.Ə.Rəsulzadə əqidəsinə, məsləkinə bütün varlığı ilə inanır, o, eyni zamanda oxucunu da buna inandırır: "Bəli, zaman bu gün milli istiqlal fikrinin leyhinə işləyir, qəlblərini bu qayəyə bağlayan və cəhdlərini, bunun uğrunda sərf edən azərbaycanlılar hər il 28 mayda keçdikləri cidal (cəng, savaş - A.T.) yolunu seyr, hədəfə varacaq məsafəni tədqiq edirlər: hərəkətin aktiv və passivini ölçərək illik hesabatı hazırladıqdan sonra yeni bir güc və ilham ilə mücadiləni davam etdirirlər" (yenə orada).

M.Ə.Rəsulzadənin "Azərbaycan mətbuatının piri" (588) adlı publisistik yazısı, həm "Əkinçi"nin və onun yaradıcısı H.Zərdabinin xidmətlərini dəyərləndirmək, həm də mətbuatın cəmiyyətdə tarixi rolunu qiymətləndirmək baxımından diqqəti çəkir. Müəllif yazır:

"Millətin tarixində qəzet təsisi mühüm bir dövrü ifadə edir. Danışdığı dildə ilk qəzetə malik olan cəmiyyət, bir milliyyət ikən millət olmağa başlamış deməkdir. Həyatında mətbuat ənənələrinə malik olan bir xalq isə artıq təşəkkül tapmış bir millətdir". M.Ə.Rəsulzadə milli şüurun formalaşmasında qəzetlərin rolunu və H.Zərdabinin tarixi xidmətlərini yüksək qiymətləndirir.

Müəllif "Əkinçi"dən sonra çıxan "Ziya", "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" bağlandıqdan sonra 1903-cü ilə qədərki dövrü mətbuatsız bir dövr adlandırır və bu 13 ili Azərbaycan cəmiyyətinin "ən qaranlıq dövrü" hesab edir. M.Ə.Rəsulzadə yazır: "H.Zərdabi səpdiyi toxumun səmərəsini görən uğurlu bir "Əkinçi" kimi öyünərək və sevinclə bu dünyadan köçdü. O gün mətbuat qara geydi. Şairlər mərsiyələr yazdı. Teatrlar pərdələrini endirdi. Bazarlar və dükanlar qapandı. Bir kəlmə ilə, millət matəm tutdu". Qüdrətli qələm sahibi bir neçə cümlə ilə H.Zərdabinin vəfatı ilə bağlı mənzərəni məharətlə göz önünə gətirir, oxucu özünü həmin mərasimdə hiss edir, kədərlənir, mərhumu ehtiramla yad edir.

Hadisələri əlaqələndirmək, müqayisə etmək, aktuallıq baxımından dəyərləndirmək bacarığı M.Ə.Rəsulzadə qələmi üçün səciyyəvidir. Bu mövzunu da ustalıqla yekunlaşdıran M.Ə.Rəsulzadə yazır: "Çar dövründəki senzura Azərbaycanı mətbuatsız buraxmışdı. Kommunist dövründəki işğal isə Azərbaycanı istiqlalından, mətbuatını da milli şüura xidmətdən məhrum etmişdir". Qeyd etmək yerinə düşərdi ki, mətbuat tarixi ilə bağlı dəfələrlə məqalə yazmış M.Ə. Rəsulzadə hələ 1927-ci ildə "Yeni Qafqasya"da "Azəri" imzası ilə "Azərbaycan mətbuatının şərəfli xatirəsi" adlı material dərc etdirmişdir.

Azərbaycan mətbuatının yaranmasının 50 illiyi münasibətilə qələmə alınmış həmin yazıda da yuxarıda haqqında bəhs etdiyimiz məqalədəki kimi H.Zərdabi, onunla əsası qoyulan "Əkinçi" qəzeti, sonralar intişar tapmış və Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi fikir tarixində mühüm rol oynamış mətbu orqanlar barədə ətraflı söz açılır.

M.Ə.Rəsulzadə eyni məhəbbət və ehtirasla böyük Üzeyir Hacıbəyli haqqında da yazırdı (590). O, Üzeyir bəyi "milli oyanış tarixində yer almış, unudulmaz bir sima", onun əsərlərini "milli ruha tərcuman olan böyük sənət" adlandırır. Müəllif məqalədə Ü.Hacıbəylinin ömür və yaradıcılıq yolunu xronoloji ardıcıllıqla izləyir, əsərlərinin uğurlarından ətraflı bəhs edir. Təəssüflə bildirir ki, sovet rejimi Ü.Hacıbəyli istedadının tam açılmasına mane olmuşdur.

Böyük qələm sahibi və istiqlal uğrunda alovlu mübariz M.B.Məmmədzadənin "Vətən qaldı" adlı əsəri həm mövzu, həm sənətkarlıq baxımından maraq doğurur. Müəllif burada öz başına gələnləri həzin və təsirli bir dillə oxucu ilə bölüşür. Məlum olur ki, o, Azərbaycanın bolşeviklər tərəfindən işğalından bir müddət sonra İrana keçməyə, mühacirət həyatı sürməyə məcbur olur. Elə ilk günlərdən müəllif mühdiş mənzərələrlə rastlaşır. "Mühacirətin ilk ayları idi. Mənfur istilanın müdhiş dalğası ilə Rəştə atılmışdım. Rəşt Gilanın mərkəzidir. Şəhərin ətrafını dolaşmaq məqsədi ilə, arkadaşımla bərabər şəhər kənarına çıxmış, "Azərilər məzarı"nı ziyarətə getmişdik. Bu, istila hökuməti tərəfindən zor ilə İrana sövq edilən və burada aclıqdan, xəstəlikdən və bilhassa qızdırmadan ölən milli Azərbaycan nəfərlərinin bir torpaq yığınından ibarət məzarıdır.

Müəllif mühacirət həyatının ağır, acı mənzərəsini məharətlə təsvir edir. Min bir cür məhrumiyyətlərə, əzab və işgəncələrə məruz qalan istiqlal aşiqlərinin məzarları da ürək ağrıdır: "Yaxındakı "möhtəşəm" bağın ətrafı xalq ilə dolu idi. Biz "Fatihə" oxuduqdan sonra, bir qədər söyləməz olmuş, sükuta dalmışdıq. Kənardan baxanlara biz, yolun kənarındakı gölləri, dağları seyr edir kimi görünə bilərdik. Halbuki biz öz aləmimizdə, başqa aləmlərdə "gəzirdik".

Məzarlara baxdım. Yer ilə yeksan olmuş, qara torpaqdan ibarət olan bu məzarların üzərində nə daş vardı, nə nişan. Bir kaç sənə sonra tamamilə tanınmayacaq bir hala gələcəkləri şübhəsiz, bəlli idi. Bu məzarlar üzərində göz yazı axıdılmamışdı.

Buranı nə yaşlı bir ana, nə də bir yavuklu ziyarət etmişdi."

Azərbaycan istiqlalçılarının İrandakı ağır, faciəli taleyi M.B.Məmmədzadənin təsviri ilə oxucunu kədərləndirməklə kifayətlənmir, həm də narahat edir, düşündürür.

Qonşu ölkənin Azərbaycan mücahidlərinə, onların timsalında Azərbaycan istiqlalına münasibəti tarixin ibrət dərsidir. Bu barədə düşünməyi və nəticə çıxarmağı oxucunun ixtiyarına bura-

xan müəllif diqqəti qəhvəxanada ağır vəziyyətdə olan mühacirin üzərində cəmləyir. Məlum olur ki, Gəncə üsyanının iştirakçısı sonra Azərbaycanı tərk edir, İranda zindana düşür, nəhayət Gilanda yerləşir.

Mühacir Vətəndə baş verənlərlə maraqlanır, M.B.Məmmədzadəni suala tutur:

-İndi söylə baxaq, vətəndə nə var? Kimlər sağdır, kimlər ölmüş?

-Ölən ölmüş, qalan qalmışdır, - dedim.

-General Səlimov sağmıdır?

-Öldürdülər...

-Ah... qatillər!.. Peki. General İbrahim Ağa?

-Onu da...

-Kayda başı?

-Onu da öldürdülər...

-General Haşım bəy nerede?

-Onu da qətl etdilər...

-General Delhas?

-Onu da...

-Süleyman paşa?

-Onu da... onu da...

Bir az susdu... Dərin-dərin nəfəs alırdı... Sonra yenə müracət etdi:

-Nəsib bəy nerede?

-Bəlli degil...

-Həsən bəy, Fətəli xan?..

-Öldürmüşlər."

Həyəcan və təşvişlə dolu suallara sarsıdıcı cavablar verilir. Dialoq elə şəkildə təqdim edilir ki, oxucu özünü mükaliminin iştirakçısı hesab edir, o da duyğulanır, narahat olur. İlk baxışda elə gəlir ki, bu gərgin sual-cavab oxucuda bir bədbinlik, sabaha inamsızlıq hissi yaradacaq. Doğrudan da, Vətəndə cəllad maşını işləyir. Bütün dəyərli insanlar məhv edilir. Müəllif isə oxu-

cunun ümidlərini öldürmür, əksinə, onu yeni mübarizəyə, sabahkı mücadiləyə hazırlayır:

"O qızdı:

-Hep öldürmüşlər. Nə var öldürmüşlər... O halda kim qaldı?!.

Üzünə baxdım qızdırmadan solmuş yanaqlarında göz yaşı vardı.

-Sağ qalan, - dedim, - çoxdur...

-Bütün rəisləri məhv etmişlər, bir kimsə ki, qalmamış!..

-Xeyr, qalmışdır...

-Kim?..

-Onları yetişdirən Millət... Milləti yaşadan Vətən!.."

Müəllif qələmi ilə istilaya qarşı mübarizənin yeni mərhələnin başladığına, istilanın "bulud kimi keçici" olduğuna, "istiqlal ümidinin qaldığına" hər kəsi inandırır: "İndi hamımız susurduq. Hamımızı hıçqırıq boğurdu. Artıq bir-birimizə baxa bilmirdik. Hər kəs bir nöqtə bularaq oraya dalmışdı... Sonra Rəşidin tutuq səsi eşidildi:

-Əvət, dedi, Vətən!... Yalnız vətən qaldı!..

Dışarda yenə günəş çıxmışdı. Bulud keçmiş, yağmur bitmiş, ətraf yenə aydınlaşmış, bahara dönmüşdü...

Biz çıxdıq. Rəşid hələ düşünürdü. Birdən-birə Rəşid bilaixtiyar:

-Əvət, Vətən, yalnız Vətən qaldı! İstila bu bulud kimi keçicidir. Madam ki, Vətən qalmışdır, İstiqlal ümidi də qalmışdır!.. deyə mənə döndü.

Gözlərində həzin bir təbəssüm sezilirdi..."

Vaxtı ilə "Yeni Qafqasya"da çap olunan bu əsər "Azərbaycan" (Ankara) jurnalının 1952-ci il tarixli 5-ci nömrəsində də verilmişdir.

Mirzə Bala Məmmədzadənin təbirincə desək, "Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri M.Ə.Rəsulzadə" ömrünün son illərində (1955-ci il martın 6-da vəfat etmişdir) əvvəlki hərarət və məhsuldarlıqla yaza bilməsə də, "miras qo-

yub getdiyi milli məfkurənin gerçəkləşməsi və Azərbaycanın yenidən istiqlala qovuşması uğrunda müqəddəs mücadiləni eyni əzm, qeyrət və mətanətlə davam etdirəcək" (Mirzə Bala) mübarizlər yetişdirmişdi. Böyük mütəffəkkir və inqilabçı, siyasət və dövlət adamı, mühərrir, ədib və natiq M.Ə.Rəsulzadənin istiqlal davasını onun silahdaşları, o cümlədən "Azərbaycan" jurnalının əməkdaşları sonadək şərəflə davam etdirdilər. Mirzə Balanın M.Ə.Rəsulzadə haqqında yazdığı və "Azərbaycan" jurnalının 1955-ci il tarixli 12-ci nömrəsində dərc etdirdiyi "Məmməd Əmin Rəsulzadə" adlı məqaləsində xalqın böyük övladının parlaq obrazı yaradılmışdır.

Mirzə Balanın "Səkkiz illik yol" adlı yazısı bir tərəfdən tarixi fakt və hadisələrin obyektiv şərhi ilə yadda qalırsa, digər tərəfdən də özünəməxsus dil və üslubu ilə diqqəti çəkir: "... Mücadilə davam edir, gah qalib, gah məğlub, gah hür, gah əsir, gah hakim, gah məhkum, gah sürgün, gah mühacir oluruq" (294).

Müəllifin 28 May istiqlal və 28 Aprel istila günləri münasibətilə yazdığı materiallar obrazlılığı, təsirliliyi, eyni zamanda kəskinliyi ilə xüsusilə fərqlənir: "Məlum olduğu kimi, Müstəqil Azərbaycan Kommunist Partiyasının vücudu felən mövcud olmadığı kimi, müstəqil Sovet Azərbaycanının istiqlalı da eyni cürdür, ... o zamankı "Hümmət" təşkilatına mənsub olan bolşevik komissarları Azərbaycan şüarını rədd edir və bu isimlə bir məmləkət mövcud olduğunu tamamilə inkar edirlər" (273, №19, 1926). Yaxud "Türk tarixində qara bir gün" adlı yazıda deyilir: "Türk tarixində qara bir gün. Bəli, Azərbaycan Cümhuriyyəti müstəqil türk dünyasının böyük türk federasyonunun istiqlal kəsb etmiş mühüm bir rüknü (sütun, sağlam təməl, istinadgah - A.T.) idi. Bura türklüyün ana yurdu Türküstanla canlı türk məfkurəsinin böyük rəhbəri Anadolu arasında vaqi (saxlayan, mühafizə edən - A.T.) bir qəlb idi. Türk dünyasının qəlbi.

Bu qəlb yalnız coğrafi bir məfhumu ifadə ilə qalmır, məfku-

rəvi bir mənanı da daşıyır. Azərbaycan yalnız cənubi-qərbdəki türklərlə şimal-qərbdəki türkləri birləşdirməklə deyil, əski zamanlardan bəri Avropa ilə Asiya arasında ən qısa musavalayı (gedib-gəlmə imkanı, rabitə - A.T.) təmin edən Cənubi Qafqaz üzərində kain (mövcud - A.T.) olması ilə mümtaz (fərqli, seçilən - A.T.) idi" (273, №15, 22 aprel 1926).

M.Ə.Rəsulzadənin ən yaxın silahdaşı, istiqlal uğrunda mücadilədə alovlu mübariz M.B.Məmmədzadə "Yeni Qafqasya"dan üzü bəri əksər mühacir nəşrlərdə olduğu kimi, "Azərbaycan"da da yorulmaq bilmədən yazır, yaradırdı. Burada da istedadlı qələm sahibi müxtəlif mövzulara toxunsa da, əsas diqqətini istiqlal uğrunda mübarizə, Xalq Cümhuriyyətinin tarixi kimi mövzular üzərində cəmləşdirirdi. Onun "Azərbaycan Milli Şurası" (506), "Azərbaycan parlamenti" (507), "İstiqlalın ilk şeri" (513), "Milli tariximizin son 50 ili" (526) və s. kimi çoxsaylı məqalələri bu gün xüsusilə aktual və əhəmiyyətlidir.

Sovet ideologiyasının, rejiminin tənqidi Mirzə Bala yaradıcılığının əsas mövzularındandır. Publisistin qələmi bu mövzuda daha təsirli, eyni zamanda daha kədərlidir, üzüntülüdür, amma bədbin deyil. "Solovkidən gələn səslər"i (308) istedadlı qələm sahibi oraya sürülmüş bir azərbaycanlı millətsevərin yazdıqları ilə başlayır: "Çekistlər bizi susdura bilmədilər və biz "İstiqlal" marşından sonra "Ağlama, sən qərib Vətən" mahnısını oxuduq".

Mirzə Bala öz dərdini oxucu ilə bölüşür: "Solovkini hansı azərbaycanlı, rus pəncəsində inləyən hansı millətin övladı tanımır?! Sovet Rusiyasını az-çox tanıyanlardan kim "Solovki" adını eşitməmişdir?! Azərbaycanlı şairin "buzlu cəhənnəm" adlandırdığı və bu gün yalnız qatilin deyil, haqq və hürriyyət bağıran insanların da məzarı olan "təbiətin bu qorxunc cekasını" solovkililərimizdən eşidək". Müəllif onların haqqında çox yazıldığını, onların bir-bir adlarını bildiklərini yazır və göstərir ki, "İstiqlal və hürriyyət üçün zəncirbənd edilənlər" "Azərbaycanımızın daimi bahar olan bağçalarından zəhərli əllər tərəfindən qoparılıb, şimalın həmişə qış olan buzlu cəhənnəminə atılan çiçəklərdir".

Onlar Azərbaycanın fikri həyatını idarə edən ədib, şair, müharrir, məmləkətin gələcək nəslinin tərbiyəsi ilə məşğul olan müəllim, pedaqoq, Azərbaycanın hürriyyət və namusunu qoruyan zabit, rus istilasına, bolşevik rejiminə qarşı üsyan edən kəndlilərdir.

Müəllif sürülənlərin məktublarına əsasən ilin 9 ayı qış olan Solovkinin vəhşi, dözülməz təbiətini təsvir edir, sonra mucahidlərə verilən işgəncələr haqqında yazır: "Ağır işlərə dözməyərək intihar edənlər, baltalarla özlərini yaralayıb və ya xəstələnib ölənlər az deyil. 1927-ci ildə məhkumların 30 faizi qışın soyuğundan tut kimi qırılmışdır".

Mirzə Bala yazır ki, Solovkidən sağ-salamat dönəcəklərinə ümid etməyən mücahidlər məktubları ilə bəşəriyyətin vicdanına xitab edirlər. "Onlar 9 ayı qış, günün 20 saatı gecə, 40 dərəcə soyuq olan "kommunizm zindanında" məruz qaldıqları işgəncələr haqqında mədəni dünyaya danışırlar. Mücahid-publisist yazır ki, Solovkidən gələn səsi biz eşidirik. Bu həqiqətin səsidir. Biz də həqiqətik - deyən müəllif yazını belə bitirir: "Onun üçündür ki, onların səsi bizim ağzımızla təkrar olunur, çünki yalnız biz eşidirik... "Mirzə Bala Məmmədzadə publisistikası canlı, ehtiraslı və obrazlı ifadə tərzi, inandırmaq məharəti, ideya, əqidə, məslək məşəlini daha da alovlandırmaq, ümumbəşəri dəyərlər təlqin etmək qüdrətinə, eyni zamanda problemə sərt, kəskin münasibət bəsləmək, opponentini sözün qüvvəsindən ustalıqla istifadə edib tərksilah və ifşa etmək qabiliyyətinə malikdir. O, faktlara istinad edir, məntiqə, fəhmin gücünə arxalanır, tədqiqatlar aparır, mülahizələr, mühakimələr irəli sürür, nəticələr çıxarır. M.B.Məmmədzadə toxunduğu mövzuya uyğun gah lirik-romantik üslub seçir, oxucunu kövrəldir, təsirləndirir, onun qəlbini ələ alır, düşüncə və hisslərini cüşa gətirir, gah da satirik qələmi, öldürücü ifşa metodlarını işə salır. Bütün bunla-

ra o, sözdən, faktdan yüksək məharət və sənətkarlıqla istifadə etməklə nail olur. Müəllifin fakta yanaşma tərzi, onu müxtəlif aspektlərdən təhlil etmək, dəyərləndirmək istedadı həmişə uğurlu olur.

M.B.Məmmədzadənin "Körpü nəzəriyyəsi" (493) adlı yazısından bəlli olur ki, Şövkət xanım Məmmədovanın "Azərbaycan müsiqili teatrının inkişaf yolu" adlı əsəri Moskvada çapdan çıxmışdır və Bakıda nəşr olunan "Inqilab və mədəniyyət" məcmuəsində (may, 1932) Rəhim Həsənovun həmin kitabla bağlı tənqidi məqaləsi dərc edilmişdir. Rəhim Həsənovu Şövkət Məmmədovanın əsəri niyə qayğılandırmış, narahat etmişdir? Heç demə, Ş.Məmmədova həmin əsərdə yazmışdır ki, xalq operasının düşmənləri bü sahədə indiyədək olan əsərlərdən, o cümlədən Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin əsərlərindən imtina etmək fikrini ortaya atmışlar. Ş.Məmmədova isə əks mövqedədir və yazısında da qeyd edir ki, həmin əsərləri atmaq yox, onlardan bəhrələnərək, yenilərini yaratmaq lazımdır. Bu mənada, indiyə qədər yaranmış əsərlər bundan sonrakı əsərlər üçün gözəl bir körpü rolunu oynaya bilər. Həsənov göstərir ki, Ş.Məmmədovanın söylədiklərini siyasi dilə çevirəndə bu o, deməkdir ki, biz hələ keçmişin təsirindən azad ola bilməmişik. Şövkət xanım demək istəyir ki, keçmişdən əl çəkməyin, çünki irəli daha qaranlıqdır, heç bir ümid yolu yoxdur. M.B.Məmmədzadə Ş.Məmmədovanın saf, sağlam fikir və arzuları ilə R.Həsənov kimi çürük və dar düşüncə sahiblərinin fikirlərini qarşılaşdırır, birincini təqdir, ikincini tənqid, ifşa edir.

Maraqlı və diqqəti çəkəndir ki, ölkədə baş verən prosesləri, yeniliklə köhnəliyin mübarizəsini müntəzəm izləyən M.B.Məmmədzadə bu mövzunu həmişə gündəlikdə saxlayır. Qəzetin sonrakı nömrəsində dərc olunmuş "Günbatançılıq" (333) adlı məqalə də toxunulan problemə həsr edilmişdir. Azərbaycan musiqisi, onun problemləri haqqında yazdığı məqalədə Ş.Məmmədova göstərir ki, ölkəmizin təbii sərvətlərindən faydalanmaq üçün xaricdən alimlər çağırırıq. Nə üçün musiqi zənginliklərimizin işlənməsi üçün alimlər dəvət etməyək?

B.Əsgərov adlı orta məktəb müəllimi də neft sənayesinin inkişafı üçün günbatanlı (Qərb) kapitalistlərin sərmayə qoymasını vacib hesab edir və bunsuz yüksəlişin olmayacağını bildirir.

M.B.Məmmədzadə məqaləsində göstərir ki, bu müəlliflərin "günbatançılıq"larını bəyənməyən R.Həsənov, M.Hacinski, P.Məmmədbəyov onları kommunizmə, marksizm metodologiyasına düşmənçilikdə günahlandırır, ittiham edir. M.B.Məmmədzadə fikirlərin, ideyaların bu cür qarşılaşdırılmasından ustalıqla istifadə edərək, əslində sovet ideologiyasının çürüklüyünü, yararsızlığını tənqid hədəfinə çevirir.

Bu məsələ müəllifin "Nəşrlərimiz və bolşeviklər" (495, №0) adlı yazısında daha qabarıq üzə çıxır. O, yazır: "Bolşeviklərin ən çox qorxduğu mətbuat və fikir hürriyyətidir. Hürriyyətdən, xüsusilə mətbuat və fikir hürriyyətindən yarasa işıqdan, şeytan bismillahdan qorxan kimi qorxurlar".

Müəllif daha sonra bolşeviklərin "İstiqlal"a münasibətindən söz açır və göstərir ki, qəzetin elə nömrəsi yoxdur ki, "Zarya Vostoka", "Bakinskiy raboçiy", "Kommunist" ondan qərəzlə, böhtanla bəhs etməsin.

Bütün həyatını, qələmini Azərbaycana, onun azadlığına, istiqlalına həsr etmiş M.B.Məmmədzadə irsinin küll halında tədqiqi, təbliği aktual və əhəmiyyətlidir.

"Odlu yurd"un elm və ədəbiyyat bölməsində dr. Əhməd Cəfəroğlunun "Tarixdə Azərbaycan-rus münasibətləri" (318) adlı irihəcmli yazısı diqqəti çəkir. Müəllif burada Bakı, Leypsiq, Paris, Peterburq, Berlin, Kazan və başqa şəhərlərdə çap olunmuş müxtəlif əsərlərə istinad edərək Azərbaycan - rus münasibətlərinin yaranması, inkişafı tarixinə nəzər salır, mövcud mülahizələrə fikrini bildirir, müəyyən nəticələr çıxarır. İnanırıq ki, bu əsər tarixçilərimiz üçün faydalı mənbə olacaqdır.

Azərbaycanın azadlığı uğrunda mübarizə Ə.Cəfəroğlunun hə-

yat və yaradıcılığının başlıca leytmotivi olmuşdur. Təsadüfü deyildir ki, o "Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi izləri" (319) adlı fundamental tədqiqat əsəri ilə yanaşı, "Azərbaycanın böyük matəmi - 27 Aprel 1920" (320), "28 May 1918-ci il Milli Azərbaycan Cümhuriyyətinin on beş illiyi" (321), "Azərbaycanın milli matəmi 27 Aprel 1920" (322), "28 May 1918" (323) kimi publisistik məqalələrin də müəllifidir. Istər elmi-nəzəri və istərsə də publisistik yazılarında Ə.Cəfəroğlu oxucunun gözündə həyata baxışı, düşüncə tərzi ilə istiqlal aşiqi kimi yüksəlir. Onun "Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi izləri" əsəri belə qurtarır: "Gültəkin, Sənan, Azəri kimi adlar altında çıxan bir silsilə vətəni şeirlər (1928-ci ildə İstanbulda "İstiqlal uğrunda" adı ilə buraxılan şeirlər məcmuəsi nəzərdə tutulur - A.T.) bir ağızdan;

Qaldıqca ruslar diyarımda mənim
"İntiqam!" olacaq şüarım mənim. -

idealını tərənnüm etmişlər. Gültəkin bəyin şeirlərinin qüvvət və zərafətini, deyə bilərəm ki, siyasi mətbuatımızdan daha çox rəğbət görə bilmişdir. ...Məmləkət daxilində bolşevik təzyiqi və istilası altında iniltisi İstanbula qədər varan milliyyətpərvər Azəri şairlərinin şeirləri isə təbii daha canlı və daha həssasdır. Daxildəkilərlə xaricdəkilərin yeganə fərqi birincilərin hər gün:

Azəri oğlunun böyük ümidə
Gömdüyü üç rəngli bayrağı öp. -

dedikləri halda, ikincilərin ruhları həsrətdə qalmaqdadır". Göründüyü kimi, qələmə alınanlar yalnız bir ədəbiyyatşünas alimin yazısı yox, həm də, bir istiqlal mücahidinin qəlbindən püskürən atəşdir. Prof. Ə.Cəfəroğlunun ədəbi-nəzəri irsi istər Türkiyə və istərsə də, Azərbaycan alimləri tərəfindən araşdırıldığından, dəyərləndirildiyindən bu mövzu üzərində geniş dayanmağa ehtiyac duymuruq.

Prof. Ə.Cəfəroğlu eyni üslubu, mövzuya yanaşma tərzini publisistik yazılarında da saxlayır. "28 May 1918-ci il Milli Azərbaycan Cümhuriyyətinin 15 illiyi" adlı yazısında müəllif göstərir ki, 1918-ci il 28 Mayda Azəri türkləri bu tarixə qədər türklər tarixində isminə belə təsadüf edilməyən ilk türk cümhuriyyəti qurdular. Lakin "milli istiqlal qidası qızıl qüvvət tərəfindən Azəri türklərinə haram edildi. Ə.Cəfəroğlu bu tarixi faciədən sarsılsa da, ümidini üzmür: "Lakin dərisi üzülən qurban cümhuriyyətin, sağlam qəlbi döyünməkdədir. Bu gün milliyyətpərvər azəri gəncləri arxada buraxdıqları 28 May üçün çarpışmaya davam etməkdədir və rusu məğlub etməyincə, Azərbaycan azad və müstəqil bayrağına qovuşmayınca, bu milli mücadiləsindən vaz keçməyəcəkdir. Bu Azəri türkünün haqqı və hər bir türkün vəzifəsidir". Ə.Cəfəroğlunun elmi-nəzəri əsərlərində olduğu kimi, publisistik məqalələrində də istiqlala inam əsas xüsusiyyətlərdəndir. "27 Aprelin qara günlərindən yeni Azərbaycan doğacaq və bu qara günlərin yasını sevinclə örtəcəkdir" (322).

Müəllifin istiqlal mövzusunda qələmə aldığı yazılara mübariz ruh, düşmənə nifrət, amansız mücadiləyə çağırış hakimdir. Onun məqalələrinin dili canlı, oynaq, obrazlı, həm də sadə və anlaşıqlıdır. Onun sayəsində müəllif oxucunun qəlbinə, beyninə məharətlə nüfuz edir, təsir göstərir. Ə.Cəfəroğlunun istiqlal mövzusuna dair yazılarını bu gün də hissiz-həyəcansız oxumaq mümkün deyildir: "Zavallı Azərbaycan! Çəkmədiyin qalmadı. Uğurlu, anlı və şanlı günlərin qara günlərə çevrildi. Müqəddəs üç rəngli bayrağın yerinə yabançı ellərin müstəvli bayrağı qaldırıldı. İstiqlal ülküsü yerinə istila havası əsdirildi. Sənin üçün çırpınan vicdanlı istiqlal ülküçüləri məhv edildi. Milli qayənin ağır yükünü çiyinlərində daşıyanlar küçələrə qovuldu. Haqq istəyənlər yox edildi. Türksüz Azərbaycan üçün əhali yurdundan çıxarıldı. Hüdudlarından xaricə çıxmaq istəməyənlər qürbət dünyasına yayıldı" (yenə orada).

"İxtisasım xaricində olan bu mövzu müstəqil tədqiqatın nəticəsində əldə edilmiş bir etüd deyil. Bu, Avropada təhsil aldığım illərdə Vətənim Azərbaycanın tarixi haqqındakı mütaliələrimin bir araya toplanmış səmərəsidir. Ortada təəssüf ki, bəlli-başlı bu kimi elmi məsələlərlə məşğul olan ciddi bir əsər olmadığından topladığım faktları çox möhtərəm vətəndaşlarıma təqdim etməyə cəsarət edir və faydalı olacağına ümid edirəm". M.Ağaoğlu belə bir girişlə "Azərbaycanın paytaxtı "Bakı" adı haqqında qeydlər" (278) məqaləsini "Odlu yurd"un nömrələrində çap etdirmişdir. O, burada yunan, ərəb, erməni, fars, rus mənbələrinə nəzər salır, "Bakı" və bir sıra başqa sözlərin etimologiyası ilə bağlı fikirləri oxuculara çatdırır, onları dəyərləndirir. Hər iki yazı elmi üslubda qələmə alınsa da, adi oxucu üçün də anlaşıqlı və maraqlıdır.

"Odlu yurd" yazarlarından Hilal Münşinin imzasına sonralar Berlin nəşrlərində tez-tez təsadüf olunur. Hilal Münşi Nəzirlibəyov 1902-ci ildə Azərbaycanın mədəniyyət tacı Şuşada anadan olmuş, ilk təhsilini də oradakı realnı məktəbində almışdır. Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu ildə təhsil almaq üçün xaricə göndərdiyi 100 tələbənin cərgəsində Hilal Münşi də var idi. Azərbaycan 1920-ci ilin 27 aprel rus istilasına məruz qaldığına görə, H.Münşi bir daha vətənə qayıtmır. Lakin onun qəlbi və qələmi daim Azərbaycanla olur. Çoxşaxəli yaradıcılığı olan Hilal Münşinin məqalələrinin baş qəhrəmanı Azərbaycan, onun istiqlalıdır. Onun 1931-ci ildə Berlində alman dilində çap olunmuş "Azərbaycan Respublikası" adlı əsəri xüsusilə böyük əhəmiyyət kəsb edir. Dr. Əhməd Cəfəroğlunun təbirincə desək, H.Münşi bu əsəri ilə ilk dəfə olaraq, Almaniya mühitinə Azərbaycanı tanıtmağa çalışmışdır.

"Odlu yurd"da Hilal Münşinin "Şərqdə petrol və qan" ünvanlı əsərin müəllifi kimdir" (530) adlı yazısı dövründə olduğu qədər bu gün də aktualdır. Bu gün Azərbaycan ədəbi mühitində, ədəbiyyatşünaslığında sözün həqiqi mənasında bir müəmmaya,

tapmacaya çevrilmiş "Leo Nissimbaum kimdir?", "Əli və Nino"nu kim yazmışdır?" - suallarını birmənalı, ədalətli və dəqiq cavablandırmaq üçün, elə bilirəm ki, H.Münşinin bu məqaləsi kifayət edər. Yeri gəlmişkən qeyd edim ki, müəllif bu mövzuya sonralar da qayıtmışdır.

Adı çəkilən yazı əvvəlcə Almaniyanın "Berliner Tribun" qəzetinin 8 fevral 1930-cu il tarixli nömrəsində çap olunmuşdur. Bu yazının almanca dərc edilməsi son dərəcə vacib və faydalı idi. Çünki alman cəmiyyətində "Şərqdə petrol və qan" və bu kimi digər əsərlərin təsiri ilə qafqazlılara, xüsusilə azərbaycanlılara qarşı mənfi rəy formalaşırdı. Əsər Almaniyada yaşayan Azərbaycan, Gürcüstan, Türküstan və İran mühacirlərini hiddətləndirmiş və Berlin İslam İnstitutu izahat vermişdir. Həmin izahat da "Berliner Tribun"da dərc edilmişdir. Mühacirlərin etirazında deyilir: "Biz bütün bəşəriyyətə elan edirik ki, "Əsəd bəy"in Şərqi belə təsvir etməkdə məqsədi bu regionun xalqlarını avropalıların nəzərində diskreditə və təhqir etməkdir. Müəllifin əsəri başdan-ayağa yalan, qərəz və böhtanlardan ibarətdir. Biz qətiyyətlə bildiririk ki, "Əsəd bəy"in bu şəkildəki təsviri həqiqətdən çox uzaqdır." Eliraz məktubunu azərbaycanlılar adından Cavad bəy Vəzirli, Hilal Münşi, Zahid Əfəndi, gürcülər adından dr. Aşmeteli, iranlılar adından Abdül Şakir, Mirzə Həsən, Şeyx Seyf Azad, türküstanlılar adından Əhməd Naim və Səncər imzalamışlar (yenə orada).

Əsərlə bağlı Berlindəki İslam Institutunun izahatı da maraqlıdır. Orada göstərilir ki, müəllif əslən azərbaycanlı deyil, azəri türk ləhcəsini bilmir, təsvir etdiyi hadisələr zamanı uşaq olmuşdur. Müəllifin əsl adı Leo Nissinbaumdır və 1905-ci ilin 20 oktyabrında Kiyevdə yəhudi ailəsində doğulmuşdur. İzahatda əsəri çap edən alman mətbəəsinin də "qaba bir yalanın qurbanı" olduğu və cəmiyyətin "belə bir yalançılıqdan mühafizə edilməsinin" vacibliyi vurğulanır.

Hilal Münşinin məqaləsi isə məsələyə daha geniş aydınlıq

gətirir. Əsəd bəyin, əslində Leo Nissinbaumun fırıldaqla dolu bütün tərcümeyi - halı, qərəz, iftira və böhtanlarla zəngin yaradıcılığı təfərrufatı, təfsilatı ilə işıqlandırılır. "Əsəd bəy"in xəmiri yalanla yoğrulub. Hilal Münşi hələ 1921-ci ildə "Əsədbəy"in atası Abraham Leo Nissinbaumun Berlindəki görüşü bu nəticəyə gəlməyə əsasdır. "Əsəd bəy"in atası 14 yaşlı oğlu Leonun təhsili üçün H.Münşidən para istəyir, ailəsinin Kiyev qırğınından sonra Azərbaycana pənah gətirdiyini ona söyləyir.

Hilal Münşi sonralar təsadüfən artıq böyümüş Leo ilə rastlaşır, o yalan və saxtakarlıqda atasını geridə qoymuşdur: Guya Bakıda petrol quyusunun sahibidir, Azərbaycan, Gürcüstan hökümətlərinin rəhbərləri ilə dostdur. Buxara əmirinin və maliyyə nazirinin qohumudur, rus, gürcü əsilzadələrinin dostudur və s. H.Münşi bəy tarixi və təkzibolunmaz faktlarla "bu adamcığazı", "xəstə fantaziyasını həyasızlıq həddinə çatdıran" müəllifi "falsifikator", "ədəbi şarlatan", əsəri isə "alçaq" və "yalançı" kimi təqdim və ifşa edir. Zənnimizcə, iri həcmli bu məqalə bir sıra məqamlara aydınlıq gətirmək üçün mütəxəssislər üçün gözəl məxəzdir.

Jurnalın yazarlarından Y.Əli ("Istiqlal uğrunda" (345), "28 May və gənclik" (185), "Bolşevik mətbuatına görə Türkiyə" (346), "Azərbaycan həyat və mətbuatından" (348), A.Battal ("Beynəlmiləl həyatdan" (309), C.Seyid Əhməd ("Qızıl istila" (339), "Vətəncüda bizlər - qardaş Türkiyədə" (340) öz məqalələrində rəngarəng mövzulara toxunur, dərin təhlillər aparır, mülahizələr yürüdür, fakt və hadisələrə münasibət bildirir, nəzəri çəkən nəticələrlə bəhs etdikləri məsələ ətrafında rəy yaradırdılar. Sətirlərindən od-atəş püskürən müəlliflərin yazıları dövrün tarixini araşdıran mütəxəssislər üçün faydalı mənbədir.

"Şimalın qudurmuş qan və vəhşət dalğası 27 apreldə türkün mübarək və mamur (gözəl mənasında - A.T.) yurdlarından birisini də istila etmişdir. ...27 Aprel işğalı hər şeydən ziyadə istiqlal qılıncını yenidən atəşdən, qandan keçirərək hazırlayır. 27

Aprel vəhşəti hər şeydən ziyadə əyilməyən türk başına, alçalmayan türk alnına, titrəməyən türk imanına yalnız daha yüksək şərəf verməklə qalmır: onu tarixə daha layiq bir ruhla, istiqbalına büsbütün hakim olacaq bir surətdə hazırlayır və yüksəldir" (339).

Müəllif bədii publisistikanın gücündən və imkanlarından bacarıqla, məharətlə istifadə edərək, oxucunun gözü qarşısında vətənin azadlığı uğrunda mübarizə aparan canlı mücahid obrazını yaratmışdır. O, istilaya məruz qalmışdır, lakin sınmamışdır, ruhən azaddır, mübarizdir, növbəti döyüşə hazırlanır. Bu ruh "Odlu yurd"un bütün yazılarına hakimdir. Başqa bir yazıda oxuyuruq: "Hər bir azərbaycanlı bu tarixi düşməni tanıyır. Namuslu bir fərd yoxdur ki, 27 Aprel fəlakətini unuda bilsin. Rusiya 27 Aprel zərbəsilə Azərbaycan həyatını əbədiyyən məhv edə bilmədi. Qızıl Rusiya bu təcavüz siyasəti ilə qafqazlıların gözünü açdı və bununla özünün Qafqaz dağları arxasına atılacağı böyük günün müvəffəqiyyətini təmin etmiş oldu. Bəli, hərəkətlərini əvf etməyəcək bir kinlə edama aparılan azərbaycanlıların milli şüurunu şiddətləndirdi. Sabah qəhrəman bir həmlə ilə qalxacaq Vətən, Moskva istilası haqqında qəti və son hökmünü verəcəkdir" (105, 1930, №14, 27).

"Istiqlal"da mühacirliyin təbiətindən irəli gələn obrazlı-ehtiraslı mühakimələr, müdrik, həzin düşüncələr, kövrək duyğularla zəngin yazılar çoxdur. Lakin əqidə, məslək və istiqlal uğrundakı mübariz ruhlu, sərt və kəskin xarakterli məqalələr üstünlük təşkil edir. "Gecikmiş tənqid" (75, 1932, №2) adlı yazı bu qəbildəndir. Müəllif yazır ki, milli nəşrlərimizi izləyənlərə bəllidir ki, iki il əvvəl qırmızı və ağ ruslar ağız-ağıza verərək panturanizm təhlükəsindən bəhs edirdilər. Onlara, o cümlədən Zarevandın "Türkiyə və panturanizm" adlı qərəzli kitabına M.Ə.Rəsulzadə "Panturanizm" risaləsi ilə layiqli cavab verdi. Məqalədə deyilir: "Müəyyən siyasi bir məqsədlə üfürülərək, uçurulmaq istənən bu demaqoqluq balonu Rəsulzadə Əmin bə-

yin "Panturanizm" əsəri ilə partlamış, demaqoqların bütün hiylə və yalanları üzlərinə çırpılmış və hamısı susdurulmuşdur. Diqqət çəkən bir sükut". İlk baxışda elə təsəvvür yaranırdı ki, bu mövzuda iqtidardakı qırmızılarla müxalifətdəki ağların söz birliyi, həmrəyliyi var, ikisi də susurdu. Amma bu vəziyyət uzun sürmədi. "Nəhayət, qızıl ruslar bu sükutu pozdular, azərbaycanlı bolşeviklərdən azərbaycanlıların təbirincə desək, Mustafa Quliyevin "ipini buraxaraq meydana atdılar". Moskvanın tapşırıqlarını yerinə yetirən M.Quliyev "Kommunist" qəzetində (1932, №199, 201, 202, 1931) M.Ə.Rəsulzadəyə "adi küçə təbirləri ilə" cavab verdi. Müəllif M.Quliyevin cavabının, üslubunun kommunistlərə yaraşan, onlara xas üslub olduğunu yazır və təəssüflə, "utanım sənin yerinə" - deyir. O, M.Quliyevin erməni məsələsində, xüsusilə daşnaklara münasibətində yanlışlıqlara yol verdiyini, M.Ə.Rəsulzadənin fikirlərini isə addımbaşı təhrif etdiyini yazır.

"İstiqlal"ın elə həmin nömrəsində dərc olunmuş "Bolşevik ədiblərinin "hücüm"u" adlı yazı da eyni ruhdadır. Azərbaycan Yazıçılar İttifaqının "Ədəbiyyat cəbhəsində" adlı məcmuəsinin adı dəyişdirilərək "Hücum" olmuşdur. Məqalə müəllifi məcmuənin və əməkdaşlarının hücuma keçdikdən sonrakı ədəbi mühiti və mənzərəni dərindən təhlil edir, müvafiq nəticələr çıxarır, bolşeviklərin ədəbiyyat, mədəniyyət və məfkurə sahəsindəki təhlükəli siyasətini ifşa edir.

"Ştalin və bərbərlər" (75, 1932, №4) adlı felyetonun süjeti sadə və maraqlıdır, eyni zamanda toxunulan məsələyə müəllifin münasibəti və müdaxiləsi ilə yadda qalır. Adi məişət-xidmət məsələsindən bütöv bir rejimin, onun ideologiyasının çürüklüyünün ortaya qoyulması üçün məharətlə istifadə olunur. Müəllif felyetonu cəlbedici təsvirlə başlayır: "Başlığı görüb heyrət etməyin, diktator Stalinlə bərbərlərin nə münasibəti-deməyin. Sovet mətbuatına görə, münasibət varmış. Həm də necə!....Siyasi. Hər kiçik bir hərəkətdə bir cəhət, bir rəng arayan və tapan bolşeviklər niyə bərbərlərin fəaliyyətində siyasi rəng tapmasın?!". İstehza və ironiya ilə dolu cümlələr 30-cu illər Sovet cəmiyyətinin repressiyalar, sürgünlər, təqiblər və təzyiqlərlə dolu mövcud mənzərəsini əks etdirir. Kim səsini çıxarırsa, arzuolunmaz hesab edilərsə, mövqeyindən, yaşından, təhsilindən, cinsindən, hətta bu vaxta kimi olan xidmətlərindən asılı olmayaraq, cəza aparatı işə düşür: şərlənir, həbs olunur, cəzalandırılır.

Kəskin olduğu qədər də maraqlı tərzdə təqdim edilən felyetonda göstərilir ki, sənaye və kənd təsərrüfatı sahəsində planların yerinə yetirilmədiyini görən Stalin nöqsanların aradan qaldırılması üçün 6 maddədən ibarət direktiv imzalamışdır.

Azərbaycan bolşevikləri neçə müddətdir ki, bu göstərişin icrası ilə məşğuldur. Felyetonda oxuyuruq: "İndi, Azərbaycanda 11 illik bolşevik hakimiyyətindən sonra kommunizmin xalq arasında nə dərəcədə yerləşdiyini və bolşevik direktivlərinin necə anlaşaraq tətbiq edildiyini görək. Bununla da, Stalinlə bərbərlər arasında siyasi münasibəti görmüş olacağıq".

Müəllif buradan məharətlə mətləbə keçir. Göstərir ki, Ağdam rayon kommunistlərinin orqanı olan "Kolxozçu" qəzetində xəbər verilir ki, Qaryagin şəhərindəki bərbərlər artelində çalışan bərbərlərin hər birisi bir təraşı iki saata qurtarırlar. "Kolxozçu" yazır ki, görünür, burada çalışanlar Stalin yoldaşın göstərişindən xəbərsizdilər, ya da ki, onlar inqilab əleyhdarıdırlar.

Felyeton müəllifi "Kolxozçu"nun bu qənaətinə acı təəssüf edir və Stalinlə bərbərlər arasında siyasi əlaqə və münasibət tapan müxbiri qınayır, kinayə ilə qeyd edir ki, axtaran tapar, qəzetçi axtarmış və tapmışdır.

Felyetonda bir tərəfdən "inqilab əleyhdarı" axtarışına çıxan "Kolxozçu", onun müxbiri, digər tərəfdən, Stalin, onun sərsəm planları və ona qeyd-şərtsiz itaət edən Azərbaycan bolşevikləri tənqid, ifşa hədəfidir.

Felyeton müəllifi bütün bunlarla kifayətlənmir. O, məsələyə daha geniş aspektdən baxır, bu zaman ideyalar, dünyabaxışlar

arasında sərt, barışmaz, mübarizə bütün çılpaqlığı ilə ortaya çıxır. Müəllif Şimali Qafqaz Kommunist İnstitutunda tələbələr arasında keçirilən sorğunun nəticələrini xatırladır. Həmin sorğu zamanı tələbələr adi suallara belə cavab verə bilməmişlər. Müəllif nəticə çıxarır: Rusiyadakı məhkum millətlər ötən on ildə sovet rejimini, kommunizm ideologiyasını belə və bu qədər mənimsəyə bilmişlər.

"İstiqlal"ın bu cür barışmaz, amansız mövqeyini əks etdirən tənqidi yazıları ilə yanaşı tənbeh edən, bir qədər də yumşaq desək, tərbiyə edən, insanların qəlbinə və beyninə təsir göstərərək onlarda vətənpərvərlik, milliyyətpərvərlik hisslərini alovlandıran məqalələr də çoxdur.

"Kiçik Yan" (75, 1932, №1) bu qəbildəndir. Təhkiyə üslubu ilə təqdim olunan maraqlı və ibrətamiz yazıda müəllif göstərir ki, Varşavada kirayə etdiyi evin sahibigilə gələn qonaqlardan kiçiyi pul kolleksiyası üçün ondan xırda türk lirəsi xahiş edir. Kirayənişin mühacir-müəllif uşağa pul verir və ondan yaşını, adını soruşur. Uşağın 11 yaşı, adının da Yan olduğunu bilən müəllif yarızarafatla:

"- Yan Sabeskimi?"- soruşur.

Bu sözlərdən sonra söhbət qızışır:

"-Yox, dedi. Mən Sabeski ola bilmərəm! O, böyük adamdır.

- Sabeski kimdir və nə üçün böyükdür? - deyə söruşdum".

Kiçik Yan Sabeskinin polyakların milli qəhrəmanı olduğunu, türklərə qarşı hərb etdiyini söyləyir və əlavə edir:

- ... Varşavada Yan Sabeskinin bir abidəsi də var. At üstündə durur, ayaqları altında bir türk inildəyir".

Sonrakı söhbətdən məlum olur ki, kiçik Yanın türklər haqqında bildikləri bununla məhdudlaşmır, o hətta polyaklar arasında "Türk süvarisi nə zaman atına Visladan su içirərsə, o zaman Polşa təkrar müstəqil olacaq" kimi məşhur ifadəni də bilirmiş! İlk baxışda elə gəlir ki, müəllif məqsədinə çatmışdır. Yəni oxucuya böyüməkdə olan nəslin tərbiyəsi, dünyagörüşü və düşüncə tərzi haqqında kifayət qədər məlumat vermişdir. Heç demə, məqsəd yalnız bundan ibarət deyilmiş. "İstanbuldakı mühacir türk nəşrlərinin bağlandığını eşidəndə ixtiyarsız kiçik Yanı xatırladım. Çox yazmaq istəmirəm, nöqtə!" deyən müəllif əslində elə çox mətləblərə toxunur və təəssüflənir.

"Sibiriya məhkumları" (75, 1932, №5) adlı yazı "Azərbaycandan məktub" rubrikası altında "Daş Dəmir" imzası ilə verilmişdir. Bu yazını Türküstana, Sibirə və ondan da o taya sürülən azərbaycanlıların acı taleyi haqqında kədərli bir dastan da adlandırmaq olar. "Qafqazın Gürcüstan sahillərinə Qara dənizlə Qərbdən dolu gəmilərin yaxınlaşdığı və Şimaldan Azərbaycana dolu qatarların gəlməkdə davam etdiyi bir sırada, Qafqazın Şərq qismində, Xəzər sahillərindən Türküstana doğru tıxılı-təpili gəmilər uzaqlaşmaqdadır. İlk baxışda insan zənn edər ki, bu gediş-gəliş iqtisadi inkişafın, beynəlmiləl əlaqələrin əsəridir. Xəyala elə gələ bilər ki, Şərqlə Qərbi Avropanın, Cənubla Şərqi Avropanın arasında tarix boyu bir tranzit yolu təşkil edən Qafqasya, xüsusilə Azərbaycan yenidən canlanmış, bu gun hər gün Bakıya yaxınlaşan, Bakıdan uzaqlaşan dolu gəmilər, qatarlar Avropadan Türküstana, İrana, Əfqana, hətta Hində, Çinə və o yerlərdən də Şərqi və Qərbi Avropaya mal nəql edilir". Təsvir olunan mənzərə - dolu qatar və gəmilərin hərəkəti göz önünə gəlir, canlı bir səhnə yaranır. Müəllif qatarların da, gəmilərin də yüklü olduğunu qeyd edir. Amma bu yüklər "başqa növ" yüklərdir. Azərbaycandan Şimal və Qərbə yollanan qatarlar bu ölkənin nefti, pambığı, yunu, balığı, heyvanı, inəyi, dəmiri, duzu ilə doludur. Azərbaycana gələn qatarların "malı" fərqlidir: onlar Batuma Qərbdən gətirilən erməni mühacirləridir ki, Azərbaycanın qərbi ilə Gürcüstanın cənub vilayətlərində yerləşdirilir. Bu qatarlar Şimaldan da rusları Azərbaycana daşıyır.

Bakıdan uzaqlaşan gəmilər isə Azərbaycan kəndlisini dəstə-dəstə Sibirə nəql etməkdədirlər. Bunlar qocalı-cavanlı Sibir məhkumlarıdır ki, insanın şəxsiyyət və hürriyyətini, mülkiyyət

və istiqlalını əlindən alan istila qüvvəsinə qarşı üsyan etmişdir. Müəllif məmləkətdə insanların "hürriyyət və mədəniyyəti müdafiədə israr etdiyinə", "rus müjik bolşevizminin zorla, silah gücünə qəbul edilməsinə qarşı" çıxdığına görə cəzalandırıldığını qeyd etməklə kifayətlənmir, onun işgəncələrlə dolu sonrakı taleyini də izləyir.

Məlum olur ki, sürülənlər daxmalarda yaşayır, acından, susuzluqdan qırılırlar. "Bunlar hələ nisbətən mülayim iqlimli yerlərdə olanlardır. Daha Şərqdə və Şimalda, Baykalın ətrafında olanların, Kamçatkada inləyənlərin, qütbə yaxın Arxangelsk ilə buzlu Şimal dənizi adalarında çürüyənlərin halını təsəvvür etmək, çətin olmasın gərək". Sayı on mini ötən, müxtəlif istiqamətlərdə sürülən azərbaycanlıların bir adı var: Sibir məhkumları. Müəllifin qənaətincə, faciə və işgəncələrə məruz qalan azərbaycanlıların bu vəziyyətinə görə, Moskva ilə yanaşı seyrçi, müşahidəçi və icrası Azərbaycan bolşevikləri də məsuliyyət daşıyır.

Müəllifin gəldiyi nəticə, maraqlı və ümidverəndir. "Rus çar istibdadını yıxan Sibir siyasəti deyildimi? Rus bolşevik istibdadını da yenə Sibir siyasəti yıxacaqdır. Buna şübhə yoxdur". Şübhəsiz, burada "Sibir siyasəti" ifadəsi ilə bolşevizmin insanların azadlığının əlindən alınmasına yönəldilən bütün tədbirlər nəzərdə tutulur.

M.Ə.Rəsulzadənin vəfatı, az sonra M.B.Məmmədzadənin Almaniyaya köçməsi və bir müddət sonra onun da vəfatı (1959-cu il) heç şübhəsiz, "Azərbaycan" jurnalı, ümumiyyətlə, istiqlal hərəkatı üçün böyük itki idi. 19 fevral 1956-cı il tarixdə Azərbaycan Kültür Dərnəyinin Ankaradakı mərkəzində keçirilən 8-ci konqresinin materiallarında göstərildiyi kimi, "şübhəsiz, Emin bəyin vəfatı və ikinci böyük arkadaşımız sayın Mirzə Balanın daha mühüm bir vəzifə ilə Münhenə getməsi nəticəsində "Azərbaycan" dərgisi bir xeyli sarsılmışdır. Fəqət, arkadaşımız Mirzə Balanın dərgimizdə əskisi kimi, bundan sonra da müntə-

zəm iştirak edəcəyinə dair vədini almış olduğumuzdan və digər arkadaşlarımızın da nəşrimizi sözsüz dəstəkləyəcəklərindən əmin olduğumuzdan bu sarsıntını rahat keçirəcəyimizə ümid edirik (12, yanvar-fevral 1956, №10-11 (46-47). Jurnalın sonrakı illər fasiləsiz nəşri göstərdi ki, onların silahdaşları və yetirmələri eyni əzm və iradə ilə öz mücadilələrini davam etdirə bilmişlər.

Mustafa Haqqı Türkəqul publisistikasının əsas mövzusu Azərbaycan musiqisi, onun tarixi, inkişafı mərhələləridir. Lakin istedadlı qələm sahibi musiqiyə xalqın tarixindən, onun həyat və düşüncə tərzindən kənar sənət növü kimi yanaşmır, əksinə, o, musiqini xalq tarixinin bir parçası hesab edir. M.H.Türkəqulun "Azərbaycan"da bu mövzuda dərc olunmuş məqalələrindən "Azərbaycan musiqisi" (638), "Azərbaycan musiqisinin beşiyi Qarabağ" (641), "Azərbaycan istiqlalı və musiqisi" (652), "Koroğlu" ilk dəfə necə təmsil edildi" (649) söz açmazdan əvvəl, qeyd etmək yerinə düşərdi ki, Mustafa Türkəqul Ankaradakı Azərbaycan Kültür Dərnəyinin fəal üzvü kimi müxtəlif mədəni-kütləvi tədbirlərdə, konfranslarda Azərbaycan musiqisini təbliğ edir, onun tarixi, gözəllikləri, özünəməxsus xüsusiyyətləri haqda bilgilər verirdi. M.H.Türkəqulun bu mövzudakı məqalələri indi də maraq doğurur, diqqət çəkir. "Azərbaycan musiqisi" adlı məqalədə müəllif yazır: "Babalarımız "musiqi ruhun qidasıdır" demişlər. İnsanların gündəlik həyatında havaya, suya, qidaya ehtiyacı olduğu kimi, ədəbiyyat, incəsənət və musiqiyə də ehtiyacları vardır. Musiqi acının və düşüncənin tərcumanı olduğu qədər, nəşənin və sevginin də tərcumanıdır".

M.H.Türkəqul musiqi ilə bağlı söylədiklərini əsaslandırır, oxucunu inandırır. (O, musiqiyə dair ingilislərin atalar sözünü misal gətirir, alman filosofu Kanta müraciət edir, qədim yunan filosofu Əflatunun məşhur "idman bədən üçün nə isə, musiqi də ruh üçün odur" deyiminə istinad edir. Bütün bunlara görə, M.Türkəqul oxucunun nəzərində təkcə musiqi tədqiqatçısı kimi

yox, həm də kamil publisist kimi qalır. O yazır ki, Azərbaycanın millətçi şair və dramaturqu mərhum Cəfər Cabbarlı "ney çalınarkən, ölülərin dirilmədiklərinə təəccüblənirəm" - deyə musiqinin qeyri-adi qüdrətinə işarə vurmuşdur. İstedadlı qələm sahibi daha sonra qəzəlxan Əliağa Vahidin irsinə müraciət edir. O, musiqi ilə əlaqədar söylədiyi fikirləri ifadə etmək üçün musiqi qədər zərif, ruh oxşayan kövrək mənbələrdən sitat gətirir, incə, təravətli, oynaq sözlər seçir.

M.Türkəqul musiqinin faydasından bəhs etməklə kifayətlənmir, onun yaranma tarixi, səbəbləri, inkişaf yolları haqqında fikir və mülahizələr söyləyir. Qeyd edir ki, musiqinin tarixi bəşər tarixi ilə bir başlayır. İbtidai insanlar öz hiss və həyəcanlarını rəqslə ifadə etmişlər, daha sonra söz sənəti meydana çıxmışdır ki, bu da duadan yaranmışdır. Arxeoloji qazıntılar qədim yunanların, misirlilərin, şumerlərin, çinlilərin yüksək musiqi mədəniyyətinə sahib olduqlarını təsdiqləyir. Məqalə müəllifi daha sonra qədim əsatir və əfsanələrdə musiqi ilə bağlı səhnələrdən sitatlar gətirir.

Türk musiqi tarixindən bəhs edən müəllif qədim Çin mənbələrinə, prof. Fuad Köprülüyə, fransız alimi Lois Lolaya, IX əsrin ən böyük musiqi ustadı, Azərbaycan türkü Əbdülqadir Marağalıya, prof. Ziya Göyalpa istinad edərək, Azərbaycan türk musiqisinin özəlliklərindən ətraflı söz açır, islamiyyətin qəbulundan sonra musiqimizin də ümumi islam mədəniyyəti içərisinə girdiyini, qismən ortaq musiqinin yarandığını qeyd edir.

M.Türkəqul Azərbaycan musiqisini tarix, texnika, çalınış və söylənış baxımından üç qrupa bölür: xalq musiqisi, klassik musiqi və modern musiqi. Klassik Azərbaycan musiqisi kimi muğamlar və muğamatların rənglərindən bəhs edən müəllif bəzi tədqiqatçıların bu musiqinin farslardan götürülməsi barədə mülahizələrini faktlarla təkzib və rədd edir. O yazır: "... muğam türklərin, ərəblərin və farsların müştərək malı olmaqla bərabər, Azərbaycan türkləri muğamı inkişaf etdirmiş, gözəlləşdirmiş,

buna bir çox gözəl məqamlar əlavə etmişlər. Məsələn, "Orta segah", "Yetim segahı", "Mirzə Hüseyn segahı", "Qarabağ şikəstəsi", "'Kərəmi", "Koroğlu" və s. sırf Azərbaycana xas olan muğamlardır". Azərbaycan muğamlarının fars muğamlarından fərqli olaraq oynaq, lirik və mürəkkəb olduğunu yazan müəllif fikirlərini əsaslandırır, daha sonra klassik musiqimizin əsasən 12 muğam üzərində qurulduğunu qeyd edir.

M.H.Türkəqul bir sıra tədqiqatçıların muğamların ifa edildiyi tar və kamançanın farslara məxsusluğu barədə iddialarının da yanlış olduğunu göstərir. O yazır: "Bu iddianı qəbul etməməklə bərabər, deyə bilərik ki, biz bu alətləri, xüsusilə tarı İrandan almış olsaq belə, bunlar İranda bəsit qaldığı halda, Azərbaycanda inkişaf etdirilmiş və mükəmməl bir alətə çevrilmişdir. Yox, əgər İran bizdən almış isə, o halda tar orada inkişaf etməmiş, tamamilə bərbad vəziyyətə salınmışdır. Zira Azərbaycanda tar 12-14 telli və müntəzəm pərdəli olduğu halda, İranda 6 telli və qeyri-müntəzəm pərdəlidir". M.Türkəqul tarzən və xanəndələrdən Sadıqcan, Qurban Pirimli, Cabbar Qaryağdıoğlu, Mirzə Hüseyn, şəkili Əli Əsgər, Keçəçi oğlu Məhəmməd, Məhəmməd Fərzəli, Seyid Şuşalı, İslam Şuşalı, Xan Şuşalı, Həqiqət xanım, Cahan xanım Talışlı və s. kimi sənətkarların muğamı özünəməxsus tərzdə tərənnüm etdiklərini yazır.

O, daha sonra Azərbaycan klassik musiqisinin inkişafında, yeni mərhələyə qədəm qoymasında, klassik musiqi ilə xalq musiqisinin sintezində, xalq çalğı alətlərinin təkmilləşdirilməsi sahəsində böyük Ü.Hacıbəylinin misilsiz xidmətlərindən, C.Cabbarlının "Qız qalası" poeması əsasında Əfrasiyab Bədəlbəylinin eyni adlı balet yazmağından ətraflı söz açır, Müslüm Maqomayev, Asəf Zeynallı, Səid Rüstəm, Cahangir Cahangirov, Fikrət Əmirov, Qara Qarayev kimi bəstəkarların uğurlarından bəhs edir.

Klassik musiqidən ilhamla, eyni zamanda bir professional kimi söz açan M.Türkəqul xalq və modern musiqidən də geniş

bəhs edir. M.H.Türkəqulun "Azərbaycan musiqisinin beşiyi Qarabağ" adlı məqaləsi (641) Qarabağın, xüsusilə Şuşanın musiqi mərkəzinə çevrilməsi ilə bağlı maraqlı mülahizələri ilə yadda qalır. Özü də bu fikirlər fərziyyə yox, faktlarla əsaslandırılan tutarlı, dolğun mühakimələrdir. Müəllif bir çox mötəbər mənbəyə, o cümlədən prof. Zəki Vəlidi Toğanın "Ümumi türk tarixinə giriş" adlı kitabına, "İslam ensiklopediyası"na (Mirzə Balanın "Qarabağ" məqaləsi), digər məxəzlərə müraciət edir, mədəniyyət beşiyi Şuşanın və ümumiyyətlə, Qarabağın tarixi, yetişdirdiyi böyük simalar barədə qürurla söz açır.

"Azərbaycan istiqlalı və musiqisi" adlı məqaləsi ilə (652) Mustafa Həqqi Türkəqul əvvəlki yazılarında olduğu kimi, yalnız musiqişünas deyil, həm də istiqlal uğrunda mübarizə aparan publisist-mücahid kimi çıxış edir. O, Azərbaycan türklərinin yüz ilə yaxın bir zaman içərisində rus imperialistlərinə qarşı ictimai-siyasi, iqtisadi və mədəni sahədə uzun və çətin bir mübarizə apardıqdan sonra 28 May 1918-ci ildə Şərqdə tam demokratik əsaslara dayanan ilk cümhuriyyəti qurmağa nail olduqlarını və bu hökumətin qısa müddətdə bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də uğurlu islahatlar həyata keçirdiyini göstərir. "Bir millətin mədəniyyətində başlıca amillərdən biri də onun musiqisidir" - yazan M.Türkəqul milli hökumət zamanı bu sahənin inkişafına xüsusi diqqət, qayğı göstərilməsindən bəhs edir. 1918-ci il 31 Mart qırğını zamanı vəhşi ermənilər insanların qanını içməklə kifayətlənməmiş, bir çox tikililər kimi Bakıdakı teatr binasını da yandırmışdılar. O zaman milli hökumət indiki Opera Teatrının binasını satın alaraq, dram və opera teatrlarını orada yerləşdirdi. Böyük bəstəkar Ü.Hacıbəylinin, Müslüm Maqomayevin, Zülfüqar Hacıbəylinin opera, operetta və b. əsərləri uğurla ifa olundu, "Övraqi nəfisə" adlı mədəniyyət jurnalı nəşrə başladı. M.Türkəqul acı təəssüflə bildirir ki, 27 Aprel 1920-ci il istilası milli hökumətin islahatlarını yarımçıq qoydu. Sovet rejimi dövründə milli musiqi də təcavüzə məruz qaldı, rejim musiqi alətlərini, klassik və xalq musiqisini qadağan edən addımlar atdı. Bütün bunlara baxmayaraq, böyük Ü.Hacıbəyli başda olmaqla, milliyyətçi Azərbaycan bəstəkarları nəinki musiqimizi məhv olma təhlükəsindən xilas edə bildi, hətta onun inkişafına da nail oldular.

"Azərbaycan"ın ilk illərində onun aparıcı yazarlarından sayılan M.H.Türkəqulun məqalələrinin əsas mövzusu musiqi olsa da, onun sonrakı yaradıcılığı yeni çalarla zənginləşir, daha böyük maraq və əhəmiyyət kəsb edirdi. Bu mənada müəllifin "Koroğlu" ilk dəfə necə təmsil edildi" (649) məqaləsi diqqəti çəkir. Burada o Azərbaycan klassik musiqisinin yaradıcısı, bütün zamanlarda xalqımızın fəxr edəcəyi korifeyi Ü.Hacıbəylinin həyat və yaradıcılığının bəzi məqamlarına nəzər salır, "Koroğlu" operasının səhnə taleyini, uğurlarını işıqlandırır. Məqalə 30-cu illər Azərbaycan tarixinin tədqiqi və dəyərləndirilməsi baxımından da maraq doğurur. Müəllif yazını belə başlayır: "1937. Məşhur "təmizləmə" ili. Azərbaycan tarixinin ən qara günlərini yaşamaqdaydı. 17 ildən bəri məmləkətdə hakim olan istilaçılar hər cür təzyiq, qətl və soyğunçuluqdan əl çəkməmiş, minlərcə ziyalıya milliyyətçi damğası vuraraq, amansızcasına məhv etmişlər. Bu gün görüşdüyümüz adam ertəsi gün yoxa çıxır, hər kəs qorxu və tələş içərisində yaşayır. O, günlərdə ən çox təhlükəli durumda olan və hər an məhv edilməsi gözlənilənlərdən biri də böyük bəstəkar Hacıbəyli idi... Üzeyir bəyin çarlıq, sonra da Milli Cümhuriyyət dövrlərindəki milli fəaliyyəti və yaradıcılığı qızıl imperialistlərcə hələ unudulmamışdı". "Azərbaycan milli musiqisinin yaşamasını təmin edən Üzeyir bəy"in əsərləri repertuardan çıxarılmış, yaratdığı Konservatoriyanın müdirliyindən uzaqlaşdırılmışdı.

Müəllif Üzeyir bəyin "təmizləmə" əməliyyatından kənarda qalmasını rejimin təbliğata verdiyi önəm sayəsində mümkün olduğunu qeyd edir. Belə ki, 1937-ci ildə - Azərbaycanda "təmizləmə" bütün qüvvəsi ilə davam etdiyi dövrdə Moskvada Ukray-

na və Gürcüstan respublikalarının sözdə kültür həftəsi keçirilir. Sovet xalqlarının "müvəffəqiyyətlərindən", "milli mədəniyyətlərin inkişafından" dəm vurulurdu. İndi də Kreml bir tərəfdən, illər uzunu minlərcə azərbaycanlı ziyalını məhv etdiyini ört-basdır etmək, digər tərəfdən, sovet sistemi sayəsində Azərbaycan mədəniyyətinin, xüsusilə musiqisinin inkişaf etdiyini bütün dünyaya göstərmək istəyirdi. Odur ki, 1938-ci ildə Moskvada Azərbaycan mədəniyyət həftəsinin məhz Ü.Hacıbəylinin iştirakı ilə keçirilməsi nəzərdə tutulmuşdu. M.Türkəqul bunun səbəbini belə açıqlayır: "Çünki Üzeyir bəyi Azərbaycan musiqisindən, Azərbaycan musiqisini də Üzeyir bəydən ayırmaq imkan xaricində idi. 1937-ci ilə qədər Azərbaycanda Üzeyir bəydən başqa yalnız iki opera müəllifi vardı ki, onlardan biri Müslüm Maqomayev, digəri də türk olmayan Gliyer idi. Yəni mövcud opera əsərlərinin çoxu, eyni zamanda konsert parçaları və xor repertuarı da ümumiyyətlə, Üzeyir bəyin əsərləri idi".

M.H.Türkəqul yazır ki, Ü.Hacıbəylinin məhv olunması fikrindən vaz keçildikdən sonra opera sənətinin şah əsəri sayılan "Koroğlu" əsərinin təmsilinə də icazə verildi. Məqalə müəllifinə "Koroğlu"nun premyerasında iştirak etmək bəxtiyarlığı nəsib olmuşdur. "Bu tədbir 30 aprel 1937-ci ildə Bakının M.F.Axundzadə adına Azərbaycan Opera və Balet Teatrında gerçəkləşdirilirdi. O axşam Koroğlu rolunu Bülbül, Nigarı Gülarə xanım, Həsən xanı Məhəmməd Tağı Bağırzadə, İbrahimi Mustafazadə, Həmzəni Hüseynzadə, Koroğlunun atasını Zülfüqar Sarızadə ifa etdilər. Təmsilin rejissoru Hidayətzadə, rəssamı Rüstəm Mustafazadə, dirijoru bəstəkarın özü idi". Bütün bunları qeyd etdikdən sonra M.H.Türkəqul operanın məziyyətlərindən, səhnə uğurundan geniş bəhs edir və yazır ki, əgər Üzeyir bəy bütün həyatı boyu yalnız "Koroğlu" operasını yazmış olsaydı, yenə o tək bu əsəriylə yüksək sənətkar vəsfini qazanmış olardı. M.Türkəqul məqaləsini belə bitirir: "Istiqlal aşiqi Azəri türklərinin bir simvoluna çevrilən "Koroğlu" əbədiyən yaşayacaq və bizə daim böyük yaradıcısını xatırladacaqdır".

50-ci illərin sonu - 60-cı illərdə və sonralar "Azərbaycan"ın səhifələrində Əbdül Vahab Yurdsevər, İldəniz Qurtulan, Əhməd Qaraca, Müştaq Qarabağ, Əjdər Qurtulan, Səlahəddin Qılınc, Nizaməddin Onk, Teymur Atəşli, Həmid Dönməz, Süleyman Təkinər, Feyzi Aküzüm, Əli Akiş, Kərim Yayçılı və s. kimi qələm sahiblərinin diqqətçəkən məqalələri, bədii əsərləri dərc olunurdu.

"Azərbaycanın" ən fəal yazarlarından olan Əbdül Vahab Yurdsevərin yaradıcılığı çoxsahəli və məhsuldardır. Məqalələrini "Abdul Vahab Yurdsevər", " Ə.Vahab Yurdsevər", "Vahab Yurdsevər", "A.B.Y.", "V.Y." və s. kimi imzalarla dərc etdirən müəllifin ilk yaradıcılığında klassiklərin irsi, onun tədqiqi, dəyərləndirilməsi əsas yer tutur. "Azərbaycan"ın ilk nəşr illərində hər nömrəsində A.B.Yurdsevərin yazısı dərc edilmişdir.

Ə.B.Yurdsevərin Xurşidbanu Natəvan (659), C.Cabbarlı (496), Aşıq Ələsgər (661), Məhəmməd Hadi (663), Abbas Səhhət (664), Qasim bəy Zakir (665), Abbasqulu Ağa Bakıxanlı (666), Məhsəti Gəncəvi (667), Şah Ismayıl Xətai (668) və s. kimi söz ustalarının həyat və yaradıcılığına dair araşdırmaları özünəməxsus yanaşma tərzi, ciddi mühakimələri ilə diqqəti cəlb edir. Xurşidbanu Natəvanın acı, ağır taleyini, onun dəyərli irsini böyük məhəbbətlə qələmə alan Ə.Yurdsevər yazır: "Natəvan Azərbaycan ədəbiyyatında sentimental-romantik şeir üslubunun bariz bir nümayəndəsidir. Şeirlərində incə bir lirizm, dərin və coşqun bir hiss və həyəcan sezilməkdədir. Yanıqlı qəzəlləri bir mərsiyə ruhunu daşımaqdadır. Göz yaşları, həsrət, Tanrıya yalvarmaq, ayrılıq iztirabları, ümidsizlik və şikayət bu şeirlərin başlıca mövzusunu təşkil etməkdədir. Natəvanın şeirlərindəki bu ruh haləti həyatında uğradığı fəlakətlərin nəticəsidir" (659).

Tədqiqatçı haqlı olaraq Natəvanın şəxsi kədər və hüznü ilə yaradıcılığında təzahür edən qəm-qüssəni əlaqələndirir, eyni zamanda bu şeirlərin ədəbi-ictimai yükünü dəyərləndirirdi. Xur-

şidbanu Natəvan həmin dövrdə fəaliyyət göstərən "Məclisi - üns"ün üzvü olmaqla yanaşı, bu poetik məclisə maddi yardım da göstərirdi. Ə.Yurdsevər göstərir ki, Natəvan "şeirdə olduğu qədər rəssamlıqda da" böyük istedad sahibi idi.

Ə.B.Yurdsevərin jurnalın dalbadal 3 nömrəsində verilən "Azərbaycan dram ədiblərindən C.Cabbarlı" adlı tədqiqat əsərində müəllif C.Cabbarlının həyat və yaradılıcığını addım-addım izləyir, əsərlərinin mövzusunu, ideya istiqamətini dəyərləndirir. Ə.V.Yurdsevər C.Cabbarlının "Ədirnə fəthi" və "Trablis müharibəsi" adlı qəhrəmanlıq dastanları üzərində daha çox dayanır. Səbəbi məlumdur: "Cəfərin həqiqi milli idealı və ən səmimi düşüncələri bu iki əsərdə ortaya qoyulmuşdur" - yazan müəllif bu əsərlərin mövzusundan, milli qəhrəmanlarından söz açmaqla fikirlərini əsaslandırır. Və yazır: "Sovet ədəbiyyat kitablarında Cəfərdən bəhs edilərkən bu iki əsərə əsla təmas olunmaz! Səbəbi aşkar deyilmi?!" (660).

Ə.V.Yurdsevər C.Cabbarlının sovet rejimi dövründə amansız təqiblərə, təhqirlərə, təzyiqlərə məruz qaldığını, bütün bu fiziki-mənəvi işgəncələrə rəğmən "Sifarişlə sənət olmaz!" söylədiyini, elə buna görə intihara məcbur edildiyini göz yaşı ilə yazır. O göstərir ki, Cəfərin ölümü ilə bağlı sovetlərin yazdıqları yalan, iftira və riyakarlıqdan başqa bir şey deyldir. Ə.V.Yurdsevər C.Cabbarlını "Azərbaycan dram ədəbiyyatının tacı", "əliqolu sovet zəncirləri ilə sıx-sıx bağlı bir düha", "adını türk ədəbiyyatının qızıl səhifələrinə qeyd etdirmiş şair" deyə xarakterizə edir (660).

İstedadlı tədqiqatçı Ə.V.Yurdsevərin Məhəmməd Hadinin həyat və yaradıcılığı barədə məqaləsi (663) maraqlı faktlarla zəngindir. M.Hadi irsini və şəxsiyyətini böyük məhəbbətlə araşdıran müəllif bu istiqlal şairinin vətən, millət sevgisi ilə dolu şeirlərini yüksək qiymətləndirir.

Ə.V.Yurdsevər təkcə ədəbi simalar, onların irsi haqqında yazmaqla kifayətlənmir, bu sahədə axınlar, cərəyanlar barədə

elmi-nəzəri məqalələr qələmə alırdı. Onun "Azərbaycan" jurnalının 1953-cü il tarixli 5-ci nömrəsində verilmiş "XIX əsr Azərbaycanındakı modern və realist ədəbi cərəyanlar" adlı məqaləsi fikrimizə misaldır.

Ə.V.Yurdsevər ədəbiyyat tarixinin tədqiqi ilə yanaşı digər mövzularda da maraqlı məqalələr yazırdı. Onun "Ərgənəqon bayramı" (658), "Atatürk və xaricdəki türklər" (662), "Təbii bir müttəfiq" (669), "Məhkum millətlər cəbhəsi" (670), "Fikirdə, sözdə, işdə birlik" (671), "21 Mart Qurtuluş bayramı" (672), "23 Aprel Milli hakimiyyət günü" (673), "Demokratların qayə birliyi" (674), "Sovetlərin din düşmənliyi" (676) və s. kimi onlarca məqaləsi Ə.V.Yurdsevərin istedadlı tədqiqatçı, həm də sözün böyük imkanlarından bacarıqla istifadə edən mahir publisist olduğuna dəlalət edir.

Onun "Azərbaycan istiqlal savaşından səhnələr" adlı iri həcmli əsəri həm mükəmməl bədii-publisistik, həm də sənədli-tarixi mənbə kimi dəyərlidir. Memuarın mövzusu müəllifin həyat yolundan, sovet rejiminə qarşı mübarizəsindən, şahidi və iştirakçısı olduğu hadisələrdən götürülmüşdür. Lakin bu, sadəcə bir insanın ömür yolu yox, bir mühacirin istiqlal savaşı haqqında yazılmış dastandır. Burada hadisələr o qədər canlı, obrazlı, dinamik, aydın təsvir olunur ki, oxucu özünü cərəyan edən proseslərdə hesab edir, heç bir şərhə, əlavəyə ehtiyac qalmır. Təhkiyə üsulu ilə qələmə alınan əsərdə müəllif göstərir ki, dostu Kərbəlayı Vəli Mikayılzadə ilə birlikdə istiqlal savaşına qatıldığı üçün 1923-cü ildə üç illik sürgünə məruz qalırlar. Sürgünün bitməsinə bir il qalmış onları saxlandıqları həbsxanadan çıxarıb Yaroslavla, oradan Moskvanın Lubyanka küçəsindəki GPU-nun idarəsinə gətirirlər. Müəllif ilk baxışda adi görünən bu prosesi bütün təfərrüatı və dəhşəti ilə canlandırır. O, dustaqları bir həbsxanadan digərinə keçirmək üçün istifadə olunan maşını belə təsvir edir: "Qara qarğa" qara və hər tərəfi sıx-sıx qapalı bir həbsxana arabasıdır. İçində dəmirdən tabuta bənzər daracıq və

insan boyu yüksəkliyində bir kişilik hücrələr vardır. Qapqaranlıq tabutun içərisində insan haraya, hansı istiqamətdə hərəkət etdiyinin fərqində belə ola bilməz". Müəllif GPU əməkdaşlarının davranışının, rəftarının qeyri-insani olduğunu diqqətə çatdırmaq üçün onların kobudluğunu, sərtliyini xüsusi vurğulayır və yazır ki, bu münasibət bütün sovet həbsxanaları üçün xarakterikdir, lakin GPU-da olduğu kimi, bu dərəcədə heç yerdə ola bilməz. GPU-dakı üzücü sorğu-sualdan heç bir müdafiə hüququ olmayan dustaqlar "Buturki cəza evinə, yoxsa Solovki, Arxangelski, yaxud Uraldakı düşərgələrə göndəriləcəyini düşünürlər". Müəllif yazır ki, başqa ehtimallar - məsələn, qaçmaq haqqında da fikirləşirlər. Buna isə əsas vardı. Hələ Yaroslavlda ikən mərhum Məhəmməd Həsən Baharlının təlimatı və yardımı ilə belə bir təşəbbüs edilmişdir.

Daha sonra müəllif əvvəllər "çeka, sonralar GPU, NKVD və MVD adlandırılan "tehdiş makinəsi'nin cinayətlərindən bəhs edir və yazır ki, taleyin yardımı ilə bu məngənədən qurtulmuş bir insan kimi GPU-nun törətdiyi sayı bilinməyən faciələr haqqında "dünya ümumi əfkarına və insanlığın yüksək məhkəməsinə ərz etmək... hər fərdin müqəddəs bir vəzifəsidir. Bolşevizmi "kütləvi terror rejimi" adlandıran Ə.Yurdsevər onun Lenin və Stalin irsindən qidalandığını yazır . Bolşeviklər dünən olduğu kimi, bu gün də terrordan əl çəkməmişlər. "İkinci Dünya müharibəsindən sonra ağ rus generalları Kutepov və Millerin Parisdən qaçırılmaları, 1941-ci il işğalı zamanı İranda gündüzün günorta çağı Kərbəlayı Vəli Mikayılzadə, Kamal Yılmaz, Möhsün Səlimzadə, Aytək Qunduk və digər bir çox qafqazlı və azərbaycanlıların çalınıb götürülmələri, İskəndər Şeyxzaman (Keykurun), təyyarəçi Sənan kimi digər bəzilərinin də GPU agentləri tərəfindən küçədə və ya evlərində vurulub öldürülmələri, lap bu son aylarda Berlində bir-birini təqib edən terrorlar və bunun kimi yüzlərlə hadisə" rejimin əsl simasını göstərir.

Ə.Yurdsevər əsərində "çeka"nın tarixi, onun yaranması, ilk

dövrdəki fəaliyyəti, törətdiyi cinayətlər, "vəhşət və dəhşətlər" haqqında oxucuya məlumat verərək yazır: "Çeka törətdiyi zülmlər və axıtdığı günahsız qanlara görə daxildə və xaricdə o dərəcə xalqın və dünya ümumi əfkarının nifrətini və hiddətini öz üzərinə çəkmişdir ki, bolşevik diktatorları onun adını tez-tez dəyişməyə məcbur olmuşlar". Müəllif müxtəlif adlar altında GPU-nun inqilabın ilk illərində, xüsusilə kolxoz quruculuğu dövründə və sonralar törətdiyi saysız-hesabsız cinayətlər, onların həyata keçirilməsi üsulları barədə, sovet rejiminə qarşı qaldırılan üsyanlar və itaət etməyənlərə tutulan divanlar, cəzalar, edamlar, sürgünlər barədə təfsilatı ilə bəhs edir. Bu zaman müəllif kimə isə istinad etmir, o hadisələrin içərisindədir: gah həbsxana divarları arasında, gah sürgündə. Müəllif Yaroslavl və Moskvada, Daşkənd və Aşqabadda cərəyan edən hadisələrin canlı iştirakçısıdır.

Müəllifin hər bir fikri fakta, sənədə əsaslanır, o oxucunu düşündürür, onu sovet quruluş və ideologiyasının perspektivsizliyinə inandırır.

Memuar "Azərbaycan"ın 1954-cü ildən başlayaraq 10 ildən də çox müddətdə demək olar ki, hər nömrəsində hissə-hissə çap edilmişdir. Bu əsər həm Azərbaycan tarixini, istiqlalçıların keçdiyi çətin, lakin şanlı, şərəfli yolun tədqiqi, təbliği, həm də Ə.Yurdsevər yaradıcılığını dəyərləndirmək baxımından əhəmiyyətlidir. Memuarın kitab halında nəşri Azərbaycan oxucuları üçün faydalı olardı.

Ə.Yurdsevər publisistikasının səciyyəvi cəhətlərindən biri tutarlı və çoxsaylı faktlardan məharətlə istifadə etmək, oxucunu inandırmaq, düşündürmək və müəyyən məsələ ilə bağlı onda qəti rəy yaratmaqdır.

"Əsir millətlərin dirənişi" (678) adlı məqaləni müəllif "Milli Azərbaycan dövlətinin imperialist qızıl Rusiya tərəfindən istilasının 54-cü ildönümü" ilə əlaqədar qələmə almışdır. Azərbaycan da daxil olmaqla rus boyunduruğunun altında əzilən əsir

millətlərin iqtisadi, siyası və mədəni sahələrdə apardığı şanlı savaşlara nəzər salan müəllif qeyd edir ki, 20 və 30-cu illərdə bu mübarizə daha çox silahlı formalarda həyata keçirilmiş, düşmən ağır itkilər vermişdir, bununla belə, əsir millətlərə də böyük zərbələr dəymişdir: etirazlar bolşeviklərə xas vəhşiliklə qəddarcasına yatırılır, yüz minlərlə insan Çeka məhbusxanalarında sorğu-sualsız güllələnir, ölüm düşərgələrində və zindanlarda çürüyürdü.

Publisistə görə, əsir millətlərin müqavimət hərəkatı daha sonra - İkinci Dünya müharibəsi zamanı özünü Sovet Ordusunu arxadan vurma, kütləvi şəkildə almanlar tərəfinə keçmə və milli legionların təşkili formasında təzahür etdi. Müharibə bitdikdən sonra mücadilə qısa bir müddət ərzində nisbətən passiv xarakter daşısa da, milli mühacirət quruluşları sovet rejiminin gerçək üzü, niyyət və planları haqqında müəyyən ictimai rəy yaratmağa nail olmuşlar.

Ə.Yurdsevərin publisistikası mübariz ruhludur, döyüşkənliyi, cəsarəti ilə diqqəti çəkir. Sovet dövlətinin bütün dünyaya meydan oxuduğu bir dövrdə o yazırdı: "Əsir millətlər deyib keçməyək. Bu müəzzəm insan kütləsi Sovetlər Birliyi deyilən millətlər zindanı əhalisinin yarıdan çoxunu təşkil etməkdədir". Publisist böyük uzaqgörənliklə və inamla bu çoxluğun sovet rejiminin "taleyinin təyinində" rolu olacağını yazırdı. Sovetlər Birliyindəki "müttəfiq" respublikaların öz ordusu yoxdur, deməli, sovetlər öz "müttəfiqlərinə" güvənmirlər. Müəllif Polşa, Macarıstan, Çexoslovakiya, Rumıniya kimi ölkələri "kommunist peyk dövlətlər" adlandırır və yazır ki, onlar da özlərini rus əsarəti altında hiss edirlər. "Və sıyrılıb qurtulmaq üçün dişləri və dırnaqları ilə çırpışıb dururlar. Bəziləri açıqca, bəziləri gizli-gizli". Ə.Yurdsevər 1956-cı il Polşa və Macarıstan hadisələrini xatırlayır. O yazır ki, Sovet Rusiyası xarici düşmənlərə qarşı raket və nüvə silahlarından istifadə edə bilər. Lakin "ayaqlanan əsir millətlərə qarşı yox", əks təqdirdə özü də məhv olar.

Məqalədə Ə.Yurdsevər "məmləkətlərinin hürriyyət və müstəqilliyi uğrunda uzun illərdən bəri yoğun fəaliyyət içində bulunan" mühacirlərin rolunu yüksək dəyərləndirir və əminliklə bildirir ki, əsir millətlərin fəal yardımı və dəstəyi olmadan sovetlərə qarşı mücadilədə uğur qazanmaq olmaz. Müəllif məqaləni heyrətediləcək uzaqgörənliklə bitirir. "Bu dinamit qüvvə, peyk məmləkətlər xalqları ilə birlikdə raketlər və ya klassik silahlardan çox daha üstün dəyərə sahib olduğunu bir gün isbat edəcəkdir!". Tarix Ə.Yurdsevərin dediklərini 15-20 ildən sonra təsdiq etdi. "İnsanlıq üçün utanc qaynağı olan bir problem" (679) adlı yazı nəinki Ə.V.Yurdsevərin yaradıcılığında, eləcə də bütün mühacirət irsində nəzəri çəkən nümunədir: artıq "Azərbaycan istiqlal savaşından səhnələr" kimi möhtəşəm memuar yaradan Ə.Yurdsevər öz qələminin gücünə və istedadına güvənərək son dərəcə ciddi, cəsarətli və analitik bir yazı ortaya qoymuşdur. Burada insan haqları, bununla bağlı beynəlxalq təşkilatların fəaliyyəti, "nüvə silahlarından daha güclü olan propaqanda silahı", onun rolu, Sovetlər Birliyindəki əsir millətlərin iqtisadi, mədəni, mənəvi-milli təzyiqlərə məruz qalması və s. kimi məsələlər tarixi-hüquqi baxımdan qiymətləndirilir, düzgün, aydın elmi-nəzəri nəticələr çıxarılır, "bütün insanlıq üçün daimi utanc qaynağı əsir millətlərin" bugünkü faciəvi durumunun aradan qaldırılması üçün təkliflər dilə gətirilir, vəzifələr göstərilir. Müəllif yazır ki, Sovetlər Birliyində insanın azad danışmaq, yazmaq, oxumaq, yer dəyişmək, iş tapmaq, ibadət etmək, fikir və tənqid söyləmək, siyasi, iqtisadi, ictimai, mədəni sahələrdə təşkilatlanmaq, biznes fəaliyyəti ilə məşğul olmaq və s. kimi hüquqları yoxdur. Yerli xalqların öz tarixi, ədəbiyyat, dil, adət və ənənələrindən uzaqlaşdırılmasına, "tək dövlət, tək dil" düsturunun gerçəkləşdirilməsinə səy göstərilir.

Afrikada müstəmləkəçiliyə son qoyulduğu halda, "qızıl Rusiyada və kommunist Çində daha da sərtləşmiş və qatılaşmışdır" yazan Ə.Yurdsevərin bu məqaləsi bütün bəşəriyyətə, beynəl-

xalq təşkilatlara bir səsləniş, çağırışdır: "onların qarşısı alınmazsa ... dünyada barış və güvənlik qurulmayacaqdır".

Jurnalın həmin nömrəsində Ə.Yurdsevərin bu mövzuya dair daha iki məqaləsi verilmişdir. "Əsir millətlərin həftəsi", "Gelenekləşən həftə". Həmin yazılar "Azərbaycan"ın 1959-cu il nömrələrində də - ABŞ Konqresi və prezidentinin "Əsir millətlər həftəsi" elan etdiyi zaman dərc edilmişdir. Ə.Yurdsevər əsir millətlərin adından yazır: "Biz azadlığa qovuşsaq, bütün bəşəriyyət rahat nəfəs ala biləcəkdir. Əksinə olsa, bizim fəlakətimiz bütün dünyanın fəlakətinə səbəb ola bilər. "İnsan haqları baxımından millətlər arasında fərq qoyula bilməz. Hər millət üçün hürriyyət və istiqlal müqəddəs bir haqdır. Düşmənimiz (Sovetlər Birliyi nəzərdə tutulur - A.T.) müştərək olduğu kimi, mücadiləmiz də müştərəkdir".

Yeri gəlmişkən qeyd edək ki, ABŞ prezidenti D.D.Eyzenhauen 1959-cu ilin 17 iyulunda imzaladığı "Əsir millətlər həftəsi" bəyannaməsində Sovet İttifaqının dünyanın hər tərəfində bir çox millətləri əsarətdə saxladığı, SSRİ-dəki millətləri milli istiqlal haqlarından və fərdi hürriyyətlərindən məhrum etdiyi göstərilir, bütün dünya millətlərinin hürriyyət və istiqlal qazanacaqları günə qədər hər il bu həftənin qeyd olunacağı bildirilir. Azərbaycan mühacirləri bəyannamə elan olunduğu vaxtdan onu alqışlamış, sənədin onların da iradəsini ifadə etdiklərini bəyan etmişlər. Ə.Yurdsevər acı təəssüflə yazırdı ki, biz bu sənəddən də əvvəl bütün insanlığı "bu vəhşət sisteminə qarşı mücadiləyə dəvət edirdik. Bu həqiqətləri İkinci Dünya müharibəsindən sonra da yazdıq və hayqıra-hayqıra söylədik. Duyan və ibrət alan olmadı. Bunun üçündür ki, Avropanın önəmli bir qismi də dəmir pərdə arxasında qaldı. Yenə gerçəkləri gözlər önünə gətiririk. Mədəni və demokratik məmləkətlər yenə qəflət yuxusuna dalacaq olsalar, bu səfər Avropanın qalan qismi də günün birində Sovet tələsinə düşə bilər!.." Sovetlər Birliyinin dünyaya meydan oxuduğu dövrdə - 70-ci illərdə Azərbaycan mühaciri-

nin-publisistinin bu cəsarətli harayını, çağırışını fədakarlıq nümunəsi hesab etmək olar.

Ə.Yurdsevər publisistikası ilə tanış olduqca, elə təsəvvür yaranır ki, bu qələm sahibinin toxunmadığı mövzu, müraciət etmədiyi taleyüklü məsələ yoxdur. Təsadüfi deyil ki, onun yaradıcılığında sovet din siyasətinin tənqidi də mühüm yer tutur. "Sovetlərindin düşmənliyi" adlı yazıda 40 ildən bəri "dini inancları ortadan qaldırmaq üçün əlindəki bütün siyasi, iqtisadi, idari, inzibati və sözdə elm və təhsil vasitələrindən" istifadə edən Kommunist Partiyasının, sovet dövlətinin mənfur siyasəti, onun mahiyyəti açıqlanır, nəticələri göstərilir. Sovet din siyasətinin tarixinə nəzər salan müəllif qeyd edir ki, "başlanğıcda rusluğa xas qabalıq və vəhşətlə cami və məbədlər dağıdılır, yaxud axur, meyxanə, anbar, kitabxana üçün istifadə olunur, din adamlarını kütləvi öldürür, həbsə atır, sürür, hər cür dini kitabları risalə, dərgi və təqvimlərin nəşrini qadağan edir, mədrəsələri qapadır"dı. Bütün bünlar ciddi etirazlara səbəb olur, digər tərəfdən, "dininin əzildiyini görən xalq daha dərin inamla ona sarılırdı". Belə olduqda, Kommunist Partiyası dinlə mübarizədə taktikasını dəyişdi: NKVD bir tərəfdən, din adamlarını təqib edir, digər tərəfdən öz agentlərini dini təşkilatlara salırdı.

Alman faşizmi ilə üzbəüz qalan Stalin yaxşı bilirdi ki, tək kommunizm ideologiyası ilə sovet xalqını hərbə səfərbər edə bilməyəcək. Odur ki, o "dini təşkilatların təkrar qurulmasına müsaidə etdi..." Ə.Yurdsevər göstərir ki, hərb sona yetən kimi, bolşeviklər din üzərinə yenə hücuma keçdilər. Publisist konkret faktlara, qəzet, jurnal materiallarına müraciət edir, sovetlərin din əleyhinə mübarizədə ortaya qoyduqları "dəlilləri", "elmi müddəaları" alt-üst edir və yazır ki, bütün təqiblərə rəğmən din bundan sonra da mübarizələrdən müzəffər çıxacaqdır. "Çünki tarix boyunca heç bir qüdrət dini ortadan qaldıra bilməmişdir. Və Sovet rejimi də buna əsla müvəffəq olmayacaqdır".

Ə.V.Yurdsevər yaradıcılığı mühacirət irsinin ciddi nümunələ-

rindəndir. Onun toplanması, nəşri, daha geniş araşdırılması öz tədqiqatçılarını gözləyir.

"Azərbaycan"dakı maraqlı, problematik məqalələri ilə diqqəti çəkən müəlliflərdən biri də Süleyman Təkinərdir. "Böyük bir inqilabın doğurduğu mutlu bir gün" (617), "Mətbuat həyatında 50 il" (618), "Tarixi bir bayramın ildönümü" (621), "Kültürdə inqilab və Azərbaycan demokratiyası" (458), "Stalinin ölümündən 10 il sonra Azərbaycan" (624) və s. kimi çoxsaylı məqalələrin adından da göründüyü kimi, o, daha çox siyasi-ideoloji mövzularda yazırdı. Bu qəbildən olan materiallar dil-üslub baxımından adətən ağır və mürəkkəb olur. Lakin S.Təkinərin məqalələri sadə, eyni zamanda zəngin, axıcı, canlı dili ilə fərqlənir. "Böyük bir inqilabın doğurduğu mutlu bir gün" adlı məqaləni S.Təkinər belə başlayır: "28 May 1918. Azərbaycan türkünün yaşamağa haqqı və haqlı olduğunu elan etdiyi bir gün... Məhkum bir millətin əsrlik əsarət zəncirlərini qıraraq milli müstəqilliyə sahib olduğu bir gün". Müəllif "istiqlal və hürriyyətə susamış bir millətin" yaratdığı bu demokratik cümhuriyyətin, həm də bütün islam Şərqi üçün bir örnək olduğunu qürurla bildirir. S.Təkinər 20-ci əsrin böyük hadisələrini dəyərləndirmək üçün Avropanın iki-üç əsr öncəki sıyasi durumuna "bir quşbaxışı göz" gəzdirir, millətlərarası münasibətlərin tarixi mərhələlərinə nəzər salır, Fransa və Almaniyada, Avropanın başqa ölkələrində milli hərəkatlar, islahatlar haqqında söz açır. Müəllif daha sonra, "hürriyyətə qovuşmanın başlıca amili olan" Azərbaycan mədəni oyanışına bir təkan vermiş milli istiqlal, milli qurtuluş ideyalarını ortaya atmış və gerçəkləşdirmiş M.F.Axundzadə, S.Ə.Şirvani, H.Zərdabi, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, N.Yusifbəyli, M.Ə.Rəsulzadə və başqa bu kimi tarixi şəxsiyyətlərin fəaliyyətlərini dəyərləndirir.

S.Təkinər "Mətbuat həyatında 50 il" adlı məqaləsində Türk Mətbuat Birliyi Dərnəyinin "gözəl və qədirşünaslıq timsalı" olan bir ənənəsindən-hər beş ildən bir mətbuatda 50 il xidmət

etmiş mühərrirlərə mükafat verilməsindən, 1943-cü, 1948-ci illərdən sonra 1953-cü ildə tərtib olunan "46 qələm ərbabı" sırasında yer almış M.Ə.Rəsulzadənin yaradıcılığından bəhs edir. Məqalədə təqdimat mərasimi, M.Ə.Rəsulzadə ilə bağlı çıxışlar, öndərin məmləkətdə və mühacirətdə nəşr olunan əsərləri, buraxdığı qəzet və dərgilər haqqında da məlumat verilir.

"Tarixi bir bəyanatın ildönümü"ndə S.Təkinər 27 avqust 1918-ci ildə Almaniya və Rusiyanın imzaladıqları ədalətsiz sazişlə bağlı M.Ə.Rəsulzadənin Türkiyədə çıxan "İkdam" qəzetinə verdiyi müsahibədəki kəskin bəyanatdan bəhs olunur. Məlum olduğu kimi, həmin müqavilə Azərbaycanın mənafeyinə zidd olduğu qədər qardaş Türkiyənin də əleyhinə yönəlmişdir.

Tarixi fakt və hadisələri mötəbər mənbələrə istinadən ağlın, məntiqin gücü ilə dərindən araşdırmaq, təhlil, müqayisə etmək, müvafiq nəticələr çıxarmaq S.Təkinər publisistikasının səciyyəvi cəhətlərindəndir. "Kültürdə inqilab və Azərbaycan demokratiyası" adlı məqaləsində müəllif mədəniyyət tarixi, mədəni inqilablar, həmin faktorun milli şüura və hərəkata təsiri barədə yazır və sonra göstərir ki, milli Azərbaycan Cümhuriyyəti mədəni inqilabın məntiqi nəticəsidir. Həmin mövzuya bir qədər başqa prizmadan "İdeyalar, ideologiyalar, ideoloqlar" adlı məqalədə də toxunulur. "Bəşər tarixində gəlib keçən müstəbidlərdən Stalin də... çeşidli cinayətlər və təzadlarla dolu qaranlıq bir dövr buraxaraq, 5 mart 1953-cü ildə bu dünyadan köç etmişdir" cümləsi ilə başlanan "Stalinin ölümündon 10 il sonra Azərbaycan" adlı məqaləsində S.Təkinər iqtisadi, siyasi və mədəni həyatda diqqətçəkən hadisələri göstərir, təhlil edir və onlara münasibət bildirir.

Müəllifin fikrincə, diktatorun ölümündən sonra respublikanın həyatındakı ən böyük dəyişikliklərdən biri "Azərbaycan xalqının mərhəmətsiz cəlladı M.Bağırovun" "cəhənnəmin yoluna boylanması" olmuşdur. Şəxsiyyətə pərəstişin nəticələrini aradan qaldırmaq üçün sovet rəhbərliyinin həyata keçirdiyi tədbirlər

ədəbiyyat, incəsənət sahəsində müəyyən canlanmaya səbəb oldu. İsa Hüseynovun "Yanar ürək", Əli Vəliyevin "Ürək dostları" kimi əsərləri meydana çıxdı. Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq kimi sənətkarlara bəraət verildi. Azərbaycan dili rəsmi dövlət dili elan olundu və s. Müəllif bütün bunları qeyd edir və haqlı olaraq onu da göstərir ki, belə tədbirlər rejimin mahiyyəti və təbiətindən yaranan cinayətləri ört-basdır edə bilməz. Təsadüfi deyil ki, bir müddət sonra rejim əsl simasını təkrar göstərməyə başladı: Moskva Azərbaycan rəhbərliyini cəzalandırdı. Mərkəzin Azərbaycandakı yeni nökərləri də prof. Abbas Zamanov, şair Xəlil Rza, yazıçı Qulu Xəlilov kimi ziyalıları tənqidə, təqibə başladı. S.Təkinər bu məqaləni 50-yə yaxın mənbədən istifadə edərək qələmə almışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, 80-ci illərin sonu - 90-cı illərin əvvəlləri "Azərbaycan"ın nəşr tarixində yeni mərhələdir. Sovet imperiyasında 1986-cı ildən başlanan reformalar - aşkarlıq və yenidənqurma siyasəti cəmiyyətdə yeni cərəyanlar, axınlar və hərəkatlar yaratdı. Azərbaycanda uzun illər ədəbi mənbələrdə, çox vaxt da sətiraltı ifadələrlə pərvəriş tapan, yenidən yetişən, dirçələn milli şüurun tədricən milli-azadlıq hərəkatına çevrilməsi prosesi gedirdi. Mənfur qonşuların - ermənilərin Azərbaycana qarşı torpaq iddiaları, bunun arxasınca 100 minlərlə soydaşımızın Ermənistandan vəhşicəsinə deportasiyası, Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr, erməni terrorları, talanları, vəhşətləri, eyni zamanda Moskvanın ermənipərəst mövqe tutaraq üzdə susması, əməldə separatçıları dəstəkləməsi ölkəmizdə milli-azadlıq hərəkatına təkan verdi, prosesi sürətləndirdi. 1988-89-cu illər hərəkatın ilk və təşkilatlanma dövrü hesab olunur. Bu zaman Azərbaycandakı Moskva nökərləri öz sələflərindən - Ə.Qarayev, M.Bağırov kimi rəhbərlərdən heç nə ilə fərqlənmir, xalqın qanı, vətənin yaraları üstündə öz səltənətlərini qorumaq üçün xəyanət yolunu tutdular. Bundan məharətlə istifadə edən ermənilər rusların himayədarlığı ilə 20 Yanvar 1990-cı il qırğınını, 26 fevral 1992-ci il Xocalı soyqırımını törətdilər. Sovet təbliğat maşını ermənilərə müdafiə edir, azərbaycanlıları günahlandırır, bununla da əsl həqiqəti gizlədirdilər. Xaricdəki erməni lobbisi də beynəlxalq ictimaiyyətdə öz xeyirlərinə ictimai rəy yaratmağa çalışır və istəyinə nail olurdu. İnformasiya blokadasında olan Azərbaycanın haqq səsini hürr dünya eşitmirdi. Bax, belə bir vaxtda təbii ki, mühacirlər, onların nəşrləri susa bilməzdi. "Azərbaycan" jurnalı ölkəmizdə baş verən hadisələri diqqətlə izləyir, dərhal reaksiya verir, beynəlxalq təşkilatları, dünya dövlətlərini haqq işində Azərbaycanı dəstəkləməyə dəvət edir, regiondakı proseslər ətrafında düzgün ictimai rəy yaratmağa çalışırdı.

"Azərbaycan"ın bəhs etdiyimiz dövrünün özəlliklərindən biri də budur ki, əvvəlki illərdən fərqli olaraq redaksiya artıq vətənlə, onun ziyalıları, KİV ilə əlaqə saxlayır, dəqiq, həm də operativ informasiyalar əldə edirdi.

Nəşrin fəaliyyətində canlanma dərhal gözə çarpır: jurnalın həcmi, dövriliyi kəskin dəyişilmiş, materiallar daha maraqlı, oxunaqlı olmuşdur. Azərbaycan Kültür Dərnəyinin və "Azərbaycan"ın təcrübəli əməkdaşları-Məhəmməd Kəngərli, Əhməd Qaraca, Feyzi Aküzüm, Fəxrəddin Gülsevən, Cəmil Ünal, Eldəniz Qurtulan, Əli Akiş və başqalarının cərgəsinə yeni və gənc qüvvələr qoşulmuşdur.

Azərbaycan Milli Mərkəzinin, Azərbaycan Kültür Dərnəyinin keçirdiyi tədbirlərin - simpozium və konfransların materialları "Azərbaycan" jurnalında dərc olunur və böyük əks-səda doğururdu.

"Azərbaycan türkləri erməni-rus oyununu pozdu", "Azərbaycan türkləri ilə maraqlanmağa haqqımız var", "Azərbaycan Milli Mərkəzinin mətbuat konfransı", "Ermənilərin Azərbaycandan torpaq tələbi", "Azərbaycan olayları Türk Ocaqları qurultayında", "Azərbaycan olayları islam ölkələri konfransında", "Qarabağ verilməyəcək!" (12, 1988, №263), "Haqlı mübarizəmizi

kütlələrə çatdırmalıyıq" (12, 1988, №264), "Ermənilər barbarlığını göstərdi", "Azərbaycan türklərinə sahib çıxalım" (12, 1988, №266), "Dağlıq Qarabağda Sovetlərin acizliyi" (12, 1989, №267), "Ermənilərin soyqırım iddiaları və Azərbaycandan torpaq tələbləri" (12, 1975, №215), "Dağlıq Qarabağ məsələsində Sovetlər Birliyinin mövqeyi" (12, 1989, №270), "Perestroyka-qlasnostun Azərbaycan qətliamı və insanlıq" (12, 1990, №271), "Haqsız qan yerdə qalmaz", "Qorbaçov falı" (12, 1990, №272), "Bəzi dost və müttəfiqlərimiz erməni oyununa girərək nifaq toxumu əkməyə başladı" (12, 1990, №273) və s. kimi onlarca məqalə 80-cı illərin sonu, 90-cı illərin əvvəllərində "Azərbaycan"ın mövzusu, məramı haqqında aydın təsəvvür yaradır.

Qars millət vəkili Səbri Arasın Azərbaycanla və xüsusilə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar çoşqun fəaliyyəti "Azərbaycan"ın səhifələrində də gen-bol öz əksini tapmışdır. Onun Böyük Millət Məclisində, müxtəlif tədbirlərdə ölkəmiz və millətimizin haqq işi ilə bağlı kəskin çıxışları Türkiyədə Sovetlər Birliyində gedən tarixi proseslər haqqında düzgün ictimai rəy yaradılmasında mühüm rol oynamışdır. Digər tərəfdən isə, Səbri Aras öz həmvətənlərini və Türkiyə dövlətini Azərbaycan türklərinin haqq işini müdafiə etməyə səsləyirdi: "Susmaq, hadisələri öz axarına buraxmaq, heç bir millətə xeyir gətirməmişdir. Məzlumun yanında olmaq, soydaşlarımızın qarşılaşdıqları haqsızlığa "yox" demək, onların yaşadıqları torpaqlarda xoşbəxt olmasına kömək etmək və bu mövzuda xalqımıza və dünya millətlərinə doğruları duyurmaq bizim vəzifəmizdir.

"Bizi xarici ölkənin daxili işlərinə qarışmaqda günahlandıranlara söyləyirəm: Ermənilər İstanbuldakı erməni məktəblərində şagird sayı azalanda həyəcanlanır, hay-həşir qoparırlar, biz zülmə uğrayan, torpaqları işğal edilmək istənən, şəhid edilən soydaşlarımızın yanında olmamalıyıqmı?" (12, 1988, №263, səh.7).

Ermənilərin soyqırım iddialarının ABŞ Senatında ələ alınması və ermənilərin Azərbaycandan torpaq tələb etməsi ilə bağlı Səbri Arasın 18 oktyabr 1989-cu ildə Böyük Millət Məclisindəki tarixi çıxışı da "Azərbaycan"da dərc edilmişdir. ABŞ və Avropadakı ermənilər müdafiə edən dairələrə xitabən Səbri Aras demişdir: "Əgər ermənilərə torpaq axtarılırsa, dostlarımız ermənilər çox sevirsə, biz də onların gülünc məntiqi ilə yola çıxar və görərik ki, Marseldə, Kaliforniyada, Moskvada, Qarabağ və Naxçıvandan da daha çox erməni var... O zaman gəlin ermənilərin çox olduğu Marseli, Kaliforniya və Moskvanı da Ermənistana birləşdirək" (12, 1988, №270, səh.14).

Azərbaycanda baş verən mühüm hadisələrə dərhal münasibət bildirən Qars millət vəkili Səbri Aras Sovet Ordusunun 20 Yanvar 1990-cı ildə Bakıda qanlı qırğınlar törətməsinə kəskin etirazını bildirmiş və bu faciə ilə bağlı Böyük Millət Məclisində alovlu nitq söyləmişdir. Səbri Aras çıxışında erməni-türk münasibətlərinin tarixinə, ermənilərin haqsız tələblərinə, Moskvanın ikiüzlü siyasət yeritməsinə, ermənilərin silahlandırılmasına nəzəri cəlb etmiş və 20 yanvar faciəsinə görə Mixail Qorbaçovu ittiham etmişdir: "Dünyada sülh mükafatına namizədliyə layiq görülmüsünüz. Nə oldu, erməni daşnakların tələsinə düşdünüz? Maltada beyninizi uyuşdurub gözlərinizi kor etdilər. Nə oldu, sənə Mixail Qorbaçov, nə oldu ki, oz vətəndaşının; dilindən və könlündən hürriyyət və insan sevgisini, "Azadlığ"ı düşməyən Azərbaycan türklərinin üzərinə tankınla, topunla, Qızıl Ordunla getdin, Azərbaycanı qana buladın. Müdafiəsiz uşaqları, qadınları öldürtdün?!". "Dilərəm ki, alnındakı qan ləkəsi daha çox böyümədən məsum insanların, türk və müsəlman olmaqdan başqa günahı olmayan azərbaycanlıların qətliamına "dur" deyəsən, o məsum insanlardan üzr istəyəsən" (12, 1990, №271, səh.11-12).

"Azərbaycan" jurnalı Azərbaycan Milli Mərkəzinin, Azərbaycan Kültür Dərnəyinin, Türkiyədəki dövlət və ictimai təşkilatların ölkəmizlə bağlı tədbirlərini geniş işıqlandırır, Türkiyə

və xarici ölkə mətbuatında Azərbaycanla əlaqədar materialların xülasəsini dərc edirdi.

Azərbaycan Milli Mərkəzi Başkanlıq Divanının 3 mart 1988-ci ildə keçirdiyi mətbuat konfransında Ermənistanın Azərbaycandan torpaq tələbı şiddətlə qınanmış və kəskin rədd edilmişdir. (12, 1988, №263, səh.8).

Azərbaycan Kültür Dərnəyinin Türk Ocaqları ilə birlikdə Ankarada 26 mart 1988-ci ildə keçirdiyi simpoziumda da "Azərbaycan torpaqlarında ermənilərə veriləcək bir qarışın da olmadığı, əksinə, Azərbaycan türklərinin ermənilərdən alacaqları olduqları" bildirilmişdir (12, 1988, №263, səh.16).

Türkiyə mətbuatı Azərbaycanla bağlı müxtəlif mənbələrdən əldə etdiyi materialları dərc edir, araşdırır, münasibət bildirirdi. "Azərbaycan" da öz növbəsində bütün bu informasiyalarla oxucularını məlumatlandırırdı. Amerikanın "New York Times", "Chicaqo Tribune", "Washington Tribune", "Wall Strend", İngiltərənin "The Times", "Daily Telegraph", "Sunday Times", "Guardian", "Observer", Almaniyanın "Frankfurter Allgemeine Zeitung", Fransanın "Le Figaro", "Le Monde", "L'Express", "Le Point", İsveçrənin "Neu Zurcher Zeitunq", Türkiyənin "Tərcüman", "Bulvar", "Milliyət", "Hürriyət", "Cümhuriyət", "Sonhavadis", "Günəş", "Türkiyə", "Zaman", "Sabah", "Milli qəzet" və başqa nəşrlərdə ölkəmizlə bağlı materialları "Azərbaycan" jurnalı "Mətbuatda Azərbaycan olayları mövzusunda dərc edilən məqalə, şərh, reportaj və xəbərlər" adı altında çap etmişdir" (12, 1988, №263, səh. 84-200).

Doktor Məhəmməd Kəngərlinin həyat və fəaliyyəti başdanbaşa istiqlal uğrunda mücadiləyə həsr olunmuşdur. Uzun müddət Türkiyədəki Azərbaycan mühacirlərinin liderlərindən olmuş M.Kəngərli, həm də sanballı, dəyərli əsərlər yazmışdır. Onun "Azərbaycan"da dərc olunan məqalələri, xüsusilə 80-ci illərin sonlarında qələmə aldığı yazılar kəskinliyi, cəsarəti, hərəkətverici, istiqamətləndirici gücü ilə diqqəti çəkir.

M.Kəngərlinin "Sovetlərdə erməni lobbisi" (382), "Ermənistan türk adlarını dəyişdirir" (383), "Dağlıq Qarabağ hadisələri qarşısında Sovetlər Birliyinin tutumu" (384) və onlarca digər yazısını istiqlal mücahidinin, vətəni və millətini sevən mühacirin qəlbi və qələminin tərcümanı adlandırmaq olar.

Əhməd Yaşat və Ə.V.Yurdsevərdən sonra baş redaktor olan Əhməd Qaracanın imzası hələ "Azərbaycan"ın ilk nömrəsindən onun səhifəsində görünməyə başlamışdır. Ə.Qaracanın yazılarının mövzusu geniş olmaqla yanaşı, ciddi, kəskin və maraqlıdır. Əhməd Qaracanın "Ermənilərin Azərbaycandan torpaq tələbi" (418), "Mətbuatda ermənilərə yaşıl işıq yandıran var" (419), "Haqlı mübarizəmizi kütlələrə çatdırmalıyıq" (420), "May ayı duyğuları" (421) və s. kimi publisistik məqalələri, çox sayda şeirləri onun istedadlı qələm sahibi, alovlu mücahid olduğuna dəlalət edir.

Hələ 70-ci illərdə və ondan da əvvəl istiqlal uğrunda mübarizədə qətiyyəti, cəsarəti ilə seçilən Ə.Qaraca yenə mücadilənin önündə inamla irəliləyənlər sırasındadır. Sovet hökuməti 20-ci illərdən Azərbaycan mühacirlərinə qarşı həyata keçirdiyi təqib, təzyiq və terror siyasətini 70-ci illərdə də şiddətlə davam etdirirdi. Mühacirlər isə "hürriyyət və istiqlal mücadilələrini yürütməkdə, 55 ildən bəri apardıqları azadlıq savaşını davam etməkdədirlər. Heç bir güc və qüvvət onları bu haqlı davalarından geri çəkdirə bilməz, kommunist rus imperializmi Azərbaycandan rədd olub gedincəyə qədər mübarizə davam edəcəkdir". Jurnalın 1975-ci il tarixli 215-ci nömrəsində verilmiş "Sovetlər Birliyinin Azərbaycan Kültür Dərnəyinin fəaliyyətindən narahatlıqları" adlı yazıda göstərilir ki, Əhməd Qaracanın "Türkiyə Tribun" qəzetinə yazdığı məqalə SSRİ-nin Türkiyədəki səfirini narahat etmiş və o, münasibətini Türkiyə Xarici İşlər Nazirliyinə bildirmişdir.

Bununla bağlı, Əhməd Qaraca mətbuata bildirmişdir: "Sovetlər Birliyi nə zamandan bəri Türkiyəmizdə yazılan yazılar, söy-

lənən sözləri susdurmaq baxımından özünü yetkili görməkdədir? Biz azad ölkənin azad övladı olaraq kommunist rus imperializminin, Qızıl rus faşizminin insanlığın ən böyük düşməni, dünyanın ən qəddar və ən zalım rejimi olduğunu yazmağa, hayqırmağa, istər Türkiyə və istər dünya ictimaiyyətini bu mövzuda məlumatlandırmağa davam edəcəyik. Rusların istər rəsmi, istər qeyri-rəsmi təhdid, basqı və terrorları bizi şərəfli yolumuzdan yarımçıq-qoyacaq gücdə deyil. Biz vətən Azərbaycanın .... hürriyyət və istiqlal davasını omuzlamış adamlarıq. Bizim savaşımız, bizim mücadiləmiz ən böyük imperialist olan kommunist rus imperializmidir". Belə əqidə sahibi təbii ki, vətənin özündən istiqlal mehi əsdikdə susa bilməzdi...

Azərbaycan Kültür Dərnəyinin fəaliyyətində mühüm xidmətləri olan Feyzi Aküzüm, həm də "Azərbaycan"ın fəal yazarlarındandır. Onun məqalələrinin, rəhbərlik və təşkil etdiyi konfrans və simpoziumların Azərbaycan gerçəkliyi haqqında Türkiyə ictimai fikrində doğru rəy formalaşmasında mühüm rolu olmuşdur. F.Aküzümün "28 May 1918-ci ildə elan edilən istiqlaldan sonra Azərbaycanda baş verən hadisələr" adlı yazısı (285) maraqlı, təsirli faktlarla zəngindir. Burada müəllif 28 may 1918-ci il tarixdə - Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra ölkədə cərəyan edən hadisələrə - milli dövlət quruculuğu sahəsində həyata keçirilən tədbirlərə nəzər salır, Azərbaycanın bolşevik - erməni quldurlarından təmizlənməsindən, Türk ordusunun Bakıda qarşılanmasından, onların şərəfinə H.Cavid, Ə.Cavad, Orxan Seyfi Orxan, Yusif Ziya Ortac tərəfindən yazılan şeirlərdən, Milli Azərbaycan dövlətinin Türkiyə, İran, ABŞ, İngiltərə, Fransa, İtaliya, Polşa və Yaponiya tərəfindən tanınmasından ətraflı bəhs edilmişdir. Müəllifin 1974-cü ildə qələmə aldığı və "Azərbaycan"ın 210-cu nömrəsində dərc etdirdiyi "Kükrəyən istiqlal" məqaləsi Azərbaycana böyük məhəbbət, onun azadlığa qovuşacağına dərin inam hissi ilə qələmə alınmışdır. Bu yazu həm də Azərbaycan mühacirətinin fəaliyyətini,

onun nəşrlərinin tarixini öyrənmək baxımından dəyərlidir.

"Azərbaycan"da Cəmil Ünalın "Erməni məsələsi və Azərbaycan hadisələri" (654), "Azərbaycanın üzü Türkiyəyə tərəf olmalıdır" (655), Əli Akışın "İdil-Ural Qurtuluş hərəkatının ölməz öndəri Ayas İshaki" (280), "Böyük türk-tatar şairi Abdullah Tukayın xalqçılıq və milliyyətçilik cəbhələri" (281), "Bir bilginin ardından" (283), "İnsan haqları və ermənilər" (282), Eldəniz Kurtulanın "Sibir qonaqları" (397), "Azərbaycanlılar və ətrafdakı siyasi vəziyyət" (398), "Azərbaycanın istila ildönümü" (399), "Azərbaycanın istiqlal ildönümü" (399), Əli Volkanın "Böyük öndərin mənəvi hüzurunda" (688), "İstiqlal həyatımızdan bır xatirə" (689), Muştaq Qarabağın "Ulu kişi" (414), "Şəhid məzarında" (415), "Qarabağ verilməz" (416) və s. məqalələri, habelə Səlcuq Alkının, Şükrü Qaya Şəkəroğlunun, Ənvər Arasın, Seyfəddin Altaylının və digərlərinin irsi istiqlal uğrunda ideoloji mübarizə tarixini öyrənmək baxımından diqqəti çəkir.

"Kültürəl əlaqələri daha çox sağlamlaşdırmaq qayəsi ilə" nəşrə başlayan "Azərbaycan" jurnalı əslində bu bayraq altında Azərbaycan xalqının tarixi və taleyi ilə bağlı bütün mövzularda yorulmadan, sınmadan, cəsarətlə və istiqlal gününün gələcəyinə ürəkdən inanaraq yazmışdır. "Azərbaycan" istiqlal məfkurəsini on illər boyu öz səhifələrində yaşatmış, təbliğ etmiş, ona qida vermişdir. "Azərbaycan"ın hər vərəqinə, hər cümləsinə, hər sətrinə milli ruh hakim olmuşdur. Vətənçi, millətçi, istiqlalçı "Azərbaycan" azadlıq aşiqlərinin, mühacirlərin mübarizəsini və əməllərini əbədi yaşadacaq bir dastandır!

Artıq 10 ildən də çoxdur ki, Azərbaycan istiqlalına qovuşmuşdur. İstiqlal aşiqlərinin, mücahidlərin müqəddəs arzusu həyata keçmişdir. Bütün həyatlarını Azərbaycanın azadlığı uğrunda amansız ideoloji-siyasi mübarizəyə həsr etmiş əski mühacirlərin irsi və fəaliyyəti tarixə çevrilmişdir. Lakin Azərbaycan tarixinin ayrılmaz hissəsi olan mühacirət, onun fəaliyyəti, o cüm-

lədən nəşrləri heç vaxt diqqətdən kənar saxlanılmamalı, öyrənilməli, tədqiq və təbliğ olunmalıdır. Mühacirlər, onlarm irsi, mücadilə və həyat yolu gənclərin vətənçi, istiqlalçı, millətçi kimi tərbiyəsində əvəzsiz nümunə, ibrətamiz örnəkdir.

"Milli geyimimiz olmadığından, məcburən sivil geyinmiş bulunan Ənvər Yusufzadə əlində gözəl bayrağımız olduğu halda, Bələdiyyə Sarayının balkonuna çıxdı... Bu durumda biz də göz yaşlarımızı tutamadıq. Bayraqlara baxdım. Daşıyıcıların həyəcanından hamısı titrəyirdi. Bu arada Ənvərin gözlərindən enən yaş damlaları bizim bayrağımızı istladırdı". Bu sətirlər isə Türkiyədə yaşayan mühacirlərimizin buraxdığı aylıq ictimai fikir məcmuəsi olan "Mücahid"in noyabr-dekabr 1961-ci il tarixli 43-44-cü nömrəsində çap olunmuş "Azərbaycan Milli Qurtuluş Birliyi Argentina bayramında" adlı məqalədən götürülmüşdür.

Musa Yusufzadənin qələmə aldığı həmin məqalədən aydın olur ki, Argentinanın böyük şəhərlərindən biri olan Avellanedanın qurtuluş gününə həsr olunmuş şənliklərdə iştirak etmək üçün Azərbaycan Milli Qurtuluş Birliyinə Şəhər Bələdiyyəsi dəvətnamə göndərmişdir. Orada deyilir: "Sizi şəhərimizin bayramına dəvət etməkdən şərəf duyur və bayrama qatılmağınızı gözləyirik. Eyni zamanda milli geyimli bir Azərbaycan gəncinin Başkanlıq balkonunda Azərbaycan milli bayrağını əlində tutmasına icazənizi dilər və tədbirdən sonra sevdiyimiz Azərbaycan bayrağının şəhərimizə hədiyyə edilməsini rica edəriz...

Azərbaycanın bu böyük bayramımıza qoşulması bizi bəxtiyar edəcəkdir.

Başqan: Joze Allona,

Katib: Luis B.Sanata".

Jurnal yazır: "Buanes-Ayresin cənubundakı böyük şəhərlərdən sayılan Avellaneadanın qurtuluş ildönümü münasibətilə keçirilən tədbirlər Azərbaycanın üçrəngli şanlı bayrağının və Azərbaycan Milli Birliyinin bir kəs daha sayğı ilə salamlanmasına və Cənubi Amerikada tanınmasına vəsilə oldu". Maddi çə-

tinliklərə baxmayaraq, qeyd etdiyimiz kimi tədbirdə Azərbaycan öz milli bayrağı ilə ləyaqətlə təmsil olunur. Argentinanın prezidenti və digər rəsmi şəxslər baş əyərək bütün bayraqları - o cümlədən Azərbaycanın üçrəngli ay-ulduzlu bayrağını salamlayır.

"Avelanedadan ayrıldığımız zaman artıq Azərbaycanın şanlı milli bayrağı Bələdiyyə Sarayındakı şərəf salonunda şərəfli yerini almışdı...".

Sovet rejiminin qan-qan dediyi, mücahidləri terrora hədəfə aldığı bir dövrdə istiqlal aşiqləri Azərbaycanın milli bayrağını, hətta uzaq Argentinada dalğalandırır, bununla da haqq səslərini ucaldırdılar.

Bir tərəfdən mövzunun maraqlı olması, digər tərəfdən onun sənətkarlıqla işlənməsi məqaləni daha da dəyərli edir.

"Bütün həyatı boyu kommunizm quruluşunun iç üzünü azad dünyanın azad insanlarına açıb-göstərəmyə çalışan bu böyük hürriyyətsevər insan, tarixdə kommunist Rusiyasından azadlığa qanadlanan ilk azərbaycanlı şəxs... ikinci dəfə keçirdiyi infarktdan əbədi olaraq gözlərini yumdu". Bu cümlə Məmməd Altunbayın (Gəncə, 1911 - İstanbul, 1987) 1987-ci ildə tamamladığı, ölümündən sonra - 1994-cü ildə Bakıda nəşr olunan "Azadlığa uçan türk" adlı əsərinə müəllifin həyat yoldaşı Məlahət Altunbayın yazdığı müqəddimədən götürülmüşdür. Kitabda M.Altunbay özünün uşaqlıq, gənclik illərinə aid xatirələrini, Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Ordusu tərəfindən işğal edilməsi, erməni vəhşiliyi haqqında eşitdiklərini və şahidi olduqlarını aydın, sadə və canlı dildə qələmə almışdır. Ümumiyyətlə, M.Altunbay mühacirət mətbuatında qələmi ilə müəyyən iz qoymuş mücahidlərdəndir. Onun yazıları təsirliliyi, faktlarla zənginliyi ilə fərqlənir.

"Şiddətli fırtınanın hökm sürdüyü gecədən bir saat otuz dəqiqə keçmişdir ki, dünyanın ən böyük sərnişin gəmilərindən biri olan səksən min tonluq Qeen Mari adlı Transatlantik Fransa-

nın Şetburq limanından Amerika istiqamətində hərəkətə başladı. Qoca Atlantikin iki gün davam edən fırtınası gəmi yolçuları arasında bir xeyli həyəcan yaratmışdır. Dağlar boyda fırtınaları dəf edərək Qeen Mari üç gün üzdü. Sərnişinlər sevinc içində idi. Gəminin üzgüçülük hovuzları, kino, rəqs və konsert salonları sərnişinlərlə dolu idi. İnsana sonsuz kimi görünən bu nəşəli həyat nəhayət, sona yetdi. Gəmi Nyu-York limanına yanaşırdı". İstiqlal uğrunda alovlu mübariz Mehmet Altunbayın "Mücahid" jurnalının (Ankara) 1961-ci il tarixli 43-44-cü nömrəsində dərc olunmuş "Amerikadan gəlirəm" adlı səyahət oçerki bu sözlərlə başlayır.

M.Altunbay mahir bələdçi kimi oxucunu məlumatlandırır, onu ABŞ-da yaşayan həmvətənlərlə, onların həyat tərzi, istək və arzuları ilə tanış edir. Məmməd Altunbay ABŞ-ın müxtəlif şəhərlərinə gedir, həmvətənlərlə görüşür, onların ürək sözlərini dinləyir. Müəllifin hər bir azərbaycanlı ilə görüşünü həyəcansız oxumaq mümkün deyil: "... Bir neçə gün Nyu-Yorkda qaldıqdan sonra şəhərlərarası avtobusla Bostona yola düşdüm. Avtovağzalda məni Şükri Dursunəl şəxsi avtomobilində qarşıladı. Burada Şükrinin dostları ilə tanış oldum. Bunlar Musa Yıldız və onun kiçik qardaşı Asim Yıldız idi. Qarsda dünyaya göz açan bu qardaşlar Amerikada mühəndislik təhsilinə yiyələnənmişlər. Əslən Azərbaycanlıdırlar. Bu iki qardaşın nə Qarsda dünyaya gəlməsi, nə də Amerikanın könül və göz açıcı möhtəşəm həyatı, onların qəlbində kök salmış Azərbaycan sevgisini zərrə qədər azaltmamışdır. İki qardaşı bizdən ayıran, diqqətəşayan fərqi budur. Onlar yalnız ata-babalarından duymuş olduqları Azərbaycanın heyranıdırlar, heç görmədikləri bir ölkəyə sonsuz sevgi bəsləməkdədirlər. Tanrı Azərbaycan torpağına elə bir qüdrət, elə bir cazibə bəxş etmişdir ki, onun torpağında yaşamış, suyundan içmiş və havası ilə nəfəs almış olanların yalnız özləri deyil, onlardan sonra gələn nəsillər də bu torpağa sevgi və həsrətlə yaşayırlar. Bax, Musa ilə Asim bunun canlı misallarıdır".

M.Altunbayın özünəməxsus təhkiyəsi, yazı manerası var. Müəllif qərara alır ki, "vətənin qartallarını" bir-bir oxucularla da tanış etsin. Lakin dərhal mətləbə keçmir. O yazır: "Bir dəqiqə! ... Onları sizə tanıtmazdan əvvəl xatirimdə ikən bunu söyləyim: onlar məndən Avropada və Türkiyədə yaşayan azərbaycanlı qardaşlarını soruşdular. Onları təmin edən cavablar verdiyimi ümid edirəm".

Bu üslub oxucunu yormur, materialı daha canlı və daha maraqlı edir. M.Altunbayın publisistikası nə qədər həzin, kövrək olsa da, o qədər də kəskin və prinsipialdır: "Vətən sevgisinin və Vətən həsrətinin bu bir ovuc azərbaycanlının qəlbində yaratmış olduğu atəşi söndürə biləcək heç bir qüvvənin mövcudluğuna inanmıram. Qəhbə tarixin və qədərin dönən çarxına baxın!... Bir zaman dünyaya meydan sulayan Turanın indi bağrı yanıq, lakin mənəviyyatlı, məğrur övladları Amerikanın bir guşəsində öz vətənləri üçün hər cür fədakarlığa qatılmaq üçün and içirlər..."

Mühacir mətbuatının müxtəlif tarixi günlərlə, o cümlədən 28 Aprel işğal, 28 May istila günləri ilə bağlı yazıları sənətkarlıq baxımından diqqəti xüsusilə çəkir.

1952-ci ildən Münhendə nəşr olunan Azərbaycan Milli Birliyinin orqanı olan "Azərbaycan" jurnalının aprel 1953-cü il tarixli 11-ci nömrəsində E.Sultanın imzası ilə dərc olunmuş "Azərbaycanın matəm günü" adlı məqaləsi mühacirətin bu tarixi hadisəyə münasibətini tam əks etdirir. Məqalə belə başlayır: "Sovet mətbuatı, sovet radioları hər il aprel ayının 28-də "aprel inqilabı" adlandırdığı bir təbəddülatdan bəhs edir. Bu "inqilaba" həsr olunan cildlərlə əsərlərdə 28 Aprel günü Azərbaycan xalqının istiqlala qovuşduğu gün kimi göstərilir". Müəllif daha sonra "həqiqətən böylə bir inqilab hadisəsi olmuşdumu?" - deyə sual verir və 28 Aprel hadisəsinin əsl mənasını açmağa təşəbbüs göstərir, dövrün ictimai-siyasi xarakteristikasını verir, Kremlin məkrli niyyətlərini göstərir və "Sovet hürriyyətinin

mahiyyətini" tarixi sənədlərlə ifşa edir. Müəllif 27 Aprel gecəsi Stalinin göstərişi ilə Kirov və Orconikidzenin başçılıq etdiyi XI Qızıl Ordunun Azərbaycan torpaqlarına soxulduğunu qeyd edir və yazır: "Beləliklə, gənc Azərbaycan demokratisi sovetlərin hiyləsinə qurban getdi... 28 Aprel günü Azəri türklərinin istiqlal günü deyil, o oktyabr inqilabından doğan Qırmızı Sovet diktatorlarının Azərbaycan istiqlalını qanlar içərisində boğduğu gündür. 28 Aprel müthiş bir əsarətin ifadəsidir. İstiqlal eşqi ilə dolu qəlblər hər il 28 Apreldə bir daha acıyır və yarası dərinləşir".

E.Sultan məqalədə XI Qızıl Ordunun Azərbaycana gətirdiyi fəlakətlərdən, kəndlilərə məxsus "yeyəcək və geyəcək bütün şeylərin" talanmasından, "Azərbaycan alimlərinin, yazıçı, şair və digər sənət sahiblərinin böyük bir qisminin həbsə alınmasından, Sibirə sürgün edilməsindən, xalqın yetişdirdiyi ən dəyərli övladlarının" itirilməsindən ürək ağrısı ilə bəhs edir. Müəllif eyni zamanda azərbaycanlıların azadlıqsevər xalq olduğunu, onların "heç bir zaman işğalçı qüvvələrin qarşısında boyun əymədiyini" qürurla qələmə alır, XIX əsrin əvvəllərindən XX əsrin 30-cu illərinədək xalqın azadlıq uğrunda apardığı şanlı mübarizə yolunu göstərir, Sovet hakimiyyəti illərində Gəncə, Qarabağ, Şəki və Şamxor üsyanlarını misal gətirir.

Mühacir müəllif E.Sultan 1939-cu ildə latın əlifbasının rus əlifbası ilə əvəz edilməsini sovet rejiminin xalqımıza vurduğu mənəvi zərbələrdən biri hesab edir və yazır ki, Azəri türklərinin ahənginə uyğun tərtib olunmuş milli əlifba xəyanətkar kommunistlərin "formaca milli, məzmunca sosialist" şüarına qurban edilmişdir. Məqalə müəllifi əlifba siyasətini, habelə çox böyük təntənə ilə qeyd olunan bir sıra milli və dini bayramların, adət və ənənələrin də qadağan edilməsinin məqsədini açıqlayır. O yazır: "Bir sözlə, gözlərə milli görünəcək, beyinlərdə milli düşünüləcək nə varsa, məhv etmişlər". Mühacir müəllif məqalənin sonunda göstərir ki, Azəri türkləri Sovet İmperiyası siyasəti əleyhinə yürütdüyü inadlı mücadilədə bir dəqiqə də olsun, tərəddüd etməmiş və istiqlal idealını zəiflətməmişdir.

Jurnalın həmin nömrəsində Azərbaycanın sabiq naziri Əkbər Ağa Şeyxülislamzadənin "Azadlıq" radiosu vasitəsi ilə xalqımıza müraciəti dərc edilmişdir. Müraciətdə deyilir ki, 27 Aprel 1920-ci ildə Qızıl Kreml Azərbaycan istiqlalını qanlar içində boğdu. Bu gün Azərbaycanın ən qara günüdür. Bu gün 1918-ci il 28 May istiqlal günəşinin Şimaldan gələn qara buludlarla örtüldüyü gündür. Dəhşətli bir əsarətin ifadəsi olan 27 Aprel yalnız Azərbaycanın deyil, bütün Qafqaz və Türk-müsəlman dünyasının matəm günüdür.

Müraciətdə daha sonra Sovet hökumətinin Azərbaycan xalqına vurduğu sağalmaz yaralardan bəhs olunur və dünya dövlətləri Birləşmiş Millətləri Təşkilatı qarşısında Türk-müsəlman xalqları məsələsini qaldırmağa səslənir. Sənəd inamlı, qətiyyətli ifadələrlə bitir: "Mən əminəm ki, azad dünya xalqları ilə sovet məhkumu xalqlarının dostluğu kommunizm istibdadına son verəcək və bütün dünya xalqlarını səadət və rifaha qovuşduracaqdır. Vətənimizin üfüqlərində istiqlal günəşi doğacaqdır. Bu günəşin altında Azəri türkləri ilham dolu ürəklə yaşayacaq və yaradacaqlar. Yaşasın azad və müstəqil Azərbaycan! Yaşasın Azəri-türk milləti!"

Azərbaycanın istiqlalı uğrunda mübarizə tarixinin ən ləyaqətli və mübariz nümayəndələrindən biri olan C.Hacıbəyli 28 Aprelin tariximizdə qanlı bir səhifə olduğuna işarə edərək "Azərbaycan (Münhen) jurnalının 1953-cü il tarixli 12-ci nömrəsində yazırdı: "O mənhus 28 Aprel günündən bəri Azəri milləti öz milli bayramını (28 May istiqlal günü nəzərdə tutulur - A.T.) yalnız qəlbində qeyd etməyə məcbur qalmış, mühacirətə qaldıqda, bizlər də bu bayramı ümid və iztirablar içində qeyd etmək zərurətindəyik". Azərbaycanın azad, müstəqil olacağına bir an da inamını itirməyən C.Hacıbəyli mövcud şəraitdə mühacirətin üzərinə düşən vəzifədən bəhs edir və təəssüflə yazırdı ki, bə-

zən oturduğumuz isti küncler bizim hissiyatımızı korlaşdırır. "O qədər də ümidsizliyə düşməyəlim" - deyə yazan C.Hacıbəyli bütün mühacirləri "millət və vətənimizin yardımına qoşulmağa" dəvət edirdi. Adı çəkilən məqalədə C.Hacıbəyli yazırdı "... min cür fədəkarlıqlar nəticəsində əldə etdiyimiz neməti birdən-birə qeyb etdik. Əvət, istiqlalımızı bir rahatlıqla qazanmadıq. Parlament rəisi rəhmətlik Həsən bəyin söylədiyi kimi, "başqaları yüz il ərzində vermiş olduqları qurbanları biz bir il ərzində verdik". Rahatlıqla itirdiyimiz yurdumuzun istiqlalı üçün daha nə qədər qurbanlar verəcəyik - bunu Allah bilir. Hər halda, bizə düşən vəzifə bu qurbanları mümkün dərəcə azaltmaq və bəlkə də məsələni qan tökməməklə həll etmək: zatən 27 Aprel faciəsindən bəri millətimizin qanı axmaqda davam edir, tənəffüs yoxdur..."

ABŞ-da - Nyu-Yorkda fəaliyyət göstərən Azərbaycan cəmiyyətinin sədri Məcid Musazadənin "Azərbaycan" jurnalının (Münhen) may 1952-ci il tarixli 2-ci nömrəsində çap olunmuş "Azərbaycan matəm içində" yazısı ətraflı araşdırmaları, dərin təhlili, ciddi nəticələri ilə diqqəti cəlb edir. Müəllif tutarlı tarixi fakt və dəlillərlə 28 Aprelin Azərbaycan xalqına gətirdiyi fəlakət və faciələrdən bəhs edir, sovet rejiminin mənfur məqsəd və niyyətlərini açıb göstərir. O, 28 Aprelə işarə ilə yazırdı: "Bu gün Azərbaycanın tarixində məhkumiyyəti andıran gündür. Bu gün 1918-ci il 28 May istiqlal günəşinin, Milli Azərbaycan bayrağının Qızıl Ordu çəkmələri altına atıldığı gündür". Müəllif dönə-dönə 28 Apreli "müthiş bir əsarətin ifadəsi" adlandırır və göstərir ki, 28 Aprel Azərbaycan istiqlalının qanlar içərisində boğulduğu gündür.

Məqalə müəllifi "türk və müsəlman məmləkətləri tarixində ilk dəfə olaraq demokrasi prinsiplərinə dayanan Milli Cümhuriyyətin" qurulmasından, onun dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərdən, universitetin, ali texniki və xalq məktəblərinin yaradılmasından, Avropanın ali təhsil ocaqlarına yüzlərlə tələbənin göndərilməsindən söz açır və yazır: "Bir sözlə, məmləkət kəlmənin tam mənasında milli sima almışdır". M.Musazadə daha sonra Rusiyadakı vəziyyəti təhlil edir, Stalin və Leninin çirkin niyyətlərini tarixi sənədlərlə oxucuya çatdırır və Azərbaycan Xalq Cümhuriyyətini süquta sürükləyən səbəbləri göstərir. Müəllif yazır ki, Sovetlər Birliyinə daxil olan 16 respublikanın 13-nün rus milləti, irqi, dili, dini, adət-ənənəsi və Rusiya torpağı ilə heç bir münasibəti və əlaqəsi yoxdur. Məqalədə deyilir: "Bir türkün, bir gürcünün, bir erməninin, bir Şimali qafqazlının və ya bir baltiklinin Rusiya ilə heç bir şeyi yoxdur. Bu millətlərin hamısı bir dəfə çar, digər dəfə də Sovet Rusiyasının süngüləri zoruna "Rusiya İttifaqı"nda birləşdirilmişlər".

Azərbaycan xalqının heç bir işğalçı qüvvətlərin qarşısında boyun əymədiyini göstərən müəllif azadlıq uğrunda mübarizə tarixini vərəqləyir: "1802-ci ildə sonuncu istiqlal istehkamı olan Gəncə üstün çar qüvvətləri tərəfindən işğal edildikdən bu günə qədər Azərbaycan daima üsyan və mücadilə halında olmuşdur". M.Musazadə Moskvanın ruslaşdırma, kollektivləşdirmə, sənayeləşdirmə siyasətini, onun dil, əlifba və s. sahələrdəki "islahatlarının" da Azərbaycanda etiraz və üsyanlarla qarşılandığını yazır.

İkinci Dünya müharibəsi bitdikdən sonra sərhədin o tayında qalmış minlərlə mühacir yenidən "xalqlar həbsxanasına" girmək istəmir. Bu barədə M.Musazadə belə yazır: "... sovetlərə geri qaytarılmaqdansa, İtaliya əsir kamplarında intiharı, Fransada zorla gəmilərə doldurularaq Baltik dənizi vasitəsilə sovet limanlarına sövq edilməkdənsə, İsveç sularında balıqlara azuqə olmağı və Dahau (Almaniya) əsir kamplarında hər dəqiqə sovetlərə təslim olunmaqdansa, qara qan damarlarını öz dişi ilə qırmağı üstün tutan azərbaycanlılar əbədi düşmənینə qarşı nə qədər əzmli olduqlarını, böyük bir iradə ilə silahlandıqlarını, müqəddəs bir istiqlal ruhuna sahib olduqlarını bir daha isbat etmişdir".

Jurnalın həmin nömrəsində "Amerikada 27 Aprel günü" adlı məqalədə Nyu-Yorkdakı Azərbaycan cəmiyyətinin "Azərbay-

can tarixinin bu qara gününə" həsr etdiyi toplantıdan yazı dərc olunmuşdur. "Yaşasın" istiqlal!", "Məhv olsun istila!" şüarları ilə bitən həmin məclisin iştirakçıları BMT-yə müraciət qəbul etmişlər. Sənəddə 28 Aprelin işğalçı mahiyyəti açıqlanır və dünya dövlətləri Sovet İttifaqındakı qırmızı terroru dayandırmaq üçün tədbirlər görülməyə səslənir.

"Azərbaycan türklərinin tarixi, ədəbiyyatı, sənəti, teatr həyatı xüsuslarında yurddaşlara mümkün mərtəbə, geniş bilgilər vermək" niyyəti ilə 1952-ci ilin aprelində Ankarada nəşr olunmağa başlayan "Azərbaycan" jurnalını elə ilk nömrəsindən 28 Aprelin xalqın tarixində oynadığı dəhşətli rolu oxucularına çatdırdı. "Azərbaycan Cümhuriyyəti haqqında ümumi məlumat" adlı məqalədə istiqlal uğrunda mücadilə tarixinə nəzər salınmaqla yanaşı, Azərbaycan ədəbiyyatı, mədəniyyətinin görkəmli simalarının yaradıcılığından bəhs edilir. Məqalədə deyilir ki, bolşeviklər mövcud vəziyyətdən istifadə edərək 27 Apreldə Qızıl Ordu vasitəsilə Azərbaycanı işğal etmiş, sovetləşdirmişlər.

Jurnalın həmin nömrəsində Azərbaycan ədəbiyyatı mövzusunda dəyərli tədqiqatları ilə diqqəti cəlb edən Əbdülvahab Yurdsevər göstərir ki, 28 Apreldə yurdumuz təkrar qaranlıqlarda boğuldu. Lakin müəllif böyük inam və ümidlə qurtuluş gününün gələcəyini də qeyd edir. Jurnalın aprel 1953-cü il tarixli 2-ci nömrəsində qara haşiyə ilə verilmiş "27 Aprel" adlı məqalədə türk tarixinin bu qara günündən bəhs olunur və rusların təcavüzü ilə Şərqdə ilk modern demokratik dövlət yaradıldığı qurur hissi ilə qeyd edilir. Yazıda Azərbaycanın yenidən istiqlala qovuşacağı fikri xüsusi vurğu ilə qeyd olunur. Məqalədə deyilir: 27 Aprel faciəsini birlikdə və dərin ürək acısı ilə bir kərə daha anarkən, ali insanlıq vicdanının belə haqsızlıqlara uzun müddət təhəmmül edilməyəcəyi ümidi ilə təsəlli tapır və yaxın istiqbalda digər məhkum türk elləri ilə birlikdə Azərbaycan türklərinin də hürriyyət və istiqbal haqlarına qovuşacağına əmin olduğumuzu bildiririk".

1920-ci il 27-28 aprel hadisələri nəticəsində islam və türk dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, o nəinki Azərbaycanın, eləcə də bütün Şərqin tarixində silinməz iz buraxdı. Təsadüfi deyil ki, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən indiyədək bu dövlətin yaranması, strukturu, atributları, rəmzləri, elm, təhsil, mədəniyyət sahələrindəki islahatları, daxili və xarici siyasəti, süqutu səbəbləri, tarixi əhəmiyyəti barədə yüzlərlə əsər yazılmışdır. Doğrudur, Sovet hakimiyyəti illərində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, mahiyyəti saxtalaşdırılmış, ünvanına böhtanlar yağdırılmışdır. Bununla belə, bütün mənəvi və fiziki təzyiqlərə baxmayaraq, bu dövlətə məhəbbət hissi böyük əksəriyyətin qəlbində illərcə yuva salmışdır. Eyni zamanda, SSRİ-dən kənarda - Türkiyə, ABŞ, Fransa, Almaniya, Polşa və sair kimi ölkələrdə Azərbaycan Xalq Cümhuriyyəti barədə kifayət qədər yazılmışdır.

Xaricdə Azərbaycan Xalq Cümhuriyyəti haqqında ilk sanballı əsərlər Versal (Paris) sülh konfransında iştirak etmək üçün Fransaya göndərilən nümayəndə heyəti tərəfindən nəşr edilmişdir. Əlimərdan bəy Topçubaşov, Məmməd Həsən Hacınski, Əkbər Ağa Şeyxülislamov, Mir Yaqub Mehdiyev, Məmməd Məhərrəmov, Əhməd bəy Ağayev, Ceyhun bəy Hacıbəylinin və sonradan heyətə qatılan A.Atamalıbəyov və Ə.Qafarovun da daxil olduğu nümayəndə heyətinin Parisə yetişən üzvləri (Ə.Ağayev yolda ingilislər tərəfindən həbs olunaraq Maltaya sürgün edilmişdir) böyük həvəslə Fransanın paytaxtında kitab və bülletenlər çap etməyə başladılar. Fransız və ingilis dillərində nəşr edilmiş "Qafqaz Azərbaycanı Respublikası", "Qafqaz Azərbaycanı Respublikasının sülh konfransına memorandumu" kimi materiallarda Azərbaycan Xalq Cümhuriyyəti haqqında dolğun məlumatlar öz əksini tapmışdır. C.Hacıbəylinin həmin vaxtlar Parisin nüfuzlu jurnallarından birində çap etdirdiyi "İlk müsəlman

respublikası Azərbaycan" adlı məqaləsi də bu mənada böyük maraq doğurur. Yeri gəlmişkən qeyd edək ki, hələ bundan bir qədər əvvəl - 1918-ci ilin noyabr ayında Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Ə.Topçubaşovun İstanbulda "Azərbaycanın təşəkkülü" kitabı çapdan çıxmışdır.

Qırmızı terrordan, təqib və təzyiqlərdən qurtulan Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra liderləri 20-ci illərin əvvəllərindən qürbətdə xalqın azadlığı uğrunda fəal ideoloji mübarizəyə başlamışdılar. Mühacir müəlliflər 28 May və onunla əsası qoyulan Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti haqqında fəxarətlə, eyni zamanda dərin kədər və qüssə ilə söz açmışlar.

Məmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Məmməd Əli Rəsul-zadə, Ceyhun bəy Hacıbəyli, Mustafa bəy Vəkilov, Əkbər Ağa Şeyxülislamov, Xəlil bəy Xasməmmədov, Əlimərdan bəy Topçubaşov, Şəfi bəy Rüstəmbəyov kimi xadimlər Türkiyə, Polşa, Fransa və Almaniyada buraxılan mühacir nəşrlərdə Azərbaycan istiqlal tarixinin ən şanlı səhifəsi olan və əsası 1918-ci ilin 28 mayında qoyulan Azərbaycan Xalq Cümhuriyyəti haqqında faydalı əsərlər çap etdirmişlər. Ümmül-Banu, Yusif Vəzir Çəmənzəminli, Əhməd bəy Ağayev, Əli bəy Hüseyzadə, Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Almas İldırım, Kərim Yaycılı, Gültəkin, Alazan Baycan, Əhməd Qaraca, Həmid Dönməz, Süleyman Təkinər, Kərim Odər, Mustafa Türkəqul, Əbdülvahab Yurdsevər, Məcid Musazadə və sair kimi qələm sahibləri xaricdə Azərbaycan ədəbiyyatı, tarixi, mədəniyyəti xəzinəsinə qiymətli töfhələr verirdilər.

Ankaradakı Azərbaycan kültür dərnəyinin orqanı olan "Azərbaycan" jurnalı özünün 1952-ci il 1 may tarixli 2-ci nömrəsində "Ayın təqvimi" məqaləsində yazırdı: "28 May Azərbaycanı milli müstəqil kültürə, milli məktəbə, milli iqtisadiyyata, insan haqlarına və milli orduya qovuşdurmuşdur". Jurnalın həmin ilin 3-cü nömrəsində verilmiş "28 May Azərbaycanın istiqlal günü-

dür" adlı məqaləsində bu tarixi gün - Milli Azərbaycan bayramı münasibətilə Azərbaycan kültür dərnəyinin Ankarada keçirdiyi böyük tədbir barədə ətraflı məlumat verilir. "Azərbaycan" jurnalının (Ankara) 1953-cü il tarixli 2-ci nömrəsində dərc olunmuş "Türkün nəşə və zəfər ayı" adlı məqaləsində də 28 May müqəddəs gün kimi anılır, bu qutsal yolun yolçuları - şəhidləri və mücahidləri sayqı ilə yad edilir.

Münhendə nəşr olunan "Azərbaycan" jurnalı 1952-ci il tarixli 2-ci nömrəsində dərc etdiyi Ceyhun Hacıbəylinin "28 May hissiyatı" və Əkbər Ağa Şeyxülislamovun "Azərbaycan necə quruldu" (məqalə Parisdə rus dilində çıxan "Azərbaycan" və Ankarada nəşr olunan "Mücahid" jurnallarında da dərc edilmişdir) adlı məqalələrində Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə nəzər salınır, onun əhəmiyyətindən bəhs olunur və xalqın yenidən istiqlala qovuşacağına ümid edilir. "Baharın ən gözəl ayı may Tiflisdə daha da qüvvətli bir surətdə insana təbiətin oyanmasını və yeni bir ömrə hazırlaşmasını göstərir. Parlayan günəş, buludsuz göy, hər tərəfdən sizi səssiz yaşamağa dəvət edib, bütün Qafqazı sizə bəxş edər kimidir. Bu nemətdən istifadə edə bilməniz üçün hər şey əmrinizə hazırdır". Belə bir təsvirlə başlayan "Azərbaycan necə quruldu" adlı məqalədə Tiflisdə 26 maydan sonra cərəyan edən hadisələr, Qafqaz seyminin dağılması, üç müstəqil dövlətin yaradıldığının elan edilməsi təfərrüatı ilə qeyd olunur. "Tarixi qiyməti yalnız Azərbaycan milləti üçün deyil, eyni zamanda bütün islam aləmi üçün də əhəmiyyətli olan bu gün ilk dəfə bir cümhuriyyət elan edilməkdədir. Həsən bəy Ağaoğlu məclisi açdı. Anlaşma indi bütün üzvlər arasında tamamdır. Rəy vermək hər üzvün vəzifəsidir. Bitərəf qalmaq istəyənlər lütfən məclisi tərk etsinlər. Heç kim yerindən tərpənmir. Həsən bəy Azərbaycanın "müstəqil və hür bir dövlət olmasını" rəyə qoyur. Katib Mustafa Mahmudi isimləri oxuduqca, hər üzv "razıyam" cavabını verir. Hər kəsin üzü nəşəli və məmnun kimi görünür. Sədr Həsən bəy qalxaraq bütün

üzvlərə:

- Bu saatdan, yəni saat 8[10] dəqiqədən Azərbaycanın istiqlaliyyəti Milli Azərbaycan Şurası tərəfindən qəbul edilmişdir, - deyir.

Gözü yaşlı Milli Şura üzvləri bir-birlərinin əllərini sıxırlar".

Məqalədə daha sonra Ə.A.Şeyxülislamov Azərbaycanın istiqlalını elan edən tarixi şəxsiyyətlərin adını çəkir və Milli Şuranın 6 maddədən ibarət verdiyi bəyanatı oxuculara təqdim edir.

Maraqlı və təbiidir ki, 80-ci illərin sonunda Azərbaycanda milli-azadlıq hərəkatının vüsət alması ilə respublika kütləvi informasiya vasitələrində olduğu kimi, mühacir mətbuatında da 28 May mövzusu aktuallaşdı. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, liderləri, atributları barədə yazılar qəzet səhifələrinə çıxarıldı. Xaricdəki həmvətənlərimiz, onları birləşdirən mədəniyyət mərkəzləri Azərbaycan Xalq Cümhuriyyətinin ildönümünü geniş qeyd etməyə başladı.

Bu gün də ölkədəki bütün həmvətənlər kimi Azərbaycan mühacirəti də illər boyu dönə-dönə və sevə-sevə "səadət yolu" kimi dəyərləndirdikləri 28 May gününü Milli bayram kimi təntənəli qeyd edirlər.

Tarixi günlərlə bağlı mühacir mətbuatında dərc olunmuş materialların sənətkarlıq nöqteyi-nəzərdən xüsusi dəyərləndirilməsi təsadüfi deyildir. Bu yazılar bir tərəfdən mühacir mətbuatının məramını, məqsədini, özəyini təşkil edirsə, digər tərəfdən də bütün başqa yazılarla müqayisədə daha təsirlidir, daha obrazlı işlənmişdir. Əgər nəzərə alsaq ki, xalqın ən böyük sərvəti onun istiqlalıdır, deməli bugünkü tələblər baxımından daha aktualdır.

N Ə T İ C Ə

Sovet rejimi və ideologiyasının tələbi ilə on illər boyu mühacirət mövzusu tədqiq edilməmiş, cəmiyyət üçün qapalı saxlanılmışdır. "Mühacir" söhü az qala, "vətən xaini", "dönük" və s. kimi ifadə və ibarələrlə sinonim kimi işlədilmişdir.

1980-ci illərin ikinci yarısından SSRİ-də yenidənqurma və aşkarlıq siyasəti başlanandan mühacirət mövzusu da tədricən kütləvi informasiya vasitələrində özünə yer aldı. Azərbaycan müstəqillik əldə etdikdən isə mühacirət mövzusunun tədqiqi yeni mərhələyə qədəm qoydu: mühacirət, onun tarixi, yaranması səbəbləri, inkişaf mərhələləri, sosial və say tərkibi, cəmiyyətdə ictimai yükü və digər məsələlər barədə ardıcıl, diqqətçəkən məqalələr dərc olunur, milli dövlətçiliyin mənafeyi, daha da möhkəmləndirilməsi, Azərbaycanın lazımi şəkildə və səviyyədə təbliğ edilməsi, 90-cı illərin əvvəlləri üçün xarakterik olan informasiya blokadasının dağıdılması, Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr haqqında beynəlxalq aləmdə real ictimai fikrin formalaşdırılması və s. kimi sahələrdə mühacirətin rolu və yeri haqqında mülahizələr söylənilir, təkliflər səsləndirilir və bununla paralel mühacirətin istiqlal uğrunda mücadilə tarixi, ənənələri tədqiq olunur, örnək kimi istinad edilirdi.

Mühacirət mətbuatı mühacirət həyatının ayrılmaz bir hissəsi, onun fəaliyyətinin güzgüsüdür. Təbii ki, mühacirət araşdırılmayıbsa, onun mətbuatı da diqqətdən kənar saxlanılmış, yalnız əks təbliğat işində, lazım olduğu məqamlarda kəskin tənqid hədəfinə çevrilmişdir. Xüsusilə, 20-30 və 50-60-cı illərdə sovet mətbuatı mühacir mətbuatını təftiş və "ifşa etməklə" ciddi məşğul olmuşdur.

Böyük Mirzə Cəlillə, onun "Molla Nəsrəddin"i ilə Təbrizdə əsası qoyulan mühacir mətbuatı çətin, lakin şərəfli bir yol keçmişdir. "Yeni Qafqasya", "Odlu yurd", "Azəri-türk", "Bildiriş",

"Azərbaycan", "Azərbaycan yurd bilgisi", "Mücahid" (Türkiyə), "Azərbaycan", "İstiqlal", "Qurtuluş", "Ana dili" (Almaniya) və s. kimi nəşrlər on illər boyu bir tərəfdən istiqlal uğrunda ideoloji mübarizə aparmış, digər tərəfdən Azərbaycan mədəniyyətini təbliğ, tədqiq etmiş, yaratmış, yaşatmış və zənginləşdirmişlər.

Mühacirət mətbuatı, onun yaranması, mövzusu, ideya-istiqaməti, yazarları, dil-üslub xüsusiyyətləri, materialların sənətkarlığı və s. ciddi tədqiqat predmetləridir. Monoqrafiyada bu mövzunun aktuallığı, elmi yeniliyi əsaslandırılmış, göstərilən istiqamətlərdə ilk mənbələrdən istifadə olunaraq araşdırmalar aparılmış, elmi-nəzəri fikirlər irəli sürülmüşdür.

Mühacirət mətbuatında publisistika, xüsusilə, onun ən populyar və maraqlı sahəsi olan bədii publisistika, konkret nümunələr əsasında dəyərləndirilmiş, materialların mövzusu, sənətkarlığı, dil-üslub xüsusiyyətləri tədqiqat obyekti kimi öyrənilmiş, müvafiq nəticələr çıxarılmışdır.

"Giriş"də mövzunun aktuallığı, işlənmə dərəcəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti və s. kimi məsələlər açıqlanmışdır.

I fəsildə mühacirət mətbuatının təşəkküründən bəhs olunmuş, təsnifatı verilmiş, müxtəlif dövrlərdə nəşr olunmuş qəzet və jurnalların mühacir həyatında yeri, rolu araşdırılmış, təhlil süzgəcindən keçirilmiş, dəyərləndirilmişdir. Burada mətbu orqanının nəşri tarixi, tirajı, yayıldığı ərazi, dövriliyi, redaktor və müəllifləri, eyni zamanda qəzet və jurnalların qarşılaşdığı problemlər və s. haqqında da bəhs edilmiş, mühacir mətbuatının elmi-nəzəri cəhətdən əsaslandırılmış təsnifatı tərtib və təhlil olunmuşdur.

II fəsildə mühacirət mətbuat orqanlarının mövzuları, müəlliflərin məqsəd, məram və istəkləri, qəzet və jurnalların ideya-istiqamətləri tədqiqat obyekti kimi təhlilə cəlb olunmuşdur. Mühacirət mətbuatının Azərbaycanın istiqlalı uğrunda ideoloji mü-

barizəsi, habelə xaricdə və Vətəndə yaranan ədəbi-mədəni sərvətləri öyrənmək, təbliğ etmək sahəsində fəaliyyəti araşdırılmışdır.

III fəsildə mühacir mətbuatında jurnalist sənətkarlığı məsələləri təhlil edilmiş, mövzunun seçilməsi, işlənməsi, müxtəlif janrlardakı materialların dil-üslub xüsusiyyətləri və s. təhlil edilmişdir.

Mühacirət irsi, o cümlədən mühacirət mətbuatı milli-mədəni sərvətin bir hissəsidir və onun toplanması, müasir tələblər baxımından tədqiqi, dəyərləndirilməsi xüsusi əhəmiyyət kəsb edir: bu bir tərəfdən istiqlal mübarizlərinin, mühacirlərin mücadilə yolunu, həyat və düşüncə tərzini, tariximizin bir parçasını öyrənmək, ona layiq olduğu qiyməti verməkdirsə, digər tərəfdən mühacirlərin Vətənə xidmət sahəsində tarixi təcrübələrini araşdıraraq ondan bəhrələnmək vasitəsidir. Bu gün - Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra mühacirlərin qarşısında yeni vəzifələr durur: xaricdə müstəqil Azərbaycan bayrağını uca tutmuq, onun tarixi, mədəni-mənəvi sərvətlərini təbliğ etmək, Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması üçün var qüvvə ilə çalışmaq, Cənubi Azərbaycan problemi ətrafında beynəlxalq aləmdə gerçək ictimai rəyin formalaşmasına yardımçı olmaq.

Azərbaycan diasporu qarşısında duran vəzifələr H.Əliyevin Dünya Azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə 24 dekabr 1998-ci ildə onlara ünvanladığı müraciətdə aydın və parlaq əksini tapmışdır: "Heç kəsə sirr deyil ki, hal-hazırda bütün dünya azərbaycanlılarının milli-mənəvi varlığını yaşadan bir dövlət var. Bu dövlət Azərbaycan Respublikasıdır. Onun müstəqilliyini dönməz etmək, dövlətçiliyini qorumaq, ərazi bütövlüyünü, təhlükəsizliyini və sərhədlərinin toxunulmazlığını təmin etmək, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq tək Azərbaycan Respublikası vətəndaşlarının deyil, bütün dünya azərbaycanlılarının borcudur. Bu

sahədə ilkin vəzifə işğal olunmuş torpaqlarımızın geri alınması, öz Vətənlərində qaçqın və köçkünə çevrilmiş insanların doğma ocaqlarına qaytarılmasıdır.

Xalqımızın mədəniyyətini, milli adət-ənənələrini yaşatmaq, inkişaf etdirmək və bütün dünyada təbliğ etmək bizim hər birimizin üzərinə düşən çox məsuliyyətli bir tarixi yükdür.

Azərbaycan Respublikasından kənarda on milyonlarla soydaşımız yaşayır. Onların içərisində çoxlu məşhur elm və mədəniyyət xadimləri, iş adamları, yüksək mənsəb sahibi olan insanlar vardır. Onları dünyada və Azərbaycanda tanıtmaq hamımızın borcu olduğu kimi, bizim də onlardan öz tarixi vətənləri, doğma ata-baba yurdları üçün qayğıkeş və təəssübkeş olmağı tələb etməyə haqımız var." (51)

Mühacirət irsinin, o cümlədən mətbuatının araşdırıcıları da məhz bu prinsipləri - Azərbaycan xalqına, onun milli-mənəvi sərvətinə xidmət etmək, dövlətçiliyin möhkəmləndirilməsi işinə yardımçı olmaq məramını əsas tutaraq xaricdə yaranmış və yaranmaqda olan irsin daha dərindən tədqiqi və dəyərləndirilməsinə yeni töhfələr verməyə səy göstərməlidirlər.

А.Г.Тахирли

ПУБЛИЦИСТИКА В АЗЕРБАЙДЖАНСКОЙ ЭМИГРАЦИОННОЙ ПЕЧАТИ *(1921-1991)*

Появившаяся на определенном этапе истории, отражающая социально-политическую жизнь, отношения между людьми и государствами, военно-идеологические конфликты эмиграция - общечеловеческая проблема. Азербайджанская эмиграция имеет своеобразную историю, этапы становления, характерные черты. В 1920-1991 годах прошлого века, в период господства советского режима и идеологии в Азербайджане преднамеренно не затрагивали эту тему или предъявляли негативное отношение к ней. После восстановления Азербайджаном своей независимости проблему эмиграции стало возможным исследовать, дать верную оценку эмиграционному наследию.

Основу Азербайджанского эмиграционного наследия составляют эмиграционные публикации, в том числе эмиграционная печать. Азербайджанская эмиграционная печать является самым надежным источником для изучения и оценки идеологической борьбы Азербайджанских эмигрантов против большевизма, русской империи, образа жизни и мышления зарубежных сограждан, для пропаганды национально-культурного достояния за рубежом. Основным оружием Азербайджанской эмиграционной печати являлась публицистика. В данной научно-исследовательской работе привлечены к исследованию опубликованные 1920-1991 годах в органах эмиграционной печати публицистические образцы, темы, идейно- политические направления, стиль и мастерство материалов. Опубликованные в таких газетах и журналах как "Ени Кавгасия", "Азеритюрк", "Одлу юрд", "Истиглал",

"Гуртулуш", "Азербайджан" (Париж), "Азербайджан" (Анкара), "Азербайджан" (Мюнхен), "Турк изи", Тюрк йолу", "Тюрк амадъы", "Мудъахид", "Азер", "Айдынлыг", "Ана дили", "Прометей", "Кавказ альманахы", "Кавкасия", "Бирлешик Кавкасия" десятки публицистических изданий изучены как самые ценные образцы эмиграционного наследия, была оценена значимость и роль этих образцов в истории печати.

Изучение проблемы эмиграции являеться актуальным и важным. В настоящем функция эмиграционной печати и эмиграции в целом сильно изменилась. Если в советские время эмигранты вели непримиримую борьбу против существующего режима и идеологии, то сегодня Азербайджанские эмигранты и органы эмиграционной печати стараются укрепить Азербайджанскую государственную независимость, обеспечить территориальную цельность, пропагандировать достижения независимого Азербайджана. Покойный президент Азербайджанской Республики Г.Алиев в своих выступления часто подчеркивал важность деятельности диаспоры, Азербайджанской эмиграции за рубежом.

В данной монографии впервые автор исследует с научно-теоретической точки зрения эмиграционную журналистику, возникновение, этапы развития эмиграционной печати, приходит к определенным выводам. Автор, анализируя публицистические образцы эмиграционной печати, приводит интересные доводы.

A.N.Tahirli

PUBLICISM IN AZERBAIJAN EMIGRATION PRESS *(1921-1991)*

In the definite develorment stages of the history, emigration is the rublic rroblem of the social-rolitical life and the relations among the reorle and governments and the military - ideological arguments. The Azerbaiyan emigration has own history and the stages of foundation and srecific reculiarities. In the 1920th-1991st years of the last century when dominated the soviet regime and its ideology in Azerbaijan unintentional this theme wasn't investigated or had made a false attitude. After renewal the Azerbaijan inderendence this rroblem was investigated and estimated the heritage of emigration. The foundation of the heritage of the Azerbaijan emigration forms the emigration - rublications, at the same time the emigration rress. The Azerbaijan emigration rress is one of the imrortant sourse for studing and arrreciate the ideological fight of Azerbaijani emigrants against Bolshevism, Russian emrire and to carry on rroraganda for the life and thought of countrymen lived in abroad and to carry on rroraganda for national-cultural rrorerty in abroad. The main means of Azerbaijan emigration rress has been rublicism. In this scientific work were attrached to the investigation rublished in 1920th-1991st years rublicistic ratterns, themes, ideological - rolitical directions, style and language and the art rroblems of marterials.

Published in newsrarers and journals "Üeni Gafgasya", "Azeri turk", "Odlu yurd", "Istiglal", "Gurtulush" "Azerbaijan" (Paris), "Azerbaijan" (Ankara), "Azerbaijan" (Munhen), "Turk izi", "Turk yolu", "Turk amaji", "Mujahid", "Azer", "Aydinlig", "Ana dili", tens of rublisistic were investigated as the valuable ratterns and estimated the rlace and the role of these ratterns in

the history of rress.

The investigation of emigration rroblem is actual and imrortant. Today the function of emigration rress and commonly emigration have been changed comrletely. If in the Soviet rerod the emigrants struggle against the existing regime and ideology, but to day Azerbaijani emigrants and their rublished organs try to strengthen the inderendence of Azerbaijan government, to ensure of territörial integrity and try to carry on rroraganda for the achievement of inderendent Azerbaijan. The late rresident of Azerbaijan Rerublic N.A.Aliev in his sreech many times noted the urgent rroblems of diasrora, Azerbaijan emigration in abroad.

In the monograrhy for the first time the author investigates from the roint of the scientific - theoretical view of the emigration journalism, the foundation of the emigration rress, the develorment stages and comes to the corresronding conclusion.

The author investigates the rublicism ratterns of emigration rress and result and shows that the investigation of the history of the Azerbaijan rress according to the contemrorary demands is actual and necessary.

İstifadə edilmiş ədəbiyyat

I. Azərbaycan dilində

1. Abid Əmin. Azərbaycan proletar qəzetçiliyi tarixinə bir baxış. "Dan yıldızı" jurnalı, 1928, №1 (13).
2. Abutalıbov R. Fədakar fəaliyyət. "525-ci qəzet", 17 may 2003.
3. Ağayev İ. Oyanan şüurun güzgüsü. "Ədəbiyyat və incəsənət", 7 noyabr 1986.
4. Axundov N. Sənədlərin dili ilə. Bakı, "Yazıçı", 1980, 180 səh.
5. Axundov N. Azərbaycanda dövri mətbuat (1832-1920). Azərbaycan EA nəşriyyatı, Bakı, 1965, 178 səh.
6. "Ana dili" qəzeti (Bonn).
7. Arzumanlı Vaqif. Azərbaycan diasporu. Bakı, Qartal, 2001, 800 səh.
8. "Azərbaycan Sovet Ensiklopediyası". Bakı, 7-ci cild.
9. "Aydınlıq" jurnalı (London).
10. "Azadlıq" qəzeti (Bakı).
11. "Azər" jurnalı (Berlin).
12. "Azərbaycan" jurnalı (Ankara).
13. "Azərbaycan" jurnalı (Paris).
14. "Azərbaycan" jurnalı (Münhen).
15. "Azərbaycan" qəzeti (Bakı).
16. "Azərbaycan dilinin izahlı lüğəti (Bakı, 3-cü cild).
17. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA) - 38 (3) PF-485 nömrəli qovluq
18. ARDA- 39 (7) PF-486 nömrəli qovluq
19. ARDA - 40 (2) PF-488 nömrəli qovluq
20. ARDA-41 (1) PF-490 nömrəli qovluq
21. ARDA - 42 (4) PF-491 nömrəli qovluq

22. ARDA - 47 (20) PF-496 nömrəli qovluq
23. ARDA - 52 (8) PF-502 nömrəli qovluq
24. ARDA - 53 (9) PF-503 nömrəli qovluq
25. ARDA - 54 (11) PF-504 nömrəli qovluq
26. ARDA - 57 (28) PF - 547 nömrəli qovluq
27. ARDA - 59 (30) PF- 549 nömrəli qovluq
28. ARDA - 60a (34) PF-550 nömrəli qovluq
29. ARDA - 63 (29) PF- 564 nömrəli qovluq
30. ARDA - 73 (26) PF-848 nömrəli qovluq
31. Azərbaycan Respublikası S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (ARDƏİA) 648 nömrəli fond
32. ARDƏİA 649 nömrəli fond
33. ARDƏİA 661 nömrəli fond
34. "Azəri türk" jurnalı (İstanbul).
35. "Azərbaycan müəllimi" qəzeti (Bakı).
36. "Azərbaycan yurd bilgisi" jurnalı (İstanbul).
37. "Bakı" qəzeti (Bakı).
38. "525-ci qəzet" (Bakı).
39. "Birləşik Qafqasya" (Münhen).
40. Cabbarlı Nikpur. Əhməd Cəfəroğlunun ədəbiyyatşünaslıq irsi. Bakı, 2001, 68s.
41. Cabbarlı Nikpur. Mühacirət və klassik ədəbi irs. Bakı, 2003, 172 s.
42. Cəfərov M.C. "Molla Nəsrəddin" məcmuəsi. Azərbaycan SSR EA ədəbiyyat məcmuəsi, III cild, 1948.
43. Elçin. Mühacir nəsillər. "Tarix", aprel 1991.
44. Elçin. Azərbaycan mühacirəti haqqında. "Odlar yurdu", noyabr 1991.
45. "Elm" qəzeti (Bakı).
46. "Elm və həyat" jurnalı (Bakı).
47. "Ədalət" qəzeti (Bakı).
48. "Ədəbiyyat qəzeti" (Bakı).

49. Əliyev Zaur. İran rejiminin Azərbaycan diasporunu zəiflətmək cəhdləri. "525-ci qəzet", 21 iyun 2003.
50. Əliyev H.Ə. Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti. "Azərbaycan" qəzeti, 1997, 26 dekabr.
51. Əliyev H.Ə. Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti. "Azərbaycan" qəzeti, 1998, 25 dekabr.
52. Əliyev M. Əli bəy Hüseynzadə. "Ədəbiyyat və incəsənət", 4 mart 1988.
53. Əliyev M. Məmməd Əmin Rəsulzadə. "Elm", 7 fevral 1992.
54. Əliyev M. Əhməd bəy Ağayev. "Ədəbiyyat və incəsənət", 10 iyun 1988.
55. "Günay" qəzeti (Bakı).
56. Ərəb və fars sözləri lüğəti. Bakı, Yazıçı, 1984, 1036 səh., səh.448.
57. Əsgər Ramiz. Ağ dəvə düzdə qalmaz. "Odlar yurdu", 1988, №2.
58. Əsgər Ramiz. ABŞ-da erməni lobbisi. "Odlar yurdu", mart 1991.
59. Həsənova Ş. "Azərbaycan yurd bilgisi" jurnalında ədəbiyyat məsələləri. F.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1998.
60. Həsənli Cəmil. Rusiya Federasiyası Şimali Qafqaz cümhuriyyətləri və Dağlıq Qarabağ məsələsində çıxılmaz vəziyyətdədir. "Azərbaycan" (Ankara), 1997, №317.
61. Həşimova A. XX əsrin birinci yarısında Azərbaycan mühacirəti, Bakı, 1992.
62. Hüseynov A. İlk Azərbaycan qəzetləri. "Ədəbiyyat və incəsənət", 27 avqust 1977.
63. Hüseynov Ş. Mətbuat tariximizin tədqiqinə dair, ADU, Elmi Əsərləri, jurnalistika seriyası, 1974, №1-2.

64. Hüseynov Ş. "Yeni Qafqsya"nın 1927-ci il 10-cu nömrəsi. Bakı. BDU, 1993.
65. Hüseynli T.T. Hüseyn Cavid və Azərbaycan mühacirət ədəbiyyatşünaslığı. Bakı, Azərnəşr, 2004, 174 səh.
66. Hüseynzadə Ə. "Molla Nəsrəddin" və "Dəbistan". "Ədəbiyyat qəzeti", 1991, 3 may.
67. Xəndan Cəfər. İnqilabi proletar mətbuatı tarixinə dair. XX əsr Azərbaycan ədəbiyyatı tarixi, Bakı, 1955.
68. "Xalq qəzeti" (Bakı).
69. Köçərli F. Seçilmiş əsərləri. Bakı, EA nəşri, 1963.
70. "Kaspi" qəzeti (Bakı).
71. "Kommunist" qəzeti (Bakı).
72. "Körpü" jurnalı (Təbriz).
73. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı, "Elm", 1996, 304 səh.
74. İbrahimov M. Böyük demokrat. Bakı, 1957.
75. "İstiqlal" qəzeti (Berlin).
76. Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı, Elm, 2002, 737 səh.
77. Qasımlı M. Doktor Cavad Heyət, "Azərbaycan" nəşriyyatı, Bakı, 1995.
78. Qasımzdə F. Azərbaycan mətbuatı tarixindən (1920-ci ilə qədər). "Azərbaycanı öyrənmə yolu", 1931, №2-3, səh.59-73.
79. "Qafqasya" jurnalı (Münhen).
80. "Qafqaz almanaxı" (İstanbul).
81. Quliyev Vilayət. Tarixdə iz qoyan şəxsiyyətlər. Bakı, 2000.
82. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1996, 220 səh.
83. "Qurtuluş" jurnalı (Berlin).
84. Mehdi Famil. Bədii publisistika. Bakı, Maarif, 1986, 293 səh.
85. Məmmədli C.Ə. Jurnalistikaya giriş. Bakı, BDU-nun nəşriyyatı, 2001, 385 səh.
86. Məmmədli Q. "Molla Nəsrəddin". Bakı, "Gənclik", 1984.

87. Məmmədli Q. "Məşəl" jurnalı haqqında. "Azərbaycan" jurnalı, 1956, №8.
88. Məmmədli Q. "Zənbur" jurnalı haqqında. "Ədəbiyyat və incəsənət". 26 aprel 1969.
89. Məmmədov X. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı, "Yazıçı", 1987, 269 səh.
90. Məmmədquluzadə M.C. Sizi deyib gəlmişəm. "Molla Nəsrəddin", 1906, №1.
91. Məmmədquluzadə M.C. Bizim "obrazovannılar"."Molla Nəsrəddin", 1906, №2.
92. Məmmədquluzadə M.C. Ana dili. "Molla Nəsrəddin", 1907, №4.
93. Məmmədquluzadə M.C. Ana dili. "Molla Nəsrəddin", 1908, №11.
94. Məmmədquluzadə M.C. Ana dili. "Molla Nəsrəddin", 1908, №19.
95. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, "Nicat", 1992, 246 səh.
96. Mir Cəlal. Mübariz satira jurnalı "Molla Nəsrəddin". "Kommunist" qəzeti, 1951, №93.
97. Mirəhmədov Ə. "Molla Nəsrəddin"in nəşri tarixindən. Ədəbiyyat məcmuəsi, 1948, IV cild.
98. Mirəhmədov Ə. "Molla Nəsrəddin": dünən, bu gün, sabah. "Molla Nəsrəddin" faksimeli, on cilddə, I cild (1906-1907). Ön söz. Bakı, 1987.
99. Mirəhmədov Ə. "Əkinçi" qəzeti 1875-1877 (tam mətni), Bakı, 1979, Ön söz.
100. Mustafayev V. "İstərdim ki, bütün dünyanın insanları azərbaycanlı olsun". "Kaspi" qəzeti, 2003, №82.
101. "Mücahid" jurnalı (Ankara).
102. "Müsavat bülleteni" (Ankara).
103. Nəsibzadə N. Azərbaycan siyasi mühacirəti. "Ədəbiyyat və incəsənət", 7 fevral 1992.

104. "Odlar yurdu" qəzeti (Bakı).
105. "Odlu yurd" jurnalı (İstanbul).
106. Paşayev Ataxan. Açılmamış səhiflərin izi ilə. Bakı, "Azərbaycan" nəşriyyatı, 2001, 536 səh.
107. Rəhmanzadə Fazil. Yol. Azərbaycan Ensiklopediyası nəşriyyat-poliqrafiya Birliyi, Bakı, 1994, 590 səh.
108. Rəsulzadə M.Ə. Panturanizm və Qafqaz problemi. "Elm və həyat", 1990, №9, 10.
109. Rəsulzadə M.Ə. "Dəbistan". "Azərbaycan məktəbi" jurnalı, 1994.
110. Rüstəmova S. Azərbaycan dövri mətbuatı (1875-1990). Bakı, Azərnəşr. 1993, 56 səh.
111. Rüstəmli Asif. Dövlətçiliyimizin ilk müəllimi və rəhbəri. "Respublika" qəzeti, 2002, №137.
112. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr. 1998, 157 səh.
113. Tahirli A.Əsrin yaşıdı ilə söhbət. "Odlar yurdu" qəzeti, №11,iyun 1982-ci il.
114. Tahirli A.Çalış öz xalqının işinə yara. "Odlar yurdu" qəzeti,.№17,sentyabr 1982-ci il.
115. Tahirli A.Vətən mənə oğul desə... "Odlar yurdu" qəzeti,may 1982-ci il.
116. Tahirli A. Ədəbiyyatımız doğru yoldadır. "Odlar yurdu" qəzeti ,sentyabr 1983-cü il.
117. Tahirli A. Böyük xəzinə. "Odlar yurdu" qəzeti, dekabr 1983-cü il.
118. Tahirli A.Həyatla təmasda. "Odlar yurdu" qəzeti, №7, aprel 1984-cü il.
119. Tahirli A.Aləmə səs sal... "Odlar yurdu" qəzeti, №12, 1984-cü il.
120. Tahirli A.Mənalı ömür yolu. "Odlar yurdu" qəzeti, №3, fevral 1985-ci il.

121. Tahirli A. "Kitabi-Dədə Qorqud". "Odlar yurdu" qəzeti, №15, avqust 1988-ci il.
122. Tahirli A.Dünənə pəncərə. "Odlar yurdu" qəzeti, №18, sentyabr 1988-ci il.
123. Tahirli A. "Mən bəşər dostu bir insanam". "Odlar yurdu" qəzeti, №21, noyabr, 1988-ci il.
124. Tahirli A. "Ədəbiyyatınızı yaymaqdan yorulmuram". "Odlar yurdu" qəzeti, №22, noyabr 1988-ci il.
125. Tahirli A. Dahi mütəfəkkir və ədib. "Odlar yurdu" qəzeti, №21, noyabr 1988-ci il.
126. Tahirli A.Ərəb əlifbası ilə yazı qaydaları. "Odlar yurdu" qəzeti, №22, 1988-ci il.
127. Tahirli A.Ömür vəfa etsə... (prof.İren Məlikova haqqında). "Bakı" qəzeti, №20, 24 yanvar 1989-cu il.
128. Tahirli A.Mədəniyyətimizin yaxın dostu (azərbaycanşünas Canpyero Bellinceri haqqında). "Odlar yurdu" qəzeti, №2, yanvar 1989-cu il.
129. Tahirli A.Beyinə qida, gözə nur, dizə qüvvət. "Bakı" qəzeti, 31 dekabr 1989-cu il, "Bakı" qəzeti, №31, dekabr 1989-cu il.
130. Tahirli A.Vətənə layiq övlad olaq. "Sovet kəndi" qəzeti, №126, 21 oktyabr 1989-cu il.
131. Tahirli A.Haray. "Odlar yurdu" qəzeti, №5-6, 1989-cu il.
132. Tahirli A.Hər tablonun öz taleyi. "Odlar yurdu" qəzeti, №13, iyul 1989-cu il.
133. Tahirli A.Həmişə göylərə baxırıq (Azərbaycan diasporu haqqında). "Bakı" qəzeti, №290, 291, 292, 293, 1989-cu il 18, 19, 20, 21 dekabr.
134. Tahirli A.ADR haqqında söz. "Odlar yurdu" qəzeti, №10 may, 1990-cı il.
135. Tahirli A. A.İmdadi: "Sərgilərim silahımdır". "Odlar yurdu" qəzeti, №19, oktyabr 1990-cı il.
136. Tahirli A. "Kültür-noyen" təqdim edir. "Odlar yurdu" qəzeti, №19, oktyabr 1990-cı il.

137. Tahirli A. "Dədə Qorqud" Danimarkada. "Odlar yurdu" qəzeti, №20, oktyabr 1990-cı il.
138. Tahirli A. "İntertürk"ün bir guşəsi haqqında. "Odlar yurdu" qəzeti, №20, oktyabr 1990-cı il.
139. Tahirli A. Azərbaycan mədəniyyət mərkəzlərinin I qurultayı. "Odlar yurdu" qəzeti, №21, yanvar 1990-cı il.
140. Tahirli A.Qurultay qurtardı, lakin. "Odlar yurdu" qəzeti, №2, yanvar 1991-ci il.
141. Tahirli A.İsveçdə Azərbaycan hərəkatının II mərhələsi. "Odlar yurdu" qəzeti, №7, aprel 1991-ci il.
142. Tahirli A. "Şəhriyar və bütün türkcə şeirləri". "Odlar yurdu" qəzeti, №12, iyun 1991-ci il.
143. Tahirli A. "Qarabağın göz yaşları" (şeir kitabı haqqında). "Odlar yurdu" qəzeti, №13, iyul 1991-ci il.
144. Tahirli A. "Erməni intiriqalarının pərdə arxası" (kitab haqqında). "Odlar yurdu" qəzeti, №13, iyul 1991-ci il.
145. Tahirli A. "Tarixdə ermənilər və türk erməni əlaqələri" (kitab haqqında). "Odlar yurdu" qəzeti, №13, iyul 1991-ci il.
146. Tahirli A. "Mənim bir adım gəlsin dilüzə" (Şəhriyar haqqında). "Odlar yurdu" qəzeti, №16, avqust 1991-ci il.
147. Tahirli A. "Azər" nədən yazır? "Odlar yurdu" qəzeti, №14, iyul 1991-ci il.
148. Tahirli A. "Çinar" sərinlik gətirdi. "Odlar yurdu" qəzeti, №14, iyul 1991-ci il.
149. Tahirli A. "Qarabağ xanlığının tarixi və Əhməd bəy Cavanşir" (kitab haqqında). "Odlar yurdu" qəzeti, №17, sentyabr 1991-ci il.
150. Tahirli A. Söz körpüsü ("Güney Azərbaycan: müasir türk şeir antologiyası" haqqında). "Odlar yurdu" qəzeti, №18, sentyabr 1991-ci il.
151. Tahirli A. Biz hara gedirik (prof.Şirməmməd Hüseynovla müsahibə). "Odlar yurdu" qəzeti, №21, noyabr, 1991-ci il.

152. Tahirli A. "Millətimin gücünə və istedadına güvənirəm" (yazıçı Sabir Rüstəmxanlı ilə müsahibə). "Odlar yurdu" qəzeti, №19-20, oktyabr 1991-ci il.
153. Tahirli A. Azərbaycan mühacirati haqqında düşüncələr. "Odlar yurdu" qəzeti, №28, 2 oktyabr 1992-ci il.
154. Tahirli A. Azərbaycan diasporu: həqiqətlər, arzular. "Azərbaycan" qəzeti, №254, 31 dekabr 1993-cü il.
155. Tahirli A.Unudulmaz görüş. "Ədəbiyyat qəzeti", №6, 8 fevral 1991-ci il.
156. Tahirli A. "Təki hamımız belə işləyəydik" (Texas Universitetinin əməkdaşı Sipheri haqqında). "Azərbaycan" qəzeti, №148, 2 avqust 1994-cü il.
157. Tahirli A. Mələklər hara qonur. "Azərbaycan" qəzeti, №179, 21 sentyabr 1995-ci il.
158. Tahirli A.Həsən Miabi (parisli rəssam haqqında). "Səhər" qəzeti, 7 fevral 1991-ci il.
159. Tahirli A.İbrahim Əhrari (almaniyalı rəssam haqqında). "Səhər" qəzeti, №135, 21 fevral 1991-ci il.
160. Tahirli A.Prof.Turxan Gənceyi. "Səhər" qəzeti, №40, 28 fevral 1991-ci il.
161. Tahirli A.Susmaq olmaz. "Ədalət" qəzeti, №8, 25 fevral 1996-cı il.
162. Tahirli A. C.Hacıbəylinin imzaları. "Azərbaycan" qəzeti, dekabr, 1994. №236 (1000).
163. Tahirli A. Zaqafqaziya müsəlmanının həyatından etüdlər. "Günay" qəzeti, 24 dekabr 1994. № 100 (123).
164. Tahirli A. C.Hacıbəyli Qaspirinski haqqında. "Azərbaycan" qəzeti, 18 yanvar 1995, №12 (1029).
165. Tahirli A. C.Hacıbəylinin dini görüşləri. "Meydan" 1995. 6 oktyabr, №30 (110). 13 oktaybr, №31(111). 20 oktyabr, N32 (112).
166. Tahirli A. C.Hacıbəyli: daha bir sual. "Xalq qəzeti", 1995, 16 dekabr, №22 (22133).

167. Tahirli A. İki müəllif, "iki pristav ağa", "Ədəbiyyat qəzeti", 1996, 12 yanvar, №2 (2974).
168. Tahirli A. Nadir sənəd. "Xalq" qəzeti,1996,5 yanvar, №3 (22146).
169. Tahirli A. C.Hacıbəyli mətbuat tariximiz haqqında "Azərbaycan müəllimi" qəzeti, 1996, 6 fevral, №5 (7485).
170. Tahirli A. C.Hacıbəylinin 4 hekayəsi haqqında. "Ədəbiyyat" qəzeti, 3 may, №17 (2889), 1996.
171. Tahirli A. C.Hacıbəylinin publisistikasında maarifçilik. "Azərbaycan müəllimi" qəzeti (10 sentyabr. H35 (7615), 1996.
172. Tahirli A. Hacı Kərimin daha iki sərgüzəşti. "Ədəbiyyat" qəzeti,20 sentyabr, №36 (3008), 1996.
173. Tahirli A. C.Hacıbəylinin publisistikasında mənəviyyat və maarif məsələləri. "Azərbaycan müəllimi" qəzeti, №39, 8 oktyabr 1996-cı il.
174. Tahirli A. C.Hacıbəylinin publisistikasında xeyriyəçilik məsələləri. "Respublika" qəzeti, №38, 27 noyabr 1996-cı il.
175. Tahirli A. Cəhdlər niyə boşa çıxır,yaxud boş cəhdlər kimə lazımdır? (Azərbaycan diasporu haqqında). "Azərbaycan" qəzeti, №156, 25 iyul 1997-ci il.
176. Tahirli A. C.Hacıbəylinin folklor tədqiqatçısı kimi. "525-ci qəzet", 3 fevral 1999-cu il.
177. Tahirli A. C.Hacıbəyli məhərrəmlik və aşura haqqında. "Xalq" qəzeti, №28 (23081), 3 fevral 1999-cu il.
178. Tahirli A. Dastanın tədqiqində uğurlu addım (E.Əlibəyzadənin "Kitabi-Dədə Qorqud: tarixi hadisələri bədii təsdiq abidəsi" kitabı haqqında. ı("Dədə Qorqud" bülleteni,Bakı,1999-cu il, "Ozan" nəşriyyatı).
179. Tahirli A. "Dəli ər" hər yerdə sevilir. "Azadlıq" qəzeti, 11 fevral 2000-ci il, №28 (1537).
180. Tahirli A. Missionerlik bəlası. "Ədəbiyyat qəzeti", 12 may 2000-ci il, №19 (3196).

181. Tahirli A. Sənətə, ədəbiyyata xidmət. "Ədəbiyyat qəzeti", 7 iyul 2000-ci il, №27 (3204). "Azərbaycan müəllimi" qəzeti, №26, 29 iyun 2000-ci il, "Ədalət" qəzeti, №44, 8 iyul 2000-ci il.
182. Tahirli A. H.Zərdabinin vurğunu, təəssübkeşi və ən böyük tabliğatçısı. "Ədəbiyyat qəzeti", 28 iyul 2000-ci il, №30 (3207).
183. Tahirli A. Yazıçı ömrü, ədəbiyyat tarixi (İlyas Əfəndiyevlə bağlı "Sən həmişə bizimləsən" adlı xatirələr kitabı haqqında).
184. Tahirli A. Böyük qələm sahibinin narahatlığı. "Xalq qəzeti", 6 avqust 2000-ci il. (C.Hacıbəyli və H.Zərdabi haqqında).
185. Tahirli A. Naxış-naxış taleli şair. "525-ci qəzet", 28 sentyabr 2000-ci il, №183(777).
186. Tahirli A. Sözün ağsaqqalı. "Xalq qəzeti", 3 oktyabr 2000-ci il, №225 (23590).
187. Tahirli A. Aktual və əhəmiyyətli tədqiqat predmeti. "Ədəbiyyat qəzeti", 13 oktyabr 2000-ci il, №41 (3218).
188. Tahirli A. Göyçəli alimin dastanı. "Maarifçi" qəzeti, 28 oktyabr 2000-ci il.
189. Tahirli A. Milli azadlıq hərəkatı və "Odlar yurdu" qəzeti. "525-ci qəzet". №231, 9 dekabr 2000-ci il (ixtisarla verilmişdir).
190. Tahirli A. Milli azadlıq hərəkatı və "Odlar yurdu" qəzeti,yaxud bir qəzetin 4 illik xronikası (bir hissə). "Ədəbiyyat qəzeti", 15 dekabr 2000-ci il.
191. Tahirli A. Mətbuat tariximizin ilk tədqiqatçılarından biri. "Xalq qəzeti", №27, 3 fevral 2001-ci il.
192. Tahirli A. KİV-in tarixi öyrənilirsə... "Azərbaycan müəllimi" qəzeti, №6, 8 feral 2001-ci il.
193. Tahirli A. Bir əsrin məktəb salnaməsi (H.Əhmədovun "XIX əsr Azərbaycan məktəbi" kitabı haqqında) "Azərbaycan" qəzeti, №41, 20 fevral 2001-ci il.

194. Tahirli A. "Əvət,Vətən yalnız Vətən qaldı". "Ədəbiyyat qəzeti", №12, 30 mart 2001-ci il.
195. Tahirli A. Mühacirət mövzusunda yazarkən... "Xalq qəzeti", №71, 31mart 2001-ci il.
196. Tahirli A. Mühacirətin qəlbində və qələmində 28 Aprel. "Xalq qəzeti", 28 aprel 2001-ci il.
197. Tahirli A. Qələm qələbənin simvoludur. "Hakimiyyət" qəzeti, №11,12,13,14,12 may, 19 may, 26 may, 2 iyun 2001-ci il.
198. Tahirli A. Difai-təcavüz və terrordan müdafiə. "Azərbaycan müəllimi" qəzeti, №21,24 may 2001-ci il, "525-ci qəzet",26 may 2001-ci il, "Şərq qapısı" (Naxçıvan),19 may 2001-ci il.
199. Tahirli A. Milli bayrağımız 40 il əvvəl Argentinada. "525-ci qəzet",13 iyun 2001-ci il.
200. Tahirli A. Milli ideologiya və mühacirət problemi,yaxud qurultay qarşısında düşüncələr, "525-ci qəzet",24 iyun 2001-ci il.
201. Tahirli A. Həmişəyaşar sənət və sənətkar. "Azərbaycan müəllimi" qəzeti,4-10 oktyabr 2001-ci il.
202. Tahirli A. "Mühacirəti bir yerə toplamağa səy ediniz,bu mühümdür". "Azərbaycan müəllimi" qəzeti,8-14 noyabr 2001-ci il.
203. Tahirli A. Amerikadan gəlirəm. "Azərbaycan müəllimi" qəzeti,8-14 noyabr 2001-ci il.
204. Tahirli A. Endirilməyən bayraq. "Azərbaycan müəllimi" qəzeti,8-14 noyabr 2001-ci il.
205. Tahirli A. Bir Vətən aşiqi. "525-ci qəzet",2001-ci il.
206. Tahirli A. Azərbaycan mühacirəti. Bakı, 2001, "Tural-Ə" nəşriyyatı, 344 səh.
207. Tahirli A. Sözlə yarananlar, sözü yaşadanlar. Bakı, 2001. "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı". 307 səh.
208. Tahirli A. Azərbaycan mühacirət mətbuatı, 1-ci hissə, Bakı, 2002, "QAPP-Poliqraf" nəşriyyatı, 156 səh.

209. Tahirli A. Mühacir qəzetçinin ittihamı,yaxud cəzasız cinayətkarlar. "Azərbaycan" qəzeti, 26 yanvar 2002-ci il.
210. Tahirli A. "Azərbaycan yurd bilgisi" - 70. "Ədəbiyyat qəzeti", 8 fevral 2002-ci il.
211. Tahirli A. Azərbaycan mühacirət jurnalistikası. "Bakı Universitetinin xəbərləri" (Humanitar elmlər seriyası) №1 2002-ci il,səh.218-225. "525-ci qəzet" №32 (1142),16 fevral 2002-ci il.
212. Tahirli A. 70 yaşlı. "İstiqlal", "Ədəbiyyat qəzeti", 01 mart 2002-ci il.
213. Tahirli A. Mühacirlər Mart qırğını haqqında,yaxud susmayan tək bir səs. "525-ci qəzet" №53 (1163),23 mart 2002-ci il, "Ədalət" qəzeti,26 mart №55,27 mart №56 2002-ci il, "Xalq qəzeti" №68,27 mart,28 mart 2002-ci il, "Mədəniyyət" qəzeti,30 mart 2002-ci il.
214. Tahirli A. "Azərbaycan yurd bilgisi" jurnalı. "525-ci qəzet" №73 (1183),20 aprel 2002-ci il.
215. Tahirli A. "Əli və Nuno"nu kim yazıb? "525-ci qəzet" №78,27 aprel 2002-ci il.
216. Tahirli A. "Vətən qaldı". "525-ci qəzet", №87(1197),11 may 2002-ci il.
217. Tahirli A. Şairin ölümü və faciəsi. "525-ci qəzet", №92(1202),18 may 2002-ci il. "Mədəniyyət" qəzeti, №20,1 iyun 2002-ci il.
218. Tahirli A. Susmaq olmur. "Yeni Azərbaycan" qəzeti, №105,12 iyun 2002-ci il. "525-ci qəzet", "Axşam", "Ədalət" qəzetləri,15 iyun 2002-ci il.
219. Tahirli A. Odlu sətirlər müəllifi. (X.Rza haqqında). "Ədalət" qəzeti, 29 iyun 2002-ci il.
220. Tahirli A. Bir mühacirin xatirəsi.(Bülbül haqqında). "Ədalət" qəzeti, 29 iyun 2002-ci il.
221. Tahirli A. Alim-müəllim haqqında kitab. "Alternativ" qəzeti, №20 (272), 03-09 iyul 2002-ci il.

222. Tahirli A. Təəssübkeşlər, tədqiqatçılar, təbliğatçılar. "Ədalət" qəzeti №126, 6 iyul 2002-ci il.
223. Tahirli A. Övladdan,qardaşdan daha çox "təəssübkeş təvəllüdşünas"ın tərsliyi. "Azadlıq" qəzeti, №180 (2102), 21-23 sentyabr 2002-ci il.
224. Tahirli A. Özündən sonra da özü var kimi. "Xalq qəzeti", №226, 1 oktyabr 2002-ci il.
225. Tahirli A. Anlaya-anlaya,yoxsa,anlamadığına görə. "525-ci qəzet", 5 oktyabr 2002-ci il.
226. Tahirli A. Xalqın səsi, haqqın səsi. "525-ci qəzet", №211 (1321),6 noyabr 2002.
227. Tahirli A. Senzura,yoxsa "bədii-estetik qamçı"?! "525-ci qəzet", №233 (133),10 dekabr 2002-ci il.
228. Tahirli A. Erməni terrorçularına bəraət verən məhkəmələr. "Bakı Universitetinin xəbərləri" (Humanitar elmlər seriyası) №2 2002-ci il.
229. Tahirli A. Azərbaycan mühacirət mətbuatı. 2-ci hissə. Bakı, 2003. "Ozan" nəşriyyatı. 275 səh.
230. Tahirli A. Mühacirət mətbuatı tarixində "Yeni Qafqasya" jurnalının mövqeyi "525-ci qəzet" №7,11 yanvar 2003-cü il.
231. Tahirli A. Kərim Odər və onun "Azərbaycan" kitabı. "525-ci qəzet" №17 (1375),28 yanvar 2003-cü il.
232. Tahirli A. Mühacirət irsinin tədqiqinə və təbliğinə töhfə. "525-ci qəzet", №17 (1375),28 yanvar 2003-cü il, "Zaman" qəzeti №13 (1895) 4-5 fevral 2003-cü il, "Azərbaycan müəllimi",14 fevral 2003-cü il.
233. Tahirli A. Söz və sənətkar qüdrəti haqqında düşüncələr. "Mars" jurnalı №3-4,mart,aprel 2003-cü il.
234. Tahirli A. Cənubi Azərbaycan mətbuatının tədqiqi: problemlər,vəzifələr. "Yeni Azərbaycan" qəzeti, 06.07.03. Ardı 12.07.03.
235. Tahirli A. "Ana dili"-susmayan bir səs. "Ədəbiyyat qəzeti",18 iyul 2003-cü il.

236. Tahirli A. İ.Əfəndiyevin tarixi dramları haqqında yeni tədqiqat. "525-ci qəzet", №138 (1496),24 iyul 2003-cü il.
237. Tahirli A. Nasir və dramaturqun...lirikası. "Ədəbiyyat" qəzeti,3 oktyabr 2003-cü il.
238. Tahirli A. "Ulduzlara", "krallara" və şairlərə bir mesaj. "Ədəbiyyat qəzeti", 3 oktyabr 2003-cü il.
239. Tahirli A. Oxunduqca dəyəri artan kitab. "525-ci qəzet", №236 (1595),16 dekabr 2003-cü il.
240. Tahirli A. Azadlıq təşnəli "Azər", "Ədəbiyyat qəzeti", №2 (3388),16 yanvar 2004-cü il.
241. Tahirli A. Könüllərə məhrəm,yaralara məlhəm kitab. "Xalq qəzeti", №28 (24595),5 fevral 2003-cü il.
242. Tahirli A. "Odlu Yurd", "Qurtuluş,qurtuluş,qurtuluş deyirdi". "Ədəbiyyat qəzeti",16 aprel 2004-cü il.
243. Tahirli A. Cənubi Azərbaycan mətbuatının tədqiqi: problemlər, vəzifələr. "Bakı Universitetinin xəbərləri" (Humanitar elmlər seriyası) №1,2004-cü il.
244. Tahirli A. Alim imzası. "525-ci qəzet", №198 (1803),12 oktyabr 2004-cü il.
245. Tahirli A. İ.Əfəndiyevin publisistikası. "Ədəbiyyat qəzeti", №41 (3428), 22 oktyabr 2004-cü il.
246. Tahirli A. Mühacirət irsinə dair dəyərli tədqiqat. Pedaqoji Universitetinin xəbərləri. №3, 2004.
247. Tahirli A. Ceyhun Hacıbəylinin dini görüşləri. AMEA. Fəlsəfə və siyasi-hüquqi tədqiqatlar İnstitutu. "Politologiya" şöbəsi. "Sosial-siyasi problemlər" jurnalı. 12-ci buraxılış, 2004.
248. Tahirli A. Rus əsarətinə və bolşevizminə qarşı ideoloji mübarizə mühacirət mətbuatında. "Azərbaycan tarixi muzeyi". Bakı. 2004.
249. Tahirli A. Türkəqulun publisistikası. "Qobustan" toplusu.Bakı. №4, 2004.
250. Tahirli A. "Prometey" jurnalında və "Qafqaz almanaxı"nda Qayqaz birliyi ideyası. "Dil və ədəbiyyat" beynəlxalq elmi - nəzəri jurnal. №1 (43). Bakı, 2005.

251. Tahirli A. Azərbaycan mühacirət mətbuatı və digər nəşrləri. Ədəbiyyat məcmuəsi. AMEA Nizami adına Ədəbiyyat İntsitutunun əsərləri. 18-ci cild. Bakı, 2004.
252. Tahirli A. Azərbaycan mühacirət mətbuatı və digər nəşrləri. "Elm və həyat" jurnalı. №6. 2004.
253. Tahirli A. "Azər" jurnalının mövzusu. "Odlar yurdu" Universitetinin elmi və pedaqoji xəbərləri. №12. 2004.
254. Tahirli A. C.Hacıbəylinin publisistiksında xeyriyyəçilik, maarifçilik və məktəb problemi. "Azərbaycan məktəbi" jurnalı. №1, 2005.
255. Tahirli A. "Azərbaycan" jurnalı (Münhen).Tədqiqlər. №4. 2004. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Elm. Bakı.
256. Tahirli A. C.Hacıbəyli folklor-tədqiqatçısı kimi. AMEA Folklor İnstitutu. "Folklor" jurnalı. №4, 2004.
257. Tahirli A. "Ana dili"ndə azərbaycançılıq ideyası. AMEA Elmi Xəbərləri. № 4, 2004.
258. Tahirli A. "Aydınlıq" jurnalı. "Dirçəliş". №83-84, 2005.
259. Tahirli A. "Birləşik Qafqasya"". BDU Xəbərləri. №4, 2005
260. Tahirli A. C.Hacıbəyli publisistikasında mənəviyyat.
261. Tahirli A. "Azəri-türk". ADPU Elmi Xəbərləri. №3-4, 2005
262. Tahirli A. A.V.Yurdsevərin publisistikası. İM №4, 2004
263. Tahirli A. "Azərbaycan Yurd Bilgisi". Türkologiya. №1, 2005
264. Talıbzadə K. İnqilabi-demokratik ədəbi fikrin tribunası. "Ədəbiyyat və incəsənət", 26 dekbar 1986.
265. "Tarix" jurnalı (Bakı).
266. "Türk amacı" jurnalı (İstanbul).
267. "Türk izi" jurnalı (Ankara).
268. "Türk yolu" jurnalı (İstanbul).
269. Vəliyev Şamil. Füyuzat ədəbi məktəbi. Bakı, "Elm" nəşriyyatı, 1998, 443 səh.
270. Vəzirov X. Azərbaycan bolşevik mətbuatı sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizədə. Bakı, 1961.

271. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, Gənclik, 1991, 307 səh.
272. Yaqublu N. Azərbaycan Milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə, Bakı, 2001, 154 səh.
273. "Yeni Qafqasya" jurnalı (İstanbul).
274. Zeynalov A. "Kəşkül"də bədii ədəbiyyat, Bakı, "Elm" nəşriyyatı. 1978.
275. Zeynalov N. Azərbaycan mətbuat tarixi. Bakı, ADU nəşri, I hissə, 1973, 110 səh. II hissə, 1974, 105 səh.
276. Zərdabi H.M. Rusiyada əvvəlinci türk qəzetəsi. "Həyat" qəzeti, 1905, №115, 117, 120.

II. Mühacir müəlliflərin əsərləri

277. Abaza H. Sovetlər Birliyində nələr olur? "Qafqasya", 1952, №8.
278. Ağaoğlu M. Azərbaycanın paytaxtı Bakı haqqında qeydlər. "Odlu yurd", 1929, №1, 2.
279. Akarcalı Bülənt. Qafqazın kilidi, türk dünyasının açarı. "Azərbaycan" (Ankara), 1997, №315.
280. Akış Əli. İdil-Ural Qurtuluş hərəkatının ölməz öndəri Ayas İsaki. "Azərbaycan" (Ankara), 1963, №4-5-6.
281. Akış Əli. Böyük türk-tatar şairi Abdullah Tukayın xalqçılıq və milliyyətçilik cəbhələri. "Azərbaycan" (Ankara), 1964, №10-11-12.
282. Akış Əli. İnsan haqları və ermənilər. "Azərbaycan" (Ankara), 1988, №263.
283. Akış Əli. Bir bilginin ardından. "Azərbaycan" (Ankara), 1989, №270.
284. Aküzüm Feyzi. Kükrəyən istiqlal. "Azərbaycan" (Ankara), 1974, №210.
285. Aküzüm Feyzi. 28 May 1918-ci ildə elan edilən istiqlaldan sonra Azərbaycanda baş verən hadisələr. "Azərbaycan" (Ankara), 1988, №264.

286. Alanqun D. Dağıstanlı Aşıq Söyün. "Türk amacı", 1942, №3.
287. Altunbay Məmməd. 28 May. "Türk izi", 1952, H1.
288. Alpaut Əziz. Milli birlik. "Azərbaycan" (Münhen), 1952, №2.
289. Amirecibi S. Qafqaz məsələsi. "Qafqaz almanaxı", 1936.
290. Amirecibi S. Erməni-kürcü ittihadı münasibətilə. "Qafqaz almanaxı", 1936.
291. Arslanbek M. Şimali Qafqazda qaraçaylıların imhası. "Qafqasya", 1951, №4-5.
292. Avamişvili Z. Yaxın Şərqdə təəssübün zevali. "Qafqaz almanaxı", 1937.
293. Azərnigəh Bəhram. Fars şovinizmi və milli məsələ. "Azər", 1990, №1.
294. Azərnigəh Bəhram. Şəhərin ehtiyacı. "Azər", 1991, №5.
295. Azərnigəh Bəhram. Azərbaycan xalqının danışdığı dilin adı nədir. "Azər", 1991, №6.
296. Azərnigəh Bəhram. Mahiyyəti itirənlər, mahiyyəti itmişlər. "Azər", 1991, №6.
297. Babazadə Sadıq. Azərbaycanın sənət həyatı. "Azərbaycan Yurd Bilgisi", 1932, №4-5.
298. Bahadur A. Quzey Qafqazda xalqın topdan imhası. "Qafqasya", 1951, №1.
299. Baqration. Tarixdə Qafqaz və Rusiya. "Qafqasya", 1952, №11-12.
300. Bammat H. Hədəfimiz. "Qafqaz almanaxı", 1936.
301. Bammat H. Polşa və Qafqaz. "Qafqaz almanaxı", 1936.
302. Bammat H. Qafqaz Konfederasiyası və ermənilər. "Qafqaz almanaxı", 1936.
303. Bammat H. Erməni-gürcü ittihadı. "Qafqaz almanaxı", 1936.
304. Bammat H. Türkiyə və Qafqaz. "Qafqaz almanaxı", 1936.
305. Bammat H. Məcburi bir cavab. "Qafqaz almanaxı", 1936.
306. Bammat H. Yolumuz. "Qafqaz almanaxı", 1937.
307. Bammat H. Erməni - gürcü ittihadının zevalı. "Qafqaz almanaxı", 1937.

308. Banks V. Sovetlərdə mədəni muxtariyyət iddiası. "Birləşik Qafqasya", 1953, №3-4.
309. Battal A. Beynəlmiləl həyatdan. "Odlu yurd", 1929, №1, 2, 4, 5, 6, 9, 10, 1930, №11, 12, 13, 14.
310. Battal A. Kitab əl-idrak li-lisan əl-ətrak. "Azərbaycan Yurd Bilgisi", 1932, №6-7.
311. Baykara H. İran inqilabı və azadlıq hərəkatları. İstanbul, 1978. 220 səh.
312. Baykara H. Azərbaycan istiqlal mücadiləsi tarixi. İstanbul, 1975. s.81, 331 səh.
313. Brockelmann C. "Divani lüğəti-it-türk"ün tərcüməsi haqqında. "Türk amacı", 1942, №3.
314. Bulaq-Başı. Sovet teatrı dinsizlərin mücadilə vasitəsidir. "Birləşik Qafqasya", 1953, №3-4.
315. Buluç Sahəddin. Şamanizm. "Türk amacı", 1942.
316. Buluç Sahəddin. Altayca bir bahadur əfsanəsi. "Türk amacı", 1942, №7.
317. Cabagini V.G. Şimali Qafqaz istiqlalının ildönümü. "Qafqasya". 1952, №11-12.
318. Cəfəroğlu Əhməd. Tarixdə Azərbaycan-rus münasibətləri. "Odlu yurd", 1929, №9-10, 1930, №11, 12, 13, 14.
319. Cəfəroğlu Əhməd. Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi izləri. "Azərbaycan yurd bilgisi", 1932, №8, 9, 10, 11, 12.
320. Cəfəroğlu Əhməd. Azərbaycanın böyük matəmi - 27 Aprel 1920. "Azərbaycan yurd bilgisi", 1933, №16.
321. Cəfəroğlu Əhməd. Milli Azərbaycan Cümhuriyyətinin 15 illiyi, "Azərbaycan Yurd Bilgisi", 1933, №17.
322. Cəfəroğlu Əhməd. Azərbaycanın milli matəmi. 27 Aprel 1920. "Azərbaycan yurd bilgisi", 1934, №28.
323. Cəfəroğlu Əhməd. 28 May 1920. "Azərbaycan yurd bilgisi", 1934, №29.
324. Cəfəroğlu Əhməd. Türk kültür birliyi xadimlərindən Mir Əlişir Nəvai. "Türk amacı", İstanbul, 1942, №1.

325. Cəfəroğlu Əhməd. Azəri tarixçisi Mirzə Cəlal Qalabəyi. "Türk amacı", 1942, №4.
326. Cəfəroğlu S. XIX əsr azəri şairlərindən Sədi Qarabağı. "Türk amacı", 1942, №6.
327. Çay Abdulxalıq. Qafqazdakı vəziyyət və Türkiyə. "Azərbaycan" (Ankara), 1997, №315.
328. Çelik Fəxrəddin. Türklərdə dörd yönün dörd rənglə adlandırılması. "Türk amacı", 1942, №1, 2, 3, 4, 6, 7, 8.
329. Çəmbərəkəndli A. Dərdləşmə. "Türk izi", 1954, №5-6.
330. Daryal Fuad. Yanlış yol. "Qafqaz almanaxı", 1936.
331. Daryal Fuad. İftira və həqiqət. "Qafqaz almanaxı", 1937.
332. Daryal Fuad. Məcburi bir izah. "Qafqasya", 1951, №2-3.
333. Daryal Fuad. Məcburi bir izah... daha. "Qafqasya", 1952, №8.
334. Dövlətbəy M. Milli bölgələrdə kolxozların quruluşu. "Birləşik Qafqasya", 1953, №7.
335. Dövlətbəy M. Sovetlərdə araba nəqliyyatı. "Birləşik Qafqasya", 1953, №8.
336. Əbdülbaki. Füzulidə Qərbliyə meyl və çap olunmamış əsərləri. "Azərbaycan Yurd Bilgisi", 1932, №8-9.
337. Əbdülbaki. Qasımi. "Azərbaycan Yurd Bilgisi", 1932, №11.
338. Əbdülbaki. Bir azəri bəktaşi şairi. "Azərbaycan Yurd Bilgisi", 1934, №27.
339. Əhməd Seyid. Qızıl istila. "Odlu yurd", 1929, №3.
340. Əhməd Seyid. Vətəncüda bizlər qardaş Türkiyədə. "Odlu yurd", 1931, №2.
341. Əhməd Seyid. Qafqaz Konfederasiyası və məzlum xalqların birliyi. "Prometey", 1933, №75.
342. Əhməd Seyid. Qaspiralı İsmayıl bəy. "Mücahid", 1962, №45-46.
343. Əkbər İsmayıl. Buna nə ad qoyaq? "Azərbaycan" (Münhen), 1952, №2.

344. Əkbər İsmayıl. Məcburi bir izahat. "Azərbaycan" (Münhen), 1952, №2.
345. Əli Y. İstiqlal uğrunda. "Odlu yurd", 1929, №1.
346. Əli Y. 28 May və gənclik. "Odlu yurd", 1929, №4.
347. Əli Y. Bolşevik mətbuatına görə Türkiyə. "Odlu yurd", 1929, №9.
348. Əli Y. Azərbaycanın həyat və mətbuatından, 1930, №11, 12, 13, 14, 15.
349. Fətəlibəyli Ə.D. Qafqaz. "Azərbaycan" (Münhen), 1952, №2.
350. Gəncəli Əli. Təbrizli Saib. "Türk amacı", 1942, №1, 2.
351. Gəncəli Əli. Şirvanlı Sabir Tahirzadə. "Türk amacı", 1942, №3
352. Gəncəli Əli. Azərbaycanda mizah ədəbiyyatı örnəklərindən. "Səmaveriyyə". "Türk amacı", 1942, №4.
353. Gökgöl Çingiz. Milli dava. "Türk izi", 1952, №2-3.
354. Gökgöl Çingiz. Matəm günümüz. "Türk izi", 1953, №8-9.
355. Gökgöl Çingiz. Məhkum türk elləri. "Mücahid", 1960, №25-26.
356. Gökgöl Çingiz. Ceyhun Hacıbəylini anarkən. "Mücahid", yanvar-fevral, 1963, №53-54.
357. Hacıbəyli C. Şimali Qafqaz və Azərbaycan. "Qafqaz almanaxı", 1936.
358. Hacıbəyli C. Mənəvi pakt. "Qafqaz almanaxı", 1936.
359. Hacıbəyli Ceyhun. Visabdendən - Ştanbergə. "Azərbaycan" (Münhen), 1952, №3.
360. Hacıbəyli Ceyhun. Koordinasiya mərkəzi. "Azərbaycan" (Münhen), 1953, №6-7.
361. Hidayət Turanlı. Dürüstlük və itidal istəyirik. "Türk izi", 1952, №2-3.
362. Hizal Mustafa Zihni. Qardaş Şimali Qafqaz Cümhuriyyətinin istiqlalı. "Türk izi", 1952, №1.

363. Hizal Mustafa Zihni. Mərhum Əlixan Qantəmir. "Azərbaycan" (Ankara), 1963, №1-2-3.
364. İnsabato E. Türkiyə, İtaliya və Qafqaz. "Qafqaz almanaxı", 1937.
365. İsrafil. Azərbaycan ordusu haqqında xatirələr. "İstiqlal", 1932, №6.
366. İsrafil. Pilsutskidən bir dərs. "İstiqlal", 1932, №19.
367. Kamal. Həyatın qüvvəti. "Azəri türk", 1928, №1.
368. Kamal. 27 Aprel. "Azəri türk", 1928, №7.
369. Kamal. 28 Mayın müqəddəs xatirəsinə. "Azəri türk", 1928, №9.
370. Kamal. 15 Sentyabr. "Azəri türk", 1928, №16.
371. Kanşau Sozati. Sovetlər Birliyindəki qeyri-rus məmləkətlərinin vəziyyəti. "Qafqasya", 1952, №13.
372. Karumidze Ş. Şimal və cənub. "Qafqaz almanaxı", 1937.
373. Kazbek H. Ruslarla əlaqəmiz. "Qafqasya", 1952, №10.
374. Kazbek H. Mülliyyətlər məsələsi və milli məfkurə dönmələri. "Qafqasya", №11-12, 1952.
375. Kazbek H. Ştanberq Konfransı. "Qafqasya", 1952, №13.
376. Kazbek H. İkiüzlülərin qeyrəti. "Qafqasya", 1952, №13.
377. Kazbek H. Rusların admiral Kerk ilə mülakatı. "Qafqasya", 1952, №13.
378. Kazımbəy C. Bir daha Visbaden Konfransı. "Azərbaycan" (Münhen), 1952, №2.
379. Kazımbəy C.Qafqaz imperializm qarşısında. "Azərbaycan" (Münhen), 1952, №4.
380. Kedia S. Müştərək Qafqaz cəbhəsi. "Qafqaz almanaxı", 1937.
381. Keykur (Şeyxzamanlı) Nağı. Rus və qeyri-rus mühacirəti. "Qafqasya", 1952, №10.
382. Kəngərli Məhəmməd. Sovetlərdə erməni lobbisi. "Azərbaycan" (Ankara), 1989, №267.

383. Kəngərli Məhəmməd. Ermənistan türk adlarını dəyişdirir. "Azərbaycan" (Ankara), 1989, №267.
384. Kəngərli Məhəmməd. Dağlıq Qarabağ hadisələri qarşısında Sovetlərin tutumu. "Azərbaycan" (Ankara), 1989, №270.
385. Kolbaç Nurəddin. Xalqlar zindanı imha edilməli. "Qafqasya", 1952, №11-12.
386. Köprülüzadə F. Dədə Qorqud kitabına aid notlar. "Azərbaycan Yurd Bilgisi", 1932, №1, 2, 3.
387. Köprülüzadə F. Füzulinin yeni əsərləri. "Azərbaycan Yurd Bilgisi", 1932, №12.
388. Köprülüzadə F. İsmayıl bəy Qaspirinski. "Azərbaycan Yurd Bilgisi", 1933, №16.
389. Köprülüzadə F. Nəimi. "Azərbaycan Yurd Bilgisi", 1933, №19-20.
390. Köprülüzadə F. Sam Mirzə Səfəvi və əsəri. "Azərbaycan Yurd Bilgisi", 1933, №25.
391. Köprülüzadə F. Azəri aşıqlarından Tufarqanlı Abbas. "Türk amacı", 1942, №1, 2.
392. Köprülüzadə F. Abakan türkləri, "Türk amacı", 1942, №4.
393. Köprülüzadə F. Abbasqulu Ağa Bakıxanov. "Türk amacı",1942, №4.
394. Kösəmihalzadə Mahmud Rağib. Azərbaycanın son musiqi hərəkatları. "Azərbaycan Yurd Bilgisi", 1932, №2.
395. Kösəmihalzadə Mahmud Rağib. Azərbaycan musiqisi. "Azərbaycan Yurd Bilgisi", 1932, №9-10.
396. Kulik T. Belə bir Rusiyanı sevmək qəbulmu? "Birləşik Qafqasya", 1953, №6.
397. Kurtulan Eldəniz. Sibir qonaqları. "Azərbaycan" (Ankara), 1958, №6-7.
398. Kurtulan Eldəniz. Azərbaycanlılar və ətrafdakı siyasi vəziyyət. "Azərbaycan (Ankara), 1962, №4-5.

399. Kurtulan Eldəniz. Azərbaycanın istila ildönümü. "Azərbaycan" (Ankara), 1963, №1-2-3, Azərbaycanın istiqlal ildönümü. №4-5-6.
400. Kürdəmir Niyazi. Ermənі-gürcü birliyi. "Türk izi", 1952, №2-3.
401. Krımal E. Şimali Qafqaz istiqlalının 1918-ci ildə türk və alman mətbuatında işıqlandırılması. "Birləşik Qafqasya", 1953, №5 (22).
402. Kvinitadze G. Qüvvət birlikdədir. "Qafqaz almanaxı", 1937.
403. Qaflı Qədircan. Dağların hürriyyət şairi Kosta. "Türk amacı", 1942, №1.
404. Qaflı Qədircan. Şimali Qafqaz ədəbiyyatının başlıca xarakteri və folklor. "Türk amacı", 1942, №4.
405. Qaflı Qədircan. Dağıstan həyatında Hağurun nağılı. "Türk amacı", 1942, №5.
406. Qaflı Qədircan. Şimali Qafqazda xalq şərqçiləri, qazavat marşı. "Türk amacı", 1942, №7.
407. Qaflı Qədircan. Şimali Qafqaz ədəbiyyatından üç xalq şərqisi. "Türk amacı", 1942, №4.
408. Qaflı Qədircan. Milliyyətçi gənclər. "Mücahid", 1958, №27-28.
409. Qaflı Qədircan. Ömər Seyfəddin günü. "Mücahid", 1958, №27-28.
410. Qaflı Qədircan. Gələcək illərə ümidlə baxırıq. "Mücahid", 1962, №45-46.
411. Qantəmir Əli. Qafqaz və Rusiya. "Qafqaz almanaxı", 1937.
412. Qantəmir Əli. Qafqaz. "Qafqasya", 1951, №1.
413. Qantəmir Əli. Noy Jordaniya. "Birləşik Qafqasya", 1953, №1-2.
414. Qarabağ Muştaq. Ulu kişi. "Azərbaycan" (Ankara), 1962, №4-5.

415. Qarabağ Muştaq. Şəhid məzarında. "Azərbaycan" (Ankara), 1963, №1-2-3.
416. Qarabağ Muştaq. Qarabağ verilməz. "Azərbaycan" (Ankara), 1988, №263.
417. Qaraca Əhməd. Buludlar. "Azərbaycan" (Ankara), 1952, №1.
418. Qaraca Əhməd. Ermənilərin Azərbaycandan torpaq tələbi. "Azərbaycan" (Ankara), 1988, №263.
419. Qaraca Əhməd. Mətbuatda ermənilərə yaşıl işıq yandıran var. "Azərbaycan" (Ankara), 1988, №264.
420. Qaraca Əhməd. Haqlı mübarizəmizi kütlələrə çatdırmalıyıq. "Azərbaycan" (Ankara), 1988, №264.
421. Qaraca Əhməd. May ayı duyğuları. "Azərbaycan" (Ankara), 1990, №273.
422. Qaraca Əhməd. Azərbaycan mühacirəti siyasi misyonunun Qafqaz millətlərinə baxışı. "Azərbaycan" (Ankara), 1991, №278.
423. Qaraca Əhməd. "Azərbaycan" dərgisinin 300-cü nömrəsi. "Azərbaycan" (Ankara), 1994, №301.
424. Qaraca Əhməd. Azərbaycan mühacirətini oluşduran ölümsüzlər. "Azərbaycan" (Ankara), 1995, №303.
425. Qaraca Əhməd. Qafqaz Konfederasiyası Qafqaz cümhuriyyətlərinin təhlükəsizlik qalxanı ola bilərmi? "Azərbaycan" (Ankara), 1995, №305.
426. Qaraosmanoğlu Y. "Yeni Qafqasya" haqqında. "Azərbaycan (Ankara), 1952, №6.
427. Qardaş. "Azərbaycanda terror rejimi. "Prometey", 1927, №6.
428. Qılıncxan. Fars şovinizminin vazeleni. "Azər", 1990, №5.
429. Mağoma Ə. Qafqazın istiqlal mücadiləsi. "Qafqasya", 1951, №1.
430. Mağoma Ə. Matəm günü. "Birləşik Qafqasya", 1953, №1-2.
431. Marqvelişili T. Qafqaz milliyyətçiliyi. "Qafqaz almanaxı", 1936.
432. Mehdiyev M.Y. Milli mücadiləmizin qüvvəti. "Azəri türk", 1928, №14.

433. Mehdiyev M.Y. Beynəlmiləl siyasətdə petrol. "Azəri türk", 1928, №18.
434. Mehdiyev M.Y. Milli hərəkat və milliyyət məsələsi. "İstiqlal", 1932, №18, 1933, №25, 28, 31, 42.
435. Mehdiyev M.Y. Azərbaycan ədəbiyyatında siyasi radikallıq. "Prometey", 1929, №26.
436. Mehdiyev M.Y. Sovet maliyyəsinin tənəzzülü. "İstiqlal", 1932, №4.
437. Mehdiyev M.Y. Sovetlər və Uzaq Şərq məsələsi. "İstiqlal", 1932, №4.
438. Mehdiyev M.Y. Qafqazın faciəsi. "İstiqlal", 1932, №5.
439. Mehdiyev M.Y. Türkiyə və Avropa. "Prometey", 1932, №66.
440. Mehdiyev M.Y. Şimali Qafqazda milli hərəkat. " Prometey ", 1932, №68.
441. Mehdiyev M.Y. Qafqaz Konfederasiyası, "Prometey", 1932, №69.
442. Mehdiyev M.Y. Qafqaz dövlətlərinin konfederativ paktının proyekti barədə mülahizə. "Prometey", 1932, №70.
443. Mehdiyev M.Y. Qafqaz problemi, Qafqaz Konfederasiyası dövlətlərinin suverenliyi, "Prometey", 1932, №71.
444. Mehdiyev M.Y. Neft şirkətləri və sovetlər. "Prometey", 1932, №72.
445. Mehdiyev M.Y. Qafqaz respublikalarının müstəqilliyinin tanınması, Qafqaz Konfederasiyasında federal hakimiyyətin hüquqi strukturu. "Prometey", 1932, №72.
446. Mehdiyev M.Y. Sovet bəyannamələri. "İstiqlal", 1933, №43.
447. Mehdiyev M.Y. Mahiyyətin aşkarlanması. "Prometey", 1933, №74.
448. Mehdiyev M.Y. Səlahiyyətlərin bölüşdürülməsi. "Prometey", 1933, №74.

449. Mehdiyev M.Y. Qafqaz Konfederasiyası üzvlərinin ayrılma və ləğv olunma hüquqları. "Prometey", 1933, №76.
450. Mehdiyev M.Y. Hərb təhlükəsi. "İstiqlal", 1934, №49.
451. Mehdiyev M.Y. Erməni məsələsi, "Prometey", 1933, №76.
452. Mehdiyev M.Y. Arif Kərim. "Prometey", 1934, №89.
453. Məmməd Sadıq. XI şanlı ildönümü. "Azəri türk", 1929, №25.
454. Məmməd Sadıq Aran. Bəy Rəsulzadə Məmməd Əminə, yaxud bir həqiqət qalmasın aləmdə, Allahım, gizli... "Türk yolu", 1953, №4.
455. Məmmədzadə Mirzə Bala. Səkkiz illik yol. "Yeni Qafqasya", 1926, №4.
456. Məmmədzadə Mirzə Bala. Bakının azad olunması uğrunda döyüş - 15 Sentyabr qələbəsi. "Yeni Qafqasya", 1927, №24.
457. Məmmədzadə Mirzə Bala. Yeni türk əlifbası münasibətilə. "Azəri türk", 1928, №18.
458. Məmmədzadə Mirzə Bala. Yeni türk əlifbası və bolşevik mətbuatı. "Odlu yurd", 1929, №1.
459. Məmmədzadə Mirzə Bala. Vaxtında bir əsər. "Odlu yurd", 1929, №1.
460. Məmmədzadə Mirzə Bala. 31 Mart. "Odlu yurd", 1929, №2.
461. Məmmədzadə Mirzə Bala. Azərbaycan həyat və mətbuatından. "Odlu yurd", 1929, №3, 4, 5, 6, 7.
462. Məmmədzadə Mirzə Bala. Müsavatçılar və kommunistlər. "Odlu yurd", 1929, №2, 3.
463. Məmmədzadə Mirzə Bala. İstiqlal mücadiləsi. "Odlu yurd", 1929, №4.
464. Məmmədzadə Mirzə Bala. İstiqlalımızın iqtisadi təməli. "Odlu yurd", 1929, №4.
465. Məmmədzadə Mirzə Bala. Bolşeviklər və daşnaklar. "Odlu yurd", 1929, №5.
466. Məmmədzadə Mirzə Bala. Onuncu ildə. "Odlu yurd", 1929, №5.

467. Məmmədzadə Mirzə Bala. Azərbaycan qalaları. "Odlu yurd", 1929, №6.
468. Məmmədzadə Mirzə Bala. İflas nədən oldu? "Odlu yurd", 1929, №7.
469. Məmmədzadə Mirzə Bala. Solovkidən gələn səslər. "Odlu yurd", 1929, №7.
470. Məmmədzadə Mirzə Bala. On illik istismar. "Odlu yurd", 1930, №2.
471. Məmmədzadə Mirzə Bala. Kəndin gücü. "Odlu yurd", 1930, №3.
472. Məmmədzadə Mirzə Bala. Kəndlini əzmək siyasəti. "Odlu yurd", 1930, №5.
473. Məmmədzadə Mirzə Bala. Başdöndürücü müvəffəqiyyətlər. "Odlu yurd", 1930, №6.
474. Məmmədzadə Mirzə Bala. Şübhə altında. "Odlu yurd", 1930, №9.
475. Məmmədzadə Mirzə Bala. Azərbaycan parlamenti. "Odlu yurd", 1930, №11.
476. Məmmədzadə Mirzə Bala. Azərbaycan tarixinə aid notlar. "Odlu yurd", 1930, №11, 12.
477. Məmmədzadə Mirzə Bala. Beşillik plan haqqında. "Odlu yurd", 1930, №12.
478. Məmmədzadə Mirzə Bala. Proletar ədəbiyyatı Milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında. "Odlu yurd", 1930, №12.
479. Məmmədzadə Mirzə Bala. Ədəbiyyatda hakimiyyət qovğası. "Odlu yurd", 1930, №11, 21.
480. Məmmədzadə Mirzə Bala. Kəndli və inqilab. "Odlu yurd", 1931, №13, 30-31.
481. Məmmədzadə Mirzə Bala. Azərbaycan həyat və mətbuatından. "Odlu yurd", 1929, №3, 4, 5, 6, 7, 1931, №26.
482. Məmmədzadə Mirzə Bala. Sovetlərin aqibəti. "Odlu yurd", 1931, №26.

483. Məmmədzadə Mirzə Bala. Azərbaycan və bolşeviklər. "Odlu yurd", 1931, №27.
484. Məmmədzadə Mirzə Bala. Kommunistlər və istiqlal. "Odlu yurd", 1931, №27.
485. Məmmədzadə Mirzə Bala. Zəncirbənd elm. "Odlu yurd", 1931, №30-31.
486. Məmmədzadə Mirzə Bala. On beş dilli bir ölkə. "İstiqlal", 1932, №3.
487. Məmmədzadə Mirzə Bala. Rus istilası. "İstiqlal", 1932, №3.
488. Məmmədzadə Mirzə Bala. Türkçülük və müsavatizm. "İstiqlal", 1932, №9.
489. Məmmədzadə Mirzə Bala. Kolxoz NEP-inin mənası. "İstiqlal", 1932, №12.
490. Məmmədzadə Mirzə Bala. Moskvanın kürd siyasəti. "İstiqlal", 1932, №13.
491. Məmmədzadə Mirzə Bala. Azərbaycan necə parçalanır. "İstiqlal", 1932, №15.
492. Məmmədzadə Mirzə Bala. Dildə birlik. "İstiqlal", 1932, №18.
493. Məmmədzadə Mirzə Bala. Körpü nəzəriyyəsi. "İstiqlal", 1932, №18.
494. Məmmədzadə Mirzə Bala. Günbatançılıq. "İstiqlal", 1932, №19.
495. Məmmədzadə Mirzə Bala. Nəşrlərimiz və bolşeviklər. "İstiqlal", 1932, №20.
496. Məmmədzadə Mirzə Bala. Erməni vəhşiliyi. "İstiqlal", 1932, №21.
497. Məmmədzadə Mirzə Bala. Molla Pənah Vaqif. "İstiqlal", 1932, №21.
498. Məmmədzadə Mirzə Bala. Firdovsi. "İstiqlal", 1932, №34.

499. Məmmədzadə Mirzə Bala. Azərbaycanda. "Prometey", 1932, №67.
500. Məmmədzadə Mirzə Bala. Bir qırğının 15 illiyi. "İstiqlal", 1933, №31.
501. Məmmədzadə Mirzə Bala. 31 Mart. "İstiqlal", 1933, №31.
502. Məmmədzadə Mirzə Bala. Matəmimiz. "İstiqlal", №33, 1933.
503. Məmmədzadə Mirzə Bala. 10 il sonra. "Prometey", 1933, №75.
504. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. İstanbul.
505. Məmmədzadə Mirzə Bala. Bayraqlaşan bir şüar. "Azərbaycan" (Ankara), 1952, №2.
506. Məmmədzadə Mirzə Bala. Azərbaycan Milli Şurası. "Azərbaycan" (Ankara), 1952, №4.
507. Məmmədzadə Mirzə Bala. Azərbaycan parlamenti. "Azərbaycan" (Ankara), 1952, №9.
508. Məmmədzadə Mirzə Bala. Azərbaycanda ruslaşdırma siyasəti. "Qafqasya", 1952, №11-12.
509. Məmmədzadə Mirzə Bala. Rusiya parçalansınmı, parçalanmasınmı? "Qafqasya", 1952, №11-12.
510. Məmmədzadə Mirzə Bala. Milli istiqlal davamızın bugünkü səhifəsi. "Qafqasya", 1952, №13.
511. Məmmədzadə Mirzə Bala. Hər şeydən öncə milli istiqlal. "Qafqasya", 1952, №15.
512. Məmmədzadə Mirzə Bala. Bizdə və onlarda tarixi haqq anlayışı. "Birləşik Qafqasya", 1953, №1-2.
513. Məmmədzadə Mirzə Bala. İstiqlalın ilk şeri. "Azərbaycan" (Ankara), 1953, №3.
514. Məmmədzadə Mirzə Bala. Sovetlər Birliyində əhali və rus olmayan millətlər məsələsi. "Birləşik Qafqasya", 1953, №3-4.

515. Məmmədzadə Mirzə Bala. Mirzə Fətəli və əlifba məsələsi. "Birləşik Qafqasya", 1953, №3-4.
516. Məmmədzadə Mirzə Bala. Rus imperializmi və onun alətləri. "Birləşik Qafqasya", 1953, №5.
517. Məmmədzadə Mirzə Bala. Müstəqil Azərbaycan. "Birləşik Qafqasya", 1953, №5.
518. Məmmədzadə Mirzə Bala. Mizə Fətəli və Puşkin. "Birləşik Qafqasya", 1953, №6.
519. Məmmədzadə Mirzə Bala. İstiqlal zəfərinin dastanı. "Azərbaycan" (Ankara), 1953, №6.
520. Məmmədzadə Mirzə Bala. Bolşevik Əleyhdarları Mücadilə Koordinasiya Mərkəzi. "Birləşik Qafqasya", 1953, №6.
521. Məmmədzadə Mirzə Bala. Yeni tariximizin mühüm günlərindən. "Birləşik Qafqasya", 1953, №7.
522. Məmmədzadə Mirzə Bala. Bağırovun təmizlənməsi. "Birləşik Qafqasya", 1953, №3-4.
523. Məmmədzadə Mirzə Bala. Azərbaycan teatrının 80 illiyi. "Birləşik Qafqasya", 1953, №8.
524. Məmmədzadə Mirzə Bala. Azərbaycanın milli zəfər günü. "Birləşik Qafqasya", 1953, №9.
525. Məmmədzadə Mirzə Bala. (Nuhoğlu). Qafqazda kolxozlar necə qurulmuşdu. "Birləşik Qafqasya", 1953, №9.
526. Məmmədzadə Mirzə Bala. Milli tariximizin son 50 ili. "Azərbaycan", 1956, №1.
527. Məmmədzadə Mirzə Bala. Qafqaz ölkələri istiqlal elanının 40-cı ildönümü münasibətilə. "Azərbaycan" (Ankara), 1958, №5.
528. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Ankara. 1991, 239 səh.
529. Musazadə Məcid. Ceyhun Hacıbəyli. "Mücahid", 1963, №53-54.
530. Münşi Hilal. "Şərqdə petrol və qan" adlı əsərin müəllifi kimdir. "Odlu yurd", 1930, №13.

531. Münşi Hilal. 28 May. "İstiqlal", 1932, №10.
532. Münşi Hilal. Bolşeviklərin Azərbaycan təbliğatı və D.Bünyadzadənin "elmi kəşfləri". "İstiqlal", 1932, №12.
533. Münşi Hilal. Almaniya böhranı. "İstiqlal", 1933, №33.
534. Münşi Hilal. Millət yoludur, haqq yoludur. "İstiqlal", 1933, №35.
535. Münşi Hilal. İran və sovetlər. "İstiqlal", 1933, №35.
536. Münşi Hilal. İngiltərə və sovetlər. "İstiqlal", 1933, №39.
537. Münşi Hilal. Azərbaycan neft sənayesi. "İstiqlal", 1933, №42.
538. Münşi Hilal. Almaniya və sovetlər. "İstiqlal", 1933, №48.
539. Novruz M. Sovetlər Birliyində ÇEKA məmurlarının yetişdirilməsi. "Birləşik Qafqasya", 1953, №9.
540. Oroys M. 1963-cü il aprelin 16-da vəfat etmiş Şimali Qafqaz Milli başkanı Əli xan Qantəmirin əziz xatirəsinə. "Azərbaycan" (Ankara), 1963, №1-2-3.
541. Rəfiq Səlim. Son dövr Azərbaycan ədəbiyyatı. "Azərbaycan Yurd Bilgisi", 1932, №1.
542. Rəfiq Səlim. Türkiyə mətbuatında Məhəmməd Hadinin şeirləri. "Azərbaycan Yurd Bilgisi", 1932, №8-9.
543. Rəfiq Səlim. Azərbaycan xalq ədəbiyyatında "Aşıq Alı" dastanı. "Azərbaycan Yurd Bilgisi", 1933, №23.
544. Rəsulzadə Məmməd Əli. Qətran haqqında notlar. "Azərbaycan Yurd Bilgisi", 1933, №23.
545. Rəsulzadə M.Ə. S.Ə.Şirvaninin çap olunmamış bir şeri haqqında. "Azərbaycan Yurd Bilgisi", 1933, №24.
546. Rəsulzadə Məmməd Əmin. "Azərbaycan mətbuatının şanlı xatirəsi. "Yeni Qafqasya", 1926, №9.
547. Rəsulzadə M.Ə. Tutduğumuz yol. "Azəri türk", 1928, №1.
548. Rəsulzadə M.Ə. 15 illik əzm və cihad. "Azəri türk", 1928, №9.
549. Rəsulzadə M.Ə. Bizim yolumuz. "Prometey", 1928, №16.

550. Rəsulzadə M.Ə. Azərbaycan Respublikası. "Prometey", 1928, №17.
551. Rəsulzadə M.Ə. Hərf inqilabı cəbhəsində. "Azəri türk", 1928, №18.
552. Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. "Prometey", 1928, №21.
553. Rəsulzadə M.Ə. Əfqanıstan faciəsi. "Odlu yurd", 1929, №1.
554. Rəsulzadə M.Ə. Milliyyət məsələsi təzahürlərindən. "Odlu yurd", 1929, №2.
555. Rəsulzadə M.Ə. Öyrədən bir müsibət. "Odlu yurd", 1929, №3.
556. Rəsulzadə M.Ə. Bu günün ilhamı. "Odlu yurd", 1929, №4.
557. Rəsulzadə M.Ə. İyul hadisəsi münasibətilə. "Odlu yurd", 1929, №6.
558. Rəsulzadə M.Ə. Nadir xanın zəfəri. "Odlu yurd", 1929, №9.
559. Rəsulzadə M.Ə. Rusiya köləliyində. "Odlu yurd", 1929, №10.
560. Rəsulzadə M.Ə. Qafqaz birliyinin şüarı altında. "Odlu yurd", 1930, №8.
561. Rəsulzadə M.Ə. Tarixçiyə qarşı siyasi. "Odlu yurd", 1930, №13.
562. Rəsulzadə M.Ə. Bugünkü matəmin acısı. "Odlu yurd", 1931, №2.
563. Rəsulzadə M.Ə. May günləri. "Odlu yurd", 1931, №3.
564. Rəsulzadə M.Ə. Boğulmayan bir səs. "İstiqlal", 1932, №1.
565. Rəsulzadə M.Ə. Dünyanın iztirabı. "İstiqlal", 1932, №4.
566. Rəsulzadə M.Ə. Fitnədən qorunmalı. "İstiqlal", 1932, №11.
567. Rəsulzadə M.Ə. Müştərək Qafqaz cəbhəsi. "İstiqlal", 1932, №12.

568. Rəsulzadə M.Ə. Türkiyə və Avropa. "İstiqlal", 1932, №13.
569. Rəsulzadə M.Ə. Bir pərdə daha. "İstiqlal", 1932, №18.
570. Rəsulzadə M.Ə. Görmədikləri fil. "İstiqlal", 1932, №19.
571. Rəsulzadə M.Ə. Bir rejimin ildönümü. "İstiqlal", 1932, №20.
572. Rəsulzadə M.Ə. Fransa və Rusiya. "İstiqlal", 1932, №21.
573. Rəsulzadə M.Ə. Köhnə nəqarət. "İstiqlal", 1932, №22.
574. Rəsulzadə M.Ə. Haqq da, ümid də bizdə. "İstiqlal", 1932, №23.
575. Rəsulzadə M.Ə. Demokratiya və Sovetlər. "İstiqlal", 1932, №30.
576. Rəsulzadə M.Ə. Yeni vəhşiliklər qarşısında. "İstiqlal", 1933, №7.
577. Rəsulzadə M.Ə. Vahid istiqlalçılar cəbhəsi. "İstiqlal", 1933, №9.
578. Rəsulzadə M.Ə. Qanlı vəhşətlər. "İstiqlal ", 1933, №31.
579. Rəsulzadə M.Ə. Ortaqlı bir ildönümü. "İstiqlal", 1933, №32.
580. Rəsulzadə M.Ə. Uzaq Şərqdə. "İstiqlal", 1933, №34.
581. Rəsulzadə M.Ə. Ukrayna məsələsi. "İstiqlal", 1933, №48.
582. Rəsulzadə M.Ə. Bir tarixin mənası. "Prometey", 1933, №76.
583. Rəsulzadə M.Ə. Milli Azərbaycan hərəkatının xarakteri. "Azərbaycan Yurd Bilgisi", 1934, №29.
584. Rəsulzadə M.Ə. Sovetlərdə vəziyyət. "İstiqlal", 1934, №40.
585. Rəsulzadə M.Ə. Şəfibəyçilik. "İstiqlal", 1934, №60.
586. Rəsulzadə M.Ə. Tarixi bir akt. "İstiqlal", 1934, №64.
587. Rəsulzadə M.Ə. Qafqaz Konfederasiyası hərəkatı. "Qafqasya", 1951, №2-3.
588. Rəsulzadə M.Ə. Azərbaycan mətbuatının piri. "Azərbaycan" (Ankara), 1952, №4.
589. Rəsulzadə M.Ə. Qafqaz məsələsi. "Qafqasya", 1952, №6, 7, 8, 9, 10, 11, 12, 13, 14.

590. Rəsulzadə M.Ə. Hacıbəyli Üzeyir. "Azərbaycan" (Ankara), 1952, №8.
591. Rəsulzadə M.Ə. Azərbaycan haqqında ümumi məlumat. "Azərbaycan" (Ankara), 1952, №9.
592. Rəsulzadə M.Ə. Azərbaycanda Aprel inqilabı. "Qafqasya", 1952, №10.
593. Rəsulzadə M.Ə. Azərbaycanın qara günü "Birləşik Qafqasya", 1953, №3-4.
594. Rəsulzadə M.Ə. Azərbaycan istiqlalının elanı. "Birləşik Qafqasya", 1953, №5.
595. Rəsulzadə M.Ə. Türk ellərinin davası. "Birləşik Qafqasya", 1953, №11-12.
596. Rəsulzadə M.Ə. Şirvanlı Xaqani. "Azərbaycan Yurd Bilgisi", 1954, №37.
597. Rüstəmbəyli Şəfi. 27 Aprel 1920-ci il xatirəsi. "Azərbaycan Yurd Bilgisi", 1933, №16.
598. Sənan Sadıq. Azərbaycanın saz şairləri. "Azərbaycan Yurd Bilgisi", 1934, №2.
599. Soysal A.Z. Krım xanlığında əsilzadələr. "Türk amacı", 1942, №1.
600. Soysal A.Z. Canbəy Giray xanın bir yarlığı münasibətilə. "Türk amacı", 1942, №3.
601. Soysal A.Z. Hacı Giray xan. "Türk amacı", 1942, №4-5.
602. Süleyman Əbdülqadir. Türk qovmünün xalq ədəbiyyatında rus istilasının inikası. "Azərbaycan Yurd Bilgisi", 1932, №1, 2, 3, 4, 5.
603. Süleyman Əbdülqadir. Türküstanın milli qəhrəmanları. "Azərbaycan Yurd Bilgisi", 1932, №6-7, 8, 9, 10, 11, 15, 1933, №19-20.
604. Şakir M. Aşıq Qurbaninin 3 mənzuməsi. "Azərbaycan Yurd Bilgisi", 1932, №4-5.
605. Şakir M. Füzuli haqqında bəzi yeni məlumat. "Azərbaycan Yurd Bilgisi", 1932, №6-7.

606. Şeyxülislam Ə. Hüquq verilmir, alınır. "Yeni Qafqasya", 28 May 1927, №17.
607. Şeyxülislam Ə. Sovet Rusiyasının mənəvi təcridi. "Yeni Qafqasya", 15 iyul 1927, №20.
608. Şeyxülislam Ə. Azərbaycan necə quruldu. "Azərbaycan" (Münhen), 1952, №2.
609. Şeyxülislam Ə. Visbaden konfransı. "Azərbaycan" (Münhen), 1952, №4.
610. Şeyxzamanlı Nağı. 27 Aprel münasibətilə. "Azərbaycan Yurd Bilgisi", 1933, №16.
611. Şeyxzamanlı Nağı. 28 May münasibətilə. "Azərbaycan Yurd Bilgisi", 1933, №17.
612. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. İstanbul. 1964. 158 səh.
613. Taki Rza. Protesto fabrikaçıları. "Azərbaycan" (Münhen), 1952, №2.
614. Tembot A. Stalinin yeniceriləri. "Qafqasya", 1951, №1.
615. Təkinər Süleyman. Hadisələr qarşısında. "Qafqasya", 1952 №14.
616. Təkinər Süleyman. Azərbaycanda fikir hərəkatları. "Birləşik Qafqasya", 1953, №1-2.
617. Təkinər Süleyman. Böyük bir inqilabın doğurduğu mutlu bir gün. "Azərbaycan" (Ankara), 1953, №2.
618. Təkinər Süleyman. Mətbuat həyatında 50 il. "Azərbaycan" (Ankara), 1953, №3.
619. Təkinər Süleyman. Tarix boyunca kommunistvarı fikir və hərəkatlar. "Birləşik Qafqasya", 1953, №3-4,5.
620. Təkinər Süleyman. Mətbuat həyatında 50 il. "Birləşik Qafqasya", 1953, №6.
621. Təkinər Süleyman. Tarixi bir bayramın ildönümü. "Azərbaycan", 1954, №8.
622. Təkinər Süleyman. Kültürdə inqilab və Azərbaycan demokratiyası. "Azərbaycan", 1954, №9.

623. Təkinər Süleyman. Əlixan Qantəmirin cənazə törənində çıxış. "Azərbaycan" (Ankara), 1963, №1-2-3.
624. Təkinər Süleyman. Stalinin ölümündən on il sonra Azərbaycan. 1963, №4-5-6.
625. Tərbiyət Durna. Qul olmuş ruhlar. "Azər", 1990, №5.
626. Toğay M.F. Sevit Bikə. "Türk amacı", 1942, №1.
627. Toğay M.F. İdil-Ural, yəni Şimal türklərinin melodiyaları. "Türk amacı", 1942, №2.
628. Toğay M.F. Tarix baxımından Ağyar (Sevastopol). "Türk amacı", 1942, №3.
629. Toğay M.F. Qəyyum Naşiri. "Türk amacı", 1942, №4.
630. Toğay M.F. Şərqi Türküstan. "Türk amacı", 1942, №5.
631. Toğay M.F. Şamil. "Türk amacı", 1942, №6.
632. Toğay M.F. Kazan türklərinin melodiyaları. "Türk amacı", 1942, №6.
633. Tokayev Ç. Kremlin diktatorları. "Birləşik Qafqasya", 1953, №3-4.
634. Traho R. Qafqaz qətliamının 8-ci ildönümü. "Qafqasya", 1952, №8.
635. Traho R. Şimali Qafqazda kollektivləşdirmə. "Qafqasya", 1952, №11-12.
636. Tulabek T. Kerenskilər də mütləq itaət edirlər. "Qafqasya", 1952, №14.
637. Turqa S. Rus mühacirləri və Sovetlər Birliyində milliyyət məsələsi. "Qafqasya", 1951, №1.
638. Türkəqul Mustafa Haqqı. Azərbaycan musiqisi. "Azərbaycan" (Ankara), 1952, №5, 6, 7, 8, 9.
639. Türkəqul Mustafa Haqqı. Qızıl Rus imperiyası qan üzərində qurulmuşdur. "Qafqasya", 1952, №14.
640. Türkəqul Mustafa Haqqı. Rus imperializmi və sülh. "Qafqasya", 1952, №15.
641. Türkəqul Mustafa Haqqı. Azərbaycan musiqisinin beşiyi Qarabağ. "Azərbaycan", 1953, №1.

642. Türkəqul Mustafa Haqqı. Sovetlərdə yeni soyuq hərb taktikaları. "Birləşik Qafqasya", 1953, №1-2.
643. Türkəqul Mustafa Haqqı. Stalinin ölümü və Malenkovun direktivləri. "Birləşik Qafqasya", 1953, №3-4.
644. Türkəqul Mustafa Haqqı. Azərbaycan türklərinin istiqlal günü. "Birləşik Qafqasya" 1953, №5.
645. Türkəqul Mustafa Haqqı. Qafqaz cümhuriyyətlərinin 35-ci ildönümləri. "Birləşik Qafqasya", 1953, №5.
646. Türkəqul Mustafa Haqqı. Berlin hadisələri və sovet böhranı. "Birləşik Qafqasya", 1953, №7.
647. Türkəqul Mustafa Haqqı. Malenkov təhdid edir. "Qafqasya", 1953, №8.
648. Türkəqul Mustafa Haqqı. Adenauren zəfəri və sovet politikasının iflası. "Qafqasya", 1953, №9.
649. Türkəqul Mustafa Haqqı. "Koroğlu" ilk dəfə necə təmsil olundu. "Azərbaycan", 1953, №10.
650. Türkəqul Mustafa Haqqı. Sovetlər Almaniyada. "Qafqasya", 1953, №11-12.
651. Türkəqul Mustafa Haqqı. Rus boyunduruğunda yaşayan türklər. "Birləşik Qafqasya", 1953, №11-12.
652. Türkəqul Mustafa Haqqı. Azərbaycanın istiqlalı və musiqisi. "Azərbaycan", 1953, №14.
653. Ulubaş İbrahim. Oxucu məktubu. "Birləşik Qafqasya", 1953, №6.
654. Ünal Cəmil. Erməni məsələsi və Azərbaycan hadisələri. "Azərbaycan" (Ankara), 1988, №263.
655. Ünal Cəmil. Azərbaycanın üzü Türkiyəyə tərəf olmalıdır. "Azərbaycan" (Ankara), 1990, №273.
656. Yıxılmaz X. İranda irqçilik və şəxsiyyətpərəstlik. "Azər", 1991, №6.
657. Yıxılmaz X. İranın "bişirdiyi aş". "Azər", 1992, №7.
658. Yurdsevər A.V. Ərkənəqon bayramı. "Azərbaycan", 1952, №2.

659. Yurdsevər A.V. Xurşidbanu Natəvan. "Azərbaycan" (Ankara), 1952, №2, 3.
660. Yurdsevər A.V. Cəfər Cabbarlı. "Azərbaycan" (Ankara), 1952, №4, 5, 6.
661. Yurdsevər A.V. Aşıq Ələsgər. "Azərbaycan" (Ankara), 1952, №7.
662. Yurdsevər A.V. Atatürk və xaricdəki türklər. "Azərbaycan" (Ankara), 1952, №8.
663. Yurdsevər A.V. Məhəmməd Hadi. "Azərbaycan" (Ankara), 1952, №9.
664. Yurdsevər A.V. Abbas Səhhət. "Azərbaycan" (Ankara), 1953, №1.
665. Yurdsevər A.V. Qasım bəy Zakir. "Azərbaycan" (Ankara), 1953, №2, 3.
666. Yurdsevər A.V. Abbasqulu Ağa Bakıxanlı. "Azərbaycan" (Ankara), 1953, №5, 7, 8, 9.
667. Yurdsevər A.V. Məhsəti Gəncəvi. "Azərbaycan" (Ankara), 1953, №9.
668. Yurdsevər A.V. Şah İsmayıl Xətai. "Azərbaycan" (Ankara), 1954, №1.
669. Yurdsevər A.V. Təbii bir müttəfiq. "Azərbaycan" (Ankara), 1954, №6-7.
670. Yurdsevər A.V. Məhkum millətlər cəbhəsi. "Azərbaycan" (Ankara), 1954, №8.
671. Yurdsevər A.V. Fikirdə, sözdə, işdə birlik. "Azərbaycan" (Ankara), 1955, №6-7.
672. Yurdsevər A.V. 21 Mart Qurtuluş bayramı. "Azərbaycan" (Ankara), 1955, №12.
673. Yurdsevər A.V. 23 Aprel Milli hakimiyyət günü. "Azərbaycan" (Ankara), 1956, №1.
674. Yurdsevər A.V. Demokratların qayə birliyi. "Azərbaycan" (Ankara), 1956, №1.

675. Yurdsevər A.V. "Azərbaycan" 4 yaşında. "Azərbaycan" (Ankara), aprel 1956, №49.
676. Yurdsevər A.V. Sovetlərin din düşmənliyi. "Azərbaycan" (Ankara), 1958, №6-7.
677. Yurdsevər A.V. Əli Xan Qantəmir. "Azərbaycan" (Ankara), 1963, №1-2-3.
678. Yurdsevər A.V. Əsir millətlərin dirənişi. "Azərbaycan" (Ankara), 1974, №210.
679. Yurdsevər A.V. İnsanlıq üçün utanc qaynağı olan bir problem. "Azərbaycan" (Ankara), 1975, №215.
680. Vacnadze Data. Birimiz hamımız, hamımız birimiz üçün. "Qafqasya", 1952, №8.
681. Vacnadze Data. Tarixi hədəfimiz. "Birləşik Qafqasya", 1953, №1-2.
682. Vacnadze Data. Xaricdə Qafqaz birliyi hərəkatı. "Birləşik Qafqasya", 1953, №3-4, mart-aprel, №6 (23) 1953.
683. Validi Əhməd Zəki. Azərbaycanın tarixi coğrafiyası. "Azərbaycan Yurd Bligisi", 1932, №1, 2, 3, 4, 5.
684. Validi Əhməd Zəki. Azərbaycan türk etnoqrafiyası. "Azərbaycan Yurd Bligisi", 1933, №14, 15, 18.
685. Vəkilli Mustafa. Bugünkü tülkü. "Yeni Qafqasya", 18 iyun 1927, №18.
686. Vəkilli Mustafa. Şanlı bayram. "Azərbaycan Yurd Bilgisi", 1932, №21-22.
687. Vəkilli Mustafa. Çin səddi. "Azərbaycan Yurd Bilgisi", 1933, №23.
688. Volkan Əli. Böyük öndərin mənəvi hüzurunda. "Azərbaycan" (Ankara), 1956, №12.
689. Volkan Əli. İstiqlal həyatımızdan bir xatirə. "Azərbaycan" (Ankara), 1958, №2-3.
690. Zagidze V. Tiflisin NKVD zindanlarında. "Birləşik Qafqasya", 1953, №3-4.

691. Zərdabi Safvet. Azərbaycan istiqlalına gedən yollar. "Türk izi", 1952, №2-3.
692. Zurabişvili M. Amerikanın millətlər məsələsi politikasında dəyişiklik. "Birləşik Qafqasya", 1952, №1-2.
693. Zurabişvili M. Amerika Komitəsi və biz. "Birləşik Qafqasya", 1953, №11-12.

III. Türk dilində

694. Akpinar. A.Y.Bayraklaşan şexsiyyet. M.Ə.Rəsulzadənin "Azerbaycan Cümhuriyyeti (keyfiyyeti teşekkülü ve şimdiki veziyyeti)" adlı kitabına (İstanbul, 1990) ön söz.
695. Bayramoğlu N.N. ABD-de lobi faaliyetleri. Ankara, 1985. 78 səh.
696. Çulçu Murat. Ermeni intirikalarının perde arkası. Torlakyan davası. İstanbul, 1990, 338 səh.
697. Hartil Leonard Ramsden. Bir ermeninin anlamında Azerbaycan olayları (1918-922). İstanbul, 1990, 286 səh.
698. Koçaş M. Sadi. Tarixte ermeniler ve türk ermeni ilişkileri. İstanbul, 1990, 458 səh.
699. Şimşir Sebahattin. Azerbaycanlıların Türkiyede siyasi ve kültürel faaliyetleri (1920-1991), Azerbaycan kültür derneyi yayınları. Ankara. №149, 256 səh.
700. Uzun Enver. Güney Azerbaycan başın tarixi (1816-2002).
701. "Türk kültürü" jurnalı (İstanbul).
702. "Türkçe sözlük". Türk Dil Kurumu. Ankara, 1988, I hissə 745 səh., II hissə 1679 səh.

IV. Rus dilində

703. Энгельс Ф. Эмигрантская литература (К.Маркс и Ф.Энгельс. Сочинения. Москва, 1961, том 18, 548 стр.)

704. Канадцев И.К. Очерки Закавказской жизни. Баку, 1990, 128 стр.
705. Кочарлинский Ф. Краткий обзор татарской периодической печати, "Закавказье", №2, 21 декабр 1906.
706. Караев А.М. Азербайджанская эмиграция 1920-1930гг. (Культурологический аспект деятельности). Дисс. на соис. уч. ст. канд. философских наук. Мос. 1991.
707. Кирокосян С. Младотурки перед судом истории. Ереван. 1986.
708. Шкаренков Л.К. Агония белой эмиграции. Москва, 1987.
709. Шахбази Т. История тюркской рабочей печати. Баку, 1923.
710. Величко В.Л. Кавказ. Баку, 1990, 220 стр. В.

V. Fransız dilində

711. "Promethee" jurnalı (Paris).
712. "La Nouvelle Revue"jurnalı (Paris).

ƏLAVƏLƏR

1. Abid Tahirlinin mühacirət problemi ilə bağlı tədqiqatları haqqında rəylər və ürək sözləri

525-ci qəzet
www.525ci.com
Azərbaycan
ingilis
rus dillərində
Hər an yeniləşir
6 iyul 2005-ci il, çərşənbə, №126 (1982). Qiyməti 900 manat
www.525ci.com

İMZASININ VƏ SÖZÜNÜN SAHİBİ

Nə qədər ağır və acı olsa da, etiraf olunmalıdır ki, müxtəlif səbəblərdən bir sıra müəlliflər illər ötdükdən sonra özlərinə məxsus yaradıcılıq nümunələrinin bəzilərindən imtina edirlər. Əsər bədii cəhətdən zəif olduğundan, mövzu atuallığını və əhəmiyyətini itirdiyindən, yaxud da ki, rejimin, ideologiyanın təsiri, tələbi ilə qələmə alındığından yumşaq desək, müəllif öz imzasına sahib çıxmır. Məqsədim belə yazarları ittiham etmək, qınamaq yox, imzasından heç vaxt xəcalət çəkməyən müəllifləri təqdir etməkdir, qiymətləndirməkdir. Belələri təəssüf ki, azdır. Lakin var. Onlardan biri, istedadlı qələm sahibi, mühacirət probleminin, xüsusilə mətbuatının dəyərli tədqiqatçısı Abid Tahirlidir.

2001-ci ildə "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı Abid Tahirlinin "Sözlə yarananlar, sözü yaşadanlar" adlı növbəti kitabını çapdan buraxdı. Burada müəllifin son illərdə milli hərəkat, milli ideologiya mövzusunda qələmə aldığı sanballı məqalələrlə yanaşı onun ötən əsrin 80-ci illərinin əvvəllərində - sovet rejimi və ideologiyasının ədəbiyyata və sənətə qənim kəsildiyi dövrdə

qələmə aldığı oçerklər, müsahibələr də verilmişdi. Sözün düzü, müəllifin - milli azadlıq hərəkatının vüsət aldığı dövrdə Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəylə ("Fəaliyyətsizlik milli xəyanətdir"), siyasi icmalçı, prof. Şirməmməd Hüseynovla ("Biz hara gedirik"), millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Sabir Rüstəmxanlı ilə ("Millətimin istedadına və gücünə güvənirəm") müsahibələri aktual mövzulara həsr edilsə, son dərəcə sərt üslubda qələmə alınsa da, məni o qədər təəccübləndirmədi. Çünki, həmin dövr üçün belə yazılar təbii idi.

Lakin ötən əsrin 80-ci illərində A.Tahirlinin S.Rəhimovla ("Əsrin yaşıdı ilə söhbət") prof. C.Qəhrəmanovla ("Böyük xəzinə"), prof. Həmid Araslı ilə ("Çalış öz xalqının işinə yara"), Əzizə Cəfərzadə ilə ("Aləmə səs sal"), prof. Yəhya Məmmədovla ("Vətən mənə oğul desə...) müsahibələri məni heyrətləndirdi, həm də sevindirdi. Əminəm ki, vaxtı ilə mətbuatda dərc olunan həmin materialları kitaba daxil edən müəllif bir an da olsa, tərəddüd etməmişdir. Çünki, həmin yazılarda müəllif pafoslu ifadə və ibarələrlə kommunizm quruculuğunu, onun xidmətində duran sənəti müdafiə və tərənnüm etmir, ona hakim olan milli hiss və duyğuların təsiri ilə müsahibələrində ədəbiyyatın, elmin mövcud problemlərini təhlil predmetinə çevirir, araşdırır, müvafiq nəticələr çıxarır.

Abid Tahirlinin fəal əməkdaşlığı ilə nəşr olunan "Vətən" Cəmiyyətinin orqanı "Odlar yurdu" qəzetinin Azərbaycan mətbuatı və ictimai fikir tarixində əvəzsiz xidmətləri hər kəsə məlumdur. Məhz həmin qəzetdə Abid Tahirli öz qələminin qeyrət və qüdrətini bütün gücü ilə nümayiş etdirmişdir. Onun həmin dövr publisistik yaradıcılığı zəngin, maraqlı və məhsuldardır. Yüz minlərlə oxucu taleyin hökmü ilə qürbət ölkələrdə məskunlaşan həmvətənlərimizin həyat və düşüncə tərzi, qayğı və problemləri, arzu və amalları haqqında A.Tahirlinin böyük sevgi ilə qələmə aldığı yazılardan xəbərdar olur və onlarda Azərbaycan mühacirəti barədə ictimai rəy formalaşırdı. Digər tərəfdən isə

A.Tahirlinin istər həmin məqalələrini, istərsə də sonrakı ədəbi-publisistik fəaliyyətini Azərbaycan naminə fədakar fəaliyyətə bir çağırış kimi də qəbul etmək olar.

Abid Tahirli publisist fəaliyyəti ilə yanaşı elmi-tədqiqatla da ciddi məşğul olur. Həmin sahədə də o, diqqətçəkən, maraqlı və faydalı nəticələrə nail olmuşdur. Namizədlik dissertasiyası Azərbaycanın ədəbi-mədəni, ictimai-siyasi və mətbu tarixində parlaq iz qoyan Ceyhun Hacıbəylinin həyat və yaradıcılığına həsr olunmuşdur.

Yaxşı xatırlayıram. Bir dəfə - 1996-cı ildə, müdafiə ərəfəsində onun elmi rəhbəri professor Yaşar Qarayev Abid Tahirlinin C.Hacıbəyli ilə bağlı elmi araşdırmaları ilə əlaqədar "onun yazdıqları əslində doktorluq işinə bərabərdir" demişdir. Bu, doğrudan da belə idi və A.Tahirli müdafiəyə qədər C.Hacıbəyli ilə bağlı müxtəlif mətbu orqanlarda onlarca irihəcmli məqalə dərc etdirmişdir.

Elmi araşdırmalardan yorulmayan, əksinə daha dərinə nüfuz edən, arxiv sənədləri ilə işləməkdən mənən qidalanan, zövq alan A.Tahirli Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin doktorantıdır. Onun doktorluq işinin mövzusu da çox maraqlı bir sahəyə- mühacirət mətbuatının tədqiqinə həsr edilmişdir. A.Tahirlinin mühacirət jurnalistikasının, mətbuatının tarixinə dair qəzet və jurnallarda, eləcə də elmi məcmuələrdə çox sayda elmi məqalələri, "Azərbaycan mühacirəti" (Bakı, "Tural-Ə" nəşriyyatı, 2001) və iki kitabdan ibarət "Azərbaycan mühacirət mətbuatı" adlı monoqrafiyası (I hissə, Bakı, QAP-poliqraf, 2002-ci il, 158 səh.,II hissə, Bakı, "Ozan", 2003-cü il, 276 səh.) çapdan çıxmışdır. Kitabın birinci hissəsində Azərbaycan mühacirlərinin "Yeni Qafqasya", "Odlu yurd", "Azərbaycan yurd bilgisi" (İstanbul), "Azərbaycan" (Paris), "İstiqlal", "Qurtuluş" (Berlin), "Azərbaycan" (Ankara) kimi mətbu orqanları, onların nəşr tarixi, milli istiqlal uğrunda ideoloji mübarizəsi mövzusu, ideya istiqaməti, habelə yazarları, dərc olunmuş materialların dil-üslub,

sənətkarlıq xüsusiyyətləri haqqında məqalələr verilmişdir.

Kitabda həmçinin ayrı-ayrı mühacir publisistlərin fərdi yaradıcılığı və fəaliyyəti ilə əlaqədar maraqlı materiallar, mühacirət mətbuatının tədqiqi ilə bağlı digər müəlliflərin araşdırmalarına münasibəti əks etdirən yazılar da oxucuların diqqətinə təqdim olunmuşdur.

Bu sahədə tədqiqatlarını uğurla davam etdirən Abid Tahirli "Azərbaycan mühacirət mətbuatı" kitabının ikinci hissəsində "Ana dili" (Bonn), "Aydınlıq" (London), "Azər" (Berlin) kimi qəzet və jurnallar, habelə Qafqaz birliyi mövzusu ilə əlaqədar "Prometey" (Paris), "Qafqaz almanaxı" (İstanbul), "Qafqasya" (Münhen), "Birləşik Qafqasya" (Münhen), "Azərbaycan" (Ankara), "Azərbaycan" (Münhen), "Türk izi" (Ankara), "Türk yolu" (İstanbul), "Türk amacı" (İstanbul), "Mücahid (Ankara) kimi nəşrlərin fəaliyyətindən ətraflı bəhs etmişdir.

Kitabda müəllifin mühacirətin digər problemləri ilə bağlı mətbuatda dərc olunmuş bir sıra aktual məqalələri də verilmişdir. Əsər ölkənin ali məktəblərinin jurnalistika fakültəsinin tələbələri və Azərbaycan mühacirəti problemi ilə maraqlananlar üçün dəyərli elmi qaynaqdır.

Etiraf edim ki, A.Tahirlinin tükənməyən axtarmaq, araşdırmaq, yazmaq ehtirası, həvəsi məni heyrətləndirir. Bəzən mənə elə gəlir ki, o günün 24 saatını işləyir. Bu marağın, vurğunluğun səbəbini o, tədqiqat sahəsi ilə əlaqələndirir:

-Azərbaycan tarixi və mədəniyyətinin ayrılmaz parçası olan mühacirət irsi son dərəcə maraqlı və zəngindir. Sovet hakimiyyəti dövründə diqqətdən kənar saxlanılmış və son illər topladığım belə bir sərvətlə dərindən və məsuliyyətlə məşğul olmağı özümə borc bilirəm və bu işdən mənən qidalanıram. Digər tərəfdən isə mühacirət irsində daha qabarıq nəzərə çarpan sabaha sarsılmaz inam hissi mənə doğma və yaxındır. Hüseyn Baykara 1975-ci ildə, əgər belə demək mümkünsə, Sovet imperiyasının "çiçəkləndiyi" bir dövrdə qələmə aldığı "Azərbaycan istiqlal mücadiləsi tarixi" kitabına yazdığı "Ön söz"də deyirdi ki, çevrəmdə bulunan yaxın və uzaq dostlardan, bu kitabı yazdığıma görə məni qınayanlar vardı: Yəni, sən kiminlə zarafat edirsən. Bax, ABŞ başkanı Ford Vladivostoka Brejnevi ziyarətə gedir". Mən isə onlara belə cavab verirdim: "Tarixin qəribə cilvələri və sürprizləri var. Sabahın tarixi də çox sürprizli olacaq. Bu kitab Azərbaycanın istiqlal davasının bir əlifbasıdır".

Yaxud Nağı Şeyxzamanlı 1964-cü ildə qələmə aldığı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabında yazırdı ki, bütün müqəddəratıma inandığım kimi, ona da inanıram ki, nə rus, nə də qurulacaq bu və ya digər rejim Azərbaycanda əsaslı uyğunlaşmayacaq və yaşamayacaqdır. Sovet imperiyasının çökəcəyi, yerində müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının qurulacağı barədə istiqlal aşiqlərinin böyük inamla söylədiyi fikirlərin tarixi ötən əsrin 20-ci illərindən başlanır. M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, C.Hacıbəyli, Fuad Daryal, Mir Yaqub Mehdiyev və digər mücahidlərin məqalələrində Azərbaycanın istiqlalına inam əsas xətt kimi keçir.

... Bir məclisdə dostlarımızdan biri A.Tahirli haqqında ürək dolusu danışdı və sonda dedi: "Beş kitab müəllifi Abid Tahirli bu gün yaradıcılığının ən parlaq dövrünü yaşayır". Mən qələm dostumuz haqqında onun xoş sözlərinə şərik olduğumu bildirdim. Sonda əlavə etdim: "Elə bilirəm ki, onun yaradıcılığı həmişə parlaq olmuşdur".

Və bu sözlər zarafatla deyilməmişdi. Məncə, yaradıcılığı bu şəkildə mərhələlərə bölmək düzgün yanaşma deyil. Fikrimcə, nə vaxt yazılmağından asılı olmayaraq, əsər dəyərlidirsə, zamanın sınaqlarına dözürsə, o, parlaqdır, solmazdır. Abid Tahirlinin qələmi simalı, məsləkli qələmdir, o dünən də belə idi, bu gün də belədir, əminəm ki, sabah da belə olacaqdır. Ən başlıcası da elə budur...

Məhərrəm Qasımlı
filologiya elmləri doktoru,
professor

Kredo

AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATININ FƏDAKAR TƏDQİQATÇISI

Azərbaycan mühacirəti haqqında son illərdə dəyərli tədqiqat işləri yazılmış və yazılmaqdadır ki, bu da çox təqdirəlayiqdir. Alimlərimizin bir sıra tabular üzündən məşğul ola bilmədikləri və yaxud qeyri-intensiv məşğul ola bildikləri, elmi-ədəbi ictimaiyyətə, Azərbaycan xalqına təqdim edə bilmədikləri mühüm bir mövzu – Azərbaycan mühacirəti mövzusu geniş bir tədqiqat müstəvisində öyrənilir və bu təbiidir.

Azərbaycanın da daxil olduğu post-sovet məkanında ötən əsrin 60-cı illərindən başlayan "yumşalma", 80-ci illərin sonundan isə "demokratikləşmə və aşkarlıq" dövründə həyata keçirilən tədbirlər əslində sovet imperiyasının tükənməkdə olan ömrünü uzatmağa xidmət edən ictimai-siyasi, iqtisadi proseslər idilər, lakin istər-istəməz həmin faktorlar xalqımızın milli-mənəvi intibahında yeni bir mərhələnin başlanğıcına da təkan verirdi və onun qarşısını almaq artıq mümkün deyildi.

Azərbaycan Xalq Cümhuriyyəti, erməni soyqırımı, Stalin repressiyaları, Azərbaycanın mühacirət irsi və s. kimi problemlər ətrafında milli maraqlarımıza cavab verən çoxsaylı elmi tədqiqatlar məhz bu illərdən aparılmağa başlamışdır. Lakin, ötən təqribən 20 ilə yaxın bir müddətdə günümüz üçün aktuallıq kəsb edən bu mövzulara aid onlarla kitabın, yüzlərlə elmi-publisistik məqalələrin yazılmasına baxmayaraq, bu proses bütün aktuallığını saxlamaqdadır.

Bəri başdan deyək ki, "müasir Azərbaycan mühacirətinin yaradıcılıq axtarışları bədii aspekti ilə deyil, elmi-nəzəri və publisistik aspekti ilə seçilir. İyirminci yüzildə Azərbaycan ədəbiyyatının mühüm bir qolu mühacirətdə yaranmışdır. Əsrin başlanğıcında (sonralar isə Azərbaycan Xalq Cümhuriyyəti və II Cahan savaşı illərində) irtica və təqiblərdən yaxasını qurtararaq Türkiyə və çeşidli Avropa ölkələrinə sığınan Azərbaycan mühacirəti fərqli bir ədəbi məktəbin əsasını qoymuş, bu təməl üzərində çox zəngin olan bir ədəbiyyat yaratmışdır. Müasir Azərbaycan mühacirəti oturuşmadığı üçün daha çox mətbuata önəm vermiş və bu sahədə müəyyən uğurlar əldə etmişdir. Buna görə də mühacirətin yaradıcılıq axtarışları bədii aspekti ilə deyil, elmi-nəzəri və siyasi-publisistik çaları ilə seçilir, ədəbiyyatşünaslıq istisna olmaqla, ədəbiyyat sahəsində onun fəaliyyəti nəzərə çarpacaq imzalarla müşayiət olunmur" (Sultanlı V. Ədəbi-nəzəri illüstrasiyalar. Bakı, Azərnəşr - 2000, səh. 27).

Bu baxımdan, publisistikamızın layiqli qələm sahibi, mühacirət irsimizin tanınmış araşdırıcısı Abid Tahirlinin son tədqiqat işlərindən olan iki hissəli "Azərbaycan mühacirət mətbuatı" əsəri (Bakı, Qapp-Poliqraff"-2002; Bakı, "Ozan"-2003) öz elmi sanbalı və nəzəri konseptuallığı ilə diqqəti cəlb edir.

Məlumat üçün qeyd edək ki, Abid Tahirli 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycan müstəqil mətbuatının flaqmanlarından olan "Odlar yurdu" qəzetində redaktor müavini, daha sonralar "Vətən" cəmiyyətində Avropa və Amerika ölkələri şöbəsinin müdiri işləmişdir. İş təcrübəsində onun mətbuat tariximiz, mühacirət irsimizlə bağlı əldə etdiyi faktlar, topladığı materiallar, bu mövzulara həsr etdiyi elmi, publisistik məqalələr Abid Tahirlinin elmi yaradıcılığının əsas kursunu da müəyyənləşdirmiş oldu. Tədqiqatçının namizədlik dissertasiyasının

mühacir yazıçı-publisist, naşir, redaktor, tərcüməçi Ceyhun Hacıbəylinin həyat və yaradıcılığına həsr olunması təsadüfi deyildir.

Elmi tədqiqatını Azərbaycan mühacir irsinin, xüsusən mühacir mətbuatımızın tədqiqinə həsr edən Abid müəllimin nəzəri, təcrübi professionallığı, bəziləri kimi işə həvəskar deyil, əsl sənətkar kimi yanaşması onun hər bir əsərinin əsl səviyyə göstəricisidir.

Onun 2002-ci ildə işıq üzü görmüş "Azərbaycan mühacirət mətbuatı" kitabının I fəslində Azərbaycan mühacirlərinin İstanbulda nəşr etdikləri "Yeni Qafqasya", "Odlu yurd", "Azərbaycan yurd bilgisi", Parisdəki "Azərbaycan", Berlindəki "İstiqlal" nəşrləri, onların tarixi, mövzusu və ideya istiqaməti, yazarları, dərc olunmuş materialların dil-üslub, sənətkarlıq xüsusiyyətləri haqqında yazılmış məqalələri verilmişdir. Burada həmçinin, mühacir-publisistlərin konkret mövzularla bağlı yaradıcılığı və fəaliyyəti barədə qələmə alınmış materiallar, habelə mühacirət mətbuatının tədqiqi və başqa problemləri haqda yazılmış məqalələr də oxucuların diqqətinə çatdırılır.

Müəllif çox düzgün olaraq mühacirət mətbuatımızın tədqiqinə milli mətbuat anlayışı kontekstindən yanaşmışdır. Azərbaycan mətbuatı anlayışını:

- Çar Rusiyası dövründəki Azərbaycan mətbuatı;
- Sovet İttifaqı dövründəki Azərbaycan mətbuatı;
- Cənubi Azərbaycan mətbuatı;
- Azərbaycan mühacirət mətbuatı;
- Müstəqil Azərbaycanın mətbuatı (1918-1920-ci illər və 1991-ci ildən sonrakı illər) bölgüsündə təqdim edən A.Tahirli qısa da olsa, hər dövrün elmi tədqiqatlarda nə dərəcədə əks etdirildiyi haqda məlumat verir. Mühacirət jurnalistikası ilə bağlı bölümdə deyilir ki, hələ XX yüzilliyin əvvəllərindən indiyədək H.Zərdabi, F.Köçərli, C.Hacıbəyli, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Topçubaşov, N.Nərimanov, T.Şahbazi, Ə.Abid, daha sonra N.Axundov, Ə.Mirəhmədov, A.Zeynalov, N.Zeynalov, A.Zamanov, Q.Məmmədli, F.Qasımzadə, Ş.Qurbanov, X.Məmmədov, Ş.Novruzov, Ə.Məmmədov, M.C.Cəfərov, C.Xəndan, Ş.Hüseynov, T.Rüstəmov, S.Hüseynov, T.Rüstəmova və başqaları tərəfindən mətbuat tarixinə aid xeyli kitab nəşr olunmuş, onlarca məqalə çap edilmişdir. Lakin kommunist rejiminin, ideologiyanın təsiri, tələbi ilə mətbuat tarixinin araşdırılmasında - xüsusilə mətbu orqanın proqramı, məramı, ideoloji, tarixi, siyasi, mənəvi yönümü ilə bağlı təhriflərə, qərəzli münasibətlərə yol verilirdi.

Mühacirət mətbuatı tariximizin tədqiqində yeni mərhələ hesab edilə biləcək 1980-ci illərin sonu 90-cı illərin əvvəllərində isə mühacirət mətbuatı ilə bağlı daha çox informativ yazılar qələmə alınırdı. A.Tahirli bu irsin daha dərindən araşdırılması istiqamətində xalq yazıçısı Elçinin böyük əməyini qeyd edir, onun "Odlar yurdu" qəzetində dərc olunmuş proqram-məqaləsini xüsusi vurğulayır:

"...eyforiyaya qapılmadan Azərbaycan mühacirətini bir qurum kimi öyrənməli, elmi-nəzəri şəkildə onun demoqrafik, siyasi-ictimai və sosioloji təsnifatını verməliyik. İndiyə qədər məlum səbəblər üzündən bu sahədə, yəni Azərbaycan mühacirətinin öyrənilməsi sahəsində çox az iş görülmüşdür, ciddi, sanballı tədqiqatlar yox dərəcəsindədir, mühacirətə birtərəfli münasibət, bu münasibətdəki bədnam sinfilik prinsipi uzun zaman hakim ideologiyanın tərkib hissəsi olmuşdur" (Elçin, "Odlar yurdu" qəzeti, №21, 1991-ci il).

Azərbaycan mühacirət irsinin, mühacirət mətbuatının tədqiqində son vaxtlar kifayət qədər iş görüldüyünü yazan A.Tahirlinin fikrincə "mühacirət mətbuatının həm tədqiqində, həm də tədrisində iki məsələyə də diqqət yetirilməlidir".

Bunlardan birincisi, Azərbaycan elmi ictimaiyyətində ilk mü-

hacir nəşri ilə bağlı olan fikirlərdir. A.Tahirli 1923-cü ilin sentyabrında İstanbulda M.Ə.Rəsulzadənin rəhbərliyi və Sədi Əfəndinin redaktorluğu ilə çıxan "Yeni Qafqasya"nın ilk mühacirət qəzeti olması fikrini qəbul etmir və qənaətini təkzibolunmaz faktlarla əsaslandırır. Abid Tahirli digər müəlliflərdən fərqli olaraq Mirzə Cəlilin 1921-ci ildə Təbrizdə – İranda nəşrini davam etdirdiyi "Molla Nəsrəddin" jurnalını mühacirət mətbuatımızın ilkini hesab edir. O, M.Cəlilin 1921-ci ildə bolşevik repressiyasına tuş gəlməməsi üçün Təbrizə məhz mühacir etdiyini, bu qədim Azərbaycan şəhərinin hüquqi baxımdan İran ərazisi olduğunu yazır və fikrinin birmənalı təsdiqi üçün Əziz Mirəhmədovun "Molla Nəsrəddin: dünən, bu gün, sabah" adlı məqaləsindən çox tutarlı bir sitat gətirir:

"...fevral və oktyabr inqilabları" adı ilə məşhurlaşan hadisələrin imperiya xalqlarına, o cümlədən azərbaycanlılara xoşbəxtlik gətirə bilməyəcəyini dərk edirdi; arvadı Həmidə xanımın malikanə, torpaq, məktəb sahibi olması, "mülkədar-xeyriyyəçi qadın" kimi, qardaşı Ələkbərin isə İran inqilabı fədailərindən və Səttarxanın yaxın silahdaşlarından biri kimi tanınması, erməni-daşnak canilərinin Qarabağdakı vəhşilikləri zamanı silah götürüb Xankəndindəki vuruşlarda iştirak etməsi və s. kimi səbəblər ədibin Təbrizə mühacirətini labüd etmişdi".

A.Tahirlinin vacib bildiyi və geniş elmi təhlilə cəlb etdiyi ikinci məsələ isə Azərbaycan mühacirət mətbuatı və mühacirət jurnalistikası anlayışlarına münasibətidir.

A.Tahirli artıq Azərbaycanda mühacirət mətbuatı anlayışının formalaşdığını, onun elmi tədqiqatı və tədrisi istiqamətində önəmli addımlar atıldığını, lakin, mühacirət jurnalistikamızın elmi-tədqiqat predmetinə çevrilməməsini təəssüf hissi ilə qeyd edir.

Doğrudur, ayrı-ayrı müəlliflər bu və ya digər xadimin həyat və fəaliyyətindən bəhs edərkən pərakəndə halda olsa da, onla-

rın xarici ölkələrdə jurnalistlik fəaliyyətini işıqlandırırlar. Lakin "bəhs etdiyim sahə o qədər aktual, eyni zamanda zəngindir ki, mövzu mütləq ayrıca tədqiqat predmeti kimi dərindən, ətraflı öyrənilməli və ali məktəblərin müvafiq fakültələrində tədris edilməlidir" - qənaətində olan müəllif Azərbaycan mühacirət irsinin öyrənilməsində önəmli mərhələ təşkil edən mühacirət jurnalistikasının diqqətdən kənar qalmasını haqlı emosionallıqla tənqid edir: "Dünya jurnalistikasının öyrənilməsi və öyrədilməsi təqdirəlayiqdir, lakin bu xəzinəyə son dərəcə gözəl tövhələr vermiş Azərbaycan mühacirət jurnalistikası niyə diqqətdən kənarda saxlanılmalıdır?!"

Müəllif daha sonra Azərbaycan mühacirət jurnalistikasının görkəmli nümayəndələrindən olan Cəmaləddin Əfqani, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Məhəmməd Hadi, Ceyhun Hacıbəylinin həyat və yaradıcılığından, onların Türkiyə, Misir, İngiltərə, Fransa, Almaniya kimi dövlətlərin mətbu orqanları ilə əməkdaşlıqlarından, qələmə aldıqları yazıların ideya, mövzu, məzmun etibarı ilə önəmindən çox geniş və əhatəli şəkildə bəhs açmışdır.

Azərbaycan mühacirət irsi, mühacirət mətbuatı və mühacirət jurnalistikası kimi anlayışlara daha çox dolğun və elmi-nəzəri ümumiləşdirmələr mövqeyindən aydınlıq gətirən Abid Tahirli daha sonra müxtəlif illərdə və müxtəlif ölkələrdə azəri mühacirlərin nəşr etdikləri "Yeni Qafqasya", "Odlu yurd", "Azərbaycan", "Azərbaycan yurd bilgisi" jurnalları "İstiqlal" qəzeti və s. haqqında geniş elmi təhlilə, analitik yanaşma tərzinə əsaslanan məlumatlar verir.

Vacib olan məsələlərdən biri də tədqiqatçının bu mətbu orqanların təhlilini verməzdən öncə konkret dövrün, mühacir dərnəklərinin ideya fəaliyyətində meydana gələn fikir dəyişikliklərinin və bu kimi problemlərin işıqlandırmasıdır. Qeyd etmək lazımdır ki, məsələyə belə yanaşma tərzi oxucunu daha da bilgi-

ləndirməyə, mühacirət mətbuatı ilə bağlı problemlərə daha dərindən nüfuz etməyə xidmət edirsə, digər tərəfdən tədqiqatçının elmi-nəzəri hazırlığına, onun ciddi mütəxəssis olduğuna dəlalət edir.

Buradan aydın olur ki, ətrafında Məmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Şəfi bəy Rüstəmbəyli, Əhməd Cəfəroğlu, Xəlil Xasməmmədov, Əmin Abid, Hilal Münşi, Əhməd Qaraca, Abdul Vahab Yurdsevər, Mustafa Haqqı Türkəqul, Süleyman Təkinər, Cəmil Ünal, Mir Yaqub Mehdiyev, Babazadə Sadıq və digər mühərrirləri toplayan mühacir mətbu orqanlar Azərbaycan milli istiqlalının bərpa edilməsi, rus bolşevizminin iç üzünün açılması, mühacir ziyalılarımızın ümumi amal ətrafında təşkilatlanması uğrunda mübarizə aparmış, ədəbiyyatımızın, mədəniyyətimizin, tariximizin, milli-mənəvi dəyərlərimizin mühacirətdə qorunub saxlanılması və təbliği ilə məşğul olmuşlar. Lakin mühacirət mətbuatı yalnız bu məsələlərlə kifayətlənməmiş, sovet əsarətində olan bütün türk xalqlarının və Qafqazın ağrı-acılarını, beynəlxalq aləmdə baş verən siyasi dəyişiklikləri də işıqlandırırdı.

Kitabda o da vurğulanır ki, bu tipli mövzular daha çox "Yeni Qafqasya" jurnalının əsas ideya istiqamətini təşkil edirdi: "Doğrudan da "Yeni Qafqasya"nın nəşri ilə mühacirlər arasında bir canlanma, fəallıq yarandı. İlk nömrəsində dərc olunan proqram məqaləsindən aydın olur ki, "Yeni Qafqasya" bir milli inamla işə başlayaraq Azərbaycan, Qafqaz və əsir türklərin milli istiqlal davasını tanıtmağı özünün əsas vəzifəsi hesab etmişdir".

Mühacir mətbu orqanlarımız sırasında ən uzun ömürlü olan və nəşri günümüzə qədər davam edən "Azərbaycan" jurnalı A.Tahirlinin bu tədqiqatında daha çox müraciət etdiyi nəşr sayıla bilər. Tədqiqatçı, hətta digər məcmuələrdəki müəyyən məsələlərə izahat gətirməsi üçün bu jurnaldakı məqalələrdən həm

də əsas mənbə kimi istifadə etmişdir. Zənnimizcə, bu amili onunla izah etmək olar ki, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin təsis etdiyi "Azərbaycan" jurnalı 1952-ci ildən günümüzə qədər uzun bir inkişaf yolu keçmiş və bu jurnalın yazarları Azərbaycan mühacirətinin I dalğasını – yəni, 1920-30-cu il mühacirətini təmsil edən aydınlarımız idi. Məhz bu baxımdan "Azərbaycan"ın səhifələri 1950-ci ilə qədər mövcud olan mühacirət irsimizlə bağlı maraqlı və tədqiqatlarda istifadəsi vacib olan dəqiq faktlara malikdir.

A.Tahirli jurnalın bütün fəaliyyət dövrünü izləyərək məzmununa, mövzusuna, mübarizə əzminə görə onu şərti olaraq 4 mərhələyə bölür:

I – 1952-1956, II - 1956-1986, III - 1986-1991, IV - 1991-ci ildən sonrakı illər.

Bu mərhələlər üzrə jurnalın fəaliyyətini dəyərləndirən tədqiqatçı "...mühacirlərin mücadilə silahı olan "Azərbaycan"ın bütün nömrələri bir yerdə Azərbaycan haqqında ensiklopediyadır" ifadəsi ilə jurnalın Azərbaycan mətbuatındakı yerini və rolunu layiqli şəkildə qiymətləndirmişdir.

Kitabda "İstiqlal" qəzeti, "Odlu yurd", "Azərbaycan yurd bilgisi" jurnalları, "Azərbaycan" məcmuəsi, bu nəşrlərin fəaliyyət dairəsi, müraciət edilən mövzu, irəli sürülən ideya, mühərrirləri haqqında olduqca geniş bilgilər verilmişdir. Xüsusilə M.Ə.Rəsulzadə, M.Bala, H.Münşi, Ə.Cəfəroğlunun həyat və yaradıcılığına, publisistik fəaliyyətlərinə dair çox maraqlı məlumatlara rast gəlinir.

Diqqəti çəkən məqamlardan biri A.Tahirlinin mühacirət mətbuatımızda geniş təhlil edilən erməni soyqırımı mövzusudur. Xalqımızın erməni zülmü ilə bağlı qan yaddaşını daha da canlandırmaq və beynəlxalq aləmin diqqətini bu məsələyə yönəltmək, inandırmaq baxımından tədqiqatın əhəmiyyəti çox böyükdür. Müəllif insanı dəhşətə gətirən fakt və materialları, mü-

hacir aydınlarımızın ürək sızladan yazılarını hal-hazırkı erməni işğalı, erməni zülmü ilə də paralellər aparmışdır.

Abid Tahirlinin araşdırmalarından aydın olur ki, erməni separatizmi Sovetlərə qarşı istiqlal mücadiləsini mühacirətdə davam etdirən bütün Qafqaz xalqları üçün bir problemə çevrilmişdi. Bu məsələ "Azərbaycan mühacirət mətbuatı" kitabının 2003-cü ildə nəşr olunmuş II hissəsinin "Mühacirət mətbuatında Qafqaz birliyi mövzusu" bölməsində daha qabarıq şəkildə qələmə alınıb.

XIX əsrin 30-cu illərindən Qafqaz xalqlarının Çar Rusiyasına qarşı apardıqları mücadilələrindən doğan Qafqaz birliyi ideyası, onun təkamülü, qafqazlıların milli istiqlal savaşlarında oynadığı rol, bu məsələnin II Dünya müharibəsindən sonra mühacirət mətbuatında yenidən canlandırılması müəllif tərəfindən çox uğurlu bir şəkildə təqdim edilib. Buradan aydın olur ki, Azərbaycan mühacirləri arasında bu ideyaya bağlı fikirlər heç də birmənalı olmamış, onun tərəfdarları və əsasən qatı pantürkist və panislamist əleyhdarları da var idi. Bu fikir ayrılıqları isə çox vaxt çəkişmələrə, qruplaşmalara və qütbləşmələrə səbəb olurdu. A.Tahirlinin fikrincə: "Mühacirlər arasında qruplaşmalar, münaqişələr həmin dövr mühacirətinə xas cəhətlər idi".

Lakin M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi Azərbaycan mühacirlərinin böyük bir qismi Qafqaz birliyi ideyasını dəstəkləyirdilər. Onlar inanırdılar ki, Qafqaz birliyi hərəkatının son hədəfi - bütün Qafqazın rus əsarətindən xilası və Qafqaz Federasiyasının yaradılması istiqlal savaşının əsas qayəsini təşkil etməlidir. Daxili narazılıqlara baxmayaraq, digər Qafqaz mühacir komitələri də bu ideyanı dəstəkləyirdilər. Bu ideyanın konkret sənəd və aktlarda təsbitinə gəldikdə isə, ermənilər hər dəfə özlərini kənarda tuturdular. Bunun əsas səbəbini araşdıran müəllif belə bir nəticəyə gəlir ki, bunun əsas səbəbi Qafqaz Federasiyası ideyasının ermənilərin "Böyük Ermənistan" arzusunu təhlükə altına alması idi.

Tam əminliklə demək olar ki, Azərbaycan mühacirət mətbuatının əsas ideya istiqamətlərindən birini təşkil edən Qafqaz birliyi anlayışı Abid Tahirlinin bu kitabında fundamental bir şəkildə tədqiq edilmişdir. Bu mövzuyla əlaqədar "Prometey" (Paris), "Qafqaz almanaxı" (İstanbul), "Qafqasya" (Münhen), "Birləşik Qafqasya" (Münhen), "Azərbaycan" (Münhen), "Azərbaycan" (Ankara), "Türk izi" (Ankara), "Türk yolu" (İstanbul) adlı nəşrlərdən, habelə "Mücahid" (Ankara), "Ana dili" (Bonn), "Aydınlıq" (London), "Azər" (Berlin) kimi qəzet və jurnallardan ətraflı söhbət açılmışdır.

Mühacirət mətbuatımızda Cənubi Azərbaycan mövzusu da A.Tahirlinin II hissədə geniş yer ayırdığı və maraqlı fikirlər irəli sürdüyü aktual problemlərdəndir.

Müəllifin tədqiqatından aydın olur ki, bizim mühacirət mətbuatımızda "1980-ci illərin əvvəllərinədək ... Cənubi Azərbaycan mövzusuna demək olar ki, təsadüf edilmir". Bu amili mühacir mücahidələrin Cənubi Azərbaycanla təmaslarının zəifliyi, yaxud onların bu mövzuya biganəliyi ilə qətiyyən əlaqələndirməyən A.Tahirli apardığı araşdırmalarıyla belə nəticəyə gəlir ki, siyasi mühacirət bütün qüvvəsini Rusiyanın, bolşevizmin ifşasına, yenicə süquta uğramış Azərbaycan Xalq Cümhuriyyətinin taleyinə yönəltməyə səfərbər etmişdir. Bu şəraitdə Cənubi Azərbaycan mövzusunu qabartmaq isə diqqəti əsas problemdən – Azərbaycanın itirilmiş istiqlalından və bolşevizmin işğalçı mahiyyətindən yayındıra bilərdi.

Əsərdə irəli sürülən mövzuların aktuallığı və rəngarəngliyinə, zəngin mənbələrə, bu sahəylə bağlı qələmə alınmış fikir və düşüncələrə istinadən əldə edilmiş nəticələrin elmi sanbalına, tədqiqatın həcminin genişliyinə baxmayaraq, kitabın hər iki cildi səlis, rəvan və çox oxunaqlı bir dildə qələmə alınmışdır. Heç şübhəsiz, iki hisseli bu kitab təkcə Azərbaycan mühacir mətbu-

atının deyil, ümumən Azərbaycan mühacir irsinin öyrənilməsi və təbliğinə layiqli bir töfhədir. Təsadüfi deyildir ki, Abid Tahirlinin həmin kitablarından Bakı Dövlət Universitetində, Azərbaycan Beynəlxalq Universitetində, "Xəzər" Universitetində, "Təfəkkür" Universitetində dərs vəsaiti kimi istifadə olunur.

Abid Tahirli tədqiqatlarının sanbalı, çəkisi ilə fərqlənən alimlərdəndir. Lakin o, araşdırmalarında ardıcıllığı, fədakarlığı, prinsipiallığı və məhsuldarlığı ilə daha çox seçilir. Qarşıladığı 50-ci yaşının az qala yarısını mühacirət probleminə həsr etdiyi elmi-publisistik yaradıcılığı və nəhayət onun qələmə aldığı bu monoqrafiya dediklərimizi təsdiqləyir.

Bayram AĞAYEV
filologiya elmləri namizədi

Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. ...Sonra düşmənin düşmənliyi, dostun doğruluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar.

Həsən bəy Zərdabi

Ədəbiyyat Qəzeti
www.edebiyyatqazeti.com
24 iyun 2005-ci il № 25 (3464) 1934-cü ildən çıxır

AZƏRBAYCAN MÜHACİRƏTİNİN TARİXİ YOLU

Abid Tahirli: Azərbaycan mühacirəti. Bakı, Tural-Ə Nəşriyyat Poliqrafiya Mərkəzi, 2001.

Azərbaycan mühacirətinin tarixi iki yüz illə ölçülür. Bu problemlə məşğul olan əksər araşdırıcılar ölkədən ilkin mühacir axınlarının Azərbaycan torpaqlarının Rusiya ilə İran arasında bağlanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra başlandığı fikrində şərikdirlər. Azərbaycan mühacirşünaslığı fənni isə hələ çox cavandır, yalnız ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra təşəkkül tapa bilmişdir. Amma buradaca qeyd etmək gərəkdir ki, ciddi uğurları var. Əgər ilkin mərhələdə bu sahədə çalışanlar ötən yüz il ərzində yaranmış zəngin mühacirət irsimizi görkəmli ictimai-siyasi xadimlərimiz, ədiblərimiz alimlərimizin əsərlərini Vətəndə tanıtmaq qayğısına qalır, onların həyat və yaradıcılığına daha çox diqqət yetirirdilərsə, artıq mühacirşünaslığa dair ümumiləşdirici əsərlər də ərsəyə gəlməkdədir. Uzun illər bu sahənin, eyni zamanda öyrənilməsi və nəzəri məsələləri ilə məşğul olmuş Abid Tahirlinin "Azərbaycan mühacirəti (tarixi, mətbuatı, mədəniyyət mərkəzləri)" kitabı bunun bir faktıdır.

Kitabın birinci bölməsi məhz adında aktuallanmış problemləri araşdırır. "Mühacirət tarixinə bir nəzər" məqaləsində problem bu sahədə mövcud digər fikir və mülahizələrlə polemika və

qarşılıqlı analiz çərçivəsində nəzərdən keçirilir. Belə bir qənaət hasil olunur ki, "Hər mühacirət dalğasının özünəməxsus spesifik xüsusiyyəti, tarixi şəraiti və səbəbləri olduğundan, onun hər bir dəstəsinə fərdi yanaşılmalıdır". Məhz bu kontekstdə son yüzilin Azərbaycan mühacirətinin beş dövr daxilində daha əsaslı təsnifatına cəhd olunur: 1905-1907-ci illərdən sonra, 1915-1920-ci illərdən sonra, 1920-1930-cu illərdə, II Dünya müharibəsindən sonra, 1970-1980-cı illərin cənub mühacirəti.

Əgər birinci məqalədə Azərbaycan mühacirlərinin tarixən gördüyü işlər yığcam şəkildə ümumiləşdirilirsə, "Mədəniyyət mərkəzləri" yazısında siyasi və kültür mühacirətimizin 1980-ci illərin sonu- 1990-cı illərin əvvəlləri üçün gerçək vəziyyət, fəaliyyət səciyyəsi ayrı-ayrı ölkələrin nümunəsində təfərrüatlı şərh olunur. "Mətbuat" məqaləsində isə milli mühacirətin fəaliyyətində önəmli yer tutan bu sahənin tarixi və bu gününə işıq salınır, əhəmiyyəti və problemləri üzə çıxarılır.

Kitabın "Portretlər" adlanan ikinci bölməsi oxucunu çağdaş Azərbaycan mühacirətinin canlı mənzərəsi ilə tanış etmək niyyəti güdür. Abid Tahirli tanınmış jurnalistlərimizdəndir və tale elə gətirib ki, onun bir jurnalist kimi məşhurlaşmasında neçə illər çalışdığı "Vətən" cəmiyyəti, "Odlar yurdu" qəzeti bilavasitə rol oynayıb. 1987-ci ildə yaranmış cəmiyyətin xaricdə yaşayan həmvətənlərimizlə birbaşa, intensiv əlaqələr yaradılmasında rolu, fəaliyyəti bu gün artıq yaxın tariximizin bir səhifəsinə çevrilmişdir. Bu mövzuda əsasən 1988-1993-cü illərdə mətbuatda dərc olunmuş çoxlu sayda müsahibə, oçerk, portret, icmal və şərhlərini kitaba daxil etməklə müəllif nəinki həmin dövrdə Vətənlə mədəniyyət körpüsü qurmağa çalışan mühacir soydaşlarımızın yaddaqalan portretini oxuculara təqdim etmiş olur, eləcə də "Vətən" cəmiyyətinin bu mərhələdəki tarixi işini yazıya gətirir. Bir çox epizodlarla yanaşı, o zaman cəmiyyətin sədri kimi gərgin fəaliyyət aparmış yazıçı Elçinlə "Beynə qida, gözə nur, dizə qüvvət" adlı söhbət də məhz bunun faktıdır.

Onlar -- Türkiyədə, Avropada, Amerikada, Yaxın Şərqdə yaşayan məşhurlarımız, Vətən eşqi, xiffəti, Vətən ruhu, Vətən adıyla iş görüb, bir araya gəlmək, fəaliyyət göstərmək istəyən mühacir soydaşlarımız kimlərdir? Rəssamlar Davud və Əyyub İmdadiyan qardaşları, İbrahim Əhrari, Fransa kommunisti İbadulla Əlimzadə, fotorepartyor Rza Diqqəti, professorlar Qulamrza Səbri Təbrizi, Şapur Ənsari, İren Melikoff, naşir İldırım Dağyeli, Azərbaycanın YUNESKO təmsilçisi Ramiz Abutalıbov, həkim Nurəddin Qərəvi, şair-tədqiqatçı Əbdüllətif Bəndəroğlu, yazıçı Ümm-Ül-Banin, onlarla başqaları; bir çoxlarının fəaliyyəti bu gün də göz qabağında diqqət çəkir. Bəziləri haqqında bu gün kifayət qədər məlumat olmadığından kitabın oyatdığı xatirələr məxsusi əhəmiyyət kəsb edir.

Abid Tahirlinin "Azərbaycan mühacirəti" kitabı ən yaxın tarix də əks olunmaqla, əsas etibarilə tarixi mövzudadır. Bu baxımdan kitabdakı problem-yazılar məxsusi diqqət cəlb edir. Bunlardan bəziləri -- "Azərbaycan mədəniyyət mərkəzlərinin İstanbulda keçirilən (1-3 noyabr 1990-cı il) beynəlxalq qurultayında məruzə" və bunun iziylə yazılmış "Qurultay qurtardı, lakin...", 1997-ci ildə dünya azərbaycanlılarının Los-Ancelesdə keçirilən konqresinin iziylə qələmə alınmış "Cəhdlər niyə boşa çıxır, yaxud boş cəhdlər kimə lazımdır" məqalələri birbaşa tarixin içindən yazılmışdır və milli mühacirətin ağrılı həqiqətlərini üzə çıxarır. Belə ki, ən yaxın tariximiz də göstərir ki, Azərbaycan mühacirətinin tarixi uzun olsa da, başlıca problemi -- milli birlik, həmrəylik, vahid bir məqsəd ətrafında birləşib milləti təmsil etmək amalı aktual olaraq qalır. Başqa bir yazı isə 2001-ci ildə qələmə alınmışdır və "Mühacirət mövzusunda yazarkən..." adlanır. Burada müəllif Azərbaycan mühacirəti barədə yazan sərişdəsiz qələm əhlinin asanca "diaspor", "lobbi", "lobbiçilik" kimi terminləri işlətməsinə təəccüb ifadə edir, gerçək həqiqətlərin daha acı, milli mühacirətin məzmununun mürəkkəb olduğunu göstərir.

Həqiqətən də, bu günlər şahidi olduğumuz Dünya Azərbaycanlılarının I qurultayı milli diaspor probleminin aktuallığını irəli sürdü, tarixdə ilk dəfə olaraq dünya azərbaycanlılarını vahid bir ideya -- azərbaycançılıq ideologiyası ətrafında bir yerə yığa bildi. Bizdə milli diaspor hərəkatının fəallaşması yalnız 1993-cü ildən sonra başlayır. Azərbaycan dövlətinin dəstək və səyləri nəticəsində dünyanın hər yerində yaşayan azərbaycanlı icmalarının təşkilatlanması, bir araya gəlməsi, fəaliyyətini genişləndirməsi soydaşlarımızın son halda tarixi Vətənə, I qurultaya toplaşmaları ilə sonuclandı.

Dünya Azərbaycanlılarının I qurultayı milli diasporumuzun problemlərinə aydınlıq gətirməklə, eyni zamanda çoxsaylı, müxtəlif tərkibli Azərbaycan mühacirətinin milli birlik ideyasını irəli sürdü, gələcək həyat və fəaliyyət yoluna işıq saldı. İnanıram ki, Azərbaycan mühacirətinin bu yeni səhifələri Abid Tahirlinin mühacirət tariximizin şərəfli yoluna həsr olunmuş sanballı kitabının növbəti nəşrlərində əksini tapacaqdır.

T.ƏLİŞANOĞLU
"Ədəbiyyat qəzeti" 23 noyabr, 2001

XALQ QƏZETİ
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
www.xalqqazeti.com

AZƏRBAYCAN MÜHACİRƏTİNİN PROBLEMLƏRİNƏ YENİ BAXIŞ

Azərbaycan imperiya caynağından qurtulan kimi zaman-zaman öz doğma yurd-yuvasından perik salınmış övladları ona doğru pərvazlanmağa başladılar. Yəqin ki, Yaqub Zurufçunun ayrılığın özünü belə yandırıb-yaxan "Ayrılıq" mahnısını, qarmonçalan Rəhmanın ana, yurd həsrəti ilə göynəyə-göynəyə dilləndirdiyi "Segah"ı yaxşı xatırlayırsınız. "Vətən" cəmiyyətinin nəşr etdirdiyi "Odlar yurdu" qəzetinin hər yeni nömrəsi isə qürbətdə yaşayan soydaşlarımızla aramızdakı tikanlı məftilləri qırır, torpağımızın mühacir balalarını Vətənə səsləyirdi.

Bu qəzetdə əsl vətəndaş mövqeyi ilə, Vətənə və onun övladlarına böyük məhəbbətlə dərc olunan yazılar arasında jurnalist Abid Tahirlinin məqalələri böyük maraqla qarşılanırdı. Taleyinə mühacirlik, qəriblik yazılmış həmvətənlərimizin yurd yanğısını, el-oba həsrətini, xaricdəki həyat tərzini, fəaliyyətini oxuculara çatdırmaqla A.Tahirli onları addımbaaddım Vətənə yaxınlaşdırırdı.

Sonralar siyasi proseslərin gedişatı, hadisələrin müxtəlif istiqamətlərdə inkişafı sübut etdi ki, Vətən üçün onun sərhədlərindən kənarda yaşayanlar da mühüm işlər görə bilərlər. Təəssüf ki, o illər Azərbaycan mühacirlərinin birləşməsi, təşkilatlanması üçün artıq öz müstəqilliyini qazanmış dövlətimiz tərəfindən heç bir tədbir həyata keçirilmədi. Halbuki beynəlxalq aləmdə

təklənmiş, qaniçən, vəhşi kimi qələmə verilən azərbaycanlılar üçün bu, hava-su kimi lazım idi.

Mühacirlərimiz öz fəaliyyətlərini yaratdıqları cəmiyyətləri yaşatmaq və ara-sıra mədəni tədbirlər keçirməklə məhdudlaşdırırdılar. Mühacirətin təşəkkülü və mövcudluğu məsələləri isə yalnız jurnalist tədqiqatı ilə araşdırılırdı. Bütün bunlar nəticə etibarı ilə Azərbaycan diasporunun formalaşmasına mane olurdu.

"Odlar yurdu" qəzetində mühacirət mövzusundakı yazıları ilə oxucuların yadında qalan Abid Tahirli bu sahədə tədqiqat xarakterli ilk sanballı əsəri qələmə almağa müvəffəq olub. Onun "Azərbaycan mühacirəti" adlı kitabı bu günlərdə nəfis şəkildə çap edilmişdir. Kitabda Azərbaycan mühacirətinin təşəkkül tarixi, coğrafiyası, həyat tərzi, sosial tərkibi, sayı, mədəniyyət mərkəzləri, mətbuatı, eləcə də qürbətdə məskunlaşan soydaşlarımızın Vətən yolundakı fəaliyyətlərindən ətraflı bəhs olunur, mühacirətin problemləri zəngin qaynaqlar əsasında araşdırılır.

A.Tahirli son yüz ildə mühacirətin formalaşmasını beş dövrə ayırır. I dövr — 1905-1907-ci illərdəki təbəddülatlardan yaranan mühacirət, II dövr — 1915-1920-ci illərdə ADR-in süqutundan sonra yaranan mühacirət, III dövr — 30-cu illərin repressiyalarından yaranan mühacirət, IV dövr - İkinci Dünya müharibəsindən sonra formalaşan mühacirət, V dövr — 70-80-cı illərdə Türkiyə və İrandan çıxan azərbaycanlılardan ibarət mühacirət.

Kitabın sonrakı hissələrində isə soydaşlarımızın qürbət ölkələrdə təsis etdikləri mədəniyyət mərkəzlərinin fəaliyyətləri barədə, Azərbaycan mühacirətinin problem və qayğılarını, cəmiyyətdəki mövqeyini, mənəvi dünyasını əks etdirən mətbuat haqqında söhbət açılır.

Oxucular bu kitab vasitəsi ilə eyni zamanda xaricdə yaşayan bir neçə həmvətənimizi də yaxından tanımaq imkanı əldə edəcəklər.

Mətanət AĞAYEVA
"Xalq qəzeti" 13 iyun 2001

XALQ QƏZETİ
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
www.xalqqazeti.com

MİLLİ MƏTBUATIMIZIN MÜHACİR QANADI

Azərbaycan sərhədlərindən kənarda işıq üzü görən mühacir nəşrlər milli mətbuatımızın ən dəyərli nümunələrindəndir. Təəssüf ki, bu nümunələr məlum səbəblər üzündən nəinki tədqiqatlardan kənarda qalmış, hətta sovet təəssübkeşlərinin qərəzli münasibəti ilə üzləşmişdir. Xalqımızın mühacir övladlarının həyatı ilə maraqlanan, fəaliyyətini araşdıran, bu sahədə sanballı elmi-tədqiqat əsərlərinin müəllifi, yazıçı-jurnalist Abid Tahirli yenicə çapdan çıxmış "Azərbaycan mühacirət mətbuatı" kitabında öz araşdırmalarını ilk dəfə toplu şəklində oxuculara çatdırır.

Azərbaycanda, Türkiyədə, Rusiyada, Almaniyada, Fransada, Polşada, ABŞ-da, Argentinada və neçə-neçə yaxın-uzaq məmləkətlərdə son nəfəsinədək Vətənimizin istiqlalı ideyasına sadiq qalaraq, onun uğrunda fəal ideoloji mübarizə aparmış mücahidlərin əziz xatirəsinə ithaf etdiyi bu kitabında müəllif onların İstanbulda çap etdikləri "Yeni Qafqasya", "Odlu yurd", "Azərbaycan yurd bilgisi", Parisdə və Berlində çıxardıqları "Azərbaycan", "İstiqlal", Ankarada buraxdıqları "Azərbaycan" adlı nəşrlərin müəllifləri, burada dərc olunan materialların sənətkarlıq xüsusiyyətləri barədə geniş məlumat verir.

A.Tahirlinin öz tədqiqatlarında gəldiyi nəticə belədir ki, ilk mühacir nəşr Mirzə Cəlilin 1921-ci ildə Təbrizdə çapını davam etdirdiyi "Molla Nəsrəddin" jurnalıdır. Çünki Mirzə Cəlil bir dövlətdən başqa bir dövlətin ərazisinə keçmək məcburiyyətində qalmış, deməli, mühacirət həyatı keçirmişdir. Kitabın ilk bölmə-

sində müəllif böyük filosof, şair Əlibəy Hüseynzadənin, mühacirət jurnalistikasının görkəmli nümayəndəsi Əhməd bəy Ağaoğlunun, yazıları "Le Figaro", "Le Revue des deux Monges" və s. kimi Fransanın tanınmış qəzet və jurnallarında dərc olunan Ceyhun Hacıbəylinin də həyat və fəaliyyətinə ümumi nəzər salır və onların mühacir mətbuatı tarixindəki xidmətlərindən söhbət açır.

Kitabda sözügedən hər bir qəzet və jurnal haqqında müfəssəl məlumat verilir. Onların yaranma səbəbləri, bu nəşrləri araya-ərsəyə gətirənlərin əziyyətləri, mövzuların rəngarəngliyi geniş şərh olunur.

1920-ci ilin aprel işğalından sonra qırmızı imperiyanın caynağından zorla qurtulan Azərbaycan mücahidlərinin əksəriyyəti qardaş Türkiyəyə pənah aparmışdı.

O dövrdə mühacirətdəki qələm sahiblərimiz Azərbaycandakı bütün hadisələri diqqətlə izləyir və bu eybəcərliklərə öz münasibətlərini nəşr etdirdikləri qəzet-jurnallarda bütün dünyaya çatdırırdılar.

A.Tahirlinin tədqiqatları onu da sübut edir ki, mühacirətdəki qələm ustalarımız tək Azərbaycanın dərdini deyil, imperiya işğalı altındakı bütün türk millətlərinin başına gətirilənləri də öz yazılarında dünya xalqlarına çatdırmışlar. Bizim mühacir nəşrlərimiz çap olunduqları ölkələrin kütləvi informasiya vasitələrinin də diqqətindən kənarda qalmamış, yeri gələndə mötəbər mənbə kimi burada dərc olunan materiallara istinad edilmişdir.

Bu qəzet-jurnallar həm də milli mədəniyyətimizin, ədəbiyyatımızın təbliğatçısı və daşıyıcısıdır. Vətəndə baş verən hər bir ədəbi-mədəni hadisə, yenilik mütləq bu nəşrlərin səhifələrində öz əksini tapırdı. Qan-qada ilə dolu şanlı tariximizin şahidləri və salnaməçiləri öz fədakar mübarizələri ilə tədqiq və təbliğ olunmaq haqqını qazanmışlar.

Mətanət AĞAYEVA
"Xalq qəzeti"
№-255. 5 noyabr 2002

XALQ QƏZETİ
İŞÇİSİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
www.xalqqazeti.com

SÖZDƏN YARANANLARIN SÖZÜ

Filologiya elmləri namizədi, jurnalist Abid Tahirlinin bu günlərdə "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında çap edilmiş "Sözlə yarananlar, sözü yaşadanlar" kitabı xalqın taleyində, milli-mədəni şüurunda, tarixində sözün rolundan söhbət açır.

Bu kitabda XX əsrdə, xüsusilə ötən yüzilliyin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycan xalqının tarixində və taleyində iz qoyan hadisələrə milli şüur, milli hərəkat, milli ideologiya kontekstində nəzər salınır, hadisələr şərh edilir, söz, sənət sahiblərinin, siyasət adamlarının fəaliyyətindən bəhs olunur. Müəllifin qeyd etdiyi kimi, xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət-ənənələri, həyat tərzi, xarakteri sözdə yaşayır, Şifahi və yazılı ədəbi nümunələr söz xəzinəmiz millətin ən böyük sərvətidir. Bu kitab da öz sahiblərini, onların irsini, sözlərində yaşayan, müqəddəs miras kimi nəsillərdən-nəsillərə ötürülən məslək, əqidə və idealları, bu yoldakı cəfakeşliyi, fədakarlığı, eyni zamanda sözün insanda yaratdığı hiss-həyəcanı, sevinc və kədəri anmaq kimi bir niyyətdən yaranmışdır.

Kitabın "Milli hərəkat milli ideologiya və mətbuat" adlanan I hissəsində 1988-ci ilin yanvarından nəşrə başlayan, elə ilk nömrələrindən həm respublikamızda, həm qürbətdə yaşayan həmvətənlərimiz arasında böyük marağa səbəb olan, səhifələrində xalqı düşündürən, narahat edən problemlərdən söhbət açan "Vətən" cəmiyyətinin orqanı "Odlar yurdu" qəzetinin nəşr tarixindən, fəaliyyətindən bəhs olunur.

Bu qəzet zamanın çox təlatümlü bir dövründə nəşrə başlamışdı. Üç əlifba ilə çap olunan, xaricdəki həmvətənlərimiz ara-

sında da geniş yayılan qəzetin 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində respublikamızı dünya ictimaiyyətindən təcrid edən informasiya blokadasını yarmaqda müstəsna xidmətləri danılmazdır. "Odlar yurdu" qəzeti dünyaya səpələnmiş soydaşlarımızdan soraq verir, illərlə bir-birinə həsrət qalan doğmaları qovuşdururdu. Qəzetin hər nömrəsini böyük maraqla izləyən oxucular onun səhifələrində tariximizin uzun illər xalqdan gizlədilən məqamları, Azərbaycan Xalq Cümhuriyyəti, onun liderləri, atributları, repressiya illərinin dəhşətləri, müasir dövrün problemləri haqqında səhih məlumatlar əldə edirdilər. 20 Yanvar hadisəsi ilə bağlı "Odlar yurdu"nda dərc olunan reportajları, fotoşəkilləri qəzetin daimi oxucuları, yəqin ki, yaxşı xatırlayırlar. A.Tahirli də bu qəzetin əməkdaşı kimi onun fəaliyyətini geniş şəkildə şərh edə bilib.

Kitabın II fəslində isə A.Tahirlinin Azərbaycanın görkəmli siyasi, ictimai xadimləri, sənət adamları ilə müsahibələri verilib.

"Tədqiqatlar və tədqiqatçılar" adlanan III fəsil görkəmli dramaturq İlyas Əfəndiyevin xatirəsinə həsr olunmuş "Sözün ağsaqqalı, ağsaqqal sözü" məqaləsi ilə başlayır. Bu bölmədə A.Tahirli bir neçə məqaləni ədəbi-mədəni, ictimai-fikir tariximizdə öz yeri olan Ceyhun Hacıbəylinin yaradıcılığına həsr etmişdir. Müəllif bu məqalələrdə oxucunu C.Hacıbəylinin həyat və yaradıcılığı ilə tanış edir, onun publisistikasında islami dəyərlərlə bağlı faktlardan, mətbuat tariximizin ilk araşdırıcılarından biri kimi bu sahədə, həm də folklor sahəsində apardığı tədqiqatlardan söhbət açır.

Sonuncu bölmədə isə oxucular "Son ucu ölümlü dünya" adı altında müəllifin valideynlərinə həsr etdiyi, kövrək notlarla qələmə alınmış xatirələrlə tanış olacaqlar. A.Tahirli bu bədii-publisistik qeydlərində cəmiyyət üçün layiqli vətəndaşlar yetirən sadə zəhmət adamlarının portretini yarada bilib.

Mətanət AĞAYEVA
"Xalq qəzeti",
25 dekabr 2001

Mədəniyyət
Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin orqanı
№ 14 (215) Mart 2001-ci il. Qəzet 1991-ci ildən çıxır Qiyməti 1000 manat

SÖZ SİLAHA ÇEVRİLƏNDƏ...

Abid Tahirlinin "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında çapdan çıxan yeni kitabı "Sözlə yarananlar, sözü yaradanlar" adlanır. Müəllif yazdığı qısa müqəddimədə özünün məramını və publisistik məqalələrdən, elmi araşdırmalardan ibarət toplunun məziyyətlərini belə səciyyələndirir:

"Xalqımızın tarixi, mədəniyyəti, ədəbiyyatı, adət-ənənəsi, həyat tərzi, xarakteri sözdə yaşayır. Şifahi və yazılı ədəbi nümunələr, — söz xəzinəmiz, millətin ən böyük sərvətidir. Bu kitab söz sahiblərini, onların irsini, sözlərində yaşayan, daşlaşan, müqəddəs miras, varlıq kimi nəsillərdən-nəsillərə ötürülən məslək, əqidə və idealları, bu yoldakı cəfakeşliyi, fədakarlığı, eyni zamanda sözün hər bir insanda yaratdığı hiss-həyəcanı, emosiyanı, sevinci və kədəri qələmə almaq kimi bir niyyətdən yaranmışdır".

Kitab dörd fəsildən ibarətdir: birinci fəsli "Milli hərəkat, milli ideologiya və mətbuat" adlandıran Abid Tahirli imperiyanın süqutundan sonra Azərbaycanda təbii surətdə başlanan milli-azadlıq hərəkatına güzgü tutur, elə o zaman yaranan "Vətən" cəmiyyətinin orqanı "Odlar yurdu" qəzetinin tarixi fəaliyyətindən bəhs edir. Heç təsadüfi deyil ki, kitabda təkrarən nəşr olunan cəsarətli publisistik nümunələrin də xeyli hissəsi vaxtilə adını çəkdiyimiz qəzetdə işıq üzü görüb.

"Odlar yurdu" müstəqilliyimizin ilk qaranquşu olub. Burda

ilk dəfə sovet mətbuatı tarixində Mövsüm Əliyevin Məhəmməd Əmin Rəsulzadə haqqında oçerki çap edilib ("Odlar yurdu", N 17, sentyabr 1988-ci il). Görkəmli ictimai-siyasi xadim, yazıçı-publisist, mütəfəkkir kimi Rəsulzadənin həyat və fəaliyyəti oçerkdə geniş şərh olunub. M.Əliyevin məqaləsində oxuyuruq: "1918-ci il mayın 18-də bütün ölkənin radiostansiyaları və qəzetləri Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında bəşəriyyətə xəbər verdilər. Bu o demək idi ki, xalqımız öz siyasi, etnoqrafik sərhədləri daxilində azad və müstəqil yaşamaq hüququ əldə etmişdir". Kitab müəllifi faktlarla göstərir ki, qəzet sonralar da ənənəsinə sədaqətli çıxıb. "Bu barədə ilk dəfə" ümumi başlıq altında Azərbaycan Xalq Cümhuriyyətinin nazirləri, parlament üzvləri haqqında Əlimərdan bəy Topçubaşov, Ceyhun bəy Hacıbəyli, Nəsib bəy Yusifbəyli, Fətəlixan Xoyski, Həsənbəy Ağayev, Mustafa Vəkilov, Xudadat Məlikaslanov, Məmmədhəsən Hacınski, Xudadat bəy Rəfibəyov, Məmmədyusif Səfərov, Əhməd bəy Pepinov, Həmid bəy Şahtaxtinski, İsmayılxan Ziyadxanov, Rəşidxan Qaplanov və başqaları barədə irihəcmli materiallar verib.

Müəllif ikinci fəsli "Müsahibələr, mübahisələr" adlandırıb. "Fəaliyyətsizlik milli xəyanətdir" (Əbülfəz Elçibəylə müsahibə), "Biz hara gedirik?", "Əsrin yaşıdı ilə söhbət", "Böyük xəzinə", "Aləmə səs sal", "Vətən mənə oğul desə", "Həyatla təmasda" başlıqlı nümunələr son 12-13 ildə keçdiyimiz çətin dövrə işıq salır. "Tədqiqatlar və tədqiqatçılar" fəsli (III fəsil) adından göründüyü kimi, elmi araşdırma, şərh xarakterli materialların məcmuudur. Abid Tahirlinin xüsusən, Üzeyir bəyin qardaşı Ceyhun Hacıbəyli barədə axtarışları, tədqiqatları maraq doğurur.

Kitab müəllifi ömrünü mühacirətdə keçirən, daim vətən eşqilə alovlanan C.Hacıbəyliyə iki tədqiqat xarakterli məqalə həsr edib: "İslam mövzusu C.Hacıbəylinin ilk (mühacirətəqədərki) dövr yaradıcılığında" və "Sovet din siyasətinin tənqidi". Doğrudur ki, bu kitaba qədər də Abid Tahirli C.Hacıbəyli barədə döv-

rü mətbuatda müxtəlif səpkili materiallar yazıb. Ancaq kitabda gedən məqalələr elmi sanballılığı, fakt bolluğu, dolğunluğu ilə daha əhatəli görünür. Avropada yüksək səviyyədə təhsil görmüş, Azərbaycan mədəniyyətini ömrü boyu mühacirətdə təbliğ etmiş, Sovet imperiyasının ədalətsizliklərilə heç cür barışmamış Ceyhun bəy bütöv obraz kimi oxucunun gözünün qabağında canlanır.

"Sözlə yarananlar, sözü yaşadanlar" kitabını geniş təhlil etməyə imkanımız yoxdur. Ancaq onunla ilk tanışlıq göstərir ki, müəllif ədəbi sözü ram edə bilib, silahına çevirə bilib. Yəni son cümləsinədək sözünü özünəməxsus şəkildə deməyə çalışıb, istəyinə nail olub.

Ağacəfər HƏSƏNLİ.
"Mədəniyyət" qəzeti,
dekabr 2001

Ümid yeri
Humanitar
qəzet
№ 11 (15) 20 aprel 2005-ci il Qiymət 1000 manat

VƏTƏNDAŞ ÖMRÜ, MÜHACİR ÖMRÜ

Abid Tahirlinin 50 yaşına

Yaz ağzıydı, lap indiki kimi. Qəbələnin qışdan oyanış vaxtıydı. Erkən gələn baharın isti nəfəsi hər yerdə duyulurdu. Nohurqışlaqda elə bil daş da çiçəkləmişdi, yarpız, quşəppəyi, cincilim, kəkotu rənginə boyanmışdı. Düz-dünya növbəti yazını yaşamağa başlamışdı. "Abid, indi bildim, həftə səkkiz, mən doqquz, niyə kəndə üz tutursan. Həqiqətən əsl yaşamalı yerdi. Bu yaşıla bürünmüş düzəngah da, Qoşa qayanın arasından dil kimi uzanan çəhrayı duman da, narıncıya çalan qayalıq da, ətrafdakı təbii göllər də, məxmər çəmənliklər də, sıx bitmiş pöhrəlik də. Bizi isladan, torpağın köksünü tərpədən bu yağışın da ləzzəti özgədi". Bu sözləri ehmalca Abidin qulağına pıçıldadım və dədə-baba ocağına -- Nohurqışlaqdakı həyətlərində armud ağacının altına qısıldıq. Armud ağacı, mən və Abid Tahirli dərdləşdik, dünyanın bircə yaz gününü Nohurqışlaqda heç bir naz-nemətə dəyişmədik...

"Bu şabalıdı babam əkib, cevizi atam. Palıd yəqin öz-özünə bitib, heyva ağacları da eləcə, alça kolları o qədər sıxdı, maşallah, aralarından su keçmir. Çox təəssüf ki, insan hərisliklə yalnız ağac-uğacın meyvəsinə "aşiq"di, di gəl, meşənin pıçıltısını eşitmək istəyən yoxdu, cökənin ətriyyatını ciyərinə çəkən yoxdu, vələsin, cevizin nəğməsinə hayıl-mayıl olan yoxdu" -- de-

din Abid və həmin anda bir filosof təsiri bağışladın... "Həftədə bir dəfə çatdırmayanda, iki həftədən bir özümü Nohurqışlağa yetirirəm. Mən burdan təmizlik, saflıq götürürəm. Bir içim su mənim üçün tükənməz enerji mənbəyidir. Bir də axı uşaqlar dədə-baba yurdlarını görür, oda-ocağa bağlanırlar" -- sakit-sakit söylədiklərinə əlavə elədin.

Aradan 6-7 il ötüb, bəlkə də heç nə mənim sənin qulağına astaca pıçıldamağım, nə sənin o zaman heyran-heyran söylədiklərin yadından çıxıb. Ancaq yenə yazdı, şair demişkən, "bu yaz özgə yazdı", bu yaz həm də sənin ömür baharına 50 rəqəmi yazdı! Qorxursan, 50-dən? Qorxma, qardaş! Əllini ötmək xoşbəxtlikdi, keçən il bu bəxtəvərlik mənə nəsib oldu və mən ustufca çevrilib arxaya baxdım, gördüm, bu yuvarlaq rəqəm elə bütöv ömrün yaz müjdəçisidi! Bir də zor-xoş qapıya gələni qovmazlar ki, nə olsun, gəlişi azca gözlənilməzdir. Bineyi-qədimdən dünyanın gərdişi və vərdişi belədir, qardaş!

Ağır günün dostu olduq

XX əsr, doxsanıncı illərin başlanğıcı... Qarabağ uğrunda ölüm-dirim mücadiləsi, üstəgəl, can verən sovet faşizminin Bakıda törətdiyi "20 Yanvar" faciəsi... Deyirlər, dərd adamları birləşdirir, yaxınlaşdırır. Özü də özgə dərd yox, doğma dərd, doğma niskil.

İçimdə bir sarımtıl
çiçək kimi açdı dərd.
Gördüm ana döşündən
süd əmməyib, acdı dərd.

O ağır günlərdə tez-tez görüşdük, əlimiz qardaş harayına çatmayanda, ünümüz Qarabağ müharibəsinə yetməyəndə, bir-birimizə həyan durduq, millətin qəlbinin içindən tikan çıxaran mə-

qalələr yazdıq, çap etdirdik. Sən o zaman "Vətən" cəmiyyətində -- "Odlar yurdu" qəzeti redaksiyasında qələminlə külüng çalırdın! Çünki o zamankı senzorlu sovet mətbuatı cümlələrimizi kəsib-doğrayır, sətiraltı sözləri pozur, namusla-qeyrətlə qələmə alınan mətnlərin başına it oyunu açırdı. İki əlifbalı "Odlar yurdu" nisbətən sərbəst idi. Və o da yadımdadı ki, sən hərdən Avropa ölkələrinə "Vətən" cəmiyyətinin xəttilə səyahətə çıxırdın, yurddaşlarımızla ilk ünsiyyət tellərini qururdun, yad məmləkətlərə Azərbaycan həqiqətlərini çatdırırdın: daha bəziləri kimi "həm ziyarət, həm ticarət" deyib, pal-paltar, zər-ziba axtarmırdın, küçələrə düşmürdün, tacir dükanlarını ələk-vələk etmirdin...

Və bir gün Vaqif Bəhmənli ilə sən təklif etdiniz ki, gəlib mən də "Odlar yurdu" qəzetində çalışım (o zaman Vaqif qəzetin baş redaktoruydu). Eyni kollektivin üzvü olduq. Hər gün yazdıq-pozduq, qəzetin səviyyəsini qaldırdıq, xalqımızın böhranlı günlərinə acıdıq, milli dirçəlişin, oyanışın təravətindən zövq aldıq, cəbhədən gələn qara xəbərlər isə qəlbimizi qana döndərdi, kefimizə soğan doğradı.

Budur, Xocalı soyqırımı. Sənin kabinetində büzüşüb için-için ağladığını gördüm, mən də hönkürdüm. Bizim göz yaşımız "Vətən"in dörd divarına və döşəməyə hopdu, çünki Vətənin bir parçası tar-mar edilmiş, evlər bayquş ulayan xarabazara çevrilmiş, adamlar bütünlüklə qırılmışdı. Bu dərd bizi bir köynək də doğmalaşdırdı, axı həmin axşam göz yaşlarımız da birləşdi, eyniləşdi, bir-birinə qovuşan axar sular kimi.

Və sonra şair demişkən "qonşu olduq bu dünyada"

Görünür insanın iradəsindən asılı olmayan elə zəruri qanunauyğunluqlar var, mütləq baş verir. Bakının, Yeni Yasamal yaşayış sahəsində hər ikimiz eyni binada mənzil aldıq. Nə sənin bundan xəbərin oldu, nə mənim. Təsadüfən görüşdük və xəbər

tutduq. İkimiz də sevindik bu tale qismətinə.

Sən də altı saylı binaya tez köçənlərdən oldun, mən də. Övladlarımız bir-birini tanıdı. Heç geniş təmirə ehtiyac qalmadı. Çünki Bakıda evsizlik bizi bezikdirmişdi, kirəkeş yaşadığımız məhəllələrin sayı-hesabı yox idi. Xoşbəxtlikdən bəxtimiz gətirmişdi. Binamızda xeyli tanınmış ziyalı mənzil almışdı; görkəmli şair Famil Mehdi (mənzili oğluna verdi), publisist Məhəmməd Baharlı, şairlərdən Zəlimxan Yaqub, Məmməd Kazım, professor Nizaməddin Şəmsizadə, filologiya elmləri doktoru Zaman Əsgərli, mərhum iqtisadçı Cavanşir Hüseynov, tarixçi Mübariz Əmirov, tibb elmləri doktoru Şakir Musayev və s.

Atalar sözüdü: "Uzaq qohumdan yaxın qonşu yaxşıdır". Mən deyərdim, lap ən yaxın qohumun özündən də, həmişə, hər gün ünsiyyət saxladığın, könül bağladığın insan qiymətlidi.Sən bunu sonra əməllərinlə sübuta yetirdin, yaxşı od qonşusu oldun. Halal bir ocaqdan çıxdığını qabiliyyətinlə, səxavətinlə, mədəniyyətinlə təsdiqlədin. İndi hamı başına and içir. Həyətin "sakinlərindən eşidəndə "Abid qızıl oğlandı, yaxşı insandı", -- ürəyim dağa dönür.

Sən qonşuluq etdin, ancaq ömrünü yelə vermədin, Şələlə və Günay kimi gözəl-göyçək qızlar böyütdün, onların hər cür qayğısına qaldın. Sonbeşik Həmid Xanı ərköyünlüyə öyrətmədin. Bir ayağın işdə, bir ayağın kitabxanada, bir ayağın da müəllimlik etdiyin tədris ocağında oldu. Hərdən mənə gileylənirdin də: "Vaxt tapmaq müşkül məsələyə dönüb, bilmirəm, necə çatdırım. Hökumət işi, yazı-pozu, ailə-məişət qayğısı, digər adsız problemlər. Başımı qaşımağa vaxtım olmur".

Vallah, Abid, əzizim, indi hər kişinin hövsələsi çatmır kitabxanaya getsin, ya toz basmış arxiv eşələsin. "Əldən düşmüş" köhnə kitabları vərəqləsin, müxtəlif əlyazmalara "dirilik" versin, onları ziyalı qayğısıyla oxusun, tədqiqatçı sayğısıyla araşdırsın. Ömrünü həm məsul dövlət qulluğuna sərf eləsin, həm də tələbə auditoriyasında keçirsin. Mətbuat tariximizin kəşməkəş-

li, sanballı, möhtəşəm bir dövrünün mənzərəsini yaratsın, bu haqda məqalələr yazsın, kitab nəşr etdirsin.

Kitabların işıq üzü gördü

Dalbadal beş kitabın nəşr olundu. Elə bildin daha beş övladın dünyaya gəldi.

Filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədov əməyini "fədakarlıq", folklorşünas-alim Məhərrəm Qasımlı "elm aləminə müraciət, səyahət" adlandırdı. "Sözlə yarananlar, sözü yaradanlar" (Əbilov, Zeynalov və oğulları, Bakı 2001), "Azərbaycan mühacirəti" (Bakı-"Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi-2001), "Azərbaycan mühacirət mətbuatı" ("QAPP-poliqraf", Bakı-2002), "Deyilən söz yadigardır" (Bakı, "Azərbaycan" nəşriyyatı, 2003), "Azərbaycan mühacirət mətbuatı" (II hissə, Bakı, "Ozan", 2003). Sən sözlə ovundun, sözə tapındın, sözlə nəfəs dərdin və ilk kitabına yazdığın müqəddimədə yaratdığını böyük Allahın adına bağladın: "Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimin Əl-Bəqərə surəsinin (İnək) 117-ci ayəsində deyilir ki, göyləri və yeri icad edən, yoxdan yaradan Odur. Bir işin yaranmasını istədiyi zaman ona -- O işə yalnız: "Ol"- deyər, o da fövrən olar. Deməli, bəşər övladı da daxil olmaqla, onun gördükləri və görmədikləri, duyduqları və duymadıqları, dərk etdikləri və etmədikləri, toxunduqları və toxunmadıqları, eşitdikləri və eşitdirmədikləri nə varsa, hamısı "ol" sözü ilə yaranmışdır". Doğrudur, qardaş, qələm işi -- Tanrı işidi, insan yalnız müqəddəs icraçıdı!

Bu da Məhərrəm Qasımlının sənin kitablarının birində yazdığı "Mən eldən ayrılmazdım" ön sözündən parça: "Fakt və hadisəni məharətli mənalandırmaq, informasiyanın orijinal cizgilər, qeyri-adi maneralar, özünəməxsus publisist gedişlərlə təqdim etmək, yazılarının təsirli alınmasında və oxucu qəlbinə yol tapmasında sirli bir açarıydı. Sonralar o, mühacirəti təkcə jurnalist marağı səviyyəsində deyil, həm də sırf elmi əsaslarla öyrənməyə başladı. Azərbaycan mühacirətinin nəhəng simalarından olan Ceyhun Hacıbəylinin irsini araşdıraraq namizədlik dissertasiyası da müdafiə etdi". Bilirik ki, doktorluq işin də hazırdı, bu gün-sabahlıqdı, çap növbəsi gözləyən yeni əsərlərin də var.

Portretinə bir-iki "isti söz"

Hər doğulan insan Allaha bəndəlik eləmək istəmir. Əlli yaşın astanasına çatan Abid Tahirli həm də özünün əsl bəndəlik missiyasını şərəflə yerinə yetirir: xeyirxah insandı, hər kəsə kömək əlini uzadandı, məclis adamı, dərd adamıdı, sözü havadan tutmağı bacarandı. Ancaq mən nə qədər gəlişi gözəl kəlmələr Abidin ünvanına işlətsəm də, onun özünün elmdə, ədəbiyyatda ayrıca "mühacir ömrünü" fərqləndirsəm də, yenə şəxsiyyət kimi portretini tamamlaya bilmədim.

Ağacəfər HƏSƏNLİ
"Humanitar" qəzeti,
20 aprel 2005

XALQ QƏZETİ

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

AZƏRBAYCAN MÜHACİRƏTİNİN TƏŞKİLATLANMA PROSESİ DÖNMƏZ XARAKTER DAŞIYIR

Müsahibimiz Azərbaycan mühacirət probleminin, xüsusilə mühacirət mətbuatının ilk və sanballı araşdırıcılarından biri, filologiya elmləri namizədi Abid Tahirlidir.

– Abid müəllim, bir neçə cümlə ilə Azərbaycan mühacirətinin tarixi və bugünkü mənzərəsi barədə nə deyə bilərsiniz?

– Azərbaycan mühacirətinin tarixi ilə bağlı fikirlər müxtəlif və mübahisəlidir. Böyük qələm sahibi və istiqlal uğrunda alovlu mübariz Mirzə Bala Məmmədzadə mühacirət tariximizi XIX əsrin əvvəllərində Rusiya tərəfindən Azərbaycan xanlıqlarının işğalı ilə bağlayır.

Xalq yazıçısı Elçinin, dəyərli tədqiqatçılar Nəsib Nəsibzadə və Xaləddin İbrahimlinin də mühacirət tarixi və onun mərhələləri ilə bağlı maraqlı fikirləri var. Fikrimcə, mühacirət tarixi dövlətin yaranma tarixi ilə sıx əlaqədardır. Mühacirət — insanların tək-tək, yaxud qrup şəklində bir ölkənin sərhədini müxtəlif səbəblərdən aşaraq başqa bir ölkədə yerləşməsidirsə, o zaman bu mövzuda mübahisə etməyə dəyməz. Beləcə, Azərbaycan mühacirət tarixinin xanlıqların işğal dövründən çox-çox əvvəllərə getdiyini söyləmək olar. Azərbaycanın öz tarixini mükəmməl öyrənmədən Azərbaycan mühacirətinin tarixi ilə də bağlı konkret fikir söyləmək böyük məsuliyyətdir. O ki, qaldı

mühacirətin bugünkü mənzərəsinə, hesab edirəm ki, Azərbaycan mühacirəti bu gün təşkilatlanma dövründədir. Azərbaycan lobbisi, lobbilik hərəkatı barədə danışanlar yanılırlar və ictimai rəyi aldadırlar. Azərbaycan mühacirətinin sayı, yayıldığı coğrafi ərazi, sosial-siyasi tərkibi, maliyyə imkanları və yaşadıqları ölkələrdə tutduqları mövqeləri, həyat və düşüncə tərzi barədə dolğun məlumat toplamadan düzgün, real qənaətə gəlmək olmaz. Bu gün Türkiyə, Rusiya, Almaniya, ABŞ, Danimarka, İsçev, Kanada və bir sıra digər ölkələrdə Cənubi və Şimali Azərbaycandan çıxan yüz minlərlə, milyonlarla soydaşımız yaşayır. Onların böyük əksəriyyəti müstəqil Azərbaycanla əlaqə saxlayır, onun bayrağını uca tutur, onunla qürurlanır və imkanları daxilində bu dövlətin mənafeyini müdafiə edirlər. Lakin müxtəlif siyasi baxışlar və maliyyə problemi Azərbaycan naminə daha irimiqyaslı, ardıcıl, coşqun fəaliyyət göstərməyə maneçilik törədir. Xaricdəki mədəniyyət mərkəzləri yalnız müxtəlif tədbirlər zamanı fəallaşırlar. Fasiləsiz, proqramlı fəaliyyətdən bəhs etmək hələlik bir xoş arzudur.

Mühacirətin ayrı-ayrı mətbu orqanları ara-sıra işıq üzü görsə də, KİV şəbəkəsi, fasiləsiz işləyən təbliğat maşını yoxdur. Həmvətənləri birləşdirən güclü, qısa bir zamanda onları səfərbər edəcək təşkilatlar, mərkəzlər olduqca azdır.

Lakin qeyd etdim ki, təşkilatlanma prosesi gedir və o qarşısalınmaz xarakter daşıyır. Azərbaycan mühacirlərinin son 10-15 ildəki ən fəal dövrü 80-ci illərin sonu, 90-cı illərin əvvəllərinə təsadüf edir. Bildiyiniz kimi, tarixdə həmin dövr xalqımızın milli-azadlıq hərəkatı və Rusiya və Ermənistanın fitva verdikləri, şirniləşdirdikləri Dağlıq Qarabağ ermənilərinin xəyanəti və Azərbaycana qarşı növbəti dəfə torpaq iddiası və təcavüzü ilə yadda qalmışdır. Həmin dövrdə mühacirlər Azərbaycanda, xüsusilə Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələri narahatlıqla izləyir və proseslərə münasibətlərini bildirirdilər: mitinqlər keçirir, yerli mətbu orqanlarda məqalələrlə çıxış edir-

dilər. Bax, hətta həmin dövrlə müqayisədə bugünkü mühacirət daha fəal, daha həssas və daha hazırlıqlıdır.

– Siz Azərbaycan mühacirət mətbuatı ilə bağlı iki kitab yazmısınız. Mühacirət mətbuatı barədə qısaca nə deyə bilərsiniz?

– Mühacirət mətbuatının tarixi mövzusunda yazan bütün müəlliflər Mirzə Bala Məmmədzadənin söylədiyi bu fikri qeydşərtsiz qəbul edirlər ki, mühacirət mətbuatının tarixi, 1923-cü ildən İstanbulda nəşr edilən "Yeni Qafqasya" ilə başlayır. Fikrimcə, mühacirət mətbuatının tarixi, 1920-ci ildə qardaşı ilə sərhədi aşaraq Təbrizdə məskunlaşan Cəlil Məmmədquluzadənin nəşrini orada davam etdirdiyi "Molla Nəsrəddin"lə başlayır.

Azərbaycan mühacirət mətbuatı sovet rejimi və ideologiyasına qarşı fədakar mübarizə aparmışdır. "Yeni Qafqasya"dan sonrakı İstanbul nəşrləri "Azəri-türk", "Odlu yurd", "Bildiriş", daha sonra "Azərbaycan" (Paris), "İstiqlal", "Qurtuluş" (Berlin), "Azərbaycan" (Münhen), "Mücahid" (Ankara) və digər nəşrlər Azərbaycanın istiqlalı uğrunda tarixi-ideoloji mübarizə aparmışlar. Ötən əsrin 80-ci illərinin ikinci yarısından sonra fəaliyyətə başlayan "Ana dili" (Bonn), "Aydınlıq" (London), "Azər" (Berlin) kimi qəzet və jurnallar, ABŞ və Rusiyada nəşr edilən digər mətbu orqanlar mühacirət mətbuatı tarixində müəyyən iz salmışlar.

– Bu gün mühacirət mətbuatının və ümumiyyətlə, irsinin tədqiqi sizi qane edirmi?

– Yox, Ən əvvəl ona görə ki, bu iş plansız, proqramsız, şəxsi təşəbbüslər, bəzən isə həvəskarlar səviyyəsində həyata keçirilir. Halbuki, sahənin tədqiqi son dərəcə məsuliyyətli və ciddi işdir və bu, ardıcıl, əhatəli yerinə yetirilməlidir. Mühacirət irsi bütövlükdə Azərbaycan tarixinin, mədəniyyətinin ayrılmaz bir parçasıdır. Fikrimizcə, onun toplanılmasına, tədqiqinə, təbliğinə, tədrisinə ən yüksək səviyyədə qayğı və diqqət göstərilməlidir.

– Həmkarlarımızdan biri Asif Rüstəmli ilə bu mövzuda söhbət edərkən, o sizin mühacirətlə bağlı kitablarınızın mükafata layiq olduğunu və bu barədə məsələ qaldırmağın vacibliyini vurğuladı...

– Dostum Asif Rüstəmliyə diqqəti üçün minnətdarlığımı bildirirəm. Lakin sözün düzü, bu məsələ barədə heç vaxt — nə əlimə qələm alanda, nə də məqalə, yaxud kitab hazır olanda düşünmüşəm. Çünki mən mükafat üçün yazmıram. Mən, 20 ildən çox təmasda olduğum xaricdəki həmvətənlərimizin yaratdığı zəngin, mədəni, mənəvi, ideoloji irsin tədqiqi və təbliğini özüm üçün vətəndaşlıq borcu bilirəm.

– Siz "20 il" ifadəsini işlətdiniz. Bu, sovet dövrünə, 80-ci illərin əvvəllərinə təsadüf edir. O vaxt isə...

– Bəli, düz eşitmisiniz. 1982-ci ildən mən Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin həmvətənlər üçün nəzərdə tutulan "Vətənin səsi" qəzetində çalışmağa başladım. Sonra — 1988-ci ildə qəzet "Vətən" Cəmiyyətinə verildi və "Odlar yurdu" adı ilə nəşrini davam etdirdi.

1992-ci ildən həmin qəzetdə redaktor müavini kimi fəaliyyət göstərdim. Bütün bu illər ərzində mühacirət irsi ilə bağlı dünyanın müxtəlif ölkələrindən minlərlə sənəd, o cümlədən mətbu orqanlar toplamışam. Bax, belə bir zəngin irslə işləmək, onları araşdırmaq elə bilirəm ki, böyük mənəvi qida və mükafatdır.

– Müsahibə üçün çox sağ olun.

Müsahibəni apardı:
Qüdrət Piriyev
"Xalq qəzeti"
14 oktyabr 2003

AZADLIQ
GÜNDƏLİK QƏZET WWW.AZADLIQ.AZ azadliq@azdata.net
№136 (2779) CÜMƏ, 17 İYUN 2005 Qiyməti 1000 manat

SÖZÜ YAŞADANLAR

Söz sarıdan heç vaxt korluq çəkməmişəm. Nə yazanda, nə də danışanda. Ancaq heç vaxt düşünməmişəm ki, mən də sözü yaşadanlardan biriyəm.

2000-ci ildə — 20 ildən sonra — jurnalistika fakültəsinin tələbələrilə (3792-37-94-cü qruplar) görüşməliydik. İş elə gətirdi ki, gözümüz yolda, qulağımız səsdə qaldı. Mətbuata çıxarılası olmayan bir çox səbəblərdən görüş baş tutmadı.

Bu yaxınlarda tələbə yoldaşlarımızdan biri bizi 45 yaşının bayramına çağırdı. Bəlli oldu ki, bu yubiley bizi bir yerə yığmaq üçün bəhanəymiş. Abid bizim üçün əvəzsiz hədiyyə — son vaxtlar çapdan çıxmış iki kitabını hazırlamışdı. O axşam çox xatirələr dilə gəldi, çox sirlər açıldı. Abid bizə kitablarını bağışlayanda qonaqların sayı ikiqat çox olduğundan, bəzilərinə (eləcə də mənə) bir kitab çatdı. Filologiya elmləri namizədi, jurnalist Abid Tahirlinin "Sözlə yarananlar, sözü yaşadanlar" kitabı.

Öncə kitabı varaqladım, sonra oxudum, düşündüm... bu sətirləri yazmağa başladım. Bunlar nə kitabla bağlı rəydi, nə Abidə tərif. Sadəcə olaraq, tələbə yoldaşımın yazılarına mənim münasibətimdi.

Kitab "1988-ci il: Meydana, azadlığa doğru" yazısıyla başlayır, sonacan bu ovqatda davam edir. Baş verən olaylara hazır olmayan xalqın keçirdiyi iztirablar, rast gəldiyi eybəcərliklər, köməksizliyi, gücsüzlüyü nə yamanmış... Bu yazılar mətbuat işçi-

sinin, qələm yiyəsinin milli azadlıq hərəkatında rolu, ona verdiyi dəyərdir. A.Tahirlinin bu hərəkatda rolu "Odlar yurdu" qəzetindən başlanır. Bir zamanlar bizim sevə-sevə oxuduğumuz, əl-əl gəzən bir qəzet vardı ki, adını ləyaqətlə doğruldur, yurduna sədaqətlə xidmət edirdi. Nə yaxşı ki, Abidin jurnalistlik yolu "Odlar yurdu"ndan başlanıb. Hansısa şərəşür qəzetdən yox. O, burada gördüyünü götürüb, "Vətən" Cəmiyyətindən, "Odlar yurdu"ndan VƏTƏN sözünün özünü dəyərləndirməyi öyrənib.

Mühacirət ədəbiyyatını, yer üzünə səpələnən azərbaycanlıları yurddaşlarına tanıtmaq, ellərdən-ellərə körpü salmaq xeyirxah işdi. Mənim tələbə yoldaşım o xeyirxahların, Azərbaycan gerçəklərini dünyaya yayanların sırasında olub.

1988-ci il olayları, 20 yanvar qırğınları, Qarabağ savaşı, suverenlik uğrunda çarpışma-yazıların ana xətti bunlardı. O yazıların çoxu od-alova tuşlanan Qarabağın qara günlərindən, hökumətdən kömək uman insanlardan danışır. O yerləri qarış-qarış gəzən müəllifin yazılarında Mərzili və Novruzlunun, Turşsu və Şuşanın, Kərkicahan və Qaybalının son nəfəsi yaşayır.

Əbülfəz Elçibəy, Süleyman Rəhimov, Həmid Araslı, Bəxtiyar Vahabzadə, Şirməmməd Hüseynnov, Əzizə Cəfərzadə, Sabir Rüstəmxanlının müsahibi olmaqsa hər bir jurnalistə sevinc gətirər.

"Son ucu ölümlü dünya" bir oxucu kimi mənim görmək və oxumaq istədiyim son fəsildi kitabda. "Bu bahar sənsiz gələcək", "Sənlə" adlı yazılarla Abid ata-anasına az da olsa, borcunu ödəyib. O, vətəndaşlıq borcunu da qismən verib, atalıq borcunu da. Və hələ çox borcları qalıb.

Jurnalistika maraqlı və gərəkli sahədir. Bunu son illər bu sahəyə kütləvi axın da sübut edir. Ancaq gördüklərimizin çoxu nə sözü yaradandı, nə də yaşadan. Abidin kitabını onlar oxumasalar da olar, təki başqaları oxusun.

